ÇİNGİZ MƏMMƏDOV

BEYNƏLXALQ MÜNASİBƏTLƏR TARİXİ

BEŞ CİLDDƏ

I cild

VESTFAL SİSTEMİ
1648 – 1815-ci illər

MÜHAZİRƏLƏR KURSU

Azərbaycan Respublikası Elm və Təhsil nazirinin
“14” noyabr 2024-cü il tarixli 3-29|3-2-734F|2024
saylı əmri ilə dərslik kimi təsdiq edilərək,
nəşr hüququ (qrif) verilmişdir

Bakı – 2025

Elmi redaktor: **Fuad Teyyub oğlu Məmmədov**
Tarix elmləri doktoru, professor

Rəyçilər: **Həvva İsa qızı Məmmədova**
Tarix elmləri doktoru, professor

Sahibə İbrahim qızı Budaqova
Tarix üzrə fəlsəfə doktoru, dosent

Nəsrin Mehman qızı Süleymanova
Siyasi elmlər üzrə fəlsəfə doktoru

Eldar Arif oğlu Cəfərov
Siyasi elmlər üzrə fəlsəfə doktoru, müəllim

Məmmədov Çingiz İsaq oğlu. Beynəlxalq münasibətlər tarixi. Beş cilddə. Birinci cild: Vestfal sistemi. (1648- 1815-ci illər). Mühazirələr kursu. Ali məktəb müəllimləri və tələbələri üçün dərslik. Bakı: " OPTİMİST "MMC- 2025, 408 səh.

Dərslik Vestfal sisteminin təşəkkülündən Napoleon müharibələrinin sonuna qədər beynəlxalq münasibətlər tarixinin əsas hadisə və problemlərini əhatə edir. Vəsaitdə bu dövrdə beynəlxalq münasibətlərin əsas istiqamətləri, prinsipləri və anənələri, beynəlxalq konqreslərin, konfransların və müqavilələrin rolu və əhəmiyyəti səciyyələndirilir. Beynəlxalq münasibətlərin tarixi geniş tarixi kontekstdə yazılmışdır, ona müxtəlif ictimai inkişafın amillərinin - ideoloji, iqtisadi, daxili siyasi və s. təsiri haqqında geniş şərhlər verilir. Beynəlxalq münasibətlərin inkişafına tarixi yanaşma politoloji təhlilinin elementləri ilə genişləndirilir. Beynəlxalq münasibətlər tarixinin dövrləşdirilməsi beynəlxalq münasibətlərin müxtəlif sistem və alt sistemlərinin - Avropa və periferik sistemlərin formalaşması, təkamülü və dəyişdirilməsinə əsaslanır. Onların ümumən beynəlxalq nizama xas olan ümumi xüsusiyyətləri, eləcə də yerli və tarixi xüsusiyyətləri aydınlaşdırılır. Dərslik ali məktəb müəllimləri və tələbələri üçün nəzərdə tutulmuşdur.

ISBN 9 7 8 - 9 9 5 2 - 5 6 1 - 8 9 – 0

"© OPTİMİST "MMC- 2025

MÜNDƏRİCAT

ÖN SÖZ.....11
GİRİŞ: Avropada milli dövlətlər sisteminin təşəkkülü 12

BİRİNCİ FƏSİL
YENİ DÖVRÜN ƏRƏFƏSİNDƏ VƏ QOVŞAĞINDA DÖVLƏTLƏRARASI MÜNASİBƏTLƏR: ƏSAS QANUNAUYĞUNLUQLAR VƏ SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏR

I BÖLMƏ
Son orta əsrlər və Yeni dövrün ərəfəsində diplomatiya

§1. Son orta əsrlər diplomatiyası və Yeni dövrün formalaşması.....18
1.XVI əsrdə Avropanın siyasi xəritəsi 18
2.Dövlət və ticarət marağı 19
3.Böyük coğrafi kəşflər 20
4.Dünya ticarətinin yüksəlişi.....21
§2. XVI-XVIII əsrlərdə diplomatiyanın ümumi xüsusiyyətləri və diplomatik orqanlar 23
1."Dövlət marağı" siyasətin prinsipi kimi.....24
2.XVI-XVIII əsrlərdə xarici siyasət və diplomatik orqanlar. Diplomatik xidmət.....25
3.Beynəlxalq hüquq elminin yaranması 29
4.XVI-XVIII əsr diplomatlarının məişəti və mənəvi həyatı. Diplomatların xarakterik tipləri 31
5.XVI-XVIII əsrlərin diplomatiya tarixinin dövrləşdirilməsi və Avropa dövlətlərinin xarici siyasətinin və diplomatiyasının əsas istiqamətləri.....35

II BÖLMƏ
XVI əsrdə dövlətlərarası münasibətlər və diplomatiya
1. Avropada ispan əzəməti dövrü. İspaniya V Karlın və II Filippin hakimiyyəti dövründə.....37
2.XVI əsrdə Fransa diplomatiyası.....43
3.XVI əsrdə İngiltərə diplomatiyası 46
4. XVI əsrdə Moskva dövlətinin diplomatiyası 49

İKİNCİ FƏSİL
XVII ƏSRDƏ BEYNƏLXALQ VƏZİYYƏT

I BÖLMƏ
Beynəlxalq münasibətlərin Vestfal sisteminin yaranması

§1. XVII əsrdə Avropada Fransa hegemonluğu dövrü.....57
1.IV Henrixin diplomatiyası.....58
2.Kardinal Rişelyenin diplomatiyası.....61
3.Otuzillik müharibə.....65
4.Vestfal sülhü və beynəlxalq nizamın yaranması.....75
5. XIV Lüdovikin diplomatiyası.....83
6. Sülalə müharibələri.....85
§2. Qərb ölkələrinin müstəmləkə siyasəti və dünya liderliyi uğrunda mübarizəsi.....96
1. Ticarət və müstəmləkə inhisarının sonu.....96
2.Çinin xarici aləm üçün "bağlanması".....98
3.Dünyanın müstəmləkəçi dövlətlər tərəfindən bölüşdürülməsi.....100
4.Dəniz müharibələri.....102

II BÖLMƏ
Beynəlxalq münasibətlərin yeni dövründə burjua inqilabları

§1.Niderland burjua inqilabı (80 illik müharibə) və beynəlxalq vəziyyət (1568 -1648) 105
1.Niderlandın siyasi quruluşu və iqtisadi inkişafı.....105
2.Niderlandda Reformasiya.....107
3. Azadlıq hərəkatının başlanması.....108
4. Hersoq Albanın irticası.....110
5. Azadlıq hərəkatının II mərhələsi.....111
6.Azadlıq hərəkatının üçüncü mərhələsi. Şimali Niderlandın müstəqillik uğrunda müharibəsi.....112
§2. İngiltərə Burjua inqilabı və diplomatik münasibətlər (1640-1689).....114
1.İngiltərə Burjua inqilabı.....114
2.Burjua inqilabı dövründə İngiltərənin diplomatiyası.....119
3.Şanlı inqilab.....130

III BÖLMƏ

XVII əsrdə Şərqi Avropa dövlətlərində beynəlxalq vəziyyəti

§1. Şərqi Avropa "çoxbucaqlığı" 131
1.Slavyanların qədim mübahisələri 131
2.Baltik regionu uğrunda mübarizə 133
3."Əbədi sülh" 134
§2. XVII əsrdə Moskva dövlətinin beynəlxalq vəziyyəti 134
1.XVII əsrin əvvəllərində Moskva dövlətinin beynəlxalq mövqeyi və diplomatiyası 134
2.XVII əsrdə Moskva dövlətinin xarici siyasətinin əsas istiqamətləri 136
3.Moskva dövlətinin diplomatik idarələri 140
4.XVII əsrin rus diplomatları 142
5."Səfirlik mərasimi" 144
6.XVII əsrdə Moskva dövlətinin diplomatiyasında yeni təmayüllər 156

ÜÇÜNCÜ FƏSİL
XVIII ƏSRDƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR

I BÖLMƏ

XVIII əsrdə Avropa dövlətlərinin diplomatiyası

§1. İspaniya varisliyi uğrunda müharibə vı Fransanın beynəlxalq nüfuzunun azalmasının başlaması 161
1.İspaniya mirası uğrunda müharibə ərəfəsində siyasi şərait 161
2.Karlovitsa sülhü 162
3.İspaniya varisliyinə iddiaçılar 163
4. İspaniya varisliyi uğrunda müharibənin başlanması 166
5.Utrext və Rastad müqavilələri 170
6.Vyana və Hannover ittifaqları 171
7.XV Lüdovik dövründə Fransa diplomatiyası 172
8.Polşa varisliyi uğrunda müharibə 173
9. Kral XV Lüdovikin “sirri" 175
§2. İngiltərə XVIII əsrdə 176
1.XVIII əsrdə İngiltərənin xarici siyasəti 176
2.Böyük Pitt- Lord Çatam 177
3.Hindistanda ingilis siyasəti 177
§3.Almaniya XVIII əsrdə 178
1.XVIII əsrdə Almaniya knyazlıqlarının siyasi vəziyyəti 178

2.Avstriya- Prussiya rəqabəti 179
3.Avstriya mirası uğrunda müharibə. II Fridrixin diplomatiyası 180
§4.“Diplomatik inqilab” və Yeddiillik müharibə 182
1. Beynəlxalq münasibətlərdə ziddiyyətlər kompleksi 182
2."Diplomatik inqilab" 184
3.Avropada Yeddiillik müharibə.....185
4.Müstəmləkələrdə müharibə.....189
5. Beynəlxalq sistemdə güc tarazlığının pozulması 190

II BÖLMƏ
XVIII əsrdə Rusiya İmperiyasının diplomatiyası

§1. I Pyotrun dövründə Rusiya diplomatiyası.....192
1.I Pyotrun xarici siyasəti.....192
2.Böyük Şimal müharibəsi.....193
3.Poltava savaşı.....194
4.Nistadt sülhü.....197
5. I Pyotr dövründə diplomatik idarələr və diplomatik iş metodları.....199
6. I Pyotr diplomat kimi 204
§2. I Pyotrun varisləri dövründə Rusiya imperiyasının diplomatiyası 206
1. Şlezviq-Holşteyn məsələsi 206
2. 1726-1762-ci illərdə Rusiyanın xarici siyasəti.....207
3. 1726 - 1762-ci illərdə Rusiya diplomatiyası Qərbi Avropa diplomatiyasına qarşı mübarizədə 209
§3. II Yekaterina dövründə Rusiyanın xarici siyasəti.....213
1. II Yekaterinanın diplomatiyası.....213
2. Polşanın bölüşdürülməsi 223
3.II Yekaterinanın diplomatik metodları.....227
4.Rusiyanın diplomatik qurumları (1726 – 1796-cı illlər) 229

III BÖLMƏ
ABŞ-ın yaranması və beynəlxalq münasibətlər (1775—1794-ci illər)

§1. Şimali Amerika müstəmləkələrinin müstəqillik uğrunda mübarizəsi 231
1.Şimali Amerikanın avropalılar tərəfindən məskunlaşması 231
2.Yeddiillik müharibənin gözlənilməyən nəticələri.....234
3.Gənc Amerika dövlətinin yaranması.....236
§2. XVIII əsrdə Gənc Amerika Respublikasının diplomatiyası.....241

1.Məxfi yazışmalar komitəsi (1775 - 1777) 241
2.Saylas Dinin missiyası 242
3.Bencamin Franklin diplomat kimi.....243
4. Amerika müstəmləkələrinə Fransa hökumətinin yardımı 245
5.Fransa ilə Birləşmiş Ştatlar arasında ittifaq və ticarət müqaviləsinin bağlanması (6 fevral 1778) 247
6.Fransa və İspaniyanın İngiltərəyə qarşı müharibəyə girməsi(1778-1779)....249
7. Silahlı bitərəflik (1780) 250
8.Sülh danışıqları.....251
§3. ABŞ-ın azadlıq uğrunda müharibəsindən sonra Fransa və İngiltərə ilə münasibətləri 254
1. Birləşmiş ştatların Fransa inqilabı dövründə Fransa ilə münasibətləri 254
2.Müstəqillik müharibəsindən sonra İngiltərə və Birləşmiş Ştatların qarşılıqlı münasibətləri 256

DÖRDÜNCÜ FƏSİL
BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ SARSINTILAR VƏ DƏYİŞİKLİKLƏR DÖVRÜ (XVIII ƏSRİN SONU – XIX ƏSRİN ƏVVƏLLƏRİ)

I BÖLMƏ
Fransa Burjua inqilabı və beynəlxalq münasibətlər (1789-1792-cü illər)

§1.Fransa monarxiyasının diplomatiyası və burjuaziya inqilab ərəfəsində.....258
1.XVI-XVIII əsrlərdə mütləq monarxiyaların diplomatiyası və burjuaziya 259
2.1789-cu il üçün Fransız mütləqiyyətinin diplomatiyasının böhranı.....260
3.XVIII əsrin mütləq monarxiyalarının diplomatiyasının burjuaziya ideoloqları tərəfindən tənqidi.....262
4.Böyük Fransa inqilabı ərəfəsində siyasi vəziyyət 264
§2. Böyük Fransa inqilabı və Avropa diplomatiyası.....266
1.Böyük Fransa inqilabı 266
2.Fransa diplomatiyası Milli Müəssislər məclisi dövründə 268
3. 1789 - 1792-ci illərdə Avropa diplomatiyası 272
4. Reyxenbax müqavilələri (27 iyul 1790-cı il) 274
5. 1791-ci il Şərq böhranı. Uilyam Pitt və II Yekaterina 277
6. Kral XVI Lüdovikin ölkədən uğursuz qaçma cəhdi və əksinqilabi koalisiyanın yaradılması 279
7. Fransaya müdaxilə etmək üçün Avropa konqresinin çağırılması

ideyası (1791) 280
8.Qanunvericilik məclisi dövründə Fransa diplomatiyası (1791-ci ilin payızından 1792-ci ilin 10 avqustuna kimi) 282

II BÖLMƏ
Fransa Respublikasının diplomatiyası və beynəlxalq münasibətlər

§1.Milli Konvent dövründə Fransa diplomatiyası və Avropa dövlətləri.....287
1. Milli Konvent dövründə jirondistlərin diplomatiyası (1792-ci ilin sentyabr--1793-cü ilin aprel) 287
2. Uilyam Pitt (kiçik) və əksinqilabi koalisiyanın genişlənməsi.....290
3. Fransanın məğlubiyyəti və Dantonun diplomatiyası.....291
4. Fransa inqilabı dövründə yeni təqvim.....293
§2.Yakobin diktaturasının diplomatiyası.....294
1.Dantonçular və Yakobinlər diktaturası dövründə diplomatiya 294
2.Fransada koalisiyanın casus və təxribatçı agentləri 296
3.Ebertistlər, Kloots və diplomatiya.....297
4.Robesyer və İctimai Təhlükəsizlik Komitəsinin diplomatiyası (1793-cü ilin payızından- 9 termidora (27 iyul 1794-cü il) qədər) 298
5. Yakobinlər dövründə diplomatik idarənin yenidən qurulması.....302

III BÖLMƏ
Termidor irticası və Direktoriya illərində Fransanın diplomatiyası (1794 – 1799)

§1. Termidor irticası illərində diplomatiya (1794-1795) 304
1.Avropada Fransanın hərbi üstünlüyü və Termidor irticasının diplomatiyası 304
2.1795-ci ildə Polşanın son bölünməsi və koalisiyanın dağılması.....306
3. 1795-ci il İngiltərə-Rusiya-Avstriya ittifaqı.....307
§2.Direktoriya illərində diplomatiya (1795 — 1799)..... 308
1.Fransa Direktoriya illərində 308
2.Direktoriyanın xarici siyasəti 313
3.Xarici İşlər Nazirliyinin bərpası. Generalların diplomatiyası 314
4.İtaliya yürüşü.....315
5.Misir ekspedisiyası.....317
6.Taleyran və Bonapart 318

7.İkinci koalisiya 319

BEŞİNCİ FƏSİL
NAPOLEON MÜHARİBƏLƏRİ DÖVRÜNDƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR (1799 — 1814). VYANA KONQRESİ

I BÖLMƏ
Napoleon Bonapartın hakimiyyəti dövründə Fransanın xarici siyasəti və Avropada diplomatik münasibətlər

§1.Napoleonun diplomatiyası və beynəlxalq münasibətlər (1799--1807) ..323
1.Avropada hökmranlıq uğrunda mübarizə.....323
2.Amyen sülhü 326
3.Fransaya qarşı Üçüncü koalisiya.....328
4.Prussiyanın mövqeyi 330
5.Dördüncü koalisiya. Prussiyanın məğlubiyyəti (14 oktyabr 1806) 334
6.Kontinental blokadanın elan edilməsi (21 noyabr 1806-cı il) 336
§2. Tilzit sülhü və beynəlxalq münasibətlər.....337
1.Prussiyanın Britaniya və Rusiya ilə münasibətləri.....337
2.Aleksandrla Napoleonun münasibətlərində yaxınlaşma 338
3.Tilzitdə görüş (27 iyun 1807) 339
4.Pireneydə müharibə.....340
5.Erfurtda görüş (27 sentyabr — 14 oktyabr 1807-ci il) 342
6.Beşinci koalisiya 343
§3. Napoleonun "ailə" və "kontinental" sistemləri.....345
1."Qardaş" monarxiyalar.....345
2.Protektoratlar.....346
3.Müttəfiqlər.....347
4."Böyük İmperiya".....347
§4.Anti-Fransa koalisiyasının məqsədləri.....349
1.Hücumdan müdafiəyə 349
2.Müdafiədən qurtuluş uğrunda mübarizəyə.....350
3.Avropa dövlətlərinin xüsusi maraqları.....350

II BÖLMƏ
Napoleon müharibələrində hərbi –siyasi qüvvələrin yeni düzəni və beynəlxalq vəziyyət

§1.Napoleon imperiyasının süqutuna doğru.....353

1.Fransa- Rusiya diplomatik münasibətlərində böhranın yaranması 353
2.Rusiya- İsveç ittifaqı 355
3.Buxarest sülhü.....357
4.1812-ci il Britaniya- Amerika müharibəsi 357
5.Fransanın Rusiyaya hücumu. 1812-ci il Vətən müharibəsi.....358
6.1813-1814-cü illər müharibəsi zamanı diplomatik qüvvələrin
Nizamlanması.....360
§2.Avropada Napoleon hökmranlığının sona çatması.....361
1.Altıncı koalisiya 361
2. Napoleon ilə sövdələşmə cəhdləri.....363
3. Şomon traktatı 364
5. Hakimiyyətdən imtina.....365
§3.Yüz günlük hakimiyyət.....366
1.Napoleon idarəçiliyinin Elba adası dövrü 366
2.Napoleonun yenidən hakimiyyətə dönüşü 367
3.Yüz gün ərzində Napoleonun siyasəti.....369
4. Paris sülhü və yüz günlük hakimiyyətin sona çatması.....371

III BÖLMƏ

Vyana konqresi və Vyana sisteminin yaranması

§1. Vyana konqresinin çağırılması 373
1.1814-cü il Paris sülhü.....373
2.Konqresə hazırlıq 374
3.Konqresin fəaliyyətinin həyata keçirilmə üsulları 375
§2. Legitimizm prinsipi.....376
1.Problemlərin müxtəlifliyi.....376
2.Dövlətlərin ümumi yanaşmaları.....377
§3.Vyana konqresinin qərarları.....380
1.Uğursuzluqlar astanasında.....380
2.Dövlətlərin sərhədləri.....382
3.Avropanın cənubunda geosiyasi vəziyyət.....383
4.Alman İttifaqı.....384
5.Yekun aktı 385
6.Rütbələr haqqında müddəalar.....386
7.Əvvəldən nəzərə alınmayan məsələlər.....387
§4."Avropa konserti".....388
NƏTİCƏ.....390
ƏDƏBİYYAT SİYAHISI 398

ÖN SÖZ

Bu dərslik müasir dövrdə beynəlxalq münasibətlər tarixinin hadisələrini və problemlərini tamamilə işıqlandırmaq, ayrı-ayrı dövlətlərin xarici siyasətini sistemli şəkildə işıqlandırmaq məqsədi daşımır. Burada XVI əsrdən başlayaraq XIX əsrin əvvəllərinə qədər beynəlxalq münasibətlər tarixində baş verən hadisələr və meyllər ən dolğun və ardıcıl şəkildə təsvir edilibdir. Eyni zamanda, tarixin əvvəlki dövrlərində beynəlxalq münasibətlərin inkişafında formalaşmış bir sıra ənənə və qanunauyğunluqların şərhi də verilir.

Dərslikdə əsas məqsəd beynəlxalq münasibətləri, ictimai həyatın digər tərəfləri ilə sıx bağlılığı olan və eyni zamanda tamamilə muxtar, öz qanunlarına uyğun olaraq, öz əsaslarına istinad edən xüsusi siyasi reallıq kimi təqdim etməkdən ibarətdir. Burada, yeni dövrün beynəlxalq münasibətləri əsasən dövlətlərarası münasibətlər kimi şərh olunur. Belə ki dünya tarixinin bu dövrü Avropanın və dünyanın digər hissələrinin düzənini tam şəkildə müəyyən edən suveren dövlətlərin yaranması və inkişafı ilə səciyyələnirdi. Çünki, dövlətlərarası münasibətlər müxtəlif sosial amillərin - ideoloji, iqtisadi, daxili siyasi və s. təsirinə məruz qalırdı. Onlar sivilizasiyanın inkişafı və mürəkkəbləşməsi nəticəsində inkişaf edib yeni keyfiyyətlər qazanırdılar. Xüsusilə də, bu zaman, dünya ticarətinin yüksəlişi ilə, nəqliyyat və kommunikasiya vasitələrinin inkişafı, dövlət maraqları, təbii sərhədlər, milli suverenlik, millətlərin hüquqları anlayışlarının formalaşması və yayılması prosesləri baş verirdi.

Yeni dövrdə beynəlxalq münasibətlərin təkamülünün təqdimatına tarixi yanaşma siyasi təhlil elementləri ilə tamamlanır. Dərslik beynəlxalq münasibətlərin inkişafı təkcə hadisələrin və təmayüllərin ardıcıl bağlılığı kimi deyil, həm də bir keyfiyyət vəziyyətindən digərinə keçid kimi təqdim olunur. XVI-XIX əsrlərdə bir-birini əvəz edən beynəlxalq münasibətlərin müxtəlif sistemləri Napoleon müharibələrinin sonuna qədər təhlil edilir. Bu, təkcə bu və ya digər dövlətin xarici siyasət kursuna ("Napoleonun ailə sistemi" və s.) aid deyil, dövlətlərarası münasibətlərin özünün geniş beynəlxalq, ilk növbədə Avropa miqyasında (Vestfal sisteminə) müəyyən sabit vəziyyətinə aiddir.

Dərslikdə bu sistemlərin əsas xüsusiyyətləri, o cümlədən əsas sosial dəyərlər, hüquqi və siyasi prinsiplər (milli suverenlik, legitimlik, milli maraq və s.) araşdırılır. Beynəlxalq münasibətlər sistemlərinin, daxili quruluşuna görə nisbətən sadədən daha mürəkkəbə qədər, özləri arasında olan fərqlər və təkamüllər də göstərilir.

GİRİŞ: AVROPADA MİLLİ DÖVLƏTLƏR SİSTEMİNİN TƏŞƏKKÜLÜ

Müasir tarix elmində orta əsrlərdən yeni dövrə keçid daha çox XV-XVI əsrlərin qovşağının olduğu qeyd edilir. Həmin dövrdən Avropada milli dövlətlərin (nation-state) yeni - modern dövrü formalaşmağa başlayır.

Rus tarixçisi M.A.Barq bu dəyişikliklər haqqında yazırdı: "XV əsrin tam sonuna qədər tarixi prosesin əksər ölçülərinə görə, Şərq ölkələrindən (xüsusən də Çindən) geridə qalan Avropa sivilizasiyası, növbəti yüzillik ərzində bu ölçülərin bir çoxunda irəli çıxaraq, ümumdünya-tarixi əhəmiyyətli bir yola qədəm qoymuşdur." Milli dövlətlər arasında qarşılıqlı fəaliyyətin Avropa modeli dünya inkişafının mərkəzinə çevrilmiş və tədricən digər qitələrə yayılmışdır.

Modern (yeni, müasir- fransızca moderne) – dünyəviləşmə, mərkəzləşmə, sonra isə sənayeləşmə prosesləri nəticəsində dəyişmiş cəmiyyət deməkdir. Müasir sosiologiyada yenilikçilik, müasirlik (modern) həm ənənəvi antik və orta əsrlər cəmiyyətinə, həm də müasir postmodern cəmiyyətə qarşı qoyulur.

Şərqdə, Avropadan daha qədim olan sivilizasiyalar əsasında yaranan dövlətlər var idi. Lakin, onlar yeni, "Vestfal" mənasında milli deyildilər. Onlara xas olan tabeçilik iyerarxiyası orta əsrlər Avropasında mövcud olan müvafiq münasibətləri xatırladırdı. Vestfal sisteminin prinsipləri (yenilik-müasirlik) Şərqdə XIX əsrin ikinci yarısında, müstəmləkələrin genişlənməsi nəticəsində yayıldı.

Yeniliyə keçidin ilkin şərtləri. Orta əsrlərdə Avropada milli dövlətlər mövcud deyildi. Avropa müəyyən formada vahid xristian dünyası-rəsmi və qeyri-rəsmi qaydalarla idarə olunan ümumi iyerarxik sistem idi. Ali hakimiyyətin mənbəyi Roma Baş keşişinin (papa) başçılıq etdiyi Müqəddəs taxt-tac idi. İyerarxiyada növbəti yerdə alman millətinin Müqəddəs Roma imperiyasının İmperatoru dururdu. O həm də, Roma İmperatoru da adlandırılırdı. Daha sonra, digər Avropa dövlətlərinin monarxları (kralları), ardınca hersoq və qraflar, monarxların vassalları gəlirdi. Aristokratların da öz vassalları - baronları və cəngavərləri var idi. Bu idarəetmə sistemi iki xüsusiyyətlə xarakterizə olunurdu:

Birincisi, feodal mülkü konkret bir ölkəyə deyil, onun xidmət üçün aldığı torpaq sahələrinin (feodların) yerləşdiyi əraziyə bağlı idi;

İkincisi, kral hakimiyyəti ərazi prinsipi deyil, sülalə əsasında qurulmuşdu.

XV əsrin sonlarına doğru vəziyyət dəyişməyə başladı. Kral hakimiyyətinin zadəganlarla mübarizəsində qazandığı uğurları bir neçə sabit dövlət birlikləri yaratmağa imkan verdi:

*XV-XVI əsrlərin əvvəllərində Fransa kralları, köhnə feodal kvazi dövlətlərini ləğv etdi;

* XV əsrin ikinci yarısında feodal müharibəsi başa çatdıqdan sonra İngiltərə kralları (Al və ağ qızılgüllər müharibəsi) mərkəzləşdirilmiş dövlət aparatı yaratdı;

*İspaniyada, 1479-cu ildə Leon və Kastiliya krallıqlarının birləşməsindən sonra, 1492-ci ildə Rekonkista (Pireney yarımadasının mavrlardan geri alınması) başa çatdı;

* Baltik dənizində ənənəvi olaraq üstünlük uğrunda bir-biri ilə rəqabət aparan Şimal ölkələri (Danimarka və İsveç) yarandı;

*Öz ətrafında keçmiş Vladimir-Suzdal və Tver knyazlıqlarını, habelə Novqorod respublikasını birləşdirən Moskva knyazlığından Rusiya çarlığı yarandı;

*Polşa-Litva dövlətinin yaranması. Polşa krallığı və Böyük Litva hersoqluğunun hökmdarları 1386-cı ildən siyasi birlik yaratdılar.

Siyasi birlik (ittifaq)- iki və ya daha çox müstəqil dövlətlərin ittifaqa girərək, başda bir hökmdar olmaqla yaratdığı siyasi birlikdir. Bu hökmdar, ittifaqa üzv olan hər bir dövlətin başçısı sayılırdı.

Mərkəzi Avropada vəziyyət qeyri-müəyyən olaraq qalırdı. Hələ 962-ci ildə Almaniya kralı I Otto (936-973) Romaya yürüş edərək, burada Papa XII İohann tərəfindən alman millətinin Müqəddəs Roma İmperiyasının imperatoru elan edildi. 1135-ci ildən imperiya dörd krallıqdan ibarət idi: Almaniya, İtaliya, Burqundiya və Çexiya. Eyni zamanda, imperator titulu miras alınmırdı. İmperator kürfüstlər şurası - bu hüquqa malik olan iri zadəganlar tərəfindən seçilirdi. Əslində, dörd krallığın hər biri imperatordan çox az asılı olan bir çox kiçik və böyük feodal mülklərinə parçalanmışdı.

Kürfürst (almanca kurfürst, hərfi mənada - "seçilmiş knyaz") - Müqəddəs Roma İmperiyasında - imperiya knyazı, sonradan XIII əsrdə boş qalan imperator taxtına imperator (kral) seçmək hüququ ilə təmin edildi.

Kürfüst titulu zadəgan titulu ilə eyni deyildi. İmperator IV Karlın Qızıl bullasına (1356) görə, Müqəddəs Roma İmperiyasının yeddi hökmdarı kürfüstlər təyin edilmişdi: Maynts arxiyepiskopu, Trir arxiyepiskopu, Köln arxiyepiskopu, Bohemiya kralı, Reyn pfaltsqrafı, Saksoniya hersoqu və Brandenburq markqrafı. Sonradan kürfüstlər sayı artırıldı. İmperatorlar bəzi idarəçilərə zadəgan (princeps) titulu vermədən seçki hüququ verirdilər. Belə qurum başçıları "elektorlar", yəni, imperator seçmək hüququ olanlar adlanırdı.

Pfaltsqraf - erkən orta əsrlərdə hökmdar monarxın olmadığı zaman sarayı (pfaltsı) idarə edən qraf. Hərfi mənada saray qrafı (eşikağası).

Şərqi Frank krallığında Karolinqlər dövründə və Müqəddəs Roma İmperiyasında pfaltsqraf hersoqluqlarda kralın (imperatorun) maraqlarını təmsil edirdi.

Markqraf - erkən orta əsrlərdə Qərbi Avropada krala tabe olan, markda (diyar, bölgə) geniş inzibati, hərbi və məhkəmə səlahiyyətlərinə malik olan rəsmi şəxs. Öz ərazilərində Markqraf hersoq səviyyəsində hakimiyyətə sahib idi.

Ancaq XV əsrdə imperatorun taxt-tacı davamlı olaraq Avstriya hersoqlarına - iqamətgahı Vyana olan Habsburqlara keçməyə başladı. Elə bir vəziyyət yarandı ki, Müqəddəs Roma İmperatorunun titulu "Avstriya İmperatoru" titulu ilə faktiki olaraq eyniləşdi.

Orta əsrlərdən Yeni dövrə (modern) keçidin ilkin şərtləri XV əsrin ortalarında meydana çıxdı. Orta əsr ticarət yolları Qızıl ordanın dağılması və 1453-cü ildə Türk Sultanı II Mehmed (1451-1481) tərəfindən Bizansın paytaxtı - Konstantinopolun fəth edilməsi səbəbindən bağlandı. Osmanlı İmperiyasının (Portanın) istilalarının Balkan yarımadasına və Macarıstana döğru daha da genişlənməsi, Aralıq dənizi ticarətini qeyri-mümkün etdi. Nəticədə, İtaliya dövlətlərinin tənəzzülü və onların siyasi sistemlərinin arxaikləşməsi baş verdi: şəhər respublikaları iri Avropa dövlətlərinin monarxları kimi modernləşməyən irsi diktatura və monarxiyaların konqlomeratına(nizamsız, qarışıq birlik) çevrildi.

Avropa sivilizasiyasının modernləşdirilməsi əsasən dünya ticarət sisteminin yenidən qurulmasının nəticəsi idi. Bu da, XV-XVI əsrlərin sonunda, Avropanın siyasi xəritəsində sürətli dəyişikliyə səbəb oldu.

1.Böyük coğrafi kəşflər. Konstantinopolun Osmanlılar tərəfindən tutulmasından sonra Avropa dövlətləri okean ticarətinin inkişafına istiqamətləndilər.

7 iyun 1494-cü ildə İspaniya və Portuqaliya Tordesilyas müqaviləsini bağladılar. Müqaviləyə görə, Atlantik okeanının mərkəzindən demarkasiya xətti çəkildi: onun qərbində İspaniyanın, şərqində isə Portuqaliyanın mülkləri yerləşdi. Müqavilənin təminatçısı Papa II Yuli (1503-1513) idi ki, bu da katolik kilsəsinin bu ölkələrin xüsusi hüquqlarını tanıması demək idi. İspaniya və Portuqaliya müəyyən bir müddətə böyük müstəmləkə mülklərinə sahib olaraq, dəniz ticarətində faktiki inhisar əldə edərək okean dövlətlərinə çevrildilər.

2. Reformasiyanın (islahat, dəyişiklik) baş verməsi. Orta əsrlərdə Avropada çoxsaylı bidətçi hərəkatlar (rəsmi kilsə doktrinasından şüurlu şəkildə yayınma) başlayırdı, lakin onlar katolik kilsəsi tərəfindən dağıdılırdı. 1517-ci ildə Vittenberq Universitetinin ilahiyyat elmləri doktoru Martin Lüter katolik kilsəsində olan sui-istifadələrə qarşı "95 tezis"i ilə çıxış etdikdən sonra vəziyyət dəyişdi. Bunda sonra Şimali və Qərbi Avropanı islahatçılıq dalğası bürüdü. Cənubi və qismən Şərqi Avropa isə Katolik kilsəsinə sadiq qaldı. Reformasiya üç formada həyata keçirilirdi:

* mühafizəkar, yəni, Romanın təyin etdiyi Baş müqəddəs ruhani atasının yerinə sadəcə yerli kilsənin başçısı kimi kralın özünün təyin olunması (İngiltərə, Skandinaviya ölkələri);

*mötədil, dini ayin və mərasimlərin sadələşdirməklə yanaşı, kilsənin başçısının yerli hökmdarın elan edilməsi (Almaniya, Hollandiya, İsveçrə və Fransada lüteranlıq və kalvinizm, İsveçrədə tsvinqlizm);

*radikal (nə katolikliyi, nə də dünyəvi hakimiyyət tərəfindən dəstəklənən protestant kilsələrini qəbul etməyən protestant sektalarının hərəkatları).

3. Hərbi sahədə yeniliklər. Avropada odlu silahlar XIV əsrin ortalarından məlum idi. XV əsrin sonlarında, tüfənglərin (arkebuz) və döyüş artilleriyasının tətbiqi ilə əlaqədar hərbi sahədə bir inqilab baş verdi. Cəngavərlərin əvəzinə, Avropa dövlətlərinin silahlı qüvvələrinin əsasını müntəzəm süvarilər və piyada muzdluları təşkil etməyə başladı. Bu cür kütləvi ordular tez bir zamanda böyük əraziləri ələ keçirməyə və nəzarət etməyə imkan verirdi.

Yüz əlli il ərzində Avropada total müharibələr öz təsdiqini tapdı. Belə müharibələrdə qələbənin etalonu düşmənin ya təslim olması, ya da onun siyasi subyekt kimi məhv edilməsi sayılırdı.

XV-XVI əsrlərin qovşağında Avropada bu proseslərin təsiri altında, yeni siyasi düzən yarandı. Onun ilkin addımı feodal kvazi-dövlətinin - Burqundiya hersoqluğunun məhv edilməsi oldu. XV əsrin ikinci yarısında. Burqundiyaya hersoqluğuna, Brabant, Lüksemburq, Hollandiya, Franş-Konte və Flandriya daxil idi. Lakin 1477-ci ildə, Hersoq Cəsur Karlın ölümündən sonra Fransa və Habsburqlar Burqundiyanı böldülər. Burqundiya hersoqluğu Fransaya çatdı. I Maksmilian Habsburq və Burqundiyalı Mariyanın (Cəsur Karlın qızı) oğlu I Filip Niderlandı (müasir Belçika və Hollandiya), Lüksemburqu və Fransa sərhədləri yaxınlığında yerləşən Franş-Konte qraflığını aldı. I Filip Habsburq İspaniya taxtının varisi Xuana ilə evləndiyindən, onun ölümündən sonra,1516-cı ildə onların oğlu I Karl adı ilə İspaniya kralı (1516-1555) oldu. 1519-cu ildə o, babası I Maksimilianın varisi kimi V Karl adı ilə Müqəddəs Roma İmperiyasının imperatoru seçildi. Beləliklə, İspaniyanı, onun Mərkəzi və Cənubi Amerikadakı müstəmləkələrini, Hollandiyanı, Neapol krallığını (Apennin yarımadasının cənub yarısı), Avstriya hersoqluğunun mülklərini ehtiva edən, nəhəng Habsburqların ekstraterritorial imperiyası yarandı ("Səmasında heç vaxt günəş batmayan imperiya").

Habsburqların siyasi planı Reformasiyanın (əks-islahat) yatırılması və Avropanın Müqəddəs taxt-tacın və Müqəddəs Roma İmperatorunun hakimiyyəti altında vahid katolik monarxiyasına çevrilməsi idi. Belə bir siyasi məqsəd Fransa, İngiltərə, Skandinaviya ölkələrinin krallarının və alman protestant knyazlarının həyati maraqlarına toxunurdu. Habsburq İmperiyasına müqavimət göstərə bilən yeganə qüvvə Fransa oldu. Valua kralları katolik olsalar da, Habsburqlara müqavimət göstərmək üçün Almaniyanın protestant şahzadələri və hətta Osmanlı İmperiyası ilə birləşməli olurdular. Eyni zamanda, Rusiya çarlığının pravoslavlığı Habsburqların onunla ənənəvi dostluq münasibətləri qurmasına mane olmurdı.

250 illik bir müddətdə Avropa siyasətinin əsas istiqamətini Fransa ilə Habsburq İmperiyası arasında baş verən qarşıdurma təşkil etdi. Əslində bu proseslər,

Avropanın inkişafı ilə bağlı iki layihənin- Orta əsrlərin xristian dünyasına qayıdışı və ya yeni bir dünyaya- suveren dövlətlər sisteminə keçidi uğrunda müharibələrin aparılması ilə nəticələndi

Uzun sürən müharibələr nəticəsində demək olar ki, bütün Avropa ölkələri sonda Vestfal sülhünü imzaladılar. Vestfal sülhü əhəmiyyətli ərazi dəyişikliklər səbəb olmadı. Lakin onun şərtləri milli dövlətlər arasında qarşılıqlı əlaqə sisteminə keçidi şərtləndirdi.

Vestfal sülhü katoliklərin və protestantların (kalvinistlər və lüteranların) hüquqlarını bərabərləşdirdi, 1624-cü ilə qədər həyata keçirilən kilsə torpaqlarının müsadirəsini qanuniləşdirdi. Müqavilə tolerantlıq dini prinsipin elan etdi. Bu, alman torpaqlarının bir çox suveren dövlətlərə parçalanmasının möhkəmlənməsi demək idi, baxmayaraq ki, onların hamısı formal olaraq Müqəddəs Roma İmperatorunun vassalları sayılırdı.

Fransa və onun müttəfiqləri strateji üstünlüklər əldə etdilər. Elzas əyaləti Fransaya verildi. Yəni, Fransanın Reyn üzərində üstünlük əldə etməsinə, dövlətin "təbii sərhədi"nin qurulması kimi baxıldı. Şimali Almaniyanın ən böyük çaylarının mənsəbləri İsveçin nəzarətinə keçdi. Kardinal Rişelyenin diplomatiyası Paris üçün sərfəli olan qüvvələr nisbətini formalaşdırmağa imkan verdi.

Avropanın mərkəzində Fransa ilə alman protestant knyazları arasında sabit tərəfdaşlıq yarandı. Suveren alman knyazlıqları əsasən fransız subsidiyaları hesabına yaşayırdılar və Parisi öz maraqlarının təbii müdafiəçisi kimi görürdülər. Fransa hakimiyyəti protestant hökmdarlarından katoliklərə qarşı istifadə edərək, özü üçün əlverişli güc tarazlığını təmin edirdi. Bu siyasətin məqsədi, Avstriya Habsburqlarının alman torpaqları üzərində hakimiyyətinin bərpasının mümkünsüzlüyünü təmin etmək idi.

Eyni zamanda, Kardinal Rişelye Avropanın şərqində "şərq səddi" yaratdı. Paris, Fransa, İsveç, Reç Pospolita (Polşa) və Osmanlı İmperiyası arasında, Müqəddəs Roma İmperiyasına qarşı istifadə edilə bilən, tərəfdaşlıq sistemi qurdu.

Müqəddəs Roma İmperiyasının imperatorunun monarxlar arasında yüksək üstünlüyə malik olmasını qəbul edən iyerarxik nizam ləğv edildi. Avropanın kral tituluna malik olan müstəqil dövlətlərin başçıları imperatorla bərabər hüquqlara malik oldular. Beynəlxalq münasibətlərdə əvvəllər monarxlara məxsus olan əsas rol müvafiq olaraq suveren dövlətlərə keçdi. Yeni nizamın ideoloji əsası dinin siyasətdən ayrılması, yəni, onun dünyəviləşməsi idi.

Beləliklə, dərs vəsaiti Vestfal sisteminin tarixinə (1648-1815) həsr edilmişdir. Bu nizamda, Fransa Avropada öz hegemonluğunu qurmaq üçün böyük səylər göstərir. Bunun nəticəsində, Fransa Böyük Britaniya, Rusiya və Müqəddəs Roma İmperiyasının koalisiyaları ilə bir sıra müharibələr aparır. Digər dövlətlərin öz

regional hegemonluğunu qurmaq cəhdlərinə də xüsusi diqqət yetirilir: Şərqi Avropada İsveç və Rusiyanın, Şimali Amerikada Böyük Britaniyanın hegemonluq iddiaları.

Vestfal nizamı, 1814-1815-ci illərdə keçirilmiş Vyana konqresi tərəfindən ləğv edilməsi ilə başa çatır.

BİRİNCİ FƏSİL
YENİ DÖVRÜN ƏRƏFƏSİNDƏ VƏ QOVŞAĞINDA DÖVLƏTLƏRARASI MÜNASİBƏTLƏR: ƏSAS QANUNAUYĞUNLUQLAR VƏ SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏR

I BÖLMƏ
Son orta əsrlər və Yeni dövrün ərəfəsində diplomatiya

§1. Son orta əsrlər diplomatiyası və Yeni dövrün formalaşması

1.XVI əsrdə Avropanın siyasi xəritəsi

2.Dövlət və ticarət marağı

3.Böyük coğrafi kəşflər

4.Dünya ticarətinin yüksəlişi

§2. XVI-XVIII əsrlərdə diplomatiyanın ümumi xüsusiyyətləri və diplomatik orqanlar

1.“Dövlət marağı” siyasətin prinsipi kimi

2.XVI-XVIII əsrlərdə xarici siyasət və diplomatik orqanlar. Diplomatik xidmət

3.Beynəlxalq hüquq elminin yaranması

4.XVI-XVIII əsr diplomatlarının məişəti və mənəvi həyatı. Diplomatların xarakterik tipləri

5.XVI-XVIII əsrlərin diplomatiya tarixinin dövrləşdirilməsi və Avropa dövlətlərinin xarici siyasətinin və diplomatiyasının əsas istiqamətləri

§1. Son orta əsrlər diplomatiyası və Yeni dövrün formalaşması

1.XVI əsrdə Avropanın siyasi xəritəsi

2.Dövlət və ticarət marağı

3.Böyük coğrafi kəşflər

4.Dünya ticarətinin yüksəlişi

1.XVI əsrdə Avropanın siyasi xəritəsi

Diplomatiya tarixində yeni dövr Avropada böyük kəşflər zamanından nəzərə çarpan kapitalist inkişafının uğurları nəticəsində formalaşdı. Bu uğurlarla eyni vaxtda ölkələrin siyasi konsolidasiyası baş verdi ki, onlar da tədricən möhkəmlənmiş və mərkəzləşmiş feodal-mütləq monarxiyalarına çevrildi. Bu monarxiyalar Hollandiya və İngiltərədəki burjua inqilabından sonra uzun müddət Avropa qitəsində öz mövcudluğunu davam etdirdi. İndi güclü kral hakimiyyətinə tabe edilən xırda senyorlar arasında feodal müharibələrinin dayandırılması nəticəsində nisbətən

sabit daxili nizam yarandı. Bu sabitlik, iqtisadi və xüsusilə də kapitalist inkişafına lazımı şərait yaratdı. Sinfi mahiyyətinə görə zadəgan olaraq qalan, mərkəzləşdirilmiş və güclü dövlət olan mütləq monarxiya, keçmiş zamanların feodal qarışıqlığının qarşısını almağa və öz təbəələrinin mənafeyini zahirən qorumağa qadir olması, onun burjuaziya tərəfindən nizam-intizamın dayağı və firavanlığın təminatı kimi qiymətləndirildi.

XV əsrin sonlarından, Avropa beynəlxalq münasibətlərin yeni dövrünə qədəm qoydu. Bu vaxta qədər nəhayət böyük dövlətlər formalaşmışdı: İspaniya, Portuqaliya, Fransa, Polşa və alman xalqının Müqəddəs Roma İmperiyası kimi qeyd olunan Avstriya (Habsburqlar sülaləsinin irsi torpaqları). Türkiyə, daha kiçik Skandinaviya dövlətləri - Danimarka, İsveç və Norveç - və daha da kiçik olan Qərbi Almaniya knyazlıqları, İtaliya şəhər respublikaları, tiranlıqlar və kiçik dövlətlər Avropanın siyasi xəritəsini tamamlayırdı. Avropanın şərqində Moskva dövləti XVI əsrin ikinci yarısından Avropanın siyasi meydanına çıxdı. Bu dövrdən siyasi birləşməsini başa çatdıran Moskva dövləti tədricən mərkəzləşmiş, sonra isə mütləqiyyətçi dövlətə çevrildi.

2.Dövlət və ticarət marağı

Yeni idarəetmə obyektinin- vahid mərkəzləşdirilmiş dövlətinin yaranması ilə hökmdarların öz mülklərinə yeni münasibəti də formalaşır. Orta əsrlərdə onlara monarxın şəxsi mülkü kimi yanaşırdılar. Monarx onunla öz istədiyini etməkdə azad idi. Ancaq, Yeni dövrün başlanğıcında belə bir fikir yarandı ki, monarxın dövlət üzərində sərəncam vermək hüququ məhdudlaşır. O, qanunla olmasa da, heç olmasa mənəvi cəhətdən – öz nəsilləri qarşısında məsuliyyət hissi daşıyırdı. Bu şərhə görə, dövlətin marağı bu ölkədə yaşayan hər bir fərdin, hətta monarxın mənafeyindən daha geniş və əhəmiyyətli sayılırdı. Dövlət maraqlarının üstünlüyünü əsaslandıran ideologiya yaranır. Həm yeni əxlaqın, həm də yeni ideologiyanın daşıyıcısı, ilk növbədə, formalaşmaqda olan dövlət idarə sistemi idi.

Bununla da, Dövlət marağı deyilən bir prinsip meydana çıxır. İlk başlanğıcda o, sülalə marağı ilə, xanədan qanunu ilə sıx qarışaraq, monarxın öz dövlətinin şöhrəti və əzəməti üçün ən etibarlı dayaq kimi, öz dövlətinin izzət və qüdrətinin qayğısına qalmasına məcbur edirdi. Cəngavər şərəfi və ya "müqəddəs kilsə" tələb etsə belə, dövlətin qüvvələrini və vasitələrini israf etməmək, əksinə artırmaq monarxın ən yüksək şücaəti və vəzifəsi kimi qəbul edilirdi.

Dövlət marağının yaranması ilə, feodal titulunun və nəslinin qədimi olmasının, monarxın sosial iyerarxiyada yerini müəyyən etdiyi dövrlər keçmişdə qalır. Onun əzəmətinin əsas meyarları dövlətin böyüklüyü, sərvəti və hərbi gücü olur. Lakin, monarx hələ də dövlətə öz ailəsinin, sülaləsinin mülkü kimi yanaşırdı. Vətəndaşlıq

institutunun hələ mövcud olmadığı kimi, dövlətin bütün vətəndaşların ümumi və bölünməz mülkiyyətinin olması ideyası hələ formalaşmamışdı. Bu anlayışlar hökmdarlar tərəfindən maarifçilik dövründə mənimsəniləcək idi. Lakin indinin özündə də, monarxdan dövlətə qarşı öz tələblərini həyata keçirmək üçün, onu tamamilə istismar edən tamahkar müvəqqəti başçı kimi yox, qeyrətli bir ağa kimi davranmaq tələb olunurdu.

3.Böyük coğrafi kəşflər

Beynəlxalq münasibətlərin dünyəviləşməsi prosesi, Böyük coğrafi kəşflərlə bağlı dünya ticarətinin kəskin yüksəlişinin təsiri altında XVI əsrdə daha da sürətləndi. Bu hadisələrin hər ikisi bir-birindən asılı idi. Avropa dövlətlərinin ticarətin inkişafına böyük marağı Hindistana dəniz yolu axtarmaq üçün əsas amil oldu. Öz növbəsində bu yolun kəşfi ticarətin özünün inkişafına güclü təkan verdi.

XVI əsrdə avropalılar, "Hindistan"sözü ilə, təkcə o dövrdə Hindustan yarımadasında yerləşən müxtəlif dövlətləri deyil, Hind okeanının sularının yuduğu Afrika sahillərindən Yaponiya və Sakit okean adalarına qədər bütün Şərq dünyasını adlandırırdılar.

Uzun müddət avropalılar Amerika qitəsinin və bir çox başqa ölkələrin mövcudluğundan məlumatlı deyildilər. Onların Yer səthinin ölçüsü və quruluşu haqqında fikirləri çox təxmini idi. Avropalıların özləri nadir hallarda Avropanı tərk edirdilər. Marko Polo və ya Afanasi Nikitin kimi Şərqin, Hindistanın və ya Çinin uzaq ölkələrinə səfər etmiş səyahətçilər və ya tacirlərin sayı çox az idi. Orta əsrlərdə vikinqlərin Şimali Amerikaya səyahətləri kimi bir çox coğrafi kəşflər Avropanın elm və mədəniyyətində nəzərəçarpacaq iz buraxmamışdı.

Ümumiyyətlə, Şərq qədim zamanlardan avropalılara məlumdur. Orta əsrlərdə, ilk növbədə klassik şərq əraziləri olan Qərbi Asiya, Kiçik Asiya, Misir, Mesopotamiya, Persiya ilə güclü iqtisadi əlaqələr yaranmışdı. Bu əlaqələrin yaranmasına, qismən XI-XIV əsrlərdə baş verən səlib yürüşləri kömək etdi. Şərq ölkələri ilə aparılan ticarət orta əsr İtaliya şəhərlərinin, xüsusilə Venesiya və Genuya şəhərlərinin gücünü artırdı. Onlar hətta Cənubi Asiya və Uzaq Şərqlə də birbaşa deyil, vasitəçilər vasitəsilə ticarət əlaqələri saxlayırdılar.

Dünya ticarəti, Qərblə Şərq arasında ticarət o dövrdə ənənəvi vasitəçi xarakter daşıyırdı. Son istehlakçıları avropalılar olan mal istehsalçıları, əksər hallarda onların kimə çatacağını bilmirdilər. Belə ki, Avropaya gətirilən şərq malları çoxlu sayda vasitəçilərin, əksər hallarda ərəb tacirlərinin əlindən keçirdi. Məhz vasitəçilər ticarət mənfəətinin böyük hissəsini mənimsəyirdilər.

Şərq ölkələri ilə birbaşa əlaqələr qurmaq, ticarət gəlirlərini vasitəçilərlə bölüşdürməmək üçün, avropalılar ən mühüm coğrafi kəşflərə imza atdılar. XV əsrin

sonlarında, Hindistana "qərb keçidi" deyilən yolu tapmağa çalışaraq, Amerikanı (Kolumbun səyahətləri) kəşf etdilər. Afrika ətrafında "cənub-şərq keçidi" axtarışında Hind okeanına çatdılar. Cənubi Asiya və Uzaq Şərq ölkələri ilə dəniz əlaqəsi qurdular (Vasko da Qamanın ekspedisiyası).

1494-cü ildə İspaniya və Portuqaliya Tordesillas şəhərində müstəmləkə ərazilərinin bölünməsi haqqında müqavilə bağladılar. Tordesillas müqaviləsinə əsasən, iki dövlət arasında dünya ikiyə bölündü. Bu xəttin şərqində yerləşən torpaqlar Portuqaliyanın mülkləri (sonradan məlum olduğu kimi, Cənubi Amerikadakı Braziliya da onların payına düşdü), qərbi isə İspaniyanın mülkləri kimi tanındı.

1519–1522-ci illərdə F.Magellanın dünya ətrafında etdiyi ekspedisiyanın nəticəsində Yer səthinin ölçüləri və dünyanın əsas hissələrinin yerləşməsi haqqında fikirləri əsasən aydınlaşdırmaq mümkün oldu. Nəticədə, İspaniya və Portuqaliya 1494-cü il Tordesillas müqaviləsinə başqa bir müqavilə də əlavə etməli oldular və bununla onlar, dünyanın əks tərəfində, Sakit okeanda mülklərini müəyyənləşdirmək məqsədini güdürdülər. Belə bir müqaviləni onlar 1529-cu ildə Saraqosada imzaladılar. Bu müqavilələrə və daha çox öz hərbi üstünlüklərinə arxalanan İspaniya və Portuqaliya, Hindistan və Amerikaya dəniz yollarını açan ilk dövlətlər kimi, XVI əsrdə dünya ticarət yollarında və müstəmləkələrdə inhisarçı mövqeyi öz əllərinə keçirdilər. Hər iki müqavilə yalnız 1777-ci ildə ləğv edildi.

4.Dünya ticarətinin yüksəlişi

Şərq ticarəti Avropa üçün çox böyük əhəmiyyətə malik idi. Çünki, XIX əsrin əvvəllərinə qədər, Asiya ölkələri iqtisadi cəhətdən Avropadan güclü idi. Onlar daha çox sənətkarlıq və kənd təsərrüfatı məhsulları istehsal edirdilər. İqtisadiyyatın bütün sahələrində əl əməyinin hökm sürdüyü bir dövrdə bu, başqa cür ola da bilməzdi. Asiya ölkələri, xüsusən də Hindistan və Çin bütün dövrlərdə Avropadan daha çox əhaliyə sahib olduqlarına görə onlardan fərqlənirdilər. Nəticə etibarı ilə, onlar işçi qüvvəsi kimi qiymətli iqtisadi ehtiyat mənbəyi ilə daha yaxşı təmin olunduqlarına görə, dünyanı sənaye (sənətkarlıq) və kənd təsərrüfatı istehsalının böyük hissəsi ilə təmin edirdilər.

Orta əsrlərdə Avropa Şərqdən çoxlu sayda ən müxtəlif qiymətli əşyalar idxal edilirdi. Bunlara bahalı parçalar - məxmər, ipək, pambıq parçalar, kaşimir və çini qablar və zinət əşyaları (qiymətli daşlar) daxil idi. Şərqdən Avropaya yüksək keyfiyyətli (Dəməşq) poladdan düzəldilən, o zamanlar hələ avropalı dəmirçi ustaların hazırlaya bilmədikləri soyuq silahlar, həmçinin ədviyyatlar, daha sonra isə çay, qəhvə, pambıq və s. gətirilirdi.

Amma ticarət qarşılıqlı faydalı iş idi. Bir şey almaq üçün, nə isə satmaq lazım idi. Avropa oradan ixrac edilən qiymətli mallar və tropik kənd təsərrüfatı məhsulları müqabilində Şərqə əsasən qızıl və gümüşdən başqa heç nə təklif edə bilmirdi. Lakin, Avropada kəşf edilmiş qiymətli metal yataqları onların intensiv istismarı nəticəsində bir neçə əsr ərzində tükənmişdi. Qiymətli metallar hətta pul təsərrüfatının normal fəaliyyəti üçün kifayət etmirdi. Deməli, mal satmaq, kredit almaq, vergi yığmaq çətinləşmişdi. Bəzi ölkələrin hökumətləri sikkələrin əyarını aşağı salaraq, metal pulların zərb edildiyi ərintiyə daha az qiymətli metallar qarışdırırdılar (kağız pullar yalnız XVIII- XIX əsrlərdə geniş yayıldı) və bununla da əhali arasında narazılıq doğururdular.

Şərqdən daha böyük miqdarda qiymətli mallar, ədviyyatlar və Qərbdə böyük tələbata malik olan digər istehlak məhsulları almaq üçün avropalılara daha çox qızıl və gümüş lazım idi. Bu, Amerikadakı ispan konkistadorlarını möcüzəvi Eldorado diyarını axtarmağa sövq etdi. Eldorado xəzinəsini tapa bilməsələr də, bəxt onların üzünə həqiqətən gülümsədi: Kolumbun Amerikanı kəşf etməsindən təxminən yarım əsr sonra onlar burada zəngin gümüş yataqları kəşf etdilər. Qısa müddətdə Amerika gümüşünün Avropaya axını dünya ticarətinin dövriyyəsini dəfələrlə artırmış oldu.

Avropalıların XVI-XVII əsrlərdə Amerikadan gətirdikləri qızıl və gümüşlərin demək olar ki, hamısı avropalı bankirlərin sandıqlarına yatırılmadı, onların 80-90%-i Şərqə köçürüldü. Şərq öz sənətkarlıq və kənd təsərrüfatı məhsullarını Qərbə satmaqla zənginləşdi. XVII-XVIII əsrlərdə, Hindistan maharacalarının və ya Çin boqdıxanlarının yaşadığı yüksək zəngin həyat şəraiti haqqında xəbərlər yayılırdı. Avropa, Amerikadan Şərqə qızıl və gümüş gətirən bir vasitəçi rolunu oynayırdı.

Təbii ki, dünya ticarəti yalnız Şərq ölkələrinin zənginləşməsinə səbəb olmadı. Bu ticarətdən avropalılar özləri də qazanırdılar, çünki Şərqdən gətirilən istehlak malları Avropada çox baha olduğundan, onlarla ticarət son dərəcə sərfəli idi. Şərq ilə ticarətdə normal mənfəət yüz faizə çatırdı. Lakin, dünya ticarəti Şərqdə və Qərbdə fərqli nəticələrə malik idi. Bu ticarət sayəsində Asiya ölkələri xəzinə, Avropa ölkələri isə kapital topladılar.

Ona görə də, uzunmüddətli perspektivdə bu, Avropa üçün daha əlverişli nəticələr verirdi. Bu proses, kapitalizmin, xüsusilə də iri kapitalizmin xarici ölkələrlə (Ost-Hind, Vest-Hind və s.) ticarət etmək üçün inhisarçı səhmdar cəmiyyətləri formasında, banklar, əmtəə və fond birjalarının inkişafına töhfə verdi. Nəticədə, Şərqlə Qərbin əvvəllər böyük özünəməxsusluğu ilə seçilən tarixi yolları daha da ayrıldı. Şərqdə iqtisadiyyatın, cəmiyyətin və dövlətin ənənəvi institutları qorunub saxlanıldığı halda, Qərbdə bu instusional sistemlər XVI əsrdən etibarən, Yeni dövrün ruhuna və ehtiyaclarına uyğun olaraq sürətlə dəyişməyə başladı.

Bu dəyişikliklər iqtisadi artım tempinin sürətləndirilməsini hazırladı və texnoloji tərəqqiyə töhfə verdi. Əgər toplanmış sərvətlərin miqdarına, istehsal həcminə, sənətkarlıq və bədii istehsal ustalarının bacarığına görə Asiya ölkələri uzun müddət Avropanı üstələmişdisə, texnikanın inkişafı baxımından artıq Avropa ölkələri XVII-XVIII əsrlərdə Asiyanı qabaqlayır. Texniki üstünlük avropalılara əvvəlcə dünyanın digər xalqları üzərində hərbi və dəniz üstünlüyünü, sonra isə iqtisadi üstünlüyü təmin etdi.

XVIII əsrin sonlarında. Avropada əvvəlcə Böyük Britaniyada, sonra isə digər ölkələrdə sənaye inqilabı baş verdi və bu, işçilərin sayı ilə istehsalın həcmi arasındakı sərt əlaqəni pozdu. Təbii ehtiyatlar və əmək baxımından nisbətən kasıb, lakin kapital və texniki ixtiralarla zəngin Avropa XIX əsrdə, sənaye Qərbinin aqrar periferiyasına çevrilmiş Şərq ölkələrini iqtisadi cəhətdən üstələmiş və xeyli geridə qoymuşdu.

Dünya ticarəti Yeni dövrün beynəlxalq münasibətlərində, o cümlədən siyasi münasibətlərdə ən mühüm amilə çevrilir, yəni. dövlətlər arasında münasibətlər, burada xüsusi ticarət marağına səbəb olur. Dövlətlər dünya ticarətində iştirakına görə təmin edildikləri üstünlüklərdən yararlanmağa çalışırdılar. Ona görə də, bir çox Avropa dövlətlərinin hökumətləri bilərəkdən onu öz nəzarətlərinə götürmək və öz mənfəətləri üçün istifadə etmək üçün səylər göstərirdilər.

Ticarət marağı Avropanın böyük mərkəzləşmiş dövlətlərinin hökumətlərinin müstəsna rəğbətini qazanan merkantilist (merkantil-ticarət deməkdir, iqtisadi siyasətdə dövlət himayədarlığı) nəzəriyyələr formasını alır. Bu nəzəriyyələrə uyğun olaraq, hər bir dövlət periferiyadakı ölkələr və müstəmləkələrlə vasitəçilərsiz ticarət etməyə çalışır, yerli tacirlərə və gəmi sahiblərinə "müstəmləkə" mallarını idxal etmək üçün müstəsna hüquq və imtiyazlar verirdi. Dövlət bu imtiyazları ordu və donanmalarının bütün gücü ilə müdafiə etməyə hazır idi.

§2. XVI-XVIII əsrlərdə diplomatiyanın ümumi xüsusiyyətləri və diplomatik orqanlar

1."Dövlət marağı" siyasətin prinsipi kimi
2.XVI-XVIII əsrlərdə xarici siyasət və diplomatik orqanlar. Diplomatik xidmət
3.Beynəlxalq hüquq elminin yaranması
4.XVI-XVIII əsr diplomatlarının məişəti və mənəvi həyatı. Diplomatların xarakterik tipləri
5.XVI-XVIII əsrlərin diplomatiya tarixinin dövrləşdirilməsi və Avropa dövlətlərinin xarici siyasətinin və diplomatiyasının əsas istiqamətləri

1.“Dövlət marağı” siyasətin prinsipi kimi

Artıq XV əsrdə dövlət birliyinə o qədər ehtiyac duyulur ki, “dövlət marağı” siyasətdə ən yüksək meyar kimi qəbul olunmağa başlayır. Bu “dövlət marağı” son nəticədə bütövlükdə hakim təbəqələrin marağı idi. Amma o, “ümumi rifah” səviyyəsinə qaldırılırdı ki, hətta lazım gələrdisə, dövlət tərəfindən onu güc yolu ilə də həyata keçirmək mümkün olsun.

“Ümumi rifahı” həyata keçirmək üçün bütün vasitələrdən istifadə etmək məqbul sayılırdı. Din siyasətdə mühüm rol oynamağını dayandırır. Siyasət mənəviyyatla bağlı olmaqdan imtina edir. K.Marksın təbirincə deyilsə “... Makiavelli, Hobbs, Spinoza, Boden və digərlərindən başlayaraq, yeni dövrdə, əvvəlki müəlliflər də daxil olmaqla, güc qanunun əsası kimi göstərilirdi, bunun sayəsində siyasətin nəzəri mülahizəsi əxlaqdan azad oldu...”

Dövlət və siyasətlə bağlı bu yeni fikirləri başqalarından daha əvvəl və bəlkə də ən ardıcıl şəkildə şərh edən Makiavelli olmuşdur. XVI əsrin görkəmli siyasi mütəfəkkirlərindən biri olan Makiavelli (1469-1527), öz hakimiyyətini "icazə verilən" və "icazə verilməyən" vasitələrlə gücləndirən və genişləndirən bütün monarxların -hökmdarların "realist" siyasətinin əsl həqiqi köklərini ortaya çıxardı. O, özünün “Hökmdar" əsərində, heç bir ədəb gözləmədən, mənəvi qaydalarla bağlı heç bir mülahizələrə istinad etmədən, öz hakimiyyət gücünu qeyri-məhdud dərəcədə genişləndirmək kimi bir məqsəd naminə, bütün vasitələrə əl atmasına icazə verilən bir monarx tipini təsvir etmişdir. Lakin, öz hökmdarını hər hansı bir mənəvi məhdudiyyətlərdən azad edən, Makiavelli İtaliya hökmdarlarının ambisiyalarından və tamahkarlqlarından İtaliyanın birləşdirilməsi naminə istifadə etmək arzusunda idi. Bu baxımdan, Makiavellinin diplomatik sənət nəzəriyyəsi “dövlət marağı” prinsipinə tabe olurdu.

Makiavelli özünün “Hökmdar” əsərində yazır: “Nəzərə almaq lazımdır ki, iki növ mübarizə üsulu vardır: biri qanunlardan, digəri isə güc vasitəsindən istifadə etmək. Birincisi insanlar üçün, ikincisi heyvanlar üçün xarakterikdir, lakin birincisi çox vaxt qeyri-kafi olduğu üçün ikinciyə müraciət etmək lazım gəlinir. Ona görə də, hökmdar həm heyvani, həm də insani üsullarından istifadə etməlidir. Əgər hökmdar heyvanların üsullarına müraciət etməyə məcburdursa, o zaman heyvanlar arasından tülkü və aslanı seçməlidir, çünki aslan özünü ilandan, tülkü canavardan qoruya bilmir. Ona görə də ilanları görmək üçün tülkü, canavarla mübarizə aparmaq üçün isə aslan olmaq lazımdır.”

"Hökmdar, taleyin cərəyanları və təlatümlərinin göstərdiyi istiqaməti götürmək üçün elə bir çevik ruha sahib olmalıdır və yuxarıda qeyd edildiyi kimi, əgər mümkünsə, yaxşılıq yolundan yayınmamalıdır, lakin, lazım gələrsə şər yoluna da

girə bilər" deyə Makiavelli öz fikrini yekunlaşdırır. Makiavellinin dövrün tələbatlarından irəli gələn siyasi realizm ideyaları son orta əsrlər və yeni dövrün ən iri siyasətçiləri və diplomatları tərəfindən qəbul olunurdu.

İngiltərənin Fransadakı səfiri ser Henri Uotton XVI əsrdə səfir vəzifəsini belə müəyyən etmişdir- "Yaxşı bir adam yad bir ölkəyə göndərilmişdir ki, öz ölkəsinin xeyrinə yalan danışsın".

XVII əsr diplomatları və siyasətçilərinin ən görkəmli nümayəndəsi, 1624-1642-ci illərdə Fransanın Birinci Naziri olmuş kardinal Rişelyeyə Makiavellinin prinsipləri qəbuledilməz görünmürdü. Rişelyenin nəzərində onlar həqiqi möhtəşəmlikdən məhrum deyildilər. Rişelyenin baxışlarında və əməlində "Dövlət marağı" prinsipi üstünlük təşkil edirdi. "Dövlət" bütün məsələlərdə üstündür. Rişelyenin mühüm əhəmiyyətə malik "siyasi vəsiyyətnamə"sində verdiyi fikirlərin mənası belə şərh olunur: " Dövlət" elə bir sərvətdir ki, onun naminə bütün vasitələr məqbuldur." O, krala belə tövsiyə edirdi: "Dövlətin qanun və əmrlərinə etinasızlıq göstərməklə öyünən insanlara münasibətdə sərt olmaq, "ümumi rifah" naminə addım atmaq deməkdir. Xristianlar onlara qarşı tətbiq olunan cəza tədbirlərini unutmalıdırlar, hökmdarlar isə ümumi mənafeyə xələl gətirən xətaları yaddan çıxarmamalıdırlar. Əslində isə, onları cəzasız qoymaq eyni günahı iki dəfə törətmək deməkdir...Ədalət rəmzi olan qamçı heç vaxt istifadəsiz qalmamalıdır".

Əgər daxili siyasətdə "ümumi rifah" və "dövlət marağı" belə bir mühüm rol oynayırdısa, xarici siyasətdə o, daha böyük önəm təşkil edirdi. Rişelye bunu özünün hər addımında sübut edirdi. Katolik və Roma klsəsinin kardinalı olan Rişelye, Almaniyanın protestant knyazları ilə ittifaqa girərək, katolik inanclı İspaniya və Avstriyaya qarşı mübarizə aparırdı. Mütləq hakimiyyətin qatı tərəfdarı və fəal müdafiəçisi olan Kardinal Rişelye, Fransanın mənafeyi naminə Alman imperatoruna qarşı üsyankar alman knyazlarını dəstəkləyirdi. O, bütün etdiklərini "ümumi rifah" və "dövlət marağı" prinsiplərini həyata keçirməsi ilə əsaslandırırdı.

2.XVI-XVIII əsrlərdə xarici siyasət və diplomatik orqanlar. Diplomatik xidmət

"...Mütləq monarxiya keçid dövrlərində yaranır, köhnə feodal mülkləri parçalanarkən, orta əsr mülki şəhərliləri müasir burjuaziya sinfi kimi formalaşır, qarşı –qarşıya duran tərəflərdən heç biri hələ ki, digəri üzərində üstünlük qazanmamışdır"(Karl Marks). Əsilzadələrlə burjuaziya arasında manevr edən kral hakimiyyəti geniş sərbəstliyə nail oldu. Bu da onun xarici siyasətinə və diplomatiyasına təsir etdi. O dövrdə, tam gizli şəkildə aparılan diplomatiya xüsusi cəlb olunan insanların məhdud bir dairəsi ilə məhdudlaşırdı. Siyasətin yarandığı mərkəz kral sarayı idi. Mütləq monarxiyada yalnız sülalə maraqları və kralın özünün

şəxsiyyəti əhəmiyyət kəsb etmirdi. Eyni zamanda, Krala təsir edən yaxın adamlarının, məşuqələrinin və sadəcə olaraq çevik fitnəkarların da rolu mühüm əhəmiyyətə malik olurdu. Onlar, öz fəaliyyətləri ilə ölkənin və onun öncül burjua sinfinin mənafeyinə xələl gətirirdilər.

XV-XVI əsrlərdə formalaşmış iri Avropa dövlətləri ilk dəfə olaraq özlərinə uyğun daimi mərkəzi və yerli qurumları - idarə sistemini və ordunu yaratdılar. XVI yüzillik yeni dövlətin xarici siyasətinə qulluq edən diplomatik xidmətin, mərkəzin və yerli idarələrin formalaşdığı əsr idi. XVII əsrdə hətta Almaniyanın iri knyazlıqları da xaricə öz daimi nümayəndələrini göndərməyə başladılar.

Humanistlərin təsiri altında tədricən hər bir diplomat üçün məcburi xarakter daşıyan diplomatik məlumatlar və hesabatlar üslubu yaranır. XV-XVI əsrlərdə İtaliya hökmdarları, humanistlərdən xarici işlər üzrə katib kimi istifadə edirdilər: bu, diplomatiyaya gözəl nitq və yazı üslubunun daxil olmasına kömək etmişdi. Diplomatik natiqlik sənətinin ilk təmsilçilərindən biri Florensiyanın kansleri, məşhur humanist Kolyuccio Salyutati idi. Onun məktubları XVI əsr diplomatları üçün bir növ nümunə olurdu. Venesiya səfirlərinin hesabatları da heç də az əhəmiyyət kəsb etmirdi. Venesiyanın xaricdəki nümayəndələrinin, dar bir dairə üçün nəzərdə tutulan hesabatları, geniş kütləyə sızdırılırdı. Belə hesabatların toplusu artıq XVI əsrdə hamıya məlum idi.

İmperiyaya və İspaniyaya sahib olan Habsburqların ailə münasibətləri, daimi ünsiyyət və fikir mübadiləsi aparmalarına səbəb olurdu. Xüsusilə, V Karl taxtdan imtina etdikdən sonra (1555), Habsburqların mülkləri bu sülalənin böyük və kiçik xəttləri arasında bölündükdən sonra bu münasibətlər yenidən canlandı.

Papa X Leonun hökmranlığı dövründə (1513-1521) diplomatik fəaliyyətin inkişafı üçün böyük imkanlar yarandı. Mediçi əsilli olan Papa öz vətənində, Florensiyada daimi diplomatik missiya ilə yaxşı tanış idi. 1513-cü ilin avqustunda kardinalların yığıncağında Almaniya, Fransa və İngiltərəyə daimi nümayəndələr (nuntsiyalar) təyin etdi. Beləliklə, daimi papa nuntsiyalığının əsası qoyulmuş oldu.

Daimi diplomatik nümayəndələr institutunun geniş yayılmasına mane olan səbəblər səfirlərin və səfirliklərin saxlanması ilə bağlı yüksək xərclər, yaxşı əlaqə yollarının və vasitələrinin olmaması, təcrübəli və yaxşı hazırlanmış diplomatların sayının az olması idi. Bununla belə, XVI əsrin sonunda daimi diplomatik nümayəndəlik institutu az-çox möhkəmlənir, eyni zamanda, müəyyən formada diplomatik iyerarxiya formalaşırdı. Diplomatik iyerarxiyada olan münasibətlər nümayəndəni göndərən dövlətin nüfuzundan asılı idi. Fransa, İspaniya və İngiltərə kralları öz səfirlərinə, Milanın hər hansı hersoqundan və ya bir alman zadəganından daha çox hörmət edilməsini tələb edirdilər.

Elçililərin qəbul edilməsi mərasimində tədricən müəyyən ənənələr formalaşırdı. Xüsusilə böyük dövlətlərdə, səfirlə yanaşı, diplomatik heyət də yaradılır, səfirliyin özündə iyerarxiya yaranırdı. XVI əsrdə. səfirlə adi agent və ya rezident arasında dəqiq fərq qoyulurdu. Bütün hökmdarların səfir təyin etmək hüququ tanınmırdı. Almaniya imperatoru V Karl, öz sarayında yalnız Papanın səfirini, Fransa kralının səfirlərini, qardaşı Ferdinandın (Roma kralı, yəni Almaniya kralı) səfirini və Venesiya səfirini qəbul edirdi. İmperatordan və ya digər böyük monarxdan asılı olan hökmdarların onun sarayında yalnız sadə agentləri ola bilərdi.

Dövlətlər arasında adi diplomatik münasibətlər adətən kifayət etmirdi. Ona görə də, daimi diplomatik nümayəndəliklə yanaşı, fövqəladə səfirliklərin göndərilməsi də qüvvədə qalmaqda davam edirdi. Onlar xüsusilə mühüm hallarda, məsələn, hökumətlər arasında birbaşa danışıqların aparılması zəruri olduqda, yeni hökmdarın taxta çıxdığı zaman lazım olurdu. Bununla bağlı bəzi çətinliklər də yaranırdı. Fövqəladə səfirlər təkcə öz dövlətlərinin daimi səfirinə münasibətdə deyil, həm də digər dövlətlərin səfirləri sırasında da əsas yerin onlara ayrılmasını tələb edirdilər. Bəziləri, xüsusilə də böyük dövlətlər öz ləyaqətlərinə xələl gətirmək istəməyərək, öz sıravi səfirlərini fövqəladə elçilər səviyyəsinə qaldırmağa başladılar. Artıq XVII əsrdə, bu ənənə geniş yayıldı.

XVI-XVIII əsrlər, yeni diplomatik mərasimlərin formalaşdığı dövr idi. Artıq İmperator V Karlın dövründə ölkəyə gələndə və qəbul vaxtı səfirlərə göstərilən hörmət və ehtiramlar ciddi şəkildə formalaşdırılmış bir xarakter aldı. Mərasimdə səfirləri İspaniyaya gələn hər bir dövlətin nüfuzu və əhəmiyyəti nəzərə alınırdı. XVI əsrdə, Fransada da səfirlik qəbullarının mənsəb dərəcələri tədricən formalaşmağa başladı. Britaniyalılar uzun müddət diplomatik mərasimlərə daha alicənab və sadə yanaşmışdılar. XVII əsrdə, İngiltərədə əsilli-nəcabətli şahzadələr adi səfirləri qarşılamağa gedirdilər. Bu addımlarına görə ingilislər diplomatik rəftarın incəliklərini daha yaxşı bilən fransızlar tərəfindən dəfələrlə istehza ilə qarşılanırdılar. Və yalnız, İngiltərədə fransız ənənəsini pərəstişkarı I Karl Stüartın dövründən sonra müəyyən diplomatik mərasimlər formalaşdırıldı.

Bu mərasimlər -ənənələr sistemi beynəlxalq münasibətlər baxımından mühüm əhəmiyyətə malik olmuşdur. Səfirin ölkəyə daxil olması və xüsusilə birinci qəbul zamanı davranışı, eləcə də onu qəbul edən hökmdar və ya nazirin cavab hərəkətləri dövlətlərin münasibətini, beynəlxalq həyatda nisbi mənsəbini şərtləndirirdi. Təntənəli qəbul mərasimində qəbul edilmiş qaydadan hər hansı bir kənara çıxma hərəkəti, bu mərasim iştirakçıları tərəfindən ya münasibətlərin dəyişməsinin göstəricisi, ya da şərəfə toxunma əlaməti kimi qəbul olunurdu. Ya da əksinə, səfir və ya onu qəbul edən şəxs tərəfindən təmsil olunan ölkəyə xüsusi ehtiram olunma kimi baxılırdı. Ona görə də xırda ədəb-ərkanla bağlı daim mübahisələr gedirdi.

Başqa bir dövlətə göstərilən ehtiramları əldə etmək üçün gələn səfirləri sıxışdırırdılar. Onlar, öz səfirinə yetərincə diqqət göstərilməməsini öz hökmdarını aşağılamaq addımı kimi başa düşürdülər.

XVI və XVII əsrlərdə, Papalığın sarayında, xüsusi bir ənənə qoyulmuşdu. Papa tərəfindən həyata keçirilən təntənəli qəbul zamanı, onun dini idarə sistemini (konsistoriya) təşkil edən kardinallar kollegiyası da iştirak edirdi. Səfir başı açıq vəziyyətdə Papanın sözlərini dinləməyə borclu idi. Papa, İmperatorun, taxt-tac sahiblərinin və Venesiya respublikasının səfirlərini böyük Kral salonunda, digər hökmdarların səfirlərini isə kiçik Hersoq zalında qəbul edirdi. Elə səfirlər də olurdu ki, Papa onları, öz kabinetində bir neçə kardinalın iştirakı ilə qəbul edirdi. Çünki, belə bir qəbulla səfirin nəzərinə çatdırılırdı ki, onun üçün xüsusi mərasim tərtib olunmayıb. Kipr kralı titulunu alan Savoyya hersoqu Papadan onun səfirlərini Böyük salonda qəbul etməyi tələb etdi. Ancaq rədd cavabı alanda o, incidi və bir müddət öz nümayəndəsini Papalığa göndərmədi. Genuya respublikası bir neçə milyon pul təklif etdi ki, Papa onun səfirlərini Böyük salonda qəbul etsin. Papa Venesiyanın təzyiqi ilə bu təklifdən imtina etməli oldu, çünki, Venesiya Genuyanın onunla eyni dərəcəyə sahib olmasını istəmirdi. 1672-ci il sentyabrın 13-də Moskva çarının nümayəndə heyəti də Romaya səfər etdi. Ona, Böyük salonda rəsmi qəbul mərasimi keçirdilər. Papa onu on beş kardinalın əhatəsində qəbul etdi. Lakin, Moskva səfiri dindar katolik kimi eyni mərasimi icra etmək məcburiyyətində qaldı - o, üç dərin təzim etməli və papanın ayaqqabısını öpməli idi. Adi rəsmi qəbullar zamanı Papa qırmızı ipəklə üzlənmiş kresloda əyləşirdi. Səfirə stulda oturmağa icazə verilirdi, lakin səfir bütün qəbul mərasimi zamanı başını örtə bilməzdi.

Fransada da belə oxşar mərasimlər keçirilirdi. Burada, taxt- tac sahiblərinin səfirləri və Papa nuntsiləri nəsli şahzadələr tərəfindən qarşılanaraq qəbul salonuna gətirilirdi. Papa sarayından fərqli olaraq, Venesiya səfirləri daha aşağı səviyyədə qarşılanırdılar. Onlar belə şərəfə layiq görülmürdülər.1635-ci ildə ingilis səfiri, Fransaya gələrək, o vaxt Parisdən kənarda yerlıəşən kral sarayına gələndə, bu sarayda bir dənə də olsun nəsli şahzadə olmamışdı. Səfir bəyan etdi ki, nəsli şahzadə onu qarşılamayana qədər, o, öz yerindən tərpənməyəcək. Saraydakılar Parisdən şahzadə çağırmağa məcbur oldular.

İngiltərədə I Karl tərəfindən həyata keçirilən səfirlərin təntənəli qəbul mərasiminin mənsəbi ilə bağlı ciddiliyi, monarxiyanın bərpasının ilk illərində onun varisi II Karlın İngilis inqilabının çətin illərində sığınacaq tapdığı kiçik Hollandiyanın səfirliyi üçün təntənəli rəsmi qəbul təşkil etməyə mane olmadı. 1660-cı ildə, Birləşmiş Əyalətlər respublikası (Hollandiya) kralı taxt-tacının "bərpa olunması" münasibəti ilə salamlamaq üçün İngiltərəyə fövqəladə səfirlik göndərdi. Səfirlik İngiltərəyə noyabrın əvvəlində gəlmişdilər. Londonda bir neçə gün məxfi

yaşadıqdan sonra səfirlər Qrinviçə yola düşdülər. Burada onları, kralın adından lord Riçard öz məiyyəti ilə birgə qarşıladı. Hollandiya nümayəndələri, ixtiyarlarına verilən gəmilər ilə, yenidən, lakin artıq təntənəli şəkildə Londona gəldilər. Səfirləri, sahildə Lord Qreven iyirmi kareta ilə qarşıladı. Səfirlər Baş mərasim ağası Abraham Uilyamsın sarayına gətirildilər və orada dincəldikdən sonra, rəsmi qəbula getdilər. Hər yerdə onlara kral səfirlərinə edilən bütün hörmət və ehtiramlar göstərildi. Bu səfirlik haqqında yazan holland tarixçisi qeyd edirdi ki, tarixdə ilk dəfə olaraq Birləşmiş Əyalətlərin səfirləri, hətta ölkədən kənarda, lord tərəfindən qarşılanmaq şərəfinə nail olmuşdular.

3.Beynəlxalq hüquq elminin yaranması

Böyük dövlətlərin yaranması və onlar arasında diplomatik münasibətlərin inkişafı müvafiq nəzəriyyənin də yaranmasına səbəb oldu. Diplomatik hüquq və beynəlxalq hüquq meydana çıxdı. 1582-ci ildə hollandiyalı Baltazar Ayala "Müharibə hüququ və hərbi qurumlar haqqında" əsərini nəşr etdi. Burada o, təcrübə və məqsədəuyğunluq mülahizələrinə əsaslanaraq, səfirliklərin toxunulmazlığı nəzəriyyəsini işləyib hazırlamışdı. İtalyan Alberiko Centilinin "Səfirliklər haqqında" (1585) əsəri geniş yayılmışdı. Bu müəllif beynəlxalq hüququn banisinin - hollandiyalı Huqo Qrotsiyanın ən tanınmış sələflərindən biri idi. Əslən Ankonadan olan Alberiko Centili protestantlığı qəbul edərək, İtaliyanı tərk etməyə məcbur oldu. Sonra Oksford universitetində professor oldu. Bir hüquqşünas kimi o, Mariya Stüartın tərəfində kraliça Yelizavetaya qarşı sui-qəsddə iştirak edən İspaniya səfiri Mendozanın fəaliyyəti barədə danışmalı olmuşdu. Bu məsələ ilə bağlı olaraq o, səfirin hüquq və vəzifələri haqqında bütöv bir elmi əsər yazmışdı. Centili İngiltərədə beynəlxalq hüquq elminin inkişafına böyük təsir göstərmişdir.

Beynəlxalq hüquq elminin inkişafı ilə bağlı birincilik, şübhəsiz ki, Huqo Qrotsiyə (1583-1645) aiddir. Məşhur holland hüquqşünasının fəaliyyətinin tarixi əhəmiyyəti ondan ibarət idi ki, mütləqiyyətçi, yəni zadəgan dövlətlər arasında, soyğunçuluq və dağıntılarla müşayiət olunan uzun müharibələr dövründə o, burjuaziyanın şəxsi mülkiyyətə malik olmasını nəzəri cəhətdən əsaslandırmağa və müdafiə etməyə, eyni zamanda, müharibəni hüquqi normalar çərçivəsinə salmağa çalışırdı. Qrotsiyə məşhurluq gətirən "Müharibə və sülh hüququ haqqında" (1625) əsərində, insanın "adi təbii hüququna" əsaslanan mülkiyyət hüquqlarından, "zəkanın məntiqi diktəsindən, yəni fitri ağıl " hüquqlarından bəhs açılırdı.

Ədalətli hüquq adi təbii hüquq, yəni, dövlət tərəfindən verilən qanunlar əsasında qurulur,. Ədalətli hüququn mənbəyi müqavilədir. Müqavilə beynəlxalq hüququn əsasını təşkil edir. Qrotsinin ayrı-ayrı aktorlar olaraq göstərdiyi dövlətlər öz aralarında təkcə sülh dövründə deyil, həm də müharibə dövründə münasibətləri

tənzimləyən normal qaydalar barədə razılığa gəlirlər. Qrotsiyəyə görə, müharibə, təbii həqiqətdir. O, insanın özünü qorumaq istəyindən irəli gəlir. Lakin, müharibə yalnız ədalətin bərpası uğrunda aparılmalıdır. Hətta, o, ən gərgin həddinə çatdıqda belə, qanun çərçivəsində və vicdanla həyata keçirilməlidir. Müharibənin ədalətli olması üçün döyüşən tərəflərdən ticarət azadlığına, mühacirət azadlığına, dənizlərin azadlığına və əgər "düşmən hesabına zərərin ödənilməsi və iddiaların təmin edilməsi" tələbi yoxdursa, bu halda düşmən mülkiyyətinin toxunulmazlığına hörmət etmək tələb olunur.

Qrotsi öz əsərinin bütöv bir fəslini səfirin hüquqlarına həsr etmişdir. Bu fəsil, XVII əsrin əvvəllərində səfirlərin hüquqları ilə bağlı formalaşmış ənənələrin təsvir edilməsi baxımından maraqlıdır. Qrotsi yazır: "Bütün hamı tərəfindən səfirin iki əsas hüququ tanınır: 1) Onun, yanına göndərildiyi hökmdar tərəfindən qəbul olunmaq hüququ; 2) Səfirin özünün, onun məiyyətinin və əmlakının toxunulmazlığı." Qrotsi vurğulayır ki, səfirin hüquqları yalnız adi təbii hüququn dəyişməz prinsiplərindən irəli gəlmir, o, ayrı-ayrı xalqların iradəsindən, başqa sözlə, ölkənin adət-ənənələrindən asılıdır. Ona görə də müxtəlif ölkələrdə səfirin həm birinci, həm də ikinci əsas hüququna fərqli yanaşmalar olurdu. Səfirin qəbul olunmaq hüququ heç də o demək deyil ki, yanına göndərildiyi hökmdar onu mütləq qəbul etməyə borcludur. Sadəcə olaraq, səfirin qəbul edilməsindən imtina olunmanı ciddi şəkildə əsaslandırmaq lazımdır. Əgər səfir, ölkəni işğal etmiş düşmən tərəfindən göndərilirsə və ya onların təbəələrini üsyana təhrik etmək məqsədi ilə gəlirsə, o, haqlı olaraq qəbul olunmaq hüququndan məhrumdur.

Səfirin toxunulmazlığı ilə bağlı vəziyyətə münasibət tamamilə eynidir. Səfirin toxunulmazlıq formaları onun akkreditə olunduğu ölkənin adət-ənənəsindən asılıdır. Qrotsi hesab edir ki, hər halda, səfirin şəxsiyyəti hər bir əcnəbiyə aid olan ölkənin qanunlarına tabe olmaq qaydasından azad edilməlidir. Səfirin ekstraterritoriyası (mülkiyyətin toxunulmazlığı hüququ) həm də səfirin şəxsi toxunulmazlığı ilə bağlıdır. Qrotsi yazır: "Beynəlxalq hüquqa görə, səfir öz monarxının şəxsiyyətini təmsil edir, və o, öz funksiyalarını yerinə yetirdiyi dövlətin ərazisindən kənarda yerləşir. Buradan belə nəticə çıxır ki, o, göndərildiyi ölkənin qanunları ilə bağlı deyil. Əgər cinayət törədirsə, ya buna göz yumun, ya da onu ölkədən çıxarın; onun cinayəti səfir olduğu ölkəyə xeyli ziyan vurubsa, onun hökmdarından ya cəzalandırılmasını, ya da səfirin ekstradisiyasını tələb etmək lazımdır. Səfirin şəxsi məiyyəti və onun əmlakı eyni toxunulmazlıqdan istifadə edir. Səfirlikdə sığınacaq hüququna gəldikdə, bu hüquq yalnız səfirin akkreditə olunduğu hökmdar tərəfindən icazə verildiyi təqdirdə istifadə olunur."

Hugo Qrotsinin onun əsərinin mühüm əhəmiyyəti ondadır ki, burada beynəlxalq hüququn nəzəri əsasları qeyd edilir. XVII əsrdə öz qarşılarına daha sadə məqsədlər

qoyan əsərlər nəşr olunmağa başladı. Daha doğrusu, bu əsərlərdə, səfirə verilən tapşırıqların daha yaxşı formada yerinə yetirilməsi üçün əməli təlimatlar verilirdi. Onlara- ingilis Riçard Saçın diplomatiyaya dair təlimatını (1650) və xüsusilə hollandiyalı Abraham Vikforun "Səfir və onun vəzifələri" (1676) kitabını misal gətirmək olar. O, bir neçə dəfə nəşr olundu və uzun müddət diplomatlar üçün stolüstü vəsait oldu.

4.XVI-XVIII əsr diplomatlarının məişəti və mənəvi həyatı. Diplomatların xarakterik tipləri

Daimi nümayəndəliyin yaradılması, diplomatların mövqeyini və fəaliyyətini tənzimləyən hüquqi normaların yaradılması diplomatiyanın xarici siyasətdə mühüm rol oynamağa başladığından soraq verirdi.

Amma diplomatik vəzifələri yerinə yetirən insanların şüurunda bu fəaliyyət dövlət maraqlarından daha çox şəxsi xarakter daşıyırdı. Səfirlər və digər böyük diplomatlar ali feodal zadəganları arasından seçilirdi. Bu sinifdə dövləti şəxsi mülk ilə eyniləşdirən köhnə fikirlər hələ də yaşayırdı. Yeni mərkəzləşdirilmiş dövlətdə zadəganlar xəzinənin gəlirlərinə öz varlanma mənbəyi kimi baxmaqda davam edirdilər. Bu məsələ, burjua dövlətinə tanış olan bir fenomeni ortaya çıxarırdı: feodal dövlətində hökm sürən bu yanaşma, birinci nazirdən tutmuş sonuncu xırda məmura qədər hamının rüşvət və satqınlıq hallarından istifadə etməsinə gətirib çıxarırdı. Bu qüsur mütləq monarxiyaların diplomatlarına da xas idi. Daha böyük səviyyədə, diplomatların özləri akkreditə olunduqları ölkələrdə nüfuzlu şəxslərdən və mühüm dövlət məmurlarından öz ölkələrinə mühüm məlumatlar əldə etmək üçün, onlara rüşvət verərək, satqınlığa sövq etməli olurdular.

Səfirlərin təlimatçısı Vikfor öz kitabında bu məsələ ilə bağlı bütöv bir fəsilə yer verərək qeyd edirdi: "Səfirə öz vəzifələrini yerinə yetirdiyi sarayın nazirlərinə rüşvət verməyə icazə verilir". Vikfor deyir ki, bir dəfə ingilis kralı I Yakovun yanına gələn bir centlmen, krala, ona toxunulmazlığına tam zəmanət verilməsi şərtilə, vacib bir sirr vermək istədiyini söyləyir. Belə bir zəmanət verildikdən sonra, həmin cənab krala demişdi ki, saray əyanları və kral şurasının üzvlərinin əksəriyyəti İspaniya kralından aylıq vəsait alırlar. I Yakov bu sadəlövh centlmenin sözlərini gülüşlə qarşılamışdı. Kral bütün bunların ona yaxşı məlum olduğunu bildirmiş. Eyni zamanda, kral əlavə etmişdi ki, əgər İspaniya kralı indikindən on dəfə çox pul versə, o, buna heç etiraz etməzdi, çünki, belə olan halda İspaniyanın İngiltərəyə qarşı müharibə etmək üçün bir o qədər az pulu olardı. Stüartların dövründə rüşvətxorluq çox geniş yayılmışdı, hətta bu məsələnin kral ailəsinin üzvlərinin özlərinə də təsir etdiyi məlumdur.

İngiltərə kralı II Karl, XIV Lüdovikdən sadəcə aylıq "əmək haqqı" alırdı. 1662-ci ildə o, Dunkerki Fransaya rəsmən 5 milyon livrə sataraq, 8 milyonluq məxfi qəbz verib, buradan belə çıxır ki, aldığı pulun 3 milyonunu öz cibinə qoyubdur. Kraliça Yelizaveta bu məsələlərdə çox sərt idi. O, İngiltərənin iki səfirini - Nikolay Klifford və Antoni Şerlini onun razılığı olmadan Fransa kralı IV Henrixdən "Müqəddəs Mixail" ordenini almağa cəsarət etdikləri üçün həbs etməyi əmr etmişdi. Kraliça, onların Fransaya, bəlkə də İngiltərənin mənafeyinə xələl gətirmək üçün xidmət göstərdiklərindən şübhələnirdi. Vikfor hesab edirdi ki, sadə bir şübhə, ən azı səfiri geri çağırmaq və onun fəaliyyətinə son qoymaq üçün kifayət edirdi.

XVI – XVII əsrlərdə hətta səfirlərlə bağlı "fəxri casus" ("espion honorable") kimi xüsusi termin də işlənib hazırlanmışdı. Hətta, XI Lüdovikin və VIII Karlın məşhur tarixşünası və diplomat kimi də məşhur olan Filipp de Kommin də öz xatirələrində yazırdı ki, xarici dövlətin hökmdarının nazirinə rüşvət verməklə onun işlərinə nüfuz etmək, səfir üçün "böyük bir məsələdir". Bu, onun öz hökmdarına göstərə biləcəyi ən böyük xidmətdir. Ona görə də Vikfor qeyd edir ki, xarici ölkənin nazirinə rüşvət verən səfir heç də beynəlxalq hüququ pozmur və hamı razılaşar ki, bu halda o, ancaq öz vəzifələrini yerinə yetirir. Ancaq, gərək səfir öz səlahiyyətlərini aşmamalı və akkreditə olunduğu ölkənin hökmdarının həyatına və ya ölkəsinin nizamına təhlükə yaradan şəxslərə rüşvət verməməlidir. Vikforun belə bir gülməli düşüncəsi vardır ki, səfirin rüşvətlə başqalarının sirlərinə nüfuz etmək öhdəliyi o qədər vacibdir ki, bu vasitədən istifadə etməyən ölkələr haqqında deyirlər ki, 50 mini itirmək istəməyən ölkələr milyonlarla pul vəsaiti itirəcəklər.

Belə dövlətlərdən biri, Birləşmiş Əyalətlər Respublikası igi (Niderland). Bu ölkənin məlumatları satın almaq üçün xüsusi vəsaiti yox idi. Belə ki, dövlət bu məsələ üçün vəsait buraxanda, bunu açıq şəkildə həyata keçirdiyindən, hamı bundan xəbər tuturdu. Halbuki, belə bir addım mütləq məxfilik tələb edirdi. Hollandiyada diplomatiya Oranlı şahzadələrin səlahiyyətində idi. Onlar isə, Fransa kralından aylıq vəsait almaqdan çəkinmirdilər. Və həqiqətən də, IV Henrixin naziri Jannenin 11 avqust 1609-cu il tarixli təlimatında maraqlı sətirlər vardır. Bu sənəddə, Fransanın Hollandiyada olan səfiri Preoya göstəriş verilir ki, o, Oranlı Moris və digər yüksək vəzifəli şəxsləri dəstəkləmək, onların fransız yönümlüyünü möhkəmləndirmək, Fransanın əsl düşməni olan İspaniyaya qarşı düşmənçiliyi gücləndirmək üçün, onlara müəyyən məbləğdə pul verməlidir. Kral IV Henrix təlimata əlavə etdiyi qeyddə bu məqsədlər üçün 100.000 livr vəsait ayırdığını bildirmişdi.

XVI-XVII və XVIII əsrlərin diplomatik dairələrində, kifayət qədər şübhəli adamlar fırlanırdılar və çoxlu qaranlıq işlər görülürdülər. Həmin dövrdə səfərlərin ləng hərəkəti və səfirlik kuryerlərinin səyahəti vaxtı, onların "naməlum şəxslər"

tərəfindən qarət olunması təhlükəsi, poçtların yoxlanma adı ilə oxunması və diplomatik agentlərin yollarda sadəcə yoxa çıxması adi hal idi. 1674-cü ildə, Fransa dövlətinin naziri Luvua, Fransa hökumətinin xoşu gəlmədiyi Avstriya səfiri Qraf Lizolu gizli şəkildə həbs etməyi məsləhət görərək, əlavə etmişdi ki, "hətta bu səfirin öldürülməsi də heç bir çətinlik törətməyəcək" .

Belə tapşırıqları öz üzərinə götürən agentlər arasında bəzən yüksək vəzifələrə çatan və siyasətdə böyük rol oynayan şəxslər də var idi. Bunlar, ixtisasca diplomat, daxili meyli etibarilə avantürist, vətənsiz, vicdansız insanlar idilər. Onlar çox pul verənə xidmət edirdilər və hamıdan eyni zamanda qazanmağı bacarırdılar. Xüsusilə XVIII əsrdə, mütləq monarxiyaların tənəzzülü zamanı onların sayı xeyli çoxalmışdı. Köhnə aristokratik monarxiyanın bərbad quruluşunda dağıdıcı fəaliyyyətlə məşğul olaraq, onun tənəzzülünü sürətləndirirdilər. Onların bəziləri öz qabiliyyətlərinə görə diplomat və siyasətçi kimi Avropada məşhurlaşmışdılar.

Belə şəxslərdən biri, İspaniya kralı V Filipin Birinci naziri, daha doğrusu, onun ikinci həyat yoldaşı Parmlı Yelizavetanın (Farnes) köməkçisi Culio Alberoni (1664-1752) idi. Mənşəcə italyan, kasıb şərabçının oğlu olan Alberoni, öz bacarıqları, təhsili və xüsusilə müstəsna hiyləgərliyi sayəsində abbat və nəcib zadəgan ailələrindən olan yetkinlik yaşına çatmayanların tərbiyəçisi oldu. Alberoninin mənsəbi və himayədarlarının təsiri, ona vəzifə nərdivanında sürətlə yüksəlməyə imkan verdi. 1702-ci ildə o, Vandom hersoqunun vasitəçisi və siyasi məsləhətçisi oldu. Hersoq, onu Kral XIV Lüdovikin özünə təqdim etdi.

Qoçaq fırıldaqçı çox tez bir zamanda kralın rəğbətini qazanmağa nail oldu və ondan 3000 livr aylıq maaş alırdı. XIV Lüdovik yanından o, kralın nəvəsinin, İspaniya kralı V Filippin sarayına keçdi. Burada o, həm siyasətçi qabiliyyətinə, həm də kral və kraliça üçün italyan yeməkləri hazırlamaq bacarığına görə tezliklə Birinci nazir vəzifəsinə çatdı. Kraliçanın ölümündən sonra o, kralı öz hökmdarı Parma hersoqunun qardaşı qızı, Yelizaveta adlı hökmlü və ağıllı qadınla evləndirdi. Alberoni, onunla birlikdə İspaniyanı 1719-cu ilə qədər idarə etdi. O, müstəsna bacarıqlı diplomat idi. O, İspaniyanın Utrext sülhü ilə itirdiyi İtaliya əyalətlərini geri qaytarmağı və ölkəni əvvəlki güc və nüfuzuna qaytarmağı öz qarşısına məqsəd olaraq qoydu. Bunun üçün, ilk növbədə İspan varisliyi uğrunda gedən müharibə zamanı İngiltərə, Avstriya və Hollandiyadan yaradılmış köhnə anti-İspaniya koalisiyasını dağıtmaq lazım idi.

Eyni zamanda, Alberoni Fransa tacına sahib olmaq istəyən İspaniya kralının iddialarını təmin etmək məcburiyyətində qalaraq, bu istiqamətdə məharətlə fitnə-fəsad yaratmağa başladı. O, Fransaya qarşı hərəkət edirdi. Bununla belə o, həmişə qorxurdu ki, hər an öz xanım hökmdarının rəğbətini itirə bilər və bununla da bütün vəzifələrindən məhrum ola bilərdi, çünki ispan zadəganları ona özündən razı və

yaramaz adam kimi nifrət edirdilər. Alberoni bir dəfə demişdi ki, "Mən türk qalerasında (hərbi gəmi) avarçəkən olmağı daha üstün tuturam". Alberoni diplomatik oyunlarda çox bacarıqlı idi.

O, İngiltərəyə Amerikada yerləşən ispan müstəmləkələri ilə ticarət etməyə icazə verərək, onunla ittifaq bağladı. Alberoni, Fransada, varisin əleyhdarları olan Orlean hersoqunu qızışdırır, türkləri Habsburqlara qarşı təşviq edir, barışmaz düşməni - İngiltərə kralı I Georqa pislik etmək məqsədilə, İsveç kralı XII Karlı I Pyotrla barışdırmağa çalışır və İngiltərədə devrilmiş Stüart sülaləsinin tərəfdarlarını-yakobitləri gizli şəkildə dəstəkləyirdi. Alberoni öz fitnəkarlığı ilə, İspaniyanın İngiltərə və Fransa ilə şərəfsiz müharibəyə cəlb edilməsinə böyük töhfə verdi. Yalnız 1719-cu ildə, V Filipp sülh bağlamağa məcbur oldu. Onunla birlikdə, Fransa və İngiltərə hökumətlərinin tələbi ilə, İspaniyadan qovulan Alberoni də məğlub oldu.

XVIII əsrdə yaşayan, fitnəkar, xəyalpərəst və fransız xaini olan qraf Klod Aleksandr Bonneval da müxtəlif xarakterlərə malik şəxs olmuşdur (1675-1747). O, öz baxışlarına və davranışlarına görə əsl feodal idi. O, həddən artıq cəsarətə, eyni zamanda nadir siyasi uzaqgörənliyə, sarsılmaz enerjiyə malik olan və bir yerdə qərar tuta bilməyən xarakterə malik bir insan idi. Orta əsrlərdə vassalların öz senyorlarını tez-tez dəyişdirdiyi kimi, o da, öz hökmdarlarını tez-tez dəyişdirməyə hazır idi. Fransa naziri Şamilyar ilə dalaşaraq, Avstriya xidmətinə keçdi və 1709-cu ildə öz həmvətənlərinə qarşı döyüşdü. Sonra o, məşhur avstriyalı sərkərdə Yevgeni Savoyskinin komandanlığı altında türklərə qarşı vuruşdu, lakin onunla da anlaşa bilmədi.

Avstriya hökuməti tərəfindən, o zamanlar Avstriyaya məxsus olan Belçikaya səfir kimi göndərildi. Bonneval burada, İspaniya və Fransa ilə gizli əlaqələr saxlamağa başladı. Buna görə, həbs edildi və az qala dar ağacından asılacaq idi, lakin Avstriya ərazisindən qovulmaqla canını qurtara bildi. Bonneval Türkiyəyə getdi və orada "Türk lütfünə nail olması, onu türk ordusunun köməyi ilə Şahzadə Yevgenidən əvəz çıxmaq kimi qarşısıalınmaz bir istəklə ruhlandırdı". Peyğəmbərin imanını qəbul edib, başına çalma qoyaraq, Əhməd Paşa Bonnevala çevrildi, lakin feodal kimi düşünməkdən - yeni bir səlib yürüşü xəyalından əl çəkməmişdi. Eyni özü kimi xəyalpərəst olan tanınmış Kazanova demişdi ki, əgər onun komandanlığına 50.000 yəhudi əsgərlərdən ibarət ordu verilsə, o, Qüdsü mühasirəyə almağa gedər.

O, türk sultanının siyasi müşaviri olaraq, bütün enerjisini I Pyotrun Rusiya imperiyasının cənuba və Yaxın Şərqə doğru istiqamətlənən hərbi fəaliyyətinə qarşı sədd çəkməyə yönəltdi. O, Rusiyanın yüksəlişindən eyni dərəcədə əziyyət çəkən üç dövlətin (İsveç, Türkiyə və Polşa) Rusiyaya qarşı müdafiə ittifaqı planını yüksək qiymətləndirirdi. Bu baxımdan onun planları fransız diplomatiyasının planları ilə tamamilə üst-üstə düşürdü. Ona görə o, hər vəchlə Fransa hökumətini bu üç dövləti

fəal dəstəkləməyə və Fransanı Türkiyə ilə möhkəm ittifaq yaratmaq yoluna sövq etməyə çalışırdı.

Fədakarlığının mükafatı olaraq o, Saqqız adasına vali təyin edilir, lakin öz diqqətsizliyi və saray əyanlarının hiylələri tezliklə Sultan I Mahmud (1730-1754) qəzəbinə düçar olur və o, 1738 –ci ildə Qara dəniz yaxınlığındakı kiçik paşalığa şərəfli sürgünə göndərilir. Lakin bir il sonra Sultan I Mahmud Bonnevalın Konstantinopola qayıtmasına icazə verdi, burada hörmətlə əhatə olunsa da, ölənə qədər işdən uzaq saxlanıldı. Qocalıq çağında onda Avropaya qayıtmaq istəyi yarandı, lakin 1747-ci il martın 23-də Konstantinopolda öldü.

5.XVI-XVIII əsrlərin diplomatiya tarixinin dövrləşdirilməsi və Avropa dövlətlərinin xarici siyasətinin və diplomatiyasının əsas istiqamətləri

XVI- XVIII əsrlərdə Avropada beynəlxalq ziddiyyətlərin üç əsas düyünü, üç münaqişə ocağı var idi ki, onlar hər dəqiqə müharibəyə çevrilmək təhlükəsi yaradırdı:

1) Avropanın qərbində XVI- XVIII əsrlərdə, dörd qabaqcıl dövlətinin - İspaniya, Fransa, İngiltərə və XVII əsrdən. Hollandiyanın ticarət və müstəmləkəçilik maraqları toqquşurdu;

2) Avropanın cənub-şərqində, XVI əsrdə yaranan və artıq XVIII əsrdə şərq məsələsi nəhayət tam formalaşdı- Avropa dövlətləri ilə əzəmətli Osmanlı İmperiyası arasındakı münasibətlərdə problemlər yarandı;

3) Avropanın şimal-şərqində şimalın böyük dövlətləri üç yüzillik ərzində Baltik dənizində hökmranlığın kimə məxsus olduğunu müəyyən etmək üçün, qızğın mübarizə aparırdılar.

Bu üç düyün bir-biri ilə əlaqəli olduqlarına görə, bir-birilərinə təsir edir, beynəlxalq münasibətlərdə ən gözlənilməz və mürəkkəb planlar tərtib edirdilər.

XVI əsrdə, yeni dünyanın və Hindistana dəniz yolunun kəşfindən sonra müstəmləkələr əldə etmək və okeanın əks tərəfində öz torpaqlarını genişləndirmək məsələsi ilk növbədə Qərb dövlətləri üçün tam kəskinliklə ortaya çıxmış oldu. Avropada gedən mübarizə müstəmləkələrdə başlayan mübarizə ilə mürəkkəbləşdi. Hər bir Avropa münaqişəsi, Qərb dövlətlərinin müstəmləkə mülkiyyətlərində dəyişikliklərə səbəb olurdu.

XVI əsrdə, Fransa və İspaniya Avropanın ən güclü müstəmləkəçi dövlətləri idi. XVI əsrin ikinci yarısından, İngiltərənin müstəmləkə gücü böyüməyə başladı. Elə XVI əsrin ikinci yarısında, Niderland inqilabı baş verir. Niderlandda ispan hökmranlığına qarşı baş verən üsyan nəticəsində, XVI əsrin sonunda, yeni müstəqil dövlət yaradıldı. Bu dövlət, Avropada Birləşmiş Əyalətlərin ilk burjua respublikası idi və o, tarixdə daha çox Hollandiya Respublikası adı ilə tanınırdı. XVI əsrdə

Avropanın qərbində beynəlxalq münasibətlərin əsas məzmunu, Avropa qitəsində Fransa ilə İspaniyanın mübarizəsi, İngiltərə ilə İspaniyanın dənizlərdə üstünlük uğrunda apardığı rəqabət idi.

Bu mübarizənin nəticəsində, İngiltərə ilə rəqabətdə və xüsusilə holland təbəələri ilə mübarizədə İspaniyanın qüvvələri zəiflədi, İngiltərə, Fransa və Hollandiya gücləndi. XVII əsrdə Fransa qitənin ən güclü dövlətinə çevrildi və Avropada hegemon olmaq üçün iddia qaldırdı. XVII əsrdə böyük müstəmləkələrə malik Fransa dövləti yarandı. İngiltərə burjua inqilabından sonra, iki dəniz dövləti - İngiltərə və Hollandiya arasında dənizdə hökmranlıq uğrunda mübarizə başlayır və bu mübahisə İngiltərənin xeyrinə həll olunur. XVIII əsrdə, İngiltərənin Avropada ancaq bir güclü rəqibi qalır - Fransa. XVIII əsrdə onların arasında gedən mübarizədə Fransa qitənin ən güclü dövləti olaraq qalır, lakin periferiyada yerləşən müstəmləkələrinin əksəriyyətini itirir. XVIII əsrin sonlarına doğru İngiltərə, nəinki Avropanın ilk dəniz və müstəmləkə dövlətinə çevrilir, həm də yavaş-yavaş bütün dünya üçün istehlak malları istehsal edən "dünya emalatxanasına" çevrilir.

Bütün bunlar, XVI- XVIII əsrlərdə Avropanın qərbində beynəlxalq münasibətlərin əsas ümumi təsvirləri idi.

Ona görə də bu üç əsrin dövlətlərarası münasibətlər və diplomatiya tarixini üç dövrə bölmək olar:

1. Avropada İspaniya hökmranlığı dövrü, demək olar ki, bütün XVI əsri əhatə edir. Bu, eyni zamanda, İspaniyanın feodal-kapitalist irticasının dayağı kimi fəal iştirak etdiyi kəskin dini müharibələr dövrüdür. Avropanın qərbində bu, ispan-fransız rəqabəti və mübarizəsi dövrüdür.

2. Avropada Fransa hegemonluğu dövrü. Onun ən yüksək nöqtəsi Vestfal sülhü (1648) və XIV Lüdovikin bu məsələ bağlı xarici siyasətidir. Bu, həm də Fransa ilə Hollandiya arasında gərgin mübarizə dövrü, gənc Niderland Respublikasının və onun nümayəndələrinin parlaq diplomatik fəaliyyəti dövrü, İngiltərənin, xüsusən XVII əsr burjua inqilabından sonra, əhəmiyyətli dərəcədə güclənməsi və Avropada diplomatiyasının rolunun artması dövrüdür.

3. Üçüncü dövr təxminən XVIII əsrə təsadüf edir. Bu, hər şeydən əvvəl, İngiltərə ilə Fransanın müstəmləkələr və dünya siyasətində liderlik uğrunda mübarizəsi dövrüdür.

Bu zaman Avropanın şərqində gənc Rusiya İmperiyası beynəlxalq münasibətlərin daimi iştirakçısı kimi ortaya çıxır.

Bütün bu beynəlxalq ziddiyyətlərin ən parlaq ifadələri, XVII - XVIII əsrlərin üç əsas ümumavropa münaqişəsində öz əksini tapmışdır: Otuz illik müharibə (1618-1648), İspan varisliyi uğrunda müharibə (1701-1714) və Yeddiillik müharibədə (1756-1763).

BİRİNCİ FƏSİL

Yeni dövrün ərəfəsində və qovşağında dövlətlərarası münasibətlər: əsas qanunauyğunluqlar və səciyyəvi xüsusiyyətlər

II BÖLMƏ

XVI əsrdə dövlətlərarası münasibətlər və diplomatiya

1.Avropada ispan əzəməti dövrü. İspaniya V Karlın və II Filipin hakimiyyəti dövründə

1.1.İspaniya kralı I Karl və Müqəddəs Roma imperatoru V Karl Habsburqun diplomatiyası

1.2. II Filipin hakimiyyəti dövründə İspaniyanın xarici siyasəti

2.XVI əsrdə Fransa diplomatiyası

3.XVI əsrdə İngiltərə diplomatiyası

4. XVI əsrdə Moskva dövlətinin diplomatiyası

4.1.III İvan dövründə Moskva böyük knyazlığının diplomatiyası

4.2 IV İvanın diplomatiyası

1. Avropada ispan əzəməti dövrü. İspaniya V Karlın və II Filipin hakimiyyəti dövründə

1.1.İspaniya kralı I Karl və Müqəddəs Roma imperatoru V Karl Habsburqun diplomatiyası

1.2. II Filipin hakimiyyəti dövründə İspaniyanın xarici siyasəti

1.1.İspaniya kralı I Karl və Müqəddəs Roma imperatoru V Karl Habsburqun diplomatiyası

XV əsrdə, İngiltərə 3,5-4 milyon əhalisi olan kiçik bir dövlət idi. XVI əsrin əvvəllərində Avropada iki dövlət – Fransa və İspaniya öz ərazi birləşmələrini tamamlamışdılar. 15 milyon əhalisi olan Fransa birinci yeri, 10 milyon əhalisi ilə İspaniya ikinci yeri tuturdu. Artıq, XVI əsrdə beynəlxalq həyat şəraitin dəyişilməsi ilə bağlı İspaniya birinci yerə keçdi.

Portuqalların və ispanların təşəbbüskarlığı nəticəsində XV əsrin sonunda, yeni dünyanın kəşf olunması ilə, Amerika (1492) və Hindistana dəniz yolunun (1498) müəyyən edilməsi hər iki ölkəni xeyli zənginləşdirdi.

1516-cı ildə, İspaniyanın birləşdirici kralları olan Ferdinand və katolik İzabellanın nəvəsi gənc I Karl (1500-cü il təvəllüdlü) İspaniya kralı oldu. Karl, Burgundiya hersoqu Filipp və İspan infantası (şahzadəsi) Xuananın oğlu idi. Atası

Avstriyanın Habsburqlar nəslindən olduğuna görə, I Karl həm də Almaniya imperatoru I Maksimilian Habsburqun nəvəsi idi. Atası Filip 1506-cı ildə öldü və anası Xuana dəli oldu. Karl 17 yaşına qədər Hollandiya hökmdarı olan bibisi Avstriyalı Marqaritanın himayəsi altında yaşamışdı.

İmperator Maksimilianın ölümündən sonra alman kürfüstləri və knyazları onu V Karl adı ilə Almaniyanın imperatoru seçdilər (1519). O dövrdəki ispan mülklərinin tərkibinə Amerikada yeni kəşf edilmiş müstəmləkələr, Hollandiya, Neapol krallığı və Sardiniya daxil idi. Eyni vaxtda İspaniya, Almaniya, İtaliyaya və okeanın o tayında olan torpaqlara sahib olan I Karl (Almaniya imperatoru kimi o, V Karl idi) haqqında deyirdilər ki, onun mülklərində günəş heç vaxt batmır. Bu ərazi, həqiqətən də Avropada çox böyük, bu dövrə qədər görünməmiş dünya imperiyası idi. Lakin, bu imperiyanın əsaslarını təşkil edən İspaniyanın sırf feodal xarakteri, V Karlın bütün monarxiyasının strukturunu, eləcə də onun xarici siyasətinin istiqamətini əvvəlcədən müəyyənləşdirdi.

Yeni kəşf edilmiş Amerikadan sel kimi axıb gələn qiymətli metal axını ispan zadəganlarının hakim elitalarını zənginləşdirdi və bununla da ölkədə feodal sinfini və feodal münasibətlərini daha da gücləndirdi. Amerikanın bədbəxt yerli sakinlərinin qul əməyi ilə hasil edilən qızıl və gümüş sonda İspaniyanı məhv etdi. Qiymətli metalın qiymətinin düşməsi və buna uyğun olaraq ərzaq və malların qiymətlərinin artması, ilk növbədə, İspaniyaya təsir etdi. Burada əsas gündəlik malların qiymətinin kəskin artmasına, ardınca isə əmək haqqının artmasına səbəb oldu. Yeni müstəmləkələrlə ticarət edən ispan tacirləri üçün orada ispan istehsalı olan malları deyil, ingilis, fransız və holland mallarını satmaq daha sərfəli idi.

İspaniyada burjuaziya yerli sənayenin inkişafına marağını itirdi. İspaniyada inkişaf edən istehsalın yeganə sahəsi - qoyunçuluq ixrac üçün işləyirdi. Ona görə, heyvandarlıqla məşğul olan iri zadəganlar sürətlə zənginləşirdi. İqtisadi baxımdan İspaniya XIV əsrdə olduğu vəziyyətinə doğru geriləməyə başladı. Qızıl və gümüş, möhtəşəm saraylarda kef əyyamında yaşayan feodal zadəganların əlinə su kimi axırdı. Zadəganların qalan hissəsi - hələ də əməyə xor baxan ispan idalqoları (əsl-nəcabətli) olduqca acınacaqlı bir həyat yaşayırdılar. İspaniyanın xalqı, sənətkarları və kəndliləri dəhşətli yoxsulluğa düçar olmuşdular.

Belə bir yoxsulluq içərisində Katolik kilsəsi inkişaf edərək çiçəklənirdi. Monastırlar yüz minlərlə müftəxor rahiblər hesabına çoxalırdı. İspaniya mütləq monarxiyasının dəhşətli aləti olan inkvizisiya amansız şəkildə tüğyan edirdi. Və belə bir vəziyyətdə İspaniya Kralı və Almaniya İmperatoru V Karl vahid monarxiya, vahid katolik xalq ailəsini yaratmaq arzusunda idi. Bu birliyin başında ancaq o, V Karl dünyəvi hökmdar və ruhani ata olaraq qalmalı idi. K.Marks bu məsələ ilə bağlı yazırdı: "Bu o vaxtlar idi ki, Vasko Nunes Balboa Kastiliya bayrağını Darien

sahillərində, Kortes Meksikada, Pisarro Peruda qaldırdı. İspaniyanın təsirinin Avropada hökm sürdüyü bir dövrdə, iberiyalıların qızğın təxəyyülünü Eldoradonun (Qızıl şəhər), cəngavər qəhrəmanlıqlarının və ümumbəşəri monarxiyanın parıltılı ilğımları fəth etmişdi. İspaniyanın azadlığı yoxa çıxırdı ... lakin ətrafa qızıl seli axırdı, qılınclar cingildəyir və yanan inkvizisiya tonqallarının şəfəqi məşum şəkildə göylərə ucalırdı."

V Karlın xarici siyasətində reallıq və fantaziyanın qəribə birləşməsi diqqəti çəkir. Bu, vahid universal katolik monarxiyasını yaratmaq ilə bağlı orta əsr fantaziyasını diriltmək siyasəti idi. Bu siyasətin "ideal" məqsədləri ən qəddar reallığa – istila və soyğunçuluq sisteminə pərdə kimi xidmət edirdi.

Zadəganlar "cəngavər qəhrəmanlıqlarına" can atırdılar, çünki onlar müharibə və qənimət istəyirdilər. Bu yolda V Karl güclü bir rəqiblə üzləşdi. Bu rəqib, daha çoxsaylı və daha çox döyüşkən olan fransız zadəganlarının başçısı fransız kralı idi. O da, soyğunçuluğa və "igidliyə" can atır və hər formada təqlid etməyə çalışdığı səlibçilərin şücaətini tərənnüm edirdi. XVI əsrin birinci yarısında baş verən İtaliya müharibələrinin əsas mənası bu məqsədə qulluq edirdi. İki rəqib, ispan və fransız zadəganları, qənimət üstündə- zəngin, lakin siyasi cəhətdən dağınıq və zəif İtaliyanı ələ keçirmək üçün mübarizə aparırdılar.

V Karlın arzuladığı dünya monarxiyasının siyasi ideyası əsl utopiya idi. Almaniya, İtaliya, Hollandiya kimi müxtəlif hissələrdən ibarət olan "Alman millətinin Müqəddəs Roma İmperiyası"nın özü reallıqdan daha çox xəyalət idi. Karlı imperator seçən alman kürfüstləri 1520-ci il oktyabrın 23-də Aaxendə tacqoyma mərasimi zamanı ona demişdilər: "Unutma ki, bu taxt sənə nə anadangəlmə, nə də miras yolu ilə deyil, Almaniya knyazlarının və kürfüstlərinin iradəsi ilə verilib." Daha dəqiq deyilsə, bu taxt-tacı V Karl tərəfindən satın alınmışdı.

Bu taxt-tacı əldə etmək üçün Karl kürfüstlərə böyük məbləğdə rüşvət vermişdi. O, seçildikdən sonra bu pulları imperatorun maliyyə agenti, Cənubi Almaniyanın məşhur Fuqqer bank evi ödəmişdi. Bu evin başçısı Yakov Fuqqerin 1523-cü ildə V Karla məktub yazmaq üçün hər cür əsası var idi: "Gün kimi aydındır ki, mənim köməyim olmasa idi siz Əlahəzrət, Roma imperator tacını ala bilməzdiniz". Papaların ümumdünya katolik hökmranlığı iddialarına bənzəyən bu cür siyasi niyyətlərin dövrləri geri dönməz şəkildə keçib getmişdi. Ondan əvvəl də bu fikirlər reallığa çevrilə bilməyən ilğımlar idilər. İqtisadiyyatın vəhdəti və burjuaziyanın fəallığı ilə birləşən milli dövlətlərin yarandığı bir dövrdə bu ideyalar daha çox cəfəngiyyat idi. Onlar artıq millətin mənafeyini qoruyan güclü mərkəzləşmiş dövlət şüarlarını irəli sürürdülər.

V Karlın özü də dövrünün bu tələblərini çətinliklə dərk edirdi. İspaniyada şəhər kommunalarının üsyanını yatıraraq, orada mütləqiyyəti bərqərar edən Karl,

Almaniyada tamam başqa siyasət yürütmək məcburiyyətində qalırdı. Reformasiya və knyazların öz xeyrinə həyata keçirdikləri kilsə mülkiyyətinin müsadirəsi, daha sonra Almaniyada Böyük kəndli müharibəsinin uğursuzluğu alman knyazlarının hakimiyyətini gücləndirdi. Əslində onlar, İmperatorun Almaniyanı hər hansı mərkəzləşdirmə cəhdlərinə müqavimət göstərəcək qədər güclü, lakin Qərbin böyük dövlətlərinə münasibətdə zəif olan kiçik və xırda dövlətlərə -knyazlıqlara çevrildilər. Kəndli müharibəsinin uğursuzluğundan sonra, Almaniyada mübarizə "ayrı-ayrı knyazlar arasında və mərkəzi imperiya hakimiyyətinə qarşı çəkişmələrə çevrildi və nəticədə Almaniya 200 il müddətinə Avropanın siyasi cəhətdən fəal dövlətlər siyahısından çıxmış oldu."

Bu "çəkişmədə" V Karl böyük diplomatik məharət göstərsə də, məğlub oldu. İmperatora düşmən olan protestant knyazlar Şmalkalden ittifaqı (1531) bağlayaraq açıq şəkildə imperatora qarşı çıxdıqda, V Karl ağıllı diplomatik manevr edərək, alman knyazlarının ən prinsipsizi və ən güclüsü olan Makiavellinin pərəstişkarı Saksoniyalı Moritsi öz tərəfinə çəkə bildi. Bu ittifaq üçün V Karl Moritsə kürfüst titulu vəd etmişdi. Protestant knyazlar məğlub oldular. 1547-1548-ci illərdə seymdə, V Karl öz hakimiyyətinin və Habsburqlar sülaləsinin maraqları naminə bir sıra qərarlar qəbul etdirə bildi. Lakin onun niyyəti daha da irəli getmək idi. V Karla elə gəlirdi ki, o, bütün alman knyazlarının öz hakimiyyətinə tam tabe etməkdən uzaq deyil.

Lakin imperatorun gücünün belə artması təkcə Almaniyanın katolik knyazlarını deyil, həm də Papanın özünü də qorxutdu. Saksoniyalı "Xain Yəhuda" Morits özü imperatora qarşı fitnəkarlığa başladı. O, protestant knyazları ilə gizli müqavilə bağladı, fransızlardan maliyyə köməyi alaraq, qəfildən V Karlın düşmənlərinin tərəfinə keçdi. 1552-ci ildə knyazlar dərc etdikləri manifestdə, Almaniyanı "ağır" köləlikdən və ispan ağalığından azad etmək üçün silaha sarıldıqlarını bildirdilər. Morits tez bir zamanda imperatorun olduğu Tirola hücuma keçdi. V Karl qaçmağa məcbur oldu. Üsyankar knyazlarla danışıqlar məsələsini V Karlın qardaşı, "Roma kralı" I Ferdinand öz üzərinə götürdü. 1555-ci ildə Auqsburq dini sülhü imperatorun gücünü azaltmaq və knyazları gücləndirmək yolunda növbəti addım idi. Knyazlar daha çox bəyəndikləri dinə etiqad etmək hüququ aldılar. Onların təbəələri öz hökmdarlarının dininə tabe olmağa məcbur idilər. Üsyankar kəndlilərə qalib gələn və imperatoru məğlub edən knyazlar papa himayəsindən də azad oldular, ruhaniləri özlərinə tabe etdilər, kilsə əmlakını ələ keçirdilər və demək olar ki, tam müstəqil oldular.

Hökmdar- senyorların dövlətlər və mülklər, ictimai hüquq və xüsusi hüquq vəzifələri arasında fərq qoymayaraq, dövlətə orta əsrlərə xas olan baxışları, V Karl üçün də xarakterik idi. Köhnə Habsburq ənənəsinə riayət edən V Karl nikah

diplomatiyası vasitəsilə öz sülaləsinin gücünü və təsirini genişləndirmək istəyinə düşdü. Nikah diplomatiyası XVI əsrin bir çox hökmdarlarının xarici siyasətində görkəmli yer tuturdu. Məlumdur ki, İngiltərə kraliçası Yelizavetaya ən azı on dəfə evlilik təklifi gəlmişdi, lakin o, heç vaxt ailə qurmamışdır.

I Yelizaveta (7 sentyabr 1533 – 24 mart (3 aprel) 1603) — İngiltərənin Tüdor sülaləsindən olan sonuncu kraliçası. Əlavə olaraq İrlandiyanın kraliçası hesab edilirdi. Həyatı boyunca heç vaxt evlənməmişdir və bu səbəbdən tarixi mənbələrdə Bakirə kraliça (Virciniya) adlanırdı. İngiltərə kralı VIII Henrix Tudorun və Anne Boleynin qızı idi.

Yelizavetanın hakimiyyəti illərini bəzən "İngiltərənin qızıl dövrü" adlandırırlar. Bu dövrdə mədəniyyət inkişaf etmiş (Şekspir, Marlou, Bekon və s.) və İngiltərənin dünya səhnəsində əhəmiyyəti artmışdır.

Yekaterina Mediçi də öz böyük ailəsi üçün siyasi nikahlar təşkil edərək, daim evlilik planları ilə məşğul olurdu. Lakin köhnə feodal mülklərinin milli dövlətlərə çevrildiyi yeni dövrdə nikahların köməyi ilə siyasi təşəbbüslərin təşkilinə üstünlük verilmədi. Lakin, V Karl, oğlu Filipi ingilis kraliçası Mariya ilə evləndirərək, İngiltərəni İspaniya və İmperiya siyasətinə tabe etmək arzusunda idi. Karl özü qohumu olan Mariya ilə (İngilis şahzadəsi Mariya VIII Henri və V Karlın bibisi Araqonlu Yekaterinanı qızı idi) hələ altı yaşında olarkən nişanlanmışdı. Lakin, sonra, bu nəzərdə tutulan evlilik pozuldu.

Yekaterina Mediçi (13 aprel 1519 – 5 yanvar 1589) — Fransa kralı II Henrixin xanımı, Fransa kraliçası. O, eyni zamanda 3 Fransa kralının - II Fransisk, IX Karl və III Henrixin anasıdır.

I Mariya (18 fevral 1516 - 17 noyabr 1558) - 1553-cü ildən İngiltərə və İrlandiyanın ilk tac qoyulmuş kraliçası, VIII Henrixin Araqonlu Yekaterina ilə evliliyindən olan böyük qızı. Atası VIII Henri dövründə başlayan dini reformasiya hərəkatının qarşısını almaq məqsədilə aldığı sərt tədbirlər və verdiyi ölüm hökmlərinə görə protestant düşmənləri tərəfindən "Qanlı Mariya", Katolik Mariya kimi tanınırdı.

Lakin, XVI əsrin 50-ci illərinin əvvəllərində V Karl özünü yaxın qohumunun "qəyyumu" hesab edirdi. O, öz planını yeni dəyişdirilmiş formada həyata keçirmək qərarına gələrək, Mariyanı ondan 10 yaş kiçik olan öz oğlu Filiplə evləndimək qərarına gəldi. İspaniyanın Londondakı səfiri Renara müvafiq göstərişlər verildi. Məsələdən xəbər tutan və bunun qarşısını almaq üçün əlindən gələni edən Fransa səfirinin bütün fitnəkarlıq və səylərinə baxmayaraq, Karlın təklifi Mariya tərəfindən müsbət qarşılandı. İngiltərənin dövlət xadimlərinin Karlın hiylələri haqqında Fransa səfirindən məlumat alanda, onlar xeyli hiddətləndilər. İspaniya o dövrdə, yun və parça ticarəti ilə məşğul olan və artıq bütün dənizlərdə üzən ingilis tacirləri və zadəganlarının ən təhlükəli rəqibi idi. Lakin onlar, kraliçanın istəklərinə müqavimət göstərə bilmədilər. İcmalar Palatası kraliçadan xalqının faydalarını unutmamağı və vətəndən kənarda həyat yoldaşı axtarmamağı çox hörmətlə xahiş etsə də, Mariya öz qərarından dönmədi.

Mariya əlini və ürəyini Filipə verməkdə qərarlı idi. Bununla belə, Kraliçanın nazirləri tərəfindən tərtib edilən nikah müqaviləsi əslində Karl üçün əsl məğlubiyyət idi. Filip İngiltərə qanunlarına hörmət etməyə borclu idi, İngiltərəni İspaniya ilə Fransa arasında müharibəyə cəlb etməməli idi və Kraliça Mariyanın ölümü halında o, dövləti idarə etmək hüququndan məhrum edilirdi. Bir sözlə, İngiltərə kralı kimi qürurlu tituluna baxmayaraq, Filipp yalnız "kraliçanın əri" olaraq qalırdı. 1554-cü ildə Mariya İspaniya vəliəhdi Filiplə evləndi və 2 il sonra ərinin İspaniya taxtına çıxması ilə o, Habsburq İspaniyasının kraliçası da elan edildi. Lakin, 1558-ci ildə I Mariya vəfat edəndə ingilislər sadəcə olaraq öz ispan əsilli "krallarını" unutdular.

1.2. II Filipin hakimiyyəti dövründə İspaniyanın xarici siyasəti

Beləliklə, V Karlın bütün planları iflasa uğradı. O özü də taxtdan imtina etməyə (1556) və monastıra getməyə məcbur oldu. Karl taxtdan imtina etdikdən sonra onun "imperiyası" dağıldı. Müqəddəs Roma İmperiyası onun qardaşı Ferdinanda çatdı. İspaniya, Hollandiya, İtaliya mülkləri və İspan müstəmləkələri onun oğlu II Filipə keçdi.

V Karl çox böyük, lakin həyata keçirilməsi mümkün olmayan planlarını reallaşdırmaq üçün cəsarətli səyləri ilə səciyyələnirdi. II Filipp dərk edirdi ki, onun dünya monarxiyasını yaratmaq ilə bağlı xəyallara qərq olmaq üçün onun heç bir əsası yoxdur. Amma onun da siyasəti atasının planları kimi fanatik idi. Öz qüdrətinin və onun əsasları olan mütləqiyyət və katolik dininin möhkəmliyinə dərindən əmin olan II Filipp, böyük dövlətinin hər yerində ona əziz olan ispan nizamını bərqərar etməyə çalışırdı, ona mümkün görünən hər yerdə protestantlığa qarşı çıxırdı, məqsədinə çatmaq üçün hər vasitədən istifadə etməkdən çəkinmirdi.

Filipin Hollandiyada həyata keçirdiyi kəskin və fanatik mövhumatçı siyasəti Avropada ilk uğurlu burjua inqilabının başlanmasına səbəb oldu. XVI əsrin ikinci yarısında Fransada dini müharibələri zamanı kralın katoliklərin lehinə apardığı fitnəkar siyasəti, hətta fransız vətənpərvər katoliklərin də Filipə qarşı silaha sarılmasına səbəb oldu. İspaniya kralı İngiltərədə qarışıqlıq yaratmaq və əsas dəniz rəqibini zəiflətmək ümidi ilə bədbəxt Mariya Stüartın ətrafında gərgin vəziyyətin yaranmasına, Mariya Stüartın edam olunmasına səbəb oldu. Onun İngiltərəyə dənizdən birbaşa hücum etmək cəhdləri XVI əsrin ən böyük donanması olan "Yenilməz Armada"nın məhvinə səbəb oldu (1588). Filipin planları hər yerdə və hər tərəfdə iflasa uğrayırdı, çünki bu planlar Avropanın burjua inkişafına qarşı yönəlmiş feodal iddiaları siyasətinin ifadəsi idi.

XIX əsrin birinci yarısında İspan arxivlərinin araşdırılması İspan mütləqiyyətinin tənəzzül dövründə, onun dəhşətli diplomatiyasının iç üzünü açmış oldu. II Filipin, Fransa, İngiltərə və Hollandiyada rəsmi diplomatik

nümayəndələrdən əlavə, çoxsaylı pullu və könüllü casusları olmuşdur. Onlar, nəinki, krala düşmən və dost saraylarında baş verənlər barədə məlumat verirdilər, həm də İspaniyanın diplomatik nümayəndələrinin özlərini də izləyirdilər.

Hollandiyada kralın naiblərinə də nəzarət edirdilər. Bu ikili diplomatik hesabat tez-tez kralın özünü də çaşdırırdı. O, Madriddən ayrılmadan bütün məlumatları öyrənmək və sonsuz yazışmalarının köməyi ilə bütün bu sistemi idarə etmək istəyirdi. Onun hakimiyyəti dövründə apardığı siyasət İspaniya üçün acınacaqlı nəticələrə səbəb oldu. Filip bir dəfə demişdi: "Mən təbəələrimin bidətçi olmasındansa, ümumiyyətlə onların heç olmamasını üstün tuturam". Lakin bidətçilər yaşamaqda davam etdilər. Lakin, feodal-zadəgan İspaniyası şərəfsiz halda ikinci dərəcəli Avropa dövləti səviyyəsinə endi.

Bütün Avropanın İspaniyanın təsiri altına düşmək təhlükəsi, XVI əsrin iki ən sabit və güclü dövlətinin- Fransa və İngiltərənin siyasətini əhəmiyyətli dərəcədə müəyyənləşdirmiş oldu.

2.XVI əsrdə Fransa diplomatiyası

İspaniya XVI əsrin ikinci yarısından iqtisadi tənəzzül yaşamağa başladı və onun ardınca, yarım əsr sonra siyasi tənəzzül baş verdi. Lakin, XI Lüdovik dövründən formalaşan Fransız mütləq monarxiyasının demək olar ki, bütün XVI və XVII əsrlərdə yüksəliş xətti davam etdi. Mərkəzləşdirilmiş dövlət, feodal olsa da, Yüzillik müharibənin (1338-1453) dəhşətlərini və dağıntılarını hələ də unutmamış Fransa burjuaziyası üçün bu əsl iltifat idi. Şəhər əhalisi Fransada güclü kral hakimiyyətini həmişə dəstəkləyirdilər.

XVI əsrin ikinci yarısında, Fransa, yenidən feodal-protestant müxalifətinin zərbələri altında səndələsə də (Quqenot müharibələri), şəhər əhalisi həm krala, həm də katolik inancına sadiq qaldı - hər ikisi onlar üçün vahid Fransa demək idi. Xırda və orta zadəganların böyük bir hissəsi burjuaziya ilə birlikdə hərəkət etdi: vahid və güclü monarxiya onlar üçün hərbi xidmətin və hərbi şöhrətin təminatı idi.

Artıq XI Lüdovikin ilk dörd varisi - VIII Karl (1483-1498), XII Lüdovik (1498-1515), I Fransisk (1515-1547) və II Henrix (1547-1559) mütləq monarxlar idilər. Onlar öz dövlətlərini, Makiavellinin hökmdarlara tövsiyə etdiyi realist siyasət ruhunda idarə edirdilər. Bu zaman Fransanın xarici siyasətinin əsas istiqamətləri formalaşdı. XVI əsrin əvvəllərindən, V Karlın İspaniya, İtaliya, Almaniya və Hollandiyada olan Habsburqların mülkləri ilə hər tərəfdən əhatə olunan Fransa mütləq monarxiyası bu sıxışdırmalardan qurtulmağa və öz zadəganları üçün mühüm əhəmiyyətə malik olan bir ərazini –İtaliyanı fəth etməyə çalışırdı.

İtaliya müharibələrinin və məşhur Fransa-Avstriya (yəni, Fransa-Habsburq) rəqabətinin mənşəyi belə idi. Bu rəqabət XVI, XVII və XVIII əsrin bir hissəsində

də davam etdi. XVI əsrdə, bu rəqabət əsasən Fransa-İspaniya arasında idi. Bu dövrdə Habsburqların Fransaya hücum etdiyi mərkəz İspaniyada yerləşirdi.

Habsburqlar tərəfindən sıxışdırılan katolik Fransası, bir tərəfdən öz əzəli düşmənləri olan Osmanlı dövlətinə, digər tərəfdən isə alman protestant knyazlarına yaxınlaşırdı. Pavia döyüşündə (1525) V Karl tərəfindən əsir düşən Kral I Fransisk, bütün xristian dünyasında "böyük utanc" olaraq qəbul olunan bir addım atdı. O, Osmanlı sultanı Süleyman Qanunidən kömək almaq üçün, onunla danışıqlara başladı. Bunun ardınca tezliklə Avropa diplomatiyası tarixində məşhur "kapitulyasiya" adı ilə tanınan müqavilə bağlandı. Bu müqavilə, Fransaya Türkiyədə birtərəfli şəkildə geniş ticarət aparmaq və digər imtiyazlar verirdi.

Bu hadisə, I Fransiskin V Karlla apardığı dörd müharibəsindən birincisi (1521-1526) zamanı baş vermişdir. Pavia yaxınlığında gedən döyüşdə məğlub olaraq, əsir düşən I Fransisk İstanbula xüsusi elçi göndərdi. İlk səfirlik uğursuzluğa düçar oldu. Fransiskin səfiri on iki yoldaşı ilə birlikdə Bosniyada tutuldu və öldürüldü. Onun sənədləri və elçinin etibarının əlaməti olan şah üzüyü, ehtimal ki, İstanbula göndərildi. Türkiyənin Böyük vəziri İbrahim sonradan barmağında gəzdirdiyi bu üzüyü göstərərək onun bir vaxtlar Fransa kralının sağ əlində olması ilə öyünürdü.

Yalnız ikinci səfir İoan Frandjipani İstanbula gedib çatmağa nail olaraq, Fransa kralının məktubunu Sultan Süleymana təhvil verə bildi. Bu məktub qalmayıb, lakin Sultan Süleymanın cavabı məlumdur: "Sən, fransız və Fransa kralı, monarxların sığınacağı olan Portoya (Osmanlı dövlətinin hökuməti) mənim yanıma, sadiq xidmətçin Frandjipanini göndərdin. Düşmənin dövlətinizi zəbt etdiyini, hazırda həbsdə olduğunuzu mənə bildirdiniz, azadlıq qazanmaq üçün üçün məndən yardım və kömək istədiniz. Bu məlumatlar, bütün dünyanın müdafiəçisi olan taxtımın yanında qoyulandan sonra, mənim imperiyamın elm adamları bu məsələnin bütün təfərrüatlarını araşdırdı. Demək olmaz ki, imperatorların məğlubiyyəti və onların əsir götürülmələri eşidilməyən hadisələrdir. Ona görə də cəsarətinizi itirməyin və ruhdan düşməyin. Bizim şanlı əcdadlarımız (Allah onlara rəhmət eləsin) düşməni dəf etmək və yeni mülklər əldə etmək üçün müharibəni heç vaxt dayandırmayıb. Biz də onların izi ilə getdik... Gecə-gündüz atımız yəhərlidir, qılınc belimizdədir."

Sultan öldürülən səfirin gətirdiyi birinci məktubu da aldı. Bu məsələ, vəzir İbrahimin dediyi kimi, Sultanı Macarıstanı işğal etməyə sövq edirdi. Sultan, sanki Fransiskə mərhəmət edirmiş kimi, "pis niyyətləri məlum olan" Karla qarşı müharibəyə başlamaq qərarına gəldi. Bu, təbii ki, mərhəmət məsələsi deyildi: türk feodal dövlətinin özünün hakim sinfini dəstəkləmək üçün davamlı müharibələrə ehtiyacı var idi. Balkan yarımadasının türklər tərəfindən alınmasından sonra Süleyman Qanuni getdikcə Avropaya doğru irəliləmək niyyətində idi.

I Fransiskin məktubu lazımı yerinə düşdü. Artıq növbəti il, Sultanın qoşunları

Macarıstanın cənubunda olan Moqaçda birləşmiş çex-macar qoşunlarını məğlub etdilər. 1529-cu ildə Vyana divarlarına yaxınlaşdılar. Beləliklə, Fransanın Türkiyə ilə müttəfiqliyi mütləq şəkildə beynəlxalq vəziyyətdən irəli gəlirdi: Fransa və Türkiyənin eyni düşməni (Habsburqlar) var idi. Ona görə, Birlik güclü olduğunu sübut etdi. 1535-ci ildə Türkiyə və Fransa arasında "kapitulyasiya" müqaviləsi bağlandı. Bu sənəd, sonradan digər Avropa dövlətləri ilə bağlanan müqavilələr üçün nümunə olan ilk saziş idi.

Müqavilənin gizli hissəsində, Fransanın Avstriya və Venesiya ilə mübarizədə Türkiyəni dəstəkləmək vədi var idi. Fransa, bu müqavilə ilə Türkiyənin Avropa ölkələri ilə bütün ticarətini inhisar altına alınmasına imkan verən ticarət faydaları ilə təmin olundu. Bu müqavilənin və ya ilk "kapitulyasiyanın" əhəmiyyəti Sultanın fransız tacirlərinə və Fransa hökumətinə verdiyi birtərəfli güzəştlərlə müəyyən edilirdi. Sonrakı dövrdə, Avropa dövlətləri, bu imtiyazlara arxalanaraq, ilk növbədə, Türkiyədə yaşayan öz təbəələri üzərində, daha sonra isə ümumilikdə bütün xristianlar üzərində ağalıq etmək iddiaları qaldırdılar.

Marks kapitulyasiyaların mahiyyətini belə müəyyən edir: "Kapitulyasiyalar, Porta tərəfindən müxtəlif Avropa xalqlarına verilən imperator diplomları, məktubları və imtiyazlarıdır ki, onlar bu dövlətlərin təbəələrinə İslam torpaqlarına sərbəst daxil olmaq, sakitcə öz işləri ilə məşğul olmaq və orada ibadət etmək hüququ verirdi.."

Kapitulyasiyalar adi müqavilələrdən o mühüm xüsusiyyəti ilə fərqlənir ki, onlar qarşılıqlılığa əsaslanmır, maraqlı tərəflər tərəfindən birgə müzakirə olunmur və onlar tərəfindən qarşılıqlı fayda və güzəştlər əsasında təsdiqlənmir. Əksinə, onlar birtərəfli qaydada verilən güzəştlərdir və ona görə də müvafiq hökumət öz mülahizəsinə uyğun olaraq ondan imtina edə bilərdi.

Döğrudan da, Porta müxtəlif dövrlərdə hər hansı bir xalqa verdiyi imtiyazları ləğv etmiş, bu imtiyazları başqalarına da vermiş və ya ondan tamamilə imtina edərək, sonrakı istifadəsini qadağan etmişdir. Kapitulyasiyaların bu kövrək xarakteri onları bitib-tükənməz mübahisələr, səfirlər tərəfindən şikayətlər mənbəyinə çevirdi. Hər yeni hakimiyyətin başlanğıcında, yenilənən sonsuz ziddiyyətli notalar və fərmanlar mübadiləsinə səbəb olurdu.

Fransa ilə Habsburqlar arasında olan mübarizə, Fransanın Almaniyaya, daha döğrusu, alman knyazlarına münasibətini müəyyən edirdi. Fransa Habsburqların İmperatorunun zəifləməsində maraqlı idi. Kral II Henrixin (1547-1559) dediyi kimi, o, həmişə "əzəli alman azadlığının" tərəfində dayanır, yəni katolik imperatoruna qarşı protestant knyazlarını həmişə dəstəkləyirdi. Bununla, Fransa imperiyanın siyasi cəhətdən zəifləməsinə yardım edərək, vaxtaşırı alman ərazilərini bir hissəsini ələ keçirməklə məşğul idi. Diplomatiyasının bir növ aksiomasına çevrilən Fransa siyasətinin əsas istiqamətləri XVII əsrdə də davam edərək, IV Henrix, onun naziri

Syulli, kardinallar Rişelye və Mazarini kimi görkəmli siyasətçi və diplomatların fəaliyyətində özünü göstərmişdir.

3.XVI əsrdə İngiltərə diplomatiyası

XVI əsrdə ingilis diplomatiyasının siyasi xətti fransız siyasətindən əhəmiyyətli dərəcədə fərqlənirdi. Fransada mütləq monarxiya digər yerlərdə olduğundan daha güclü idi. Əksinə, İngiltərədə kral hakimiyyətinin ən böyük qüdrətinin mövcud olduğu dövrdə də, lordların və ticarət burjuaziyasının hökmran olduğu parlament öz fəaliyyətini dayandırmamışdı. Onlar, kral hakimiyyətinə təzyiq göstərərək onu məhdudlaşdırırdılar. Artıq XVI əsrdə, ölkə iqtisadiyyatında rəhbər vəzifələri ələ keçirmiş zadəganlar və burjuaziya, XVII əsrdə burjua inqilabını həyata keçirdilər. Onlar, kapitalizmin gələcək inkişafı üçün geniş imkanlar yaradan düzənlər yaratmışdılar. Ona görə də, hökumət, İngiltərədə öz məqsədlərini və onlara nail olmaq vasitələrini açıq-aydın dərk edən hakim sinifin apardığı siyasət və yaratdığı ictimai rəy ilə, hesablaşmaq məcburiyyətində qalırdı.

XVI əsrdə, xüsusən onun ikinci yarısında İngiltərə İspaniya ilə amansız mübarizə aparırdı. Bu siyasəti İngiltərə kralları və ingilis hökuməti deyil, ingilis kaperləri (dəniz quldurları), gəmi sahibləri (armator-təchizatçıları), tacirləri və diplomatları aparırdı. İngiltərə Kraliçası Yelizavetanın hökuməti (1558-1603) çox vaxt yalnız təbəələrinin hər hansı birinin şəxsi təşəbbüsləri ilə həyata keçirdiyi fəaliyyətə icazə verirdi. Sonradan Əlahəzrət donanmasının admirallarına çevrilən məşhur flibusterlər Dreyk, Hokins və Reli Amerikadan qiymətli metalla yüklənmiş ispan gəmilərini qarət edir, İspaniya müstəmləkələrinin limanlarına hücum edir və sakinlərin gözü qarşısında ispan gəmilərini batırırdılar.

Qeyd: Kaperlik – leqal dəniz quldurluğu, gəmi heyətinin dövlətin icazə sənədi ilə yalnız düşmən dövlətlərin gəmilərini talan etmələri. Belə gəminin heyəti "kaper şəhadətnaməsi" alaraq, qanundan kənarda qalmırdı - əsir götürüldükdə kaperlərə hərbi əsir kimi yanaşırdılar.

Kaperlər - "lisenziyalı" dəniz quldurlarının ümumi adıdır, korsarlar və flibusterlər kaperlərin sinonimləridir, lakin bəzi nüanslara malikdirlər.

Karib dənizində fəaliyyət göstərən kaperlər flibusterlər adlanırdı. Çoxsaylı kiçik ada dövlətləri ilk xahişlə hər kəsə leqal dəniz quldurluğuna sertifikatlar-lisenziyalar verirdilər. Aralıq dənizindəki kaperlərə daha çox korsar deyilirdi. İlk vaxtlar, onlar Osmanlı İmperiyasının gəmilərinə hücum edən xristian kaperlər idi.

Yelizavetanın hakimiyyəti dövründə İngiltərə güclü bir dəniz dövlətinə çevrildi.

Vilyam və Con Hokins qardaşları Yelizavetanın dövründə ticarət gəmilərinə-kaper basqınlarına başladılar. 1560-cı illərin sonlarında Frensis Dreykin "adı məşhurlaşdı".

1570-ci illərdə dənizlərdə hər iki tərəfin elan etmədiyi qəribə bir müharibə baş

verirdi. Rəsmi Madrid və London bu "şəxsi müharibələrə" göz yummağa üstünlük verirdilər və özlərinin rəsmi etirazları ilə məhdudlaşırdılar.

İngiltərə tədricən İspaniyadan "əsas dəniz dövləti" nüfuzunu fəth etdi. Bunu Dreykin Amerika materikinə səyahəti və 1587-ci ildə Şimali Amerikada ilk ingilis məskəninin əsasının qoyulması sübut edir.

Eyni zamanda, ingilis diplomatları Avropa hökmdarlarının saraylarında çox ardıcıl siyasət aparırdılar. Bu ardıcıllıq güclü, yüksələn hakim sinfin aydın məqsədlərinin olmasından xəbər verirdi. XVI əsrin ingilis diplomatiyasının enerjisinin və ardıcıllığının parlaq nümunəsi, ən bacarıqlı Britaniya diplomatlarından biri, onun Fransadakı səfiri Frensis Uolsinqemin fəaliyyətində özünü təcəssüm etdirir. Bu diplomat Şotlandiya kraliçası Mariya Stüartın faciəli taleyində həlledici rol oynamalı oldu. Bu kraliça, Lotaringiya hersoginyası Gizin qızı və ingilis kralı VII Henrixin qızı Marqaretin nəvəsi idi. O, Şotlandiya kralı V Yakov Stüartla nikah bağlamışdı. Gizlər qatı katoliklər idi. Sonralar, onların başçılıq etdiyi katoliklərin silahlı dəstələri Fransada, Müqəddəs Varfolomey gecəsində (1572) protestantların kütləvi qırğınını həyata keçirdilər.

Varfolomey gecəsi (Müqəddəs Varfolomey qətliamı) - Fransada 1572-ci il avqustun 23-dən 24-nə keçən gecə, Müqəddəs Varfolomey günündə katoliklər tərəfindən təşkil edilmiş quqenotların(protestantların) qətliamları. Müxtəlif hesablamalara görə, həmin gün Parisdə üç minə yaxın insan, Fransada isə 30 minə yaxın protestant öldürüldü.

Şotlandiyada Reformasiya başlayanda Mariya qatı katolik kimi təbəələri tərəfindən Şotlandiyadan qovuldu. Kraliça İngiltərəyə qaçaraq, Yelizavetanın himayəsi altına sığındı. Burada Mariya tezliklə, Yelizaveta və ingilis protestantlığına qarşı sui-qəsdlərin və ispan fitnəkarlığının əsas iştirakçısına çevrildi. VIII Henrix çoxsaylı zövcələrindən biri olan Anna Boleynin qızı Yelizaveta katoliklər tərəfindən qanuni kraliça kimi tanınmadığı üçün, Mariya Stüart ingilis taxtına çıxmaq üçün iddia qaldırdı.

Lakin o vaxt, ingilislər bu barədə eşitmək belə istəmirdilər. Onlar üçün Mariya Stüart katolik irticasının bayrağı idi, İngiltərənin ən dəhşətli düşməni - İspaniya kralı II Filippin dəstəklədiyi nümayəndə idi. II Filipp, Yelizavetaya qarşı gizli sui-qəsdlərə rəhbərlik edirdi və hər yerdə, qitədə və İngiltərənin özündə katolikliyi dəstəkləyirdi. Bu katolik fitnəkarlıqlarından ehtiyat edən britaniyalılar və Britaniya Parlamenti dəfələrlə elə qərarlar qəbul etdilər ki, onlardan istifadə etməklə Yelizaveta öz rəqibini məhv edə bilərdi. Lakin kraliça, Mariyanı uzun müddət Şeffild qalasında həbsdə saxlamaqla kifayətləndi. Həbsdə olarkən, Mariya Stüarta xidmət etmək üçün xeyli sayda adamlar ayrıldı. Sabiq Kraliçanın saxlanması üçün İngiltərə və Fransa tərəfindən külli miqdarda vəsait təyin edildi. Ancaq, Mariyanın Şotlandiyadakı

dostları ilə əlaqəsi kəsilmişdi.

Yelizaveta, yalnız 1587-ci ildə Mariyanın yolundan dönməyən sui-qəsdçi olduğu sübut edildikdən sonra, onu mühakimə etmək qərarına gəldi. Çünki Yelizaveta əmin oldu ki, Mariya həbsdən yalnız İngiltərə kraliçası kimi çıxacaq.

Mariya Stüart, I Yelizavetaya qarşı fitnələrini dayandırmayaraq, Avropa dövlətləri ilə gizli yazışmalar aparırdı. Lakin, o, əslində ingilis kraliçasına qarşı sui qəsdlərdə açıq şəkildə iştirak etmək fikrində deyildi. Buna baxmayaraq, İngiltərə kralı VII Henrixin qanuni nəvəsi Mariya Stüartın adı, I Yelizavetaya qarşı olan sui-qəsdçilər tərəfindən fəal şəkildə istifadə olunurdu. 1572-ci ildə Ridolfinin sui-qəsdinin üstü açıldı, onun iştirakçıları Yelizavetanı hakimiyyətdən salaraq, Mariya Stüartı İngiltərə taxtına çıxarmağa çalışırdılar. 1584-cü ildə Trokmortonun sui-qəsdinin üstü açıldı.

İngiltərənin Fransadakı səfiri Uolsinqem Yelizavetanın öldürmək üçün həyata keçitilən son sui-qəsddə Meri Stüartın iştirakını sübut etmək vəzifəsini öz üzərinə götürdü. O, bütün bunları öz təşəbbüsü ilə və "İngiltərəni katoliklikdən və ispanlardan xilas etmək" naminə etdi. Onun bu vəzifəni niyə öz üzərinə götürdüyünü izah etmək asandır. Mariya Stüartın ətrafında qurulan sui-qəsdlərin izləri Fransada onun qohumlarına – Gizlərə gedib çıxırdı. Gislər isə o zaman, İngiltərənin düşməni – İspaniyanın kralı II Filipdən aylıq vəsait alanların siyahısında idı. O dövrdə, Mariya Stüartın saxlandığı Şeffild qalasının mühafizə rəisi ilə razılığa gələn Uolsinqem, Mariyanın yanına öz adamı olan Ciffortu göndərdi. O, qalaya şərab və pivə aparmaq vəzifəsi ilə məşğul olurdu. Qatı katolik və Mariyaya rəğbət bəslədiyiini iddia edən Ciffort, onun sadiq insanlarla yazışmalarını göndərilən ünvana çatdırmağı öhdəsinə götürdü. Yazışmalar şifrələnmiş formada və Ciffordun qəsrə şərab çatdırdığı çəlləklərin içərisində qaladan çıxarılırdı.

Əlbəttə ki, təyinat yerinə çatmazdan əvvəl məktubları Uolsinqem katibi Filip açırdı. O, məktubların şifrəsinin sirrini öyrənərək, onların məzmunu barədə Uolsinqemə məlumat verirdi. Tezliklə səfirin əlində Mariyaya qarşı ittiham irəli sürmək üçün kifayət qədər material toplandı. Uolsinqem hətta, şifrənin istifadə edilməsi üsuluna sahib olaraq Mariya Stüartın məktublarına öz əlavələrini də edirdi. Beləliklə, Uolsinqem, məktubların birində Mariyanın adından sui-qəsdçilərdən İngiltərədəki Şeffild qalasına hücum edərək Mariyanı azad etməli olan və Kraliça Yelizavetaya sui-qəsd etməli olan şəxslərin adlarını soruşdu.

1586-cı ildə, Uolsinqemin "köməyi" ilə Mariya Stüart katolik qüvvələrinin nümayəndəsi Entoni Babinqtonla ehtiyatsız yazışmalara cəlb olundu və bu yazışmalarda o, İngiltərə kraliçası I Yelizavetanı öldürmək üçün təşkil olunacaq sui-qəsd ideyasına dəstək verdi.

Bu adlar, görünür, Uolsinqemə əvvəllərdən də tanış idi, lakin o, yazılı sübutlara

sahib olmaq istəyirdi. Uolsinqemin məlumatları Mariyanın həbsi və onun mühakimə edilməsi üçün əsas səbəb oldu. Parlamentin hər iki palatası Yelizavetaya xahiş etdilər ki, "ədalətli hökmdən sonra ədalətli cəza həyata keçirilsin". Mariya Stüart 1587-ci ilin fevralın 8 də, Foteringey qalasında edam edildi. Mariya edam olunan zaman, bu xəbər çıraqban edilmiş Londonda ümumi sevinclə qarşılandı. Uolsinqem ingilslərə çox yaxşı bələd olduğundan, öz fitnəkarlığını sona qədər həyata keçirdi.

1586-cı il iyulun 5-də, Şotlandiya ilə İngiltərə arasında üçüncü dövlətlərin təcavüzü zamanı müttəfiqlik və qarşılıqlı yardım haqqında müqavilə bağlandı. I Yelizaveta Şotlandiya kralına illik 4000 funt sterlinq məbləğində subsidiya təyin etdi. O, faktiki olaraq ingilis taxt-tacına VI Yakovun varislik hüququ ilə razılaşdı. İngiltərə-Şotlandiya ittifaqının sınağı 8 fevral 1587-ci ildə İngiltərədə Yakovun anası Mariya Stüartın edam edilməsi oldu. Şotlandiya kralı kədərini və təəssüfünü ifadə etdi, lakin İngiltərəyə qarşı müharibəyə başlamadı.

I Yakov (19 iyun 1566 – 27 mart 1625) — Şotlandiya (24 iyul 1567 — 27 mart 1625), İngiltərə və İrlandiya kralıdır (24 mart 1603 — 27 mart 1625). Stüartlar sülaləsindən İngiltərə taxtına çıxan ilk kraldır. 24 mart 1603 tarixindən etibarən Şotlandiya və İngiltərə birləşdi; Parlament, məhkəmə və qanunvericilik strukturu bütövlükdə I Yakovun əlində cəmləndi. I Yakov həm Şotlandiya kraliçası Mariya Stüartın oğlu, həm də İngiltərə və İrlandiya kralı VII Henrixin kötücəsi idi. Buna görə də hər üç taxtda pay sahibi idi.

---

24 mart 1603-cü ildə I Yelizaveta vəfat etdi. 5 aprel 1603-cü ildə Yakov İngiltərə taxtına oturmaq üçün Edinburqdan Londona yola düşdü. 25 iyul 1603-cü ildə Vestminster abbatlığında VI Yakov, I Yakov adı ilə İngiltərə kralı tacını aldı. Şotlandiya və İngiltərə kralın hakimiyyəti altında bir monarxın idarə etdiyi müstəqil dövlətlər olaraq qalırdı.

Hər iki Britaniya dövlətini birləşdirmək planı I Yakovun ən iddialı layihələrindən biri idi, lakin İngiltərə və Şotlandiya parlamentlərinin müqaviməti ilə kralın sağlığında bu məsələ heç vaxt həyata keçirilmədi. Birləşmə yalnız 1707-ci ildə Yakovun nəvəsi - Kraliça Anna Stüartın hakimiyyəti dövründə baş tutdu.

4. XVI əsrdə Moskva dövlətinin diplomatiyası

4.1.III İvan dövründə Moskva böyük knyazlığının diplomatiyası

4.2 IV İvanın diplomatiyası

4.1.III İvan dövründə Moskva böyük knyazlığının diplomatiyası

XVI əsrin ikinci yarısında, bir əsr əvvəl milli qurum kimi formalaşan Moskva dövləti də beynəlxalq aləmə çıxdı. Əvvəlcə Moskva böyük knyazlığı kimi sadə adı daşıyırdı və formaca feodal monarxiya idi. Şərqi Avropanın geniş ərazilərini öz hakimiyyəti altında birləşdirən yeni dövlət görkəmli beynəlxalq mövqe tuturdu.

Artıq XV əsrin 80-ci illərinin sonlarında. Moskva böyük knyazlığı Avropa üfüqündə çox təsirli bir siyasi qüvvə idi. Qərbi Avropa diplomatiyası qarşısında, o zamana qədər, Avropada formalaşmış dövlət münasibətləri sistemində, ona öz layiqli yerini tapmaq kimi bir vəzifə dururdu.

1486-cı ildə sileziyalı Nikolay Poppel təsadüfən Litvadan keçərək Moskvaya gəldi. Qayıdandan sonra o, Moskva Rusiyası və orada hakimiyyəti idarə edən hökmdarın sərvəti və gücü haqqında xəbər yaymağa başladı. Çoxları üçün bütün bunlar yeni xəbər idi. O vaxta qədər, Qərbi Avropada Rusiya haqqında, Polşa krallarına tabe olan bu ölkə haqqında yalnız ara-sıra şayiələr yayılırdı. "Avropa, III İvanın hakimiyyətinin əvvəllərində Litva və tatarlar arasında sıxışdırılmış Moskvanın mövcudluğundan demək olar ki, heç bir məlumatları olmadığı halda, Avropanın şərq ərazisində qəfildən nəhəng bir imperiyanın meydana çıxmasından heyrətə gəlmişdi"(K.Marks).

1489-cu ildə Poppel, Almaniya İmperatorunun rəsmi nümayəndəsi kimi Moskvaya qayıtdı. Gizli görüşdə o, III İvanı ona kral titulu verməsi üçün imperatora müraciət etməyə dəvət etdi. Qərbi Avropa siyasi düşüncəsi nöqteyi-nəzərindən bu, yeni dövlətin qanuniləşdirilməsinin və Qərbi Avropa dövlətlərinin ümumi sisteminə daxil edilməsinin yeganə yolu idi. Lakin, Moskvada başqa mövqedə idilər. III İvan Poppelə qürurla cavab verdi: "Tanrının lütfü ilə, biz torpaqlarımızda lap əvvəldən, ilk əcdadlarımızdan başlayaraq hökmdarıq. Həm atalarımızın, həm də bizlərin Tanrıdan təyinatı var... Lakin bizə təklif edilən təyinatı heç kimdən əvvəllər istəməməşik və indi də istəmərik".

III İvan İmperatora yazdığı cavab məktubunda özünü "Tanrının lütfü ilə bütün Rusiyanın böyük hökmdarı" adlandırmışdı. Hərdən-bir kiçik dövlətlərlə münasibətlərdə hətta özünü çar adlandırırdı. Oğlu III Vasili 1518-ci ildə alman imperatoruna göndərdiyi məktubda özünü ilk dəfə rəsmi olaraq çar adlandırmışdı və nəvəsi IV İvan 1547-ci ildə artıq təntənəli şəkildə keçirilən tac qoyma mərasimində çar titulunu qəbul edərək, mədəni dünyanın digər ölkələri arasında öz dövlətinin tutmalı olduğu yeri parlaq şəkildə müəyyənləşdirdi.

Avropalı diplomatların leqallaşdırılması üçün çox narahat olduqları yeni siyasi qüvvə, Qərbi Avropanın diqqətini başqa bir cəhətdən də cəlb edirdi. 1453-cü ildə Konstantinopol türklər tərəfindən fəth olundu və türk təhlükəsi məsələsi bütün Avropa ölkələrinin qarşısında ən yüksək həddə çatdı. Moskva hökmdarını bu və ya digər şəkildə Türkiyə ilə mübarizə aparmaq üçün ümumavropa ittifaqına cəlb etmək Qərb diplomatiyasının arzusuna çevrildi. Türkiyənin Aralıq dənizinə daxil olması ilk növbədə İtaliyanı təhdid edirdi. Ona görə də, artıq XV əsrin 70-ci illərindən, həm Venesiya Respublikası, həm də Roma taxtı ümidlə uzaq şimal-şərqə baxırdı. Qüdrətli rus hökmdarının Bizans taxtının varisi Zoya (Sofiya) Paleoloq ilə evlilik

təşəbbüsünün həm Romada, həm də Venesiyada müsbət qarşılanmasının səbəbi bu məsələ ilə əlaqədar idi.

Bu layihə 1472-ci ildə, yunan və italyan iş adamları vasitəsilə həyata keçirildi. Gəlin ilə eyni vaxtda, Papa IV Sixtusun (Françesko della Rover) ən geniş səlahiyyətlərə sahib olan "leqatı" (elçisi) – Bonumbrenin Moskvaya göndərilməsi, papa diplomatiyasının bu evliliklə bağlı geniş planlara malik olmasını göstərirdi. Venesiya şurası, öz növbəsində, III İvanı, "bütün xristianların ümumi düşməni", yəni Sultan tərəfindən ələ keçirilən Bizans imperatorlarının mirasına olan hüquqları təşviqi ilə ilhamlandırırdı. Belə ki, Şərq imperiyasına olan "miras hüquqları", təbii ki, evliliyi ilə əlaqədar Moskva knyazına keçirdi. Hələ 1519-cu ildə, Papa taxtı III Vasilini "öz mülkü olan Konstantinopolun müdafiəsinə qalxmağa" və "Bütün Rusiyanın çarının mirasına sahib olan, xristianların düşməni türklərə qarşı ümumi xristian rifahı naminə" çıxış etməyə çağırırdı.

Lakin bütün bu diplomatik addımlar heç bir nəticə vermədi. Rusiya dövlətinin özünün təcili beynəlxalq məqsədləri var idi. III İvan, özünü Roma və ya Venesiyanın heç bir hiyləsinə aldanmağa imkan verməyərək, davamlı şəkildə öz məqsədlərinə doğru irəliləyirdi.

İlk növbədə, Polşa-Litva dövləti tərəfindən zəbt edilmiş rus torpaqlarının yenidən öz ərazisinə birləşdirilməsi məsələsini həll etmək lazım idi. Moskva bütün şimal-şərqi Rusiyanı birləşdirərək, vaxtilə Kiyev dövləti sisteminə daxil olan bütün rus torpaqlarını, Moskva böyük knyazlığının irsi "mülkü" elan etdi. Ona görə də, Böyük knyazlıq hökuməti inadla Rusiya torpaqlarının Litva tərəfindən zəbt edilməsini qanuniliyini tanımaqdan imtina etdi.

Bu mübahisə həll olunana qədər o, atəşkəsə razılaşaraq, "əbədi sülh"ün bağlanmasından yayınırdı. 1503-cü ildə, Moskva boyarları Litva səfirlərinə demişdilər ki, "Əgər sizin hökmdar bizim hökmdar ilə mehribançılıq və qardaşlıq münasibətində olmaq istəsə idi, bütün rus torpaqlarını geri qaytarardı." Öz növbəsində, Polşa-Litva hökuməti də, Moskvanın böyük knyazlarının özlərini "bütün Rusiyanın"hökmdarı titulu ilə adlandırmalarına etiraz edirdilər.

Həm III İvan, həm də III Vasili öz beynəlxalq siyasətini dövlətlərinin qarşısında duran bu əsas vəzifəyə tamamilə tabe etmişdilər. Ona görə də, anti-Türkiyə ittifaqı onlar üçün maraq kəsb etmirdi. Moskvada, "Konstantinopol vətənini" geri almaq təklifinə cavab olaraq, "böyük knyaz öz Rusiya torpaqlarının bütün mülklərini geri almaq istəyir" cavabını verirdilər.

Bunlardan başqa, Moskva Qara dəniz ticarətini inkişaf etdirmək üçün Osmanlı Portası ilə sülh münasibətləri yaratmaqda maraqlı idi. XV əsrin 90-cı illərindən başlayaraq, Moskva ilə Türkiyə arasında olan əlaqələr həmişə xeyirxah formalarda inkişaf edirdi. III İvan "Roma İmperiyası" ilə nəinki yaxşı dostluq əlaqələri

saxlayırdı, o, həm də İmperator Maksimilian ilə polyak Yagellonlar arasında Macarıstan üstündə gedən rəqabətindən istifadə etməyə çalışırdı. O, Maksimiliana ittifaq təklif etdi və qənimətin gələcək bölünməsi planını açıqladı: Macarıstan - Maksimiliana, Litva – özünə çatmalı idi.

Lakin, Maksimilian məqsədlərinə sülh yolu ilə çatmaq istəyirdi. Alman-Polşa münasibətlərindəki narazılıqlardan asılı olaraq, Almaniya-Rusiya münasibətlərində də dəyişikliklər baş verirdi. Bununla belə, Maksimilian Polşa ilə barışmağı özü üçün daha sərfəli hesab edəndən sonra, o, hətta Polşa ilə Moskvanı barışdırmaq üçün öz vasitəçiliyini təklif etdi.

Moskvanın, Türkiyənin vassalı kimi "Krım yurdunda" möhkəmlənmiş Krım xanı Məngli Gəray ilə sıx ittifaq bağlamasının səbəblərindən biri, xanın Litva ilə mübarizə aparması idi. III İvan istənilən güzəştlər bahasına bu ittifaqa can atırdı. O, hətta xan tələb etdiyi halda, ona "hökmdar" titulunu verməyə razı idi. O, həm də "xeyriyyəçilik" məqsədilə, tatar müttəfiqinə hər il hədiyyələr verirdi. Moskva diplomatiyası sonda istədiyi ittifaqı bağlamağa müvəffəq oldu. Krım tatarları Litva mülklərinə vaxtaşırı basqınlar etməyə başlayaraq, ölkənin daxili torpaqlarına, Kiyevə və ondan da uzaq ərazilərə hücum edrdilər. Bununla onlar, Litva Böyük hersoqluğuna nəinki ciddi maddi ziyan vururdular, hətta onun müdafiə qabiliyyətini də zəiflədirdilər.

Gəraylar (Geraylar, Giraylar; tək halda: (Gəray) — Krımda, XV əsrin əvvəllərindən 1783-cü ilə qədər — Krım xanlığının Rusiya imperiyası tərəfindən işğalına qədər, hakimiyyətdə olmuş hökmdar sülaləsi. Sülalənin banisi Krımın ilk xanı olmuş I Hacı Gəraydır.

XV əsrin sonu – XVI əsrin əvvəllərində Məngli Gəray ilə ittifaq, Rusiya xarici siyasətinin başqa bir problemini ortaya çıxarır – Moskva knyazlığının Qızıl Ordadan asılılığının birdəfəlik aradan qaldırılması məsələsini. Onun həll edilməsi yolunda III İvan silahla deyil, daha çox diplomatik vasitələrlə hərəkət edirdi. K.Marksın təbirincə - "O, Moskvanı bir güclü zərbə ilə deyil, 20 illik zəhmətlə tatar boyunduruğundan azad etdi. III İvan düşməni qaladan qovmadı, sadəcə məharətli siyasətlə onları oranı tərk etməyə məcbur etdi".

Krımla bağlanmış ittifaq nəticəsində Qızıl Ordaya qarşı mübarizədə həlledici məqam yarandı. Noqay və Sibir tatarları da bu ittifaqa cəlb olundu. 1480-ci ildə Uqradan geri çəkilən Əhməd noqaylar tərəfindən öldürüldü. 1502-ci ildə isə Qızıl Orda Məngli Gəray tərəfindən tamamilə darmadağın edildi. Beləliklə, İvan "bir tatarı digərinin vasitəsi ilə məhv etdi".

Krımla ittifaqa girən III İvan Qızıl Ordaya qarşı çıxış etdiyi bir zamanda, hərbi və diplomatik vasitələrlə, XV əsrin birinci yarısında Orta Volqaboyu ərazisində yaranmış başqa bir tatar xanlığının- Kazanın vassal asılılığına nail oldu.

III İvanın dövründə, Moskvanın xarici siyasətinin Baltik dənizi ilə bağlı xətti də müəyyən edildi. Dənizə çıxışı olmayan böyük knyazlığın xarici ticarəti sürünməyə

məhkum idi. Digər tərəfdən, Moskvaya düşmən olan Litva və Livoniya ordeninin Rusiyanın Baltik limanlarına çıxışını əngəllədiyi zamanda, Qərbi Avropanın texniki nailiyyətlərinə və mütəxəssislərinə olan kəskin ehtiyac ödənilə bilmirdi. Moskvanın Böyük knyazlığının paytaxtını öz incəsənət yaradıcılığı ilə bəzəyən italyan rəssam və sənətkarlar bütün illər ərzində Moldova və Krımdan keçərək Moskvaya gəlməli olurdular.

Novqorodda Hanza ağalığının ləğv edilməsi və Danimarka ilə dostluq münasibətlərinin qurulması, şübhəsiz ki, Novqorod ticarətini qüdrətli Hanzanın yaratdığı maneələrdən azad etmək məqsədi daşıyırdı. Digər tərəfdən, 1503-cü ildə Livoniya ordeni ilə bağlanmış müqaviləyə əsasən, Yuryev yepiskopluğundan (Derpt bölgəsi) xərac tələbi, Moskvanın Livoniyada siyasi təsirinin yayılması yolunda ilk addım idi.

Hanza, həmçinin Hanza ittifaqı, Hanza ittifaqı XII əsrin ortalarında yaranmış Şimal-Qərbi Avropanın azad ticarət şəhərlərinin böyük siyasi və iqtisadi birliyidir. XVII əsrin ortalarına qədər mövcud olmuşdur. Hanza siyahısına 130 şəhər daxil edilmişdi, onlardan 100-ə yaxını liman, üç minə qədər yaşayış məntəqəsi isə onun təsiri altında idi. XV əsrin əvvəllərində Hanza 160-a yaxın şəhəri birləşdirirdi.

III İvanın incə və ehtiyatlı siyasəti nəticəsində, XVI əsrin əvvəllərində Rusiya dövləti Avropada həlledici rola iddia etmədən, orada mühüm beynəlxalq mövqe tutdu.

4.2 IV İvanın diplomatiyası

Moskvanın beynəlxalq siyasəti III İvanın nəvəsi çar IV İvan Qroznı dövründə daha da geniş vüsət aldı. IV İvan Qroznının hakimiyyətinin ilk illərində onun xarici siyasətinin istiqaməti şərqə yönəlmişdi. 1551-ci ildə Sviyajskda strateji bazanın yaradılması Kazan xanlığının tam ilhaqına yol açdı. Kazan və Moskva arasında Moskva çarının başçılığı altında birlik yaratmaq ilə bağlı danışıqlar tam uğurla başa çatdı. Lakin, Kazanda həlledici məqamda müharibə tərəfdarlarları üstün mövqe qazandıqlarına görə razılaşma pozuldu. 1552-ci ildə Kazanın birləşdirilməsi artıq diplomatik yolla deyil, hərbi yolla həyata keçirildi. 1555-ci ildə Kazanın süqutundan sonra, Sibir xanı özünü Moskvanın vassalı kimi tanıdı.

1556-cı ildə Həştərxan müqavimətsiz təslim oldu. Onun ilhaqı Şimali Qafqazın kabardin knyazları və Tarku "şamxallığı" ilə əlaqələr qurmağa imkan verdi. Sonralar, IV İvanın oğlunun dövründə türklər və farslar tərəfindən sıxışdırılan Gürcüstan Moskva dövləti ilə sıx əlaqələr qurdu. Kazanın "ələ keçirilməsi" ilə Volqa və Kama boyunca ticarət yolları Moskvanın təsiri altına keçdi. Bununla əlaqədar olaraq, XVI əsrin 60-cı illərində onlar, Orta Asiya və Xəzəryanı dövlətlərlə - Xivə, "Taşkan"(Maqadan vilayətində), "Səmərkənd" və "Şamaxı" hökmdarları ilə diplomatik münasibətlər qurmaq üçün yollar açıldı.

Tarku şamxallığı — X əsrdən 1867-ci ilədək Dağıstan ərazisində mövcud olmuş feodal dövlət. Övliya Çələbi bu xanlığın torpaqları üçün "Kumuğıstan" və "Dağıstani Qumuq" təbirlərini işlətmişdir. Şamxal dağlıq bölgədə yerləşirdi. Şamxallığın mərkəzi Tarku kəndi idi.

Lakin, IV İvanın xarici siyasətinin əsas istiqaməti Şərq deyildi. Onun bütün səyləri Qərbə yönəlmişdi. XVI əsrin ortalarında formalaşmaqda olan Moskva knyazlığı kimi güclü mərkəzləşdirilmiş dövlət Qərbin daha mədəni ölkələri ilə birbaşa əlaqə yaratmadan inkişaf edə bilməzdi. Dövlətin iqtisadi və hərbi maraqları Qərblə əlaqələrin gücləndirilməsini, oradan mütəxəssislərin cəlb edilməsini tələb edirdi.

Rusiyanın əslində düşməni olan Polşa, Litva və Livoniya ordeni tərəfindən Moskva knyazlığına qarşı həyata keçirdiyi blokada nəyin bahasına olursa olsun ləğv edilməli idi. Ona görə də, 1553-cü ildən sonra, İngiltərə ilə Ağ dəniz vasitəsilə birbaşa əlaqələrin qurulması Moskvada məmnunluqla qarşılandı. Lakin, Şimal Buzlu okeanında nəqliyyat əlaqəsi saxlamaq üçün naviqasiya şəraiti Ağ dəniz marşrutu ilə əlaqələrin davamlılığını təmin edə bilmirdi. Moskvaya Baltik dənizinə çıxış lazım idi.

IV İvan bu məsələdə inadla babasının yolu ilə getdi. İlk növbədə, Kazan məsələsində olduğu kimi, o, Baltik problemini diplomatik yol ilə həll etməyə cəhd etdi. III İvanın Livoniya ordeni ilə bağladığı barışıq müddəti 1553-cü ildə başa çatdı. IV İvan hökumətinin irəli sürdüyü yeni şərtlərin məqsədi Derpt(Yuriyev) və onun ərazisini Moskvadan yarım vassal vəziyyətə salmaq idi.

1558-ci ildə başlayan müharibə, çox sürətlə ümumavropa miqyaslı münaqişəyə çevrildi. Müharibənin birinci ilində aparılan hərbi əməliyyatlar zəif, feodallıqlara parçalanmış Livoniyanın Moskva dövlətinə müqavimət göstərə bilmədiyini göstərdi. O, bütün Baltik məsələsini bütövlükdə həll etməyi qarşısına məqsəd qoydu. Avropanın bütün maraqlı dövlətləri arasında Baltikyanı ərazilər uğrunda mübarizə alovlanırdı. Litva, Polşa, İsveç, Danimarka müharibəyə girdi. "Moskva təhlükəsi" Şərqi Almaniya knyazlarını təşvişə saldı. Onlar, rus ordularının qalibiyyətli yürüşünün harada dayanacağından narahat idilər.

Roma İmperiyasının tərkibinə daxil olan dövlətlərin nümayəndələrinin müntəzəm görüşlərində Livoniya məsələsi gündəmi tərk etmirdi. İmperator knyazları arasında Moskvaya qarşı müharibəyə müdaxilə etməyi tələb edən qrup da var idi. Əksinə, ticarət maraqları Hanza şəhərlərini Moskva ilə sülhün qorunmasında israr etməyə məcbur etdi. İmperator II Maksimilian güzəştə gedərək, blokada elan etməklə kifayətləndi. Hətta, hərbi əməliyyat ərazisindən uzaqda yerləşən Fransa və İspaniya kimi ölkələrdə də, Baltik sahillərini ələ keçirmək üçün layihələr yaradılırdı. Polşa-Litva diplomatiyasının təhriki ilə, Krım tatarları və Osmanlı Sultanı yaranmış siyasi vəziyyətdən istifadə edərək Kazan və Həştərxanı geri almağa səy göstərirdilər.

Livoniya müharibəsində Litva ağır vəziyyətə düşdü. Litvanın yuxarı dairələri xilas yolunu Polşa ilə birləşməkdə gördü. 1569-cu ildə Lyublin şəhərində Polşa ilə Litva arasında müqavilə bağlandı. Bu iki dövlət Reç Pospolita adlı federal dövlətdə birləşdi. Bu dövlətə Ukrayna və Belorusiya ərazisinin bir hissəsi də daxil oldu.

Polşa-Litva maqnatları (Polşada iri feodal, varlı və əsilli şəxs) və şlyaxtası (Polşada hakim feodal təbəqəsi) yaranmış vəziyyətdən istifadə edib rusları Baltik sahilindən çıxarmağa və rus torpaqlarını tutmağa çalışırdılar. 1572-ci ildə Reç Pospolita krallıq oldu. Rusiya əleyhdarı Stefan Batori Reç Pospolita kralı seçildi.

Belə bir şəraitdə Moskva diplomatiyası özünün fəaliyyət dairəsini inkişaf etdirməli oldu. İvan Qroznı Danimarka ilə dostluq münasibətlərini qoruyub saxlayırdı. O, Türkiyə ilə ittifaq axtardığından, Qafqaza hücum etməkdən imtina edərək, Polşa taxtına öz namizədliyini irəli sürdü. IV İvan imperatorla danışıqlar apararaq, bu Birliyin bölünməsini təklif edir, belə ki, " Polşa tacı" imperatorun oğluna verilir, İvanın özü isə Litvanı və Livoniyanı almalı idi.

Reç Pospolita — Polşa Krallığı taxt-tacı və Böyük Litva Knyazlığı arasında 1569-cu ilin iyul ayında imzalanmış Lyublin sazişinə əsasən yaradılmış federativ dövlət. Torpaqlarının 1795-ci ildə Rusiya, Prussiya və Avstriya arasında bölünməsi ilə ləğv edilmişdir.

Danimarka ilə razılaşan IV İvan Livoniyada Danimarka kralının qardaşı hersoq Maqnusun başçılığı ilə etdiyi vassal dövlət təşkil edir. Bütün bu diplomatik planların həyata keçirilməsində İvan şəxsən özü iştirak etmişdi. Bütün bunlara baxmayaraq, o, 24 illik yorucu mübarizədən sonra ehtiyat mənbələrinin tamamilə tükənməsi səbəbindən Baltikyanı sahillərini ələ keçirmək ilə bağlı geniş planlarından imtina etməli oldu. 1582-ci ildə Yam Zapolskidə papanın nümayəndəsinin iştirakı ilə Moskva və Reç Pospolita arasında "müharibədən əvvəlki" şərtlərlə, əldə edilən fəthlərdən qarşılıqlı şəkildə imtina etməklə sülh bağlandı.

Beləliklə, həm rus qoşunlarının, həm də rus diplomatiyasının yüksək keyfiyyətlərinin təzahür etdiyi uzun mübarizəyə baxmayaraq, Rusiya üçün son dərəcə əlverişsiz beynəlxalq vəziyyət şəraitində IV İvan Qərbdə qarşısına qoyduğu vəzifələri yerinə yetirə bilmədi. Lakin, qarşı tərəf olan Reç Pospolita da geniş təcavüz planlarından və Pskov, Novqorod və Smolenskə olan iddialarından əl çəkməyə məcbur oldu. Məqsədlərinə çatmaq üçün Polşa-Litva diplomatları 1600-cü ildə Moskva dövləti ilə Reç Pospolita arasında birlik yaratmaq layihəsini irəli sürdülər. Boris Qodunov hökuməti bu layihəni rədd etdi. Gələcəkdə Reç Pospolita diplomatiyası öz planlarını həyata keçirmək üçün başqa bir üsula – taxta yalançı iddiaçılar irəli sürmək üsuluna əl atdı.

XVI əsrdə Rusiya dövlətinin Avropanın beynəlxalq münasibətlərində oynadığı böyük rol və bununla bağlı Moskvanın geniş diplomatik fəaliyyəti, Şərqdə formalaşmış yeni siyasi qüvvənin hüquqi tanınması məsələsini qarşıya qoydu. IV İvan, 1547-ci ildə özünə tac qoyma mərasimi keçirməsi və çar (yəni mahiyyətcə

imperator) titulu alması ilə dövlətinin xristian dövlətləri arasında iddia etdiyi yeri müəyyənləşdirmiş oldu.

1554-cü ildən protestant İngiltərə tərəfindən İvana qeyd-şərtsiz imperator titulu verildi. Vahid "müqəddəs imperiya" ideyasının möhkəmləndiyi katolik ölkələrində titul məsələsi daha çətin məsələ idi. 1576-cı ildə İmperator II Maksimilian, İvan Qroznını Türkiyəyə qarşı ittifaqa cəlb etmək istəyərək, ona gələcəkdə taxt-tac və "şərq Sezarı" titulunu təklif etdi. IV İvan "yunan sezarı" olmağa tamamilə biganə idi, lakin özünün dərhal "bütün Rusiyanın" çarı kimi tanınmasını tələb etdi. İmperator belə bir mühüm ciddi məsələdə güzəştə getdi. Papa daha sərt münasibət göstərdi. O, papaların hökmdarlara kral və digər titullar vermək kimi müstəsna hüquqlarını müdafiə etdi və digər tərəfdən "vahid imperiya" prinsipinin pozulmasına imkan vermək istəmirdi.

Belə barışmaz mövqedə olan Papa Moskva hökmdarının iddialarının məqsədini yaxşı anlayan Polşa kralından dəstək tapdı. II Sigizmund Avqust papa taxtına müraciət təqdim etdi. O, burada xəbərdarlıq etdi ki, IV İvan üçün papalıq tərəfindən çar titulunun tanınması Polşa və Litvadan moskvalılara qohum olan "rutenlərin" (latınca qədim Rusiya ərazilərinin əhalisini bildirən orta əsr ekzoetnonimidir), yaşadığı torpaqların ayrılmasına səbəb olacaq. Moldovanlar və valaxlar da onların tərəfinə keçəcəkdir.

Öz növbəsində, Polşa-Litva dövləti tərəfindən kral titulunun tanınmasına xüsusi əhəmiyyət verən IV İvan, tacqoyma mərasimindən dərhal sonra bu məzələnin həllinə nail olmaq üçün çalışmağa başladı. Bununla belə, XVI əsr boyu Polşa, onun bu tələbi ilə heç vaxt razılaşmadı. IV İvanın xələflərindən, onun saxta oğlu I Yalançı Dmitri "imperator" tituluna iddia edirdi. Lakin, onu taxt-taca oturdan kral Sigizmund rəsmi şəkildə onu sadəcə olaraq knyaz adlandırırdı, hətta "böyük" titulunu da işlətmirdi.

İKİNCİ FƏSİL
XVII ƏSRDƏ BEYNƏLXALQ VƏZİYYƏT

I BÖLMƏ
Beynəlxalq münasibətlərin Vestfal sisteminin yaranması

§1. XVII əsrdə Avropada Fransa hegemonluğu dövrü
1.IV Henrixin diplomatiyası
2.Kardinal Rişelyenin diplomatiyası
3.Otuzillik müharibə
4.Vestfal sülhü və beynəlxalq nizamın yaranması
5. XIV Lüdovukin diplomatiyası
6. Sülalə müharibələri

§2.Qərb ölkələrinin müstəmləkə siyasəti və dünya liderliyi uğrunda mübarizə
1. Ticarət və müstəmləkə inhisarının sonu
2.Çinin xarici aləm üçün "bağlanması"
3.Dünyanın müstəmləkəçi dövlətlər tərəfindən bölüşdürülməsi
4.Dəniz müharibələri

§1. XVII əsrdə Avropada Fransa hegemonluğu dövrü
1.IV Henrixin diplomatiyası
2.Kardinal Rişelyenin diplomatiyası
3.Otuzillik müharibə
3.1.Münaqişənin ilkin şərtləri
3.2.Müharibənin başlanması
3.3.Avropa atəş içində
3.4.İsveç dövlətinin təcavüzkar məqsədləri
3.5.Müharibədə dönüş mərhələsi
3.6.Periferik müharibələr
3.7.İmperiyanın süqutu
4.Vestfal sülhü və beynəlxalq nizamın yaranması
4.1.Sülh konqresi
4.2.Ərazi dəyişiklikləri
4.3.Yeni nizam qaydaları
4.4.Avropa siyasi tarazlığı

4.5.Vestfal sisteminin yaranması

5. XIV Lüdovikin diplomatiyası

6. Sülalə müharibələri

6.1.Səbəblər və bəhanələr

6.2.Devolyusiya (Varislik) müharibəsi (1667-1668).

6.3. Hollandiya müharibəsi (1672-1678)

6.4.Yenidən birləşdirmə palataları

6.5. Auqsburq Liqasının formalaşması (1686-1689)

6.6. Auqsburq Liqasının müharibəsi və ya Pfalts mirası uğrunda müharibə (1688- 1697)

Əgər XVI əsrdə Avropanın beynəlxalq münasibətlərində mühüm rolu İspaniya oynayırdısa, XVII əsrdə Fransanın ən azı qitədə real hegemonluğundan danışmaq olar. Fransa XVI əsrin ikinci yarısında böyük vətəndaş iğtişaşları dövründən güclü və möhkəmlənmiş mütləq monarxiya kimi meydana çıxdı. Fransanın çoxsaylı, zəhmətkeş kəndliləri və varlı burjuaziya vergilər şəklində xəzinəyə külli miqdarda vəsaitlər verirdilər. Bu vəsait Fransa kralına və onun zadəganlarına güclü xarici siyasət yeritməyə və Fransanı Avropada birinci yerə çıxmağa imkan yaratdı.

1.IV Henrixin diplomatiyası

Fransada XVI əsrin uzun və dağıdıcı müharibələrinin vətəndaş müharibəsi ilə başa çatdı. Bu müharibələrdən qazanılan təcrübə mənasız olmadı. Yeni dövlətin genişlənmək istəyi digər onun kimi dövlətlərin müqaviməti ilə qarşılaşdı. Onun hər hansı bir fəth iddiası və dünya üzərində (XVI əsrdə) hökmranlıq istəyi düşmən koalisiyalarının yaranmasına səbəb oldu. XVII əsrin siyasətçiləri və diplomatları bu təcrübəni ümumiləşdirərək, beynəlxalq prinsiplər xarakteri daşıyan bir sıra müddəaları formalaşdırdılar. Lakin, bu prinsiplər tez-tez pozulurdu. Buna baxmayaraq, məhz o zamankı beynəlxalq münasibətlərin ifrat qeyri-sabitliyi ilə bağlı yaranmış bu sistemli pozuntular, müəyyən normaların formalaşdırılmasına tələbat yaratdı. Belə "normativ" xarakter daşıyan prinsiplər əsasən "təbii sərhədlər" və "siyasi tarazlıq" ideyaları oldu.

IV Henrix (13 dekabr 1553 – 14 may 1610) Fransada dini müharibələrdən qalib çıxan, quqenotların başçısı olubdur, 1572-ci ildən etibarən Navarra kralı, 1589-cu ildən etibarən isə Fransa kralı olmuşdur(rəsmən 1594-cü ildən kral elan edildi). Burbonların banisi hesab olunur. IV Henrixin taxta olan hüquqları öz tərəfdaşlarına Navarra monarxına sadiq qalmağı əmr etmiş III Henrix tərəfindən təsdiqlənmişdi. 1589-cu ilin avqustun 1 də III Henrix fanatik rahib Jak Klemanın bıçaqlı hücumuna məruz qalır. Qısa müddətə onun vəziyyəti ağırlaşlır və vəfat edir. Ölüm ayağında ikən III Henrix IV Henrixi rəsmi şəkildə öz varisi elan edir. Lakin yalnız uzunmüddətli mübarizədən sonra o, Fransa kralı ola bilmişdi. Öz rəqiblərini zərərsizləşdirmək

məqsədilə, Navarralı IV Henrix 1593-cü ilin 25 iyul tarixində katolikliyi qəbul etdi və artıq 1594-cü ilin 22 mart tarixində Parisə kral kimi daxil olmuşdur. Məzhəblərarası mübarizələrə son qoymaq üçün IV Henrix 1598-ci ilin aprelin 13-də protestantlara etiqad azadlığı bəxş edən Nant razılaşmasını imzaladı, yalnız bundan sonra quqenot müharibələri bitmişdir.

IV Henrixin müasirləri olan siyasətçilər və hər şeydən əvvəl onun əsas köməkçisi Syulli - daim vurğulayırdılar ki, yalnız qoruya biləcəyiniz torpağı fəth edə bilərsiniz. Dövlətin gücünün öz hüdudları var. Onlardan kənara keçərkən düşmənlərin və paxıllıq edən insanların birləşmiş qüvvələrini özünəzə qarşı çevirirsiniz. Syulli özünün məşhur "Dövlət təsərrüfatının prinsipləri" ("Les o economies royales") memuarında yazırdı: "Fransanın hər bir kralı onunla maraqlar birliyi ilə möhkəm bağlı olan dostlar və müttəfiqlər əldə etmək barədə düşünməlidir. Belə ki, öz gücünə uyğun olmayan layihələrlə, özünə qarşı sönməz nifrət və düşmənçilik münasibətləri cəlb etməkdənsə, bu addım ən etibarlı siyasətdir." Görkəmli fransız diplomatı Etyen Paskye filosofla hökmdar arasında olan dialoqda deyir: "Siz dövlətinizə ən yaxşı sərhədlər qurmağa çalışırsınız, lakin, ilk növbədə ümid və istəklərinizüçün lazımı sərhədlər qoymağınız vacibdir."

Syulli yaxşı bilirdi ki, Böyük Karl imperiyanı bərpa etdi və Kapetinqlərin dövründən Fransa "bu gün məskun olduğu dar dövlət sərhədləri" ilə məhdudlaşdırıldı. O izah edirdi ki, Fransanın cənubunda onun təbii sərhədi olan Pireney dağ silsiləsi vardır. O, çoz yaxşı başa düşürdü ki, Fransanın əvvəlki şöhrətini bərpa etmək üçün, "bir vaxtlar ona məxsus olan qonşu əraziləri", yəni Savoyanı, Franş-Konteni, Lotaringiyanı, Genneqaunu, Artuanı və Hollandiyanı ona qaytarmaq lazımdır. "Ancaq düşmənlərin nifrətinə və dağıdıcı müharibələrə səbəb olmadan bütün bunlara necə iddia qaldırmaq olar? Həm də fransız krallarının özləri elə bir şöhrətpərəstliyə malikdirlər ki, bu, Fransa üçün xaricilərin bütün nifrətindən daha dəhşətlidir." Lakin, Fransa o qədər gözü tox və güclü idi ki, o, heç kimdən qorxmur və hamı üçün qorxulu olaraq qalırdı.

Bununla belə, Syulli həm də bütün sivil dünya və xristian xalqları üzərində Fransanın hegemonluğunu yaratmaq arzusunda idi. Buradan Syullinin öz kralına aid etdiyi, lakin çox güman ki, özünün tərtib etdiyi qəribə beynəlxalq müqavilə layihəsi meydana gəlir. Syullinin sözlərinə görə, Kral IV Henrixin "Böyük niyyət" adlı planında ("Le grand Dessein"), Habsburqları Pireney yarımadasının hökmdarları səviyyəsinə endirmək, türkləri və tatarları Asiyaya qovmaq, Bizans imperiyasını bərpa etmək və sonra Avropanın bütün siyasi xəritəsini yenidən çəkmək fikirləri öz əksini tapmışdı. Avropa altı irsi monarxiyaya, beş seçkili monarxiyaya və beş respublikaya bölünməli idi. Bütün bu dövlətlərə, ümumi sülhü qoruyacaq və dövlətlər, hökmdarlar və onların təbəələri arasında mübahisələri həll edəcək, xüsusi şura rəhbərlik etməli idi. Xristian dövlətlərindən ibarət bu özünəməxsus

respublikanın Prezidenti Papa, Fransa isə onun Birinci naziri olmalı idi. XVII əsrin "Millətlər Birliyinin" bu layihəsinin arxasında Syullinin gizli niyyəti tam aydın idi. Fransanın düşmənlərini zəiflətmək, onun vassallarını gücləndirmək, qanuni halda onların himayəsində olan, lakin əslində isə Fransanın təsiri altında olan bitərəf dövlətlər kəməri ilə onları əhatə etmək – bu plan, Kral IV Henrinin birinci xidmətçisinin fantastik "böyük ideyası" idi.

Syullinin bu böyük planı yalnız onun xatirələrindən məlumdur. Lakin belə layihələr reallıqlardan uzaq idi. Bu məsələləri, əməli siyasəti ilə Kral IV Henrixin özü, daha sonra onun şöhrətli varisi, mütləqiyyət ölkəsi Fransanın zadəganlarının ən böyük siyasətçilərindən biri olan kardinal Rişelye həyata keçirdi. IV Henrix öz ölkəsinin təbii sərhəd normalarını gözdən qaçırmadan, xarici siyasətdə o dövrdə geniş şəkildə tətbiq olunan başqa bir prinsiplə hərəkət edirdi. Bu, "siyasi tarazlıq" prinsipi idi.

Əgər yeni dövlət milli köklərə əsaslanırsa, yəni, o, ərazinin iqtisadi birliyi və onunla bağlı dil və mədəniyyət birliyi əsasında qurulmuşdursa, dövlət digər ölkələrlə münasibətlərində bu bütövlüyü onların təsirindən qorumağa çalışır. Əslində, xarici siyasətdə bu, Avropa dövlətləri arasında tarixən formalaşmış güc nisbətini qorumaq, sürətlə güclənən istənilən dövlətə qarşı tarazlıq yaratmaq istəyinə gətirib çıxarırdı. Güclü dövlətlərin tərəfindən ələ keçirilən ölkələrin əvəzini təmin etmək üçün, digər daha zəif olanları dəstək olaraq, eyni "tarazlığı" bərpa etməyə səy göstərmək lazımdır. Təbii ki, bütün bu cür "prinsiplər" yalnız o vaxta qədər qüvvədə qalırdı ki, onları zorla pozmaq artıq qeyri mümkün və ya təhlükəli olsun.

IV Henrix, Fransanın sərhədlərini hər hansı başqa yolla böyütmək və genişləndirmək təhlükəli olduğu halda, "prinsiplərə" əsaslanırdı. "Mən razıyam ki, əhalisi ispan dilində danışan ərazi İspaniyanın mülkiyyətində qalsın, əhalisi almanca danışan ərazi isə Almaniyaya aid olsun. Amma əhalisi fransızca danışan torpaqlar mənə məxsus olmalıdır. Əməldə Henrix iki məqsəd güdürdü: Habsburqlar sülaləsinin gücünü zəiflətmək və Avropa dövlətləri arasında yaranan tarazlığı Fransanın xeyrinə qoruyaraq saxlamaq.

Bu fikirləri ilə o, İngiltərə ilə dostluq münasibətlərini davam etdirirdi, o da, bir protestant və İspaniyanın düşməni kimi, Henrixə Fransa taxtını ələ keçirməyə kömək etdi. Bununla belə, Henrix, eyni zamanda, I Fransusk vaxtından Fransanın möhkəmləndiyi İtaliyada və Şərqdə, ingilis dənizçilərinin və tacirlərinin planlarına, ingilis diplomatlarının fitnəkar addımlarına qarşı gizli şəkildə maneələr yaradırdı. Bunun nəticəsində, IV Henrixin Londonda olan səfirləri Tyumeri, Tarle de Bomon və La Borderinin qarşısına çətin bir vəzifə qoyulmuşdu - İngiltərə ilə saxladıqları dostluğu, Londonun lider olmaq istəyinə qarşı mübarizə aparmaq siyasəti ilə birləşdirmək tələb olunurdu. Məhz bu məqsədlər naminə, Habsburqları zəiflətmək

məqsədi ilə IV Henrix İspaniya ilə Hollandiya arasında sülhün bağlanmasına kömək etdi.

Beləliklə, Fransa kralı İspaniyadan ayrılmış Hollandiyanın 7 şimal əyalətinin müstəqilliyinin Madrid tərəfindən tanınmasına kömək etdi. Henrix, Şərqdə, Türkiyədə fransız səfirləri Savari de Brevanın və Jan de Qonto-Bironun uğurlu diplomatik fəaliyyətinin köməyi ilə dini müharibələr zamanı zəifləmiş Fransa nüfuzunu bərpa etdi. 1535-ci ildə I Fransiskin Türkiyədən aldığı imtiyazlar, 1604-cü ildə tam bərpa olundu: Türkiyə ilə ticarət etmək istəyən bütün xalqlar öz gəmilərini Fransa bayrağı altında ora göndərməyə məcbur idilər. Ancaq ingilislər istisna təşkil edirdilər, çünki onlar XVI əsrin sonunda (1599) Sultandan öz bayraqları altında limanlarına girmək hüququnu ala bildilər. Henrixin sultanla dostluq etməsinin əsas məqsədi, İmperatoru (Habsburq), türk ordusunun, ispan kralını (həmçinin Habsburq) isə türk donanmasının hücumu ilə qorxutmaq idi. Hər iki məsələ, Fransanın təhlükəsizliyinin təminatı üçün bir vasitə idi.

Bununla belə, Henrix eyni zamanda, sadəlövh pərəstişkarları olan dostlarına və dindarlara, onun Şərqi fəth etmək, Sultanı Avropadan qovmaq və ona qarşı səlib yürüşü elan etmək kimi müqəddəs xristian niyyətləri barədə şayiələr yaymağa mane olmurdu. Alman knyazlarına münasibətdə, Henrix də XVI əsr mühitinin ona təlqin etdiyi real siyasətə sadiq qalırdı. Onun səlahiyyətli nümayəndəsi Bonqar alman protestant knyazlarını əmin etmişdi ki, Henrixin protestantlıqdan katolikliyə keçməsi onları təəcübləndirməməlidir: kralın alman knyazlarına qarşı dost münasibəti, həmçinin onun "əzəli alman azadlığının" müdafiəçisi olmaqda davam etmək istəyi də dəyişməz olaraq qalır. Əgər alman knyazları güclü olarlarsa, Fransanın əbədi düşməni olan Habsburq imperatoru zəifləyəcəkdir. Henrixin hakimiyyətinin sonu Habsburqlarla münasibətlərin kəskinləşməsi və İspaniya ilə yeni müharibə ilə yadda qaldı. Henrix Müqəddəs Roma İmperatoru II Rudolf (katolik) və protestant alman knyazları arasındakı münaqişəyə müdaxilə etdi. Nəhayət IV Henrix, Habsburqlara qarşı koalisiya yarada bildi və onlara qarşı mübarizəni təşkil etməyə başladı. Ancaq, 1610-cu ilin mayın 14-də, fanatik katolik Fransua Ravalyak tərəfindən Parisdə qətlə yetirildi.

2.Kardinal Rişelyenin diplomatiyası

XIII Lüdovik azyaşlı olduğu dövrdə bir neçə illik iğtişaşlardan sonra Fransanın Birinci naziri və faktiki hökmdarı olan Kardinal Rişelye hakimiyyəti öz güclü əllərinə aldı. Rişelye, zadəgan monarxiyasının hələ yüksəliş xəttində olduğu dövrdə orta və xırda əsilzadələrin tipik nümayəndəsi kimi onların maraqlarını müdafiə edirdi. Xarici siyasət və diplomatiya sahəsində o, IV Henrixin "realist" siyasətinin davamçısı olmuşdur.

Arman-Jan dyu Plessi de Rişelye (9 sentyabr 1585 — 4 dekabr 1642) — Fransa dövlət xadimi, 1624-cü ildən ömrünün sonunadək Fransanın faktiki rəhbəri. Tarixə "Qırmızı Kardinal" ləqəbi ilə düşmüşdür.

1585-ci il sentyabrın 9-da Parisdə Puatu əyalətinin Rişelye qəsrində kasıblaşmış zadəgan ailəsində anadan olmuşdur. 1594-cü ildə Navarra kollecinə daxil olur və hərbi təhsili alır. 1616-cı ildə Rişelye Kral şurasına daxil oldu-hərbi işlər və xarici siyasət üzrə dövlət katibi təyin edildi. 1622-ci il 5 sentyabrda Rişelye kardinal rütbəsinə layiq görüldü. 1624-cü il 13 avqustunda Rişelye Fransanın "Baş naziri" (Birinci nazir) təyin edildi.

Fransız monarxiyasının getdikcə artan gücünü əks etdirən Fransanın "təbii sərhədləri"nin axtarışı, Habsburqları zəiflətmək naminə "siyasi tarazlığın" qorunub saxlanması – onun diplomatiyasının əsasları idi. IV Henrixin Reyn çayını Fransanın şərq sərhədi kimi düşünüb-düşünmədiyini söyləmək çətindir. Onun müasirlərindən bəziləri bu fikirlərin krala aid olduğunu iddia edirdilər. Ancaq Rişelyenin Reyn haqqında fikirləri olduqca aydın şəkildə ifadə edilirdi.

Belə ki, 1633-cü ildə yerli protestant quqenotların məğlubiyyətindən sonra (1628-ci ildə Laroşelin tutulması) kardinal kral XIII Lüdovikə yazırdı ki, əgər kral Avstriya dövlətinə qarşı Almaniyanın protestant knyazlarının tərəfini tutsa, onlar Reyna qədər olan bütün ərazini ona verəcəklər. Reynə gedən yol Lotaringiyadan keçirdi. O ilhaq olunarsa, Fransanın torpaqları diqqət çəkmədən Reynə qədər uzatmaq olar və hətta, İspaniyaya qarşı üsyan qaldıracağı təqdirdə Flandriyanın bölünməsində də iştirak etmək olar.

Rişelye başa düşürdü ki, təkcə silahla deyil, həm də təbliğatla hərəkət etmək lazımdır. Fransada Rişelyenin hakimiyyəti dövrü ilk qəzetin meydana çıxması ilə yadda qaldı. Rişelye qəzeti dərhal öz planlarının yerinə yetirilməsinə cəlb etdi. Rişelye öz iddialarını hüquqi cəhətdən də əsaslandırmağa çalışırdı. Tezliklə, qəzetdə "Lotaringiya və Bar hersoqluğunu Fransaya birləşdirmək üçün ən etibarlı vasitə hansıdır" başlığı altında pamflet çap edildi. Pamfletdə yazılırdı- "İmperatorun Reyn çayının sol tərəfində yerləşən əraziyə heç bir hüququ əsası yoxdur, çünki bu çay 500 il Fransanın sərhədi kimi istifadə olunmuşdur. İmperator qəsbkarlıq hüquqlarına əsaslanır". Onun müəllifi, Kardinal Rişelyeyə yalnız qorxduğu üçün deyil, həm də öz vicdanı ilə xidmət edən dövlət nümayəndələrindən olan publisist Şantero- Lefevr idi. O, qədim frankların Qallıyanı, yəni Atlantik okeanı və Aralıq dənizi arasında yerləşən və Reyn çayı, Pireney və Alp dağları hüdudlarında olan nəhəng bir məkanı fəth etdiyini iddia edirdi. Bu məkan çox qədimdən, belqlərin, keltlərin və akvitanların ölkəsi olan Qalliya kimi tanınır. Beləliklə, Şantero- Lefevr Fransanın tərkibinə Elzas və Lotaringiyanı, Savoyu, Nitsanı - bir sözlə, Fransanın sonradan, qüdrətli və hərbi uğurlara malik olduğu zaman fəth etdiyi bütün əraziləri daxil etmişdi.

Şantero- Lefevr, Fransanın bütün bu torpaqları alacağı təqdirdə Avropada sülhün təmin ediləcəyini əmin edirdi. Əks halda, "Avropa, franko-qalliya tacının ərazilərini və dövlətlərini ələ keçirərək, qalanlarını da əldə etməyə çalışan, xristian hökmdarlarını əsarət altına almağa çalışan və bütün Qərbi fəth edərək beşinci monarxiya yaratmağa çalışan birinin hücumuna məruz qalacaqdır." Aydındır ki, Şantero- Lefevr Habsburqların apardığı siyasətə işarə edirdi. Fransız publisistlərinin bu nəzəri mülahizələrinin nəticələri haqqında, Almaniyanı kiçik knyazlıqlara parçalayan 1648-ci il Vestfal sülh müqaviləsinin maddələri soraq verir. Rişelyenin özü də publisistlərin layihələrindən çox da kənarda dayanmamışdı. Onun "siyasi vəsiyyətnamə"sində belə bir ifadə var:

"Mənim hakimiyyətdə olmağımın məqsədi təbiətin onun üçün nəzərdə tutduğu sərhədləri Qalliyaya qaytarmaq, qalllara, qall- kralını qaytarmaq, Qalliyanın yerinə Fransanı qoymaq və qədim Qalliyanın olduğu bütün torpaqlarda yenisini yaratmaq idi."

Rişelyenin Birinci nazir olduğu dövrdə (1624-1642) Habsburqların yenidən güclənməsi təhlükəsi Fransanı yenidən narahat etməyə başladı. XVI əsrin sonlarında türklərin Habsburqların torpaqlarına qarşı təzyiqi zəiflədi. Ona görə, reformasiya nəticəsində zəifləmiş Habsburqlar, Almaniyada öz təsirlərini və imperiya hakimiyyətini bərpa etmək ümidi ilə öz diqqətlərini yenidən Almaniyaya tərəf yönəltdilər. "Katolik irticası", yəni protestantlığa qarşı mübarizə başladı və bu məsələ, əslində, alman knyazlarını gücləndirdi və onların imperatora müqavimət göstərmək üçün bir amilə çevrildi. II Ferdinand, Almaniyanı özünün qeyd-şərtsiz və qeyri-məhdud hakimiyyəti altında birləşdirmək arzusunda idi.

İmperatorun Almaniyanı tabe etmək üçün, Otuz illik müharibə (1618-1648) adlanan son cəhdi başladı. Bu planlar reallaşsa idi, Fransanın yanında nəhəng bir dövlət meydana çıxardı. Rişelye bu prosesin qarşısını almaq üçün bütün gücünü işə saldı. O, katolik imperatoruna qarşı Almaniyanın protestant knyazlarını dəstəkləyərək Fransanın ənənəvi siyasətini davam etdirməli oldu. Eyni zamanda, Rişelye Laroşeldə öz fransız protestantlarını (quqenotları) darmadağın etdi (1628).

O, Şimali Almaniyada, Şimal və Baltik dənizləri sahillərində imperatorun güclənməsindən qorxaraq İngiltərə və Hollandiyadan verilən subsidiyaları həvəslə qəbul edən və imperatorla müharibəyə başlayan Danimarka kralı ilə danışıqlara başladı. Danimarka kralı məğlub olduqdan sonra, quqenotları məhv etmək üçün apardığı müharibəni bitirən Rişelye, İsveçin və onun cəsur komandanı Kral Qustav Adolfun hərbi qüvvələrini Alman imperatoruna qarşı atmaq üçün bütün diplomatik bacarığını tətbiq etdi.

Rişelyenin bütün fəaliyyətlərində əsas köməkçisi XVII əsrin görkəmli diplomatı, kaputsin- rahib Jozef ata (Pere Jozef, 1577-1638) idi. Onun əsl həqiqi rolunu, fransız

tarixçisi Fanye əlinə keçən zəngin arxiv sənədlərindən istifadə edərək bu yaxınlarda üzə çıxarmışdır. Bu "üfunətli rahib" və ya tez-tez "boz müqəddəs ata" adlandırılan bu şəxs davamlı olaraq Fransanın xeyrinə və kralının şöhrəti üçün diplomatik qurumlar ilə məxfi yazışmalar aparırdı. Onun orta əsrlərdə yeni səlib yürüşləri haqqında xəyalları, qəribə şəkildə Kardinal ağasının "realist" siyasəti ilə bir-birinə qarışırdı.

Kaputsinlər - yoxsulluq ordeninin üzvləri. Bu o deməkdir ki, bu ordenin üzvləri yoxsul olmaq andı içirlər və xüsusi mülkiyyət hüququndan məhrum olurlar. Onların sağ qalmasının yeganə yolu insanların ianələri idi. Fransiskanlarla yanaşı, hətta orta əsrlərdə də karmelitlər, dominikanlar və avqustinlilər yoxsulluq ordeninə mənsub idilər.

Xəyallar fantaziya aləmində qaldı, xəyalpərəst isə yalnız gerçək olanı həyata keçirməli idi. Jozef ata Levant, Mərakeş və Həbəşistan ölkələrinə çoxsaylı missionerlər göndərirdi, onlar eyni zamanda diplomatik agentlər idilər. O inanırdı ki, onun səlib yürüşü arzusu yalnız imperator tamamilə alçaldıldıqdan və alman knyazları Fransa kralının vassalına çevrildikdən sonra gerçəkləşə bilər. Jozef ata alman kürfüstlərini Fransa tərəfinə çəkmək üçün Almaniyada böyük fəallıq göstərirdi. Onun əsas xidməti Fransanın Bavariya dostluğunu əldə etməsi idi. O, 1633-cü ildən Fransanın alman siyasətinə rəhbərlik etmiş, Otuz illik müharibəyə Fransanın birbaşa müdaxiləsinin qızğın tərəfdarı olmuş və bununla da Fansanın Birinci naziri ilə birlikdə XVII əsrin 40-cı illərində Fransa siyasətinin təntənəsini hazırlamışdır.

1930-cu illərdə Fransanın ən bacarıqlı diplomatları Fankan, Şarnase və Marnevil Almaniyaya göndərildi. Onların vəzifəsi protestant knyazlarının dəstəyini almaq idi. 1631-ci ildə Rişelye İsveç kralı Qustav Adolf ilə ittifaqa girdi. İsveç və Fransa "Almaniyanın azadlığını bərpa etməyi", yəni knyazları alman imperatoruna qarşı qaldırmağı və orada 1618-ci ilə qədər mövcud olan nizamı tətbiq etməyi öhdələrinə götürdülər. Fransa İsveç kralına hər il 1 milyon livr subsidiya verməyi öhdəsinə götürdü; bunun üçün İsveç kralı imperatora qarşı hərəkət etmək üçün Almaniyada 30.000 piyada və 6.000 süvari saxlamağa söz verirdi. Beləliklə, İsveç Fransanın birbaşa muzdlu hərbi qüvvəsi kimi çıxış etdi; onun vəzifəsi Almaniyanın siyasi dağınıqlığını dəstəkləmək və imperatorun güclənməsinin qarşısını almaq idi.

Lakin, Qustav Adolf döyüşdə öldürüləndəndən (1632) sonra, Fransa birbaşa Almaniyanın işlərinə qarışmağa başladı. O, bədnam alman "azadlığı" adı ilə, Qərbi Almaniyanı sistemli şəkildə viran qoydu. Almaniyanı xaraba qoyan və onun siyasi birləşməsinə olan bütün ümidləri tamamilə puç edən uzun müharibə yalnız 1648-ci ildə başa çatdı.

3.Otuzillik müharibə

3.1.Münaqişənin ilkin şərtləri
3.2.Müharibənin başlanması
3.3.Avropa atəş içində
3.4.İsveç dövlətinin təcavüzkar məqsədləri
3.5.Müharibədə dönüş mərhələsi
3.6.Periferik müharibələr
3.7.İmperiyanın süqutu

3.1.Münaqişənin ilkin şərtləri

1555-ci ildə Auqsburq dini sülhünün bağlanmasından sonra yarım əsr ərzində Almaniyada katoliklər və protestantlar arasında böyük toqquşmalar baş verməmişdi. Lakin, XVI-XVII əsrlərin qovşağında dini çəkişmələr yenidən gücləndi. Almaniya bir-birinə düşmən olan iki qrupa - Yevangelist Xristian ittifaqı və Katolik liqasına bölündü. Onlar intensiv şəkildə müharibəyə hazırlaşmağa başladılar.

Habsburqların hakimiyyətinə imperator I Ferdinandın nəvəsi, həmçinin 1617-ci ildə Bohemiya kralı, 1618-ci ildə Macarıstan kralı olmuş və nəhayət, 1619-cu ildə Müqəddəs Roma İmperatorluğunun imperatoru seçilən Ferdinand rəhbərlik etdiyi zaman silahlı toqquşma ehtimalı kəskin şəkildə artdı. Yezuitlər tərəfindən tərbiyə olunan II Ferdinand özünün katolik inancının müdafiəçisi vəzifəsi kimi roluna dərindən inanırdı. O, Almaniyada protestant "bidətçiliyinə" son qoymaq arzusunda idi. Bununla belə, imperatorun iddiaları Almaniya hüdudlarından xeyli uzaqlara istiqamətləndi. O, Habsburqların ötən əsrdə məğlubiyyətləri nəticəsində Avropada itirdiyi hegemonluğunu bərpa etməyə çalışırdı.

Müxtəlif istiqamətli protestantları - həm lüteranları, həm də kalvinistləri birləşdirən Yevangelist İttifaqının başında Reyn qrafı Pfaltsqraf IV Fridrix dayanırdı. İttifaq xaricdən, xüsusən də protestant inancının ənənəvi müdafiəçiləri olan İngiltərə və Hollandiyadan dəstək alırdı. İngiltərə kralı I Yakov (1603-1625) qızını Pfaltsqraf Fridrixin varisinə ərə verdi. Kral IV Henrixin hakimiyyəti dövründən Fransa alman protestantları ilə sıx əlaqələr saxlayırdı. 1618-ci ildə Brandenburq markqraflığı ilə Prussiya hersoqluğunun (reformasiya zamanı Tevton ordeninin əvəzinə yaranmışdı)birləşməsi nəticəsində yaranmış alman knyazlığının ən güclü və nüfuzlu hökmdarlarından biri olan Brandenburq kürfüstü III İohan Sigismundun (1608-1619-ci illərdə) onunla dostluq etməsi ilə fəxr edirdi. O, İttifaqın üzvü olmasa da, onun məqsədlərinə rəğbət bəsləyirdi.

Pfaltsqraf və ya saray qrafı- idarəedicisi (lat. palatinus) - ilk orta əsrlərdə hökmdar monarxın sarayda olmadığı vaxt onu əvəz edən idarəçi. Hərfi mənada sarayın ağası.

Katolik Liqası Almaniyanın demək olar ki, bütün katolik knyazlarını birləşdirirdi. Onlara knyazların ən güclüsü - Bavariyalı kürfüst Maksimilian rəhbərlik edirdi. Liqanın hərbi qüvvələrinə komandanlıq etməyə təcrübəli sərkərdə qraf fon Tilli dəvət edildi. Yezuitlərin təsiri altında böyüdüyündən o, katolik inancına dərindən bağlı olan bir insan idi. O, Fransada dini müharibələrdə iştirak etmiş, sonra Macarıstanda türklərə qarşı döyüşmüş, 1605-ci ildə feldmarşal rütbəsi almışdı.

Habsburqların təcavüzkar planları yalnız Avropanın protestant hökmdarlarını təhdid etmirdi. Bu iddialar Fransa Kralı IV Henrixə də rahatlıq vermirdi. Çünki, IV Henrix krallığında yarım əsrə yaxın davam edən katoliklər və quqenotlar arasında olan müharibəni dayandırmağa nail olmuşdu. Kral müxtəlif dinlərə mənsub olan təbəələri arasında münasibətlərdə əldə etdiyi sülhün nə qədər kövrək olduğunu və imperiyanın hakimiyyət orqanlarının hərəkətləri qarşısında nə qədər asanlıqla sarsıla biləcəyini yaxşı bilirdi. Fransızların şübhəsi, həmçinin Fransa kralları ilə Habsburqlar imperiyası arasında sülalə, ərazi, ticarət və siyasi ziddiyyətlərdən qaynaqlanan və hələ də aradan qaldırılmayan, əsrlər boyu davam edən rəqabətdən qaynaqlanırdı.

XVII əsrin əvvəllərində, Fransa geniş anti-Habsburq koalisiyasının təşkilatçısı kimi çıxış etməyə başladı. İspaniya-Hollandiya barışıq müqaviləsinin imzalanmasından az sonra, 1610-cu ilin fevralında alman protestantlarını dəstəkləmək məqsədi ilə Fransa-İngiltərə-Hollandiya ittifaqı yaradıldı. İsveç də bu ittifaqa qoşulmaq niyyətində olduğunu bildirdi. 1610-cu ilin yazında 100 minlik fransız ordusu Reyn çayına yeridildi. Lakin, 1610-cu ilin mayında anti-Habsburq koalisiyasının əsas ilhamçısı və lideri IV Henrix Parisdə Ravalyak tərəfindən öldürüldü. Müasirləri hesab edirdilər ki, qatili katolik düşərgəsi üzərində yaranan təhlükəni aradan qaldırmağa çalışan yezuitlər tərəfindən göndərilmişdir.

O dövrün müasirləri, IV Henrixin ölümündən sonra onun ən yaxın köməkçisi hersoq Syulli tərəfindən öz xatirələrində dərc etdiyi "Böyük plan"ın krala aid olduğunu bildirirdilər. Avropanın siyasi cəhətdən yenidən qurulmasını nəzərdə tutan bu plan Habsburqların əzəmətini məhrum etməyə yönəlmişdi. Onların universal (ümumdünya) imperiyası istəklərinə qarşı, beynəlxalq aləmdə dövlətlərin ümumi qəbul edilmiş davranış qaydalarını nəzərdə tutan ümumi Avropa nizamı ideyasını qoyurdular. Syulli iddia edirdi ki, fransız səfirləri bu planı ingilis monarxları ilə - əvvəlcə Yelizaveta, sonra isə I Yakov ilə müzakirə ediblər. IV Henrixin "böyük planına" görə, Habsburqlar yalnız İspan tacını saxlayacaq idi, Avropa isə bütün beynəlxalq münaqişələri həll edən "ümumi şura" və regional şuraların rəhbərlik etdiyi 15 dövlətin federasiyasından ibarət vahid bir ölkəyə çevriləcək idi. Qərbi Avropa xristianlığının hər üç əsas qolunun (Katoliklik, Lüteranlıq və Kalvinizm) bərabər hüquqlara malik olması tanınırdı. Bunun əsasında Avropada "əbədi sülh" yaranmalı idi.

Bu plana görə, Rusiya dövləti daxil olmaqla Şərqi Avropanın pravoslav xalqları, eləcə də müsəlman Osmanlı imperiyası bilərəkdən bu Avropa nizamından kənarlaşdırılırdı.

Böyük Avropa müharibəsi bu hadisələrlə bağlı olaraq təxirə salındı, lakin qarşısı alınmadı. Müharibə 1618-ci ildə başladı və üç onillik müddətində davam etdi. Avropa ölkələrinin əksəriyyəti bu və ya digər dərəcədə bu müharibəyə cəlb edildi.

3.2.Müharibənin başlanması

Otuzillik müharibənin səbəbi katolik irticası və Habsburqların Avropada hökmranlıq etmək istəyi idisə, onun başlanmasına bəhanə alman İmperatorunun XV əsrin birinci yarısında Çexiyada Quslar hərəkatı nəticəsində qismən reformasiya edilmiş katolik inancını bərpa etmək cəhdləri idi. Bu cəhdlər, 1618-ci ildə Çexiya üsyanına səbəb oldu və bu da əslində, müharibənin başlanğıcı oldu. Moraviya, Sileziya, Macarıstan, Yuxarı və Aşağı Avstriya çexlərin üsyanına qoşuldu. Protestant alman knyazları ittifaqı, Transilvaniya, Hollandiya, İngiltərə və Savoy üsyançılara yardım etməyə başladı. İmperator Katolik Liqası ilə ittifaq bağladı və onun köməyi ilə, eləcə də İspaniya, Papa, Polşa, Toskana, Genuya dövlətlərinin dəstəyi ilə 1620-ci il noyabrın 8-də Ağ dağda gedən döyüşdə üsyançıların silahlı qüvvələrini məğlub etdi. Çex üsyanı yatırıldı. İmperator Çexiya torpaqlarında katolikliyi bərpa etdi və Çexiyanı öz hakimiyyəti altına aldı. Sonra, Habsburq koalisiyasının qoşunları Yevangelist İttifaqının qüvvələrini də məğlubiyyətə uğratdı.

Qusçular hərəkatı (həmçinin Husçu müharibələri və Bohemiya müharibələri kimi də adlanır) — Yan Qus tərəfdarlarının 1419–1434-cü illərdə Çexiyada və ətraf ölkələrdə keçirdiyi reformasiya xarakterli hərakat. Bu müharibələr Avropada odlu silahların həlledici rol oynadığı ilk müharibə idi. Husçu döyüşçülərinin çoxu piyadalar idi, onların daha çoxsaylı zirehli cəngavər orduları ilə döyüşlərdə əldə etdiyi qələbələr müharibələr tarixində inqilab yaratdı. Lakin sonda, bu hərəkat qəti nəticəsi olmayan hərəkat idi.

Yan Qus - protestantlığın banilərindən biri, Qusçular hərəkatının başlanması Yan Qusun adı ilə bağlıdır. Yan Qus bir müddət Praqa Universitetində rektor kimi fəaliyyət göstərmişdir. 1415-ci ilin 6 iyul tarixində dini fikirləri ilə əlaqədar olaraq Konstans şəhər şurasının qərarı ilə yandırılaraq edam edilmişdir. Yan Qusun ölümündən sonra onun fikirləri və elmi əsərlərinə əsaslanan 1419-1434-cü illəri əhatə etmiş Qusçular hərəkatı baş qaldırmışdır.

Tarixçilər Otuzillik müharibə tarixinin dövrləşdirilməsinin müxtəlif yollarını təklif edirlər. Bəziləri, müəyyən xarici və formal əlamətləri, məsələn, döyüşən koalisiyaların dəyişən tərkibini nəzərə alaraq, Otuzillik müharibənin dörd əsas mərhələsini - Çexiya (1618-1623), Danimarka (1624-1629), İsveç (1630 -1634) və fransız və ya İsveç - fransız (1635-1648) hissələrinə ayırırlar. Digərləri müharibənin mahiyyətindən, məsələn, onun təbiətindən, döyüşən tərəflərin məqsədlərindən çıxış edirlər. Bu nöqteyi-nəzərdən müharibənin tarixi iki böyük dövrə --- 1630-cu ildə İsveç kralı II Qustav Adolfun qoşunlarının Almaniyaya hücumundan əvvəlki və sonrakı dövrə bölünür. Birinci mərhələdə müharibə əsasən konfessional xarakter daşıyırdı və əsasən yerli, "almanlararası" münaqişə (daha doğrusu, Müqəddəs Roma

İmperiyasının müxtəlif hissələri arasında) olaraq qalırdı. İkinci mərhələdə müharibə ümumavropa miqyası əldə edərək, konfessional məqsədləri arxa plana keçir, Habsburq və anti-Habsburq koalisiyalarının sırf dünyəvi məqsədlər uğrunda mübarizəsi - ərazilər, ticarət yollarında hökmranlıq, siyasi təsir və s. uğrunda çəkişmələr ön plana çıxır.

3.3.Avropa atəş içində

Lakin belə bir şəraitdə, Avropada, Mərkəzi Avropadakı hadisələrlə birbaşa və ya dolayısı ilə bağlı olan daha bir neçə hərbi əməliyyat teatrı meydana çıxdı. 1621-ci ildə Birləşmiş Əyalətlər Respublikasının müstəqilliyi uğrunda mübarizə aparan hollandlarla ispanlar arasında bağlanan atəşkəs barışığının müddəti sona çatdı. Onların arasında yenidən döyüşlər başladı. Bu qarşıdurmadan istifadə edən ispanlar Şimali Hollandiyada hökmranlıqlarını bərpa etmək üçün daha bir cəhd etdilər. Bu müharibədə bilavasitə iştirak etməyən İngiltərə hollandlara maddi yardım etməyə başladı.

Fransa, Hollandiyada ispan qüvvələrini başqa istiqamətə yönəldən hərbi əməliyyatların yenidən başlamasından istifadə edərək, öz qoşunlarını, uzun müddətdən bəri ərazi iddialarının olduğu və həm ispan, həm də Avstriya Habsburqları ilə münaqişə predmeti olan Şimali İtaliyaya göndərdi. Lakin, Fransa hökuməti hələ ki, Mərkəzi Avropada hərbi əməliyyatlarda birbaşa iştirakdan çəkinərək, anti-Habsburq koalisiyasının tərkibini genişləndirmək və birliyi gücləndirmək üçün səylər göstərirdi. Bir çox cəhətdən, bu məsələdə onun əsas rolu Danimarka və İsveçin Katolik Liqasına qarşı müharibəyə cəlb etməsi oldu.

Otuz illik müharibə ilk və əsil Avropa müharibəsi idi, yəni, iki - üç dövlətin iştirakl ilə deyil, iki güclü koalisiyada birləşən demək olar ki, bütün Avropa ölkələrinin iştirak etdiyi müharibə idi.

1624-cü ildə, Danimarka kralı IV Kristian, katolik irticası təhlükəsindən narahat olaraq alman protestantlarının köməyinə gəldi. Danimarka ilə birlikdə Şimali Almaniya knyazları da imperatorun və Katolik Liqasının ordularına qarşı çıxdılar. Onlar İsveç, Hollandiya, İngiltərə və Fransanın dəstəyinə arxalanırdılar. O dövrdə, Danimarka (Norveçlə ittifaqda) Şimali Avropanın çox güclü dövləti sayılırdı. İlk əvvəl, Danimarka qoşunları uğurlu əməliyyatlar apararaq qələbə qazandılar. Lakin, çox məşhur sərkərdə olan Albrext Vallenşteyn imperator qoşunlarına komandanlıq edəndən sonra danimarkalılar məğlubiyyətə uğramağa başladılar.

Çex əsilli və dini inancına görə protestant olan A.Vallenşteyn, İmperiyanın və Katolik kilsəsinin maraqlarını müdafiə edərək ən yüksək şərəfə və misilsiz sərvətə nail oldu. O, imperatora 40-50 min nəfərlik ordu yığacağını vəd edərək, onun saxlanması üçün pul tələb etmirdi. Xeyli hərbi təcrübəyə malik olan Vallenşteyn

bilirdi ki, kifayət qədər böyük bir ordu silahlı qüvvələrdən qorxan yerli əhalinin hesabına da özünü qidalandıra bilər. O, həqiqətən də sayı bəzən 100 minə çatan və praktiki olaraq məğlubiyyətdən xəbəri olmayan böyük bir ordu yaratmağı bacardı. 1920-ci illərin ikinci yarısında, Şimali Almaniyanı işğal etdi və Danimarka kralının mülklərini təhdid etməyə başladı. Bu qələbələrin nəticəsi olaraq, 1629-cu ildə İmperator Hüquqların Bərpa edilməsi (Restitusiya) haqqında Fərman verdi. Fərmana əsasən Katolik kilsəsinin Reformasiya zamanı müsadirə edilmiş mülklər geri qaytarıldı.

3.4.İsveç dövlətinin təcavüzkar məqsədləri

Belə bir vəziyyətdə, İngiltərə, Fransa və Hollandiya İsveçin anti-Habsburq koalisiyasına daxil olması üçün səy göstərməyə başladılar. XVI əsrin sonlarından bu dövlət Baltikyanı və Şimali Avropada öz hökmranlığını bərqərar etməyə çalışan fəal xarici işğalçılıq siyasəti yeridirdi. Baltik dənizi sahillərinin onsuz da ən böyük hissəsinə sahib olan İsveç (XII əsrdən Finlandiyaya sahib idi, XVI əsrdən isə Şərqi Baltikyanı əraziləri də ələ keçirmişdi) digər dövlətlərin, o cümlədən də, Polşa, Litva və Rus dövlətlərini bu dənizə olan çıxış yollarından məhrum etmək istəyirdi. İsveçin fəth planlarının tərkib hissəsi "böyük şərq proqramı" idi. Bu plan təkcə Finlandiya körfəzinin Rusiya sahillərini bitişik ərazilərlə ələ keçirməyi deyil, həm də Kola yarımadası və hətta Şimali Dvinanın mənsəbi də daxil olmaqla Barents və Ağ dəniz sahillərinin böyük hissəsinin tutulmasını təmin etməli idi. Bu proqramın həyata keçirilməsi nəticəsində Rusiya dövləti Qərbi Avropaya gedən dəniz yollarından məhrum olmalı və bununla da, Rusiyanın Qərblə ticarət əlaqələri tamamilə İsveçin nəzarəti altına keçməli idi.

İsveçin xarici torpaqların işğalının səbəbləri və məqsədləri XVI əsrdə Qərbi Avropanı silkələyən "qiymət inqilabı" ilə əlaqədardır. XVI əsrdə Qərbi Avropaya Amerikadan çoxlu miqdarda qiymətli metalların, xüsusən də gümüşün gətirilməsi, hər yerdə kənd təsərrüfatı və sənətkarlıq məhsullarının bahalaşmasına səbəb oldu. Üstəlik, dünya ticarətinin yeni dəniz yollarının son dayanacağı olan Qərbi Avropada qiymətlər, yeni marşrutların yan keçdiyi Şərqi Avropa ölkələrində olduğundan xeyli sürətlə artdı.

Qiymət səviyyələrində yaranan böyük fərq səbəbindən Rusiya dövlətindən, Polşadan, İsveçdən Avropanın Atlantik sahilləri boyunca yerləşən ölkələrə taxıl və digər kənd təsərrüfatı məhsulları və ya sənətkarlıq məhsulları daşıyan tacirlər böyük qazanc əldə edə bilirdilər. Şərqi Avropa ölkələrindən o dövrdə daha çox Baltik dənizi və ona axan çaylar boyunca uzanaraq, Qərbi Avropaya gedən ticarət yollarına nəzarət edən dövlətlər də əhəmiyyətli gəlirlər əldə edirdilər. Ona görə də, Baltikyanı ticarətdə inhisara nail olan ölkə inanılmaz zənginləşmə imkanı əldə edə bilərdi.

Həmin dövlət, Şərqi Avropadakı tədarükçülərə aşağı satış qiymətlərini, Qərbdəki istehlakçılara isə yüksək alış qiymətlərini diktə edərək, aradakı fərqin hesabına böyük gəlir qazana bilərdi.

İsveçlilər Baltik dənizində hökmranlıq uğrunda mübarizədə Danimarkanı əsas rəqiblərindən biri hesab edirdilər. Qədim dövrlərdən bəri bu ölkə Baltik dənizini Şimal dənizi ilə birləşdirən Zund boğazının hər iki tərəfinə sahib idi. Oradan keçən bütün gəmilərdən Danimarka dövləti xüsusi Zund rüsumu alırdılar ki, bu da kral xəzinəsini əhəmiyyətli gəlirlə təmin edirdi. Əslində, o, Baltikyanı ticarətlə məşğul olan tacirlərin qazandığı mənfəətin bir hissəsini özlərinə götürürdülər. Ona görə də, Zund boğazı ilə gəmi nəqliyyatının inkişafında maraqlı olan ölkələr bu rüsumun ləğvinə və ya heç olmasa azaldılmasına çalışırdılar. Baltik sahili ticarətdə Danimarkanın imtiyazlı mövqeyinə İsveç də dözmək fikrində deyildi.

Kral II Qustav Adolf (1611-1632) İsveç taxtında öz sələfləri tərəfindən hazırlanmış xarici istilalar proqramını bütünlüklə qəbul edirdi. Onu həyata keçirmək və nəhayət, Baltik dənizini bir növ "İsveç gölünə" çevirmək üçün o, bilərəkdən qonşu dövlətlərlə – Danimarka, Polşa, Rusiya ilə müharibələr aparırdı. Danimarkaya qarşı 1611-1613-cü illər Kalmar müharibəsində uğursuzluğu, İsveç kralı, Rusiya dövləti və Reç Pospolitaya aid torpaqları işğal etmək ilə əvəz etdi. XVII əsrin əvvəllərində o, Finlandiya körfəzi və Kareliya sahillərinin Rusiyadan ayıraraq İsveçə birləşdirməsinə nail oldu. Daha sonra onun qoşunları bütün Şərqi Baltikyanı (Liflyandiya, Kurlyandiya və Şərqi Prussiya) əraziləri işğal etdi. Onlar, Baltik dənizinin bütün sahillərini tutmaq və böyük çayların mənsəblərində qalalar quraraq, Polşa və Prussiya torpaq sahiblərinin bu çayların vasitəsi ilə Qərbi Avropaya ixrac etdikləri taxıldan öz xeyirlərinə rüsum götürmək arzusunda idilər.

Avropada protestant dövlətləri ilə katolik irtica qüvvələri arasında müharibə gedən zaman İsveç kralı II Qustav Adolf öz ordusu ilə Polşada özünün möhtəşəm fəth planlarını həyata keçirməklə məşğul idi.

Katolik Liqasına qarşı müharibə etmək üçün İsveç kralına Fransa və Rusiya tərəfindən verilən maliyyə və maddi yardıma ehtiyacı var idi. O, Fransadan müntəzəm maliyyə yardımı alırdı. Rusiya, İsveçə güzəştli şərtlərlə taxıl verirdi ki, onu satmaq üçün Qərbi Avropa bazarlarına çıxarsın, bu da İsveç xəzinəsinə böyük gəlir gətirirdi. Əmtəə tədarükünün özünəməxsus formasında atılan bu addım da, Fransanın yardımına bənzər hərbi yardım sayılırdı.

Hər iki dövlət öz xarici siyasət məqsədlərini həyata keçirmək üçün İsveçə kömək edirdilər. Fransa özünün əsas rəqibi olan Habsburqları zəiflətmək üçün mübarizə aparırdı. Rusiya dövləti də ümum-Avropa müharibəsindən faydalanmağa çalışırdı. Belə ki, Rusiya onun üçün uğursuz olan Livoniya müharibəsi və xüsusilə XVII əsrin əvvəllərində baş verən daxili "qarışıqlıq" hadisələri nəticəsində, yalnız Baltikyanı

sahillərdəki mövqelərini deyil, həm də Smolensk, Çerniqov, Seversk torpaqlarını da itirmişdi. Bu ərazi itkiləri, 1617-ci ildə İsveçlə Stolbova sülh müqaviləsi və 1618-ci ildə Polşa ilə Deulino atəşkəs barışığı ilə möhkəmləndirildi.

O vaxtdan, itirilmiş ərazilərin qaytarılması Rusiya üçün çox vacib bir vəzifəyə çevrildi. Onun həlli uğrunda mübarizədə Rusiya dövləti, Polşa-İsveç ziddiyyətlərindən istifadə etməyə hazır idi. 1633-cü ildə Polşa ilə atəşkəs başa çatırdı və Rusiya hökuməti gələcək müharibədə İsveçin dəstəyini almaq niyyətində idi. Üstəlik, İsveç ortaq düşmən olan Polşaya qarşı Rusiya dövləti ilə ittifaqda maraqlı olduğunu ifadə edirdi. İsveç diplomatları, Moskvada katolikliyə qarşı mübarizədə protestantların və pravoslavların ümumi maraqlara malik olduqlarını və belə bir ittifaqa ehtiyac olduğunu əsaslandırmağa çalışırdılar. Onlar əminliklə bildirirdilər ki, katoliklər hər ikisini eyni dərəcədə təhdid edirlər.

3.5.Müharibədə dönüş mərhələsi

Polşa ilə barışıq bağladıqdan sonra, 1630-cu ildə, II Qustav Adolf ordusu ilə Müqəddəs Roma İmperiyasının sərhədlərini keçdi. İsveç kralı öz dövrünün görkəmli sərkərdələrindən biri hesab olunurdu. 17 sentyabr 1631-ci ildə Saksoniyada Breytenfeld döyüşündə o, Tillinin komandanlıq etdiyi Katolik Liqasının ordusu üzərində parlaq qələbə qazandı. Əgər II Qustav Adolf o zaman katolik hökmdarlarına şərəfli sülh təklif etsəydi, onlar çətin ki, etiraz edərdilər. Katolik Liqası hətta özü də güclü hökmdardan ehtiyat edərək, Danimarkanın vasitəçiliyi ilə İsveç kralı ilə danışıqlar aparmağa cəhd etdi. Lakin o, artıq restitusiya (Bərpaedici) fərmanının ləğvi və Şimali Almaniyada isveçlilərə ərazilərin verilməsi şərtlərini ehtiva edən sülhə razı deyildi. O, imperator tacından başqa heç nə haqqında xəyal etmirdi. Üstəlik, o, Rusiya ilə birlikdə Polşaya qarşı müharibə layihəsini irəli sürürdü, qələbə qazanacağı təqdirdə, imperiya tacından əlavə, Polşa kralı tacını alacağına da ümid edirdi.

II Qustav Adolf (9 dekabr [19 dekabr] 1594, Stokholm, İsveç - 6 noyabr [16 noyabr] 1632, Lützen, Leypsiq yaxınlığında) - İsveç kralı (1611-1632), IX Karl və Kristina Qolşteyn-Qottorpun oğlu. İsveç mənbələrində o, "Şimal aslanı" və "Qar kralı" ləqəbləri ilə tanınır.

Onun iyirmi illik hakimiyyəti İsveç tarixinin ən parlaq səhifələrindən biridir və onun dünya tarixindəki rolu da mühüm əhəmiyyətə malik idi. Qustav öz dövrünün ən savadlı hökmdarlarından biri idi; alman, holland, fransız, italyan və latın dillərini mükəmməl bilir; rus və polyak dillərini başa düşürdü. Elmlərdən Qustav çox həvəslə riyaziyyat və tarixi öyrənirdi. 11 yaşından Qustav artıq atasının təşkil etdiyi məclislərdə və xarici səfirlərin qəbullarında iştirak edirdi. Gənc Qustava iki nəfər böyük təsir göstərmişdi - Yuhan Şyutte və Aksel Oksenşern. Hökmdarlığı dövründə Qustav Oksenşerni kansler təyin etmişdi.

II Qustav Adolf Otuz İllik müharibədə öz kral bayraqlarında "Tanrı bizimlədir" (Qott mit uns) devizindən istifadə edirdi.

Ancaq tale başqa cür qərar verdi. Elə həmin yerdə, Saksoniyada, 6 noyabr 1632-ci ildə Lyutsen şəhəri yaxınlığındakı döyüşdə İsveç ordusu həqiqətən Vallenşteynin ordusu üzərində böyük üstünlük əldə etdi. O dövrün nöqteyi nəzərinə görə, döyüşdən sonra geri çəkilmək məğlubiyyəti etiraf etməyə bərabərdir. Lakin, Lyutsen döyüşündə, II Qustav Adolfun özü, səhlənkarlıq ucbatından həlak oldu - o, kiçik bir müşayiətçi dəstə ilə qoşunlarından geri qalmış və dumanda azaraq, düşmənin döyüş birləşmələrinə çox yaxınlaşdığından kirasirlərin (dəmir geyimli süvarilər) yaylım atəşinə məruz qalmışdı. Protestantlar hamı tərəfindən tanınan və nüfuzlu liderlərini itirdilər.

İsveç kralının ölümü Rusiyaya mənfi təsir göstərdi. 1632-ci ildə o, Smolenski (Smolensk müharibəsi) ələ keçirmək məqsədi ilə Polşaya müharibə elan etdi. Lakin İsveçdən vəd edilən dəstəyi almayan Rusiya qərbi rus torpaqlarının geri qaytarılmasına nail olmadan 1634-cü ildə Polşa ilə Polyanovski sülhü bağlamaq məcburiyyətində qaldı.

Belə bir şəraitdə, Fransa katolik koalisiyasına qarşı açıq şəkildə müharibəyə girdi. O dövrdə, faktiki olaraq katolik kilsəsinin prelatı (yüksək ruhani vəzifəsi) olan kardinal Rişelyenin rəhbərlik etdiyi Fransa hökuməti öz ölkəsində protestantlara qarşı amansız mübarizə aparırdı. 1625-ci ildə fransız protestantlarının ən mühüm qalası olan Laroşel qalasının mühasirəsi başladı. Onun süqutundan sonra, 1629-cu ildə Fransa kralı XIII Lüdovik protestant ibadət azadlığını qoruyan, "Mərhəmət edilmə" fərmanı verdi. Lakin 1598-ci ildə, Nant fərmanı ilə protestantlara verilmiş inzibati və siyasi muxtariyyəti ləğv etdi.

Lakin xarici siyasət sahəsində Fransa hökuməti dövlət maraqlarını rəhbər tutaraq protestantları dəstəkləyərək, onların tərəfində Habsburqlara qarşı müharibəyə girdi. Fransanın iştirakı Otuz illik müharibənin xarakterini kökündən dəyişdi: əsasən dini münaqişə xarakterində olan müharibə, əsasən dünyəvi qarşıdurma xarakterinin təşkil etdiyi - Habsburqlar və anti-Habsburq koalisiyaları arasında toqquşmaya çevrildi. Onun nəticəsindən, əslində Avropanın konfessional tərkibi deyil, daha çox siyasi quruluşu asılı idi.

1635-ci ildə Fransa ordusu, Niderlandda İspaniya kralına, alman torpaqlarında isə İmperatora qarşı eyni vaxtda hərbi əməliyyatlara başladı. İsveç və Hollandiya qoşunları ilə birlikdə fransızlar 19 may 1643-cü ildə Rokrua yaxınlığındakı döyüşdə böyük qələbə qazandılar. Burada ilk dəfə olaraq Konde şahzadəsi kimi tanınan Engien hersoqu, gənc (21 yaşlı) sərkərdə Lüdovik Burbon öz hərbi istedadını nümayiş etdirdi. Rokruadan sonra, Fransa ordusu İspaniyanın Avropanın ən güclü dövləti olması şöhrətini əlindən aldı.

Lakin, əvvəlcə 1642-ci ildə Rişelyenin, sonra isə 1643-cü ildə kral XIII Lüdovikin ölümü ölkəni Fronda kimi tanınan daxili qarışıqlığa sürüklədi. Bu daxili təlatüm, Fransa hökumətini tez bir zamanda müharibəni sona çatdırmağa məcbur etdi.

3.6.Periferik müharibələr

Uzun illər qan tökülməsindən bezmiş digər ölkələr də sülhə can atırdılar. Axı, böyük ümumavropa müharibəsi ilə eyni vaxtda onun birbaşa və ya dolayı iştirakçılarının bəziləri özlərinin ayrı, "kiçik" müharibələrini aparırdılar. Yuxarıda qeyd edildiyi kimi, holland xalqının ispan hökmranlığına qarşı azadlıq mübarizəsinin son mərhələsi (1621-1648) Otuz illik müharibəyə təsadüf edir. İsveç-Polşa (1617-1629) və Rusiya-Polşa (1632-1634) müharibələri dolayısı ilə onunla bağlı idi. Fransa İtaliyada İspan hökmranlığını sarsıtmaq üçün bundan istifadə etdi (1629-1631-ci illər Mantuan varisliyi müharibəsi).

Bundan əlavə, Otuz illik müharibədə rəsmi olaraq iştirak etməyən İngiltərə müstəmləkələrdə və dünya ticarət yollarında hökmranlıq üçün Fransa və İspaniya ilə fəal mübarizə aparırdı. İngilislər fransız monarxiyasına qarşı mübarizədə öz azadlıqlarını müdafiə edən fransız quqenotlarına kömək edirdilər. Öz növbəsində, hollandlar İspaniya ilə apardığı çətin müharibəyə baxmayaraq, ingilisləri Cənub-Şərqi Asiyada Molukka adalarından sıxışdırıb çıxara bildilər və orada Hollandiya Hindistanı müstəmləkəsinin əsasını qoydular. Müharibə iştirakçılarının ümumi yorğunluğundan istifadə edən İsveç Danimarkaya hücum etdi və 1643-1645-ci illər müharibəsi nəticəsində, Baltik dənizindəki Qotland və Esel adalarını və Skandinaviya yarımadasındakı bir sıra sərhəd ərazilərini ondan aldı.

1640-cı ildə, Avropanın cənub-qərb hissəsində uzun sürən müharibə başladı. Portuqallar 1581-ci ildə İspaniyanın hakimiyyəti altında olan ölkələrinin müstəqilliyini bərpa etmək üçün silaha sarıldılar. Bu mübarizədə portuqallar ingilis və fransızların dəstəyinə arxalanırdılar. İspaniya-Portuqaliya müharibəsi (1640-1668), İspan-Fransız (1635-1659) və İspan-İngilis müharibələri (1655-1659) kimi, Otuz illik müharibənin periferik "sahələrində" başlayan müharibələr, ümum-Avropa müharibəsi tamamlandıqdan sonra da, davam etdi.

1640-cı il azadlıq üsyanı nəticəsində Portuqaliya müstəqilliyini bərpa etdi. Portuqaliyanın yeni kralı IV Con (Joan) seçildi. O, son nümayəndəsi Sebaştian olan Avis sülaləsinin bir qolu olan qanuni Braqanza sülaləsinə mənsub idi. Lakin, 1668-ci ilə qədər İspaniya Portuqaliyanı silah gücü ilə öz hakimiyyəti altına qaytarmağa çalışdı. İngilis və fransızların, azadlıq mübarizəsində portuqallara verdikləri dəstək, heç də təmənnasız deyildi. 1661-ci ildə İngiltərə ilə Uaytholl müqaviləsi imzalandı. Bu müqavilə ilə onlar, gələcək onilliklər ərzində Portuqaliya üzərində öz təsirlərini saxlamaq üçün təminatlar əldə etdilər.

İngiltərə kralı II Karlın IV Conun qızı Ketrin Braqanza ilə evlənməsi sayəsində hər iki ölkə arasında sülalə ittifaqı bağlandı. XIV Lüdovik müttəfiqi olan ingilis kralına Portuqaliya siyasətini həyata keçirməsi üçün səxavətlə maliyyə vəsaiti ilə kömək edirdi (lakin, İngiltərə parlamenti kralın xərclərini təsdiq etməkdən imtina etmişdi). Fransanın verdiyi vəsait ilə, İspaniyaya qarşı müharibədə iştirak edən 4000 nəfərlik ingilis dəstəsi hərbi cəhətdən təchiz edilmişdi. 1667-ci ilin martında Fransa ilə Portuqaliya dövlətləri arasında müdafiə və hücum ittifaqı bağlandı.

Qeyd: İspan-Portuqaliya varisi olan nəvəsi Sebaştianın cəmi üç yaşı var idi. Onun qəyyumu İmperator V Karlın bacısı olan dul qalan kraliça- Avstriyalı Yekaterina oldu.1568-ci ildə 14 yaşı tamam olan Sebaştian hakimiyyətin idarəçiliyini öz üzərinə götürdü. Katolik inancına sədaqət ruhunda tərbiyə olunan Sebaştiana, uşaqlıqdan Portuqaliyanın xristian dünyasını bidətçilərdən və kafirlərdən xilas edilməsi vəzifəsinin yerinə yetirilməsinin məhz ona aid olması kimi fikirlər aşılanmışdı. 1572-ci ildə Sebaştian bidətçilərlə mübarizə aparmaq üçün donanma topladı, lakin Atlantik okeanında baş verən fırtına nəticəsində Teju (Taxo) çayının mənsəbində gəmilər məhv oldu.

1578-ci ildə Sebaştian, 17.000 əsgərdən ibarət ordunun başında Şimali Afrikaya getdi. O, katolik ordusunun qələbələri ilə Portuqaliyanın sərhədlərini genişləndirmək, Afrikanın şimalında böyük xristian imperiyası qurmaq arzusunda idi. Lakin elə həmin ildə, mərakeşlilərin qoşunları ilə baş verən döyüşdə Sebaştianın ordusu məğlub oldu və özü də həlak oldu. Kralın varisləri olmadığı üçün sülalə böhranı başladı: Portuqaliya tacına ən azı altı namizəd, o cümlədən İspaniya kralı II Filipp iddia irəli sürdü. II Filipp öz iddiasını hərbi qüvvə ilə gücləndirdi- Hersoq Albanın komandanlığı altında 20.000 nəfərdən ibarət ispan ordusu Portuqaliyaya daxil oldu. 1581-ci ildə Portuqaliya Kortesi (parlament) Filipi kral elan etdi və müəyyən şəkildə muxtariyyət hüquqlarının saxlanması şərti ilə ölkənin İspaniya monarxiyasına birləşdirilməsinə razı oldu.

3.7.İmperiyanın süqutu

Hərbi əməliyyatların nəticələrindən xüsusi ilə də alman torpaqları uzun illər müxtəlif dövlətlərin orduları tərəfindən viran qoyularaq, zülm-əziyyət çəkmişdi. Müharibələr nəticəsində Almaniyanın əhalisi azalaraq müharibədən əvvəlki əhalinin dördə üçünə, hətta yarısına qədər endi. Bir çox ərazilər sadəcə olaraq boşaldıldı, əhali muzdluların vəhşiliklərindən, aclıqdan və epidemiyalardan xilas olmaq üçün onları tərk etdilər. Ümumiyyətlə, Otuz illik müharibənin nəticələri onun bütün iştirakçıları, hətta ordular tərəfindən işğal olunmayan ölkələr üçün də fəlakətli oldu. Dövlət xərclərinin çoxalması, vergilərin artması, ərzağın və yemin bahalaşması - bütün bunlar birbaşa müharibənin nəticəsi idi.

Ən əsası, 1630-cu illərin sonunda müharibənin əsas iştirakçıları onun məqsədləri haqqında əvvəlkindən fərqli təsəvvürə malik idilər. Dini fanatizm, demək olar ki, tamamilə yox oldu, Avropa hökmdarları öz inanclarının təntənəsi ilə deyil, daha çox ərazi, siyasi, kommersiya və digər maraqlarının təmin edilməsi ilə maraqlanırdılar. Bu dəyişikliklər katolik irtica düşərgəsinin dağılmasına səbəb oldu. 1636-cı ildə,

Müqəddəs Roma İmperatoru seçilən III Ferdinand atasının dini fanatizmini qəbul etmədi. O, imperiya hakimiyyətini gücləndirmək planlarından əl çəkdi, qonşu Fransanın mütləq monarxlarını təqlid etməyə çalışmadı.III Ferdinand, hətta atasından fərqli olaraq, bütün İmperiyanın işləri ilə daha az maraqlanırdı. Lakin o, Dunayın orta axarında Habsburqlar sülaləsinin irsi mülklərində öz hakimiyyətini gücləndirdi. III Ferdinand protestantlarla müharibəni uzatmağın mənasız olduğunu anladı və ona görə də düşmənlə sülh danışıqları aparmağa razı oldu.

4.Vestfal sülhü və beynəlxalq nizamın yaranması

4.1.Sülh konqresi
4.2.Ərazi dəyişiklikləri
4.3.Yeni nizam qaydaları
4.4.Avropa siyasi tarazlığı
4.5.Vestfal sisteminin yaranması

4.1.Sülh konqresi

1643-cü ilin əvvəlində döyüşən koalisiyaların nümayəndələri sülh danışıqları aparmaq üçün Münster və Osnabrük (Münsterdən şimala 44 km məsafədə yerləşir) şəhərlərinə gəldilər. Hər iki şəhər Alman dövlətlərindən biri olan Vestfaliyada yerləşdiyindən, sülh konqresinin adı Vestfal adlanırdı. Protokol etiketlərinin daha incə məqamlarını razılaşdırmaq üçün aylar lazım oldu: konqres nümayəndələri hansı ardıcıllıqla çıxış etməli idilər, onlara hansı hörmət və ehtiramlar göstərilməlidir və s. Nümayəndələrin səlahiyyətlərinin təsdiqi mübahisələrlə müşayiət olundu. İmperator heyətinin etirazlarına baxmayaraq, fransızlar alman knyazlarının və şəhərlərinin nümayəndələrinin qurultaya buraxılmasını tələb etdilər. Bu tələbin qəbul edilməsi, imperiyanın bu vəsifəli şəxslərinin krallar və hətta imperatorun özü kimi beynəlxalq hüququn müstəqil subyektləri kimi faktiki olaraq tanınması demək idi.

Konqres, 4 dekabr 1644-cü ildə, Münsterdə təntənəli şəkildə açıldı. Burada bir tərəfdən İmperator və onun müttəfiqləri adından iştirak edən nümayəndələr, digər tərəfdə olan Fransa kralı və onun müttəfiqləri adından gələn nümayəndələr ilə danışıqlar aparılırdı. 1645-ci ilin ikinci yarısında, Osnabrük konqresində İmperiya və onun müttəfiqlərinin nümayəndələri ilə İsveç və onun müttəfiqlərinin nümayəndələri arasında da danışıqlar aparıldı. Osnabrükdə imperatorun, alman knyazlarının və İsveçin nümayəndələri, Münsterdə isə imperatorun, Fransanın və digər dövlətlərin səfirləri danışıqlar aparırdı.

Konqresin işi çox ləng gedirdi. İştirakçılarının hər biri kompromis əldə etməzdən əvvəl bütün variantları nəzərdən keçirərək, onların təmin edilməsinin bütün imkanlarını ölçüb-biçərək, öz tələblərində israr edirdilər. Dünənki müttəfiqlər də daxil olmaqla, müxtəlif nümayəndə heyətlərinin nümayəndələri arasında, hətta eyni

nümayəndə heyəti daxilində tez-tez fikir ayrılıqları yaranırdı. 1645-ci ilin dekabrında, İmperatorun Birinci naziri qraf Maksimilian Trautmansdorf Münsterə gələndən sonra işlər bir qədər sürətlə getməyə başladı. O, tərəflərin mübahisəli məsələlərin qarşılıqlı məqbul həllini tapılması üçün xeyli səy göstərirdi.

İmperatorun səfiri və mahir diplomat olan Trautmansdorfun bütün səyləri İsveçin iştahını doydurmağa, onu Fransadan qoparmağa və imperiya üçün danışıqlarda daha əlverişli şərait yaratmağa yönəlmişdi. Lakin, İsveç Fransanın Birinci naziri Mazarini tərəfindən idarə olunan fransız hökumətinə sıx bağlı qaldı. Mazarini, Brandenburq kürfüstünü İsveçin cənub Baltikyanı ərazilərə qarşı hədsiz iddialarına qarşı durmağa təhrik edərək, İsveç iddialarını dəf etdi; bununla da İsveçi Fransa ilə birlikdə getməyə məcbur etdi. Trautmansdorfun qazana bildiyi yeganə məsələ- Habsburqların Avstriya mülklərini daha da parçalanmasının qarşısını almaq və beləliklə, gələcək Avstriyanın dövlət bütövlüyünü qorumaq oldu.

Danışıqlar Münster və Osnabrükdə eyni zamanda aparıldığı üçün nümayəndə heyətləri öz mövqelərini razılaşdırmaq üçün geniş yazışmalar aparmağa məcbur olurdular. Yazışmalar vasitəçilər - Danimarka, Papalığın və Venesiya nümayəndələri tərəfindən çatdırılırdı. Nümayəndə heyətlərinin fəaliyyətinə müvafiq hökumətlər rəhbərlik edirdilər, onlara göstərişlər göndərir və onlardan hesabat tələb edirdilər. Təbii ki, danışıqların gedişinə sülh konqresinin açılmasına baxmayaraq davam edən hərbi əməliyyatlar da təsir edirdi. Münaqişə tərəfləri, xüsusən də anti-Habsburq koalisiyasının üzvləri hərbi əməliyyatların dayandırılması haqqında saziş bağlamağa tərəddüd edirdilər. Onlar hardasa həlledici qələbəyə ümid edirdilər. Belə ki, 1644-cü ildə fransız marşalı Tyuren Reyn çayının sağ sahilini ələ keçirdi, lakin, növbəti il Almaniyanın mərkəzi rayonlarını işğal etməyə cəhd etsə də, buna nail ola bilmədi.

Orta əsrlərdə, bir çox yüzilliklər boyu Avropa çox vaxt əhalinin milli tərkibi ilə heç bir əlaqəsi olmayan bir çox krallıqlara, hersoqluqlara və digər kiçik dövlətlərə bölünmüşdü. XVII əsrin ortalarında. Almaniyada 297 knyazlıq, 51 imperiya şəhəri və 1500 müstəqil cəngavər mülkü var idi. Onların əksəriyyəti nominal olaraq Müqəddəs Roma İmperiyasının bir hissəsi idi. Avropa normativ nizamına yeni sima və məna verən 1648-ci il Vestfal müqaviləsinin mahiyyəti yeni ideoloji, daha sonra isə yeni siyasi məkan yaratdı. Vestfal sülhü ilk dəfə olaraq Avropa miqyasında siyasətin münaqişələrin həlli üçün bir vasitə ola biləcəyini ortaya qoydu.

O, həmçinin Qərbi Avropada otuzillik müharibəyə son qoydu və Müqəddəs Roma İmperiyasının 355 müstəqil dövlətə parçalanmasına imkan verdi, orta əsrlər katolik universalizminin iddiaları ilə dəstəklənən Habsburqların, knyaz elitası başda olmaqla, imperiyanın protestant zümrəsi tərəfindən təmsil olunan gələcəyin gənc qüvvələri ilə apardığı ən kəskin mübarizə dövrünü müvəffəqiyyətlə başa çatdırdı. Məhz bu dövrdən etibarən milli dövlət (qərb terminologiyasında – "millətin dövləti")

cəmiyyətin siyasi təşkilinin əsas forması kimi ümumbəşəri halda bərqərar oldu və milli (yəni dövlətin) suverenlik prinsipi beynəlxalq münasibətlərin dominant prinsipinə çevrildi.

Vestfal sülhü beynəlxalq münasibətlərin təkamülündə mühüm mərhələ oldu. Otuz illik müharibənin sonunda Vestfal sülhünün imzalanması yeni beynəlxalq siyasi sistemin yaradılmasının başlanğıcı oldu.

4.2.Ərazi dəyişiklikləri

Vestfal sülhü 24 oktyabr 1648-ci ildə Münster və Osnabrükdə eyni vaxtda imzalanmış və Vestfal sülhü adı ilə tarixə düşmüşdür. Bu, tarixdə ilk ümumavropa müqaviləsi idi. Onun hazırlanmasında və imzalanmasında o dövrdə inqilab və vətəndaş müharibəsi ilə üzləşən İngiltərə, Rusiya, Osmanlı İmperiyası və Portuqaliya istisna olmaqla, Avropanın əksər dövlətləri iştirak edirdi.

Vestfal sülhü Otuz illik müharibə zamanı Avropada baş vermiş ərazi dəyişikliklərini təsbit etdi. Müharibənin uzun müddət davam etməsi və miqyası, hökumətlərin səyləri və xalqların fədakarlıqları nəzərə alınsa, bu dəyişikliklər gözlənilən qədər böyük əhəmiyyətə malik deyildi. Bu dəyişikliklər, daha çox anti-Habsburq koalisiyasının üzvləri üçün faydalı oldu.

Ərazi dəyişikliklərinin ən böyüyü Şimali Almaniyada baş verdi. İsveç, Baltik və Şimal dənizlərinə axan ən böyük çayların- Oder və Elbanın mənsəbində geniş torpaqlar aldı. Lakin, İsveç, Otuz illik müharibəyə girməzdən əvvəl ələ keçirdikləri Şərqi Prussiya və Kurlyandiya limanlarını əldə saxlaya bilmədilər. Buna baxmayaraq, son nəticədə İsveç öz hakim dairələrinin xarici siyasəti hədəfinə - Baltik dənizinin "İsveç gölünə" çevrilməsinə xeyli yaxınlaşdı.

Fransa Vestfal müqaviləsinə əsasən, Reynin sol sahilindəki mülklərini bir qədər genişləndirdi. O, hələ 1552-ci ildə Fransa tərəfindən ələ keçirilən Lotaringiyada Mets, Tul və Verden qalalarına olan hüquqlarının tanınmasına nail oldu. Bundan əlavə, o, Elzasda əvvəllər Habsburqlara məxsus olan kiçik əraziləri də ölkəsinin ərazisinə ilhaq etdi. Bəzi alman dövlətləri, xüsusilə də Brandenburq, Saksoniya, Braunşveyq və digər protestant dövlətləri kilsədən müsadirə edilmiş (dünyəviləşdirilmiş) mülklər hesabına öz ərazilərini genişləndirdilər.

4.3.Yeni nizam qaydaları

Ərazi dəyişikliklərindən ən mühümü Vestfal sülhünün dövlətlər arasında münasibətlərdə yeni qaydalar müəyyən etməsi idi. Əslində o, Habsburqların Qərbi Avropanın digər ölkələrin və xalqların üzərində hökmranlıq etmək istəyinə son qoydu. Bu cür iddialar, hələ XVI əsrin birinci yarısında imperator V Karl tərəfindən irəli sürülmüşdü. Otuz illik müharibəni başlanmasına səbəb olan II Ferdinand da bu

idialara etinasız deyildi. Vestfal sülhü feodal dövründən qalma köhnə hökmranlıq iyerarxiyasını ləğv etdi. Bu hökmranlıq iyerarxiyasına görə krallar imperatorun onların hökmdarı olduğunu qəbul etməli idilər. Yeni nizam, Avropanın müstəqil dövlətlərində kral titulu daşıyan hökmdarların hüquqlarını Müqəddəs Roma İmperiyasının İmperatorunun səlahiyyətləri ilə bərabərləşdirdi. Bu yenilik, İmperatorun beynəlxalq nüfuzunu xeyli aşağı saldı. Bütün müstəqil hökmdarlar, necə adlandırılmasından asılı olmayaraq, indi ən yüksək (müstəqil) hakimiyyətin daşıyıcıları hesab olunurdular. Onun əsas əlaməti daxili və xarici siyasət sahəsində müstəqillikləri, onların dövlətlərinin tam suverenlikləri idi. Vestfal sülhündən sonra beynəlxalq münasibətlərin əsasını dövlət suverenliyi prinsipi, yəni, dövlətlərin bir-birinin hüquq və vəzifələrinin bərabərliyinin qarşılıqlı tanınması prinsipi təşkil etməyə başladı.

Artıq, Almaniyanın özündə İmperator tacı Habsburqlara getdikcə daha az imtiyazlar verirdi. Sülh müqaviləsi hələ orta əsrlərdə İmperator və imperiyanın ayrı-ayrı üzvləri (vəzifəliləri) arasında münasibətlərdə qəbul edilmiş "ilkin alman azadlığı" prinsipini təsdiqlədi. Üstəlik, Vestfal sülhü alman knyazlarının istifadə etdiyi "azadlığın" əhatə dairəsini xeyli genişləndirdi. Əvvəllər, onlar yalnız daxili siyasət məsələlərində müstəqil idilərsə, indi xarici siyasət sahəsində də geniş fəaliyyət azadlığı əldə etdilər. Hökmdarlar xarici dövlətlərlə müxtəlif əlaqələr saxlamaq hüququ aldılar. Lakin, bu məsələyə yeganə bir məhdudiyyət qoyulmüşdu-onlara İmperiyaya qarşı olan ittifaqlar bağlamaq və ona qarşı müharibələr aparmaq qadağan edilirdi. Beləliklə, bununla da, Müqəddəs Roma İmperiyası daxilində siyasi əlaqələrin zəifləməsi və onun tərkibində olan ayrı-ayrı knyazlıqların dövlət müstəqilliyi əldə etmələri istiqamətində mühüm addım atılmış oldu.

Vestfal sülhü Avropanın mərkəzində reformasiya əleyhinə aparılan mübarizənin son məğlubiyyətini qeyd etdi. O, 1624-cü ildən əvvəl İmperiyada həyata keçirilən kilsə torpaqlarının müsadirəsini qanuniləşdirdi və əvvəllər fəaliyyət göstərən "hakimiyyət kimdədirsə, dini inanc da onunkudur" prinsipini ləğv etdi. Alman knyazları, təbəələrinin inancını təyin etmək hüququndan məhrum edildi. Əvəzində, dini dözümlülük prinsipi elan edildi ki, bu prinsipə əsasən protestantlar və katoliklər imperiyanın istənilən yerində öz ibadətlərini sərbəst şəkildə həyata keçirə bilərdilər.

Beləliklə, Vestfal sülhü Avropada bir əsrdən artıq davam edən dini müharibələrin altından rəmzi xətt çəkdi. Bir çox ölkələrdə dinsizləri dövlət səviyyəsində təqib etməyə davam etsələr də (məsələn, Fransada - protestantlar, İngiltərədə - katoliklər, Polşada - pravoslavlar), dövlətlər arasında münasibətlərdə konfessiya amilinin rolu nəzərə çarpacaq dərəcədə azaldı. Bu məsələ də, öz növbəsində beynəlxalq münasibətlərin məlum ideologiyasızlaşdarılmasına gətirib çıxardı. Hər bir əqidə tərəfdarlarının müraciət etdiyi mücərrəd ideyalar və dini dəyərlər əvəzinə,

dövlətlərin xarici siyasətində dünyəvi ideallar, konkret dövlət, sülalə və ticarət maraqları ön plana çıxdı.

Böyük əhəmiyyət kəsb edən bir fakt ondan ibarət idi ki, Vestfal sülhü çərçivəsində İspaniya, nəhayət Birləşmiş Əyalətlər Respublikasının (Hollandiya) müstəqilliyini tanıdı. Katolik İspaniyanın hakimiyyətinə qarşı protestantların üsyanı nəticəsində yaranan bu dövlət bununla da beynəlxalq münasibətlərin tamhüquqlu aktoru statusuna sahib oldu. Hollandiya ilə yanaşı, İsveçrə konfederasiyası da müstəqil, suveren bir dövlət kimi tanındı.

Qeyd: İsveçrə konfederasiyası orta əsrlərdə Alp dağlarında yerləşən kənd və şəhər icmalarının (kantonların) alman, fransız və italyan feodallarına qarşı mübarizəsi zamanı yaranmışdır. 1 avqust 1291-ci ildə üç meşə kantonu - Şvits, Uri və Untervalden ittifaq və qarşılıqlı yardım haqqında "əbədi müqavilə" bağladı. Bu hadisə İsveçrənin (bu kantonlardan birinin adı ilə) Müqəddəs Roma İmperiyasının tərkibində müstəqil dövlət kimi inkişafının başlanğıcını qoydu. Avstriya Habsburqları bu konfederasiyanı məhv etməyə çalışırdılar. Buna cavab olaraq, bu üç kanton 1315-ci ildə yeni, genişləndirilmiş müqavilə bağladı. Tədricən digər kantonlar da Şvits, Uri və Untervalden ittifaqına qoşuldular: 1332-ci ildə - Lyutsern, 1351-ci ildə - Sürix, 1352-ci ildə - Suq və Qlarus, 1353-cü ildə - Bern. 1499-cu ildə Müqəddəs Roma İmperiyasının qoşunları üzərində qələbə qazanan İsveçrə (bu zaman o, artıq 10 kantondan, habelə bir sıra "müttəfiq ölkələrdən", yəni konfederasiyanın bəzi üzvləri ittifaq müqavilələri bağlayan icmalardan ibarət idi) deration) tam müstəqilliyə nail oldu, lakin digər dövlətlər tərəfindən tanınmadı. XVI əsrin birinci yarısında, İsveçrə Reformasiya hərəkatının mərkəzlərindən biri idi: "ittifaq ölkəsi" statusuna malik Cenevrədə onun əsas ideoloqlarından biri olan J.Kalvinin fəaliyyəti geniş vüsət aldı. Almaniya kimi, bu ölkə də konfessional münasibətə görə bölündü - bəzi kantonların əhalisi katolikliyə sadiq qalmışdı.

Hollandiya və İsveçrənin müstəqilliyinin çoxtərəfli beynəlxalq müqavilədə təsbit olunmasının vacibliyi, yalnız zaman keçdikcə tam şəkildə üzə çıxan geniş nəticələrə səbəb oldu. Əslində, onlara qədim irsi monarxiyalarla bərabər hüquqlar verildi. Bu, əslində orta əsrlərin ənənələrini pozulması demək idi. Belə ki, heç bir böyük hersoq və ya kral sülaləsinin gerbi ilə bəzədilməyən, öz dövlət rəmzlərinə malik olan respublika hüquqi cəhətdən hətta ən kiçik və ən bərbad monarxiyadan belə aşağı səviyyədə olan üçüncü dərəcəli dövlət hesab edilirdi.

Xüsusilə qeyd edilməlidir ki, bu dövlətlər öz suveren hüquqlarını sülalə amillərinin gücü ilə, imperatorun şıltaqlığı ilə deyil, həmin ölkələrin vətəndaşlarının iradəsi ilə əldə edirdilər. Axı həm Hollandiya, həm də İsveçrə öz vətəndaşlarının azadlıq və müstəqillik uğrunda uzun sürən üsyanları və mübarizələri nəticəsində yaranmışdı. Onların müstəqillik və suveren dövlət yaratmaq tələblərini yerinə yetirən Avropa monarxları əslində, xalqların öz müqəddəratını təyinetmə hüququnun

tanınmasının mümkünlüyü prinsipinin hüquqşünaslar tərəfindən formalaşdırılmamışdan xeyli əvvəl qəbul etmişdilər.

Ümumiyyətlə, Vestfal sülhü beynəlxalq hüququn inkişafında yəni, dövlətlər arasında münasibətlərin ümumi qəbul edilmiş ənənələrinin, norma və qaydalarının adət formasında beynəlxalq müqavilələrdə təsbit edilməsində irəliyə doğru atılmış böyük bir addım idi. Sülh imzalandı, bu o deməkdir ki, Avropanın əksər dövlətləri, o cümlədən onların ən böyük və ən güclü dövlətləri də ona əməl etməyə söz vermiş oldular. Bu, öz- özlüyündə Avropa xalqlarını gələcəklə buludsuz səma ilə təmin edə bilməzdi. Bununla belə, hamılıqla qəbul edilmiş hüquq normaları ölkələrə qarşılıqlı münasibətlərinin mübahisəli məsələlərində kompromis tapmağı asanlaşdırdı. Və müharibə baş verdikdə isə, ayrı-ayrı dövlətlərin onun başlanmasına görə məsuliyyət ölçüsünü müəyyən etməyə və sülhün bərpası şərtləri haqqında razılığa gəlinməsi üçün imkan yaratdı. Təsadüfi deyil ki, XVIII əsrin sonlarında baş verən Fransa inqilabına qədər bağlanan sonrakı beynəlxalq müqavilələrdə, Vestfal sülhü Avropada beynəlxalq nizamın başlanğıc nöqtəsi və hüquqi əsası kimi qeyd edilmişdir.

Vestfal sülhünün imzalanmasına baxmayaraq, Fransa və İspaniya 1659-cu ilə qədər silahların köməyi ilə öz münasibətlərini aydınlaşdırmaq üçün müharibə aparmaqda davam etdilər. 1659-cu ildə, onlar Pireney sülhünü imzaladılar. Bu sülhə görə, Fransa Pireneydə (Rusilyon) və Niderlandda bir sıra sərhəd ərazilərinə sahib oldu.

Qeyd: Pireney sülhünün şərtlərinə görə Fransa kralı XIV Lüdovik ilə İspaniya şahzadəsi Mariya Tereza evlənməli idi. İspaniya qanunlarına görə, taxt –taca sahib olmaq hüququ təkcə kralın qızına deyil, həm də onun ərinə də məxsus idi. Ona görə də İspaniya dövləti Mariya Terezadan ispan taxt-tacının hər hansı mülkiyyətinə varislik hüququndan imtina etməyi tələb etdi. İspaniya vərəsəliyi arzusunda olan fransızlar bu tələblə ancaq bir şərtlə razılaşdılar. Mariya Teresanın imtinasının etibarlı olması üçün şahzadəyə cehiz olaraq 500 min İspan kronu ödənilməli idi. Bu cehiz məbləği nikah günü də daxil olmaqla, ciddi şəkildə müəyyən edilmiş vaxt çərçivəsində üç hissəyə bölünərək ödənilməli idi. Lakin, nikah günündə ödəniş baş tutmadığından, fransızlar gələcəkdə İspan tacına iddialar qaldırmaq üçün bir bəhanə qazanmış oldular.

4.4.Avropa siyasi tarazlığı

Vestfal sülhü anti-Habsburq koalisiyasına daxil olan ölkələrə əhəmiyyətli ərazi və siyasi üstünlüklər verdi. Fransa və İsveç beynəlxalq mövqelərini xüsusilə gücləndirdilər. İsveç hətta İmperiyanın bir üzvü oldu. O, İmperiya məclisinə - Reyxstaqa öz nümayəndələrini göndərmək hüququ aldı. Hər iki dövlət, Vestfal sülh müqaviləsinin həyata keçirilməsinin təminatçısı elan edildilər. Onlarla birlikdə, Rusiya dövləti də, otuz illik müharibədə formal olaraq iştirak etməməsinə və sülh

müqaviləsini imzalanmasında iştirak etməməsininə baxmayaraq, təminatçıları arasında yer aldı.

Bu, onun beynəlxalq təsirinin artmasına və digər Avropa dövlətləri tərəfindən Rusiyanın onların bərabərhüquqlu tərəfdaşı kimi tanınmasına dəlalət edirdi. Bununla belə, Rusiyaya göstərilən bu ehtiramın böyük əməli əhəmiyyəti yox idi. Belə ki, Rusiyaya belə bir statusun verilməsinə əvvəl Moskvada, sonra isə XVIII əsrin əvvəllərində paytaxtı Sankt-Peterburqa köçürülən hökumətin münasibəti birmənalı deyildi. Rusiya dövləti bu addımı, xarici tərəfdaşlar ilə danışıqlar və qarşılıqlı kompromislər barədə müzakirələr olmadan, onun üzərinə birtərəfli qaydada xarici siyasət öhdəlikləri və məhdudiyyətlər tətbiq etmək cəhdi kimi qəbul etdi.

Otuz illik müharibə nəticəsində Habsburqlar sülaləsinin hakimiyyəti sarsıdıldı. Onların nümayəndələri Mərkəzi Avropanın bir sıra dövlətlərində, o cümlədən Müqəddəs Roma İmperiyasında, eləcə də İspaniyada hökmranlıq edirdilər. Əksinə, Fransa, İsveç kimi dövlətlərin əzəməti və nüfuzu artdı. Otuz illik müharibədə bilavasitə iştirak etməyən və ona görə də öz ehtiyatlarının bir hissəsini gələcəkdə istifadə etmək üçün saxlayan İngiltərə və Rusiyanın beynəlxalq məsələlərə təsiri artdı. Nəticədə, Avropada o dövrün əsas dövlətlərinin müəyyən tarazlığı və ya elə bir güc nisbəti yarandı ki, onların heç biri digərləri üzərində həlledici üstünlüyə malik deyildi. Artıq yaranmış siyasi şəraitdə təcavüzkar siyasət yürüdən hər hansı bir dövlətin hökuməti özünün işğalçılıq müharibəsində tez və asan qələbə qazanacağına əmin ola bilməzdi. Belə ki, onun hücumları, sülhün qorunmasında maraqlı olan dövlətlər tərəfindən dəf edilə bilərdi.

Avropa dövlətləri Avropada qüvvələrin yeni nizamını yüksək qiymətləndirirdilər. XVII əsrin ikinci yarısından başlayaraq, onların bir çoxu xarici siyasət sahəsində məqsədlərinin Avropa tarazlığını qorumaq olduğunu elan etdilər. Onun davamlı tərəfdarı Böyük Britaniya oldu (1707-ci ildə İngiltərə və Şotlandiyanın birliyi haqqında müqavilənin bağlanması nəticəsində yaranan Birləşmiş Krallığın ümumi qəbul edilmiş adı; 1801-ci ildə İrlandiya Böyük Britaniya ilə ittifaqa qoşuldu və Böyük Britaniya və İrlandiya Birləşmiş Krallığı yarandı). Ada dövləti olan Böyük Britaniya güclü quru ordusuna sahib olmadığından o, qitədəki maraqlarını qorumaq üçün, əksər Avropa dövlətlərindən daha çox diplomatik üsullara arxalanırdı.

Təbii ki, Avropanı yeni müharibələrdən yalnız qüvvələr nisbəti qoruya bilməzdi. Heç kim təminat verə bilməzdi ki, bu və ya digər ölkənin hökuməti öz üstünlüyünə şübhə etməyərək, qonşularının gücünü qiymətləndirməkdə faciəvi səhvə yol verərək Avropa tarazlığını pozaraq,. qüvvələr nisbətini öz xeyrinə uyğun dəyişməyə cəhd etməyəcək. Lakin, bu cür cəhdlər adətən digər dövlətlərin müqaviməti ilə üzləşirdi.

Ona görə də qüvvələr nisbəti beynəlxalq münasibətlərdə sabitləşdirici rol oynadı. Bu, Avropa dövlətlərinin müstəqilliyini və muxtariyyətini qoruyub saxlamaq üçün

mühüm ilkin şərt idi. Güc nisbəti xüsusilə də "kiçik" ölkələrə daha sərfəli idi ki, onlar öz kiçik ərazilərinə və nisbi şəkildə hərbi qüvvələrinin müqavimət göstərməyə imkanı olmadıqlarına görə güclü düşməni müstəqil şəkildə dəf edə bilmirdilər. Avropanın kiçik dövlətləri üçün qüvvələrin yeni düzəni inkişaf üçün ən əlverişli xarici şəraiti təmin edirdi.

4.5.Vestfal sisteminin yaranması

Vestfal sülhü Qərbi Avropada bir sıra iri milli dövlətlərin yaranması ilə nəticələndi. Zəif dövlətlər onların ətrafında qruplaşdırıldı və beləliklə, beynəlxalq həyatın ümumi dinamikasını müəyyən edən qarşıdurmada Avropada ilk və nisbətən sabit güc mərkəzləri yarandı.

Bu müqavilə ilə yaranmış Vestfal sistemi güc balansı və əsas "milli dövlət suverenliyi prinsipi" kimi tanınmaq fikri ilə xarakterizə olunur, yəni hər bir dövlət öz ərazisində tam hakimiyyətə malik idi.

Vestfal sisteminin əsas prinsipləri:

-milli maraqların prioriteti;

-güc balansı prinsipi;

-dövlətlərin - millətlərin prioriteti;

-dövlət suverenliyi prinsipi;

-daxili işlərinə qarışmamağı tələb etmək hüququ;

-dövlətlərin hüquq bərabərliyi;

-imzalanmış müqavilələri yerinə yetirmək öhdəliyi;

-beynəlxalq hüququn fəaliyyət prinsipi və beynəlxalq münasibətlərdə diplomatiyanın tətbiqi (müqavilələrə riayət bu cür təcrübənin vacib elementinə çevrildi və beynəlxalq hüquq və müntəzəm -diplomatik təcrübə, dövlətlər arasındakı münasibətlərin ayrılmaz bir atributu idi).

Bir qayda olaraq, Vestfala üç sütuna - dövlətin suverenliyinə, dövlətlərin hüquqi bərabərliyi prinsipinə və daxili işlərə qarışmamaq prinsipinə əsaslanan bir sistem kimi baxılır.

Qeyd: Əslində çox tərifl ənən bu tarazlığın kimsə tərəfindən qurulduğunu və kiminsə onu saxlamaq üçün xeyli səy göstərdiyini düşünmək lazım deyildir. Tarazlıq mövcud idi və onu pozmağa özlərində kifayət qədər güc hiss etməyənlər, öz şəxsi fəaliyyətlərini, nizamı möhkəmləndirmək istəmələri ilə izah edirdilər. Tam anlaşılandır ki, Avropada başqalarını özünə tabe edə bilən gücə malik olan elə bir hökmdar yox idi. Dünyada dəyişikliklər etmiş bütün fatehlər həmişə ya gözlənilmədən, ya da xarici və daha yüksək döyüş qabiliyyətinə malik olan ordularla hücuma keçiblər; üstəlik də, ya silahsız, ya parçalanmış və intizamsız olan xalqların üzərinə hücum edirdilər. Lakin, yaranmış şəraitdə hər hansı bir avropalı hökmdar digərlərini tabe etmək üçün lazım olan bu qeyri-adi gücə sahib deyildi, çünki hökmdarların ən güclüsü tamın çox kiçik bir hissəsi idi və bütün digər hökmdarlar çox ciddi sayıqlıq nümayiş etdirirdilər(Şarl –İrene Kastel de Sen-Pyer).

Şarl –İrene Kastel, Sen-Pyer abbatı (18 fevral 1658, Sen-Pyer - 29 aprel 1743, Paris) - məşhur fransız publisisti, "əbədi sülh ideyası"nın ən görkəmli müdafiəçilərindən biri.

Vestfal sülhü Rişelye siyasətinin zəfəri idi, baxmayaraq ki, o zaman kardinal özü sağ deyildi (o, 1642-ci ildə vəfat etmişdi). Rişelye siyasətinin davamçısı kardinal Mazarini idi. O, Osnabrük və Münsterdə sülh şərtlərinin rəsmiləşdirilməsi zamanı hakimiyyətdə olmuş və daha sonra İspaniya ilə Pireney müqaviləsini bağlamışdır (1659-cu ildə). Bu sülhün köməyi ilə Fransa Lüksemburq, Rusilon, Artua və Genneqaunun bir hissəsini alaraq, Avropada hegemonluq etməyə hazırlaşdı. Münster və Osnabrük danışıqlarında irəli sürülən "siyasi tarazlıq" prinsipləri Fransanın siyasi üstünlüyünü təmin etdi. Fransanın düşmənlərindən ən təhlükəlisi olan İmperiya əslində mövcudluğunu dayandırdı. Almaniyada "ilkin alman azadlığı", İtaliyada "siyasi azadlıq" qalib gəldi. Başqa sözlə, bu iki Avropa ölkəsinin siyasi dağınıqlığına və acizliyinə nail olundu ki, bununla da Fransa bundan sonra öz istədiyini edə bilərdi. Tamamilə başa düşüləndir ki, Mazarini indi öz bəxtsiz qonşularına sakitcə "təbii sərhədlər" sırıya bilərdi. Fransanın Almaniya və İtaliya ərazilərinə hüquqlarının sübutu kimi qədim qalların dövrünü, Pipinin və Böyük Karlın monarxiyasına müraciət edirdi. Fransanın bu ərazilərə olan iddialarını özünü "kral-günəş" adlandıran XIV Lüdovik həyata keçirməyə çalışdı. Onun hakimiyyəti dövründə fransız mütləqiyyəti özünün ən yüksək şöhrəti və ən böyük beynəlxalq əhəmiyyəti dövrünə qədəm qoydu. Lakin eyni zamanda, onun hakimiyyətinin ikinci yarısında, Fransız mütləqiyyəti eyni sürətlə tənəzzül etməyə başladı.

5. XIV Lüdovikin diplomatiyası

1643-cü ildə XIII Lüdovik öləndən sonra taxta 5 yaşı olan XIV Lüdovikin yaşı çatmadığından isə dövləti italyan mənşəli Kardinal Culio Mazarini idarə edirdi. XIV Lüdovik 1660-cı ildə İspanya kralının qızı Mariya Tereza ilə evləndi ki, iki ölkə arasında sülh bərqərar olsun. 1661-ci ildə Mazarinin ölümü ilə XIV Lüdovik idarəni tam əla keçirə bilmişdi. O ölkəni tam mütləqiyyətçi kimi idarə etmişdir. XIV Lüdovik Fransız ordusunun sayını artırdı, onun tərkibini 100 mindən 400 minə çatdırdı.

XIV Lüdovikin (1638 -1715) hakimiyyətinin birinci yarısında (1661-1683-cü illər) beynəlxalq vəziyyət Fransa üçün son dərəcə əlverişli idi. Vestfal və Pireney sülhü Fransanın əzəli düşmənlərinin - alman və ispan Habsburqlarının tam alçaldılmasına şahidlik edirdi. İngiltərədə Stüartların bərpası (1660-cı ildən) və onların mürtəce siyasəti burjua inqilabını yenicə başa vurmuş bu ölkənin beynəlxalq əhəmiyyətini zəiflətdi. İngilis kralı II Karl parlamentlə daim çəkişmələr içərisində olduğundan kənarda öz təbəələrinə qarşı dəstək axtarırdı və mütəmadi şəkildə Fransa

kralından maliyyə dəstəyi alırdı. Fransanın artıq Avropada hesablaşmalı olduğu rəqibləri yox idi. Fransa sarayı(Versal-1682-ci ildən) Avropada ən möhtəşəmi sayılırdı. Bütün Avropa hökmdarları fransız kralından çəkinirdi. Bu zaman Fransız dili diplomatiyada və beynəlxalq müqavilələrin imzalanmasında rəsmi dil olmuşdu.

XIV Lüdovik, qədim franklara və qədim qallara aid olanların indi Fransaya aid edilməsi ilə bağlı olan mövzuya aid tarixi araşdırmalarla artıq sakit şəkildə məşğul ola bilərdi. Hökmdarlığının birinci yarısında onun Birinci naziri və ya özünün dediyi kimi, maliyyənin baş nəzarətçisi XVII əsr Fransasının görkəmli dövlət xadimi Kolber idi. XIV Lüdovik tez-tez özünün kralın birinci naziri olduğunu söyləməyi xoşlasa da, əslində dövlətin işləri Kolberin əlində idi. Kolber Fransada manufakturalar tikmək üçün çox işlər görmüş, sənaye və ticarətin maraqlarını hər cür qorumuş, merkantilizm- dövlətin iqtisadi fəaliyyətə fəal müdaxiləsi siyasətinin ən ardıcıl nümayəndələrindən biri olmuşdur.

Amerikada Fransa mülklərinin yaradılmasına (Akadiya və digər müstəmləkələrin zəbt edilməsi) XVII əsrin ortalarında başlanmasına baxmayaraq, Şimali Amerikada Missisipi çayı hövzəsindəki (Luiziana) böyük ərazilər Fransa kralının mülkiyyəti elan edildi. Kolberin çoxsaylı işgüzar yazışmaları, nazirin Fransa səfirlərinə və xaricdəki nümayəndələrə göstərişlərini ehtiva edir. Bu sənədlər Kolberin fransız ticarətinin və fransız burjuaziyasının maraqları çox böyük dərəcədə maraqlandığını göstərir.

Artıq 1661-ci ildə krala təqdim etdiyi hesabatında Kolber yazırdı: "Əgər kral sənayenin və ticarətin verdiyi gücü Fransanın təbii gücünə əlavə edə bilsə... onda kralın əzəməti və qüdrəti misli görünməmiş nisbətdə artacaq. ." Kolber dərhal krala həsədlə bildirdi ki, qonşu hollandların 16 minə qədər gəmisi var, fransızların isə mindən çox gəmisi var və onlar Amerika mülkləri ilə əlaqə saxlamaq üçün Hollandiya gəmilərindən istifadə etmək məcburiyyətində qalırlar. Əslində, Kolberin planları Hollandiya burjua respublikasının iqtisadi gücünü zəiflətməyə yönəlmişdi. O, nə qədər ki, "Böyük Karlın varisi"nin -XIV Lüdovikin fəth planlarının fransız burjuaziyasının maraqlarına uyğun həyata keçirilirdi, onlara qarışmırdı.

Bu planlara uyğun olaraq, "kral günəş" ilk növbədə qədim qalların Belçikaya sahib olduğunu sübut etməklə məşğul oldu. Bununla belə, nə Kolber, nə də XIV Lüdovik Hollandiyanın müqavimət göstərmə qabiliyyətini və bu respublikanın diplomatik bacarığını lazımınca qiymətləndirməmişdilər. Fransa kimi güclü qonşunun bilavasitə yaxınlığından ehtiyat edən Hollandiya, XVII əsrdə Fransanın təcavüzkar planlarından narahat olan Avropada yaranan bütün koalisiyaların dostuna çevrildi. Fransanın Belçikanı ələ keçirmək üçün başladığı mübarizə silsilə "ticarət müharibələri" ilə nəticələndi. Üç ən böyük və iqtisadi cəhətdən ən güclü dövlət

arasında gedən bu müharibələr dənizlərdə və müstəmləkələrdə üstünlüyü qazanmaq uğrunda aparılırdı.

6. Sülalə müharibələri

6.1.Səbəblər və bəhanələr
6.2.Devolyusiya (Varislik) müharibəsi (1667-1668).
6.3. Hollandiya müharibəsi (1672-1678)
6.4.Yenidən birləşdirmə palataları
6.5. Auqsburq Liqasının formalaşması (1686-1689)
6.6. Auqsburq Liqasının müharibəsi və ya Pfalts mirası uğrunda müharibə (1688-1697)

6.1.Səbəblər və bəhanələr

Otuzillik müharibədən sonra Avropada formalaşan qüvvələr nisbəti təcavüzkar müharibələr arzusunda olan, həmçinin başqalarının hesabına öz böyüklüyünü və sərvətini artırmağa çalışan hökmdarların şüuruna dərhal ayıldıcı təsir göstərmədi.

Onların əksəriyyəti başqa dövlətlərin ərazilərinin bir hissəsini ilhaq etməklə öz mülklərini genişləndirmək və təbəələrinin sayını artırmaq arzusunda idilər. Bu istəklər əsasən iqtisadi mülahizələrlə izah olunurdu. O dövrdə, torpaq və işçi qüvvəsi çox yüksək qiymətləndirilirdi. Bu səbəbdən də, o dövrün dövlətləri öz ərazilərini genişləndirmək, münbit torpaqları və çoxlu əhalisi olan yeni torpaqlar ələ keçirmək istəyirdilər.

Bununla belə, XVII əsrin ikinci yarısı və XVIII əsrin birinci yarısında Avropa dövlətlərinin apardıqları müharibələrin əksəriyyətinin bəhanəsini sülalə iddiaları təşkil edirdi. Beynəlxalq münasibətlərin ideologiyadan uzaqlaşması və konfessional amilin rolunun azalması nəticəsində, yenidən sülalə maraqları ön plana çıxdı. Çünki əksər Avropa dövlətləri, o cümlədən bütün böyük dövlətlər, hələ də, qədim sülalələrin idarə etdiyi irsi monarxiyalar olaraq qalırdılar. Ona görə də dövlətlər arasında münasibətlər əsasən sülalə hüququ əsasında qurulmaqda davam edirdi.

Eyni zamanda, sülalə iddiaları həm də açıq şəkildə muzdlu, soyğunçu xarici siyasət məqsədlərini həyata keçirmək üçün ağlabatan pərdə rolunu oynayırdı. Bu ikili siyasətdə, Avropa dövlətləri "öz təlaşlarını biruzə verməməyə" çalışırdılar.

6.2.Devolyusiya (Varislik) müharibəsi (1667-1668).

XVII əsrin son qərinəsi - XVIII əsrin əvvəllərində, Fransa kralı XIV Lüdovikin hökumətinin mövcud qüvvələr nisbətini öz xeyrinə dəyişməyə yönəlmiş təcavüzkar xarici siyasət kursu həyata keçirmişdi. XIV Lüdovikin öz hakimiyyəti dövründə Fransa dörd müharibənin əsas aktoru olmuşdur. Birinci müharibə, XIV Lüdovikin

Belçikanı, yəni Hollandiyanın inqilabdan sonra İspaniyanın əlində qalan hissəsini ələ keçirmək istəyindən irəli gəlirdi. Müharibə üçün irəli sürülən bəhanə dövrün ruhuna uyğun olaraq sırf sülalə münaqişəsi idi.

Qeyd: Devolyusiya hüququ (varislik hüququ)- Birinci nikahdan olan uşaqların valideynləri ikinci nikaha daxil olduqda, onların bütün daşınmaz əmlakına vərəsəlik hüququnu alması anlamına gəlir.

1667-1668-ci illər müharibəsi "devolyusiya" adını almışdı. Çünki, fransızlar bu tələbi devolyusiya hüququ ilə əsaslandırdırırdılar (devolyusiya fr. – varislik hüquqlarının, mülkiyyətinin ötürülməsi). Yəni, ilk nikahdan olan övladlar, əgər valideynləri ikinci nikaha girərdisə, onların bütün daşınmaz əmlakına vərəsəlik hüququ alırdılar. Əslində bu məsələ Hollandiyanın, daha doğrusu, onların əyalətlərindən biri olan Brabant adətinə aiddir. Bu qaydaya görə birinci nikahdan olan uşaqlar vərəsəlik hüququnu almaqda, ikinci və sonrakı evliliklərdən olan uşaqlarla müqayisədə, üstünlük əldə edirdilər.

17 sentyabr 1665-ci ildə, İspaniya kralı IV Filipp vəfat etdikdən sobra, İzabella Burbon ilə ilk evliliyindən yalnız XIV Lüdoviklə evli olan qızı Mariya Tereza qalmışdı. Lakin, taxta, ikinci həyat yoldaşı Avstriyalı Marianna ilə evliliyindən olan azyaşlı II Karl çıxdı(1665-1700). Lakin, varis kral IV Filipin ikinci evliliyindən olan oğlu idi. Ona görə, XIV Lüdovik öz həyat yoldaşının da vərəsə hüququna malik olması ilə bağlı iddia qaldırdı. Eyni zamanda, fransız diplomatları Mariya Terezaya vəd edilən cehizin də verilməməsinə də toxunurdular. Qonşu ölkələrə qarşı ərazi iddiaları irəli sürən XIV Lüdovik Niderlanda devolyusiya (vərəsəlik) hüququnun tətbiq edilməsini tələb etdi. Bu tələbə əsasən, Niderlandda olan ispan mülkləri onun həyat yoldaşı Mariya Terezaya və müvafiq olaraq Fransaya keçməli idi.

İspan diplomatları sübut etməyə çalışırdılar ki, devolyusiya (vərəsəlik) hüququ yalnız mülki qanundur və dövlətdən vərəsə alınması üçün tətbiq edilə bilməz. Onlar həmçinin diqqətə çatdırırdılar ki, Mariya Tereza nikaha girəndə ata mirasına olan hüququndan qeyd-şərtsiz imtina edibdir.

Fransız diplomatları Niderlandın İspaniya dövlətinin qanuni ərazisi deyil, daha çox İspan krallarının şəxsi mülkiyyəti olduğunu göstərirdilər. Fransızlar şahzadənin ata mirasından imtina etməsini etibarsız hesab edərək bildirdilər ki, nikah zamanı Mariya Tereza yetkinlik yaşına çatmamışdı və ona heç bir cehiz ödənilməmişdir. Məsələ bundadır ki, 1659-cu ildə Pireney sülhünün sonunda kardinal Mazarini sazişə şahzadənin İspaniya taxt-tacına irsi hüququndan imtinasına görə qarşılığın verilməsi ilə bağlı xüsusi bənd daxil etmişdi. Belə bir imtinanı qəbul etdirmək üçün ispanlar XIV Lüdovikə cehiz kimi 500.000 qızıl pul ödəməli idilər. Hiyləgər və uzaqgörən Mazarini başa düşürdü ki, bu məbləğ İspaniya büdcəsi üçün çox ağır yük olacaq və

beləliklə, Fransa ya ərazi təzminatı tələb edəcəkdilər, ya da Mariya Terezanın İspaniya tacından imtinasını etibarsız hesab edəcək idilər.

Fransa "kraliça adından Niderlandın" on dörd əyalətinə və ya başqa bir böyük mülkünə sahib olmaq hüququ ilə bağlı dəlillərə əsaslanmağa başladı. O, Antverpenin, Flandriyanın (Alst), Mexelenin, Limburq hersoqluğunun, Yuxarı Geldernin, Brabant hersoqluğunun, Artua əyalətinin qalan hissəsinin, Kambresinin, Eno qraflığının, Namur qraflığının, Roş-en-Arden qraflığının, Arlon markizliyinin, Lüksemburqun böyük bir hissəsinin və nəhayət, Burqundiya qraflığının bir hissəsinin (Franş -Konte) öz ərazisinə birləşdirilməsi ilə bağlı tələblər irəli sürdü.

Məsələnin hüquqi tərəfi kifayət qədər mürəkkəb olduğundan və İspaniya isə güzəşt etmək fikrində olmadığından, Fransa kralı tezliklə öz tələblərini silahla həll etmək qərarına gələrək, qoşunlarını Flandriyaya yeritdi.

Fransa üçün iqtisadi cəhətdən yaxşı bir qənimət olan Flandriya və Brabant o zaman hərbi cəhətdən tamamilə müdafiəsiz idi: onların öz ordusu yox idi və İspan donanması o qədər acınacaqlı vəziyyətdə idi ki, o, ispan qoşunlarını metropoliyadan Niderlanda gətirə bilməzdi. Müharibənin başlanması qaçılmaz idi.

24 may 1667-ci ildə XIV Lüdovik, İspaniyanın imtinasına cavab olaraq, İspaniya Niderlandına ordu göndərdi. Fransız ordusu say və texniki cəhətdən üstünlüyə malik idi (20 minlik ispan ordusuna qarşı 53 min). Onun Baş komandanı, marşal Anri de La Tur d'Overn, vikont de Türen (1611-1675) strateji əhəmiyyətli qalaları zəbt etdi, onlardan ən mühümləri Şarlerua və Lill idi. Lakin, onların bu uğurları, Fransa ilə ümumi sərhədinin yaranmasından qorxan Niderlandın ağrılı narahatlığına səbəb oldu. London da, Pa-de-Kale sahillərinin Parisin ələ keçirməsini istəmirdi. Çünki, bu ərazilərin işğalını Britaniya adalarının təhlükəsizliyinə təhdid kimi görürdü. Bu müharibə zamanı İngiltərə və Niderland, Fransanın kiçik tərəfdaşı kimi ənənəvi rolundan imtina edən İsveç tərəfindən dəstəkləndi.

Hələ 1667-ci ildə, Kolber Niderlanda qarşı qadağan edici tariflər tətbiq etmişdi, hollandlar buna cavab olaraq fransız mallarını öz bazarlarından çıxarmışdı.

23 yanvar 1668-ci ildə İngiltərə, Niderland və İsveç Fransanın təsir gücünü məhdudlaşdırmaq və İspaniyanı güzəştə getməyə razı salmaq üçün Üçlü ittifaq yaratdılar. İttifaq XIV Lüdovikə işğal davam edərsə, ona müharibə elan edəcəyi ilə hədələyən ultimatum təqdim etdi. Eyni zamanda, müttəfiqlər təklif etdilər ki, İspaniya güzəştə gedərək, ya Flandriyada, ya da Franş-Konteda Fransanın fəth etdiyi torpaqları ona versinlər. Böyük koalisiya ilə müharibə istəməyən XIV Lüdovik də İspaniyanı kompromisə vadar etmək yolunu seçdi: Fransa ordusu Flandriyada hücumu dayandırdı, lakin 1668-ci ilin yanvarında Franş-Konteni işğal etdi.

1668-ci il aprelin 25-də Sen-Jermen-an-Le şəhərində (Paris ətrafında) Fransa ilə İspaniya arasında sülh müqaviləsi bağlandı. Mayın 2-də isə, Aaxendə (indi

Almaniyada) Fransa ilə İngiltərə, Hollandiya və İsveç arasında müqavilə imzalandı. Müqavilələrin şərtlərinə görə Paris Franş-Konteni İspaniyaya qaytarırdı. Flandriya ərazisi bölünməyə məruz qalırdı. Kamer, Sen-Omer və Er şəhərləri İspaniyaya qaytarılırdı, Berq, Verne və Şarlerua şəhərləri ilə birlikdə fransız Flandriyası Fransaya verilirdi.

Devolvasiya müharibəsi nəticəsində "kabinet müharibəsi"nin yeni növü formalaşdı: tərəflər bir neçə silahlı toqquşma mübadiləsindən sonra danışıqlar masası arxasına oturaraq, sövdələşmə yolu ilə, qalib üçün daha çox faydalı, məğlub üçün az faydalı olan bir sülh bağlayırdılar.

Müharibə uzunmüddətli olmadı (1667 – 1668-ci illər), lakin o göstərdi ki, Fransanın hər hansı bir hücumu ona qarşı dövlətlərin koalisiyasının yaranmasına səbəb olur. Ona görə də, Lüdovik Aaxen sülhü ilə yalnız bir neçə sərhəd qalasını (Lill və başqaları) ilhaq etməklə kifayətləndi və yeni müharibə üçün diplomatik hazırlıqlara başladı. O, İsveçi Hollandiya ilə ittifaqdan uzaqlaşdırdı, İngiltərə kralı II Karla maliyyə vəsaiti verdi və yeni ikinci müharibəyə başladı (1672-1679).

6.3. Hollandiya müharibəsi (1672-1678)

XIV Lüdovik hökuməti Sen-Jermen sülhünü müvəqqəti siyasi addım kimi görürdü. Hollandiyanın mövqeyi Parisdə çox böyük hiddətə səbəb oldu və indi onlar Fransanın əsas düşməni kimi qəbul olunmağa başlandılar. Fransa və İngiltərənin Hollandiyaya qarşı birləşməsi üçün ilkin şərtlər yarandı ki, bu da ingilis diplomatiyası üçün sərfəli idi. Hər iki dövlət, Hollandiyanın dəniz hegemonluğundan narazı qaldıqlarından, onun ehtiyat mənbələrini məhdudlaşdırmağa çalışırdılar.

1670-ci ildə Fransa Lotaringiyanı zəbt etdi və onun hersoqunu qanundan kənar elan etdi. Parisin bu addımı nüfuzlu holland siyasətçisi Oranlı III Vilhelmin ciddi etirazına səbəb oldu. 1670-ci ilin iyununda Duvrda, Oranlı Henriettanın (əslən Stuart) vasitəçiliyi ilə İngiltərə kralı II Karl və Fransa kralı XIV Lüdovikin nümayəndələri gizli ittifaq müqaviləsi bağladılar. Tərəflər bir-birinə hərbi yardım etmək öhdəliyi götürdülər. II Karl protestant dövlətləri olan İsveç və Hollandiya ilə müttəfiqlik əlaqələrini pozmağa söz verdi. (Başqa bir məlumata görə, müqavilədə kral II Karlın katolikliyə çevrilməsi ilə bağlı gizli əlavə var idi). 1672-ci ildə Fransa-İsveç ittifaq müqaviləsi də bağlandı. Fransa eyni formalı müqavilələri alman dövlətləri (Köln və Münster) ilə də bağladı, həmçinin Müqəddəs Roma İmperiyası ilə bitərəflik müqaviləsi imzaladı.

Oranlı Vilhelm Henrix 4 (14) noyabr 1650-ci ildə Birləşmiş Əyalətlər Respublikasının Haaqa şəhərində anadan olmuşdur. O, ştathalter(vali, canişin) Oranlı II Vilhelm və Mariya Henrietta Stüartın yeganə övladı idi. Mariya kral I Karlın böyük qızı, II Karl və II Yakovun bacısı idi.

4 iyul 1672-ci ildə 21 yaşlı şahzadə Vilhelm stathalter və baş komandan elan edildi. 1677-ci ildə Vilhelm dayısı- York hersoqu, İngiltərənin gələcək kralı II Yakovun qızı Mariya Stüartla evləndi.

İngiltərədə baş verən "Şanlı inqilab"(1688-ci ildə İngiltərədə II Yakov Stüartın devrilməsi ilə nəticələnən çevrilişə tarixdə verilən ad) nəticəsində, hakimiyyətə gəlməyə dəvət olunan Vilhelm, 5 (15) noyabr 1688-ci ildə öz ordusu ilə İngiltərəyə gəldi.

1689-cu ilin yanvarında parlament Vilhelm və onun həyat yoldaşını İngiltərə və Şotlandiyanın bərabər monarxları elan etdi. Parlament əvvəlcə Vilhelmə konsort olmağı təklif etdi (sadəcə hökmranlıq edən Kraliça Mariyanın əri), lakin o, bu təklifi qəti şəkildə rədd etdi. 5 ildən sonra Mariya ölsə də, Vilhelm ölkəyə rəhbərlik etməkdə davam etdi. Oranlı III Vilhelm (1688—1702) ömrünün sonuna qədər İngiltərə, Şotlandiya, İrlandiyanı idarə etdi, həmçinin Hollandiyada da öz hakimiyyətini saxladı.

Müharibə 22 mart 1672-ci ildə, ingilislərin Hollandiyanın dəniz karvanına hücumu ilə başladı. 7 aprel 1672-ci ildə İngiltərə Hollandiyaya müharibə elan etdi. 1672-ci il mayın 5-də Fransa müharibəyə girdi.

İlk vaxtlar hərbi əməliyyatların mərkəzi Niderland idi. 7 iyun 1672-ci ildə Solebey döyüşündə (İngiltərənin şərq sahili) holland admiralı M.de Reyter birləşmiş ingilis-fransız donanmasını məğlub etdi. Lakin marşal A.Tyurenin komandanlığı ilə fransız ordusu Amsterdama doğru hücuma keçdi. Niderland valisi (stathalter) təyin edilmiş Oranlı Vilhelm ölkənin müdafiəsini təmin etmək üçün fövqəladə tədbirlər gördü: o, ölkənin əhəmiyyətli bir hissəsinin su altında qalmasına səbəb olan Meyden su şlüzlərini açdı və Amsterdam 1672-ci ilin payızı gələnə qədər bir ada olaraq qaldı. Hollandiyanın iqtisadiyyatı böyük zərər görsə də, Tyurenin ordusunun hücumunu dayandırmaq mümkün oldu.

Mixil Adrianszon de Reyter (24 mart 1607 - 29 aprel 1676) — holland admiralı. XVII əsrdə İngiltərə-Hollandiya müharibələrində Hollandiya donanmasına komandanlıq edib. O, ingilislər və fransızlar üzərində bir neçə böyük qələbə qazanmışdır, o cümlədən Miduey adalar rifinə məşhur yürüş etmişdir. Fransa ilə müharibə zamanı Siciliya sahillərində gedən döyüşdə ölümcül yaralanıb.

Hərbi əməliyyatların mərkəzi Qərbi Almaniyaya keçdi. Oranlı Vilhelm İspaniya, Danimarka, Müqəddəs Roma İmperiyası, Lotaringiya və Brandenburqdan ibarət koalisiya yaratdı. Fransanın tərəfində İsveç çıxış etdi. Fransa Niderlandın Maastrixt şəhərini və Reyn çayının sol sahilini ələ keçirdi. Tyurennin komandanlığı altında olan fransız ordusu Franş-Konteni işğal edərək, məşhur sərkərdə Raymund Montekukkolinin (1609-1680) komandanlığı altında olan Avstriya ordusunu Baden-Vürtemberq ərazisində Zinshaym və Filipsburq şəhərləri yaxınlığında məğlub edərək bir sıra qələbələr qazandı. İngiltərə dənizdə uğursuzluqlara düçar olaraq, 1674-cü ildə, Hollandiya ilə apardığı müharibədən çıxdı.

İngiltərə kralı II Karlın sülalə siyasəti ingilislərin özlərinin də narazılığına səbəb olurdu. XVII əsrdə onlar artıq Fransanı özlərinin ən güclü rəqibi kimi görməyə

başladılar. İngilislər krallarını Fransa ilə ittifaqı pozmağa və müharibəni dayandırmağa məcbur etdilər. Fransanın yeganə diplomatik uğuru İsveçin Brandenburqla müharibəyə cəlb olunması oldu. Və Ferbellin yaxınlığında (1675) Brandenburqlu "böyük kürfüst" Fridrix-Vilhelm isveçliləri ciddi məğlubiyyətə uğratdı.

Aparılan hərbi əməliyyatlar, mütəmadi davam edən danışıqlar gedişində, tədricən azalırdı. Qitədə Fransanın hücumu 27 iyul 1675-ci ildə Zasbaxda (Qərbi Almaniya) Tyurennin həlak olmasından sonra dayandırıldı. Bununla belə, fransız ordusu R.Montekukkolinin Elzasdakı hücumunu dəf etdi. 1676-cı ilin aprelində, dənizdə, vitse admiral A.Dyukenin kamandanlıq etdiyi fransız eskadrasının, M. de Reyterin komandanlığı altında olan Hollandiya donanması ilə Aqosta (Siciliya) yaxınlığındakı döyüşü heç bir tərəfə qələbə gətirmədi və bu döyüş nəticəsiz başa çatdı. Hollandiya donanması komandanı M. de Reyterin döyüşdə həlak olması Hollandiyanı danışıqlarda güzəştə getməyə daha çox meylləndirdi.

1678- 1879-cu illərdə Nimveqendə (Niderland) döyüşən tərəflər arasında çoxsaylı sülh müqavilələri imzalandı. Bu müqavilələr, XIV Lüdovikin Hollandiya müharibəsinə son qoydu.

Nimveqendə imzalanan sülh müqavilələri:

-11 avqust 1678, Fransa ilə Birləşmiş Əyalətlər Respublikası arasında sülh müqaviləsi;

-17 sentyabr 1678, Fransa və İspaniya arasında sülh müqaviləsi;

-5 fevral 1679, Fransa ilə Müqəddəs Roma İmperiyası arasında sülh müqaviləsi;

-5 fevral 1679, İsveç və Müqəddəs Roma İmperiyası arasında sülh müqaviləsi;

-19 mart 1679, İsveç və Münster arasında sülh müqaviləsi;

-2 oktyabr 1679, İsveç və Birləşmiş Əyalətlər Respublikası arasında sülh müqaviləsi.

İmzalanan müqavilələrdə nəzərdə tutulurdu:

-Fransa və İsveçə qarşı bitərəflik zəmanəti müqabilində, fransızlar tərəfindən işğal edilmiş bütün ərazilərin Birləşmiş Əyalətlər Respublikasına qaytarılması;

-Flandriyadakı sərhədlərin nizamlanması;

-Fransaya Elzas, Lotaringiya, Bulon hersoqluğunu, Frayburq və Reynin hər iki tərəfindəki bir sıra digər alman ərazilərinin verilməsi;

-İspan sərhəd torpaqlarının, eləcə də Birinci Aaxen müqaviləsinin nəzarətində olan Franş -Konte qraflığının Fransaya təhvil verilməsi;

-Münster qoşunlarının Danimarka-İsveç müharibəsində, Danimarka tərəfində iştirak etməkdən imtina etməsi.

Nimveqen müqaviləsinə əsasən, Fransa müharibə zamanı işğal etdiyi Hollandiya torpaqlarından çıxdı, Hollandiya isə Fransanın Qviana və Seneqalda

müstəmləkəçilik hüquqlarını tanıdı. Bundan əlavə, İspaniya Franş-Konte, Frayburq və İspaniya Hollandiyasının bir sıra ərazilərini Fransaya, Fransa isə Cənubi Hollandiyanın bir hissəsini İspaniyaya qaytardı. Bunun əvəzində Hollandiya öz ölkəsinin gələcəkdə bitərəf olacağına söz verdi. Bütövlükdə, Nimveqen sülhü Fransanın Avropada üstünlük qazanmasına doğru bir addım demək idi.

Hollandiya müharibəsi Fransanın mövqelərini kəskin şəkildə gücləndirdi. Müharibə Niderlandın dənizdə olan hökmranlığını aradan qaldıra bilmədi, ancaq, Niderlandın iqtisadi gücünü zəiflətdi.

Bu da, öz növbəsində, Hollandiya üçün güclü hərbi-dəniz və ticarət donanmaları saxlamağı çətinləşdirirdi. Lakin, Hollandiyanın ehtiyat mənbələrinin zəifləməsi İngiltərə-Fransa ittifaqına olan ehtiyacı azaltdı. İngilis elitasının əsas rəqibi indi Hollandiya deyil, Fransa oldu.

6.4.Yenidən birləşdirmə palataları

Nimvegen müqaviləsi Fransanın Avropada ən böyük əzəməti dövrünün ifadəsi sayılırdı. Alman imperiyasının siyasi zəifliyindən istifadə edən XIV Lüdovik Fransa ilə həmsərhəd olan alman ərazilərini ilhaq etməyə başladı.

Bir qədər sonra, Fransa ərazisində qalan qonşu hökmdarların, əsasən də alman knyazlarının anklavlarına öz iddialarını əsaslandırmaq məqsədi ilə XIV Lüdovik hüquqşünasların daxil olduğu xüsusi komissiyalar - Birləşdirmə palataları (məclisləri) adlanan qurumlar yaratdı. Palatanın üzvləri fransız kralının bu anklavlara olan hüquqlarını sübut edə biləcək qədim sənədləri axtarmalı idilər. Xarici hökmdarlardan XIV Lüdovikə vassal sədaqəti andı içmələri tələb edilirdi, əks halda onlar mülklərinin müsadirə edilməsi təhdidi ilə qarşılaşırdılar. "Yenidən birləşdirmə" siyasəti o qədər uğurlu oldu ki, 1681-ci ildə XIV Lüdovik heç bir dəlil gətirmədən Strasburq şəhərini zəbt etdi.

Əlbəttə ki, xarici hökmdarlar Fransa hökumətinin hərəkətlərinə etiraz etdilər, lakin bu addımları Fransa ilə müharibə etmək üçün kifayət edən mühüm amil hesab etmədilər. Yalnız İspaniya, 1683-cü ildə Fransaya müharibə elan etdi. Lakin fransızlar ispan ordusunu məğlub edərək, Kataloniyanı, eləcə də Niderlandın bir sıra şəhərlərini ələ keçirdilər.

1684-cü il avqustun 15-də, Reqensburqda (Bavariya) Fransa, İspaniya və Müqəddəs Roma İmperiyasının nümayəndələri atəşkəs sazişi imzaladılar və bu razılaşmaya əsasən, Fransa, Strasburq da daxil olmaqla 1681-ci il avqustun 1-dək "yenidən birləşdirilmiş" bütün əraziləri özündə saxladı.

6.5. Auqsburq Liqasının formalaşması (1686-1689)

1680-ci illərin əvvəllərində, Fransa ən yaxşı orduya və böyük donanmaya malik olmaqla Avropanın ən güclü dövlətinə çevrildi. Onun müttəfiqləri İngiltərə, İsveç və bir sıra kiçik alman dövlətləri idi. Şərqdə Osmanlı İmperiyası Parisin ənənəvi tərəfdaşı olaraq qalırdı.

Siyasi nüfuz güclü ideoloji və mədəni təsirlə tamamlanırdı. 1685-ci ildə, Nant fərmanının ləğvindən sonra Fransa katolik dünyasının lideri olmaq üçün iddia qaldırdı. Avropa aristokratiyasını yalnız mütləq monarxiyanın fransız modeli deyil, həm də fransız mədəniyyəti, o cümlədən rəmzi möhtəşəm kral iqamətgahı - Versal olan mürəkkəb saray etiketi də cəlb edirdi.

Bütün bunlara rəğmən, Versal, Pfalts dövlətinin ərazisinin bir hissəsinə qarşı vərəsəlik iddiası qaldırdı. 1686-cı il martın 22-də İmperator I Leopold və Brandenburq kürfüstü Fridrix Vilhelm qarşılıqlı yardım paktı imzaladılar. İyulun 9-da isə, Bavariyanın Auqsburq şəhərində Müqəddəs Roma İmperiyasının imperatoru I Leopold, İspaniya kralı II Karl, İsveç kralı XI Karl, Bavariya kürfüstü II İmmanuel Maksimilian müdafiə ittifaqı - Augsburg Liqası yaratdılar. Tərəflər Vestfal sülhü, Nimvigen sülh sazişləri və Reqensburq müqaviləsinin şərtlərinə əməl etmələri ilə bağlı öhdəlik götürdülər.

Qeyd: Auqsburq Liqası 1686-cı ildə XIV Lüdovikin hegemonluğuna qarşı çıxmaq üçün yaradılmış anti-Fransa ittifaqıdır.

İngiltərə Auqsburq Liqasının ciddi tərəfdaşı kimi çıxış edirdi. XIV Lüdovikin maliyyə arxalanan Stüart sülaləsinin fransız yönümlü siyasəti ingilis elitasının narazılığına səbəb oldu. Bu, katolikliyi qəbul edən II Karlın qardaşı Kral II Yakovun (1685-1688) hakimiyyəti dövründə xüsusilə nəzərə çarpırdı. İngiltərə taxt-tacına alternativ namizəd 1677-ci ildən II Yakovun qızı Mariya Stüartla evli olan Oranlı Vilhelm sayılırdı.

Fransanın davamlı yüksəlişi bütün Avropanı narahat etməyə başlamışdı. Hollandiya Fransaya qarşı koalisiya yaratdı. Hollandiya Respublikasının hökmdarı o dövrün görkəmli siyasətçisi və diplomatı, Ştathalter Oranlı III Vilhelm (1672-1702) idi.

Nimveqen sülh müqaviləsindən (1679) dərhal sonra Oranlı III Vilhelm, "siyasi tarazlıq" prinsipini pozmaqla təhdid edən Fransanı ən təhlükəli düşmən kimi təcrid etməyə yönəlmiş çevik diplomatik fəaliyyətə başladı. Vilhelm, imperator və Brandenburq kürfüstü ilə yazışaraq, Fransaya qarşı birgə mübarizə üçün geniş planlar hazırladı. Fransaya qarşı bağlanmış gizli müdafiə ittifaqı olan "Auqsburq Liqası"nın mövcudluğu onun diplomatik məharətinə borclu idi.

1688-ci ildə İngiltərədə baş vermiş "Şanlı inqilab"dan sonra, bu ölkəyə dəvət edilmiş Oranlı Vilhelm və zövcəsi Mariya 1689-cu ilin yanvarında parlament tərəfindən İngiltərə və Şotlandiyanın bərabər monarxları elan edildi. Elə həmin il Britaniya tacının təbəələrinin sabit hüquqlarını təsbit edən Hüquqlar Qanunu (Bill) qəbul edildi.

1688-ci il inqilabı uzunmüddətli strateji nəticələrə səbəb oldu: İngiltərə ilə Hollandiya arasında mübarizə sona çatdı və indi onlar nəsli birlikdə idilər. Avropanın maliyyə və ticarət mərkəzi Amsterdamdan Londona köçməyə başladı. İngiltərənin strateji mövqeyi, qitə dövlətləri tərəfindən ehtimal olunan təhdidlərindən daha təhlükəsiz məkanda olması onu maliyyəçilər və tacirlər üçün Hollandiyadan daha çox cəlbedici edirdi. Kral Oranlı Vilhelmin hakimiyyəti dövründə ingilis siyasəti Fransaya qarşı düşmən mövqedə idi. 1689-cu ildə İngiltərə və Hollandiya Auqsburq Liqasına qoşularaq, Fransa hegemonluğuna qarşı çıxmaq niyyətlərini bəyan etdilər.

Bu "liqaya" imperator, İspaniya, Hollandiya, Savoya, bəzi xırda alman knyazları, İtaliya hökmdarları və ən əsası isə Fransanın köhnə "dostu" İsveç də daxil idi. XVII əsrin birinci yarısında Almaniyanın zəifləməsində maraqlı olan İsveç Fransa ilə ittifaqda idi. O, Fransadan gələn göstərişlərə və maliyyə vəsaitlərinə əsaslanaraq hərəkət edirdi. XVII əsrin ikinci yarısında Fransanın güclənməsi və Belçika və Hollandiyanı ələ keçirmək cəhdləri, İsveç ixracatını əlində saxlaması İsveçdə qorxu yaratdı. İsveçin görkəmli diplomatı Oksenşerna hesab edirdi ki, hazırkı vəziyyətdə İsveç dəniz dövlətləri- İngiltərə və Hollandiya ilə ittifaqda hərəkət etməlidir, çünki bu dövlətlərin hər ikisi Fransanı zəiflətməkdə maraqlı idilər.

Bununla belə o, İsveç diplomatiyası qarşısında İsveç ticarəti üçün ən əlverişli şərtlərə nail olmaq üçün dənizdə ingilis-holland rəqabətindən istifadə etmək vəzifəsini də qoymuşdu. 1680-ci ildən Oksenşerna Xarici İşlər Nazirliyini öz nəzarəti altına aldı və artıq 1681-ci ildə Oranlı Vilhelm ilə Fransaya qarşı ittifaq bağladı. Bu ittifaq Oksenşernanın siyasi oyununda parlaq bir addım idi. Fransanın ətrafında onun düşmənlərinin halqası bağlandı. Bu dövrdən başlayaraq, Fransa İngiltərə ilə uzunmüddətli mübarizə dövrünə qədəm qoyur.

Beləliklə, Fransa özünü tam beynəlxalq təcrid vəziyyətinə saldı. Lakin bu siyasi vəziyyət, müttəfiq dövlətlərlə uzun sürən müharibəyə girən XIV Lüdoviki dayandıra bilmədi.

1680-ci illərdə XIV Lüdovik yenidən Reyn boyunca torpaqları ələ keçirməyə başladı. Maliyyə vəsaitinin çatışmamazlığı ilə bağlı dəlillərlə kralı müharibəyə başlamaq istəyindən döndərməyə cəhd edən Kolber isə artıq həyatda yox idi. Hərbi nazir Luvua fransız zadəganlarının həqiqi nümayəndəsi idi. O, hərbi şöhrətə can ataraq, ölkənin imkanlarından asılı olmadan, "kralın şöhrəti" naminə, həmişə

döyüşməyə hazır olduğunu bildirirdi. Belə bir şəraitdə Üçüncü müharibə - Doqquzillik müharibə (1688 - 1697) başladı, bu savaş hər iki tərəfi həddindən artıq tükəndirdi. Bu münaqişə, həm də Pfalts mirası uğrunda müharibə və ya Orlean müharibəsi kimi də tanınır.

6.6. Auqsburq Liqasının müharibəsi və ya Pfalts mirası uğrunda müharibə (1688-1697)

Auqsburq Liqasının yaradılması istər-istəməz onun Fransa ilə hərbi münaqişəsinə səbəb oldu. Onun mərkəzi Qərbi Almaniyada olan Pfalts dövləti oldu. 1685-ci ildə, onun Vittelsbax sülaləsindən olan kürfüstü II Karl vəfat etdi. Onun bacısı Lizelotta XIV Lüdovikin qardaşı Orlean hersoqu ilə evli idi. Evlilik müqaviləsi Lizelottanın torpaqlarından imtina etməsini nəzərdə tutsa da, XIV Lüdovik qardaşının adından Pfaltsın böyük bir hissəsinə iddia qaldırmaqdan çəkinmədi. Auqsburq Liqasında olan müttəfiqlər kürfüstlüyü sırada yaşca daha böyük olan Vittelsbax sülaləsinin pfaltsqrafı- Noyburqlu Filip Vilhelmə verilməsini tələb etdilər.

1688-ci ilin payızında fransız qoşunları Reyn əyalətinə hücum etdi, Kölnü və Pfaltsın Reyn çayına qədər olan xeyli böyük bir hissəsini işğal etdi. Çevik fransız hərbi dəstələri Ştutqarta və Auqsburqa qədər gedib çatdılar. Hərbi nazir Luvuanın komandanlığı altında olan fransız qoşunları Pfaltsı dağıdaraq, yanmış torpaq zolağı yaratdılar. XIV Lüdovikin hərbi əməliyyatları kiçik Alman dövlətləri arasında qorxuya səbəb olduğundan, onlar Auqsburq Liqasına qoşulmağa tələsdilər. 1689-cu il fevralın 14-də, müttəfiqlər Fransaya müharibə elan etdilər. Apreldə İspaniya, iyunda isə İngiltərə də Fransaya müharibə elan etdi.

Müharibənin ilk üç ilində hərbi əməliyyatlarda üstünlük Fransada oldu. 1689-cu il mayın 1-də, Bentri körfəzində (İrlandiyanın cənub-qərbində) fransız hərbi dəniz eskadrası İngiltərə-Hollandiya eskadrasını məğlub etdi. İspaniya Niderlandında, fransız ordusu qraf Fransua-Anri de Monmoransi Butvilin (Lüksemburq marşalı) komandanlığı ilə, 1690-cı il iyunun 1-də Fleryusda imperator ordusunu, elə həmin ilin avqustun 3-də Steenkerndə Oranlı Vilhelmin komandanlığı altında olan ingilis ordusunu məğlub etdi. Fransız marşalı Nikolya Katina Savoyanı zəbt etdi.

Qeyd: Savoya müasir Fransanın cənub-şərqində, Alp dağlarının ətəyində yerləşən tarixi bir bölgədir. Keçmişdə o, müstəqil hersoqluq olaraq mövcud idi Onun çiçəklənmə dövründə Nitsa, Genuya, Cenevrə və Pyemont əraziləri də onun torpaqlarına daxil idi.

1690-cı ildə İngiltərənin devrilmiş kralı II Yakov Stüart katolik İrlandiyasında üsyan qaldırdı (ilk Yakobit üsyanı). XIV Lüdovik öz tərəfdarlarına - yakobitlərə hərbi yardım edirdi. İrlandiyada baş verən üsyanı yatırmaq üçün göndərilən orduya

Oranlı Vilhelm rəhbərlik edirdi. 11 iyul 1690-cı ildə, yakobitlərin ordusu Boyn çayı yaxınlığında baş verən döyüşdə məğlub oldu.

1692-ci ilin ortalarında müttəfiqlər daha uğurlu fəaliyyət göstərməyə başladılar. 1 iyun 1692-ci ildə ingilis admiralı Edvard Rassel, La Hoq burunu sahillərində (Şerbur bölgəsi) gecə vaxtı baş vermiş dəniz döyüşündə Ann-İllarion de Turvilin komandanlığı altında olan fransız donanmasını çox hissəsini məhv etdi. Bu qələbə Fransanın Britaniya adalarına qoşun çıxarmasına mane oldu.

1695-ci ildə Oranlı Vilhelm, İspaniya Niderlandının strateji əhəmiyyətli Namur şəhərinə nəzarəti bərpa etdi. Buna cavab olaraq, yenə 1695-ci ildə marşal Lui Fransua de Bufflerin komandanlığı altında Fransa ordusu Brüsseli bombaladı və onun istehkamlarını tamamilə məhv etdi. Alman torpaqlarında fransız ordusu Heydelberq şəhərini aldı, lakin fransızlar burada öz uğurlarını davam etdirə bilmədilər.

İspaniyada hersoq de Vandomun komandanlığı altında olan fransız qoşunları Barselonanı ələ keçirə bildilər.

Pfalts varisliyi uğrunda gedən müharibə həm də müstəmləkələrdə - Şimali Amerika və Qərbi Hindistanda ilk ingilis-fransız müharibəsinin başlanmasına səbəb oldu. Məhz, XVII –XVIII əsrlərin qovşağında baş vermiş Pfalts və İspan mirasları uğrunda gedən müharibələr zamanı metropoliyaların (Fransa və İngiltərə) və onların xaricdəki mülklərinin vahid siyasi və iqtisadi məkanlar olduğu fikri formalaşdırılmağa başlandı. Bu da öz növbəsində Avropa və müstəmləkələrin müharibə meydanlarında sonrakı müharibələrin strateji hədəflərini formalaşdırmağa başladı. Bu müharibə, Avropada və ətraf dənizlərdə, Şimali Amerikada və Hindistanda keçdiyi üçün bəzən ilk qlobal müharibə hesab olunur.

Perspektivsiz müharibədən yorulan tərəflər danışıqlara başladılar. 29 avqust 1696-cı ildə, Turində (Şimali İtaliya) Savoyya ilə Fransa arasında separat sülh imzalandı. 30 sentyabr 1697-ci ildə, Fransa ilə Müqəddəs Roma İmperiyası arasında da sülh bağlandı və sülhün şərtlərinə görə, "status-kvo ante bellum" yəni, müharibədən əvvəl mövcud olan vəziyyət bərpa edildi.

30 oktyabr 1697-ci ildə, Reysveyk sarayında (Birləşmiş Əyalətlər Respublikası) imzalanmış Risvik sülhünə əsasən, Fransa Kataloniya, Hollandiya və Reyn çayının sol sahilinin bəzi ərazilərində əvvəllər istila etdiyi ispan və imperiya ərazilərindən imtina etdi. Fransa demək olar ki, bütün fəthləri geri qaytardı və Oranlı Vilhelmi İngiltərə, Şotlandiya və İrlandiyanın kralı kimi tanıdı. Müttəfiqlər, Strasburqun Fransada qalmasını tanıdılar. Lakin, Fransa şəhəri möhkəmləndirmək hüququ yox idi. Yeni dünyada, Fransa San- Dominqo adasını, Hindistanda - Pondişerri şəhərini Hollandiyaya fidyə ödəyərək aldı. Hollandiya isə, sərhədlərinin təhlükəsizliyini

təmin etmək üçün, İspaniya Niderlandında müdafiə qala sistemlərini bərpa etmək hüququ aldılar.

XIV Lüdovik, hərbisizləşdirilmiş Strasburqdan başqa Avropada heç bir ərazi əldə edə bilmədi, lakin Fransa sübut etdi ki, Avropanın birləşmiş qüvvələri ilə uğurla mübarizə apara bilir. Bu vəziyyət, Fransanın qitədə hegemonluğunun qurulmasının texniki imkanlarını sübut etdiyi üçün digər Avropa ölkələrində təşviş yaradırdı.

§2. Qərb ölkələrinin müstəmləkə siyasəti və dünya liderliyi uğrunda mübarizə

1. Ticarət və müstəmləkə inhisarının sonu
2. Çinin xarici aləm üçün "bağlanması"
3. Dünyanın müstəmləkəçi dövlətlər tərəfindən bölüşdürülməsi
4. Dəniz müharibələri

1. Ticarət və müstəmləkə inhisarının sonu

1588-ci ildə "Məğlubedilməz Armada"nın məğlubiyyəti İspaniya və Portuqaliyanın dənizlərdə hökmranlığını sarsıtdı (o zaman hər iki monarxiya nəsli birlik ilə bağlı idi). İngiltərə və Niderland rəqiblərinin zəifləməsindən istifadə edərək dünya ticarətinə nəzarət etməyə çalışırdılar. Qısa müddətdə bu dövlətlər aparıcı dəniz və müstəmləkəçi dövlətlər mövqeyinə nail olaraq, ispanları və portuqalları qətiyyətlə bu yoldan kənarlaşdırdılar. İngilislərin və hollandların uğuru onların başqa xalqlar üzərində təkcə hərbi-texniki deyil, həm də ictimai-siyasi mümasibətlərdə üstünlüyə malik olması ilə bağlı idi.

Əksər Avropa ölkələrində biznes iqtisadiyyatı hələ geniş şəkildə inkişaf etməmişdi və dövlət orqanları onun ehtiyaclarını bir o qədər nəzərə almırdılar. Pireney yarımadası ölkələrinin iqtisadiyyatı və siyasəti ümumiyyətlə durğunluq içində idi. Bunun səbəbi, onda idi ki, bu dövlətlərin hakim dairələri siyasi və ideoloji ilğımlar dalınca qaçaraq, ticarət və müstəmləkə inhisarının onlara gətirdiyi sərvətləri havaya sovururdular. Əksinə, Avropanın şimal-qərb ölkələrində bu dövrdə həyatın bütün sahələrinin dərindən yenilənməsi müşahidə olunurdu. Niderland, XVI əsrin sonu - XVII əsrin birinci yarısında baş vermiş azadlıq mübarizəsi nəticəsində tam müstəqil dövlətə çevrildi. Onun hökuməti dəniz nəqliyyatını təşviq etməyə yönəlmiş siyasət yeridərək, ölkəni dünya ticarətinin və dünya maliyyəsinin ən böyük mərkəzinə çevirdi.

Niderlandda 1602-ci ildə Ost-Hind şirkəti yaradıldı və ona 21 il müddətinə Xoş Ümid Burnundan Magellan boğazına qədər olan naviqasiya və imtiyaz qaydasında ticarət etmək üçün istismar hüququ verildi. Bir il sonra bu şirkət Yavada faktoriya yaratdı. 1619-cu ildə isə adanın əsas şəhəri olan Cakartanı tutub dağıtdı. Onun

yerində Şərqdə holland torpaqlarının gələcək mərkəzi olan Bataviyanın əsasını qoydu. Hollandlar tədricən portuqaliyalıları cənub dənizlərindən qovdular. Çin və Yaponiya ilə bütün ticarəti ələ keçirdilər və Hindistanda .ingilisləri sıxışdırıb, möhkəmlənmək istədilər. Niderland Şərqdə müstəmləkəçilik qüdrətinin zirvəsinə çatdı. 1648-ci il Vetfal sülhünə görə, əvvəllər İspaniya ilə Portuqaliyanın dünya ağalığı uğrunda təsir dairəsini ayıran sərhəd xətti artıq İspaniya ilə Hollandiya arasından keçirdi.

Hollandlar Afrikada qısa müddətə Anqolanı və San-Tome adasını aldı, 1652-ci ildə isə Xoş Ümid burnunda ilk müstəmləkələrini yaratdılar. Vest-Hind şirkətini yaratdıqdan sonra isə Hollandiya Qərb yarımkürəsinə nüfuz etməyə başladı. Cənubi Amerikada Braziliyanın bir hissəsini tutsa da, 1654-cü ildə onu buraxmağa məcbur oldu. Ancaq, onlar Surinamı və Karib dənizində Kyurasao adasını ələ keçirdilər. 1626-cı ildə holland müstəmləkəçiləri Şimali Amerika sahilində Yeni Amsterdam (indiki Nyu-York) yaşayış məskənini yaratdılar. İngilislərlə mübarizə girərək, Yeni Hollandiya adlanan bu məskənə bitişik ərazini də öz təsirləri altında saxlamağa səy göstərdilər.

İngiltərədə baş vermiş 1640-1653 və 1688-ci il inqilabları sahibkarlıq iqtisadiyyatının inkişafını, eləcə də ticarətin və yeni müstəmləkələrin istilası siyasətinin genişlənməsini təşviq edən ictimai qüvvələr üçün hakimiyyətə gedən yolu təmizlədi.

1664-cü ildə ingilislər holland torpaqlarını işğal etdilər. Üçillik ingilis-holland dəniz müharibələrində hollandların ağalığına son qoyuldu. XVIII əsrin əvvəlində, Niderland böyük ticarət aparan dəniz dövlətindən, dünyanın dənizlə yük daşıyanından və bankirindən ikinci dərəcəli dövlətə çevrildi. Lakin, Şimali Amerika torpaqlarından başqa, demək olar ki, bütün müstəmləkə torpaqlarını öz əlində saxlaya bildi.

XVI-XVII əsrlərin qovşağında, bir çox ölkələrin dənizçiləri və tacirləri Şərqin və Qərbin arzu etdikləri ölkələrinə daxil olmaq üçün, əvvəllər ispanların və portuqalların ağalıq etdiyi dəniz yollarından istifadə etməyə başladılar. Bütün ölkələrin gəmilərinin Dünya okeanının sularında sərbəst üzmək hüququnu əsaslandıran holland hüquqşünası Huqo Qrotsi 1609-cu ildə "açıq dəniz" prinsipini irəli sürdü və nəticədə, bu məsələ beynəlxalq dəniz hüququnun əsasını təşkil etdi. Dənizlərdə başqa ölkələrin istilalarının qarşısını almağa aciz qalan İspaniya və Portuqaliya onlara dözmək məcburiyyətində qaldılar. Əslində, bu ölkələr tam bir əsr ərzində qoruduqları ticarət və müstəmləkə inhisarını itirdilər. Amerikada, Asiyada, Afrikada müxtəlif Avropa dövlətlərinin, o cümlədən İsveç, Danimarka, Brandenburq və digər ölkələrin müstəmləkələri yarandı.

Belə ki, 1627-ci ildə İsveçdə Cənubi dənizlər şirkəti və Amerika ilə ticarət şirkəti yaradıldı. Onlara bu hallarda tələb olunan bütün imtiyazlar verildi. 1638-ci ildə, Şimali Amerikada olan Delaver çayının mənsəbində, Yeni İsveç müstəmləkəsi və 1649-cu ildə Qərbi Afrikada ticarət faktoriyası (məntəqəsi) yaradıldı. Lakin, isveçlilər tezliklə hər iki xarici mülklərini itirdilər: əvvəlcə onlar hollandlar tərəfindən zəbt edildilər, sonra isə bu ərazilər ingilislərin əlinə keçdi. Buna baxmayaraq, isveçlilər müstəmləkələr əldə edərək, böyük mənfəət qazanmaq arzusundan əl çəkmədilər. 1731-ci ildə İsveçdə, Cənubi və Şərqi Asiya ölkələri ilə ticarət etmək üçün inhisarçı Ost -Hind şirkəti yaradıldı. Bu şirkət, Avropaya çay, çini, ipək və pambıq parçalarının idxalı ilə məşğul olurdu.

Hətta, XVI əsrin ortalarında Livoniyanın dağılması nəticəsində yaranmış, ərazisi və ehtiyat mənbələri baxımından xeyli kiçik olan Kurlyandiya hersoqluğu belə, Amerikanın sərvətindən bəzi qırıntılar qopararaq, Karib adalarında öz müstəmləkələrini qurmağa çalışdılar. Bununla belə, İspaniya-Portuqaliya müstəmləkə inhisarının dağılmasından ən çox faydalananlar sürətlə güclənən üç dövlət - İngiltərə, Hollandiya və Fransa oldu.

2.Çinin xarici aləm üçün "bağlanması"

Müstəmləkəçilərin “İkinci mərhələ”sinin iştirakçıları öz sələflərinin – ispanların və portuqalların müstəmləkə fəaliyyətinin nəticələri və yekunları ilə hesablaşmalı olurdular. Onların başqa xalqlar üzərində hökmranlıq etmək üçün can atmaları əks təsirə səbəb olurdu. İngiltərə, Hollandiya və Fransa gəmiləri Çin və Yaponiya sahillərində peyda olanda, bu ölkələrin hökumətləri xaricilərin onların daxili işlərinə müdaxilələrindən qorxaraq, xarici dünya ilə əlaqələri məhdudlaşdırmaq siyasətinə keçdilər.

Belə bir siyasəti kifayət qədər ardıcıl şəkildə həyata keçirən Yaponiya hakimiyyət orqanları idi. XVII əsrin birinci yarısında, əvvəlcə xristian missionerlərin fəaliyyətini, sonra isə, ümumiyyətlə əcnəbilərin ölkəyə gəlməsini qadağan etdilər. Lakin, yaponlar bu qadağaları istisna olaraq hollandlar və çinlilərə aid etməyərək, onların gəmilərinin xarici ticarət üçün açıq olan yeganə limana daxil olmasına icazə verirdilər.

Çin isə əksinə, Yaponiyadan əvvəl xaricilərlə dəniz ticarətinə məhdudiyyətlər qoysa da, XVII əsrdə avropalılar üçün bəzi güzəştlər etdi. Sin sülaləsindən olan imperatorlar, Çin daxilində öz hakimiyyətlərinin əleyhdarlarına qarşı mübarizədə tez-tez avropalıların köməyinə müraciət edirdi. Bu köməyə görə, onlara müxtəlif güzəştlər və imtiyazlar verirdi. Katolik missionerləri Sin hökumətinin məsləhətçiləri kimi xidmət edirdilər. Avropalı tacirlərə dəniz sahilinin müxtəlif limanlarında ticarət etməyə icazə verilirdi: ingilislərə Quançjouda, fransızlara Ninboda və portuqallara

Makaoda. İngiltərə və Hollandiya Ost- Hind şirkətləri bahalı Çin sənətkarlıq məhsullarının, bəzək əşyaların və s. Avropaya ixrac edilməsində xüsusi fəallıq göstərirdilər. Sin hakimiyyətinin lütfkarlığından istifadə edən Qərbi Avropanın müxtəlif ölkələri, o cümlədən Portuqaliya və Fransa Çin ilə diplomatik əlaqələr qurmağa çalışırdılar. Lakin bütün cəhdlərinə baxmayaraq, səfirliklərini qəbul edilməsi xahişlərinə həmişə rədd cavabı verilirdi.

Rusiya hökuməti də dəfələrlə Pekinə səfirliklər göndərdi, lakin Sin hakimiyyəti onları da qəbul etmədi. Bu arada, rus səyyahlarının səyləri ilə, XVII əsrdə Rusiya dövlətinin tərkibinə, Transbaykal da daxil olmaqla, Şərqi Sibirin geniş əraziləri birləşdirildi. Onların ərazisi Amur çayının orta axarına çataraq, mancur torpaqlarına yaxınlaşdılar. Rusiya ilə Çin arasında ümumi sərhəd məsələsində aydınlığın olmaması və ümumilikdə onların münasibətlərinin qeyri-müəyyənliyi bu sərhədyanı ərazilərdə narazılıq və münaqişə mənbəyi rolunu oynayırdı. Bu münaqişələrdən birində, faktiki olaraq Mancur qoşunları tərəfindən mühasirəyə alınmış Nerçinsk şəhəri yaxınlığında, hər iki dövlətin diplomatik nümayəndələri arasında danışıqlar aparıldı. Nəticədə, 1689-cu il avqustun 27-də, Nerçinskidə Rusiya-Çin münasibətləri tarixində ilk müqavilə bağlandı.

Bu, ümumiyyətlə, çinlilərin Avropa dövləti ilə bağladığı ilk müqavilə idi. Rusiya Transbaykaldakı mübahisəli torpaqların bir hissəsini Çinə verməli oldu. Lakin, çoxsaylı qeyri-dəqiqliklər, uyğunsuzluqlar və qeyd-şərtlər səbəbindən müqavilədə Rusiya-Çin sərhədi təxmini müəyyən edildi. Eyni zamanda, qarşılıqlı ticarət və diplomatik nümayəndələrin qəbulu qaydaları müəyyən edildi. 1727-ci il oktyabrın 21-də bağlanmış Kyaxta müqaviləsi iki ölkə arasında mehriban qonşuluq münasibətlərinin möhkəmlənməsinə töhfə verdi. Belə ki, o vaxt üçün Sin Çininin nəzarətinə keçən Monqolustan torpaqları ilə Rusiya arasında sərhədlər müəyyənləşdirildi, rüsumsuz sərhəd ticarətinə icazə verildi və rus tacirlərinə ticarət karvanını üç ildə bir dəfə Pekinə göndərmək hüququ verildi. Həmçinin, Sin paytaxtında rus dini missiyasının statusunu müəyyənləşdirdi. 1731-1732-ci illərdə Rusiyaya ilk dəfə Çin səfirliyi səfər etmişdir. Ümumiyyətlə, bu elçilik, Çinin Avropa ölkəsinə göndərdiyi ilk səfirlik olubdur.

Çində öz hakimiyyətini möhkəmləndirən mancurlar fəal xarici işğalçılıq siyasətinə başladılar. Onlar, Sin imperiyasının sərhədlərini genişləndirməyə və ona yeni ərazilər birləşdirməyə başladılar. XVIII əsrin ortalarında, onlar Daxili və Xarici Monqolustanı, Tibeti, Cunqariyanı və Kaşqariyanı fəth etməyə nail oldular. Şimal-şərqdə Mancur mülkləri, ən azı nominal olaraq, Oxot dənizinin sahillərinə qədər uzanırdı. Hind-Çin yarımadasının bəzi xalqları Mancur imperatorlarının xərac verənlərinə çevrildilər. Sin İmperiyası təkcə Şərqi Asiyada deyil, bütün Asiya şərqində ən böyük və ən güclü dövlətə çevrildi. Onun hökmdarları özlərini dünya

hökmdarı kimi hiss edirdilər. Çin hökmdarlarının öz əzəmətlərindən qaynaqlanan təkəbbürləri onların bütün xarici siyasətinə təsir edirdi.

Avropalılara etibar etməyən mancurlar, onları təkəbbürlə "barbar"lar adlandıraraq, avropalıların xidmətlərinə ehtiyacları olmadıqlarını bildirirdilər. Fərdi şəxslərin Çinə səfəri qadağan edildi, tacirlər və diplomatların səfərləri də ciddi məhdudlaşdırıldı. Hətta, monqol çöllərində Rusiya ilə karvan ticarəti, minimuma endirildi. Uzun müddət ərzində Avropa ticarəti üçün açıq olan Makao limanına 1725-ci ildən sonra bir il ərzində 25-dən çox xarici gəmi girə bilməzdi. 1757-ci ildə Quançjoudan başqa, bütün Çin limanlarında xarici ticarət qadağan edildi. Çinli tacirlərə də uzun səyahətə çıxmaq, ölüm hökmü verilməsi təhdidi ilə, qadağan edildi. Bundan əlavə, avropalılara Çin şəhərlərində məskunlaşmasına və Çin dilini öyrənməsinə icazə verilmirdi. Əcnəbilərə bu qadağanı pozmağa kömək edən imperator təbəələri ölüm cəzasına məhkum edilirdi. Nəhayət, 1787-ci ildə avropalılara hətta, Çin sahillərindəki adalarda məskunlaşmaq qadağan edildi. Bununla da, Çin tamamilə və uzun müddətə xarici dünya üçün "bağlandı".

3.Dünyanın müstəmləkəçi dövlətlər tərəfindən bölüşdürülməsi

Asiya, Amerika və ya Afrikadakı müstəmləkə ticarəti və dəniz nəqliyyatı baxımından ən mühüm ərazilər ilk əvvəldən ispanların və portuqalların müstəmləkələrnə çevrilmişdi və ingilislər, hollandlar və fransızlar bu vəziyyətlə barışmalı olurdular. Onlar, dəfələrlə ispan və portuqalların tutduqları ayrı-ayrı adaları, dənizlərin və okeanların sahillərinin bəzi sahələrini zorla almağa çalışmışdılar. Bu mübahisəli ərazilərin daimi sahibi olana qədər müstəmləkəçilər bir-birilərini tez-tez əvəz edirdilər. Lakin, bir çox yerlərdə ispanlar və portuqallar yüz illik hökmranlıqları ərzində, məsələn, Mərkəzi və Cənubi Amerikada, Hindustanın Malabar sahillərində o qədər dərin kök salmışdılar ki, onları oradan zorla çıxarmaq uzun müddət mümkün olmadı. Ona görə də, ilk əvvəl başqa ölkələrdən olan müstəmləkəçilər ispanların və portuqalların bir vaxtlar diqqət yetirmədikləri və ya sadəcə etinasızlıq göstərdikləri yerlərlə kifayətlənmək məcburiyyətində qaldılar.

XVII əsrin əvvəllərində, Amerikadakı İspaniya və Portuqaliya müstəmləkələri cənubdan şimala La Platadan Meksika körfəzinə və Rio Qrandaya qədər uzanırdı. Beləliklə, Şimali Amerikanın Atlantik sahilləri Floridadan Arktika dənizlərinə qədər müstəmləkələşdirilmə üçün açıq qalırdı. Müxtəlif ölkələrdən çoxsaylı dəniz ekspedisiyaları oraya gedərək, Avropadan Şimali Amerikaya dəniz yolunun keçdiyi Vest-Hind adalarını ələ keçirməyə çalışırdılar.

XVII əsrin əvvəllərində, ilk ingilis müstəmləkələri Şimali Amerikada (1607-ci ildə Virciniya, 1620-ci ildə Yeni İngiltərə və s.), Karib dənizi adalarında (1623-cü ildə Sent-Kits, 1625-ci ildə Barbados) yaranmışdı. Hollandiyalılar ingilislərdən geri

qalmırdılar. Onlar 1624-cü ildə, Şimali Amerikada bir neçə müstəmləkə, o cümlədən Yeni Hollandiya müstəmləkəsini yaratdılar. Hollandlar Hudzon çayının Atlantik okeanına qovuşduğu yerdə Yeni Amsterdam şəhərinin əsasını qoydular. 1664-cü ildə İngiltərə-Hollandiya müharibələrinin birində bu şəhər ingilislərin əlinə keçdi və sonradan hollandlar tərəfindən geri alınsa da, 1674-cü ildə iki ölkə arasında bağlanmış sülh müqaviləsinə əsasən, nəhayət ingilislərin ixtiyarına verildi. İngilislər bu şəhərin adını Nyu York qoydular.

Fransızlar, 1608-ci ildə Müqəddəs Lavrenti çayının mənsəbində, uzun illər ərzində Şimali Amerikada onların təsir dairəsinin əsas dayağına çevrilən Kvebek şəhərinin əsasını qoydular. Bu şəhər Yeni Fransa (digər formada- Kanada) adlı müstəmləkənin əsasını qoydu. XVII əsrin birinci yarısında, fransız müstəmləkələri Cənubi Amerikada (Kayen), Atlantik okeanı və Vest-Hind adalarında —Nyufaundlend (Yeni torpaq), Martinika, Qvadelupa, Afrikada isə Seneqalda yaranmışdır. XVII əsrin sonlarında, fransızlar Espanyola (Haiti) adasının qərb hissəsini ələ keçirdilər.

Tədricən Şimali Amerikada, kiçik Avropa dövlətlərinin mülkləri ingilislər və fransızlar tərəfindən ələ keçirildi. XVIII əsrin əvvəlləri üçün ingilislər Nyufaundlend adasından Florida yarımadasına qədər Amerikanın bütün şimal-şərq sahillərini öz müstəmləkəsinə çevirə bildilər. Fransızlar Müqəddəs Lavrenti çayının vadisini, Böyük Amerika gölləri bölgəsini, habelə Missisipi çayı boyunca, onun Meksika körfəzi ilə birləşməsinə qədər olan torpaqları ələ keçirdilər. XVIII əsrin əvvəllərində, burada, artıq Yeni Orlean şəhərinin əsasını qoydular. Nəticədə, Fransanın Müqəddəs Lavrenti körfəzindən Meksika körfəzinə qədər uzanan müstəmləkələrinin bütöv bir zolağı (Kanada, Luiziana) Atlantik okeanının sahillərində məskən salmış ingilis müstəmləkələrini qövs şəklində mühasirəyə alaraq, onların qitənin qərbinə və daxili ərazilərinə irəliləyərək daha da genişlənməsinə mane olurdular.

Avropalı müstəmləkəçilər üçün daha çox cəlbedici ərazilər Hindistan, ümumiyyətlə, Cənubi və Şərqi Asiya ölkələri idi. 1602-ci ildə əsası qoyulan Hollandiya Ost-Hind şirkəti orada geniş fəaliyyətə başladı. O, dərhal Hindistanın bir sıra şəhərlərində öz ticarət məntəqələrini (faktoriyalar) qurdu, onlar yerli istehsal mallarını təkcə Avropada deyil, digər Asiya ölkələrində də satmaq üçün alırdılar. Tədricən hollandlar portuqalların Cənubi və Cənub-Şərqi Asiyada, o cümlədən Seylon adasında (1640) olan mülklərinin əhəmiyyətli hissəsini onların əlindən aldılar. Onlar Avropadan Asiyaya gedən dəniz yoluna nəzarəti ələ keçirərək, Afrikanın cənubunda onun ən "dar keçid"ndə Kap müstəmləkəsini (1652) yaratdılar.

1600-cü ildə Hollandiya şirkətindən bir az əvvəl qurulan İngilis Ost-Hind şirkətinin inkişafı daha çətin getdi. Hindistanda apardıqları fəaliyyətinin ilk illərində o, holland rəqiblərindən nəzərə çarpacaq dərəcədə geri qalırdı. Lakin, artıq 1615-ci

ildə, Böyük Moğollar ingilis şirkətinə bütün mülklərində ticarət etmək hüququ verdilər. Daha sonra onun ticarət məntəqələri Koromandel sahilində peyda oldu. Burada XVII əsrin ortalarında, şirkət yerli racadan torpaq icarəyə götürərək, burada Müqəddəs Corc (Sen-Corc) qalasını tikdilər. Bu qalanın ətrafında tezliklə Mədrəs şəhəri yarandı və bu şəhər uzun illər Hindistanda ingilislərin işgüzar fəaliyyətinin mərkəzinə çevrildi. 1690-cı ildə ingilislər yerli hökmdardan satın alınan üç kəndin yerində Kəlküttə şəhərinin əsasını qoydular. İngilis ticarət şirkəti öz fəaliyyətini qərbə, Malabar sahillərinə qədər genişləndirdi. Tədricən Bombey (indiki Mumbay) şəhəri onun dayaq məntəqəsinə çevrildi. İngiltərə dövləti bu şəhəri ingilis kralı II Karl ilə evlənən portuqaliyalı şahzadə üçün cehiz kimi almışdı.

Digər Avropa ölkələri də Hindistana maraq göstərirdilər. 1616-cı ildə Danimarkada Ost-Hind şirkəti yaradıldı və onlar tezliklə Hindistanda öz faktoriyasını yaratdılar. Lakin, müstəmləkə ticarətində danimarkalıların rolu əhəmiyyətsiz olmuşdur. Hindistana öz əsas rəqiblərindən daha gec gələn fransızlar olmuşdu. Fransız Ost-Hind şirkəti yalnız 1664-cü ildə yaradıldı. O, Cənubi Hindistanda və Benqaliyada öz ticarət məntəqələrini qurdu. Hindistanda fransız müstəmləkə mülklərinin mərkəzi Mədrəsın cənubunda yerləşən Pondişeri (indiki Putquççeri) şəhəri idi.

İngilislərin, hollandların və fransızların müstəmləkəçilik siyasətinin üsulları oxşar idi. Onların əsas müstəmləkə aləti inhisarçı şirkətlər idi ki, öz ölkələrinin hökumətləri onlara ticarət, gəmiçilik, qalalar tikmək, öz ordusunu və donanmasını saxlamaq, digər müstəmləkələri zəbt etmək və idarə etmək, sikkə zərb etmək və s. üçün müstəsna hüquqlar verirdilər. Onlar təkcə ticarətlə deyil, həm də yerli tacirlərə məxsus malların daşınması ilə də məşğul olurdular.

4.Dəniz müharibələri

İlk vaxtlar, Hollandiya və İngiltərə Ost-Hind şirkətləri arasında ciddi bir narazılıqlar yox idi. Belə hesab olunurdu ki, Şərqdə müxtəlif ölkələrdən gələn tacirlər üçün kifayət qədər yer mövcuddur. Onların hər ikisi, hesab edirdilər ki, tutduqları ərazidən qovulmalı olan əsas rəqibləri portuqalliyalıdırlar. Bununla belə, artıq XVII əsrin birinci rübündə, hollandlar və ingilislər Cənub-Şərqi Asiyada Arxipelaq adlanan adalar üzərində hökmranlıq uğrunda barışmaz döyüşdə bir araya gəldilər. Hal-hazırda bu adaların böyük hissəsi İndoneziya dövlətinin tərkibindədir. Bu adalar, lap qədim dövrlərdən avropalı müstəmləkəçilərin diqqətini cəlb etmişdi. Çünki orada yetişdirilən ədviyyatlar keyfiyyətinə görə ən yaxşı məhsul hesab olunurdu.

Ədviyyat adaları adlanan Molukkada yetişdirilən ədviyyatlar xüsusilə ilə məşhur idi. Magellan ekspedisiyasının səyahətindən sonra ispanlar və portuqallar onlara

sahib olmaq hüququ uğrunda mübarizə aparırdılar. Lakin, 1534-cü ildə ispanlar Molukkanı tərk etdilər və ingilislər üfüqdə görünənə qədər bir müddət portuqallar özlərini oranın tam sahibi kimi hiss etdilər. 1591-ci ildə, ilk ingilis ticarət ekspedisiyası Arxipelaqa yola düşdü. Ancaq ingilislər yeni yerdə məskunlaşmağa vaxt tapmamış, 1596-cı ildə ilk holland gəmiləri Arxipelaqa gəldi. 1598-ci ildə Hollandiyadan daha 5 ekspedisiya bu adalara gəldi.

1604-cü ildə, Hollandiya və İngiltərə Ost-Hind şirkətləri arasında Molukka ədviyyatı ticarəti ilə bağlı toqquşmalar baş verdi. Onların rəqabəti Ambon qırğını ilə nəticələndi. 1623-cü ilin fevralında, Ambon adasında ticarət məntəqəsində işləyən ingilislər hollandlar tərəfindən əsir götürüldü və onların əksəriyyəti edam edildi. Bu vasitə ilə hollandlar ingilisləri əvvəlcə Ambondan, sonra isə Arxipelaqın digər adalarından geri çəkilməyə məcbur etdilər, nəticədə tədricən burada bölünməz hökmranlığa nail oldular.

Bu toqquşmalar XVII əsrin ikinci yarısında, İngiltərə ilə Hollandiya arasında müstəmləkəçilik rəqabətinin kəskin şəkildə artması üçün ilkin şərt oldu. 1651-ci ildə İngiltərə Parlamenti Naviqasiya aktı adlanan qanun qəbul etdi, bu qanuna əsasən, xarici mallar İngiltərəyə yalnız ingilis bayrağı altında və ya ixrac edən ölkənin bayrağı altında olan gəmilərdə gətirilə bilərdi. Bu qanun, o dövrdə dənizlərdə öz gəmiləri ilə əsas mal daşıyıcısı olan Hollandiyaya ciddi zərbə vurdu. Nəticədə, İngiltərə və Hollandiya arasında silsilə ticarət (və ya dəniz) müharibələrinin birinci toqquşması baş verdi.

Fransa bu müharibələrdə ardıcıl olaraq bu və ya digər tərəfə kömək edirdi, çünki o, bu dövlətlərin hər ikisinin dəniz və ticarət gücünü zəiflətməkdə maraqlı idi. İngiltərədə kral kakimiyyəti bərpa olunandan sonra, II Karl Stüart hakimiyyətə gələndə, Fransa öz maraqları naminə onu dəstəklədi. 1662-ci ilin oktyabrında, Fransa, İngiltərənin Avropa qitəsində yerləşən son mülkünü, Dünkerk şəhərini 5 milyon livr müqabilində satın aldı. Bu addım, 1662-ci ildə Fransanın Hollandiya ilə müdafiə və hücum ittifaqı haqqında müqavilə imzalamasına mane olmadı. Bir neçə il sonra, 1670-ci il iyunun 1-də, Hollandiyaya qarşı müharibəyə hazırlaşan XIV Lüdovik, İngiltərə ilə Duvr müqaviləsini imzaladı. Bu müqaviləyə əsasən ingilis kralı 2 milyon livr maliyyə vəsaiti müqabilində Fransaya kömək üçün 6000 əsgər və 50 döyüş gəmisi verməyi öhdəsinə götürürdü.

XVII əsrin sonlarında, hər iki "dəniz dövlətinin" Fransa ilə müstəmləkə və ticarət ziddiyyətləri ön plana çıxdı. Çünki, Fransa, XIV Lüdovikin dövründə öz dəniz və müstəmləkə gücünü nəzərəçarpacaq dərəcədə artırmışdı. Dünyanın müxtəlif əraziləri ilə ticarət etmək üçün çoxsaylı iri inhisarçı şirkətlər yarandı. Fransanın müstəmləkələr əldə etmək və ticarət hüququ qazanmaq üçün işğalçı iddiaları, İngiltərə və Hollandiyanı öz müstəmləkə və dəniz maraqlarını qorumaq üçün

birləşməyə məcbur etdi. 1688-1689-cu illərin "Şanlı inqilabı" nəticəsində, Oranlı Vilhelm İngiltərə kralı seçildi.

Bununla da, o dövrün iki ən böyük dəniz dövlətinin - İngiltərə və Hollandiyanın nəsli-sülalə birliyi yarandı. Onlar öz vəzifələrini ilk növbədə, Avropa qitəsində və müstəmləkə dünyasında XIV Lüdovikin təcavüzkar planlarının həyata keçirilməsinin qarşısını almaqda görürdülər.

İKİNCİ FƏSİL
XVII ƏSRDƏ BEYNƏLXALQ VƏZİYYƏT

II BÖLMƏ
Beynəlxalq münasibətlərin yeni dövründə burjua inqilabları

§1.Niderland burjua inqilabı (80 illik müharibə) və beynəlxalq vəziyyət (1568 -1648)

1.Niderlandın siyasi quruluşu və iqtisadi inkişafı

2.Niderlandda Reformasiya

3. Azadlıq hərəkatının başlanması

4. Hersoq Albanın irticası

5. Azadlıq hərəkatının II mərhələsi

6. Azadlıq hərəkatının üçüncü mərhələsi. Şimali Niderlandın müstəqillik uğrunda müharibəsi

§2. İngiltərə Burjua inqilabı və diplomatik münasibətlər (1640-1689)

1.İngiltərə Burjua inqilabı

1.1.İnqilabın başlanması

1.2.İnqilabın birinci mərhələsi

1.3.İnqilabın ikinci mərhələsi

2.Burjua inqilabı dövründə İngiltərənin diplomatiyası

2.1."Uzunmüddətli Parlament"in diplomatiyası

2.2.Oliver Kromvelin diplomatiyası

3.Şanlı inqilab

§1. Niderland burjua inqilabı (80 illik müharibə) və beynəlxalq vəziyyət (1568 -1648)

1.Niderlandın (Hollandiya) siyasi quruluşu və iqtisadi inkişafı
2.Niderlandda Reformasiya
3. Azadlıq hərəkatının başlanması
4. Hersoq Albanın irticası
5. Azadlıq hərəkatının II mərhələsi
6. Azadlıq hərəkatının üçüncü mərhələsi. Şimali Niderlandın müstəqillik uğrunda müharibəsi

1.Niderlandın (Hollandiya) siyasi quruluşu və iqtisadi inkişafı

Niderland Qərbi Avropada Şimal dənizinin sahilində yerləşir. Niderland əhalisi dəniz sahilində və bəzən isə dənizdə bəndlər çəkərək, dənizi qurudur və qurudulmuş ərazilərdə təsərrüfat sahələri yaradır, kənd və şəhərlər salırdılar.

Niderlanda tez-tez "Hollandiya"deyilir, çünki tarix boyu Cənubi və Şimali Hollandiya əyalətləri daha çox inkişaf etdiyindən, Niderlanddan kənarda daha yaxşı onları tanıyırdılar. Bu səbəbdən, bir çox başqa dövlətlərdə bütün ölkə tez-tez Hollandiya olaraq adlandırılırdı.

2020-ci il yanvarın 1-dən Niderlandın rəsmi qurumları, şirkətləri, mediası və universitetləri öz ölkələrini “Hollandiya” adlandırılmasından imtina edərək, yalnız “Niderland” adından istifadə etməyə başlayıblar.

Hərfi tərcümədə " Niderland " adı " çökək torpaqlar" deməkdir. Orta əsrlərin sonunda Reyn, Maas, Şelda çaylarının aşağı axarında, Şimal dənizinin sahili boyunca yerləşən ərazi "Dəniz sahili çökək torpaqlar" və ya " Çökək ölkə" kimi tanınmağa başlanmışdı. “Hollandiya” adının istifadəsinə dair ilk rəsmi qeyd XIV-XV əsrlərə aiddir.

Burqund hersoqu Cəsur Karlın 1477-ci ildə ölümündən sonra onun qızı və yeganə varisi Mariya gənc Maksimilian Habsburqa ərə gedir. Burqund – Niderland torpaqları bu sülalənin mülkünə çevrilir. Maksimilianın nəvəsi, imperator V Karl Reynin aşağı axarlarındakı şimal torpaqları Niderland mülklərinə birləşdirmək hesabına genişləndirir. 1549-cu ildə verilən qərarla 17 əyalətdən ibarət bu torpaqlar xüsusi Habsburq dairəsinə çevrilir və onu bölmək qadağan olunurdu. O, imperiyanın tərkibinə daxil idi, xüsusi imperiya vergisi verirdi və faktiki öz həyatı ilə yaşayırdı.

Niderlandın ərazisinə, o zaman müasir Belçika, Niderland, Lüksemburq və qismən də Şimali Fransanın torpaqları daxil idi. Dairənin tərkibinə cənubda – Flandriya, Brabant, Henneqau, Artua, Namyura, Lüksemburq, Limburq və b., şimalda – Hollandiya, Zelandiya, Utrext, Frislandiya və b., daxil idi. Niderlanda

həmçinin böyük Lyöj yepiskopluğu da aid idi, o, dini knyazlıq kimi muxtariyyata malik idi. Habsburq dairəsi cəmi 30 il mövcud oldu, 1579-cu ildə o, iki hissəyə: şimal və cənub əyalətlərinə bölündü.

Niderland imperatorun, daha sonra ispan kralının canişini – Baş ştathalder tərəfindən idarə edilirdi. Yerli əyanlardan Dövlət Şurası təşkil olunmuşdu. Şura təhlükəsizlik məsələləri, ordunun vəziyyəti, mərkəzlə əyalətlər arasında mübahisələri həll edirdi. Maliyyə Şurası vergi yığımına və pul zərbinə baxırdı. Gizli Şura isə qanunlar və qərarlar hazırlayırdı. Bu şurada adətən kral məmurları çalışırdı. Yerlərdəki idarəçilik orqanları – ştathalderlər Baş ştathalderə tabe idi. Mərkəzləşdirilmiş dövlət aparatı ilə yanaşı, yerli özünüidarəçilik orqanları: Baş ştatlar və əyalət ştatları da saxlanmışdı. Şəhərlər də müəyyən müxtar hüquqlara mənsub idilər.

XVI əsrin əvvəllərinə doğru Niderland Avropanın təsərrüfat baxımından ən inkişaf etmiş ölkələrindən idi. Əhalinin sayı 2 milyona çatırdı, Niderlandda 300-dək şəhər, 6500 kənd var idi. Ən iri şəhər və liman Antverpen idi. Əsrin əvvəllərində o, dünya bazarı, ticarət və maliyyə işinin mühüm mərkəzi kimi fəaliyyət göstərirdi. Bu limana Amerikadan, Hindistandan, Cənubi-Şərqi Asiyadan mallar gətirilir və Avropanın digər ölkələrinə onun vasitəsilə çatdırılırdı. Məhz xarici kapital Antverpenin iqtisadi yüksəlişini təmin etmişdi. XVI əsrdə Antverpendə və d. şəhərlərdə manufaktoriyalar da yaranır. Antverpen Avropanın ən aparıcı kitab çapı mərkəzinə çevrilir.

Niderlandın ən inkişaf etmiş əyalətləri cənubda – Flandriya və Brabant, şimalda – Hollandiya və Zelandiya idi.

XVI əsrin ortalarına doğru Niderlandda illik istehsalın həcminin təxminən 100 milyon quldeni Habsburqların hərbi xərclərinə sərf olunurdu. İmperatora ödənilən vergilər ölkə üçün ağır yük idi, imperatorun siyasəti isə ölkədəki vəziyyəti daha da gərginləşdirirdi.

Niderlandda Reformasiyanın ilkin şərtləri, Avropanın digər ölkələrində olduğu kimi, sosial-iqtisadi, siyasi, mədəni dəyişikliklərin cəhalətlə çulğaşması ilə səciyyələnirdi. Reformasiya ideyalarının yayılmasında isə, hökumətin apardığı siyasətə qarşı çıxan müxalif qüvvələr əsas rol oynayır.

V Karl öz hakimiyyətinin sonunda bir sıra mürtəce tədbirlər həyata keçirdi: bürokratik aparat gücləndirilirdi, ölkənin ehtiyat mənbələri ona lazım olmayan sülalə müharibələrinə xərclənirdi. 1521-ci ildən qəddar sərəncamlar verilməyə başlandı.

II Filipin siyasəti daha da mürtəce idi. Mövhumatçı Filip Niderlandda ispan mütləqiyyəti sistemini bərqərar etmək istəyirdi. Bu məqsədlə hökumət bir sıra sərt tədbirlər həyata keçirməyi qərara aldı:

-Niderlandda daim ispan qoşunlarını saxlamaq;

-Bütün faktiki hakimiyyəti, üzvləri kardinal Qranvillanın başçılığı ilə ispanların sadiq xidmətçiləri olan Dövlət Şurasının (konsult) əlində cəmləşdirmək;

-14 yeni yepiskopluq yaratmaq və onlara küfrlə mübarizə etmək üçün inkvizisiya səlahiyyətləri vermək.

2. Niderlandda Reformasiya

Almaniyada olduğu kimi, Niderlandda da Reformasiya hərəkatı Martin Lüterin çıxışının təsiri altında başladı. İlk əvvəldən bu hərəkat hakimiyyətin kəskin müqaviməti ilə rastlaşdı. 1521-ci il Vorms ediktinə görə, Gent şəhərində 3 minədək "bidətçi" kitablar yandırılır. 1522-ci ildə V Karl xüsusi imperator inkvizisiyası təşkil edir və bu inkvizisiya bütün Niderland ərazisində fəaliyyət göstərməli idi. Bu şəhərlilərin böyük narazılığına səbəb olur. 1523-cü ilin iyulunda isə ölkədə Lüterin 2 tərəfdarı tonqalda yandırılır. Niderlandda olan inkvizisiya məhkəməsi bütün bidətçiləri "lüterçi"likdə günahlandırırdı. Halbuki ilkin variantda lüterçilik Niderlandda geniş yayılmamışdı. XVI əsrin II rübündə ölkədə katolikliyə qarşı çoxlu sayda təriqətlər yaranmışdı. Bu təriqətlər üçün ən səciyyəvi cəhət onların digər təriqətlərə qarşı dözümsüzlüyü idi. Reformasiya ideyası ən müxtəlif sosial təbəqələr arasında yayılırdı.

1555-ci ildə imperator V Karlın hakimiyyətdən imtina etməsindən sonra Niderland ispan kralı II Filippin mülkü olur. V Karlın Fransa ilə, osmanlılarla və protestant knyazlarla apardığı müharibələr Niderlandın da maliyyə vəziyyətinə mənfi təsir göstərirdi. 1557-ci ildə II Filipp dövlətin müflis olduğunu elan etdi. Bu, imperatora subsidiyalar vermiş Niderland bankirlərini də ağır vəziyyətə saldı. Öz hakimiyyətinin ilk iki ilini II Filipp Brüsseldə keçirdi və Fransaya qarşı hərbi əməliyyatlar aparmaq üçün cənub əyalətlərinə ispan qoşunları gətirdi. 1559-cu ildə Fransa ilə müharibə başa çatsa da, bu qoşunlar daha 2 il ərzində Niderlandı tərk etmədi. 1559-cu ildə Brüsseli tərk edən II Filipp bacısı Parmlı Marqaritanı Niderlandın canişini təyin etdi. Dövlət Şurasının başında isə tezliklə kardinal olan Antuan Qranvellanı qoydu.

Bidətçiliklə müharibə aparmaq üçün II Filipp Niderlandın kilsə quruluşunu islah etmək qərarına gəldi: yepiskopluqların sayının artırılması və onların hər birinə 2 inkvizator ayrılması nəzərdə tutuldu. Bütün inkvizisiya proseslərinə rəhbərlik isə Qranvellaya tapşırılır. Lakin kardinal burqund mənşəli, yəni əcnəbi idi. Əcnəbinin yüksək vəzifəyə təyin edilməsi isə Niderland qanunlarına zidd idi. Kralın bu planları Niderland əyanlarının da maraqlarına toxunurdu, çünki onlar yepiskopluqlara bölünmək istəmirdilər. Kral bir müddət yeni qaydaları ləngitməli oldu.

II Filippin təsərrüfat siyasəti də böyük narazılıq doğururdu. 1560-cı ildə ispan istehsalına kömək etmək üçün Niderlanda ixrac olunan yunun üzərinə gömrük haqqı

artırılır. Nəticədə Niderlanda yun ixracı 2 dəfə azalır. Daha sonra Niderland tacirlərinin müstəmləkələrə gediş-gəlişi də çətinləşdirilir. II Filippin İngiltərə ilə münasibətlərinin gərginləşməsi də Niderlandın İngiltərə ilə ticarətinə mənfi təsir edir. Limanlarda həyat dayandı, manufakturalar bağlanmağa başlandı, minlərlə insan iş və çörəkdən məhrum oldular. Bütün ölkə boyu casuslar dolaşırdı, inkvizisiya tüğyan edirdi, "kafir"lərin kütləvi edamları keçirilirdi. İspan istibdadı dözülməz dərəcəyə çatırdı.

Niderlanddakı ispan siyasətinə qarşı hətta Dövlət Şurasında da etiraz çıxışları başladı. Şura üzvlərindən Oranlı Vilhelm və 2 qraf – Eqmont və Qorn da bu etiraz edənlərin içərisində idi.

Oranlı Vilhelm 1533-cü ildə Almaniyada, Nassau nəslindən olan lüterçi qraf ailəsində doğulmuşdu. Bu nəsil Niderland zadəganları üçün "əcnəbi" deyildi, bu qrafların Niderlandda iri malikanələri və Brabant əyalətində baron titulu var idi. 1544-cü ildə Vilhelmin dayısı oğlu vəfat edərkən ona Fransanın cənubundakı mülklərini və oranlı şahzadə titulunu da vəsiyyət etmişdi. Vəsiyyətə görə, Vilhelm katolikliyi qəbul etməli idi. Şahzadə V Karlın Brüssel sarayında tərbiyə almışdı, bir neçə dil bilirdi, bacarıqlı siyasətçi idi və kardinal Qranvella ona "Qaradinməz" ləqəbi vermişdi, çünki Vilhelm öz məqsədlərini gizli saxlayırdı. Vilhelm imperatorun sevimlisi idi. 1559-cu ildə Fransa kralı II Henrix ona bildirmişdi ki, o, və ispan kralı II Filipp bütün xristian dünyasında protestantların kökünü kəsmək niyyətindədirlər. 20 il sonra, 1580-cı ildə Vilhelm "Apologiya"sında şərh etmişdi ki, kralların bu sirri onu dəhşətə gətirmiş və o, bu plana qarşı mübarizə aparmaq qərarına gəlmişdi.

II Filipp tərəfindən Hollandiya, Zelandiya, Utrext və digər ərazilərin ştathalderi təyin edilən Vilhelm Dövlət Şurasında bir neçə dəfə Qranvellaya qarşı çıxış edərək, tədricən müxalifətin rəhbərinə çevrildi. Şahzadə və 2 qraf (Eqmont və Qorn) kardinalın istefasını tələb etdilər. Vəziyyəti kəskinləşdirməmək üçün II Filipp kardinalı geri çağırır. Oranlı Vilhelm bir neçə dəfə kralı da, onun canişinlərini də xəbərdarlıq etmişdi ki, dini təqiblərlə əlaqədar ölkədə ümummilli iğtişaşlar başlaya bilər. Lakin onun bu sözlərini nəzərə almadılar.

3. Azadlıq hərəkatının başlanması

1560-cı ilin ortalarında ölkədə siyasi durum hökumətin nəzarətindən çıxdı. Qiymətlərin qalxması şəhərdə yoxsulların qiyamına səbəb oldu. Kalvinizmin geniş yayılması kütləvi yığıncaqlara gətirib çıxardı. Dini ehtiraslar 1566-cı ildə ölkədə ən yüksək dərəcəsinə çatdı. Oranlı Vilhelm onun idarəçiliyində olan əyalətlərdə bidətçilərin təqib edilməsi haqqında fərmanları yerinə yetirməkdən imtina etdi. Nassaudakı qardaşı Lüdviqin vasitəsilə o, Almaniyada muzdlu qoşun toplamaq imkanı haqqında gizli danışıqlar aparmağa başladı. Zadəganlar da fəal hərəkata

keçdi. Hələ 1565-ci ilin sonunda, bir neçə yüz zadəganın ittifaqı təşkil olunur və onlar "Kompromis" adlı sənəd imzalayır. İttifaq üzvləri – həm protestantlar, həm katoliklər Niderlandda inkvizisiyaya son qoymağa, ədalətsizliyə qarşı mübarizə aparacaqlarına söz verirlər. Eyni zamanda, ispan kralına sədaqət andı da içirlər. Tezliklə şəhərlilər də "Kompromis"in nüsxələrinə imza atmağa başladılar. 5 aprel 1566-cı ildə Brüsselə gələn 300 zadəgan Parmlı Marqaritaya müraciət təqdim edərək, xəbərdarlıq etdilər ki, inkvizisiya ləğv edilməsə və Baş Ştatlar çağırılmasa, ölkədə böyük çıxışlar başlayacaq. Müraciət bütün zadəganların mənafeyini əks etdirmirdi, məsələn, Niderlandda 75 zadəgan onu imzalamaqdan imtina etdi. Lakin, Marqarita müraciəti bir xəbərdarlıq kimi qəbul edərək krala bu barədə məlumat verəcəyinə söz verdi. Saray əyanlarından biri müraciət təqdim edənləri "Gözlər" (dilənçi) adlandırmışdı. Müxalifət qüvvələri bu sözü eşidib ondan istifadə etmək qərarına gəldilər. Onlar bilərəkdən dilənçi çantaları taxaraq özlərini "göz" adlandırmağa başladılar.

Yaranmış vəziyyətdən istifadə edən protestantlar öz missionerlik fəaliyyətini gücləndirdilər. Xüsusilə kalvinçilərin sayı artır. Onlar ən çox katoliklərin "ikonalara sitayişi"nə qarşı çıxırdılar. Kalvinistlər katolik müqəddəslərinin heykəllərini və şəkillərini məhv edirdilər, çünki onlar ikonaya sitayişi Allahın ikinci əmrinin - bütpərəstlikdən imtinaya əməl edilməməsi hesab edirdilər. Niderlandda ikonalara qarşı mübarizə kütləvi şəkil alırdı. Cənubi və şərqi Flandriyada başlayan bu hərəkat bir-bir digər əyalətlərə yayılırdı. Bir neçə gün ərzində, 17 əyalətdən 12-nə yayılaraq bütün gücü ilə, ispanların əsas dayağı olan katolik kilsəyə qarşı yönəldi. 5500 kilsə və monastır talan edildi.

Üsyançılar ikonaları, müqəddəslərin heykəllərini və bahalı xaçları məhv edirdilər, bahalı əşyaları kilsələrdən alıb şəhər şuralarına, yerli ehtiyaclar üçün təhvil verirdilər. Bir sıra yerlərdə üsyançılar kilsə, monastır torpaq sənədlərini, borc və zəmanət qəbzlərini məhv edirdilər, keşişləri və rahibləri döyərək kilsədən qovurdular. İkonalarla mübarizə hərəkatı XVI əsr Niderland burjua inqilabının ilk aktı idi. Üsyanın əsas hərəkətverici qüvvəsi manufaktura işçiləri, liman əhli, sənətkarlar, rəiyyət və rəncbərlər idi. Üsyan Flandriyada, Brabantda, Hollandiyada, Zelandiyada və Utrextdə ən yüksək həddinə çatdı. Hakimiyyət tamamilə iflic olmuşdu, avqustun 25-də əyalət hakimi elan etdi ki, inkvizisiya ləğv ediləcək, "fərmanlar" yumşaldılacaq, zadəganlar ittifaqının üzvləri əfv olunacaq, kalvinistlər isə məhdud ayin azadlığı alacaqlar.

İkonalarla mübarizə hərəkatı müxalifət arasında parçalanma yaratdı. Canişin ölkədə sabitliyi yaratmağa kömək müqabilində protestant zadəganlara güzəştlər edəcəyinə söz verdi. İkonalarla mübarizə hərəkatının yatırılmasında zadəganlar həqiqətən, fəal iştirak edirlər. Zadəganlar ittifaqı özünün buraxılmasını elan etdi,

kalvinist icmaların burjua başçıları üsyandan iştirak etməkdən imtina etdilər. Təşkilatçılıq və rəhbərlikdən məhrum olan üsyan 1567 ilin yazına qədər yatırıldı.

4. Hersoq Albanın irticası

Niderlanddakı hadisələr haqqında xəbərlər alan II Filipp qiyamçıları cəzalandırmaq qərarına gəldi. 1567-ci ilin yayında Niderlanda hersoq Albanın başçılığı ilə xüsusi ordu göndərildi. Qəddar ispan qrandı olan Don Fernando Alvares de Toledo-hersoq Alba həm də qatı katolik idi. Albanın gəlişini gözləməyən minlərlə adam, o cümlədən Oranlı Vilhelm ölkəni tərk etdi. 1567-ci ilin avqustunda Albanın ordusu Brüsselə daxil oldu. Ölkənin şəhər və qəsrlərində öz qarnizonlarını yerləşdirən Alba geniş miqyaslı terrora başladı. Onun sədrliyi ilə qiyam işləri üzrə Şura yaradıldı və bu Şura çıxardığı qəddar qərarlara görə "Qanlı şura" adını aldı. Eqmont, Qorn, həmçinin Antverpenin burqomistri edam olundu, onların əmlakı isə dövlət xəzinəsini xeyrinə müsadirə edildi. Oranlı Vilhelm və qardaşı Lüdviq Nassau müqavimət qüvvələrinə rəhbərliyi öz əllərinə aldılar. Onlar böyük muzdlu qoşunlarla – biri cənubdan, digəri şimaldan Niderlanda hücum etdilər. Lakin Alba Lüdviqin qoşununu darmadağın etdi, Vilhelmi isə geri çəkilməyə məcbur etdi. "Qanlı şura" Oranlı Vilhelmi hakimiyyəti ələ keçirmək cəhdində günahlandıraraq əmlakını müsadirə etdi, 13 yaşlı oğlunu isə həbs edərək İspaniyaya göndərdi.

Niderlandı İspaniyanın tam tabeçiliyinə salmaq üçün Alba maliyyə islahatı keçirmək qərarına gəldi. 1571-ci ildə ölkədə orta əsr tipli ispan vergi yığımı – əlqəbalə tətbiq olunur. Bu qaydaya görə, 3 vergi – istənilən daşınmaz əmlakdan alınan 1% vergi, daşınmaz əmlakın satışından alınan 5% vergi, hər cür malın satışından 10% vergi alınırdı. Albanı xəbərdar etdilər ki, bu vergilər ölkədə ümumi narazılıq yaradacaq, çünki Niderlanda gələn hər bir mal vasitəçinin əlindən keçib gəlir. Lakin hersoq öz dediklərində möhkəm durdu. Albanın bu siyasətinin sonu acınacaqlı oldu: ticarətin həcmi ixtisara düşdü, kütləvi iflaslar başladı. Albanın apardığı siyasət əhalidə müqavimət hisslərini daha da artırdı: Flandriya və Hennaqau meşələrində partizanlar gücləndi və onlar özlərini "meşə gözləri" adlandırmağa başladılar.

Meşə "göz"ləri adlandırılan partizanlar ispan qoşunlarının kiçik dəstələrinə qəfil hucumlar edir, onların təminat və təchizatlarını pozurdular. Hollandiya və Zellandiyada dənizçi və balıqçılar dənizdə ispanlara qarşı uğurla əməliyyatlar aparırdılar. Onlar bəzən ispanların gəmilərini tutur, dənizkənarı qarnizonlara hucum edirdilər. Lakin Oranlı Vilhelm və onun silahdaşlarının xüsusi niyyətləri vardı. Onlar hələ də, Almaniyanın lüteran knyazlarının və fransız quqenot-zadəganların köməyi ilə muzdlu qoşun yaradaraq, xaricdən hersoq Albaya zərbə endirmək və Niderlandı imperiyanın tərkibinə müstəqil kurfürstlük kimi daxil olunması barədə düşünürdülər. Bununla belə, bürqerlərə və zadəganlara sərf edən əvvəlki imtiyaz və azadlıqlar

qorunmalı idi. Onlar, kilsələri lüteranlıq ruhunda islah etmək, torpaqlarını isə zadəganlara vermək istəyirdilər. Şahzadənin özü və onun tərəfdaşları hələ də Filipplə bu şərtlərlə anlaşmağa çalışırdılar. Zadəgan mühacirlərdən istifadə edən Oranlı Vilhelm, alman protestant knyazlarının və fransız quqenotlarının köməyi ilə, 1568–1572-ci illərdə bir neçə dəfə Niderlanda, burada özünə dəstək tapacağı ümidi ilə, əsasən onun cənub hissəsinə müdaxilələr təşkil etdi. O "meşə gözləri" ilə birlikdə əməliyyat keçirməkdən qaçırdı və bütün ümidlərini xarici muzdlulara bağlayırdı.

5. Azadlıq hərəkatının II mərhələsi

Şimalda isə azadlıq müharibəsi fərqli yolla gedirdi. Burada əsasən "dəniz gözləri" fəaliyyət göstərirdi və onların komandirləri içərisində zadəganlar da az deyildi. İspan gəmilərinə hücum edib onları talan edən "dəniz gözləri" İngiltərənin limanlarından dayaq kimi istifadə edirdilər. Alba gözlərə qarşı tədbirlər həyata keçirirdi, lakin eyni vaxtda onlara həqarətlə baxıb hesab edirdi ki, onun üçün əsl hərbi təhlükə Oranlı şahzadənin qoşunlarıdır. Lakin hersoq Alba bu fikrində yanılırdı.

1572-ci ilin yazında İspaniya ilə münaqişədən qaçan kraliça Yelizaveta "dəniz gözləri"nə İngiltərə limanlarını tərk etməyi əmr etdi. Gözlər 24 gəmi ilə İngiltərəni tərk edərək, 1 aprel 1572-ci ildə Zelandiyada yerləşən Bril şəhərini ələ keçirdilər. Bu, əcnəbi hakimiyyətinə qarşı şimal əyalətlərində xalq azadlıq hərəkatının başlanması üçün siqnal oldu. Əvvəlcə Zelandiyanın mühüm limanı olan Flissingen üsyan etdi, daha sonra bir neçə şəhər də üsyan qaldırdı. Oranlı Vilhelm yerli şəhər qoşunlarına öz zadəgan komandirlərini köməyə göndərdi. 1572-ci ilin yayında Dordrexdə Hollandiya və Zelandiya ştatları çağırılır və Oranlı Vilhelm Stathalder və qoşun başçısı təyin edilir, həmçinin burada dini etiqad azadlığı da elan olunur. Bu, müstəqil respublika hakimiyyətinə doğru atılan ilk addım idi. 1572-ci ilin avqustunda, Varfolomey gecəsində törədilən qətliam sonrakı hadisələrə böyük təsir göstərdi. Fransız quqenotlarına ümid bağlayan şahzadə başa düşdü ki, indi yalnız öz qüvvələrinə arxalanmalıdırlar. O, müqavimət hərəkatına başçılıq etmək üçün Niderlanda gəlir. Müxalifət qüvvələri içərisində belə təsəvvür yaranmışdı ki, kiçik bir ölkə xarici kömək olmadan qalib gələ bilməz. Şimal əyalətlərində güclənən kalvinçilər də vəziyyətə sərt yanaşmaq qərarına gəldilər. Belə ki, Vilhelmin qoyduğu vetoya baxmayaraq, kalvinçilər Hollandiyada və Zelandiyada katolik ayinlərinin keçirilməsini qadağan etdilər. Tezliklə, Vilhelm özü də kalvinçiliyi qəbul etdi, lakin dini etiqad azadlığını da müdafiə edirdi.

Alba qiyamçılara qarşı şimala qoşun yeritdi. 1572-ci ilin dekabrından 1573-cü ilin iyuluna qədər, yeddi ay müddətində Albanın oğlunun qoşunları tərəfindən mühasirəyə alınmış Xarlem şəhərinin müdafiəsi davam etdi. Aclıq çəkən şəhər

təslim oldu. 2000-dən çox üsyançı edam edildi, şəhər üzərinə böyük təzminat qoyuldu. 6 il Niderlandda ağalıq etmiş hersoq Alba kral tərəfindən İspaniyaya geri çağırıldı. 1573-cü ilin sonu Albanı yeni canişin – Lui Rekezens əvəz etdi. Bundan sonra ispanlar ikili oyun aparmağa başladı: bir tərəfdən, danışıqlar aparmağa meylli olduqları təsəvvürü yaradır, digər tərəfdən, ispan hakimiyyətini ölkədə möhkəmləndirmək siyasəti aparırdılar. Rekezens müxalif qüvvələr içərisində nifaq salmağa müyəssər oldu. 1576-cı ilin martında Rekezens vəfat etdiyindən, Dövlət Şurası ölkədə nəzarəti ələ keçirdi.

Canişinin vəfatından sonra bir neçə ay ərzində ispan qoşunları məvacib almırdılar. 1576-cı ilin yayında onlar qiyam qaldırdılar, bəzi qəsrləri ələ keçirdilər və şəhərlərdə talanlara başladılar. Brabant şəhərləri muzdlulara qarşı müqavimət təşkil etdilər. Dövlət Şurasının üzvləri buna mane olmaq istəməyəndə, Brüsseldə onları şahzadənin tərəfdarları tərəfindən həbs edildilər. Gentdə Baş ştatlar çağırıldı və hakimiyyət onların əlinə keçdi. 1576-cı ilin noyabrında ispan muzdluları şəhərə hücum edib onu talan etdilər. Şəhərin 8 minə yaxın sakini qətl edildi. Baş verənlər bütün ölkədə narazılıq doğurdu və cənubda antiispan hərəkatı başladı.

1576-cı il noyabrın 8-də Baş Ştatlar "Gent barışığı" — şimal əyalətləri ilə cənub torpaqları arasında ittifaq bağlanması haqqında saziş bağlayır. Müqavilədə ispan qoşunlarını ölkədən qovmaq üçün şimal və cənub qüvvələrinin azadlıq mübarizəsinə başlaması haqqında öhdəliklər göstərilirdi. Eyni zamanda, Oranlı Vilhelmin şimalda elan etdiyi dini dözümlülük bütün ölkə üçün nəzərdə tutulurdu. Lakin, "Gent barışığı" təntənəli şəkildə elan edirdi ki, onun iştirakçıları II Filipə sadiqdirlər.

Müqavilə kalvinçiləri qane etmirdi. Eyni zamanda II Filipp də bundan narazı qalaraq qardaşı don Xuanı canişin təyin edir. Canişin şimal əyalətlərinə yürüş hazırlamağa başlayır. Baş ştatlar Oranlı Vilhelmi Brüsselə dəvət edir və 1577-ci ilin payızında şəhərə gələn şahzadə don Xuanı ölkənin düşməni elan etdi. Lakin, Baş ştatların qoşunları bir neçə məğlubiyyətə uğradı, bu isə katoliklərlə protestantlar arasında ittifaqın əheydarlarının mövqeyini gücləndirdi.

6. Azadlıq hərəkatının üçüncü mərhələsi. Şimali Niderlandın müstəqillik uğrunda müharibəsi

6 yanvar 1579-cu ildə bəzi cənub əyalətləri yeni canişin Aleksandr Farneze ilə separat ittifaq bağladı. Arras şəhərində bağlanan ittifaqın məqsədi II Filiplə razılığa gəlmək idi. Katoliklik isə cənub əyalətlərində yeganə icazə verilmiş dini etiqad elan olunur. Bunların əvəzində ispan qoşunlarının bu ərazilərdən çıxarılması və əvvəlki imtiyazların bərpası nəzərdə tutulurdu. Bu ittifaq nəticəsində Niderlandın cənubunda qüvvələr nisbəti ispanların xeyrinə dəyişdi.

Arras ittifaqına cavab olaraq 23 yanvar 1579-cu ildə 5 şimal əyaləti – Hollandiya, Zelandiya, Utrext, Frsilandiya və Heldern Utrextdə ittifaq bağladılar, onun məqsədi – vahid siyasi konfederasiya yaratmaq idi. "Gent barışığı"nın əhəmiyyətini təsdiq edən ittifaq üzvləri ispan qoşunlarına qarşı müharibəni birgə aparmaq qərarı qəbul etdilər. Müharibə, sülh, ümumi vergilər haqqında qərarlar müttəfiqlər tərəfindən yekdilliklə qəbul olunmalı, qalan məsələlər isə səs çoxluğu ilə keçməli idi. Sonralar bu ittifaqa daha iki əyalət – Qroningen və Overeysl də qoşuldu. Bu ittifaqa Flandriya və Brabantın iri şəhərləri – Antverpen, Brüssel, Gent, Brügge, İpr və Breda da qatıldı.

1581-ci ilin yayında şimal əyalətlərinin Baş ştatları II Filipi tiran kimi devirdiklərini bildirdilər. Həmin vaxtdan şimalda Utrext ittifaqı əsasında yeni respublika bərqərar oldu, hərçənd ki, heç bu rəsmi elan olunmadı.

Hələ 1580-ci ildə, ispan kralı Oranlı Vilhelmi qanundan kənar elan etmişdi və onun qətli üçün böyük mükafat vəd etmişdi. 1582-ci ildə şahzadəyə qarşı təşkil olunan sui qəsd baş tutmadı. Lakin, 1584-cü ildə isə ispan casusu onu öldürməyi bacardı.

1580-ci illərin I yarısında ispan canişini A.Farneze Fdandriyanı və Brabantı tamamilə özünə tabe edə bildi. Onun ən böyük qələbəsi isə 1585-ci ildə Antverpeni alması oldu. Farneze burada müsadirələr həyata keçirmədi və protestantlara katolikliyə dönmək üçün 4 il vaxt verdi. Bundan sonra cənubdan şimal əyalətlərinə kütləvi köçlər başladı.

Farnezenin uğurları cənub əyalətlərini İspaniyanın İngiltərəyə qarşı mübarizəsində dayaq meydanına çevirdi. Ona görə də ingilis kraliçası Yelizaveta Niderlandın şimal əyalətlərinə kömək etmək qərarına gəldi. 1585-ci ildə bura kraliçanın favoriti qraf Leyster göndərildi. Lakin özünü ağa kimi aparan Leyster 1587-ci ildə İngiltərəyə dönməli oldu. Xaricdən köməyin mənasız olduğunu görən Baş ştatlar isə ali respublikaçı orqan kimi çıxış edərək ölkənin müdafiəsini Vilhelmin oğlu Moris Nassauya tapşırdı. 1585-1625-ci illərdə o, Hollandiyanın ştathalderi təyin olundu. Bacarıqlı sərkərdə olan Moris bir neçə hərbi islahat keçirdi və bu, ona Flandriya və Branbantın bəzi torpaqlarını ələ keçirməyə imkan verdi. Respublikanın yeni mülkləri ümumi idarəçilik altına alındı. İspaniyaya dənizdə də bir neçə zərbə vuruldu və holland donanması üstünlüyü ələ keçirdi. Bütün bu qələbələr, 1609-cu ildə respublikaya İspaniya ilə 12 il müddətinə Haaqa barışığını imzalamağa imkan verdi. Müqaviləyə görə, İspaniya Birləşmiş Əyalətlər Respublikasını faktiki olaraq tanıdı. Lakin bütün bunlara baxmayaraq, Niderland daha 30 il İspaniyaya qarşı müharibə apardı. 1621-ci ildə müharibənin yenidən başlanması isə, tərəflərdən heç birinin mövqeyinə dəyişiklik gətirmədi.

30 yanvar 1648-ci ildə Münsterda sülh müqaviləsi bağlandı. İspaniya Hollandiyanı müstəqil dövlət kimi tanıdı. Bu müqavilə, 24 oktyabr 1648-ci il AvropaVestfal sülhünün bir hissəsi sayılırdı. Vestfal sülhünə görə, Birləşmiş Əyalətlər Respublikası beynəlxalq aləmdə də tanındı. Azadlıq müharibəsi yalnız şimalın qələbəsi ilə başa çatdı, cənub isə ispan hakimiyyətində qaldı (cənub əyalətlər XVIII əsrin əvvəllərində Avstriya hakimiyyətinin təsiri altına keçir).

Vyana konqresinin qərarı ilə Niderlandın hər iki hissəsi Niderland krallığında birləşdi. 1830-cu il inqilabından sonra isə Belçika müstəqil dövlət olur.

Beləliklə, Avropada ilk burjua inqilabı qalib gəldi. Şimali Niderland İspan zülmündən qurtardı, ispan ağalığına son qoyuldu. Niderland respublika elan edildi. Kapitalizmin inkişafına əlverişli şərait yarandı. Niderland burjua inqilabı Avropada ilk uğurlu milli-azadlıq üsyanlarından biri oldu və ilk müasir Avropa respublikalarının yaranmasına səbəb oldu. Bu və bu dövrün digər müharibələri zamanı İspaniya güclü hərbi dəniz dövləti statusunu itirdi, ağır iqtisadi itkilərə məruz qaldı və gələcəkdə öz maraqlarını dünya səhnəsində daha fəal şəkildə təbliğ edə bilmədi. Bütün bunlar Niderland burjua inqilabının nəticəsi idi.

§2. İngiltərə Burjua inqilabı və diplomatik münasibətlər (1640-1689)

1.İngiltərə Burjua inqilabı
1.1.İnqilabın başlanması
1.2.İnqilabın birinci mərhələsi
1.3.İnqilabın ikinci mərhələsi
2.Burjua inqilabı dövründə İngiltərənin diplomatiyası
2.1.“Uzunmüddətli Parlament”in diplomatiyası
2.2.Oliver Kromvelin diplomatiyası
3.Şanlı inqilab

1.İngiltərə Burjua inqilabı
1.1.İnqilabın başlanması
1.2.İnqilabın birinci mərhələsi
1.3.İnqilabın ikinci mərhələsi

1.1.İnqilabın başlanması

XVII əsrin 40 illəri üçün İngiltərə əsasən aqrar ölkə olaraq qalırdı. Lakin burjua münasibətləri də inkişaf etməkdə idi ki, bu inkişaf sənayenin bütün sahələrin əhatə edirdi. Manufakturalar meydana gəlir, xarici ticarət intensiv inkişaf edir, yeni-yeni müstəmləkələr ələ keçirilirdi. 1600-cı ildə Ost-Hind, 1606-cı ildə iki Virciniya,

1614-cü ildə “Avanvturist tacirlər” xarici ticarət şirkətləri meydana gəldi. Lakin İngiltərə mütləqiyyəti yaranmaqda və inkişaf etməkdə olan burjua münasibətlərinin yolunda maneəyə çevrilmişdi. İngiltərənin siyasi tarixində Stüartlar sülaləsinin böyük rolu olmuşdur. Bu sülalə, vaxtilə kraliça Yelizaveta tərəfindən təqribən 18 illik həbs həyatından sonra 8 fevral 1587 tarixində edam olunmuş bibisi qızı (İngiltərə kralı VII Henrixin qızı Marqarita Tüdorun qızı) Mariya Stüartın 1603-cü ildə hakimiyyətə gəlmiş oğlu I Yakov Stüartın soyadı ilə bağlıdır. I Yakov Stüart 1603-1625-ci illərdə, I Karl isə 1625-1649-cu illərdə hakimiyyətdə olmuş, məhz onların dövründə İngiltərənin Rusiyadan tutmuş Hindistana qədər nəhəng ərazilərdə agent və şirkətləri təsis olundu. Burjua inqilabı ərəfəsində Avropada başlıca rəqabət İngiltərə ilə Fransa və İngiltərə ilə İspaniya arasında gedirdi. Məlum olduğu kimi, XVI əsrin II yarısında Fransa kralı XII Lüdovikin Avropa diplomatiyası bilavasitə İngiltərənin maraqlarına toxunurdu.

I Karl (19 noyabr [29] 1600 - 30 yanvar [9 fevral] 1649) - Stüart sülaləsindən İngiltərə, Şotlandiya və 27 mart 1625-ci ildən İrlandiya kralı. O, Fransa kralı IV Henrixin qızı Genrietta- Mariya ilə evli idi. Onun mütləqiyyətçi siyasəti və kilsə islahatları Şotlandiya və İrlandiyada üsyanlara və İngiltərədə inqilaba səbəb oldu. Vətəndaş müharibələri zamanı I Karl məğlub oldu, parlament tərəfindən mühakimə olundu və 30 yanvar 1649-cu ildə Londonda edam edildi.

Lakin “Məğlubedilməz armadanın” süqutundan sonra İngiltərənin Avropa siyasətində rolu artdı.Belə ki, “Məğlubedilməz armadanın” məğlub edilməsi, sonrakı 400 illik dövr ərzində İngiltərənin xarici siyasətində belə bir fikrin formalaşmasına səbəb oldu ki, ayrılıqda götürülmüş ingilis donanması 2 böyük Avropa dövlətinin donanmasının gücünə bərabər olmalıdır. Yalnız 1921-1922-ci illər Vaşinqton konfransından sonra həmin qayda nisbi dəyişikliyə məruz qaldı.

Tüdorların xarici siyasət xətti XVII yüzilliyin əvvəlləri üçün İngiltərənin dəniz gücünün olduqca artmasına səbəb oldu ki, sonrakı geosiyasət nəzəriyyəçiləri bunu İngiltərənin varlanmasının başlıca faktoru kimi qeyd edirdilər. Stüartlar sülaləsi hakimiyyətə gəldikdən sonra 1603-1614-cü illər arasındakı dövrdə 6 beynəlxalq şirkət təsis olundu ki, bunlar Qvineyadan Cənub-şərqi Asiyaya qədər müxtəlif ərazilərə yayılmışdı. İngiltərənin sürətlə varlanması gedişində Siti bankların dövlət siyasətinə təsiri gücləndi. Bu bankın ən güclü bankirlərindən biri Pimi kral Pim adlandırırdılar ki, bu şəxs parlament müxalifətinin başında dururdu. İngiltərədə yeni və köhnə hakimiyyət arasında mübarizə kralla parlament arasında mübarizədə təzahür edirdi. Parlament müxalifətinin görkəmli nümayəndələri Q.Hempdon, Pim, C.Eliton, E.Kok və başqaları idi (İngiltərə parlamentinin 500 nümayəndəsi var idi). Dövrün başlıca tələblərindən biri xarici siyasətin idarə olunmasında parlamentin səlahiyyətlərinin artırılmasindan ibarət idi. Yeni təsis olunmuş agent və şirkətlər

bütün imtiyazları əldə etməyə çalışırdılar və bu məqsədlə hakimiyyətə təsir göstərirdilər. İngiltərədə daxili vəziyyətə gərginlik gətirən problemlərdən biri də formalaşmış ənənəyə əsasən fəal xarici siyasət yeritmək üçün daxili vergilərin artırılmasının bilavasitə parlamentdən asılılığı məsələsi idi.

1.2.İnqilabın birinci mərhələsi

1637-ci ildə Şotlandiyada üsyan başladıqdan sonra kral I Karl vəsait əldə edib üsyanı yatırmaq üçün, 1640-cı ilin aprelində yenidən parlament çağırmağa məcbur oldu. Lakin, o, cəmi üç həftədən sonra buraxıldığı üçün Qısamüddətli parlament adı ilə tarixə daxil oldu. Ölkədə mütləq monarxiyaya qarşı genişlənən siyasi mübarizə tezliklə I Karlı geri çəkilməyə vadar etdi. Şotland üsyanının yatırılması məsələsində kral parlamentdən dəstək qazana bilmədi. Çünki yeni vergilərin təyin olunması məsələsinə parlament razılıq vermədi. Şotland üsyanı İngiltərəyə iki tərəfdən ciddi zərər verdi: Birincisi, İngiltərə diplomatiyasının Avropa siyasətində mövqeləri zəiflədi, ikincisi, Şotland üsyanı İngiltərə puritanizminin güclənməsinə ciddi şəkildə təkan verməklə hakimiyyət elitasında bir sıra dəyişikliklərin əsasını qoydu. Tori və viqlərin yerində yeni parlament partiyaları olan independentlər və presvetrianlar formalaşmağa başladı. Qısamüddətli parlamentdən xarici və vergi siyasəti ilə bağlı heç bir yardım görməyən kral 1640-cı ilin sentyabrında təkrar parlament çağırmağa məcbur oldu və bu parlament 1653-cü ilə qədər mövcud olduğu üçün Uzunmüddətli parlament adı aldı. Beləliklə, ölkədə kral və parlament tərəfdarlarından ibarət iki siyasi düşərgə yarandı.

Kral tərəfdarları başlıca olaraq royalistlər idi. Parlament tərəfdarlarının tərkibi yekcins deyildi: iki başlıca partiya formalaşmışdı: presveterianlar və independentlər. Presveterianlar ölkədə mərkəzləşmiş kilsəni saxlamağa tərəfdar çıxır, lakin kilsənin başında kraldan asılı yepiskopun deyil, seçilmiş başçının (presviterin) olmasını istəyirdilər. Presviter sinod qurultayları qarşısında məsuliyyət daşıyırdı. Independentlər (müstəqillər) isə mərkəzləşmiş kilsəyə qarşı çıxır, hər bir kilsə icmasının müstəqilliyi ideyasını yayırdılar. Bu kilsənin başında kilsə icmasının üzvləri tərəfindən seçilmiş və lazımı səlahiyyətlər verilmiş başçı durmalı idi. 1641-ci ilin yazında xalq kütlələrinin inqilabi çıxışlarının genişlənməsi ilə əlaqədar parlament müxalifəti 204 bənddən ibarət "Böyük remonstrasiya" (etiraz) adlı sənədlə çıxış etdi. Burada kralın cinayətləri sadalanır, müstəqil daxili və xarici siyasət yeridilməsi, burjua azadlıqlarının verilməsi, müstəqil puritan kilsənin yaradılması tələb edilirdi. Məlum olduğu kimi, ingilis puritanlarının ilk dəstələrindən biri hələ 1629-cu ildə, "May çiçəyi" gəmisində Amerika sahillərinə yan almış və Virginiya ştatının əsasını qoymuşdular. Puritançılığın əlehdarı olan I Karl Roma papası ilə münasibətlərin kəsilməsini, yəni ingilis kilsəsinin müstəqilləşməsini cinayət hesab

edirdi və bu məsələdə qarşıdurma xüsusi ilə gərgin xarakter alırdı. Kralın parlament müxalifətini həbs etmək və parlamenti buraxmaq cəhdi boşa çıxdıqdan sonra, başlıca tərəfdarlarının toplaşdığı şimal qraflıqlarına qaçmağa məcbur oldu və 1642-ci ilin avqustunda I Karl Nottinqemdə qara rəngli müharibə bayrağını qaldırdı. Vətəndaş müharibəsinin birinci mərhələsi başlandı (1642¬-1647). Vətəndaş müharibəsi dövründə İngiltərədə baş verənləri İspaniya və Fransa diqqətlə izləyirdilər. Fransız kralları ilə qohumluq əlaqələrinə malik olan Stüartlar Fransanın dəniz gücündən İngiltərədəki rəqiblərinə qarşı mübarizədə istifadə etmək arzusunda olduqlarını gizlətmirdilər və bu məqsədlə fransız kardinalı Mazarini ilə müvafiq danışıqlar da başlandı. Müharibənin əvvəlində üstünlük I Karlın tərəfindən idi. 1642-ci ilin payızında Eçill döyüşündə, prestveteranlardan olan qraf Mançester və qraf Esseksin başçılıq etdiyi parlament ordusu məğlub edildi. 1644-cü ilədək üstünlük kral ordusunun tərəfində qaldı.

Müharibənin gedişində Oliver Kromvelin (1599-1658) hərbi istedadı parladı. Orta zadəgan ailəsində doğulmuş Kromvel tezliklə independentlərin liderinə çevrildi və ordunu yenidən qurmağa müvəffəq oldu.

Oliver Kromvel (25 aprel (5 may) 1599– 3 (13) sentyabr 1658], — İngiltərə burjua inqilabının başçısı. 1643-1650-ci illərdə Parlament ordusunun general-leytenantı. 1650-1653-ci illərdə Lord-General, 1653-1658-ci illərdə İngiltərənin, İrlandiyanın və Şotlandiyanın Lord-Protektoru. 3 sentyabr 1658-ci ildə malyariyadan və ya zəhərlənmədən vəfat edib.

1644-cü ildə Marston-Mur döyüşündə parlament ordusu ilk böyük qələbə çaldı. Bu döyüşdən sonra Kromvelin əsgərləri "dəmir böyürlülər" adlanmağa başlandı. Orduda əvvəlcə 22 min, sonradan 70 min döyüşçü var idi. Baş komandan Tomas Ferfaksın başçılığı altında 1645-ci il iyununda Neyzbi döyüşündə parlament ordusu tam qələbə çaldı. 1646-cı ilin yazında Kral Şotlandiyaya qaçmağa məcbur oldu, onlar isə kralı pul müqabilində parlamentə verdilər. Royalistlərin sonuncu istinadgahları 1647-ci ilin martında süqut etdi. Neysbi göyüşündən sonra I Karlın arvadı Genrietta Mariya başda olmaqla qohumları olan Fransa kralının yanında sığınacaq tapdılar.

İngiltərədə vətəndaş müharibəsi dövründə Fransanın ölkədə olan səfiri Krulle və İspaniyanın səfiri Don Allon Kardenya Kromveli öz tərəfinə çəkmək üçün öz xidmətlərini təklif etdilər. Fransız səfiri Krulle Mazarinin tapşırığı ilə Kromvelə ittifaqla yanaşı böyük miqdarda pul, edam olunmuş kralın qohum-əqrəbasını və dəniz siyasətində müttəfiqlik təklif etdi. Təsadüfi deyildi ki, Fransanın adı Kromvelin imzaladığı Naviqasiya Aktında öz əksini tapmışdı. Aktda öz əksini tapmayan dövlətlər sırasında Hollandiya və İspaniyanın da adı vardı. 1645-ci ildə baş vermiş Neyzbi döyüşü təkcə İngiltərədə deyil, Avropada da siyasi vəziyyətə ciddi təsir göstərdi. Bu döyüşdən sonra Kromvelin həm hərbi, həm də siyasi gücü

artdı. Kral tərəfdarları royalistlərin də puritanlar kimi, Avropaya və Amerikaya axını başladı. Doğrudur, Kromvel ölkə daxilində bir sıra cərəyanların müqavimətini də aradan qaldırmaq məcburiyyətində idi. Vətəndaş müharibəsinin I mərhələsi başa çatdıqdan sonra parlament Avropa siyasətində İngiltərənin rolunun yenidən bərpasına çalışırdı və bu məqsədlə konkret tədbirlər görülürdü. Neysbi göyüşündən sonrakı dövr ərzində siyasi səhnəyə levellerlər partiyası da çıxdı. Onun lideri Con Lilbern (1614-1657) idi. Bu partiya xırda burjua ideloqu olub aşağı təbəqələri və əsgərləri əhatə edirdi. Lakin hərəkatın ömrü qısa oldu və 1649-cu ildə başa çatdı. Parlament Lilbernin qovulması haqqında qanun verdi və o, Şotlandiyaya getdi. Az sonra Cerard Uinstenin (1609-1652) başçılıq etdiyi həqiqi levellerler- diggerlər hərəkatı (digger- yerqazan deməkdir) başlandı.

1.3.İnqilabın ikinci mərhələsi

Həbsdə saxlanılan kralın qaçması ölkədə vəziyyətin yenidən gərginləşməsinə səbəb oldu. Tampl qalasından qaçan kral yenidən öz tərəfdarlarını və parlamentdən narazı qüvvələri toplamağa müvəffəq oldu. 1648-ci ilin fevralında cəmi üç ay davam edən İkinci vətəndaş müharibəsi başladı. I Karl şotlandları da öz tərəfinə çəkərək arxa cəbhəni möhkəmləndirdi və mübarizəni davam etdirməyə başladı. Lakin Kromvel dərhal genişlənməkdə olan hadisələrə reaksiya verdi və parlament ordusu avqustda Preston yaxınlığında royalistlərin və şotlandların birləşmiş qüvvələrini darmadağın etdikdən sonra müharibə başa çatdı. Kral I Karl əsir götürüldü və ciddi şəkildə mühafizə edilməyə başlandı. Bu vaxtdan etibarən kralın taleyi ilə bağlı parlament müzakirələrinə başlanıldı. Kromvelin kralın edam edilməsi ilə bağlı təklifi müqavimətlə qarşılandıqdan sonra parlamenti prestveterianlardan təmizləmək qərarına dəlindi. 1647-ci il avqustun 6-da və 1648-ci il dekabrın 5-də sayı 140 nəfərə çatan presveterianlar parlamentdən qovuldu. Bu hadisə tarixə "Prayd təmizlənməsi" adı ilə daxil oldu. Gərgin müzakirələrdən sonra 1648-ci ilin dekabrında parlament kralı mühakimə etmək üçün tribunal yaratdı. Tribunal kralı vətənə xəyanətdə ittiham edərək ona ölüm hökmü çıxardı və I Karl 1649-cu ilin yanvarın 30-da edam edildi. 1649-cu il mayın 19-da İngiltərə respublika elan edildi. 1653-cü ildə Uzunmüddətli parlamentin qalıqları qovulduqdan sonra xarici siyasət məsələləri Kromvelin səlahiyyətinə keçdi.

1650-ci ildə İspaniya və Fransa İngiltərəni tanıdılar. 1649-1652-ci illərdə Kromvel İrlandiyaya yürüş edərək üsyanı qan içində boğdu, Dublin şəhəri qarət edilərək yandırıldı (üsyan İrlandiyada 1641-ci ildə başlamışdı). Kromvel 1653-cü illərdə İsveç, Danimarka və Portuqaliya ilə ticarət müqavilələri imzaladı.

İngiltərə tarixinin 1649-1653-cü illər dövrü I respublika (İndependent respublikası), 1659-1660-cı illər dövrü isə II respublika dövrü kimi səciyyələnir.

Birinci respublikanın dövründə xarici siyasət məsələləri tam şəkildə Kromvelin əlində cəmləşmişdi. Onun Avropa siyasətində üç ölkə: Fransa, İspaniya və Hollandiya mühüm yer tuturdu. Kromvel Hollandiyadan İngiltərəyə ilhaq olunmağı tələb edirdi. İspaniyadan isə inkvizasiyaya son qoyulmasını və Amerika qitəsi ilə ticarətə başqa ölkələrə, o cümlədən də İngiltərəyə də imkan yaradılmasını tələb edirdi. Bu dövrdə İngiltərədəki İspaniya səfiri Don Alonso Kardenya və Fransa səfiri Krulle böyük diplomatik iş aparırdılar. Edam edilmiş kralın Fransaya qaçmış arvadı Qenrietta-Mariya və ona bağlı saray dairələri Fransanın İngiltərə ilə yaxınlaşmasına göstərdikləri müqavimətə baxmayaraq, uzun sürən danışıqlardan sonra 1655-ci ildə Fransa ilə müqavilə bağlandı. Çünki kardinal Mazarini Kromvelə pul, edan olunmuş kralın ailəsini və ittifaq təklif etmişdi. Müqavilə hər iki ölkənin Avropa siyasətində ziddiyyətlərin yumşalmasına, İspaniya və Niderlanda qarşı isə birgə siyasətin yeridilməsinə imkan verdi.

1656-cı ildə İspaniya ilə başlanan müharibə Kromvelin ölümündən sonra qələbə ilə başa çatdı. Qul alverinin mərkəzi olan Yamayka adası İngiltərənin əlinə keçdi. İspaniya Avropa siyasətindən sıxışdırılıb çıxarılmağa başlandı. İngiltərə burjua inqilabının 1653-1659-cu illər dövrü Kromvel protektoratlığı dövrü adlanır. 1653-cü il 16 dekabrda Kromvel respublikanın lord-protektoru (müdafiəçisi) elan olundu. Respublikanın konstitusiyası qəbul edildi. Ölkə başında general-mayor dayanan dairələrə bölündü. Respublikanı Dövlət Şurası və parlament idarə edirdi. 1657-ci ilin mayında protektorluq irsi elan edildi və lordlar palatası bərpa edildi. 1658-ci ilin payızında Kromvelin ölümündən sonra, 1658-1959-cu illərdə oğlu Riçard Kromvel lord -protektor oldu.

2. Burjua inqilabı dövründə İngiltərənin diplomatiyası

2.1.“Uzunmüddətli Parlament”in diplomatiyası

2.2.Oliver Kromvelin diplomatiyası

Burjua inqilabından sonra İngiltərənin diplomatiyası Avropanın diplomatik tarixində xüsusi yer tutur. Mütləq monarxiyalar dövründə intriqalara, sirli məsələlərə və mürəkkəb incəliklərə meylli olduqları halda, ingilis inqilabının diplomatiyası fikirlərinin sadəliyi, məqsədyönlülüyü və icra zamanı öz cəsarəti ilə seçilirdi. Bu, yenicə qələbə qazanmış sosial təbəqə üçün xarakterik olan siyasi anlayışın tam aydınlığına uyğun idi.

İnqilab hakimiyyətə İngiltərənin burjua inkişafının maraqlarını təcəssüm etdirən insanları gətirdi. Onlar nə istədiklərini və necə hərəkət etməli olduqlarını aydın şəkildə bilirdilər.

İngiltərə burjua inqilabının diplomatları XVI əsrdə İngiltərə korsarlarının, armatorlarının (gəmi təchizatçıları) və tacirlərinin etdiklərini öz hökumətlərinin köməyinə belə müraciət etmədən davam etdirdilər. İndi onlar özləri hakimiyyətdə idilər: onların hökuməti əvvəlcə inqilabi qüvvələrin maraqlarını ifadə edən parlament, sonra onların diktatoru Oliver Kromvel idi. O.Kromvel, K.Marksın dili ilə desək, ingilis inqilabının Robespyeri, sonra isə onun Napoleonu oldu.

Korsar, kaper və qeyri-rəsmi şəxs terminləri tamamilə eyni məna daşıyır. Daha dəqiq ifadə ilə, Korsar dövlətdən (hökmdardan) düşmən ölkəyə aid olan ticarət və hərbi gəmilərin qarət edilməsinə icazə verən rəsmi sənədi olan dənizçidir.

Armator (lat. - silahlandıran, təchiz edən) gəmi sahibi mənasını verir, mülkiyyət hüququ ilə ona məxsus olub-olmamasından asılı olmayaraq gəmini idarə edən şəxs. Armator gəmini səyahət üçün təchiz edir, vəsaitlə təmin edir, gəmi heyətini işə götürür, kapitanı dəvət edir və sonuncunun hərəkətlərinə cavabdehdir.

2.1.“Uzunmüddətli Parlament”in diplomatiyası

İlk vaxtlar, ingilis inqilabının siyasəti, kralla parlament arasında, feodalizmlə kapitalizm arasında gedən mübarizə zamanı Avropada baş verənlərə tam biganə idi. Burjuaziyanın və ticarətin maraqları ilə bağlı olan donanma lap əvvəldən parlamentin və inqilabın tərəfini tutdu. Bu məsələ, inqilabı kralın və feodal nizamının xeyrinə edilə bilinəcək qitə müdaxiləsinə qarşı təminat verdi.

" Uzunmüddətli parlament" - 1641-1653 və 1659-1660-cı illərdə Vestminsterdə toplanan İngiltərə parlamentinin adı. Bir vaxtlar Oliver Kromvel tərəfindən dağıdılmışdı. 1640-cı il noyabrın 3-də I Karl tərəfindən çağırılan Parlament “Uzunmüddətli” adlandırıldı. Bu adı Parlament Aktından sonra baş verən hadisələrə görə almışdı - o, yalnız deputatların özlərinin razılığı ilə buraxıla bilərdi və onlar İngiltərə Vətəndaş müharibəsi başa çatana və 1660-cı ildə Stüartların hakimiyyətinin bərpa edilməsinə qədər onun buraxılmasına razı olmadılar.

Bununla belə, qitə ölkələri ingilis hadisələrinin mənasını çox yaxşı anlaya bilmirdilər. Onlar İngiltərədə baş verənlərdən o qədər də narahat deyildilər. Çünki, onlar öz ölkələrini tam inkişaf etmiş hesab edərək, inqilabdan qorxmurdular. Həm də, bu hadisələrin bir inqilab olduğunu başa düşmürdülər. Ona görə də İngiltərədə baş verən vətəndaş müharibəsi müdaxilə olmadan davam edə bildi. I Karlın fransızların köməyinə müraciət etmək cəhdləri boşa çıxdı. Belə ki, kralın diplomatik yazışmaları, mübarizəni sonunu yaxınlaşdıran Nezbi döyüşündə (1645) parlament ordusunun əlinə keçməsi, kralın öz nüfuzunun itirməsinə səbəb oldu.

Qalib siniflər olan yeni zadəganlar və burjuaziya hakimiyyəti öz əllərinə alaraq və ölkənin sərvətlərini öz mənafeləri üçün yenidən bölüşdürərək, davamlı nizam-intizam yaratmaq və qitə dövlətləri ilə normal ticarət və diplomatik münasibətləri

bərpa etmək arzusunda idilər. “Pul kisəsi” adlananlar “inqilab düşmənlərinin” əmlakının və torpaqlarının satışından, əkinçilikdən, aksiz vergilərindən, dövlət kreditlərindən qazanc əldə edərək, eyni coşqunluqla Avropa bazarını fəth etməyə hazır idilər. Bu coşqunluqla, onlar eyni zamanda “tanrının işi”ni, yəni burjua inqilabını sağ və solda olan düşmənlərdən müdafiə edirdilər.

İngiltərənin əsas dəniz düşmənləri və ticarət rəqibləri - Hollandiya, İspaniya və Fransa ilə mübarizə proqramı müəyyən edildi. Puritan fanatikləri respublikanı Hollandiyaya qarşı amansız mübarizəyə çağırdılar. Onlar deyirdilər -"Tanrı Hollandiyanı ingilislərə veribdir: dindarlar ora getməli və qitədə İsa Məsihin şahlığını qurmaq üçün Babil kafirini taxtdan devirməlidirlər."

Lakin hakimiyyətə gələn “Tanrı əhli” bütün dini meylləri ilə dünyəvi mənafelərini heç vaxt unutmurdılar. Onların ayıqlığı və realizmi İsveç kraliçası Xristinaya İngiltərənin İsveçdəki səfiri Uaytlok-a bu sözləri deməyə əsas verdi: “Siz ingilislər yalançı və riyakarsınız. Mən sizin generalınız haqqında danışmıram (yəni O.Kromvel), nə də sizin haqqınızda, amma mənə elə gəlir ki, İngiltərədə bu amillərdən faydalanmaq ümidi ilə, qəlblərində olduğundan daha çox möminlik nümayiş etdirən belə insanlar xeyli çoxdur.”

1640-cı illərin sonu və 1650-ci illərin əvvəllərində, inqilab dövründə İngiltərənin xarici siyasəti və diplomatiyası parlamentin səlahiyyətində idi. 1653-cü ildə parlamentin "qalığı" dağıldıqdan sonra o, tamamilə Kromvelin əlində cəmləşdi. İlk vaxtlar, ingilis diplomatiyasının əsas vəzifəsi qitə dövlətləri ilə normal diplomatik və ticarət əlaqələrini bərpa etmək idi.

Bu dövlətlərin diplomatik agentlərin əksəriyyəti Londonda yaşamağa davam edirdilər, lakin respublikanı tanımağa tələsməyən hökmdarlarından heç bir yeni etimadnamə almadan yeni hökumətlə əlaqələrdən çəkinirdilər. Belə ki, Fransa hökuməti edam cəzasına məhkum edilmiş İngiltərə kralı I Karlın lehinə ifadə vermək üçün çox gecikdi. Hətta, Fransanın Londondakı səfiri kralla görüş də tələb etmədi. Lakin, sonradan kral şurasında bu məsələnin müzakirə zamanı onun davranışı düzgün addım kimi qəbul edildi.

Respublikaya qarşı daha çox iltifat göstərən dövlət bütün hökumətlər arasında ən səbirsizi olan İspaniya idi. İspaniyanın Londondakı səfiri Don Alonso Kardenya yeni etimadnamə almasa da, ona respublika hökuməti ilə gizli əlaqələrə girmək tapşırığı verilmişdi. O, bunu böyük məharətlə həyata keçirirdi. Bu addımın əsas səbəbi İspaniyanın əzəli rəqibi Fransanı qabaqlamaq və İspaniyadan yeni ayrılmış Portuqaliyaya ingilislərin köməyi ilə (1640) pislik etmək istəyi idi. Portuqaliya ilə İngiltərənin münasibətləri çox gərgin vəziyyətdə idi. Çünki Portuqaliya, ingilis kral korsarlarına İngiltərə respublikasının ticarət gəmilərini qarət etməsinə yardım göstərirdilər.

Bu dövrdə İngiltərə-Fransa münasibətləri pisləşməyə başladı. Hələ kral I Karl edam olunmamışdan əvvəl, XIV Lüdovik daxili münaqişələr ilə məşğul olan İngiltərənin nəhayət zəiflədiyinə əmin olaraq, ingilis yun və ipək məmulatlarının Fransaya idxalını qadağan etdi (1648). Buna cavab olaraq İngiltərə parlamenti fransız şərablarının idxalını qadağan etdi. Həmin vaxt Fransada hakimiyyətdə olan kardinal Mazarini bu məsələdə İngiltərədən güzəşt almağa cəhd etdi. Lakin, Fransanın İngiltərədəki diplomatik işlər vəkili Krulle tam uğursuzluğa düçar oldu. İngilislər Krulleyə bildirdilər ki, "onlar keçmiş krala inandıqlarına baxmayaraq, dövləti onsuz asanlıqla idarə edirlər; Fransız şərabı olmadan da asanlıqla keçinə bilərlər". Bununla da, gömrük müharibəsi başladı. Hətta ticarət gəmilərinin qarşılıqlı ələ keçirilməsinə və rəsmi bəyan edilməsə də, müharibə baş verdi. Kardenya Fransa ilə İngiltərə arasındakı gərgin münasibətlərdən məharətlə istifadə etdi. Kardenya öz kralını respublikanı ilk tanıyan dövlət kimi, bu tanımadan böyük xeyir əldə edə biləcəyinə əmin edərək, Madrid sarayından yeni etimadnamə aldı (1650-ci ilin dekabrında). Faydalar, bəlkə də, az oldu, ancaq ispaniyalı səfir düşməninin və rəqibinin - Fransanın alçaldılmasına doğrudan da nail oldu. 1650-ci ilin dekabrında, Kardenya parlament tərəfindən təntənəli şəkildə qəbul edildi və öz təqdimatlarını onlara təhvil verdi. Krulle isə elə həmin gün həbs edildi. Krullenin Mazariniyə yazdığı məktubunda, İspaniya səfirinin parlament tərəfindən təntənəli qəbulunun təsviri və fransız səfirinin yaşadığı çətinliklərindən bəhs edilirdi: "Parlamentin üç komissarı, o cümlədən qraf Solsberi dövlət karetalarında (araba) Kardenyanı parlamentə dəvət etmək üçün onun yanına getdilər. Kardenyanı parlamentə gələrkən onu otuz və ya qırx minik arabası müşayiət edirdi. Bu karetalarda ingilis və ispan zadəganları oturmuşdular. Onların getdiyi yol boyunda iki süvari alayı düzülmüşdü və bir piyada alayı onu müşayiət edirdi. Parlamentdə səfir üçün xüsusi kürsü hazırlanmışdı. Bu kürsüyə oturan Kardenya latın dilində yazılmış etimadnaməsini spikerə təqdim etdi və ispan dilində uzun nitqlə çıxış etdi. Kardenya, özünün həşəmətli xristian hökmdarının adından bu palatanı millətinin ən ali hakimiyyəti kimi tanıyan ilk şəxs olmasından məmnun olduğunu bildirdi."

Parlament İspaniya səfirini belə şərəfləndirdiyi saatda, Fransanın diplomatik işlər vəkili Krulle əsgərlər tərəfindən həbs edilərək, tez bir zamanda İngiltərədən sürgün olundu.

Bütün bu hadisələr fransızlar üçün nə qədər xoşagəlməz olsa da, fransız burjuaziyasının maraqlarını qoruyan Mazarini və onun köməkçisi Kolber İngiltərə ilə normal diplomatik münasibətlərin bərpasına can atmağa məcbur oldular. İngilis korsarları tərəfindən qarət edilən fransız tacirləri hökumətlərini belə bir razılaşmaya getməyə sövq edirdilər. 1650-ci ildə tərtib etdiyi qeydlərdə Kolber krala fransız ticarətinin düşdüyü çətinliklərindən bəhs edirdi: "Əlverişsiz şəraitin yarandığı

vaxtdan ingilislər bizimlə müharibə aparırlar... İngilislərin qisasından əziyyət çəkdiyimiz müddətdə ticarətimiz çətin ki, bərpa olunsun... Ticarəti nizamlamaq üçün iki şərt lazımdır: təhlükəsizlik və azadlıq və onlara yalnız İngiltərə ilə mehriban qonşuluq münasibətlərini bərpa etməklə nail olmaq olar. İngilislərin xüsusilə təkid etdiyi şərt respublikalarının tanınmasıdır. Artıq, bu məsələdə ispanlar bizdən qabağa keçiblər. İngiltərədəki İspaniya səfirinin fəaliyyəti nəticəsində daha da sıx ittifaqdan qorxmaq lazımdır. Hər cür haqsızlıqlar yaradan, bizə zərər vermək üçün hər cür rəzilliyə hazır olan ispanların düşmən planlarının qarşısını almaq üçün bu respublikanı tanımağa məcbur olan Fransanı həm Tanrı, həm də insanlar bağışlayacaq."

Kardinalın özü də "belə bir rəzalət haqqında qərar verməyə", yəni respublikanın tanınmasını layiqli mükafata, başqa sözlə, İspaniyaya qarşı İngiltərə ilə ittifaqa satmağa hazır idi. Mazarini böyük coşqunluqla İngiltərə ilə münasibətləri yaxşılaşdırmaq qərarına gəldi. Çünki, onun düşmənləri, Fronde (müxalifətin birliyi) tərəfdarları respublika ilə razılaşmağa qarşı deyildilər, lakin, bu addımın əsl katoliklərin və ləyaqətli fransızların şərəfinə uyğun olmadığından ehtiyat edirdilər. Gücün və Makiavellinin pərəstişkarı olan Mazarininin özündə belə şübhələr yox idi. 1652-ci ildə, xarici işlərə parlamentin deyil, Kromvelin rəhbərlik etdiyini öyrənən Mazarini vasitəçilərin köməyi ilə onunla danışıqlara başladı.

Fronde (fr. "sapand" daş atan silah) - 1648-1653-cü illərdə Fransada baş vermiş bir sıra hökumət əleyhinə iğtişaşların adı və əslində özündə vətəndaş müharibəsini ehtiva edirdi. Təsnifata görə, "köhnə" burjua Parlament Frondasına (1648-1649) və şahzadələrin "yeni" aristokrat Frondasına (1650-1653) ayrılır.

Tezliklə ona Kromvel adından məlumat verildi ki, respublika yalnız Fransa kralından onu tanımasını və dərhal İngiltərəyə öz səfirini təyin etməsini tələb edir. Eyni zamanda, respublikanın təbəələrinə dəniz kaperliyi(rəsmi soyğunçuluğu) zamanı dəymiş itkilərin əvəzi ödənilməlidir. Mazarini və Fronde arasındakı mübarizə kardinalın xeyrinə qurtarmadığı təqdirdə, Kromvel nəzakətlə Mazariniyə İngiltərədə sığınacaq təklif edirdi. Bu şərtlər kardinalın istəklərindən çox uzaq idi. Lakin, Mazarinin və kral sarayı getdikcə daha çətin vəziyyətə düşürdü.

Fronde şahzadələri öz səylərini cənubi Fransa şəhəri Bordonun inqilabi hərəkat qüvvələri birləşdirdilər. Bordo inqilabçıları, İngiltərə Respublikası ilə ittifaqa girərək keçmiş azadlıqlarını bərpa etmək arzusunda idilər. İspanlar da ingilisləri onlarla müttəfiq olmağa sövq etmək üçün bütün səylərini səfərbər etdilər. Belə bir şəraitdə, Mazarininin ingilislərin təklifləri ilə razılaşmaqdan başqa çarəsi qalmadı. 1652-ci ilin dekabrında, Pikardiyanın intendantı (hərbi təsərrüfat işçisi) de Bordo kralın İngiltərə parlamentinə yazdığı məktubla İngiltərəyə göndərildi.

Elçiyə verilən təlimatda qeyd olunurdu- "Özlərini fransız tacının düşməni elan etmələrinə bəhanə verməmək üçün, ingilisləri əsəbləşdirəcək və ya onları təhqir edə biləcək heç nə deməmək tapşırılır. Əlahəzrət belə hesab edir ki, indiki zamanda ingilislərin dənizlərdə üzərək qarət ilə məşğul olmalarına imkan verilməsi daha yaxşı olardı, əks təqdirdə, onlar daha pis iş görə bilərlər, yəni, ispanlarla birləşə və ya bordolu üsyançıları öz himayəsi altına ala bilərlər."

Fransa kralının məktubu "ən xeyirxah və böyük dostlarımıza, İngiltərə Respublikası parlamentinin üzvlərinə" ünvanlansa da, İngiltərə Parlamenti bu müraciəti kifayət qədər hörmətedici saymadı. Ona görə fransızlar müraciətdə dəyişiklik edərək "İngiltərə Respublikasının Parlamentinə" ifadəsini yazdılar. Bundan sonra, Bordoya, Parlamentin onu qəbul etməyə və dinləməyə hazır olduğu açıqlandı, lakin cənab Bordo, əsil mənada səfir olmadığı üçün o, nə Parlamentdə, nə də Dövlət şurasında deyil, ancaq xarici siyasətlə məşğul olan komitədə qəbul olunacaq. 1652-ci il dekabrın 21-də, Fransa kralının başıbəlalı elçisi komitədə çıxış edərək bəyan etdi ki, "iki qonşu dövlət arasında mövcud ola biləcək ittifaq onların idarə formasının fərqliliyindən asılı olmayacaq. Ona görə də, əgər Tanrı bu ölkədə keçmiş idarəetmə formasını dəyişdirmək üçün lütfkarlıq göstərirsə, bu məsələ, hələ də Fransa ilə İngiltərə arasındakı ticarət əlaqələrində və qarşılıqlı razılaşmalarda dəyişiklikləri zəruri etmir. İngiltərə öz görkəmini dəyişə və monarxiyadan respublikaya çevrilə bilər, lakin mövcud vəziyyət dəyişməz olaraq qalır: xalqlar qonşu olaraq qalır və hələ də ticarət etmək üçün bir-birləri ilə maraqlanırlar. Xalqlar arasında mövcud olan müqavilələr hökmdarlar üçün deyil, xalqlara daha vacibdir, çünki onların əsas məqsədi qarşılıqlı fayda əldə etməkdir." Öz çıxışının sonunda Bordo qeyd etdi ki, "Əlahəzrət, Fransanın kaperləri tərəfindən zərər çəkmiş ingilis gəmi sahiblərinin haqlı iddialarını təmin etməyə hazırdır".

Keçmiş İngiltərə kraliçası Genrietta Mariya Mazarinin atdığı addımlardan xəbər tutanda, onun qəzəbini təsəvvür etmək asandır. İkinci oğlu, İngiltərənin gələcək kralı II Yakova göndərdiyi məktubda o, yazırdı: "Oğlum, bu məktubla sizə məlumat vermək istəyirəm ki,... buradan İngiltərəyə səfir göndərərək, bütün etirazlarımıza baxmayaraq, bu alçaq xainləri rəsmi şəkildə tanıyıblar. Sizə etiraf edirəm ki, baş vermiş böyük bədbəxtliyimizdən (əri İngiltərə kralı I Karlın edamı) sonra, mən heç vaxt belə bir dəhşət yaşamamışam!"

Fransa ilə son müqavilə bir qədər sonra, 1655-ci ildə, uzun gecikmələrdən sonra rəsmiləşdirildi, bu müddət ərzində Kromvel Fransa-İspaniya ziddiyyətlərindən istifadə edərək, Fransadan daha yeni güzəştlər almağı bacardı.

XVII əsrdə Avropanın ən güclü dəniz və ticarət dövləti olan Niderland ilə münasibətləri nizamlamaq fərqli yanaşma tələb edirdi. Holland gəmiləri ilə qarşılaşdıqları hər yerdə, onlar ingilislərin ən təhlükəli rəqibləri olurdular.

Hollandların fitnəkarlığı, Moskva dövlətində fəaliyyət göstərən ingilis tacirlərinin ticarət imtiyazlarının ləğvinə səbəb oldu. İngiltərə ictimai rəyi, Niderland Respublikasına qarşı ən qətiyyətli siyasətin - ya iki dəniz dövlətinin güclü ittifaqı, onları demək olar ki, vahid dövlətdə birləşdirilməsi, ya da Niderlandı dənizdə ingilis hegemonluğunu tanımağa məcbur etmək üçün ölüm-dirim mübarizəsinə girməyin tərəfdarı idi. .. İngilis diplomatiyasının ticarət respublikasına münasibətdə kəskin tərəddüdləri bu məsələ ilə bağlı irəli gəlirdi. İngiltərə, Niderlanda münasibətdə böyük dostluq bəyanatları ilə çıxış etməyə başlasa da, onun bu addımı kəskin qarşıdurma ilə başa çatdı.

1651-ci ilin fevralında, İngiltərə parlamentinin iki fövqəladə səfiri Sen Con və Strayklend Niderlanda göndərildi. Onları 40 zadəgan və 200-ə yaxın xidmətçi müşayiət edirdi. Haaqada onları 27 karetanın müşayiəti ilə, Baş ştatların nümayəndə heyəti xüsusi təntənə ilə qarşıladı. Lakin, tamaşaçı kütləsi ingilislərin gəlişindən olduqca narazı olduqlarını ifadə etdilər. İngiltərə səfirliyi ölkədə müəyyən bir müddət qaldıqdan sonra ingilislərin bu ölkədə hörmətə malik olmadıqlarına əmin oldular.

Buna baxmayaraq, Baş Ştatlarda təntənəli qəbul zamanı respublikanın yeddi komissarı İngiltərə səfirlərinə bəyan etdilər ki, Birləşmiş Əyalətlər İngiltərə Respublikasına öz dostluqlarını təklif edirlər. Onlar, nəinki ingilis milləti ilə hollandlar arasında həmişə mövcud olmuş sarsılmaz yaxşı münasibətləri yeniləməyə və saxlamağa, həm də ümumi maraq naminə İngiltərə ilə müqavilə bağlamağa da hazırdırlar. İngiltərə nümayəndələri hollandların dediklərini əsas götürərək, respublikanın təkliflərinin daha da irəli getdiyini bəyan etdilər. "Biz təklif edirik ki, ingilis milləti ilə Birləşmiş Əyalətlər arasında keçmiş dostluq və yaxşı münasibətlər nəinki bərpa edilərək, sarsılmaz olaraq qorunub saxlansın, həm də İngiltərə və Əyalətlər daha yaxın və daha səmimi bir ittifaq qursun. Belə ki, hər iki tərəfin mənafeyi naminə onlar arasında daha əsaslı və daha güclü qarşılıqlı maraq yaransın." Sonuncu ifadə hollandları çaşdırdı və onlar ingilislərin hollandlardan nə istədikləri barədə maraqlandılar.

İngilis elçiləri birbaşa cavabdan yayındılar və Əyalətlərin özlərinin İngiltərə Respublikasına müəyyən təkliflər verməli olduqlarını bildirdilər. İngilislərin əsil niyyəti isə tamamilə aydın idi: Hollandiyaya İngiltərə ilə birləşməyi təklif etmək, yəni ona könüllü olaraq İngiltərəyə tabe olmağı təklif etmək və imtina etdiyi təqdirdə, onunla olan bütün əlaqələri kəsmək. İngilislərin hollandları təklif etdikləri dostluq münasibətlərinin gizli mənası belə idi. Niderland ictimai rəyi belə bir dostluğun yaradılma ideyasının özündən də ikrahla imtina etdi. Hollandiyalı siyasətçi Yan de Vitt daha bir müddət sonra baş verən nifaqın səbəbi haqqında belə

açıqlama vermişdi: “bu nifaqın yaranmasına hollandların qəzəbi ilə yanaşı, "ingilislərin dözülməz xasiyyəti və rifahımıza sonsuz nifrəti" də səbəb olmuşdu.”

Hər iki tərəf dostluq bəyannamələrində biri digərini üstələməyə çalışsa da, iki respublika arasında faktiki münasibətlər getdikcə daha da gərginləşirdi. İngilislər holland gəmilərini ələ keçirdilər və məşhur Admiral Trompun komandanlığı altında Niderland donanması İngiltərə sahillərində davamlı olaraq keşik çəkirdi. İngilis səfirləri öz parlamentlərinə, bundan sonra nə edəcəklərini və evlərinə qayıtmalı olub-olmadıqları barədə sorğu göndərdilər. Parlament, Baş ştatlardan cavab almadıqlarına görə, öz səfirlərinə təklif etdilər ki, Niderland hökumətinə daha çox ultimatum kimi görünən dostluq təkliflərini təqdim etsinlər. Bu təkliflər yeddi maddədən ibarət idi.

İngiltərə Respublikası və Birləşmiş Əyalətlər Respublikası müharibə və sülh, beynəlxalq müqavilələr və ittifaqlar məsələlərində vahid dövlət kimi çıxış etməli idilər. Bəzi hallarda Baş ştatlar hətta daxili işlərdə belə İngiltərə parlamentinin fərmanlarına tabe olmalı idi. Sanki onların bu təklifləri düzgün qəbul etməyəcəklərindən narahat olan İngiltərə parlamenti səfirlərinin şifahi sözləri ilə əlavə etdi ki, bu təkliflər qəbul olunarsa, “hər iki respublikanın rifahı üçün daha böyük əhəmiyyət kəsb edən və daha mühüm nəticələr vəd edən maddələr də” təklif olunacaq.

Bütün bunlardan sonra, İngiltərə Respublikasının səfirlərinin vətənlərinə getməkdən başqa yolları qalmadı. Bu hadisələr iyulun əvvəlində baş vermişdi. Avqustun 5-də, Kromvelin məşhur “Naviqasiya aktı”(Dəniz nəqliyyatı aktı) parlamentə təklif edildi və elə həmin il də fövqəladə təcili halda nəşr olundu. Bu akt, XVII əsr merkantilizminin tipik məhsulu idi.

Merkantilizm (merkante - "tacir") — iqtisadi fəaliyyəti, iqtisadi hadisə, prosesləri və qanunauyğunluqları sistemli öyrənən ilk nəzəri praktiki sistem.

Bu addım, hollandlara bu yaxınlarda təklif olunan ingilis dostluğunun əsl mənasını göstərdi. Bu akta əsasən, xarici malların İngiltərəyə idxalına, yalnız ingilislərin tabeliyində olan və komandada dənizçilərinin ən azı dörddə üçü ingilis olan İngiltərə gəmilərindən istifadə etməklə icazə verilirdi. Lakin bu şərtlərdə belə, mallar İngiltərəyə yalnız mənşə yerlərindən gətirilə bilərdi. Bununla da, əsasən vasitəçilik ticarəti ilə məşğul olan Hollandiya İngiltərə ilə ticarət etməkdən məhrum olunurdu. İngiltərə və Nderland arasındakı müharibə (1652-1654) tərəflər bunu elan etməmişdən əvvəl başladı. Niderland məğlub oldu və “Naviqasiya aktı”nı tanımağa məcbur oldu.

2.2.Oliver Kromvelin diplomatiyası

1653-cü ildə Uzun Parlamentin "qalığının" buraxılması və 1654-cü ildə hakimiyyətin Kromvelin əlinə keçməsi sonuncunu diktator etdi. Və bundan sonra xarici siyasətdə bütün hakimiyyət və rəhbərlik onun əlində cəmləşdi. Əslində, Kromvel daha əvvəldən diktator olmuşdu. O, özü inqilabın ilk günlərindən hərəkətə keçməyin vaxtının gəldiyini başa düşən orta təbəqədən olan bir centlmen idi. O, keçmişin adət-ənənələrindən asılı olmayaraq, parlamentin hüquqları və kralın səlahiyyətləri ilə bağlı parlament müzakirələrinə qatılmırdı. Heykəltəraşlardan biri Kromveli bir əlində qılınc, o biri əlində dini kitab olan sakit və qətiyyətli heykəlini düzəltmişdi. Parlament üzvləri arasından olan rişxəndçilər "qalıq" dağıldıqdan sonra onun haqqında istehza ilə danışırdılar ki, Kromvel müqəddəs ruhla birbaşa əlaqə saxlamaqda iddialıdır və o, öz sərəncamlarını Tanrının əmrləri kimi qələmə verir. Bu istehzada müəyyən qədər də olsa həqiqət var idi.

Bu məsələdə öz vəzifəsinə tam əmin olan Kromvel öz sinfinin tələblərini xalqa İncil və Tanrıya istinadlarla dəstəklənən bir dini möizə kimi çatdırırdı. O, öz sinfinə xas olan sürət və qətiyyətlə hərəkət edərək, hakimiyyəti möhkəm şəkildə ələ keçirmiş və onu heç kimlə bölüşmək istəmirdi. Kardinal Mazarini ilə yazışmaqda olan London taciri Morel ona yazırdı: "Biz iki yüz nəfərdən daha çox on nəfərə ümid edirik (yəni parlamentə yox, Kromvel və onun yaxın köməkçilərinə). Daha çox sirr - daha çox sürət, daha az söz - daha çox hərəkət və bununla da, bütün hadisələr dörd il əvvəllər natiqlik dərslərində olduğu kimi inkişaf etməyəcək."

Öz vəzifəsinin icrasına başladıqdan sonra Kromvel öz mərasim məmurunu bütün xarici səfirlərinn yanına göndərərək, onlara "bu dəyişikliyin onların hökmdarları ilə İngiltərə arasında mövcud olan münasibətləri və dostluğu dəyişməyəcəyi" barədə məlumat verməyi tapşırdı. Dövlət Şurası özünün beş üzvünə parlamentin əvvəllər başladıqları diplomatik işləri davam etdirməyi həvalə etdi. Beynəlxalq siyasi şərait diktatorun hakimiyyətinin möhkəmlənməsinə kömək etdi. 1653-cü ilin iyununda ingilis donanması hollandlar üzərində həlledici qələbə qazanaraq, Niderland məsələsini öz xeyrinə həll etdi.

Korneli de Vitt, Birləşmiş Əyalətlərin Baş ştatlarının iclasında elan etdi: "Mənim vəzifəm sizin nəzərinizə çatdırmaqdır ki, indi həm biz, həm də dənizlər İngiltərənin ixtiyarındadır." Danışıqların aparıldığı müddətdə müharibə davam edirdi. İngilislər hələ də iki respublikanın birləşməsində israr edirdilər, lakin sülhün tezliklə bağlanmasının zəruriliyinə əmin olan Kromvel bu tələbdən imtina etdi və 1654-cü ilin iyununda sülhün bağlanmasına nail oldu. Müqavilənin bağlanmasında təkcə hollandlar deyil, həm də onların müttəfiqləri- Danimarka kralı, İsveçrənin protestant kantonları, Hanza şəhərləri və Şimali Almaniyanın bəzi protestant knyazları da

iştirak edirdilər. Bu müqavilə ilə eyni vaxtda Kromvel İngiltərə üçün daha az təhlükə kəsb edən digər dövlətlərlə- İsveç, Danimarka və Portuqaliya ilə ticarət müqavilələri bağladı.

Hələ 1653-cü ildə Kromvel İsveçlə müqavilə bağlamaq üçün ingilis diplomatı Uaytloku Stokholma göndərdi. Kromvel Uaytloka verdiyi təlimatında deyilirdi, ""Bu diplomatik səfər Respublika üçün çox vacibdir. Kraliça Xristinadan başqa, bütün xristian aləmində özümüzü dostluq münasibətləri ilə bağlaya biləcəyimiz elə bir hökmdar və dövlət yoxdur... Sizin hazırkı təyinatınız hollandlar və danimarkalılar ilə işlərimizi tənzimləmək üçün ən yaxşı vasitə olacaq. və eləcə də bizim ticarət işlərimiz də bundan asılıdır". İngiltərədə baş verən hadisələrə qəzəblə baxan və Parlamentin fəaliyyətinin "dərzi və ayaqqabı ustaları şirkətinin" işi olduğuna inanan İsveç zadəganlarının qərəzli fikirlərini aradan qaldırmaq üçün Uaytlok çox səy göstərməli oldu.

Bütün bunlara baxmayaraq, 28 aprel 1654-cü ildə Uaytlok İsveçlə sülh və ittifaq müqaviləsi imzaladı. 1654-cü ilin sentyabrında, Danimarka ilə imzalanan sazişdə İngiltərə, hollandların indiyə qədər istifadə etdiyi eyni şərtlərə uyğun olaraq, Zund böğazından keçmə hüququ aldı.

İngiltərəyə göndərilən Portuqaliya təmsilçisinin müqavilə bağlamaq təklifinə bir neçə aydan sonra müsbət cavab verildi. Portuqaliya ilə razılaşma onun İngiltərəyə iqtisadi tabeçiliyinin başlanğıcı oldu. Kromvel deyirdi: "Biz Portuqaliya sarayı ilə barışıq müqaviləsi bağladıq. Orada ticarətlə məşğul olan tacirlərimiz azad din hüququna və öz kilsələrində Uca Tanrını mədh etmək üçün tam azadlığa malik olacaqlar".

Bu məsələ, Kromvelin, Portuqaliya elçisi Pantaleon de Sanın qardaşının və dostlarının London şəhərində yeni Birjanın yaxınlığında dava-dalaş saldığına görə məhkəməyə verməsinə heç də mane olmadı. Bu münaqişədə hətta ölənlər və yaralananlar da olmuşdu. Məhkəmə portuqaliyalı zadəganını ölüm cəzasına məhkum etdi və o, böyük bir izdiham qarşısında edam olundu. Bu məşum hadisədən bir neçə saat əvvəl məhkumun qardaşı olan Portuqaliya elçisi, bu qorxunc tamaşanı görməmək üçün yenicə imzalanmış müqavilə ilə İngiltərəni tərk etmişdi.

İspaniya ilə münasibətlərin yaradılması məsələsi daha çətin oldu. İspaniyanın İngiltərə Respublikasını tanıyan ilk ölkə olmasına baxmayaraq, Kardenyanın bütün səylərinə baxmayaraq, müqavilənin imzalanması son dərəcə ləng gedirdi. İngilislərin bu böyük müstəmləkəçi ölkəyə nifrəti çox əvvəldən başlamışdı və başa düşülən idi. Kromvel protektor elan edilən kimi, Fransa tərəfindən qabaqlanacağından ehtiyat edən Kardenya, şəxsi görüş zamanı öz hakimiyyətini təsbit etmək üçün Kromvelə İspaniya tərəfindən kömək təklif etdi. O, öz kralı adından söz verdi ki, İspaniya, edam edilmiş İngiltərə kralının oğlu Karl Stüartın bütün cəhdlərini dəstəkləməkdən

imtina edəcək. Bunun qarşılığında Kardenya Kromveldən Fransaya qarşı İspaniya ilə birlikdə hərəkət etməyi tələb etdi. Lakin, Mazarini İspaniya hökumətindən daha fərasətli olduğunu sübut etdi. O, kralın adından Kromvelə "qardaş", "əmioğlu" və s. kimi titul verməyə hazır idi, lakin Kromvel kardinala protektordan başqa heç bir titulu qəbul etməyəcəyini söyləməyi xahiş etdi. Mazarini, lazım gələrsə, edam edilmiş kralın ailəsini "nəzakətlə" Fransadan çıxarmağa hazır olduğuna işarə etdi və Kromvelə pul və ittifaq təklif etdi.

Kromvel rəqiblərinin təkliflərini sakit halda dinləyərək, onlara yeni şərtlər və tələblər qoydu. Əslində o, kimə üstünlük verəcəyi məsələsinə çoxdan qərar vermişdi. Fransa güclü idi və ona qarşı mübarizə aparmaq qeyri-müəyyənliklərlə dolu idi. İspaniya tənəzzül vəziyyətində idi və o, zəngin və asan bir ov kimi görünürdü. İspaniya İngiltərəyə öz müstəmləkələri ilə ticarət etməyə icazə vermirdi. İngilis tacirlərini, ispan nöqteyi-nəzərindən bidətçiləri inkvizisiya məhkəməsinə təhvil verirdi. Kromvel İspaniyadan Qərbi Hindistana ingilis gəmilərinin azad üzməsinə və inkvizisiyanın təqiblərinə son qoyulmasını tələb etdi. Bu tələb, hətta İspaniya səfiri üçün də həddən çox ağır idi. Kardenya qəzəblə bəyan etdi: “İnkvizisiyadan azad olunmağı və Qərbi Hindistana azad üzmə hüququnu tələb etmək, mənim hökmdarımın hər iki gözünü tələb etmək deməkdir”.

Kromvelin nəzərində həmişə vacib olan İspaniya ilə müharibə indi qaçılmaz oldu. Müharibə dənizçiləri, zabitləri və əsgərləri məşğul edə bilər, onlara pul qazanmaq imkanı verə bilərdi; o, papistlərə qarşı olan fanatikləri sakitləşdirə bilərdi; o, nəhayət, katolik ispanların əlinə keçən Yeni Dünyada İngiltərəyə hökmranlıq verəcəyini vəd etdi. Bu torpaqlar ticarət, kapitalist istismarı və yaranmaqda olan birjanın tanrısı olan sərt protestant Kalvinin tanrısına aid olmalı idi. Yeni Dünya sahillərinə Pennin başçılıq etdiyi eskadra, İspaniya sahilləri yaxınlığında keşik çəkmək üçün Aralıq dənizinə Blekin eskadrası göndərildi. Pennə İspan müstəmləkələrini istila etməyə başlamaq üçün göstəriş verildi.

Bununla belə, ingilislərin San Dominqo adalarına sahib olmaq cəhdi ispanlar tərəfindən dəf edildi. Bu hadisə İspaniyada məlum olanda İspaniyadakı ingilis gəmilərinə və mülklərinə embarqo qoyuldu, tacirlərin çoxu həbs olundu və kral Kardenyeyə İngiltərəni təcili tərk etməyi əmr etdi. Kardenya 24 oktyabr 1655-ci ildə Duvrdə ona təqdim edilmiş gəmiyə minəndə, Kromvel Fransa ilə sülh və ticarət müqaviləsi imzalayırdı. Fransanın İngiltərədəki səfiri Bordo yazırdı: "Əgər bu müqavilənin imzalanması uzun müddət gözlənildiyindən o, öz əhəmiyyətini itirmişdisə də, İspaniya ilə münasibətlərin pozulması deyəsən, ona yeni qiymət verəcəkdir." Noyabrın 28-də London küçələrində xalqa, Fransa ilə müqavilə və İspaniya ilə müharibə haqqında məlumatlar açıqlanırdı.

1656-cı ilin sentyabrında Kromvel yaranmış vəziyyəti belə izah edirdi: “Biz İspaniya ilə müharibə vəziyyətindəyik. Biz bu müharibəni zərurətdən başladıq. Tanrının özünün göstərdiyi kimi, İspaniya bizim ən böyük və təbii düşmənimizdir. Çünki o, papizmin təcəssümüdür. Nə İspaniyadan məmnunluq əldə etmək, nə də ondan özünün təhlükəsizliyini qorumaq mümkün deyil. Biz ondan tacirlərimiz üçün yalnız cibində İncil saxlayaraq, özünəməxsus şəkildə Tanrıya dua etməsinə icazə istədik, lakin ispandan vicdan azadlığı gözləmək olmaz.” Müharibə, yalnız Kromvelin ölümündən sonra başa çatdı və İspaniya üçün uğursuz oldu. İngiltərə Amerikada qul ticarətinin mərkəzi olan Yamayka adasını ələ keçirə bildi.

3.Şanlı inqilab

1659-cu il mayından 1660-cı ilin may ayına qədər davam edən II respublika dövründə parlament İngiltərəni təkbaşına idarə edirdi. 1660-cı il fevralın 3-də Şotland ordusunun komandanı general Monk ordusu ilə Londona daxil oldu, dövlət çevrilişindən sonra yeni parlament seçkiləri keçirildi. 4 aprel 1660-cı ildə II Karl xüsusi manifest - "Bred bəyənnaməsi"ni qəbul etdi. Bəyənnaməyə əsasən, vətəndaş müharibələrinin iştirakçıları əfv edildi, dini etiqad azadlığı elan olundu, torpaq üzərində sahibkarlıq hüququ təsdiq olundu. Beləliklə, parlament I Karlın oğlu II Karlı taxt-tacda bərpa etdi (1660-1685). Onun oğlu II Yakov (1658-1688) katolik idi.II Karl və oğlu II Yakov Stüartların əvvəlki qeyri-məhdud hüquqlarını bərpa etməyə çalışırdılar. Lakin hər iki kralın yeritdiyi siyasi xətt çox tezliklə İngiltərə parlamentində və hakimiyyət elitasında yeni müxalifətin meydana gəlməsini şərtləndirdi, ölkədə ictimai-siyasi vəziyyət yenidən olduqca kəskin xarakter aldı. Parlament partiyaları – torilər, viqlər və anqlikan kilsəsi Fransanın dəstəyindən istifadə edərək Stüartların qadın xətti ilə qohumlarından olan II Yakovun qızı Mariyanın əri protestant Oranlı Vilhelmə (o Hollandiyanın ştathalteri idi) müraciət edərək onu İngiltərəyə kral taxtına dəvət etdilər. 1688-ci il dekabr ayında, Vilhelm (1688-1702) Londona daxil oldu və II Yakov tələsik şəkildə Londonu tərk etmək məcburiyyətində qaldı. Hakimiyyəti tamamilə ələ aldıqdan sonra, 1689-cu il oktyabr ayında Vilhelm “hüquqlar haqqında” bill adlı parlamentin və kralın hüquqlarını müəyyənləşdirən sənəd imzaladı. 13 bənddən ibarət billdə xarici siyasət fəaliyyətinin bütün sahələri parlamentin səlahiyyətinə verilirdi. Həmin sənəd İngiltərə parlament monarxiyasının təsis aktı hesab edilə bilər. Beləliklə, 1688-ci il “şanlı inqilabı” adlanan bu hadisə ilə də İngiltərə burjua inqilabı başa çatdı. İngilis tarixşünaslarının “şanlı inqilab” adlandırdığı epizod 1688-1689-cu illərin hadisələri ilə bağlı olmuşdur. İngiltərə burjua inqilabının qələbəsi İngiltərənin dünya birinciliyi yoluna çıxmasını təmin etdi. XVII əsrin sonları üçün, inqilabdan sonra keçən 40 il ərzində İngiltərə dünyanın ən böyük müstəmləkəçi dövlətinə çevrildi.

İKİNCİ FƏSİL
XVII ƏSRDƏ BEYNƏLXALQ VƏZİYYƏT

III BÖLMƏ
XVII əsrdə Şərqi Avropa dövlətlərində beynəlxalq vəziyyəti

§1. Şərqi Avropada "çoxbucaqlı" münasibətlər

1.Slavyanların qədim mübahisələri

2.Baltik regionu uğrunda mübarizə

3."Əbədi sülh"

§2. XVII əsrdə Moskva dövlətinin beynəlxalq vəziyyəti

1.XVII əsrin əvvəllərində Moskva dövlətinin beynəlxalq mövqeyi və diplomatiyası

2.XVII əsrdə Moskva dövlətinin xarici siyasətinin əsas istiqamətləri

3.Moskva dövlətinin diplomatik idarələri

4.XVII əsrin rus diplomatları

5. "Səfirlik mərasimi"

6.XVII əsrdə Moskva dövlətinin diplomatiyasında yeni təmayüllər

§1. Şərqi Avropada "çoxbucaqlı" münasibətlər

1.Slavyanların qədim mübahisələri

2.Baltik regionu uğrunda mübarizə

3."Əbədi sülh"

1.Slavyanların qədim mübahisələri

Otuz illik müharibənin son mərhələsində Rusiya hökuməti, diplomatik təzyiqlərdən istifadə edərək, İsveçlə 1617-ci il Stolbov müqaviləsinin bəzi müddəalarına yenidən baxılmasına nail olmağa cəhd etdi. O belə hesab edirdi ki, Avropada hərbi əməliyyatlar uzandığına görə, İsveç hökuməti güzəştə getməyə məcbur olacaqdır. Lakin, Avropada müharibə Moskvanın gözlədiyindən tez başa çatdı və İsveç bu dəyişiklikdən imtina etdi. Lakin, belə tələblərin irəli sürülməsi faktının özü onu göstərir ki, Rusiya Baltik məsələsini gündəmdən çıxarmamış və əlverişli şərtlər daxilində onu yenidən maraqlı dövlətlər qarşısında qoymağa hazırdır.

Smolensk müharibəsi başa çatdıqdan və 1634-cü il Polyanovski sülhünün imzalanmasından sonra, Rusiyanın Reç Pospolita ilə münasibətləri yaxşılaşdığına görə, onun Baltik məsələsində mövqeləri tezliklə möhkəmləndi. Hər iki dövlət

Osmanlı İmperiyasına qarşı ortaq ziddiyyətlərə əsaslanaraq qarşılıqlı anlaşmaya can atdılar. Osmanlı İmperiyasına qarşı Polşa kralı IV Vladislav böyük müharibə aparmağı planlaşdırdı. Bu müharibə onun planına uyğun olaraq, Polşa və Rusiya qoşunlarının Türk sultanının müttəfiqi və tabeliyində olan Krım xanlığına qarşı birgə yürüşü ilə başlamalı idi. Rusiya və Polşa diplomatları anti-Türkiyə ittifaqı ilə bağlı danışıqlara başladılar. 1647-ci ilin avqustunda iki ölkə arasında hərbi müdafiə müqaviləsinin layihəsi hazırlandı.

Reç Pospolita — Polşa Krallığı taxt-tacı və Böyük Litva knyazlığı arasında 1569-cu ilin iyul ayında imzalanmış Lyublin sazişinə əsasən yaradılmış federativ dövlət. Torpaqlarının 1795-ci ildə Rusiya, Prussiya və Avstriya arasında bölünməsi ilə ləğv edilmişdir.

Dövlətin ənənəvi adı - "Reç Pospolita" -(polyak dilində reç- iş; pospolita - ümumi) termininin polyak dilinə hərfi tərcüməsidir. Bu termin rus dilinə hərfi mənada "Ümumi iş" kimi tərcümə olunur. Dövlətin rəsmi adı Polşa Krallığı və Litva Böyük Hersoqluğudur. Ya da sadəcə Polşa- Litva Birliyi mənasın verir.

Lakin, Ukrayna xalqının Polşa hökmranlığına qarşı kazak ordusunun getmanı B.Xmelnitskinin rəhbərliyi ilə başlayan azadlıq müharibəsi Türkiyəyə qarşı birgə hərəkət planlarının üstündən xətt çəkmiş oldu. Polşa, Rusiyanı həm Krıma, həm də kazaklara qarşı hərbi əməliyyatlara cəlb etməyə cəhd etsə də, rədd cavabı aldı. Rusiya hökuməti Ukraynanın azadlıq hərəkatını dəstəklədi. Çünki, o, bir tərəfdən qardaş xalqa həmrəylik hissi bəsləyir, digər tərəfdən isə özünü Ryuriklərin qədim irsinin qanuni varisi hesab edərək, onu Rusiya dövlətinə birləşdirmək istəyirdi. 1 oktyabr 1653-cü ildə Zemstvo məclisi (Bütün torpaq şurası) azadlıq hərəkatı fəallarının dəfələrlə kömək çağırışlarına cavab olaraq, Ukraynanı Rusiyaya birləşdirmək barədə qərar verdi. Bu qərar əslində Polşaya müharibə elan etməyə bərabər idi.

Zemstvo məclisi (Bütün torpaqların şurası) XVI əsrin ortalarından XVII əsrin sonlarına qədər Rusiya çarlığının ən yüksək sinfi-nümayəndə qurumu, əhalinin bütün təbəqələrinin (təhkimçilər istisna olmaqla) nümayəndələrinin siyasi, iqtisadi və inzibati məsələlərini müzakirə edən yığıncağıdır.

1654-1667 –ci illər Rusiya-Polşa müharibəsi dövlət sərhədlərinin dəyişməsi, bəzilərinin möhkəmlənməsi, digərlərinin isə zəifləməsi ilə bağlı Şərqi Avropada qüvvələr nisbətində dərin dəyişikliklərə təkan verdi. Bu dəyişikliklər, formal olaraq bu regionun dövlətləri arasında olan münasibətlərə şamil edilməyən Vestfal sülhünün müddəalarına qətiyyən zidd deyildi. Lakin, onlar birbaşa və ya dolayı yolla bütün Avropada, o cümlədən Qərb ölkələrində vəziyyətə təsir göstərərək, orada formalaşmış qüvvələr nisbətini ya gücləndirə, ya da poza bilərdilər. XVII əsrin ikinci yarısında - XVIII əsrdə, Avropanın şərqində baş verən dəyişikliklərin Avropa tarazlığına mənfi təsiri yalnız zaman keçdikcə tam üzə çıxdı.

2.Baltik regionu uğrunda mübarizə

1655-ci ildə İsveç Polşaya qarşı müharibəyə girdi, onun qoşunları tezliklə Varşava və Krakovu işğal etdi. 1655-1660-cı illər Birinci şimal müharibəsi başladı. Bu müharibə XVII əsrdə Avropanın bir çox ölkəsinin, o cümlədən Rusiyanın bu və ya digər dərəcədə birbaşa cəlb edildiyi ən böyük ümumavropa əhəmiyyətli münaqişələrdən biri idi. Lakin, İsveçin Baltikyanı ölkələrdə hədsiz güclənməsi Rusiyanı heç qane etmirdi. Ona görə də, Rusiya Polşa ilə barışıq bağlayaraq 1656-cı ildə İsveçə müharibə elan etdi. Rus qoşunları, İsveçin Baltikyanı ərazilərinin əhəmiyyətli bir hissəsini fəth etdilər və Riqanı mühasirəyə aldılar.

İsveç kralı X Karl Qustav çətin vəziyyətdə qalaraq, Brandenburq kürfüstü ilə ittifaq müqaviləsi bağladı. Müqaviləyə əsasən İsveç kralı, Brandenburq kürfüstünün bu vaxta qədər yalnız Polşa kralının vassalı kimi sahib olduğu Prussiyaya olan hökmranlıq hüquqlarını tanıdı. Lakin, 1657-ci ildə, köhnə düşməni ilə hesablaşmaq üçün fürsət gözləyən Danimarka, anti-İsveç koalisiyasına qoşuldu. Belə bir şəraitdə, X Karl Qustav cəsarətli bir manevr edərək, öz ordusunu Polşadan çıxararaq, Danimarkanın köhnə düşməni olan və onun müstəqilliyinə dəfələrlə qəsd etmiş Şlezviq-Qolşteyn hersoqunun ərazilərinə hücum etdi. Sonra isə, 1657-1658-ci illərin şaxtalı qışından istifadə edən isveçlilər, donmuş Böyük və Kiçik Belt (Kəmər) boğazlarının buzunun üstündən keçərək Danimarkanın tam ürəyini, Kopenhagenin yerləşdiyi Zelandiya adasına hücum etdilər. Danimarkalılar barışıq istədilər və 1658-ci ilin əvvəlində sülh imzalandı. Sülhün şərtlərinə əsasən, Danimarka İsveçin xeyrinə Skandinaviya yarımadasının cənubundakı bütün qədim mülklərindən (Skon və s.), Bornxolm adasından və Norveçin Tronhaym bölgəsindən imtina etdi. Həmin ilin payızında, X Karl Qustav bu uğuru ilə kifayətlənməyərək ikinci dəfə Danimarkaya hücum etdi və Kopenhageni mühasirəyə aldı.

Böyük Belt (Böyük Kəmər) şərq tərəfdən Lollan və Zelandiya, qərb tərəfdən Lanqelann və Fyun adaları arasında yerləşən boğaz. Böyük Kəmər Kattegat və Baltik dənizini birləşdirən üç ən böyük Danimarka boğazlarından biridir (o biri ikisi:Oresund və Kiçik Kəmərdir).

İsveç kralının başgicəlləndirici qələbələri, əvvəlcə onun tərəfində olan Fransa və İngiltərənin narahatlığına səbəb oldu. Onlar israr edirdilər ki, 1660-cı ildə Kopenhagen sülhünə əsasən isveçlilər Bornholm və Tronhaymı danimarkalılara qaytarsınlar. 1660-cı ildə isveçlilər, Reç Pospolita ilə Oliv müqaviləsini imzaladılar ki, o da əsasən, aralarındakı münasibətlərdə müharibədən əvvəlki status-kvonu bərpa etdi. Polşa bu müqavilədən istifadə edərək Ukrayna və Belarusiyaya sahib olmaq üçün Rusiya ilə müharibəni bərpa etdi. Bu da, öz növbəsində, İsveçlə müharibədə mühüm uğur əldə etməyən Rusiyanı 1661-ci ildə onunla Kardis sülhü imzalamağa vadar etdi ki, bu da tərəfləri müharibədən əvvəlki vəziyyətə qaytardı.

3."Əbədi sülh"

Rusiya-Polşa müharibəsi daha bir neçə il dəyişən uğurlarla davam etdi - bəxt bu və ya digər tərəfə gülümsəyirdi. Lakin, ehtiyat mənbələrinin həddindən artıq tükənməsi, hər iki dövləti 1667-ci ildə Andrusov barışığının imzalanmasına razılaşmağa məcbur etdi. Onun şərtlərinə görə, Polşa Rusiyaya Dnepr çayının sol sahilində XVII əsrin əvvəllərində ələ keçirdiyi əraziləri, o cümlədən Smolensk, Çerniqov və Seversk torpaqlarını qaytardı. Bölgənin sağ sahilində yerləşən Kiyev və onun vilayəti 1669-cu ilə qədər müvəqqəti olaraq Rusiyaya verildi, lakin əslində sonra da onun tabeliyində qaldı. Rusiya hökuməti, Kiyevin ilhaqına xüsusi əhəmiyyət verirdi. O, bu məsələdə rus monarxlarının Ryuriklərin tarixi irsinə iddialarının qanuniliyinin təsdiqini görürdü. Dnepr çayının aşağı axarları, yəni Zaporojye ordusunun torpaqları Rusiya və Polşanın birgə nəzarəti altına keçdi.

Avropa dövlətləri ilə Osmanlı İmperiyası arasında XVII əsrin sonlarında başlayan ziddiyyətlərin kəskinləşməsi şəraitində, Portanın bir daha, indi həqiqətən öz tarixində Qərbə son hücumu olan bir zamanda, Rusiya və Polşa öz ziddiyyətlərini razılaşma yolu ilə həll etmək qərarına gəldilər. Onlar, Andrusovo barışığının şərtlərini, 1686-cı il mayın 6-da, Moskvada imzalanmış "əbədi sülh" haqqında bağlanmış müqavilə ilə təsdiqlədilər. "Əbədi sülh" müqaviləsi Smolensk və onun ətrafını, Çerniqov və Starodub şəhərləri ilə birlikdə Seversk torpaqlarını, Zaporojye və həmçinin Kiyevi rus dövlətinə verilməsini təsbit etdi.

§2. XVII əsrdə Moskva dövlətinin beynəlxalq vəziyyəti

1.XVII əsrin əvvəllərində Moskva dövlətinin beynəlxalq mövqeyi və diplomatiyası
2.XVII əsrdə Moskva dövlətinin xarici siyasətinin əsas istiqamətləri
3.Moskva dövlətinin diplomatik idarələri
4.XVII əsrin rus diplomatları
5. "Səfirlik mərasimi"
6.XVII əsrdə Moskva dövlətinin diplomatiyasında yeni təmayüllər

1.XVII əsrin əvvəllərində Moskva dövlətinin beynəlxalq mövqeyi və diplomatiyası

XVII əsrin əvvəllərində Rusiyada kəndli müharibəsinin başlaması, Polşa və İsveçin müdaxiləsi ölkənin beynəlxalq mövqeyinə təsir etməyə bilməzdi. Rusiyanın beynəlxalq mövqeyi ciddi sarsıntı keçirdi. I Yalançı Dmitri, Polşa kralı, polyak panlarından və Roma Papasından öz fitnəkar siyasətinə dəstək almaq üçün onlarla bəzi gizli müqavilələr bağladı. Əgər onlar həyata keçirilsə idi, onun nəticəsi Moskva

dövlətinin parçalanmasına və məhvinə səbəb olardı. Yalançı Dmitrinin ölümündən sonra bu müqavilələr nəşr olundu və polyaklara qarşı böyük qəzəbə səbəb oldu. Buna baxmayaraq, əhalinin dəstəyindən məhrum olan Vasili Şuyski hökuməti İsveçlə biabırçı saziş bağlamağa məcbur oldu. O, xaricdən yardım almaq üçün, Finlandiya körfəzi sahillərinin Rusiyaya aid hissəni - Kareliyanı İsveçə güzəştə getdi. Şuyskinin qüdrəti zəiflədikcə rus boyarlarının ayrı-ayrı qrupları müdaxiləçilərlə müqavilə bağlayırdılar. 1610-cu ildə Şuyski hakimiyyətdən salındı, "Yeddi boyar hakimiyyəti" yarandı. Moskva boyarları milli xəyanət yoluna qədəm qoydular. 4 fevral 1610-cu ildə, Tuşin "kralına" xidmət edən Moskva boyarlarının nümayəndələri Sigismund ilə razılaşaraq, Reç Pospolitanın şahzadəsi Vladislavı Moskva taxtına dəvət etdilər. Polşa ordusu Moskvaya daxil oldu.

Hökumət qoşunlarının məğlubiyyətindən və Şuyskinin devrilməsindən sonra müvəqqəti boyar hökuməti 1610-cu ilin avqustunda getman Jolkevski ilə də belə bir müqavilə bağladı. Moskvanın Reç Pospolita ilə ittifaqı, Polşa ilə düşmənçilik edən İsveç üçün öz tələblərini irəli sürmək üçün bir bəhanə oldu. Novqorod rəhbərliyi, yerli əhalinin yuxarı təbəqəsi ilə birlikdə, İsveç sərkərdəsi Yakov Delaqardi ilə müqavilə imzaladı, razılığa əsasən Novqorod İsveç kralının qardaşını kral kimi tanıdı. Ölkəni yadellilərin əlinə verən bütün bu müqavilələr hakim qrupların eyni istəyinə - hakimiyyəti öz əllərində saxlamaq və xalq üsyanı təhlükəsini aradan qaldırmaq istəyinə əsaslanırdı. Yalnız, kütlələri sirayət edən geniş vətənpərvərlik hisslərinin yüksəlişi Moskvanı orada məskunlaşmış polyaklardan azad etməyə imkan yaratdı. 1610-1612-ci illərdə Kuzma Minin və Dmitri Pojarskinin başçılığı altında xalq ordusu Polşa və İsveç müdaxiləsinə son qoydu.

Moskva dövləti "böyük dağıntılardan" güclü sarsıntılarla çıxdı. Smolensk və Çerniqov-Seversk torpaqlarını tutmağı bacaran Sigismund Moskvanı təhdid etməkdə davam edirdi. Onun oğlu Vladislav rus taxt-tacı ilə bağlı xəyali iddialarından əl çəkməmişdi. Novqorod isveçlilər tərəfindən işğal edildi və isveçli namizəd Moskva taxtına iddialarından əl çəkməmişdi.

1613-cü ildə, Zemstvo məclisi 16-yaşlı Mixail Romanovu (1613-1645) çar seçdi və bununla da Romanovlar sülaləsinin əsası qoyuldu (1613-1917). Rusiya dövlətində qanun külliyyatı — "Məclis qanunnaməsi" hazırlandı və 1649-cu ildə Zemstvo məclisində qəbul edildi.

Lakin, yeni çar Mixail Romanovu hökuməti çox gərgin beynəlxalq vəziyyətdə fəaliyyətə başlamalı oldu. Mixail Fyodoroviç taxta çıxdıqdan sonra dərhal çar seçilməsi ilə bağlı bütün Avropa dövlətlərinə "məlumat" verərək, Polşa və İsveçə qarşı ittifaq bağlamaq və borc almaq xahişləri ilə onlara müraciət etdi. Yeni hökumətin davamlığına inamın olmaması bu danışıqların nəticələrində özünü göstərdi. Müqəddəs Roma İmperiyası yeni çarı yalnız 1616-cı ildə tanıdı.

"Rusların Böyük hökmdar adlandırdıqları indiki hökmdarını (Mixail Fyodoroviçi)" çar kimi tanımaqdan hamıdan daha uzun müddətə imtina edən Reç Pospolita oldu. Yalnız, 1634-cü il Polyanovski müqaviləsinə əsasən, Vladislav öz iddialarından imtina edərək, Mixail Romanovun çar titulunu tanıdı. Rusiya ilə sabit ticarəti bərpa etməkdə maraqlı olan Hollandiya və İngiltərənin vasitəçiliyi sayəsində İsveçlə də sülh bağlandı. İngiltərə, Hollandiya və Fransa Moskva dövlətinin tanınması qarşılığında da Rusiya vasitəsilə İrana tranzit yolun təmin edilməsini tələb etdilər. Lakin, Moskva hökuməti bu məsələdə böyük qətiyyət göstərdi.

2.XVII əsrdə Moskva dövlətinin xarici siyasətinin əsas istiqamətləri

İsveçin və Polşanın hərbi müdaxilələrindən sonra, ölkələrində sabitliyə nail olan Romanovların ilk çarları dövründə, Moskva dövləti tədricən güclü mütləq monarxiya xüsusiyyətlərini özündə ehtiva edirdi. XVII əsrin ortalarından başlayaraq Rusiya Şərqi Avropanın siyasi həyatında elə böyük rol oynayırdı ki, burada heç bir beynəlxalq problem Moskva dövlətinin iştirakı olmadan həll edilə bilməzdi.

Beləliklə, XVII əsrin ortalarında Moskva dövlətinin Avropanın güclü böyük dövlətlərindən biri kimi əhəmiyyəti artıq müəyyən olunmağa başladı.

XVII əsrdə Rusiyanın üç əsas beynəlxalq problemi var idi: Polşa- Litva Birliyinin hakimiyyəti altında olan Ukrayna və Belarus torpaqlarının yenidən Rusiyaya birləşdirilməsi məsələsi həll olunmamış qalırdı. Baltikyanıya doğru irəliləmək məsələsi də aktuallığını saxlayırdı. Əsrin sonunda üçüncü vəzifə - Türkiyə və onun vassalı Krıma qarşı mübarizə aparmaq zərurəti özünü aydın şəkildə göstərdi. Hər üç problem bir-biri ilə bağlı idi, bu da onların hər birinin ayrı-ayrılıqda həllini çətinləşdirirdi. Polşaya qarşı mübarizədə Moskvanın təbii müttəfiqləri İsveç, Türkiyə və Krım idi. Lakin, həmin dövlətlər Litva-Polşa mirasına münasibətdə Moskvanın rəqibləri idi: İsveç, Polşanın Baltikyanı ölkələrinə və Litvaya, Türkiyə və Krım isə - Ukraynaya iddia edirdi. Digər tərəfdən, İsveçlə Baltik dənizi uğrunda mübarizə Moskvanı Polşa- Litva Birliyi ilə ittifaqa doğru sövq edir və müsəlman cənubu ilə sülh münasibətlərinin qurulmasını tələb edirdi. Eyni formada, Türkiyəyə qarşı yalnız Polşa ilə ittifaqda, yəni Ukraynadan imtina etməklə hərəkət etmək mümkün idi. XVII əsrin ikinci yarısında Moskvanın qarşılaşdığı və həll etməli olduğu mürəkkəb beynəlxalq vəziyyət belə idi.

XVII əsrin ortalarında Polşa- Litva Birliyində yaşanan siyasi böhran Moskva üçün geniş imkanlar açdı. Ukrayna xalqının Boqdan Xmelnitskinin rəhbərliyi altında Polşa panlarının (ağalarının) zülmünə qarşı üsyanı Belarus torpaqlarına yayıldığından, hücuma keçmək üçün son dərəcə əlverişli məqam yarandı. 1654-cü ilin yanvarında, Pereyaslav Radasının Ukraynanın Rusiya dövlətinə birləşdirilməsi

xahişi ilə Moskva hökumətinə müraciəti, hərbi əməliyyatların başlanması üçün xarici bəhanə oldu. Bu əməliyyatların gedişi Moskva üçün çox uğurlu inkişaf etdi.

Lakin, Rusiyanın uğurlarının ən qızğın vaxtında İsveç gözlənilmədən müharibəyə müdaxilə etdi. Polşa ilə müharibə meydanına gözlənilmədən İsveçin daxil olması heç bir halda Moskvanın maraqlarına uyğun deyildi. Moskva, o dövrdə yaradılmış, İmperiya, Danimarka və Brandenburqun daxil olduğu anti-İsveç koalisiyasına qoşuldu. Bu koalisiya İsveçin həddindən artıq güclənməsinin qarşısını almağa yönəlmişdi.

Rus qoşunları Livoniyada uğurla irəliləməyə başladı, Kurlyandiya rəsmi olaraq Rusiyanın himayəsinə keçdi. Lakin, İsveç yaranmış çətin vəziyyətdən çıxa bildi. 1658-ci ildə Moskva ilə üç il müddətinə Valiesar barışığına nail olan İsveç, elə həmin il Danimarka ilə, o biri il isə Polşa-Litva Birliyi ilə Olivdə əlverişli sülh bağladı. Polşa-Litva Birliyi, Oliva sülhü İsveç ilə qarşıdurmadan azad olaraq, Moskva dövləti ilə müharibəni bərpa etdi. Rusiya iki cəbhədə müharibə aparmaq iqtidarında deyildi. Moskva, Ukrayna naminə Livoniyadan imtina etmək qərarına gəldi. 1661-ci ildə Kardis müqaviləsinə əsasən, Baltikyanı ərazidə əldə edilmiş bütün fəthlər İsveçə qaytarıldı.

Bu zaman, Polşa-Litva Birliyi ilə müharibə uzanaraq, dəyişən uğurlarla davam etməyə başladı. Dəfələrlə müharibənin diplomatik yolla dayandırılmasına cəhdlər edildi. Hələ 1654-cü ildə, Moskva müharibənin dayandırılması üçün, Fransanın vasitəçi olmasını xahiş etdi. 1655-ci ildə, kral Yan Kazimirin xahişi ilə imperator III Ferdinand vasitəçiliyi öz üzərinə götürdü. Onun nümayəndələrinin iştirakı ilə, Vilnoda atəşkəs barışığı bağlandı. 1661-ci ildə III Ferdinandın varisi II Leopold yenidən Baron Meyerberqin başçılığı ilə Moskvaya səfirlik göndərdi. Lakin, bu vasitəçilik nümayəndəliyinin səfərində də, real nəticələr əldə olunmadı.

Lakin, imperiyanın bu cəhdləri faktının özü onu göstərir ki, o dövrdə Rusiya-Polşa münaqişəsi yerli xarakterini itirərək ümumavropa əhəmiyyəti qazanmışdır. Bir neçə dəfə öz aralarında müharibə edən hər iki dövlət ya çar Alekseyi, ya da onun oğlunu Polşa taxtına seçilməsi yolu ilə sülhə nail olmağa çalışırdılar. Lakin, Moskva başa düşürdü ki, Polşa-Litva Birliyi ilə ittifaqa, yalnız Ukrayna məsələsində böyük güzəştlər etmək bahasına nail olmaq olar. Digər tərəfdən, Türkiyəyə qarşı Rusiyanın köməyinə ehtiyacı olan Polşa Rusiyanın güclənməsindən qorxurdu. Beləliklə, bu danışıqlardan heç bir nəticə alınmadı.

Türkiyə tərəfində artan təhlükə nəhayət, müharibə edən dövlətlərin yaxınlaşmasına gətirib çıxardı. 1667-ci ildə, üç illik danışıqlardan sonra, Andrusovoda barışıq bağlandı. Müqavilənin şərtlərinə görə bütün Solsahil Ukrayna və Kiyev iki il ərzində Rusiyaya verilirdi. Bu, Moskva üçün böyük diplomatik uğur idi. Müqaviləyə ümumi Avropa əhəmiyyətli akt xarakteri verildi. "Əbədi sülh"

haqqında sonrakı danışıqlar uğursuz olardısa, "xristian hökmdarlarını vasitəçilik etməyə çağırmaq" lazım idi. Daha da vacib olanı, Polşa-Litva Birliyinin Moskva dövlətinin iştirakı olmadan Türkiyə ilə müqavilə bağlamamaq öhdəliyi götürməsi idi.

Polşa-Litva Birliyi ilə müharibənin dayandırılması Moskvaya digər daha iki təcili xarici siyasət vəzifəsinin həllinə keçmək imkanı yaratdı. Bu baxımdan o, Qərbi Avropanı iki düşərgəyə ayıran iki siyasi birləşmə arasında seçim etməli oldu. İsveçin artan gücü onun ən yaxın qonşuları arasında narahatlığa səbəb olurdu. Danimarka, Brandenburq və İmperiya hər bir vasitə ilə Moskva dövlətini İsveçə qarşı yönəlmiş ittifaqa cəlb etməyə çalışırdılar. İsveçin arxasında XVII əsrin ən güclü Avropa dövləti - Fransa dayanırdı. Anti-İsveç blokuna qoşulan Niderland ştatları Fransadan ehtiyat edirdilər və eyni zamanda İsveçə qarşı Moskva ilə ittifaq bağlamaq üçün də səy göstərirdilər. Lakin, İsveçlə münasibətləri pozmaq Avropanın cənub-qərbində və Ukraynada fəal siyasətin davam etdirilməsindən imtina demək idi. Nə çar Aleksey Mixayloviç, nə də oğlu Fyodor Alekseyeviç bu barədə qəti qərar verə bilmədilər.

Bütün bunlara baxmayaraq, 1676-cı ildə Moskva dövləti İsveçlə olan sərhədinə böyük sayda hərbi qüvvələr göndərdi. Hollandların fikrincə "Bu vəziyyət, bəlkə də ən çox ... müttəfiqlərin uğuruna kömək etdi". Danimarka diplomatları hər bir formada Moskvanı İsveçə qarşı daha qəti addımların atılmasının zəruriliyi ideyası ilə təhrik edərkən, İsveç hökuməti də öz növbəsində “alyans” (ittifaq) yaratmaq haqqında səylər göstərirdi. İsveç bunun qarşılığında Moskvaya, Türkiyəyə qarşı dəstək olacağını vəd edirdi. Buna cavab olaraq, Moskva diplomatları, Reç Pospolita ilə müharibə zamanı isveçlilərin öz hərəkətləri nəticəsində ruslara vurduqları zərərin müqabilində, İngermanland və Kareliyanı “əvəz ödəmə” şəklində onlara güzəştə getməsini tələb etdilər. Beləliklə, artıq XVII əsrdə İsveçə qarşı yaranan "şimal ittifaqı" ideyası, yalnız XVIII əsrdə reallaşa bildi.

Polşa- Litva Birliyi ilə sülh bağlandıqdan sonra, Moskvanın diqqəti getdikcə daha çox türk-tatar probleminə yönəldi. Artıq, Andrusovo barışığından sonra, Moskva öz elçisi Andrey Viniusu İngiltərə kralı II Karlın yanına göndərərək, Türkiyəyə qarşı mübarizə aparan Polşaya kömək etmələrini xahiş etdi.

1672-ci ildə, Sədrəzəm Körpülü Fazil Əhməd Paşanın komandanlığı altında 80 min Osmanlı əsgəri Ukraynaya hücum edərək, Kamenets-Podolskini tutdu və Lvovu mühasirəyə aldı. Böyük bir məğlubiyyətə uğrayan polyaklar, 18 oktyabr 1672-ci il tarixində Buçaş müqaviləsi imzalamağa razı oldular. Müqaviləyə görə, Dnepr çayının sağ sahili Osmanlılara verilirdi və onlara 22 min dukat qızıl pul dəyərində təzminat ödəməli idilər.

Bu razılığa baxmayaraq, polyaklar məğlubiyyəti qəbul edə bilmirdilər. Polşa kralı Maykl Koribut Visnioviecki öldü və məşhur Polşa sərkərdəsi III Yan Sobieski kral seçildi.

1672-ci ildə Türkiyə ilə müharibədə Polşa- Litva Birliyinin tam məğlubiyyəti Moskvanın bir sıra fəal diplomatik addımlar atmasına səbəb oldu. General Menezius Brandenburqa, Vyanaya, Venesiyaya və Papanın yanına, Andrey Vinius Fransa və İspaniyaya, Yemelyan Ukraintsev İsveç və Hollandiyaya göndərildilər ki, onları Polşaya kömək etməyə təşviq etsinlər. Moskvanın çağırışına yalnız Brandenburq kürfüstü müsbət cavab verdi. Moskva hökuməti özü isə hər hansı bir öhdəlik götürməkdən yayındı.

1674-cü ildə, Osmanlıların ruslarla müharibə şəraitində olmasından isrifadə edən polyaklar yenidən Osmanlılara qarşı müharibəyə başladılar. Ancaq onlar, yenə də tam uğur qazana bilmədilər. 27 oktyabr 1676-cı ildə İzvança müqaviləsi (və ya Zuravno müqaviləsi) bağlandı. Bu müqavilə əsasən Buçaş müqaviləsi ilə eyni şərtlərə malik idi. Ancaq, Polşanın pul ödəmək öhdəliyi ləğv edildi və Ukraynanın qərb sahilindəki bölgənin üçdə biri Polşada qalırdı.

Lakin, Ukraynanın sağ sahilinə görə Türkiyə ilə müharibə yenidən başladı. Bu müharibə, 1676-cı ildən 1681-ci ilə qədər davam etdi. Bu səbəbdən, 1679-1680-ci illərdə Çaadayev Fransa və İngiltərəyə, Krivoqo-Buturlin Vyana və Berlinə göndərildi.

Nəhayət,1686-cı ildə, Moskvanın bu qədər inadla səy göstərdiyi, Portaya qarşı mübarizə üçün bütün Avropa qüvvələrinin birləşməsi baş tutdu: İmperiya, Fransa, Venesiya, Brandenburq, Reç Pospolita və Moskva ümumi müttəfiqlik sazişi bağladılar. Öhdəliyə görə, Rusiya Krımla müharibə etməli idi. Anti-türk koalisiyasının bağlanmasından əvvəl, Moskva və Polşa-Litva Birliyi arasında Andrusovo barışığı əsasında "əbədi sülh" haqqında saziş imzalanmışdı. Yalnız, Sol sahil Ukraynası deyil, həm də əvvəlcə cəmi iki il müddətinə Moskva dövlətinə verilmiş Kiyev də daimi olaraq onun ixtiyarında qaldı.

Təbii ki, Moskva dövlətinin xarici siyasətinin istiqamətinin cənuba yəönəlməsi nəticəsində, Baltikyanı ərazilər məsələsi uzun müddətə gündəmdən çıxarıldı. 1683-cü ildə Kardis sülhü heç bir narazılıq olmadan təsdiqləndi.

Moskva hökumətinin diplomatik fəaliyyəti şərq istiqamətində də az olsa da inkişaf etdi. Türkiyəyə qarşı düşmən münasibəti onun tarixi düşməni olan İranla dostluğun yaranmasına səbəb oldu. Moskvanı bu addıma ticarət maraqları sövq edirdi, çünki fars ipəyi Qərbi Avropaya Moskva dövlətindən keçərək gedirdi.

1654-cü ildən Çinlə diplomatik və ticarət əlaqələri qurmağa cəhdlər edildi. Lakin, uzun müddət bu cəhdlər uğursuz qaldı. Rus kazaklarının və sənayeçilərinin Amurda görünməsi və Amur bölgəsində rus müdafiə istehkamlarının tikintisi, Çin imperatoru Kan Si hökumətini sərhəd mübahisələrini həll etmək üçün danışıqlar aparmağa məcbur etdi.

Çin tarixində ilk dəfə olaraq "böyük səfirlər" xarici səfirlərlə görüşmək üçün Pekini tərk etdilər. Danışıqların aparıldığı çətin bir şəraitdə, yəni, Pekin hökumətinin tələblərini silahla dəstəkləməyə hər an hazır olan Çin ordusu qarşısında, 1689-cu il Nerçinsk müqaviləsinin imzalanması mahiyyət etibarı ilə Moskva diplomatiyasının çox böyük uğuru idi. O, Amur çayının yuxarı hövzəsində Rusiyanın bərqərar olmasını təmin etdi və Rusiyanın Çinlə ticarəti üçün geniş imkanlar açdı. Rusiya-Çin münasibətləri XIX əsrin ortalarına qədər Nerçinsk müqaviləsi əsasında qurulmuşdu.

Beləliklə, XVII əsrin sonlarında istər Qərbdə, istərsə də Şərqdə Moskvanın beynəlxalq mövqeləri gücləndi. XVIII əsrdə, Rusiya çarlığının xarici siyasətinin fəaliyyət göstərəcəyi əsas istiqamətlər müəyyən edildi.

3.Moskva dövlətinin diplomatik idarələri

Böyük Moskva knyazlığının Böyük knyazı, bütün Rus dövlətinin hökmdarı III İvan dövründən (28 mart 1462 — 27 oktyabr 1505) xarici siyasət sahəsində Moskva dövlətinin qarşısında duran mürəkkəb vəzifələr diplomatik əlaqələri idarə etmək üçün xüsusi bir qurumun yaradılmasını tələb edirdi.

III İvan dövründə belə bir qurum hələ mövcud deyildi. Xarici siyasət məsələlərini Böyük knyazın özü Boyar duması ilə birlikdə müzakirə edərək, qərar verirdi. Səfirlərin qəbulunun texniki tərəfi o dövrdə maliyyə nazirləri rolunu oynayan böyük knyazlığın xəzinədarlarına həvalə edilirdi. İlk vaxtlar, səfir qismində Böyük knyazın xidmətində olan yunanlar və italyanlar çıxış edirdilər. Bunlara yunan etnosuna aid olan Yuri Trahaniot, Dmitri Ralov, italyan Volpe və Cislardini misal gətirmək olar. Yerli moskvalılardan daha mədəni, çevik, bacarıqlı, Avropa qayda-qanunlarını və Qərbdəki siyasi vəziyyəti daha yaxşı bilən bu şəxslər diplomat kimi əvəzolunmaz görünürdülər. Lakin onların arasında tipik fırıldaqçılar da var idi ki, onlar üçün Moskva hökmdarına diplomatik xidmət sadəcə zənginləşmə vasitəsi idi.

Belə xüsusiyyətlərə malik olanlardan biri də, pul hərisi, dini inancını dəyişərək provaslavlığı qəbul edən Antonio Volpe idi. O, eyni zamanda III İvana, Venesiya Respublikasına, Roma taxtına və Qızıl Ordaya xidmət etmiş və onların hamısını aldatmışdı. Lakin çox keçmədən, xarici mütəxəssislər ilə yanaşı diplomatik xidmətdə ruslar da peyda olur. III Vasilinin dövründə xarici mənbələr dəfələrlə diplomatik tapşırıqla Romaya, Danimarkaya, Prussiyaya səfər etmiş Böyük knyazlığın katibi (məmur) Dmitri Gerasimovdan hörmətlə bəhs edirlər. O, kifayət qədər savadlı olaraq, latın və alman dillərini bilirdi, məşhur yunan alimi rahib Maksim Qrekin müqəddəs kitabların rus dilinə tərcüməsi işində iştirak etmişdir. D.Gerasimov teoloji məsələlərlə maraqlanıan, italyan musiqisini yüksək qiymətləndirən, xaricdə qədim abidələrlə maraqlanan bir şəxs idi.

Beynəlxalq münasibətlərə rəhbərlik edən xüsusi bir qurumun təşkili XVI əsrə təsadüf edir. Tədricən böyük knyazlığın bacarıqlı məmurları arasından xarici səfirlərlə danışıqlarda ixtisaslaşanlar seçilərək, irəli çəkilirdi. 1549-cu ildə "səfirlik işi" kargüzar İvan Mixayloviç Viskovata (o vaxt o, hələ "kargüzar köməkçisi idi") "tapşırıldı". Bu təyinat Səfirlik idarəsinin xüsusi bir qurum kimi əsasını qoydu. 1561-ci ildə Viskovat "möhürdar", yəni kansler titulunu aldı. Əsli-nəcabəti olmayan adi bir şəxsin belə bir məsul vəzifəyə təyin edilməsi, görünür, onunla izah olunur ki, çar xarici siyasətə rəhbərliyi özündə saxlayaraq, bununla bağlı məsələləri Boyar duması ilə birlikdə həll etməkdə davam edirdi və "möhürdar" (dövlət möhürünü qoruyan) isə yalnız dəftərxanaya rəhbərlik edirdi. Mitropolit (Rus Pravoslav kilsəsində yepiskop titulu) Viskovata məsləhət verərək deyirdi: "Kaş ki, sizə tapşırılan vəzifənin əsas mahiyyətini anlayaydiniz, onda bu sənədlərə daha diqqətlə yanaşardınız!"

Ancaq çox keçmədən səfirlik dəftərxanasının təvazökar rəhbəri bütün cari diplomatik işləri öz əlinə aldı və hökumətin bütün xarici siyasət fəaliyyətində çox vacib bir şəxs oldu. O dövrün əcnəbi şəxsinin qeydlərində deyilirdi: "O dövrün Moskvada bənzəri olmayan ən gözəl insan" olan Viskovat istedadlardan məhrum deyildi: "xarici səfirlər heç bir xüsusi təhsili olmayan bir moskvalının ağlına və bacarığına çox təəccüblənirdilər". Viskovat 1569-1570-ci illərdə, Türkiyə və Krımın Livoniya müharibəsinə girdiyi zaman, Moskvanın düçar olduğu böyük diplomatik məğlubiyyətin qurbanı oldu. Türk yönümlü olmaqda və sultan hökuməti ilə müstəqil əlaqələrdə günahlandırılaraq, 1570-ci ilin dekabrında edam edildi.

Səfirlik idarəsində Viskovat, Andrey və Vasili Şelkalov qardaşları ilə əvəz olundu. Dumanın katibi, "çox hiyləgər, ağıllı və əsəbi adam" olan Andrey Şelkalov dörddə bir əsr ərzində Səfirlik idarəsinə rəhbərlik edərək, dövlət həyatının bütün sahələrinə böyük təsir göstərdi. Yeni yaranan bürokratiyanın tipik nümayəndəsi, "gecə-gündüz dincəlmədən, saatlarla işləyirdi, o, işinin az olmasından narazı qalaraq, daha çox işləmək istəyirdi". Onu əvəz edən qardaşı, Dumanın katibi və möhürdar Vasili Şelkalov "bacarığına görə Andreydən xeyli geri qalırdı".

XVII əsrin əvvəllərində, Səfirlik idarəsi bir qurum kimi çox böyük deyildi; 1594-1601-ci illərdə, idarədə "Səfirliyin duma katibi"ndən və onun köməkçisindən başqa, tərcüməçiləri və aşağı işçi heyəti nəzərə almasaq, cəmi 15-17 nəfər köməkçi kargüzar var idi. XVII əsrdə Səfirlik idarəsi əhəmiyyətli dərəcədə böyüdü. O, xarici siyasətə rəhbərlik etməklə yanaşı, xarici tacirlərin və ölkəyə gələn bütün əcnəbilərin (hərbilərdən başqa) işləri ilə məşğul olurdu. İdarə yeni ilhaq edilmiş ərazilər fəth edildikdən sonra, ilk vaxtlar bu torpaqlara (məsələn, Sibir, Smolensk vilayəti, Ukrayna və s.) nəzarət edir və əsir düşənləri satın alaraq, azad etmək üçün vergi pulunun yığılmasına rəhbərlik edirdi ("polonyanik vergisi").

Polonyanik pulu - Rusiyada 1551-1679-cu illərdə müharibədə əsir düşmüş rus "polonyaniki"lərinin (əsirlərinin) fidyəsi üçün yığılan vergi.

Nəhayət, bəzi ikinci dərəcəli qurumlar (Novqorod, Qalisiya, Ustyuq və Vladimir çetləri (bölgələri) və Möhür idarəsi) Səfirlik idarəsinə tabe edildi. Vəzifələrin qarışdırılması Səfirlik idarəsində işlərin normal gedişatını çox çətinləşdirdi. Bu məsələ, onun ən ağıllı rəislərindən biri olan Ordin-Naşokinin təəssüflə belə bir ifadə işlətməsinə səbəb oldu: "böyük dövlət işləri"ni "bardaqlardan", yəni meyxanalardan gəlir toplamaqla qarışdırmaq olmaz."

XVII əsrdə Səfirlik idarəsinin vəzifələrinin müxtəlifliyi və genişliyi onun heyətinin əhəmiyyətli dərəcədə genişləndirilməsini tələb edirdi. 1689-cu ildə Səfirlik idarəsində 53 məmur, 22 tərcüməçi və 17 dilmanc (şifahi danışıqların tərcüməçisi) var idi.

Beynəlxalq münasibətlərin Moskva dövlətinin həyatında böyük əhəmiyyət kəsb etməsi, 1667-ci ildən başlayaraq idarənin başında adi məmurların deyil, boyarların, bəzən isə "Dövlətin iri möhürlərini mühafizə edənlər", yəni kanslerin durmasında özünü biruzə verir. Bir müddət idarənin özünə də "Səfirlik möhürünün dövlət idarəsi" adı verilmişdi. Bütün bunlar hökumətin xarici siyasət fəaliyyətinin əhəmiyyətinin artmasından soraq verirdi.

Beləliklə, XVII əsrdə Səfirlik idarəsi tamamilə böyük bir təsisat kimi formalaşdı. Lakin, çar öz diplomatlarının fəaliyyətinə ciddi nəzarət edirdi. Çar Alekseyin dövründə bilavasitə onun tabeliyində olan xüsusi Məxfi İşlər İdarəsi təşkil edildi. Bu idarəyə nəzarət yalnız çara aid idi. "Boyarlar və duma adamları idarəyə girmir və onun heç bir işinə qarışmırdılar". Bu məxfi idarədən, xüsusi məmurlar "xarici dövlətlərdə" olan səfirlərə və səfirlərin müşavirələrinə təlimatlar göndərilirdi ki, "səfirlərin öz hökmdarına necə hörmət etmələri, səyahət vaxtı və danışıqlarda etdikləri çıxışlarında hansı işlər gördükləri haqqında mütəmadi çara məlumat versinlər". Lakin, bu nəzarətin heç bir təsiri olmadı, çünki səfirlər "işlərində səhv etdiklərini başa düşəndə çarın qəzəbindən qorxaraq" bu məxfi məmurları rüşvət ilə satın alırdılar ki, "çarın yanında olarkən onları tərifləsinlər və səfirlər haqqında mənfi rəy verməsinlər".

4.XVII əsrin rus diplomatları

XVII əsrdə Rusiyanın Səfirlik idarəsinə bir neçə böyük siyasi xadim rəhbərlik etmişdi. Onların arasında birinci yerdə Afanasi Lavrentiyeviç Ordin-Naşokin dayanırdı. O, Avropa miqyaslı dövlət xadimi idi, bir əcnəbinin sözlərinə görə "Avropalıların heç birindən əskik olmayan müdrik nazir" idi. Pskov mülkədarının oğlu olan, təvazökar Ordin-Naşokin müstəsna diplomatik istedadları sayəsində

gündəmə gəldi. O, Pskov rayonunun İsveçlə sərhəd məzələlərinin nizamlanması məsələsinin səlahiyyətli şəxsi kimi ilk dəfə özünü göstərmək imkanı qazandı.

Ordin-Naşokin xüsusilə, Valiesar barışığının (1658) imzalanmasında fəal iştirak etmişdi. Sazişin şərtlərinə görə İsveç Livoniyada fəth etdikləri şəhərləri ruslara güzəştə getdi. O, Polşa ilə Andrusovo barışığının (1667) imzalanmasında da iştirak etmişdi və bu müqaviləyə görə Moskva solsahil Ukraynanı və Kiyevi aldı. Ordin-Naşokin bir az nəzəri hazırlığa sahib idi: o, "məntiqli" yazı yazmağı bacarırdı, riyaziyyat, latın və alman dillərini bilirdi, xarici qayda qanunlardan məlumatlı idi - onun haqqında deyirdilər ki, "alman nizamını və adətlərini bilir". Xaricilərdən gələn bütün məsələlərin mənimsəmənin qeyd-şərtsiz tərəfdarı olmasa da, "yaxşı olanı kənardan, hətta düşmənlərdən də öyrənilməsinin ayıb olmadığını" qəbul edirdi.

Ordin-Naşokin birinci dərəcəli diplomat idi. Onun incə diplomatik siyasətindən əziyyət çəkən əcnəbilərin dili ilə desək, o "ən hiyləgər tülkü" idi. "O, özünəməxsus və gözlənilməz siyasi mühakimələr aparmağın ustası idi". Onunla mübahisə etmək çətin idi. "Düşüncəli və hazırcavab, olan Ordin-Naşokin bəzən danışıqlar apardığı xarici diplomatları əsəbiləşdirirdi. O, ən kiçik bir səhvi, diplomatik dialektikada heç bir uyğunsuzluğu əldən verməzdi. Diqqətsiz və ya uzaqgörən olmayan düşməni çıxılmaz bir vəziyyətə salırdı". Bütün bacarıqlarına baxmayaraq, Ordin-Naşokin rəqiblərində olmayan bir diplomatik keyfiyyətə sahib idi - dürüstlük. O, müqavilə bağlayana qədər hiyləgərlik edirdi, lakin onu bağladıqdan sonra onu pozmağı günah hesab edirdi və bu məsələdə, çarın da müvafiq göstərişlərini yerinə yetirməkdən qəti şəkildə imtina edirdi. 1667-ci ildə, artıq boyar rütbəsində olan Ordin-Naşokin Səfirlik idarəsinin müdiri təyin edildi.

Ordin-Naşşokinin özünün çox dəqiq proqramı var idi, onu, böyük əzmkarlıq və ardıcıllıqla həyata keçirirdi və tez-tez çar Alekseyin özü ilə münaqişəyə girirdi. Böyük siyasi uzaqgörənliklə o, Moskva dövlətinin bütün səylərini Baltik dənizinin "limanlarını" alınmasına yönəltməyi zəruri hesab edirdi. Bu məqsədə çatmaq üçün o, İsveçə qarşı koalisiya yaratmağa və Livoniyanı ondan almağa çalışırdı. Ona görə də, o, Türkiyə və Krımla sülh bağlamağa çalışırdı. "Polşa ilə "müəyyən səviyəyə qədər" (mülayim şərtlərlə) barışıq bağlamaqda" israr edirdi, o, hətta Ukraynanı qurban verməyə hazır idi. Ordin-Naşokin hətta Polşa- Litva Birlik ilə ittifaq arzusunda idi: "Slavyan xalqlarının hamısı Rusiya və Polşanın rəhbərliyi altında birləşsə idilər, onları bürüyəcək şöhrət hər yerə yayılacaq". Ordin-Naşşokinin iqtisadi siyasətə də öz baxışları var idi.

İsveçlilər onu "Rus Rişelyesi" adlandırırdılar. O, ardıcıl olaraq merkantilizm prinsiplərini həyata keçirirdi. Ordin-Naşokinin xarici siyasət proqramı, (Ukraynadan imtina, Polşa ilə birləşmə və Livoniyanın İsveçdən alınması) öz nazirinə daim göstərdiyi böyük etimad və yaxşı münasibətinə baxmayaraq, çarın rəğbətini

qazanmadı. 1671-ci ildə, Polşaya səlahiyyətli səfir təyin edilən Ordin-Naşçokinə öz əqidəsinə uyğun gəlməyən şərtlərlə sülh bağlamaq tapşırığı verildiyi üçün, o, istefa verdi və monastıra getdi. Ölümündən əvvəl o, 1679-cu ildə Andrusovo barışığının uzadılması ilə bağlı danışıqlarda böyük uğurla iştirak etdi.

İsveçlə yaxınlaşmanın tərəfdarı və ukraynalıların böyük himayədarı olan A.S.Matveyevin Ordin-Naşşokinin yerinə təyin edilməsi, Ordin-Naşşokinin gedişinə nazirlikdə böhranın yarandığını göstərir. Bu böhran, nazirliyin xarici siyasətin əsas istiqamətlərində ali hakimiyyət orqanları ilə fikir ayrılıqları nəticəsində yaranmışdı.

Səfirlik idarəsinin digər rəhbərlərindən diplomatik bacarıqlarını nümayiş etdirən şəxs çariça Sofiyanın sevimlisi, knyaz Vasili Vasilyeviç Qolitsın idi. Andrusovo barışıq şərtləri əsasında Polşa-Litva Birliyi ilə əbədi sülhün bağlanılmasına görə, Rusiya, Qolitsının siyasi bacarığına borclu idi.

5. "Səfirlik mərasimi"

XVI-XVII əsrlərdə Moskva "səfirlik mərasimi (ənənəsi)" də formalaşdı, yəni diplomatik nümayəndələrin qarşılama üsulları, diplomatik etiket və s. Bu ənənələrin həyata keçirilməsi tez bir zamanda həll olunmadı. XV əsrin sonunda hələ xüsusi bir mərasim mövcud deyildi. Poppeli gizli şəkildə qəbul edən III İvan, orada iştirak edən boyarlardan uzaqlaşaraq səfirlə məxfi məsələlərdən danışırdı. Venesiya səfiri Kontarininin Moskvada qəbulu zamanı, III İvan başı söhbətə elə qarışmışdı ki, həmsöhbətinin üstünə getməyə başlamışdı. Bu səbəbdən, Kontarini, Böyük knyaza hörmət əlaməti olaraq divara söykənənə qədər geri çəkilmişdi.

Moskva diplomatları Qərbə səfərə gedərkən oradakı diplomatik mərasimləri diqqətlə müşahidə edərək, öyrənir və sonra onları öz vətənlərində olduğu kimi təkrar edirdilər.

1489-cu ildə, III İvan Yuri Trahaniotu elçi kimi alman imperatorunun sarayına göndərdi. Trahaniot qayıtdıqdan sonra verdiyi hesabatdan Böyük knyaz ona "böyük şərəf" verildiyini öyrəndi. Rəsmi qəbulda imperator və onun oğlu olan kral "səfiri öz yerlərindən ayağa duraraq qarşılamışdılar. Onlar üç-dörd pillə aşağı düşərək və onunla ayaq üstə görüşmüşdülər". İmperator Trahaniotu "özünün qarşısındakı yaxın oturacaqda " əyləşdirib. İmperatorun səfiri Georq fon Turn Moskvaya cavab səfəri ilə gəldikdə, III İvan onu eyni şəkildə qəbul etdi- "yerindən qalxaraq onunla görüşdü və onu qarşıdakı skamyada oturmağa dəvət etdi."

Tədricən, bəzən təsadüfi müşahidələrə və təkrarlara əsaslanmaqla, XVI əsrdə Moskva diplomatiyasına xas olan çox mürəkkəb etiket formalaşdı. Bu etiket, şübhəsiz ki, Qərbi Avropa nümunələrinə uyğun formada həyata keçirilirdi. Ümumiyyətlə, Moskva "səfirlik mərasimi" həm Şərq, həm də Bizans formalarından kəskin şəkildə fərqlənirdi. Lakin, Qərbi Avropadan mənimsənilən etiket nümunələri

Moskvada öz çevikliyini itirərək, sərt formalar alır, Asiya diplomatik ənənələrinin formaları və xırda dəyişikliklərə imkan verilməməsi şərtləri əlavə olunurdu.

Son nəticədə, Moskva diplomatları tam şəkildə əmin idilər ki, onların yaratdığı səfirlik etiketi bütün dövlətlərin tabe olduğu və ya tabe olmalı olduğu ən real qaydalardır. 1654-cü ildə, çar Alekseyin səfirləri imperatorun "ağıllı əyanlarına" bəyan etdilər ki, onlar səfirliyi onlardan tələb olunan formada deyil, "səfirlik qaydalarında olduğu kimi aparacaqlar", "başqa dövlətlərin səfirləri və elçiləri bizə bir nümunə deyil."

Moskva diplomatlarının fikrincə, bütün dövlətlər siyasi əhəmiyyətindən asılı olaraq dərəcələrə bölünürlər. Ona görə, Moskva çarı bütün hökmdarları öz qardaşı kimi qəbul edə bilməz. Bu və ya digər hökmdar ilə diplomatik münasibətlərə girməzdən əvvəl Moskva onun həqiqətən müstəqil hökmdar, yoxsa "canişin" (vassal) olduğunu öyrənməyə çalışırdı. Moskvada Vaz sülaləsindən olan İsveç kralları uzun müddət çarın özü ilə birbaşa ünsiyyət qurmağa layiq olmayan sadə "müstəqil hakimiyyətə sahib olmayanlar" (hökumət naibi) hesab olunurdular. Onlardan Moskva ilə diplomatik münasibətləri Novqorod çanişinləri vasitəsilə aparılmasını tələb edirdilər. İsveç hökuməti bu tələbə qarşı çıxaraq, öz etirazını bildirirdi.

IV İvan, Sigismund-Avqustu da İsveç kralını qardaş adlandırdığına görə qınadı: axı o, Vaz nəslinin əsl-nəcabəti olmayan sadə su daşıyanlar olduğunu bilməli idi. 1687-ci il müqaviləsinə əsasən, Brandenburq kürfüstü Rusiya səfirlərini qəbul edərkən xüsusi hörmət göstərməyi öhdəsinə götürdü, çünki Moskva hökuməti kürfüstü kraldan aşağı səviyyəyə qoyurdu. Hələ XVII əsrin sonlarında, Brandenburq səfirləri Moskvada onlara imperatora və bütün krallara göstərilən eyni şərəfi əldə etmək üçün, mənasız yerə can atırdılar.

Bu və ya digər dövlətin dərəcəsindən asılı olmayaraq, xarici dövlətlərlə bütün münasibətlər hökmdar "şərəfinin" qorunması prinsipi üzərində qurulurdu.

Bu "şərəf" ilk növbədə hökmdarın necə "təqdim olunmasıında", yəni titulun necə ifadə olunmasından asılı idi. "Ən əsas məsələ dövlətin şərəfini qorumaqdır; dövlətin şərəfi naminə hamımız ölməyə hazır olmalıyıq. İlk növbədə hökmdarın titulunu qorumaq lazımdır. İlk və əsas məsələ isə, hökmdarların qürurunu qorumaqdır."(Q.K.Kotoşixin). 1668-ci ildə, Fransaya göndərilən dövlət məmuru P.I.Potyomkin kral titulunun "təqdim edilməsi" ilə bağlı öz etirazını bildirmişdi. O, "böyük hökmdarına, kral əzəmətinə, ən böyük dövlət məsələsinə münasibətdə dəhşətli bir pozuntu" gördüyünü bildirirdi. Diplomatiyada, titul məsələsinə münasibət həmişə birinci yerdə olubdur.

Qriqori Karpoviç Kotoşixin (1630 - 1667) – Rusiya Səfirlik idarəsinin məmuru olmuşdur. Sonradan İsveçə xidmətə getmiş və İsveçin hökumətinin sifarişi ilə böyük bir əsər yazmışdır. Bu kitab, XVII əsr Rusiya tarixinə dair mühüm mənbə idi.

Rusiya diplomatlarının bu məsələdə israrlı olması əcnəbiləri bezdirir və bəzən də onların istehzasına səbəb olurdu. Lakin, mücərrəd mübahisələr tamamilə real mülahizələrə əsaslanırdı, çünki titul müəyyən hüquqları ifadə edirdi və titulun təqdimatında hökmdar adında hər hansı bir əkslikliyin olması dolayısı ilə bu hüquqlardan imtina etmək demək idi. Bunu titul məsələlərində heç az tələbkarlıq nümayiş etdirməyən Qərbi Avropa diplomatlarının özləri da yaxşı başa düşürdülər. Onları, yalnız Moskva diplomatiyasının irəli sürdükləri iddiaların müdafiəsi formasının kobudluğu təəcübləndirirdu.

"Hökmdar şərəfi" bir sıra xırda məqamlarda da ifadə olunurdu ki, bu da səfirlər təmsil etdikləri hökmdarlarının az-çox yüksək mövqeyini qeyd etməli idilər. Moskva hökuməti təkid edirdi ki, çara məktublar iri möhürlə çap olunsun; çarın nümayəndələri həmişə birinci sırada olan yerləri tələb etməli idilər ki, rus səfirləri də Moskvada xarici səfirlərin qəbul zamanı onlara göstərilən eyni hörmətlə qəbul olunsunlar və s. Bütün bu qaydalar Qərbi Avropa saraylarında da tətbiq olunurdu, lakin Avropa diplomatiyası "moskvalıların" barbar olması fikrindən yaxa qurtara bilmirdilər və ona görə də onların etiket məsələlərində tələbkarlıqlarına son dərəcə dözümsüz yanaşırdılar.

Xarici dövlətlərlə əlaqələr "böyük səfirlər", "sadə səfirlər" və ya elçilər və "çaparlar" vasitəsilə həyata keçirilirdi. Bu fərqlər qismən səfirliyin əhəmiyyətindən və məqsədindən, qismən də səfirliklərin göndərildiyi dövlətin Moskvadan uzaq məsafədə olmasından asılı idi. Göndərilən şəxsin rütbəsi nə qədər yüksək idisə, onu müşayiət edən nümayəndə heyətin sayı bir o qədər çox olurdu və onların təyinat yerinə getməsi bir o qədər çətinləşirdi. Q.K.Kotoşixin yazırdı: "İmperator həzrətlərinə, uzun müddətdir ki, böyük səfirlər göndərilmir, çünki bu səfər, bir çox dövlətlərdən keçən uzun məsafəli proses idi. Böyük səfirlər yolda çoxlu fitnə və fəsadlara məruz qalırdılar, ona görə İmperatorun yanına ancaq elçilər göndərilirdi". Səfirliyin əhəmiyyətindən asılı olaraq, onun rəhbərliyinə boyar, okolniç, stolnik və ya daha aşağı rütbəli adam təyin edilirdi.

Okolniç - XIII-XVIII əsrlərdə Rusiya çarlığında saray rütbəsi və vəzifəsi. Çara yaxın xidmətdə olan, rütbəsinə görə dövlətdə ikinci olan şəxsin rütbəsidir. Boyar Dumasının ikinci (boyardan sonra) duma rütbəsi. Okolniçlər idarələrə, alaylara rəhbərlik edirdi, diplomatik nümayəndəliklərə təyin olunurdu.

Stolnik XIII-XVII əsrlərdə Rusiya çarlığında saray rütbəsidir. XVII əsrin rütbələri siyahısına görə stolnik, boyar, okolniç, duma zadəganı və duma məmurundan sonra beşinci yeri tuturdu.

Səfirlər, hansı rütbədə olmalarından asılı olmayaraq, Səfirlik İdarəsindən təlimat alırdılar. Təlimatda səfirliyə necə hərəkət etmələri, hətta nəyi və necə deyəcəkləri barədə təfərrüatlı göstərişlər verilirdi. Səfirlər qeyri-məhdud səlahiyyətlərə malik deyildilər və Moskva ilə əlaqə yaratmadan heç bir qərar verə bilməzdilər. Ona görə də onlar adətən hər hansı gözlənilməz təklifə belə cavab verirdilər: "Allah qoysa çar həzrətlərini görən kimi bu haqda ona deyərik" Səfirlər yalnız ilkin danışıqlar üçün göndərilirdi və onlar "böyük hökmdarın əmri olmadan, bizim müqavilə şərtlərini imzalaması mümkün deyil" deyirdilər.

Təlimatlarda səfirliyin icra edəcəyi mərasimlər barədə tam və ətraflı şərhlər var idi. Səfirlərə hökmdarın qəbulunda olmamış, hökumət nazirləri ilə hər hansı danışıqlar aparmaq və hətta onları ziyarət etmək qadağan edilirdi. "Heç bir xristian dövlətində belə bir məsələ ola bilməz ki, göndərildiyi hökmdarın yanında olmadan, digər dövlət nümayəndələri ilə işlər görülsün." Təlimatın bu şərti adətən bir çox mübahisələrə səbəb olurdu, çünki Moskva diplomatlarının qəti bəyanatına baxmayaraq, xarici siyasətin rəhbərliyi ilə ilkin görüşlər, qarşılıqlı nəzakət xatirinə olsa da, bir adət idi.

1496-1497-ci illərdə İstanbula göndərilən ilk səfirlikdə bu əsasda anlaşılmazlıq yaranmışdı: paşalar (türk zadəganları) Moskva səfiri M.V.Pleşşeyevə hörmət naminə onu Sultanla görüşdən əvvəl ziyafətə dəvət edərək, ona hədiyyələr vermək istədilər. Lakin, Pleşşeyev "bu şərəfli dəvətdən" kifayət qədər kobud şəkildə imtina etmişdi: "Mənim paşalarla heç bir söhbətim yoxdur. Mən türk paltarı geyinmirəm və verilən pulları da istəmirəm, mən yalnız Sultanla danışmaq istəyirəm". Belə epizodlar sonrakı dövrlərdə də daim baş verirdi.

1668-ci ildə, P.İ.Potyomkin Bordodan keçərkən, kralın nümayəndəsi Markiz de Sen-Lyuk, Potemkinə "əgər o səfiri ziyarət edərsə, o cavab ziyarətinə ümid edə bilərmi" sorğusu ilə bağlı məlumat almaq istədi. Potemkin cavab verdi ki, "çarın fərmanı ilə, ölüm qorxusu altında, özünü krala təqdim etməzdən əvvəl heç kimə baş çəkə bilməz". İmtina təəssüratını yumşaltmaq üçün markizə samur xəzləri göndərsə də, markiz onları qəbul etmədi.

Digər bir tələb o idi ki, Rusiya səfiri digər dövlətlərin səfirləri ilə eyni vaxtda, hətta onlarla eyni gündə öz etimadnaməsini hökmdara təqdim etməməli idi.

Bunun ardınca əcnəbi hökmdarı necə salamlamaq barədə göstərişlər verilirdi. Moskva hökuməti nəzarət edirdi ki, səfirlər hər hansı alçaldıcı hörmət nümayişinə yol verməsinlər. Sultanın hüzuruna gedən elçilərə "ayaq üstə təzim edərək salamlamaq, diz üstə çökməmək" əmri verilirdi. 1588-ci ildə Persiyada rus səfiri Vasilçikov "şahın ayağını" öpməkdən qəti şəkildə imtina etdi: "Mən, əcnəbi hökmdarların səfirlərinin və elçilərinin bizim hökmdarın ayağından öpmələri haqqında heç bir vaxt eşitməmişəm". O, həmçinin şahın atın üstündə oturaraq çar

etimadnaməsini qəbul etməsi ilə də razılaşmadı. Hər iki məsələdə farslar güzəştə getdilər. Krımda Moskva hökuməti, xanın yasavullarının (hərbi zabit) elçinin qabağına əsa atmaq və bu əsalardan keçmək üçün "rüsum" tələb etmək adətinə qarşı mübarizə aparırdı.

Belə toqquşmalar yalnız Şərq saraylarında baş verməyib. 1614-cü ildə elçi İvan Fominə "İmperator" sarayında demişdilər ki, onun sələfləri imperatora baş əyməyi öyrəniblər və qəbul zamanı hökmdarın qarşısında yerə qədər baş əyiliblər". Fomin cavab vermişdi ki, "bütün dünyada böyük hökmdarlar arasında belə adət yoxdur ki, böyük hökmdarlardan digər böyük hökmdarlara göndərilən elçilər və çaparlar yerə qədər səcdə etsinlər; bunu təbəələrin etməsi düzgündür". Hələ 1654-cü ildə Almaniya imperatorunun "əyanları" rus səfiri Baklanovskidən soruşurlar: "Siz əlahəzrət İmperatorun yanında özünüzü necə aparacaqsınız, ona necə şərəf verəcəksiniz və təzim necə öyrənəcəksiniz?" Baklanovski cavab vermişdi ki, "biz sizin əyanlardan öyrənməyəcəyik... böyük hökmdarımızın əcdadlarının elçilərə öyrətdiyi kimi sadə formalardan istifadə edəcəyik".

Növbəti çətin məsələ, xarici hökmdarın rus çarının sağlamlığı haqqında necə soruşacağı və çar titulu tələffüz edilərkən papağını çıxarıb-çıxarmayacağı sualı idi. 1613-cü ildə çar Mixailin elçisi Uşakov təqdim edildiyi zaman imperator "hökmdarın adı şəkiləndə lap azca təzim etdi və şlyapasını çıxardı" və onunla sağollaşarkən "oturduğu yerdən ona, çara salam çatdırmağını əmr etdi". Növbəti il isə qasid Fomin çarın salamını İmperatora çatdıranda, İmperator "yerində oturduğu yerdə başındakı şlyapasına azca toxundu, lakin...çarın titulu elan edilərkən ayağa qalxmadı". Fomin qaydanın pozulmasına görə öz etrazını bildirdi. İmperator qasidə danışmağa davam etməyi əmr etdi, lakin Fomin cavab verdi ki, o, imperatorun ayağa qalxıb onun hökmdarının səhhətini soruşmasını gözləyir. İmperator Fominin nəzərinə çatdırmağı əmr etdi ki, onun sələflərinin çar titulunun elan edildiyi zaman ayağa qalxıb-qalxmadığını xatırlamır və Fominə öz mənzilinə getməyi və sərəncam gözləməyi əmr etdi.

Bu halda, İmperatorun davranışı onunla izah olunurdu ki, Mixail Fedoroviç hələ Almaniya İmperatoru tərəfindən rəsmən tanınmamışdı. 1667-ci ildə, Potyomkini qəbul edən İspaniya kralı onun təziminə cavab olaraq şlyapasını çıxartdı, lakin elçi "çar titulunu" elan edərkən şlyapasını çıxarmadı. Potyomkinə izah edildi ki, "siz, çar əlahəzrətinin elçiləri, palataya girdiyiniz zaman, əlahəzrət kral siz elçilər üçün deyil, qardaşı, böyük hökmdarınız üçün şlyapasını çıxarmışdır." 1687-ci ildə bağlanmış müqaviləyə əsasən, Brandenburq kürfüstü, çarın adını və titulunu ayaq üstə, şlyapasını çıxararaq "başı açıq vəziyyətdə" dinləməyi və çar məktubunu öz əlləri ilə qəbul etməyi və eyni şəkildə geri verməyi öhdəsinə götürmüşdü.

Çar məktubunun qəbul edilməsi və əvəzinin təqdim edilməsi qaydası diplomatiyanın incə məsələlərindən biri idi. Moskva hökuməti xarici hökmdarlardan bu mərasimi şəxsən özünün həyata keçirməsini tələb edirdi. 1614-cü ildə İmperator kanslerə Fomindən çarın göndərdiyi məktubu almağı əmr edəndə, qasid onu kanslerə verməkdən imtina etdi və onu özü imperatora təqdim etdi. 1674-cü ildə İmperator bir qəbul zamanı şəxsən deyil, əyanlarının biri vasitəsilə elçi P.I.Potyomkinə cavab məktubunu təqdim edəndə uzun müddət davam edən bir münaqişə yarandı. Moskva hökumətinin etirazına cavab belə oldu ki, İmperator sarayında cavab məktubları birbaşa səfirlərin mənzillərinə göndərmək adətdir və bu halda isə, Moskva səfirinə münasibətdə hələ hörmət göstərilib.

Səfirlər xarici hökmdarlara təqdim olunduqda aldıqları əmrə uyğun olaraq çıxış edərkən, diqqətlə izləyirdilər ki, çarın titulu elan olunarkən hökmdar ayağa qalxsın. Çıxış, belə ifadə etmək mümkünsə, kollektiv şəkildə olurdu: səfirliyin bir üzvü danışmağa başlayır, digərləri isə davam edirdi. "Qəbul otağına daxil olandan" sonra birinci səfir nümayəndə heyətinin kimdən - kimə göndərildiyini söyləyirdi və əlində etimadnamə tutaraq, vicdanla hər iki hökmdarın bütün titullarını sadalayırdı."Allahın lütfü altında olan Böyük Hökmdar, bütün Rusiyanın və bir çox dövlətlərin hökmdarı və sahibi olan Çar və Knyaz Mixail Fyodoroviç, sizə, Böyük Hökmdar, özünün ən əziz və mehriban qardaşı Matiyaşa, həmişə alman və başqa torpaqlarla Krallığını artıran və Allahın lütfü altında olan Roma İmperatoruna təzim etməyi əmr etdi."

Moskva hökmarının səhhəti ilə bağlı suala səfirliyin ikinci üzvü belə cavab verirdi: "Onlar böyük hökmdar çarın yanından gələndə, bizim böyük hökmadarımız, tanrının köməyi ilə, səhhəti yaxşı idi." Sonra səfirliyin üçüncü əməkdaşı onlarla "xoşməramlı məktubun" göndərildiyini bildirirdi. Məktubun təqdimatından sonra çardan "xoşməramlı hədiyyələr", əsasən xəzlər, bəzən də alıcı ov quşları təqdim olunurdu.

Xoşməramlı məktub ölkələr arasında sülh münasibətlərini təsdiq edən məktubdur.

Vətənə qayıdandan sonra, səfirlər Səfirlik İdarəsinə səfərlərinin ətraflı hesabatını gündəlik şəklində təqdim edirdilər ki, orada gündəlik "maddələrlə" xaricdə etdikləri, gördükləri, danışdıqları və eşitdikləri hər bir məsələnin təsviri öz əksini tapırdı. "Maddələr siyahısı" adlanan bu sənəd yalnız Rusiya diplomatiyasının tarixi üçün deyil, həm də Rusiya səfirlərinin səyahət etdiyi dövlətlərin tarixi haqqında bilikləri artırmaq üçün böyük maraq kəsb edirdi.

Bununla belə, danışıqların gedişatının göstərildiyi hissədə, maddələr üzrə siyahılarda bəzi məsələlər bəzədilirdi, əcnəbi hökmdarlar Moskva hökmdarından "asılı olanların" dili ilə danışmağa məcbur edilirdi və səfirlərin öz sözləri onlar üçün ən münasib şəkildə ifadə edilirdi, "və danışılan və danışılmayan bütün çıxışlar, maddələr siyahılarında onların dediyi kimi deyil, mükəmməl və dərrakəli şəkildə, öz

ağıllarını hiylələrə qarşı qoymaqla yazırdılar ki, Çardan şərəf və böyük maaş əldə etsinlər"(Kotoşixin).

Moskvanın özündə xarici səfirlərin qəbulu mərasimi də mürəkkəb idi. Sərhəddə səfirləri, sərhəd şəhərinin voyevodası (hərbi və mülki əyalət hakimi) tərəfindən göndərilən, pristav (polis zabiti) qarşılayırdı. Artıq bundan sonra hər iki tərəf öz üstün mövqelərini göstərmək üçün rəqabətə başlayırdılar. Hər iki tərəf diqqətlə bir-birilərini izləyirdilər ki, kim papağını birinci çıxaracaq, özlərinə nəzarət edirdilər ki, bir-birlərinə tərəf əlavə addım atmasınlar, "əsas əl tərəfdən", yəni sağ tərəfdə getmək üçün hər cür hiyləgər vasitələrə əl atırdılar. Üstəlik, əcnəbilər zirəklikdə ruslardan heç də geri qalmırdılar.

Rusiya torpaqlarına daxil olduqları andan səfirlər xeyli miqdarda "azuqə" alırdılar. Təkcə onu demək kifayətdir ki, Aleksey Mixayloviçin yanına gələn İmperatorun səfiri Meyerberqə gündə iki dəfə 7 qədəh şərab, 2 piyalə "reyn" şərabı, 2 piyalə Roma şərabı, bir yarım vedrə və 4 piyalə müxtəlif növ bal içkisinin və bir vedrə pivənin və s. verilməsi müəyyən edilmişdi. Səfirlərin öz dedikləri kimi, göndərildikləri dövlət hesabına belə "bol azuqə" ilə təmin olunması onların heyrətinə səbəb olurdu, çünki Avropada belə adət-ənənə yox idi. Lakin, yeməklərin keyfiyyəti yüksək deyildi və bu əsasda tez-tez anlaşılmazlıqlar yaranırdı. Yollarda səfirliyin bütün lazım olanlarla təmin olunmasına nümayəndə heyətinə təhkim edilmiş pristav nəzarət edirdi. Öz növbəsində, Rusiyanın xaricdəki səfirləri də hər yerdə dövlət təminatından istifadə edirdilər və hətta idarədən verilən maliyyə vəsaiti adətən kifayət etmədiyi üçün səyahət xərcləri üçün əlavə pul ayırırdılar.

Moskvaya gedən yollarda səfirlər hər yerdə ehtiramla qarşılanırdılar, lakin əyalət hakimləri onlarla görüşməməli idilər, çünki onlar çarın qəbuluna gedənə qədər heç bir dövlət məmuru onlarla qarşılaşmamalı idi. 1675-ci ildə, Hollandiya səfirliyi onları qarşılamağa çıxan zadəganların və alman tacirlərinin müşayiəti ilə "şeypur səsləri" altında Voloqdaya daxil oldu. Bütün qaldığı müddətdə o, əyalət hakiminin hər cür diqqət əlamətlərindən istifadə edirdi, lakin göstərilən məlum səbəbə görə, əyalət hakimi, səfirin özü ilə "söhbət etmək" imkanından məhrum idi və yalnız nümayəndə heyətinin üzvləri ilə görüşə bilirdi. Elə olurdu ki, yolda yerli əhalinin nümayəndələri yerli hakimiyyət orqanları qarşısında himayə edilmə xahişləri ilə səfirlərə müraciət edirdilər və bu cür xahişlər bəzən uğurlu nəticələnirdi.

Moskvaya çatmağa bir neçə verst (1066 m) qalmış səfirlik paytaxta daxil olmaq üçün icazə gözləmək üçün dayanmalı olurdu. Şəhərə daxil olmaq üçün təyin olunan gündə kral tövləsindən minik atları, arabalar və ya karetalar göndərilirdi. Moskvanın tam qarşısında yeni "moskvalı" pristavlar onları qarşılamağa çıxırdılar. Səfirin yoxsa pristavın öz arabasından və ya minik atından birinci düşəcəyi ilə bağlı qaçılmaz mübahisələr və ləngimələr başlayırdı. Xarici ölkənin səfiri Herberşteyn

sonralar çox öyünürdü ki, o, moskvalıları aldadaraq, guya atdan birinci düşməyə hazır olduğunu göstərmişdir. Sonra səfiri çarın adından salamlayırdılar və pristav səfirin karetasına minəndə, əvvəlcədən onun hansı yerdə oturacağı barədə mübahisəyə girirdi.

1678-ci ildə Polşa-Litva Birliyinin səfirləri ilə pristavlar arasında mübahisə iki saat davam etmişdi: "səfirliyin yürüşü dayandı, onlar Böyük Knyaza məlumat verdilər və o ... qərar verdi ki, birinci cərgədə kənarlarda iki rus, ortada polyak olmalıdır. ikinci cərgədə iki polyak və bir moskvalı oturmalıdır." Bu andan etibarən pristavlar və ya əcnəbilərin dediyi kimi "qəyyumlar" demək olar ki, öz himayə etdiklərini tərk etmir, onların yerləşdirilməsi və təchizatı ilə məşğul olur, onlarla Səfirlik idarəsi arasında vasitəçi kimi xidmət edirdilər. Onlar eyni zamanda informator kimi fəaliyyət göstərirdilər. Onların vasitəsilə Moskva hökuməti səfirlərin niyyətlərini öyrənməyə və Avropadakı vəziyyət haqqında məlumat toplamağa çalışırdı.

Pristavlara nədən danışılması haqqında, bu və ya digər suallara necə cavab verilməsi ilə bağlı müvafiq göstərişlər verilirdi. Səfirlərin Moskvaya girişi böyük təmtəraqla, insanların böyük toplaşması ilə baş verirdi. Şəhərin küçələri boyunca gözəl atlarda süvari hərbi qulluqçular və boyarların atlı nökərləri silahlı, dəbdəbəli geyimdə bütün yol boyu dayanırdılar və küçədə streletslərin (atıcılar) dəstələri bayraqlar və toplarla düzülürdü. Bütün bu mühit, səfirləri Moskva çarının sərvəti və qüdrəti haqqında təəssürat yaratmalı idi.

Artıq XVI əsrdə, Moskvaya xüsusilə tez-tez gələn Krım, Noqay və Polşa-Litva səfirlərinin yerləşdirilməsi üçün xüsusi evlər var idi; qalan səfirlər fərdi evlərdə yerləşdirilirdi. XVII əsrin əvvəllərindən İlyinka küçəsində yerləşən Kitay-Qorodda, xüsusi səfirlik evi yaradılmışdı. Onlar səfirləri təcrid etməyə çalışaraq, elçilərin şəxsi təhlükəsuzliyini qorumaq bəhanəsi ilə onlara streletslərdən ibarət mühafizəçilər təyin edirdilər, heç kəsi onların yanlarına buraxmır, onlara da həyətdən çıxmağa icazə vermrdilər. Çar Mixailin yanına göndərilən Holşteyn səfirliyində iştirak edən Oleari deyirdi: "Onlar ön həyəti bağlayaraq və 12 strelets təyin edirdilər ki, çarın qarşısında ilk təqdimata qədər bizim heç birimiz evdən çıxmayaq və heç bir kənar adam da evə girməsin. Lakin, pristavlar hər gün səfirlərə baş çəkərək, onlara nə isə lazım olub-olmadığı ilə maraqlanırdılar. Bundan başqa, evdə daim bizim yanımızdaa olan bir rus tərcüməçisi streletslərə bizə xidmət etmək ilə bağlı tapşırıqlar verirdi və onları bizə lazım olan müxtəlif əşyaları almağa göndərirdi." Ancaq, çarın qəbulunda olduqdan sonra, Holşteyn səfirlərinə elan edirdilər ki, onların məhəllələrini tərk etmələrinə icazə verilir, şəhərdə azad gəzmək olar və harasa getmək istəsələr, onlara atların göndəriləcəyi bildirilirdi.

Streletslər (atıcılar) - XVI əsr - XVIII əsrin əvvəlində Rus dövlətində daimi qoşunları təşkil edən xidməti adamlar, odlu silahla silahlanmış piyada döyüşçü.

XVII əsrdə Moskvada səfirlərin yarımhəbsxana rejimi tədricən yumşaldıldı. Onlara hətta dostlarını qaldıqları yerə dəvət etməyə və onları ziyarət etməyə icazə verilirdi. Təbii ki, Moskvaya gələn düşmən münasibətli dövlətlərin səfirləri ilə bağlı hər cür ehtiyat tədbirlərini yenə də davam etdirirdilər.

Qəbul günü bu məqsədlə ilə səfirliyi müşayiət etmək üçün təyin olunmuş saray əyanları öz məiyyəti ilə birlikdə səfirlərin yanına gəlirdilər. Yenə bu elçilərlə harada görüşmək barədə mübahisələr yaranırdı. Pristavlar təkidlə səfirlərin onları pilləkənlərin aşağı hissəsində qarşılamağı tələb edirdilər. Səfirlər bu tələbdə öz hökmdarlarının şərəfinə hörmətsizlik edildiyini görürdülər. Ona görə, səfirlər guya gecikdiklərini bəhanə gətirərək, qonaqları pilləkanın ortasında qarşılamağa çalışırdılar. Pristavlar səfirləri saraya müşaiyət etmək üçün rəsmi paltarda gəlirdilər. Səfirlərə çar tövləsindən atlar və ya çar karetası (XVII əsrdə) göndərilirdi. Yürüş böyük təntənə ilə hərəkət edirdi. İrəlidə streletslər gedirdi, sonra çar üçün gətirilən hədiyyələr aparılırdı – əcaib formalı gümüş qablar, atlar, hər cür "xarici nadir əşyalar".

Səfirlərin önündə səfirliyin katibi və ya onların məiyyətindən başqa biri əlində qumaşa (ipək parça) bükülmüş etimadnaməni aparırdı. Onlardan sonra, pristavların müşayiəti ilə səfirlər gedirdi. Bütün yolboyu yenidən hərbi dəstələr düzülürdü. Bütün küçələr təmtəraqlı mərasimə baxmağa gələn insanlarla dolu idi. Ruslar bu izdihamda, bir tərəfdən öz çarlarının qüdrətinin təzahürünü, digər tərəfdən isə səfirlərə hörmət ifadəsi görürdülər. Parisdə səfərdə olan Potyomkin, kralın qəbuluna gedərkən, bu münasibətlə bağlı küçələrdə adamların az olmasına görə incimişdi.

Səfirlik evindən saraya gələnlər barədə qasidlər çara məlumat verirdi və daha sonra da, mərasim yürüşünün saraya yaxınlaşması haqqında saraya mütəmadi olaraq xəbər verirdilər. Vəziyyətə uyğun olaraq, saraydan yürüşün sürətləndirilməsi və ya gecikdirilməsi barədə göstərişlər gəlirdi. Bir dəfə, Litva səfirləri çox gecikdilər. Onlar, "öz keşişlərinin yanında" ibadət etdiklərindən çar IV İvanı gözləməyə məcbur etmişdilər. Çar incidi və dərhal boyarlarla bildirdi ki, bu ölkədən təşrif buyuran səfirlərin növbəti səfəri zamanı, çar da ibadət mərasiminə gedərək, qəbula gələn səfirləri "hökmdarın ibadətinin sona çatmasına qədər gözləməyə" məcbur etməyə məhkum edəcək. Bu, təkcə nəzakət deyil, həm də ədəb məsələsi idi. Səfirlər, Qızıl artırma adlanan əsas giriş qapısından bir qədər aralıda atdan düşürdülər. 1566-cı ildə, litvalı qasid birbaşa pilləkənlərin yanına "lap" yaxınlaşaraq atdan düşmək istəmişdi, lakin streletslər ona imkan verməmişdilər. Onun "saraya belə ədəbsiz formada girmək istəməsi" çarın qəzəbinə səbəb olduğundan, ona heç bir diqqət əlaməti göstərilməmişdi.

Qızıl artırmadan saraya üç pilləkən aparırdı: Blaqoveşen girişi (Səadət xəbəri), orta pilləkən Qızıl Palatanın qapılarının qarşısına, üçüncüsü – Qranovit Palatanın yanına (dəhlizinə) gedirdi. Girişin qapılarının, digər iki pilləkənlərin barmaqlıqları var idi. Yelizaveta Petrovnanın hakimiyyəti dövründə aparılan yenidənqurmadan sonra Qranovit palataya gedən yalnız bir pilləkən qaldı. Onu da, Qızıl artırma adlandırırdılar.

Səfirlərin keçdiyi pilləkənlərdə və otaqlarda "qızılı paltar geyinmiş", xəz papaqlı zadəganlar, məmurlar və qonaqlar (tacirlər) və "təmiz paltarda olan" aşağı rütbəli şəxslər dururdu. Bu münasibətlə, dəbdəbəli "qızılı" paltarlar kral anbarlarından təqdim edilirdi və mərasimdən sonra bu geyimlər geri qaytarılırdı və paltarda hər hansı bir zədə aşkar olunardısa, səliqəsiz saray işçisi ciddi şəkildə cəzalandırılırdı.

Sarayda səfirləri, bu mərasimi icra etmək üçün xüsusi təyin olunmuş boyarlar qarşılayırdılar. Səfirlərin gəldiyi dövlətin siyasi əhəmiyyətindən asılı olaraq, bir neçə belə görüş (üçə qədər) olurdu. Qəbul sarayın müxtəlif otaqlarında – Qızılla işlənmiş Qızıl palatada (qonaq otağında), bəzən isə Dövlət və ya Qranovit palatasında (rəsmi nahar otağı kimi də istifadə olunurdu) keçirilirdi.

Qranovit (cilalı künclər) palatası ölkənin əsas taxt-tac otağı sayılırdı. Burada ən mühüm rəsmi mərasimlərin- görüşlərin və tacqoyma mərasimində qəbullar keçirilirdi.

Qranovit palatası, Kilsə meydanına baxan ön şərq fasadının cilalanmış səkkizbucaqlı ağ daşdan ("dördkünc" formada) hazırlanaraq, qabarıq "brillianta" oxşadıldığına görə belə adlandırılmışdır. Bu bina İtalyan intibah memarlığı üslubuna xas olaraq tikilmişdir.

Çar çox "möhtəşəm geyimdə", yəni qızılı parçadan tikilmiş kaftanda taxtda oturaraq, başında "Monomax papağı", əlində hokmdar əsası və bəzən digər əlində "kral alma"sı (imperatorluq səltənətinin rəmzi) ilə qəbul edirdi. Taxtın önündə, əllərində gümüş baltalar tutan ağ kaftanlı "saray mühafizləri" dururdular. Əyinlərinə dəbdəbəli kaftanlar geyən və "hündür" xəz papaqlar qoyan boyarlar divar boyunca skamyalarda otururdular.

Səfirlər başlarında şlyapalar olduğu halda təqdim olunurdu. Yalnız, XVII əsrin ikinci yarısında, Moskva səfirlərin papaqsız - başı açıq şəkildə gəlməsini tələb etməyə başladı. Bu məsələ ilə bağlı, İsveç ilə münaqişə baş verdi. Nəticədə, hər iki tərəf səfirlərinin başı açıq şəkildə təqdim edilməsi kimi eyni qaydaya riayət etməyi öhdələrinə götürdülər. Eyni şəkildə 1671-ci ildə, Polşa ilə razılaşma əldə edildi ki, səfirlər qəbula papaqsız gəlsinlər. Əcnəbilərin böyük narazılığına səbəb olan digər bir tələb, səfirlərin saraya qılıncsız daxil olması idi. Görünür, bu, tatar xanlarından götürülmüş bir qayda idi. Səfirlərin adını "elan edən", yəni təqdim edən okolniçlərdən biri (boyarlardan sonra ikinci Duma rütbəsi) olurdu. Səfir "təzim edərək", çarın səhhəti ilə maraqlanır və salamlama nitqi söyləyirdi.

Cavab olaraq, çar ayağa qalxıb səfiri göndərən hökmdarın səhhətini soruşurdu. O, bu zaman öz tacını çıxarmırdı. 1658-ci ildə, Çar Aleksey tacını çıxarmadan Macarıstan kralının səhhətini soruşduqda, səfirlər etiraz etmişdilər. Onlara cavab

olaraq bildirildi ki, çar səfirləri şlyapada deyil, tacda qəbul edib, belə ki, tac hətta kilsədə ibadət zamanı da çıxarılmır. Qarşılıqlı salam mübadiləsindən sonra səfir "tanınma" (etimadnaməni) məktubunu təqdim edərkən, bu sənəd səfirlik məmuru tərəfindən qəbul edilirdi. Sonra çar səfirlərə öpmək üçün öz sağ əlini uzadırdı.

Bu mərasimin sonunda çar elə orada qoyulan gümüş əlyuyanda öz əlini yuyurdu ki, bu da əcnəbilərin xətrinə dəyirdi. Əli öpməyə icazə yalnız xristianlara verilirdi. Müsəlman səfirləri qəbulu zamanı çar bu qaydanın yerinə öz əlini onların başına qoyurdı. Əl öpmə mərasimindən sonra taxtın önünə səfirlərin oturması üçün skamya qoyurdular.Bir qədər oturduqdan sonra, səfirlər qısa nitqlə gəlişlərinin məqsədini bildirir və çara gətirdikləri hədiyyələri "əyan" edirdilər. 1692-ci ildə, fars elçilərinin gətirdikləri hədiyyələr arasında saraya "ayrı-ayrılıqda" gətirilən diri şir və aslan da var idi, təbii ki, onlar sarayın içinə gətirilməmiş, ancaq Qızıl artırmanın qarşısında az bir müddət saxlanılmışdı.

Qəbul günü səfirlərə çar naharı verilməli idi. XVI əsrdə çar onları adətən öz süfrəsinə dəvət edirdi. Səfir Ulfeld, IV İvanın Aleksandr yaşayış məskəninda yerləşən iqamətgahında (1564- 1581-ci illərdə) verilmiş təntənəli nahar yeməyini ətraflı təsvir etmişdi. Nahar zamanı yeməklər çar süfrəsində döğranmış formada verilirdi və çar bu tikələri qonaqlara, o cümlədən səfirliyin üzvlərinə də göndərirdi. Bu şəkildə şərəfə nail olan qonaq ayağa qalxaraq əvvəl çara və sonra isə bütün dörd tərəfə təzim edirdi. "Nahara verilən yeməklər o qədər çox və müxtəlif olurdu ki, tez-tez ayağa qalxaraq təşəkkür etmək lazım gəlirdi, çünki təamlar neçə dəfə verilirdisə, bir o qədər ayağa qalxmaq lazım gəlirdi və ona görə də belə bir təzim, təxminən 65 dəfə təkrar edilirdi. Yeməklərin ardınca, eyni formada, bal içgisi qonaqlığı da verilirdi. Nəhayət, çar böyük bir qədəhə malvasiya şərabı tökməyi əmr edib, bir az içərək, xüsusi bir lütf əlaməti olaraq bu qədəhi Ulfeldə göndərdi. O, şərabın dadına baxdıqdan sonra, növbə ilə bütün səfirlik üzvlərinə verdi ki, hər kəs çarın səxavətini və qəlbinin mərhəmətini hiss etsin".

XVII əsrdə rəsmi təntənəli nahar yeməyi əvəzinə, adətən birbaşa səfirlərin evlərinə sərinləşdirici içkilər çatdırılırdı. Saray əyanlarından birinin başçılıq etdiyi bir dəstə adam Səfirlik evinə yemək aparırdılar. Süfrə ilə örtülmüş stollara gümüş qablar qoyurdular. Saray nümayəndəsi stolun baş tərəfində əyləşərək, səfirləri yanına oturdurdu. Təamlar gümüş qabların içində düzülürdü, lakin, qab-qacaq dəstgahı yalnız səfirlərə verilirdi. Belə ki, Hollandiya dövlətinin səfiri Klenk səfirliyin digər üzvlərinə öz boşqablarını gətirmələrini əmr etməli olmuşdu. Nahar zamanı, hörmət naminə, səfirliyin adından çarın və nümayəndə heyətinin gəldiyi ölkənin hökmdarının şərəfinə sağlıqlar elan edilirdi.

Təntənəli qəbuldan bir neçə gün sonra daha sadə bir formada ikinci görüş təyin edilirdi, bu zaman çar səfirlərə "təqdimat" (etimadnamə) məktubunun məzmunu ilə

tanış olduqdan sonra “cavab verilməsi” üçün bir neçə boyar təyin etdiyini bildirirdi. Yəni təqdim olunan bütün məsələlər üzrə onlarla danışıqlar aparılacaq idi. Sonra onları “cavab otağı” deyilən yerə aparırdılar və burada danışıqlar başlayırdı. Bu danışıqlar tez-tez kəskin mübahisələr səbəbindən dayanırdı. Bu müzakirələr bir neçə dəfə baş tuturdu və onların sonunda axırıncı vida qəbul günü təyin edilirdi. Əgər danışıqlar yaxşı nəticə ilə bitirdisə, çar sonuncu qəbul zamanı səfirlərə bal içgisi qonaqlığı verirdi. Adətən səfirlər gümüş qədəhdə verilmiş balı içdikdən sonra, həmin qədəhi öz ciblərinə qoyub, özləri ilə aparırdılar. “Belə vicdansız səfirlər üçün Aqlın (İngiltərə) torpağında gümüş və qızıl zərli mis qablar düzəldilirdi”.

Səfirlərin Moskvaya gəlişi və Moskvadan xarici “dövlətlərə” səfirlərin göndərilməsi ilə yanaşı, çox vaxt diplomatik danışıqlar aparmaq üçün, adətən, sərhədyanı şəhərlərdə səfirliklərin xüsusi qurultayları təşkil olunurdu. Burada da, kimin üstün olması və etiket məsələlərinə xeyli vaxt və səy sərf olunurdu. Səfirlər çadırlarda yerləşdirilirdi və konfransın kimin çadırında keçiriləcəyi ilə bağlı çoxlu mübahisələr yaranırdı. Bəzən şərəflərini bərabər səviyyədə tutmaq üçün, səfirlər çadırlarını bir-birilərinin səsləri eşidildiyi məsafədə yerləşdirərək, öz qaldıqları yerdən danışırdılar. Bəzən elə hallar olurdu ki, çadırlar lap yaxın məsafədə qurulurdu, səfirlər oturduqları ümumi masanın bir tərəfi bir çadırda, o biri tərəfi digər çadırda olurdu. Bu zaman isə, artıq masanın çox hissəsinin hansı tərəfdə olması mübahisə doğururdu.

Bu dövrdə müqavilələr hələ də and içmə - "xaç öpüşü" ilə təsdiqlənirdi. Çar xarici səfirlərin iştirakı ilə and içirdi. Saray Baş keşişinin duasından sonra, çar öz öhdəliklərinin mətnini oxuyaraq “müqəddəs” xaçı öpərək ona and içirdi və razılaşdırılmış sənədi səfirlərə təqdim edirdi. Tələb olunan ayinləri tam dəqiqliklə yerinə yetirən çarlar, qarşı tərəfdən də onların icrasını yerinə yetirilməsini diqqətlə izləyirdilər. IV İvan, Polşa kralının and içərkən “xaçın kənarını deyil, birbaşa xaçın özünü öpməsini” tələb etmişdi. Belə ki, düzgün icra olunmamış ayin öz sehrli gücünü göstərə bilməzdi.

Xaçın öpülməsi ilə təsdiqlənmiş müqavilə "bütün maddələrdə, vergüllərdə və nöqtələrdə, heç bir geri çəkilmə olmadan ... tamamilə" pozulmaz hesab edilirdi. Müqavilələrin forması Qərbi Avropa nümunələrindən götürülürdü.

XVII əsrin sonlarına qədər, Moskva hökmdarları müqavilələri imzalamırdılar, onların yerinə, çar adından məmurlar imza atırdılar, çünki "çar və boyarlar heç bir işə əl qatmırlar, bunun üçün duma məmurları vəzifəsi təşkil edilib".

Xarici dövlətlərlə nikah əlaqələri ilə müqavilə münasibətlərini möhkəmləndirmək üçün əvvəllər mövcud olan adət XVI əsrdə öz əhəmiyyətini itirdi. Son belə hadisə XV əsrin sonlarına təsadüf edir, III İvan qızı Yelenanı, bu evliliyin sülhü möhkəmləndirəcəyi ümidi ilə, Litvanın Böyük knyazı Aleksandra vermişdi. Lakin

bu zaman üçün, dini müstəsnalıq və dözümsüzlük o qədər şiddətləndi ki, nikah ittifaqı faktiki olaraq qeyri-mümkün olurdu. Katolik kilsəsi belə bir evliliyin şərti olaraq pravoslavın katolik dininə keçməsini tələb edirdi, lakin pravoslav kilsəsi bu barədə düşünmək belə istəmirdi.

XVI əsrdə Moskva Livoniyada vassal dövlət yaratmaq fikrinə düşdü. Onun hökmdarı nikah ittifaqı ilə Moskva çar evinə bağlı olacaq idi. Bu məqsədlə, İvan Qroznı qardaşı qızı Yekaterina Vladimirovnanı Danimarka kralının qardaşı Maqnusa verdi, lakin onun əri xəyanət edərək, kralın düşmənlərinin tərəfinə keçdi. Eyni məqsədlə, Boris Qodunov öz qızını Kseniyanı əvvəlcə İsveç şahzadəsi Qustava vermək istədi, lakin o, sonda pravoslavlığı qəbul etmək istəmədiyini bəhanə edərək çarın qızı ilə evlənməkdən imtina etdi. Sonra Godunov, Moskvada olan Danimarka kralının qardaşı şahzadə İoannı, gələcək kürəkəni olaraq görmək istədi, lakin qəfildən şahzadə öldü. Mixail Fedoroviçin dövründə, şahzadə İrina Mixaylovnanın Danimarka şahzadəsi Valdemar ilə evlənməsi ilə bağlı uzun sürən və qalmaqallı bir məsələ yarandı. Şahzadə Rusiyaya gəldi, lakin onun pravoslavlığı qəbul etməkdən imtina etməsi, digər tərəfdən, rus kilsəsi tərəfindən "xaç suyuna" çəkilməmiş şahzadənin nikah bağlamaq üçün kilsəyə girməsinin yolverilməzliyinin qəbul edilməsi, uzun danışıqlardan sonra ayrılmağa səbəb oldu. Valdemar çar Mixailin ölümündən sonra Moskvadan qovuldu. Bu hadisə, XVII əsrdə beynəlxalq əlaqələri gücləndirmək vasitəsi kimi nikah ittifaqına müraciət edən, rus diplomatiyasının son uğursuz cəhdi oldu.

6.XVII əsrdə Moskva dövlətinin diplomatiyasında yeni təmayüllər

XVI – XVII əsrlərdə diplomatiya yolu ilə həll edilən məsələlər əvvəlki illərdəkindən qat-qat mürəkkəb və müxtəlif idi. Onların arasında o vaxta qədər diplomatik münasibətlər dairəsinə daxil olmayan məsələlər də xeyli çox idi: siyasi cinayətkarların ekstradisiyası, döyüş sursatlarının alınması, hərbi qüvvələrdə muzdla işə götürülmə, borc kreditləri üzrə müqavilələrinin bağlanması, Rusiyadan taxıl alınmasına icazə verilməsi kimi məsələlər. XVII əsrdə, Moskva diplomatiyası xarici dövlətlərin daxili işləri ilə də fəal maraqlanmağa başladı və hətta, o vaxtlar Avropada monarxiya prinsiplərinin keşikçisi rolunu öz üzərinə götürmək qərarına gəldi.

Belə ki, Aleksey Mixayloviçin hökuməti I Karlın edam edilməsinə görə cəza olaraq İngiltərə ilə ticarət əlaqələrini kəsdi. Çünki ingilislər "bütün ölkə ilə pis bir iş gördülər, öz hökmdarları Kral Karlı öldürdülər". Moskva ingilis respublikasını tanımaqdan imtina etdi; Çar Aleksey I Karlın dul arvadının səhhəti ilə maraqlanmağa davam etdi və onun oğlu, İngiltərə taxtının varisinə, gələcək II Karla maddi yardım etdi. Moskva diplomatiyası, Fransa və Danimarka krallarının ingilis kralına qarşı çıxan holland "kəndçilərinə" göstərdikləri dəstəyə görə onlardan eyni dərəcədə

narazı idi. Ordin-Naşşokin hesab edirdi ki, Qərbi Avropanın bütün hökmdarlarının, "səhv və günahlarından başqa heç nəyi olmayan" bütün respublikaları məhv etmək üçün birləşmələrinə lüzum vardır.

Digər tərəfdən, XVII əsr Moskva diplomatiyası, artıq XVIII-XIX əsrlər üçün çar diplomatiyasının əsas istiqamətlərini müəyyən edirdi. Türkiyəyə qarşı mübarizədə o, türklərin fəth etdiyi pravoslav əhalisinin öz əsarətçilərinə qarşı apardığı təbii düşmənçiliyindən istifadə etdi. Yunanların və slavyanların, xüsusən də bu xalqların ruhanilərinin simasında Moskvanın dəyərli məlumatlar verən sadiq agentləri var idi. Hətta məxfi yazışma üsulları da qurulmuşdu. 1682-ci ildə, Qüds patriarxı Konstantinopola gələn rus elçiləri vasitəsilə xahiş etdi ki, hökmdar ona "patriarxa ünvansız və adsız, kiçik hərflərlə yazmağı, heç kimin bilməməsi üçün kiçik şriftlə çap etməyi əmr etsin. O da, eyni üsulla hökmdara bilmək istədiyi vacib və lazım olan "böyük işlər" haqqında yazacaq."

XVII əsrə təsadüf edən məsələlərdən biri də, Çar Rusiyasına qarşı xarici mətbuatda çap olunmuş təbliğatı dayandırmaq üçün apardığı mübarizənin başlanması oldu. Belə ki, Moskva hökuməti Razin üsyanı zamanı Riqada çap edilmiş, çar ləyaqətini alçaldan "aviz"lərə (məlumatlara) görə İsveçə etiraz etdi: "Yalanla dolu hay-küyçü vərəqələr kralın təbəələri tərəfindən bütün Avropa ölkələrinə yayılmışdır."

Rus diplomatiyası, həmçinin 1655-ci ildə Reveldə Moskva çarlarına qarşı dərc edilmiş həcvə etiraz etdi, burada çar İvan Vasilyeviç tiran adlandırılır, Aleksey Mixayloviçin özü isə "Livoniyada özbaşına tiranlıq etdiyinə" görə Herostrata bənzədilirdi. 1650-ci ildə, Polşa-Litva Birliyi ilə müqavilədə, Moskva dövlətindən haqqında xoşagəlməz danışılan kitabların məhv edilməsinə dair xüsusi maddə salındı. Moskva diplomatiyası, Polşa ilə sülhə xitam verilməsinin səbəblərindən birinin, "kral və panlarının əmri ilə" çap olunan kitabların olduğunu bildirdi. Orada "...bizim böyük hökmdarlarımız və Moskva hökmdarı haqqında, boyarlar və məmurlar haqqında" bütünlüklə pis fikirlər yazılmış, məzəmmət və küfr edilmişdir".

Moskva dövləti ilə Qərbi Avropa dövlətləri arasında diplomatik və ticarət əlaqələrinin mürəkkəbləşməsi və genişlənməsi Moskvada müxtəlif dövlətlərin maraqlarını təmsil edən xarici nümayəndələrin və agentlərin peyda olmasına səbəb oldu. Artıq 1585-ci ildə, konsulluq funksiyalarına yaxın olan ingilis rezidentinin adı çəkilir; 1623-cü ildən İngiltərədə respublikanın yaranması ilə əlaqədar olaraq İngiltərə ilə diplomatik münasibətlərin kəsilməsi vaxtı istisna olmaqla, ingilis sakinləri davamlı olaraq Moskvada fəaliyyət göstərirdilər. 1620-ci illərin sonunda Mozkvada "danimarkalı dükançılar" meydana çıxdı.

1631-ci ildə Niderland ştatlarına öz rezidentlərinin Moskvaya göndərməsinə icazə verildi, lakin onlar bu hüquqdan yalnız 1678-ci ildə istifadə etdilər. 1631-ci ildən İsveç agentləri daimi olaraq Moskvada yaşayırdılar; Polşalılar 1673-cü ildə qəbul olundular, lakin fasilələrlə fəaliyyət göstərdilər. 1629-cu ildə Fransanın və 1676-cı ildə Brandenburqun Moskvada öz rezidentlərini yerləşdirmək cəhdləri uğursuz oldu. Rəsmi olaraq, rezidentlər "poçt ilə hesabat göndərmək üçün deyil, əməli olaraq ən vacib məsələlər üçün" təyin edilirdi. Əslində, onlar öz həmvətənlərinin ticarət maraqlarını qorumaq ilə bağlı konsulluq vəzifələri ilə yanaşı, casusluq və məlumatlandırma funksiyalarını da yerinə yetirirdilər. Xüsusilə İsveç dövləti öz rezidentinə digər Avropa dövlətlərinin rezidentlərini və elçilərini izləmək, "kral sarayında baş verənləri diqqətlə müşahidə etmək" və bütün məlumatları öz sarayına çatdırmaq tapşırılırdı.

Həqiqətən də, XVII əsrdə İsveç rezidentlərinin hesabatlarında Moskva dövlətinin hərbi qüvvələri, ticarət, xalq hərəkatı və nəhayət, saray çəkişmələri haqqında onların hökuməti üçün çox dəyərli məlumatlar var idi. Lakin, isveçli rezident Pommerinqin fəaliyyəti yalnız bununla məhdudlaşmırdı: o, həm də yeni yaranmaqda olan Rusiya silah sənayesini işini birbaşa pozmaqla da məşğul idi. Bu məqsədlə, Pommerinq Rusiya zavodlarında işləyən xarici mütəxəssislərin xaricə çıxıb getmələrinə çalışırdı. O, 1648-ci ildə yazırdı: "Bu insanlar buradan gedəndən sonra, Tula və ya digər rus mədən fabrikləri, sizin İsveçdəki kral mədən fabriklərinə zərər verə bilməyəcək, çünki mən Peter Marselisə (Tula zavodlarının sahibi) pis dəmirçi ustalar tapmışam." Ona görə də təəccüblü deyil ki, Moskva hökuməti xarici rezidentlərdən xilas olmaq üçün xeyli səylər göstərirdi, sülh dövründə onların "burada olmasına heç bir ehtiyac olmadığını" dəfələrlə bəyan etmişdi.

XVII əsrdə, Moskva çarlığı özü də xaricdə daimi nümayəndəliklər təşkil etməyə yenicə başlamışdı. Bu ilk növbədə, Moskvanın ən çox bağlı olduğu iki dövlətlə - İsveç və Polşa ilə bağlı idi. 1634-cü ildə provoslavlığı qəbul etmiş alman D.A.Frantsbekov İsveçə rezident kimi göndərildi, lakin o, cəmi bir il yarım öz vəzifəsində qaldı; ondan sonra yalnız 1700-cü ildə, knyaz Xilkov Stokholma "rezidentliyə" göndərildi. Polşa - Litva Birliyinə səfirlik göndərilməsi məsələsi XVII əsrin 60-cı illərində gündəmə gəlib və 1673-cü ildə həll olunub. Polşa - Litva Birliyində ilk rus rezidenti Vasili Tyapkin 1673-1677-ci illərdə öz vəzifələrini icra edibdir. 1660-cı ildə ingilis Con Qebdon Hollandiya və İngiltərəyə "komissar" təyin edilmişdi.

Xaricdə daimi nümayəndəliklərinin olmaması, xarici siyasətdə çox zəif məlumatlı olan Rusiya diplomatiyasının fəaliyyətinə mənfi təsir göstərirdi. 1656-cı ildə Venesiya doju Fransiskonun yanına göndərilmiş Çemodanov, ora çatdıqdan sonra, o, öyrəndi ki, "Fransisko, Allahın iradəsi ilə, artıq yoxdur və indiki knyaz artıq

üçüncü hökmdardır". Bu boşluğu doldurmaq üçün Səfirlik idarəsi xaricdə çap olunan qəzetlərə və ya "vərəqlərə" abunə olurdular və onların tərcüməsi ilə məşğul olurdular. İsveç diplomatlarının istehzalı fikrinə görə, Ruslar, bu nəşrlərə "İncil kimi" inanırdılar. Qəzet məlumatları, təbii ki, diplomatik məlumatı əvəz etmirdi; ona görə də Moskva diplomatları tərəfindən bir sıra böyük səhvlər edilirdi. Belə ki, 1687-ci ildə knyaz Yakov Fyodoroviç Dolqorukov Fransa kralı XIV Lüdovikə Türkiyəyə qarşı ittifaq təklif etmək kimi incə bir missiya ilə Fransaya getdi, lakin bu zaman Fransanın özü Türkiyə ilə ittifaq müqaviləsi bağlayırdı.

Diplomatik fəaliyyətin müxtəlifliyi Moskva dövlət xadimlərinin əcnəbilərlə əlaqələrdə müəyyən bacarıqlarını inkişaf etdirmək zərurəti yaranırdı. Əcnəbilərin özləri rusların fövqəladə təbii diplomatik qabiliyyətlərini qıcıqla qeyd edirdilər: "Onlar əcnəbiləri aldatmaq üçün hiyləgərliyin bütün incəliklərini bir araya toplayırlar. Ya yalanı həqiqət kimi təqdim edir, ya da vacib deyiləcək məsələlər barədə susur və yalan mənalı min bir hiyləgərliklə yığıncaqlarda hər hansı qərarların məcburi qüvvəsini zəiflətdiklərindən, onlar tamamilə çökürdü."

Lakin, Rusiyanın əsrlər boyu dünya cəmiyyətindən geri qalması, XVII əsrdə rus həyatının digər sahələrində olduğu kimi, diplomatiyada da öz təsirini göstərirdi. Təhsilin və dəqiq elmlər biliyinin olmaması, Moskva diplomatlarının bütün çıxışlarında özünü hiss etdirirdi. Onların metodları çox vaxt olduqca sadəlövh şəkildə olurdu. 1658-1659-cu illərdə Florensiyaya səfir gedən Lixaçev, heyrətamiz bir məsumluqla, Böyük hersoq ("Qran Duka") Ferdinandın qəbulunda, Florensiyadan keçən polyak səfirinin Polşa kralından İspaniyaya hansı tapşırığını apardığını və "onunla bir vərəq olub-olmadığını və. .. bu vərəqdə nə yazıldığı?" haqqında məlumat almağa çalışmışdı. Moskva diplomatları bilik çatışmamazlıqlarını özlərində inam və cəsarət hissi yaratmaqla əvəz edirdilər. Mövcud olmayan nizamnamələrə istinad etmək və ya imperator Honori və Arkadinin birinci Moskva knyazı Vladimirə tac göndərdiklərini bəyan etmək onlara heç bir çətinlik gətirmirdi. Onların nəzərinə, bu imperatorların Vladimirdən 600 il əvvəl yaşadıqları bildirildikdə, onlar gözlərini qırpmadan Vladimirin dövründə də başqa Honori və Arkadinin olduğunu iddia edirdilər.

Nəhayət, elçilər zəiflərin adi silahına - kobudluqla müşayiət olunan inadkarlığa da əl atırdılar. Bu da, təbii ki, xarici diplomatlarda xoşagəlməz təəssürat yaradırdı. Əslində, xarici diplomatlar özləri də, mahiyyətcə eyni üsullardan, lakin daha incə formada istifadə edrdilər. Florensiya böyük hersoqun yaxın ətrafı Lixaçova təlqin etməyə çalışırdılar ki, "Florensiyada olan digər dövlətlərin səfirləri məlumat verərkən, ruslar kimi kobudluq eləmir və şərəfsizliyə yol vermirlər". 1687-ci ildə, Parisdən Dunkerkdə olan knyaz Dolqorukova belə bir sorğu göndərilmişdi: "Onlar inadkarlıq üçün gəlmirlər ki və kral əzəmətinin iradəsinə qarşı olmayacaqlar ki?"

ÜÇÜNCÜ FƏSİL

XVIII ƏSRDƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR

I BÖLMƏ
XVIII əsrdə Avropa dövlətlərinin diplomatiyası

§1. İspaniya varisliyi uğrunda müharibə və Fransanın beynəlxalq nüfuzunun azalmasının başlaması

1.İspaniya mirası uğrunda müharibə ərəfəsində siyasi vəziyyət
2.Karlovitsa sülhü
3.İspaniya varisliyinə iddiaçılar
4. İspaniya varisliyi uğrunda müharibənin başlanması
5.Utrext və Raştad müqavilələri
6.Vyana və Hannover ittifaqları
7.XV Lüdovik dövründə Fransa diplomatiyası.
8.Polşa varisliyi uğrunda müharibə
9. Kral XV Lüdovikin "sirri"

§2. İngiltərə XVIII əsrdə
1.XVIII əsrdə İngiltərənin xarici siyasəti
2.Böyük Pitt - Lord Çatam
3.Hindistanda ingilis siyasəti

§3.Almaniya XVIII əsrdə
1.XVIII əsrdə Almaniya knyazlıqlarının siyasi vəziyyəti
2.Avstriya- Prussiya rəqabəti
3.Avstriya mirası uğrunda müharibə. II Fridrixin diplomatiyası

§4."Diplomatik inqilab" və Yeddiillik müharibə
1. Beynəlxalq münasibətlərdə ziddiyyətlər kompleksi
2."Diplomatik inqilab"
3.Avropada Yeddiillik müharibə
4.Müstəmləkələrdə müharibə
5.Beynəlxalq sistemdə güc tarazlığının pozulması

§1. İspaniya varisliyi uğrunda müharibə və Fransanın beynəlxalq nüfuzunun azalmasının başlaması

1.İspaniya mirası uğrunda müharibə ərəfəsində siyasi vəziyyət
2.Karlovitsa sülhü
3.İspaniya varisliyinə iddiaçılar
4. İspaniya varisliyi uğrunda müharibənin başlanması
5.Utrext və Raştad müqavilələri
6.Vyana və Hannover ittifaqları
7.XV Lüdovik dövründə Fransa diplomatiyası.
8.Polşa varisliyi uğrunda müharibə
9. Kral XV Lüdovikin "sirri"

1.İspaniya mirası uğrunda müharibə ərəfəsində siyasi vəziyyət

XIV Lüdovikin hakimiyyətinin ikinci yarısından etibarən Avropanın diplomatik tarixində yeni bir dövr başlayır. Bu da İngiltərənin, Fransa ilə öz müstəmləkələrini artırmaq və talan edilməsində üstünlük qazanmaq uğrunda mübarizədə beynəlxalq rolunun tədricən güclənməsi ilə əlamətdar oldu. Bu mübarizənin ən mühüm mərhələsi İspaniya varisliyi uğrunda müharibə oldu. Bu, sülalə müharibəsi kimi başladı, lakin əslində dənizdə və müstəmləkələrdə hökmranlıq uğrunda Fransa və İngiltərə arasında ilk böyük toqquşmaya çevrildi. İspan varisliyi müharibəsinin (1701-1714) başlanmasına bəhanə varisi olmayan İspaniya kralı II Karlın ölümü oldu.

O dövrdə İspaniyada uşaq vaxtından sağlamlığının zəif olması ilə seçilən kral II Karl hökmdarlıq edirdi. Onun hər an ölməsi təhlükəsi gözlənilirdi və varissiz olduğu üçün İspaniya taxt-tacının boş qalacağı qorxusu yaşanırdı. Ciddi beynəlxalq fəsadlarla dolu olan İspaniya varisliyi məsələsi ortaya çıxdı: İspan taxtına öz nümayəndəsini qoya bilən dövlət, İspaniya müstəmləkə imperiyasının tükənməz sərvətinə dayaqlanaraq, Avropa siyasətinə fövqəladə güc və təsir əldə edə biləcək idi.

Hadisələrin belə bir dönüşünü gözləyən, Avropanın ən böyük hökmdarları İspaniya tacının sərvətinin və hakimiyyətinin dostcasına bölünməsi barədə əvvəlcədən razılığa gəlməyə çalışdılar. 1668-ci il yanvarın 19-da, XIV Lüdovik və imperator I Leopold qarşılıqlı münasibətlərin bir qədər yaxşılaşmasından istifadə edərək müvafiq müqavilə imzaladılar. Bu müqaviləyə əsasən, əgər, İspaniya kralının ölümü baş verərdisə, Fransa Cənubi Hollandiya, Franş-Konte, Navarra, Neapol, Siciliya, həmçinin Afrika və Filippindəki İspaniya ticarət məntəqələrini, Avstriya Habsburqları isə İspaniya, Balear və Kanar adaları,

Milan hersoqluğu, Sardiniya, Toskanadakı İspan istehkamları, Amerikadakı mülklər almalı idi. Lakin, Fransa-Avstriya yaxınlaşması qısamüddətli oldu və növbəti il İmperator Fransa kralı ilə bağladığı müqavilələrdən imtina etdi.

Risvik sülhünün (30 oktyabr 1697-ci il) bağlanmasından sonra İspan mirası məsələsi, II Karlın qaçılmaz ölümünü xəbər verən ağır xəstəliyi ilə əlaqədar yenidən ortaya çıxdı. Nəzərə alınsa ki, bu məsələdə maraqlı olan bütün dövlətlər yorucu müharibədən xeyli zəifləmişdilər, onlar bu məsələnin həllində sülh yoluna - danışıqlar və kompromislər yoluna üstünlük verdilər.

2.Karlovitsa sülhü

Üstəlik, Avropada başqa problemlər də var idi. İmperator və bəzi dövlətlərin başları Osmanlı İmperiyası ilə müharibəyə qarışmışdı. Avstriya hakimiyyəti altında olan macarlar ağır istismar və vergilər altında əzilirdi. Bununla yanaşı, onların provaslav olmaları da tanınmırdı. Macarlar ağır təzyiqə dözə bilməyib Tökeli İmrenin rəhbərliyi ilə üsyan qaldırdılar. Öz gücləri ilə uğur qazana bilməyəcəklərini başa düşüb, Osmanlılardan kömək istədilər. Sultan IV Mehmed, Mərzifonlu Qara Mustafa Paşaya fəaliyyətə keçməsinə, Raab və Komarom qalalarının (hər ikisi Macarıstanın şimal-qərbində yerləşir) mühasirəyə alınmasına icazə verdi. 6 avqust 1682-ci ildə isə müharibə elan olundu. 14 iyul 1683-cü ildə, türk ordusu Vyananı mühasirəyə aldı. 1683-cü il sentyabrın 12-də, imperatorun müttəfiqi Polşa kralı Yan Sobeskinin qoşunları köməyə gələrək, bu döyüşdə türk ordusunu məğlub edərək, Avstriya ersqersoqunun paytaxtını xilas etdi. Bu döyüş, Osmanlı İmperiyası ilə Avropa dövlətləri arasında münasibətlərdə dönüş nöqtəsi oldu: türklər hücum edən dövlətdən müdafiə olunan ölkəyə çevrildi. 1684-cü ildə, Papa XI İnnokentinin çağırışı ilə Müqəddəs liqa - Müqəddəs Roma İmperiyası, Venesiya Respublikası və Polşa-Litva Birliyindən ibarət anti-türk koalisiyası yarandı. Türkləri sıxışdıran Avstriya qoşunları bir neçə ildən sonra Belqradı zəbt etdilər.

Məşhur sərkərdə Savoylu Yevgeninin komandanlığı ilə, onlar 1697-ci il sentyabrın 11-də Macarıstanın Zenta (Senta) şəhəri yaxınlığında gedən döyüşdə düşmənlərini məğlub etdilər. Avstriyalıların uğuruna rus çarı I Pyotrun 1695-1696-cı illərdə Rusiya dövlətinin Qara və Azov dənizlərinə çıxışını təmin etmək məqsədilə həyata keçirdiyi məşhur Azov yürüşləri də kömək etdi. Osmanlı İmperiyasının məğlubiyyətini etiraf etməkdən başqa çarəsi qalmadı. 1698-ci ildə Dunay sahilindəki Karlovitsa yaşayış məskənində (indiki Serbiyada) sülh konqresi toplandı və burada Müqəddəs Roma İmperiyası, Rusiya dövləti, Polşa və Venesiya Respublikasının nümayəndələri Osmanlı İmperiyası ilə sülhün şərtlərini müzakirə etdilər. 1699-cu ildə onlar tarixə Karlovitsa sülhü kimi daxil olan bir sıra müqavilələr imzaladılar.

Karlovitsa sülhünə əsasən, Polşa Ukraynanın Sağ sahilində öz mülklərini genişləndirdi. Avstriya Balkanlarda müharibə zamanı Osmanlı İmperiyasından ala bildiyi demək olar ki, bütün əraziləri, o cümlədən Macarıstan, Transilvaniya (Semiqradye) və demək olar ki, bütün Slavoniyanı (indiki Xorvatiyanın şərqindəki tarixi əyalət) özündə saxladı. Morea, həmçinin Egey arxipelaqının adaları və Dalmatiyadakı qalalar Venesiya Respublikasının mülkləri kimi olaraq tanındı. Barışıq müqaviləsinə əsasən Rusiya Azovu öz əlində saxladı. Bu barışığın davamı olaraq Osmanlı İmperiyası ilə 1700-cü il iyulun 3-də (13) bağlanan Konstantinopol sülh müqaviləsi Rusiyanın Azovu və bir sıra yeni qalaları (o cümlədən Taqanroqu) almasını təmin etdi.

İmperatoru Karlovitsa sülhünün bağlanması ilə tələsməyə vadar edən səbəblərdən biri İspaniya mirasının bölünməsi ilə əlaqədar Qərbi Avropanın ən böyük dövlətləri arasında yaranan ziddiyyətlər idi.

Respublika dövrünə qədər, şəhər üçün ən geniş yayılmış ad Konstantinopol olmuşdur. Konstantiniyyə və İstanbul isə Osmanlı İmperiyası hakimiyyəti dövründə şəhərə verilmiş adlar olmuşdur. Konstantinopolis avropalılar, İstanbul isə türklər tərəfindən istifadə olunurdu. Respublika dövrü başladıqdan sonra isə şəhərin rəsmi adı İstanbul olaraq qaldı.

3.İspaniya varisliyinə iddiaçılar

Mirasda öz payının alınmasına, eyni zamanda bir neçə nəfər iddia edə bilərdi. Birinci namizəd, Fransa kralı XIV Lüdovikin yeganə qanuni oğlu, "Böyük Dofin (varis)" (1 noyabr 1661 - 14 aprel 1711) idi. Onun anası (XIV Lüdovikin arvadı) II Karlın ögey bacısı, İspaniyalı (Avstriya) Mariya Tereza idi. Beləliklə, "Böyük Dofin" İspaniya kralının bacısı oğlu idi.

XIV Lüdovik özünü ispan mülklərinin əsas varisi hesab edirdi. Bu, indiyə qədər mövcud olan ən zəngin miras idi. Söhbət, yalnız Fransanın xeyrinə "siyasi tarazlığın" dəyişməsindən deyil, əslində Fransanın dünya hegemonluğundan gedirdi. İspaniyanın özündən əlavə, "varis" - XIV Lüdovik - italyan, holland, habelə İspaniyanın çoxsaylı Afrika və Amerika mülklərini almalı idi.

Müqəddəs Roma İmperiyasının imperatoru I Leopold da İspan mirasına iddialı idi. Anası II Karlın bibisi (II Karlın atası İspan kralı IV Filipin bacısı), həyat yoldaşı isə Kral IV Filipin qızı Marqaret Tereza idi. Nəhayət, Bavariya kürfüstü Maksimilian II Emmanuel də, özünü ölümcül xəstə İspaniya kralının qanuni varisi hesab edirdi. O, İmperator I Leopoldun və ispan şahzadəsi Marqaret Terezanın qızı Mariya Antoni ilə evlənmişdi. Maksimilianla evlənəndə o, anasının nəsil xətti ilə İspaniya krallarının mirasına aid bütün hüquqlarından imtina etmişdi. Lakin onun oğlu, 5 yaşlı şahzadə İosif Ferdinandın bu hüquqları var idi.

Bavariyalı kürfüstü ilə mehriban ailə münasibətlərində olan İmperator nəvəsi İosif Ferdinandın İspaniya taxtına çıxmasına sössüz razı olardı. Lakin, fransızlar üçün həm imperatorun özünün, həm də nəvəsinin namizədliyi arzuolunmaz idi. İki yüzillik ərzində, onlar Habsburqların Fransa sərhədlərinə qarşı olan təzyiqlərini azaltmaq üçün mübarizə aparır və onlardan getdikcə daha çox yeni ərazilər fəth edir, ispan nikahları vasitəsilə onların sıralarında parçalanmalar təşkil edirdilər. Və nəhayət, İmperator Habsburq ailə bağlarından istifadə edərək İspaniyanı yenidən öz təsirinə tabe etsəydi, onlar XVI əsrin əvvəllərində olduqları siyasi vəziyyətə düşə bilərdilər.

Habsburqların yaradacağı təhlükəni minimuma endirmək üçün, Fransaya nüfuzlu dövlətlərin dəstəyi lazım idi. XIV Lüdovik kömək üçün İngiltərə kralı və Birləşmiş Əyalətlər Respublikasının ştathalderi Oranlı III Vilhelmə müraciət etdi, çünki o, əsas dövlətlər arasında güc nisbətinin saxlanmasının ən ardıcıl tərəfdarı kimi tanınırdı. Lakin, o, Auqsburq liqasına başçılıq etdiyinə görə, son müharibədə Fransanın düşməni sayılırdı. Bundan əlavə, İngiltərə kralının ixtiyarında geniş hərbi və maliyyə ehtiyat mənbələri var idi ki, bu da istənilən beynəlxalq mübahisədə, o cümlədən sülalə münaqişələrində ciddi amil ola bilərdi.

1697-ci ilin sonunda, Versalda başlayan fransız-ingilis danışıqları nəticəsində Böyük Dofinin İspaniya taxtına namizədliyi məsələsi dərhal gündəmdən çıxarıldı. Fransızlar söz verməli idilər ki, fransız şahzadəsi heç vaxt eyni zamanda Fransa və İspaniya kralı olmayacaqdır. İspan mirasının bölünməsi üçün bir neçə variant nəzərdən keçirildi. Onlardan birinə görə, İspaniyanın Cənubi Hollandiyası Bavariya kürfüstünün oğluna verilirdi. XIV Lüdovikin nəvəsi İspaniyanı və onun Amerika mülklərini alırdı; Milan və Neapol Avstriya Habsburqlar evinə çatmalı idi. İngilis və fransız diplomatları uzun müddət İspan tacının mülklərinin bölünməsi ilə bağlı mübahisə etdilər, mülkləri əsas maraqlı tərəflər arasında bərabər paylamağa çalışdılar.

1698-ci ilin oktyabrında, İngiltərə və Fransa İspan mirasının bölünməsi ilə bağlı müqavilə imzaladılar. Fransızlar Neapolu, Siciliyanı, Toskana sahillərindəki ispan istehkamlarını, Bask ölkəsinin İspaniya hissəsini almalı idilər. I Leopoldun oğlu Avstriya ersqersoqu Karl (1 oktyabr 1685— 20 oktyabr1740) Milan hersoqluğunun alınmasına təminat ala bilərdi. Müvafiq olaraq, Bavariya kürfüstünün oğlu İspan tacı ilə birlikdə İspan krallarının bütün digər mülklərini miras alırdı.

Ancaq gözlənilmədən ingilislər və fransızların planlarını İspaniya kralının özü qarışdırdı. Onların gizli şəkildə bağladıqları müqavilədən xəbər tutan II Karl qəzəbləndi. 1698-ci il noyabrın 14-də o, Bavariya kürfüstünün oğlu İosif Ferdinandı öz varisi elan etdi. Beləliklə, o, ingilislərin və fransızların İspaniya mirasından ərazi və ya digər kompensasiyalar almaq şanslarını kəskin şəkildə azaltdı, çünki, miras

almaq üçün onlar Bavariya şahzadəsinin İspaniya kral tacına hüquqlarını tanımağa hazır olmalı idilər.

Buna baxmayaraq, Avstriya Habsburqlarının sevinci qısamüddətli oldu. 1699-cu il fevralın 5-dən 6-na keçən gecə, Bavariya şahzadəsi qəflətən vəfat etdi. Artıq 11 iyun 1699-cu ildə, Fransa və İngiltərə yeni bir müqavilə imzaladılar. Razılığa görə fransızlar, İspan mirasının əvvəlcədən razılaşdırılmış payına əlavə olaraq, Lotaringiyanı da alaraq, şərq sərhədlərini əhəmiyyətli dərəcədə genişləndirirdilər. Yalnız bu şərtlə, hər iki dövlət İmperator I Leopoldun oğlu ersqersoq Karlın İspan tacına hüquqlarını dəstəkləməyə razılaşmalı idilər. Bu şərtlər yerinə yetirilərdisə, Fransa özü İngiltərəyə maliyyə və siyasi təzminat verəcəyini vəd etdi. İmperatordan üç ay ərzində hər iki dövlətin imzaladığı müqaviləyə qoşulması təklif edildi.

Ancaq İmperator ona edilən təklifin cavabını bir il gecikdirdi və sonda rədd etdi. Düzdür, o, İspaniyanın mirası ilə bağlı Fransa ilə ikitərəfli danışıqlar aparmağa hazır olduğunu bildirdi. Lakin, XIV Lüdovik İngiltərə-Hollandiya tərəfi ilə əvvəllər bağlanmış müqaviləni ləğv etməyə razı olmadı. Fransa ilə Müqəddəs Roma İmperiyası arasında gərginlik kəskin şəkildə artdı.

Bu hadisənin necə başa çatacağı məlum deyildi - ya Habsburqlar diplomatik qələbə çalacaq və Fransa aşağılanacaq idi, ya da onlar arasında sülh razılaşması və ya İngiltərə-Fransız koalisiyasının Avstriya və İspan Habsburqlarının koalisiyası arasında yeni bir Avropa müharibəsi baş tutacaq idi. Lakin, II Karl qəfildən, hadisələrin gedişində qaydaları yenidən dəyişdi.

1700-cü ildə ölümündən bir ay əvvəl o, yeni vəsiyyətnamə imzalayaraq, XIV Lüdovikin nəvəsi Anju hersoqu Filipi (19 dekabr 1683 — 9 iyul 1746) özünə varis təyin etdi.

II Karl bütün mirasın, bütöv halda, fransız şahzadəsinə keçməsi ilə bağlı qərar verdi. O, hesab edirdi ki, bölünməmiş İspaniyanın başında fransız şahzadəsinin olması, ölkəni bölməkdən daha yaxşıdır. Fransa diplomatiyası və ispanların özləri kralı bu qərara sövq etdi, çünki Minye deyirdi ki, "milli partiya avstriyalılara nifrət edir, çünki onlar çoxdan İspaniyada ağalıq edirlər və fransızları isə sevirdilər, çünki onlar hələ İspaniyada olmayıblar". 1700-cü il oktyabr 2-də, II Karl öz ruhani atası, ilahiyyatçıları, vəkilləri və papanın özü ilə məsləhətləşdikdən sonra bu vəsiyyətnaməni imzaladı. Vəsiyyətnaməyə görə, ölümündən sonra İspaniyanı onun Köhnə və Yeni dünyalardakı bütün mülkləri ilə XIV Lüdovikin nəvəsi- Anju hersoqu Filipə təhvil verdi. 1700-cü il noyabrın 1-də İspaniya kralı II Karl vəfat etdi.

4. İspaniya varisliyi uğrunda müharibənin başlanması

XIV Lüdovik öz diplomatiyasının yaratdığı və bir-birinə birbaşa zidd olan iki çətin məsələ ilə üzləşdi. Mirası qəbul etməsi demək olar ki, bütün Avropa ilə müharibə demək idi. Bundan imtina etmək isə, İngiltərə, Hollandiya və İmperatorla bağlanmış bölgü müqavilələrinə sadiqlik, təbii olaraq, bölünməyə məruz qalmaq istəməyən İspaniya ilə müharibəyə səbəb ola bilərdi. Nəhayət, kralın və onun baş məsləhətçilərinin şöhrətpərəstliyi üstünlük təşkil etdi. Belə ki, onların arasında artıq hakimiyyətinin birinci yarısında olan ağıllı, təmkinli insanlar yox idi. Fransa sarayında olan İspaniya səfirinin dediyi "Pireneylər demək olar ki, dağılıb" sözləri, XIV Lüdovikin adına çıxaraq, kralın guya "Artıq Pireneylər yoxdur!" ifadəsini işlətdiyi göstərilir.

Nə İngiltərə, nə də Niderland Fransa kralı ilə müharibə etmək niyyətində deyildilər, sülhü müharibə təhlükəsindən və ticarətin pozulmasından üstün tuturdular. Onlar, XIV Lüdovikin İspaniyanın heç vaxt Fransa ilə birləşməyəcəyinə dair təntənəli vədi ilə kifayətləndilər. Ancaq, Fransa hökumətinin sonrakı davranışı ən məşum fərziyyələri təsdiqlədi. 1701-ci ilin əvvəlində, XIV Lüdovik xüsusi fərmanla V Filippin Fransa taxt-tacına hüquqlarını tanıdı, İspaniyanın Hollandiya əyalətlərinin qalalarında fransız qarnizonlarını yerləşdirdi və ispan qubernatorlarına və çanişinlərinə öz hökmdarı kimi ona tabe olmağı əmr etdi.

Hollandiya və İngiltərədə olan müharibə tərəfdarları fəryad qaldıraraq, XIV Lüdovikə mirasın bir hissəsini almaq üçün onların razılığını aldığını, lakin əslində onu tamamilə ələ keçirdiyinə görə məzəmmət etməyə başladılar. Vilhelm, XIV Lüdovikin İngiltərədən yenicə qovulmuş Stüartların xeyrinə ingilis işlərinə müdaxilə etmək niyyətində olması barədə şayiələr yaymağa başladı. XIV Lüdovik, öz növbəsində, bu şayiələri inandırıcı etmək üçün bütün səylərini göstərirdi. O, Fransada ölüm ayağında olan keçmiş ingilis kralı II Yakova baş çəkdi və onun oğlunun kral titulunu tanıyacağına dair təntənəli şəkildə söz verdi. Bundan xəbər tutan İcmalar palatası, hökumətə müharibə etmək üçün maliyyə vəsaitinin verilməsinə səs verdi. O dövrdə hamıdan daha çox döyüşkən ruhda olan hökmdar, Almaniya İmperatoru idi.

Beynəlxalq vəziyyət İmperatora Habsburqların çoxəsrlik düşmənləri olan Burbonlara həlledici zərbə vurmaq üçün son dərəcə əlverişli göründü. Bundan bir az əvvəl o, türklərlə sülh bağlamışdı (1699-cu ildə Karlovitsada). Almaniyada fransızların ağalığından qıcıqlanan alman knyazları arasında onun apardığı diplomatik təbliğatı da uğur qazandı: onlar imperatora kömək etməyə hazır olduqlarını bildirdilər. Danimarka və İsveç də müsbət cavab verdilər. Onlar hələ Vestfal sülhü bağlanan dövrdən Fransanın hegemonluq etməyindən qorxurdular.

Bununla belə, demək olar ki, İspaniya varisliyi müharibəsi ilə eyni vaxtda başlayan Böyük şimal müharibəsi onların qüvvələrini şimal-şərqə yönəltdi və imperator onlardan heç bir kömək ala bilmədi.

Avropada yaranan vəziyyət Fransa üçün xoşagəlməz hal aldı. XVII əsrin 80-ci illərində yaranmış, bütün Avropanın Fransaya qarşı olduğu koalisiya, demək olar ki, yenidən bərpa edildi. Avropanın demək olar ki, bütün böyük dövlətlərinin daxil olduğu koalisiya yekdilliklə yenidən Fransaya qarşı çıxdı. 7 sentyabr 1701-ci ildə Haaqada, İngiltərə və Niderland Müqəddəs Roma İmperatoru ilə ittifaqa girdilər (Böyük ittifaq adlanırdı) və 1702-ci ilin mayında Fransaya müharibə elan etdilər. Sonradan Brandenburq və digər əksər alman knyazlıqları, Danimarka, Portuqaliya anti-Fransa koalisiyasına qoşuldular. Fransa özünü demək olar ki, tamamilə beynəlxalq təcrid vəziyyətinə düşdü.

1701-1714-cü illərdə baş verən İspaniya varisliyi müharibəsi, XIV Lüdovikin həyatında apardığı müharibələrdən ən uzunu və çətini oldu. Müharibə, eyni zamanda dörd cəbhədə aparılırdı: İtaliyada, İspaniyada, Niderlandda və Almaniyanın Reyn torpaqlarında. 1701-ci ilin yazında başlayan bu müharibə Fransa üçün ümumən uğursuz oldu. Fransanın müharibənin ilk dövründə (1702-1704) qazandığı uğurlardan sonra, məğlubiyyətlər və ağır uğursuzluqlar gətirən illər başlandı.

Hərbi əməliyyatlar İspaniyada, Niderlandda, Almaniyada, İtaliyada, müstəmləkələrdə və dənizlərdə baş verirdi. İngiltərə -Niderland qoşunlarının başında hersoq Marlboro dururdu və Yevgeni Savoyski imperiya qoşunlarına komandanlıq edirdi. Onlar fransızları bir sıra böyük məğlubiyyətlərə düçar etdilər. İspan tacı uğrunda iddia edənlərdən biri Avstriya ersqersoqu Karl ingilis donanmasının dəstəyi ilə İspaniya sahillərinə çıxdı və özünü kral elan etdi. Anti-Fransa koalisiyasının qoşunları Neapol və Sardiniyanı ələ keçirərək Siciliyanı təhdid etdilər. 23 may 1706-cı ildə Marlboro Cənubi Niderlandda Ramiye kəndi yaxınlığındakı döyüşdə mühüm qələbə qazandı və fransızları geri çəkilməyə məcbur etdi. 1708-ci ilin dekabrında, müttəfiqlər Fransanın öz ərazisinə hücum etdilər.

Əvvəlki müharibələrdən tükənmiş ölkə bu illərdə (1704-1710) aclıq çəkirdi. 1702-1705-ci illərdə, Seven dağlarında yaşayan protestant kəndlilərin – Jan Kavalyenin başçılığı ilə Kamizarlar (köynəklilər) üsyanı onların hədsiz hiddətini ifadə edirdi.

Fransızların vəziyyəti ümidsiz görünürdü. XIV Lüdovik artıq müttəfiqlərin tələblərini qəbul etməyə, İspaniya taxtına iddialardan imtina etməyə və onlarla o qədər də ağır olmayan, ləyaqətini alçaltmayan sülhə imza atmağa meylli idi. Müharibənin son dövründə (1710-1714) fransızlar hərbi vəziyyətlərini müəyyən qədər düzəltməyə müvəffəq oldular. Bu da, XIV Lüdovikə Fransa üçün çox da alçaldıcı olmayan sülh bağlamağa imkan verdi.

"Günəş kralı"nın hakimiyyətinin ikinci yarısı görkəmli insanlar və hərbi istedadlar baxımından ümumiyyətlə kasad idi. Ölkənin güclü qüvvələri köhnəlməyə başlayan parlaq monarxiyanın rəsmi dairələrindən kənarda idi. Bu vaxt, görkəmli diplomatlar və generallar onun rəqiblərinin tərəfində olan Oranlı III Vilhelm (1702-ci ildə onun ölümündən sonra, onu Anna Stüart (1702-1714) əvəz etdi), Marlboro və istedadlı Avstriya sərkərdəsi Şahzadə Yevgeni Savoyski idi. XIV Lüdoviki yalnız bir məsələ düşündürürdü, müharibədən öz şərəfini itirmədən necə çıxmaq olar.

Düşmənləri arasında olan fikir ayrılıqları və ziddiyyətlər ona kömək etdi. XIV Lüdovikin diplomatları, demək olar ki, hər əməliyyatdan sonra hollandlarla əlaqələr yaratmağa çalışırdılar. Onlar, hollandları inandırırdılar ki, ingilislər Şərqi və Qərbi Hindistanı ələ keçirəcəklər, Habsburqlar isə İspaniyanı ələ keçirərək V Karlın imperiyasını və onun Avropadakı keçmiş hegemonluğunu bərpa etmək istəyirlər. Niderland üçün isə yalnız Fransa təhlükəsindən özünü qorunmaq və ticarət işlərini davam etdirmək lazım idi. Ona görə də, onlar yalnız sərfəli ticarət müqavilələri və qondarma "maneə" yaradılmasına can atırdılar, yəni o vaxt İspaniyaya məxsus olan indiki Belçikada öz qarnizonları saxlamaq hüququ əldə etmək istəyirdilər. Ümumiyyətlə, onlar çox baha başa gələn döyüşlər aparmağa meylli deyildilər.

İngilislər o zaman dənizdə kaperlik ("quldurluq") edirdilər. Aralıq dənizinin açarını - Cəbəllütariqi (1704) ələ keçirə bildilər və Portuqaliya ilə onu iqtisadi cəhətdən İngiltərəyə tabe edən ticarət müqaviləsi (Metuen sazişi,1703) bağladılar. Müqaviləyə görə, ingilislər öz istehsal etdikləri məhsulları Portuqaliyaya rüsumsuz idxal etmək hüququ aldılar və bundan sonra, bu mallar qaçaqmalçılıq yolu ilə İspaniyaya da aparılırdı. Amerikada, Boston və Nyu-York müstəmləkəçiləri bir-birinin ardınca yeni Fransanın ərazilərini ələ keçirirdilər. Lakin, buna baxmayaraq, müharibənin əsas xərcləri İngiltərənin üzərinə düşdüyündən Londonda da sülh əhval-ruhiyyəsi artırdı. 1710-cu ildə seçkilərdə müharibə əleyhinə olan Torilər üstünlük qazandılar. Bir çox hərbi əməliyyatların əsas qəhrəmanı Marlboro mənimsəmədə ittiham edildi və bu da, əslində həqiqət idi. 1711-ci ilin aprel ayında, İmperator I İosif öldü və onun kiçik qardaşı, İspan taxtına iddialı olan VI Karl taxta çıxdı. 1711-ci ilin aprelində, ersqersoqun Müqəddəs Roma İmperiyasının VI Karl olaraq İmperator seçilməsi beynəlxalq vəziyyəti kəskin şəkildə dəyişdi. Əksər dövlətlər və hamıdan əvvəl də, İngiltərə Avstriya və İspan mülklərini Habsburqların əlində birləşdirmək imkanını öz maraqları üçün real təhlükə kimi qəbul etdilər.

Belə bir şəraitdə, V Karl imperiyasının bərpası və Mərkəzi Avropanın (Almaniya və İtaliya) yenidən güclənməsi təhlükəsi olduqca real görünməyə başladı. Göründüyü kimi, İmperiya Vestfal sülhü ilə məhdudlaşdırılmış vəziyyətdən çıxmağa hazır idi. 1710-cu il üçün fransızların himayə etdiyi, ispaniyalı V Filip nəhayət, özünü yeni vətənində təsbit edə bildi. 1711 və 1712-ci illərdə aparılan hərbi

əməliyyatlarda müttəfiqlər yeni qələbələr qazana bilmədilər. İlk olaraq ingilislər, fransızlara əsl ingilissayağı formada, yəni müttəfiqlərindən gizlin olaraq, sülh əli uzatdılar. Hələ 1711-ci ilin yanvarında, İngiltərə hökumətinin məxfi agenti Fransada peyda oldu, "kralın rəğbətini itirmiş" hollandlar olmadan separat sülh bağlamağı təklif etdi.

Təklif qəbul olundu və sonrakı danışıqlar da, o qədər məxfi aparılırdı ki, hətta ingilis diplomatlarına belə məlumat sızdırmaq istəmirdilər. İngilis tələbləri, şair Prayars tərəfindən Fransaya, Kraliça Anna tərəfindən yazılan bir məktubda gətirildi. Oktyabr ayında, İngiltərənin təəccüb qalmış müttəfiqləri- hollandlar və almanlar İngiltərə ilə Fransa arasında imzalanan sülh şərtləri ilə tanış oldular. Lakin, onlara aid olan maddələr dərc edilmədiyindən, əsas cizgiləri qeyri-müəyyən şəkildə təxmin edildi.

Fransa kralı XIV Lüdovikin hakimiyyətinin son illərində, səhhətinin pisləşməsi və 1711-1714-cü illər arasında demək olar ki, bütün qanuni varislərini itirməsi ilə əlaqədar əhvalı pozuldu. 13 aprel 1711-ci ildə onun 49 yaşlı oğlu Böyük Dofin Lüdovik (1661-ci il təvəllüdlü) çiçək xəstəliyindən öldü. 1712-ci ildə qızılca epidemiyası, üç kral nəvəsinin ən böyüyü olan 29 yaşlı Burqundiya hersoqunun həyatdan apardı. Tezliklə onun həyat yoldaşı və 5 yaşlı oğlu da öldü (ilk övladı 1705-ci ildə körpəlikdə ölmüşdü). Varislik hüququ onun kiçik qardaşı Anju hersoqu Lüdovikə keçdi, vaxt hələ o, körpə idi. Tezliklə o da xəstələndi. Həkimlər gündən-günə onun ölümünü gözləyirdilər, amma möcüzə baş verdi və uşaq sağaldı. 4 mart 1714-cü ildə Burqundiya hersoqunun kiçik qardaşı, XIV Lüdovikin üçüncü nəvəsi Berri hersoqu Karl atdan yıxıldı və bir neçə gün sonra varis qoymadan öldü. İspaniya kralı V Filipdən başqa, Burbonların yalnız bir varisi - kralın nəvəsi, Burqundiya hersoqunun üçüncü oğlu, iki yaşlı Lüdovik (sonralar XV Lüdovik) qaldı.

Varislərinin ölümündən sonra Lüdovik çox kədərləndi və qaraqabaq oldu. Əməli olaraq yataqdan qalxmırdı. Onu sakitləşdirmək üçün edilən bütün cəhdlər boşa çıxırdı. Bütün gününü tanrısına dua etməklə keçirirdi. 24 avqust 1715-ci ildə, atdan yıxılaraq sındırdığı ayağında, qanqrena əlamətləri göründü (kral ayağının kəsilməsindən imtina etdi), avqustun 27-də ölüm qabağı son tapşiriqlarını verdi və sentyabrın 1-də öldü. XIV Lüdovikin hakimiyyəti dövrü, bütün monarxlar arasında ən uzun müdddətlisi olaraq, 72 il 110 gün davam etmişdir, bunun 54 ili faktiki hökmranlıq dövrüdür.

5.Utrext və Rastad müqavilələri

Artıq, 8 oktyabr 1711-ci ildə Londonda Fransa ilə İngiltərə arasında ilkin sülh müqaviləsi imzalandı. Əhəmiyyətli ərazi, ticarət və siyasi güzəştlər bahasına XIV Lüdovuk əsas məsələni ingilislərlə həll edə bildi - onlar V Filipi İspaniya kralı kimi tanıdılar. İlkin sülh sazişinin imzalanmasından sonra, hərbi əməliyyatlar dayandırıldı. 1712-ci ilin yanvarında, Niderlandın Utrext şəhərində sülh konqresi açıldı, bu konqresdə bir tərəfdə Fransa və İspaniya, digər tərəfdə, onların rəqibləri olan koalisiya üzvləri iştirak edirdi. Müqəddəs Roma İmperiyasının İmperatoru və alman knyazları konqresdə iştirak etmirdi. Danışıqlar iki ildən çox davam etdi, nəticədə 1713-cü il aprelin 11-də, konqres iştirakçıları Utrext sülhü adlanan bir sıra müqavilələr imzaladılar.

Utrext sülhünün imzalanmasına baxmayaraq, İmperator VI Karl bir müddət hələ də İspan kralının tacını almaq ümidini itirməmişdi. Ona görə də, o və müttəfiqləri olan alman knyazları sülh qurultayında iştirak etməkdən imtina etdilər və onun hazırladığı müqavilələri tanımadılar. Buna baxmayaraq, 1713-cü ildə Almaniyanın Rastad şəhərində imperatorun nümayəndələri ilə Fransa kralı, böyük hərbi liderlər, müvafiq olaraq, şahzadə Yevgeni Savoyski və general (sonradan marşal) Vilar arasında danışıqlar başladı. Hər iki hərbi komandan bacarıqlı diplomat olduqlarını sübut etdilər. 1714-cü il martın 7-də onlar Rastad müqaviləsini imzaladılar.

Hər iki müqavilə XVIII əsr Avropa tarixində böyük əhəmiyyət kəsb edirdi.

Fransanı son həddə qədər tükəndirən bu müharibə nəticəsində XIV Lüdovik öz iddialarını yumşaltmalı oldu. 11 aprel 1713-cü ildə imzalanmış Utrext sülhinə və 1714-cü il martın 7-də imzalanmış Rastad sülhünə görə XIV Lüdovikin nəvəsi V Filip Burbon, onun varislərinin Fransa taxt-tacı hüquqlarından imtina etməsi şərti ilə, İspan tacını qoruyub saxladı.

Burbonların İspaniyada qalmasına icazə verildi, lakin bir şərtlə ki, İspaniya kralı heç vaxt eyni zamanda Fransa kralı olmamalı idi. Buna görə İspaniyanın güzəştləri:

1) Habsburqlara - Neapol krallığını, Sardiniyanı, Toskananın bir hissəsini, Milan hersoqluğunu və İspaniya Hollandiyasını;

2) Brandenburq kürfüstünə - ispan Geldernini (Hollandiyada);

3) Savoy hersoquna - Siciliyanı;

4) İngiltərəyə - Cəbəllütariq, Minorka adasındakı istehkam nöqtəsi, eləcə də Afrikadan Amerikanın İspaniya müstəmləkələrinə gətirilən qaradərili qullarla ticarətin inhisar hüququnu (asiento adlanır) verməsi oldu.

Asiento - XVI-XVIII əsrlərdə, İspaniya bağladığı müqavilələr ilə, fərdi şəxslərə və ya xarici dövlətlərə zənci qullarının Amerika mülklərinə gətirilməsi üzərində inhisar hüququ verirdi.

XVI-XVII əsrlərdə. bu hüquq müxtəlif zamanlarda flamandlara, genuyalılara və hollandlara məxsus olub, 1701-ci ildə Fransaya, 1713-cü ildə isə 30 il müddətinə İngiltərəyə verilib.

Fransanın ən böyük itkiləri Amerikada oldu. Burada o, Hudzon körfəzi, Nyufaundlend və Akadiyanın ətrafındakı torpaqlardan, yəni XVII əsrin əvvəllərindən Fransız müstəmləkəçiləri tərəfindən məskunlaşan Müqəddəs Lavrenti çayından şimaldakı torpaqlardan imtina etməli oldu. Bu, Şimali Amerikada olan fransız mülklərinin ləğv edilməsi üçün bir başlanğıc idi. İngiltərə üçün dənizdə tam hökmranlığı dövrü başladı.

Utrext sülhünün maddələrinin genişləndirilməsi üçün, 1715-ci il noyabrın 15-də Antverpendə imperator, Hollandiya və Böyük Britaniyanın nümayəndələri qondarma "Sərhəd müqaviləsi"ni imzaladılar. Müqaviləyə görə, mümkün fransız istilasından qorumaq üçün holland hakimiyyətinə Avstriya Niderlandının bir sıra qalalarında öz qarnizonlarını saxlamaq hüququ verildi.

İspan varisliyi müharibəsinin əsas nəticəsi, XIV Lüdovikin qüvvələr nisbətini öz xeyrinə dəyişmək, Fransanın Avropada və müstəmləkələrdə hökmranlığına nail olmaq niyyətlərinin puça çıxması oldu. Anti-Fransa koalisiyasının səyləri sayəsində XVIII əsrin əvvəllərində qüvvələr nisbəti bərpa edildi: İspaniyada Fransa sülaləsi ilə əlaqəli bir sülalənin (İspan Burbonları) hakimiyyətə gəlməsi ilə əlaqədar Fransanın mövqeyinin bir qədər möhkəmlənməsi, digər dövlətlərə ərazi və müstəmləkə təzminatlarının güzəştə gedilməsi ilə tarazlaşdırıldı. Xüsusilə, Cənubi Niderland Habsburq monarxiyasının tərkibinə daxil oldu.

6.Vyana və Hannover ittifaqları

Fransa İspaniyada qohum bir sülalənin hakimiyyətə gəlməsindən dərhal faydalanmadı. İspaniya Vərəsəliyi müharibəsi başa çatdıqdan sonra iki ölkə arasında olan münasibətlər daha da pisləşdi və 1718-1720-ci illərdə Fransa-İspaniya müharibəsinə səbəb oldu. Bunun səbəbi, 1715-ci ildə XIV Lüdovikin ölümündən sonra onun hələ azyaşlı və səhhəti zəif olan nəvəsi XV Lüdovikin çıxdığı Fransa taxtına V Filippin iddiaları idi. 1724-cü ildə, Fransa kralının ağır xəstəliyi haqqında şayiə yayılanda, V Filipp hətta oğlu Luisin xeyrinə İspan taxtından imtina etmişdi ki, bir fransız şahzadəsi kimi Utrext müqaviləsinin şərtlərini pozmadan, Fransa taxt-tacına iddia qaldırsın. Düzdür, söz-söhbət təsdiqini tapmadığından, V Filipp yenidən İspaniya taxtına qayıtdı.

İmperiya, İspaniya ilə Fransa arasındakı ziddiyyətlərdən istifadə etmək qərarına gəldi. 1725-ci ilin aprelində İspaniya kralı və İmperatoru Vyanada ittifaq bağladılar, digər dövlətlər bunu Avropa tarazlığına təhlükə kimi qəbul etdilər. Həmin ilin sentyabrında, Böyük Britaniya, Fransa və Prussiya krallığı Hannover ittifaqını imzaladılar. Hər iki müxalif qrup müharibəyə hazırlığa başlayaraq, öz tərəflərinə

yeni müttəfiqlər cəlb etməyə başladılar.

1726-cı ilin avqustunda Rusiya Vyana İttifaqına qoşuldu. O, Qara dənizə çıxış əldə etmək məqsədilə, Habsburqlarla ittifaqda, Osmanlı İmperiyasına qarşı mübarizə etmək marağında idi. Lakin, Avropa diplomatiyasının səyləri sayəsində, bu dəfə böyük müharibəyə lüzum olmadı. 1728-1729-cu illərdə Fransanın Suasson şəhərində baş tutan beynəlxalq konqres mübahisəli məsələlərin həllini tapmağa cəhd etdi. Lakin, ən əsası odur ki, əvvəlcə Avstriya-Rusiya ittifaqından qorxan Prussiya Habsburqlarla anlaşmaya getdi, ondan sonra isə Böyük Britaniya və Fransa İspaniya ilə münasibətlərini nizamladılar.

1730-cu ilin əvvəlində, əslində Vyana və Hannover ittifaqları dağıldı. İspaniya ilə Avstriya Habsburqları arasında münasibətlər soyuqlaşdı. V Filip XVIII əsrin ikinci rübündə baş vermiş iki böyük Avropa müharibəsindən (Polşa və Avstriya mirası uğrunda) istifadə etdi. O, əvvəllər Habsburqların hakimiyyəti altında olan bir sıra İtaliya dövlətlərini İspaniya Burbonlarına tabe etmək üçün səy göstərdi. V Filipin varisləri Fransa ilə sıx ittifaq siyasətinə qayıtdılar, bunun parlaq ifadəsi Fransa və İspaniya Burbonlarının 1761-ci ildə bağladıqları Soyad (Ailə) paktı idi.

7.XV Lüdovik dövründə Fransa diplomatiyası

XIV Lüdovikin varisinin hakimiyyəti dövrü fransız mütləqiyyətinin tamamilə dağılmasının və onun xarici siyasətinin uğursuzluğunun başlanğıcı oldu. XV Lüdovikin iştirak etdiyi üç müharibə - Polşa varisliyi müharibəsi (1733 - 1735), Avstriya vərəsəliyi müharibəsi (1740 - 1748), Yeddi illik müharibə (1756 - 1763)- Fransanın maraqları üçün o qədər də vacib deyildi. Onlara "İsrafçı müharibələr" deyilirdi. Getdikcə artan burjuaziyanın maraqları baxımından bu müharibələr açıq-aşkar dövlətə zərər verirdi. XV Lüdovik, Amerikadakı fransız müstəmləkələrinin müdafiəsinə diqqət yetirmək əvəzinə, Fransanı zəiflədən bir sıra qitə müharibələrinə cəlb edilməsinə imkan verdi. Bunun nəticəsi, ingilislərin və ispanların əlinə keçən Amerika müstəmləkələrinin (Kanada və Luiziana) itirilməsi və məşhur fransız sahibkar və təşkilatçısı Jan Duplenin fəaliyyəti nəticəsində az qala fransızlara aid olacaq Hindistanda Fransa siyasətinin tamamilə iflasa uğraması oldu.

XV Lüdovik (15 fevral 1710 - 10 may 1774l) - Burbon sülaləsindən olaraq 1 sentyabr 1715-ci ildən Fransa kralı olubdur. Onun hakimiyyəti (58 il) Fransanın əvvəlki kralı XIV Lüdovikdən sonra Fransa tarixində ən uzun sürənlərdən biridir.

5 yaşında taxta çıxan Lüdovik əmisi oğlu Orleanlı Filipin himayəsi altında olmuşdur. 1723-cü il oktyabrın 1-də Lüdovik yetkinlik yaşına çatmış elan edilsə də, lakin hakimiyyət Orleanlı Filipin əlində qalmaqda davam edirdi və sonuncunun ölümündən sonra hakimiyyət Hersoq Burbona keçdi.

1726-cı ildə, hakimiyyət 1743-cü ildə ölümünə qədər ölkəyə rəhbərlik edən kardinal Flerinin əlinə keçdi. Və 1745-ci ildən sonra Lüdovik, ölkəni öz israfçılığı ilə tamamilə məhv edən Markiza de Pompadurun təsiri altına düşdü.

O dövrün Fransasında bacarıqlı nazirlər və diplomatlar (Verşen, Şuazel, d'Arjenson) çatışmamazlığı yox idi, lakin ən istedadlı diplomat belə hökumətinin pis siyasətini nizamlaya bilməzdi.

Rene Lui de Voye de Polmi, II Markiz d'Arjenson (18 oktyabr 1694, Paris - 26 yanvar 1757) - Fransa dövlət xadimi, Mark Rene d'Argensonun böyük oğlu. 1744-cü ildə Fransanın Xarici İşlər naziri təyin olundu, lakin İspaniya sarayının intriqalarına görə 1747-ci ildə bu vəzifəni tərk etmək məcburiyyətində qaldı. O vaxtdan sonra özünü yalnız elmə həsr etdi,

Mark Pyer de Voye de Palmi, qraf d'Arjenson (16 avqust 1696, Paris, Fransa - 22 avqust 1764) - Fransız dövlət və mədəniyyət xadimi, XV Lüdovik dövründə Hərbi nazir, fəxri akademik, Fransa Kral Elmlər Akademiyasının prezidenti, Mark Rene d'Argensonun oğlu, Markiz Rene-Luinin qardaşı.

8.Polşa varisliyi uğrunda müharibə

1697-ci ildən Rusiyaya qarşı dostluq siyasəti aparan Saksoniya kürfüstü II Avqust həm də Polşa kralı idi. Rusiya da, ona eyni dostluq münasibəti bəsləyirdi, lazım gələndə, onun taxtını silah vasitəsilə ilə dəstəkləyirdi. Nəticədə, Polşa torpaqlarında Rusiyanın təsiri artdı. Getdikcə, Rusiya burada mövcud nizamın təminatçısı kimi çıxış etməyə başladı. Lakin bu siyasət, Polşa zadəganlarının bir hissəsinin maraqlarına zidd idi.

XVIII əsrin birinci yarısının əvvəllərində Türkiyə, Polşa və İsveçlə müharibələrdə güclənən Rusiya Fransa ilə ittifaq qurmağa can atırdı. Lakin, Fransa hökuməti köhnə dostları olan bu üç dövlət ilə münasibətləri itirməkdən qorxurdu və ona görə Rusiya Avstriya ilə yaxınlaşma siyasətinə getdi. Saksoniya kürfüstü, həm də Polşa kralı olan II Avqust vəfat edəndə, Rusiya və Avstriya onun oğlu III Avqustun Polşa taxtına namizədliyini dəstəklədi, Fransa isə əvvəllər Polşa kralı olmuş, lakin taxtdan devrilmiş Stanislav Leşşinskini namizəd kimi irəli sürdü.

Stanislav Leşşinski (polyak, 20 oktyabr 1677- 23 fevral 1766) — Polşa kralı və Litva Böyük knyazı 1704-1709 və 1733-1734-cü illərdə, sonra isə 1737-1766-cı illərdə sonuncu Lotaringiya hersoqu, Fransa kralı XV Lüdovikin qayınatası.

8 avqust 1725-ci ildə Fransız sarayının siyasəti ilə XV Lüdovik Stanislav Leşşinskini qızı ilə evlənmişdi. Mariya Leşşinskaya XV Lüdovikdən 7 yaş böyük idi. Fransa kralının 15 yaşı var idi. Markiz d'Arjenson yazırdı, ""Əlahəzrət, sadə bir qızla evləndi və lakin kraliçanın kral qızı olması lazım idi". Beləliklə, Fransanın Leşşinskinin Polşa taxt-tacı üçün namizədliyini dəstəkləyərək taxta gətirmək üçün apardığı müharibənin səbəbi kral şöhrətpərəstliyi idi.

Fransanın Varşavadakı səfiri Monti Leşşinskinin xeyrinə polyakları öz tərəflərinə çəkmək üçün 3 milyon livr xərclədi. Rusların və avstriyalıların diqqətini yayındırmaq üçün özünü Leşşinski kimi təqdim edən naməlum bir centlmen Tiand böyük səs-küylə Brestə getdi və Baltik sahilinə tərəf yola düşdü. Eyni zamanda əsl Leşşinski səyyar tacir qiyafətində gizli şəkildə Varşavaya gəldi. Lakin, Fransız pulunu alan Polşa zadəganları öz evlərinə dağıldılar və Fransa kraliçasının şərəfi üçün Rusiya və Avstriya ilə vuruşmağa o qədər də həvəs göstərmədilər, xüsusən də Leşşinskiyə qarşı olanlar Polşanın özündə də kifayət qədər çox idi. Rusiya Fransa imkanları üçün əlçatmaz halda idi və ilk dəfə olaraq Fransa hökuməti rus dostluğuna etinasız yanaşmağın onun üçün nə qədər təhlükəli olduğuna dair obyektiv dərs aldı. Fransa İsveç və Türkiyəni Rusiyaya qarşı qoymağa çalışdı, lakin onlardan rədd cavabı aldı. Onlar, bəxti gətirməyən Leşşinskini öz qüvvələri ilə müdafiə etməli oldular.

Rus qoşunları Leşşinskinin tərəfdarlarına qarşı hərbi əməliyyatlara başlayaraq Polşa ərazisinə daxil oldu. Eyni zamanda, Habsburq qoşunları İtaliyanın şimalında fransızlarla döyüşlərə girdi. Lakin Dansiqə göndərilən donanma rus gəmiləri tərəfindən qaçmağa məruz qoyuldular və fransız desant qüvvələri əsir götürülərək, Peterburqa göndərildi. Nəticədə, Fransa və onun əlaltısı məğlub oldu.

Sonra rus çariçasının hələ də Fransaya yaxşı münasibət bəsləməsi haqqında məlumat alan XV Lüdovik, Anna İvanovnanı Stanislav Leşşinskini Polşa kralı kimi tanımağa razı salmaq üçün Bernardoni adlandırılan abbat Lanqluanı məxfi elçi kimi gizli olaraq Rusiyaya göndərdi. Abbat çox böyük çətinliklə Peterburqa çatdı; lakin tezliklə onu oradan qovdular. Öz qüvvələrinin ixtiyarına buraxılan Polşa, Avstriya və Rusiyanın tələbi ilə razılaşmalı oldu (1735). Sakson kürfüstü Fridrix Avqust, III Avqust adı ilə Polşa kralı seçildi.

3 noyabr 1734-cü ildə Avstriya imperatoru Fransa ilə barışıq bağladı və 7 may 1735-ci ildə ilkin şərtlər imzalandı. Leşşinskiyə Polşa kralı titulu və Polşada ona məxsus olan bütün mülklərə sahiblik hüququ verildi.

26 yanvar 1736-cı ildə, Leşşinski Polşa kralı və Litva Böyük knyazı titulundan imtina etdi. 1738-ci ildə Vyana sülhünə əsasən o, Polşa taxtına iddialarından imtina edir, lakin ömürlük kral titulunu saxlayırdı.

Lotaringiya hersoqu Frans Stefan avstriyalı Mariya Tereza ilə evliliyinin ərəfəsində Bar hersoqluğunu Fransaya verməyə, Lotaringiyadan Fransa kralının qayınatası, Polşanın keçmiş kralı Stanislav Leşşinskinin xeyrinə imtina etməyə məcbur oldu. Lotaringiyanın əvəzinə Toskananı aldı. Belə ki, Lotaringiya hersoqu I Frans, Müqəddəs Roma İmperatoru VI Karlın kürəkəni, qayınatasının taxtını çıxmağa hazırlaşaraq öz ölkəsindən imtina etdi. Yaşlı Leşşinskinin 23 fevral 1766-cı ildə ölümündən sonra, kürəkəni XV Lüdovik Lotaringiyanı Fransaya ilhaq etdi.

9. Kral XV Lüdovikin “sirri"

1743-cü ildən sonra, Kral XV Lüdovik bütün məsələlərlə şəxsən özü məşğul olduqdan sonra, Fansanın siyasətində baş verən dəyişikliklər özünü göstərməyə başladı. Bunun nəticəsi olaraq, ilk növbədə Almaniyaya qarşı siyasətdə kəskin dəyişiklik oldu. Habsburqlara qarşı ənənəvi mübarizə və protestant knyazlarının dəstəyi əvəzinə, XVIII əsrin 50-ci illərinin ortalarında, yəni Yeddiillik müharibənin başlandığı dövrdə, XV Lüdovik Avstriyaya tərəf keçərək, kəskin şəkildə Prussiyaya və onun kralı II Fridrixə qarşı çevrildi. Bu dönüş özlüyündə Fransa üçün zərərli deyildi. Əksinə, o, Fransanı köhnə düşməni Habsburqdan gələn ənənəvi təhlükədən azad etdi, dənizdə və müstəmlələlərdə hökmranlıq uğrunda İngiltərə ilə mübarizə aparmaq üçün öz əllərini açа bildi. XV Lüdovik, II Fridrixin növbəti “xəyanətkar” siyasətindən qəzəblənmişdi.

1756-cı ilin yanvarında, İngiltərə, qəfildən Prussiya kralı ilə Hannover mülklərinin qorunması haqqında müqavilə bağladı. Daha doğrusu, Fridrix ingilis kralı II Georq tərəfindən ingilis sülaləsinin ailə mülklərini qorumaq üçün işə götürüldü (1714-cü ildən İngilis kralları mənşəcə Hannover kürfüstü idilər). XV Lüdovik, İmperatriça Mariya Tereziyaya Avstriya varisliyi müharibəsi (1740-1748) zamanı II Fridrixin ələ keçirdiyi Sileziyanın geri alınmasına kömək etmək üçün, Avropada Fransa üçün tamamilə lazımsız müharibəyə qoşuldu. Müharibənin nəticələri Fransa üçün çox acınacaqlı oldu. Sileziya II Fridrixdə qaldı və Fransa dənizdə və müstəmləkələrdə məğlub oldu. Fransanın Amerika və Hindistan mülkləri ingilislərin əlinə keçdi (1763).

Bütün bu hadisələr XV Lüdovikin şəxsi siyasətinin nəticəsi idi. Kral başqalarına o qədər də etibar etmirdi, onların öz iradəsinə təsiri etməsindən qorxurdu. Kral nazirlərinə o qədər nifrət edirdi ki, 1743-cü ildən şahzadə Kontinin başçılığı ilə xüsusi məxfi qurum yaratmışdı. Bu, bir növ kralın öz nazirlərinə qarşı sui-qəsdi idi. Kralın başqa dövlətlərdə rəsmi səfirlərlə yanaşı, öz məxfi agentləri də var idi, onlarla hökumət nazirlərinin xəbəri olmadan yazışırdı. Bu məxfi agentlər arasında Qraf Broyli, Breteyl və Verjen kimi görkəmli diplomatlar var idi.

Çox vaxt, kralın əmrinə əsasən onlar, Fransa hökumətinin rəsmi nümayəndəsinin apardığı siyasətə tam əks olan siyasət aparırdılar və bütün bacarıqlarına baxmayaraq, sonda ciddi səhvlər etməyə məcbur olurdular. Kral öz nazirlərini “kral sirri”nə ithaf etmədən onları aldatmağı xoşlayırdı və Fransanın bu ikili məxfi siyasətdən əziyyət çəkməsi XV Lüdoviki heç az da olsa narahat etmirdi.

§2. İngiltərə XVIII əsrdə

1.XVIII əsrdə İngiltərənin xarici siyasəti
2.Böyük Pitt - Lord Çatam
3.Hindistanda ingilis siyasəti

1.XVIII əsrdə İngiltərənin xarici siyasəti

XVIII əsrdə iki inqilabdan keçmiş İngiltərə nəhayət öz siyasi sistemini formalaşdıraraq, ticarət və müstəmləkələrin genişləndirilməsi üçün planlı siyasət həyata keçirirdi. İngiltərənin coğrafi ada mövqeyi onu Avropadan gələn hücumlardan qoruyurdu. Ona görə də, o, bütün səylərini xarici fəaliyyətə yönəldirdi, Avropada özünü siyasi oyunlarla məhdudlaşdırırdı. Bu barədə, Bismark daha sonralar demişdi: "İngiltərənin siyasəti, Avropada ingilis maraqlarını öz qüvvələri ilə həmişə müdafiə edə biləcək axmaq tapmaq olub." Bu, "dostları" maliyyə vəsaiti ilə təmin etmək və onları özünün əsas düşmənlərinə qarşı təhrik etmək siyasəti idi. XVIII əsrdə İngiltərənin belə bir siyasətinin hədəfi Fransa oldu.

XVIII əsr - böyük İngiltərə İmperiyasının yarandığı dövr - Fransa və İngiltərə arasında bu imperiya uğrunda gərgin mübarizə zamanı idi. XVI əsrdə İngiltərə İspaniyaya ölümcül zərbə vurdu; XVI əsrdə o, Niderlandı məğlub etdi, XVIII əsrdə hollandlar ticarət baxımından İngiltərəyə boyun əyməyə başladılar. Ancaq Fransa da var idi - qitənin ən böyük dövləti, XVII əsrdə Amerikada geniş ərazilər əldə edərək, Hindistana əllərini uzatmışdı. Fransızlar daha sonra Antil adalarında möhkəmləndilər. Əsrin ortalarında Fransa açıq şəkildə İngiltərənin üstünə doğru gəlməyə başladı və dənizdə hegemonluğu ondan almaqla təhdid etdi. Fransa naziri Maşo (1745-1757) daxili dəniz nəqliyyatını dəstəkləmək məqsədilə, ölkə sahillərinə yan alan xarici gəmilərdən alınan rüsumları hər ton üçün 5 livrə qədər qaldırmışdı.

XVIII əsrin 50-ci illərinin əvvəllərində Fransa intensiv olaraq donanma qurur və cəbbəxanalarını silahlarla doldururdu. 1756-cı ildə fransız donanmasında olan gəmilərin sayı demək olar ki, artıq ingilis donanmasında olanlarla bərabər sayda idi. XVIII əsrin birinci yarısında İngiltərə parlamentində viqlər partiyası üstünlük təşkil edirdi; bu partiya ölkənin kapitalist inkişafında gedən uğurları xarici münaqişələrlə çətinləşdirmək istəmirdi. "Əgər fransızlar gəlsə, onlara pulu mən ödəyəcəm, lakin döyüşmək lazım olsa, bağışlayın bu məsələ mənə aid deyil! " - bu zamanın ingilis şüarı belə idi. Lakin, Fransanın uğurları tezliklə İngiltərədə hakim təbəqənin həyəcanına səbəb oldu. Narahat qonşu ilə sülh münasibətlərinin vaxtı keçmişdi. Fransaya qarşı barışmaz mübarizənin ilhamvericisi Böyük Uilyam Pitt oldu.

2.Böyük Pitt - Lord Çatam

İngiltərənin qüdrətini və dənizlər üzərindəki hökmranlığını bütün məsələlərdən üstün tutan hökmlü, sərt və qətiyyətli siyasətçi Uilyam Pitt, Fransanın düşünülməmiş siyasət aparan kralı tərəfindən Yeddi illik müharibəyə (1756-1763) cəlb olunmmasından istifadə etdi. Fransa, Avstriya, Rusiya, İsveç və Saksoniyanın tərəfində, Prussiya hökmdarı II Fridrixə qarşı çıxdı. İngilis dənizçilərinin, tacirlərinin və müstəmləkəçilərinin həqiqi nümayəndəsi olan Pitt, Fransanın müstəmləkə və dəniz gücünü darmadağın etmək qərarına gəldi.

O, II Fridrixə böyük dəstək verərək, ona çox böyük maliyyə vəsaiti verdi. Eyni zamanda o, Fransa sahillərini mühasirəyə aldı, limanlarını bombaladı və tərsanələrini dağıtdı. Pitt əsas diqqətini isə müstəmləkələrə yönəltdi. Şimali Amerikada olan ingilis müstəmləkəçilərini silahlandırdı və tezliklə onların köməyi ilə indiyə qədər fransızlar tərəfindən fəth edilmiş bütün əraziləri, yəni Kanadanı istila etdi. 1763-cü ildə Parisdə sülhün bağlanması ilə, İngiltərə Kanadanı və Missisipinin (Luiziana) şərqindəki bütün torpaqları öz mülkünə çevirdi. İspaniya Floridanı ona güzəştə getdi. Bundan bir qədər əvvəl isə, Fransanın Şərqi Hindistan mülkləri də ələ keçirildi.

3.Hindistanda ingilis siyasəti

Nəhəng Hindistan ölkəsi XVII əsrdə. Böyük Moğol adlanan müsəlman sultanları tərəfindən birləşdirilmişdi. XVIII əsrin əvvəllərində bu birlik dağıldı və ölkə Avropa işğalçılarının şikarına çevrildi. Əvvəlcə burada (40-cı illərdə) fransızlar üstünlük təşkil edirdi, lakin Fransa hökuməti öz müstəmləkəçilərinə dəstək vermədi. Onlardan biri olan Laburdonne Bastiliyaya salındı, digəri, enerjili və bacarıqlı təşkilatçı olan Jan Dyuple geri çağırıldı və fəaliyyətinin ən qızğın vaxtında məhkəməyə verildi. Onu əvəz edən Lalyi ingilislərə qarşı mübarizədə dəstəksiz qaldı. Məğlub olanda onu eşafota göndərdilər. Bir sözlə, XV Lüdovik hökuməti özünə sadiq qalaraq düşüncəsiz siyasət apardı. Əksinə, İngiltərə Ost-Hind şirkəti Hindistanda dövlətin nümayəndəsi kimi uğurla fəaliyyət göstərərək, hökumətinin tam dəstəyinə arxalanırdılar. Ost-Hind şirkətinin məmuru Klayv xüsusilə məşhurlaşdı, hətta sonradan lord oldu.

İngilislər Hindustanın hər iki sahil əraziləində yerləşən ən böyük ticarət məskənlərini (Bombey, Mədrəs, Qanqın mənsəbində olan Kəlküttəni) ələ keçirdilər. Yerli knyazlar (racalar və sultanlar) öz hakimiyyətlərini saxladılar, lakin şirkət onlardan vergilərin yığılmasını icarəyə götürürdü, sonra isə beşqat əvəzini əhalidən qoparırdı. Beləliklə, racaların gəliri şirkətin fəaliyyətindən asılı idi. Racalar əkinçilikdən və ticarətdən əldə edilən görünməmiş gəlirlər sayəsində onları öz

əllərində möhkəm saxlayan bir şirkət ilə, ölkənin istismarında səhmdar və ortaq oldular.

§3.Almaniya XVIII əsrdə

1.XVIII əsrdə Almaniya knyazlıqlarının siyasi vəziyyəti
2.Avstriya- Prussiya rəqabəti
3.Avstriya mirası uğrunda müharibə. II Fridrixin diplomatiyası

1.XVIII əsrdə Almaniya knyazlıqlarının siyasi vəziyyəti

XVIII əsrdə İngiltərədə hakim sinfin ixtiyarında artıq nəhəng maliyyə vəsaitləri var idi: o, hər yerdə özü üçün müttəfiqlər ala bilərdi, onlar öz qüvvələri ilə Britaniya maraqlarını müdafiə etməyə hazır idilər. Bu, çox asan idi, çünki Avropada özlərini böyük bir məbləğə satmaq istəyənlərin çatışmazlığı yox idi. Pul müqabilində xarici maraqlara xidmət etməyə hazır olan hökmdarlarla bol olan ölkə, əsasən Almaniya idi. Otuz illik müharibədən sonra siyasi cəhətdən tamamilə dağılan Almaniya, XVII – XVIII əsrlərdə acınacaqlı mənzərə ilə üzləşdi. Orada, almanların özlərinin dediyinə görə, Almaniyada ilin günlərin sayı qədər dövlət mövcud idi.

Əsl həqiqətdə, bu dövlətlərin sayı daha çox idi. Belə ki, imperiya cəngavərləri adlanan, yəni imperatora bilavasitə tabe olan xırda senyorların mülklərinin sayı mindən çox idi. İmperatorun hakimiyyəti Habsburqların irsi torpaqlarından kənarda. çoxdan heçə endirilmişdi. Bu xırda knyazlıqlar əslində müstəqil dövlətlər idi. Bütün bu taclanmış xırda knyazlıqlar olduqca acınacaqlı bir həyata sahib idilər və daim pula ehtiyac duyduqlarından, varlanmaq üçün xüsusi bir yol tapdılar. Vestfal sülhünə (1648) uyğun olaraq müstəqil siyasət aparmaq hüququ əldə edən Almaniyanın kiçik knyazları maliyyə vəsaiti əldə etmək üçün, öz ordularını pul verməyə hazır olan hər kəsə icarəyə verməklə məşğul idilər.

Əsgərlərini və onlarla birlikdə vətənlərini heç utanmadan satışa qoyurdular. Cəmi yarım əsr ərzində, alman knyazları bu yolla Fransadan nə az, nə çox, 137 milyon livr, İngiltərədən isə 46,5 milyon funt sterlinq qazanmışdılar. Bu iş o qədər sərfəli olurdu ki, alman knyazları öz təbəələrinə əsl basqınlar edərək, zor gücünə kişiləri orduya əsgər kimi götürür və sonra bütün bu əsgərlər varlı müttəfiqlərə satılırdı. Belə ki, Hessenin landqrafı İngiltərəyə qarşı üsyan qaldıran amerikalıları tabe etmək üçün İngiltərəyə 17.000 nəfərlik ordu satmışdı; bunun üçün o, ölən və yaralananlar üçün mükafatdan əlavə 2.800 min funt sterlinq almışdı. XVIII əsrin 70-ci illərində daha dörd kiçik Alman knyazlığı 5 il ərzində eyni yolla 33 milyon taler (gümüş pul) qazanmışdılar.

2.Avstriya- Prussiya rəqabəti

Almaniyada davam edən bu siyasi xaosda iki həqiqətən böyük dövlət- Avstriya və Prussiya tədricən daha çox seçilirdi. XVII-XVIII əsrlərdə Prussiyanın sürətlə genişlənməsi və böyük dövlətə çevrilməsi Şərqi Avropa tarixində ən mühüm amildir. Bu dövlətin əsasını, XV əsrin əvvəllərində Qoqentsoller sülaləsinin əlinə keçən Brandenburq kürfüstü təşkil edirdi.

1618-ci ildə Brandenburq kürfüstlüyünün və Prussiya hersoqluğunun (keçmiş Tevton ordeni) Qoqentsollerlər sülaləsindən olan hökmdarların hakimiyyəti altında birləşməsi nəticəsində yaranmış Prussiya-Brandenburq dövlətinin, XVII əsrin ikinci yarısında beynəlxalq nüfuzu yüksəlir. O vaxtdan, Prussiya Almaniya hüdudunda Avstriyanın rəqibi oldu. Prussiya tipik hərbi feodal dövləti idi. Onun hakim təbəqəsi olan zadəganlar, mülkə bağlı kəndlilərin zəhmətkeş əməyini istismar edərək, məhsullarını, kapitalistcəsinə inkişaf edən Qərbi Avropa bazarlarında satmaqla yaşayırdı. Brandenburq kürfüstləri, sonradan Prussiya kralları özləri ən böyük torpaq sahibləri idilər. "Böyük kürfüst" adlandırılan I Fridrix Vilhelmin dövründən (1640-1688) Brandenburq-Prussiya beynəlxalq aləmdə mühüm rol oynamağa başladı.

Çay ticarət yollarını ələ keçirmək, taxıl və digər kənd təsərrüfatı mallarının xaricə aparıldığı Baltik sahillərini mənimsəmək üçün qonşularla, ilk növbədə İsveçlə daim mübarizə aparmaq ehtiyacı Prussiyanı hərbi dövlətə çevirdi. Prussiya kralları burada yunker adlanan zadəgan torpaq sahibləri (mülkədar) ilə eyni xarakterlərə malik idilər. İstilaçı xarici siyasət aparan bu acgöz simiclər əlverişli məqamdan istifadə edərək qonşu knyazların mülkləri hesabına Prussiyanın ərazisini daim artırırdılar.

1701-ci ildə kürfüst III Fridrix, anti-Fransız koalisiyasının tərəfində İspan varisliyi müharibəsində iştirak etmək müqabilində Müqəddəs Roma İmperiyasının İmperatorundan kral titulu aldı. Düzdür, o, Müqəddəs Roma İmperiyasının tərkibində olan Brandenburqda deyil, İmperiya ilə heç bir əlaqəsi olmayan Prussiya hersoqluğunda kral oldu. Belə çıxdı ki, imperator öz vassalını hökmdar rütbəsinə qaldırsa da, bu suverenlik, yalnız İmperiyadan kənarda əhəmiyyət daşıyırdı. Onun hüdudları daxilində Prussiya kralı hələ də imperatorun vassalı olaraq qalırdı.

Lakin bütün bunlara baxmayaraq, bu andan Brandenburq-Prussiya dövlətinin (və ya sadəcə olaraq Prussiya) sürətli yüksəliş prosesi başlayır. Onun özəlliyi ondan ibarət idi ki, o, Reyn və Neman arasında bir-birindən xeyli aralıda səpələnmiş fərqli hissələrdən ibarət idi. Ona görə də, onun hökmdarları qonşu ərazilərin ilhaqı yolu ilə dövlətin ərazisinin bütövləşdirilməsi və möhkəmləndirilməsini öz xarici siyasətinin əsas vəzifəsi hesab edirdilər. Bu məqsədlə, onlar həqiqətən Avropanın ən güclü

ordularından biri olan böyük hərbi qüvvə yaratdılar. Dövlətin genişləndirilməsində ən böyük uğurlar II Fridrixə (1740 - 1786) aiddir.

3.Avstriya mirası uğrunda müharibə. II Fridrixin diplomatiyası

Brandenburq-Prussiya dövlətinin ilk böyük işğalçı müharibəsi 1740-cı ildə Habsburq monarxiyasına hücumu oldu. Bu addıma bəhanə, Müqəddəs Roma İmperiyasının İmperatoru və Avstriya Habsburqlar sülaləsinin başçısı VI Karlın ölümündən sonra onun birbaşa kişi varisinin olmaması idi. Lakin, hələ 1713-cü ildə, o, Praqmatik sanksiya (qanun) verdi, bu qanuna görə Habsburqların bütün irsi torpaqları hər zaman ayrılmaz qalmalı və kişi varisi olmadıqda, hakimiyyət imperatorun qızlarına keçməli idi. 1740-cı ildə imperator VI Karlın ölümündən sonra onun böyük qızı Mariya Tereza, Praqmatik sanksiyaya görə, Habsburq monarxiyasının bütün torpaqlarına sahib oldu. Bu, bir çox hökmdarların mənfi münasibətinə səbəb oldu. Avstriya mirasına öz hüquqlarını ilk elan edən Prussiya kralı II Fridrix olmuşdur. O, Habsburq monarxiyasının əyalətlərindən biri olan Sileziyanı zorla ələ keçirmək qərarını bildirdi. Onun nümunəsinə uyğun olaraq, digər Avropa monarxları, o cümlədən imperiya üzvləri eyni addımı atdılar. Xüsusilə, Bavariya kürfüstü Karl-Albert imperator I Ferdinandın qızı Annanın nəslindən olaraq Habsburqların bütün mirasına iddia irəli sürdü. İspaniya da, Habsburq sülaləsinin Avstriya və İspan xətti arasında qədim irsi müqavilələrə istinad edərək oxşar iddialar irəli sürdü. XVIII əsrin əvvəllərində hökmranlıq edən İmperator I İosifin böyük qızı ilə evlənmiş Saksoniya kürfüstü III Avqust da eyni addımı etdi. Fransa nifrət etdiyi Habsburq monarxiyasını tamamilə məhv etmək üçün sülalə mübahisəsindən istifadə etmək qərarına gəldi. Bununla da, Avstriyanın varisliyi uğrunda Ümum-Avropa müharibəsi başladı.

II Fridrix hakimiyyətə gəldikdən sonra, sələfinin VI Karlın qızı Mariya Terezanı Avstriya taxtının varisi kimi tanımasına əvəz olaraq, ondan bu tanınmaya görə zəngin və sənaye bölgəsi olan Sileziyasını tələb etdi. Mariya Tereza bundan imtina etdikdə o, anti-Avstriya koalisiyasına (1740-1748-ci illər Avstriya varisliyi müharibəsi) qoşuldu və Sileziyanı ələ keçirmək üçün müharibəyə başladı. Fridrix bu məsələ ilə bağlı ingilis diplomatına bildirmişdi: "Mənə insan qəlbinin böyüklüyündən danışmayın! Hökmdar yalnız öz mənfəətləri barədə düşünməlidir." Ənənəvi anti-Habsburq siyasətini həyata keçirən Fransa, Mariya Terezanın çətin vəziyyətindən sui-istifadə etmək qərarına gəldikdə, II Fridrix Fransa səfirini "əgər uğur qazansa, Fransa ilə bölüşəcəyinə" əmin etdi.

Bu danışıqların nəticəsində Fransa, İspaniya, Bavariya və Prussiya arasında Avstriya mirasının bölünməsi haqqında razılıq əldə olundu. Fransızlar Almaniyada müharibə apararaq, "Prussiya kralına xidmət edərkən" Prussiya kralı özü Mariya

Tereza ilə artıq gizli müqavilə bağlamışdı. O, ona Breslavl və Neyse şəhərləri ilə birlikdə Aşağı Sileziyadan başqa heç bir başqa ərazi tələb etməyəcəyinə söz verdi. O, müttəfiqlərinə sədaqətini nümayiş etdirmək üçün, Mariya Tereza ilə razılaşdı ki, Neyseni iki həftə mühasirəyə alacaq, sonra isə şəhər təslim olunacaq. Sonralar Fridrix, Fransanın Almaniyanı parçalamaq fikrində olduğunu, ona görə də, onun Mariya Terezanı "xilas etmək" qərarına gəlməsi bəhanəsini irəli sürdü. Avstriyalılar özlərini ən təhlükəli düşmənindən azad olduğunu düşünərək, Fransa-Bavariya qoşunlarını çətin vəziyyətə saldıqda, II Fridrix onlara kömək üçün bir qusar (süvari) alayı göndərmişdi.

Eyni zamanda o, fransızların təzyiqi ilə imperatorluğa iddia edən Bavariya kürfüstü Karl Albertdən, faktiki olaraq Avstriyaya məxsus olan Yuxarı Sileziyanı Prussiyaya birləşdirmək üçün razılıq aldı. Avstriyalıların bu ərazini könüllü olaraq ona verməyəcəklərini başa düşən Fridrix, qəfildən cəbhəni avstriyalılara qarşı çevirdi və onları Çaslav yaxınlığında məğlub etdi, sonra ingilislərin köməyi ilə bütün Sileziyanı aldı. II Fridrixin bütün bu hiylələri Parisdə məlum olanda, onların qəzəbinin həddi-hüdudu yox idi. Nə baş verdiyini tam anlamayan və Fridrixi uğuruna görə təbrik edən “dost”u Volter, Bastiliyaya düşməmək üçün təbrik məktubundan açıq şəkildə imtina etməyə məcbur oldu.

Bu müharibədə Habsburqların irsi mülklərinin gənc hökmdarı Mariya Tereza Rusiya, Böyük Britaniya və Hollandiya tərəfindən dəstəklənirdi. Rusiya Habsburq monarxiyasının zəiflədilməsini istəmirdi, çünki Osmanlı İmperiyasına qarşı mübarizədə onunla ittifaq bağlamağa ümid edirdi. Həqiqətən, XVIII əsrdə ruslar və avstriyalılar türklərə qarşı dəfələrlə birlikdə vuruşmuşdular. Böyük Britaniya və Hollandiya, Prussiya və Fransanın təcavüzkar hərəkətlərində Avropada qüvvələr balansını öz xeyirlərinə dəyişmək cəhdləri görürdülər.

Hər iki dövlət qitədəki hər hansı böyük siyasi dəyişikliklərə xüsusilə həssas idilər, çünki onların kiçik Hollandiyanı və 1714-cü ildən Britaniyanı idarə etməyə başlayan Hannover sülaləsindən olan ingilis krallarının Hannover mülklərini müdafiə edə biləcək güclü quru orduları yox idi. Hərbi əməliyyatlar həm Avropada, məsələn, Cənubi Niderlandda və Lotaringiyada (bura Rus ekspedisiya qüvvələri göndərilmişdi), həm də müstəmləkələrdə - Hindistanda, Amerikada aparılırdı.

Habsburqlar nəhayət, öz irsi mülklərini qoruyub saxlamağa müvəffəq oldular. Müqəddəs Roma İmperiyasının İmperatoru titulunu da geri qaytardılar. İmperator tacı Brandenburq kürfüstünə məxsus olduğu qısa zamandan sonra, 1745-ci ildə Mariya Terezanın əri Lotaringiya hersoqu Frans Stefan İmperator I Frans seçildi. Düzdür, onlar Sileziyanı geri qaytara bilmədilər. Sileziya, Prussiya kralının əlində qaldı. İtaliyanın bəzi ərazilərini də qoruyub saxlaya bilmədilər.

Avstriya varisliyi müharibəsi nəticəsində əsas Avropa dövlətləri arasında qüvvələr balansını qoruyub saxlamaq mümkün oldu. Ancaq sülh çox kövrək idi, çünki müharibə zamanı Prussiyada hökmranlıq edən Qoqentsoller sülalələri ilə Habsburqlar arasında kəskin ziddiyyətlər və rəqabət üzə çıxdı. Avstriya-Prussiya antaqonizmi beynəlxalq aləmdə qüvvələr nisbətində mühüm dəyişikliklərə səbəb oldu. İngiltərə-Fransa ziddiyyətləri ilə yanaşı, Avstriya-Prussiya rəqabəti də Avropa siyasətinin uzun müddət ətrafında fırlandığı bir oxa çevrildi.

Müharibə uzun müddət davam etsə də, son nəticədə, 1748-ci ildə Aaxen sülhü nəhayət Sileziyanı II Fridrixin tam ixtiyarına verdi. Mariya Tereza qəzəbdən özündə deyildi. O, onu sülh münasibəti ilə təbrik etməkdə ehtiyatsızlıq göstərən ingilis səfirinə, tezliklə ona aid olanı "hətta son paltarından əl çəkməli olsam da" geri qaytaracağına ümid etdiyini bildirmişdi. Ona tamamilə aydın olmuşdu ki, bundan sonra Avstriyanın Almaniya işlərində ən təhlükəli rəqibi Avropanın böyük dövlətinə çevrilmiş Prussiya olacaq. Mariya Tereza II Fridrixə qarşı Fransa və Rusiyanın daxil olduğu koalisiya yarada bildi. Və bundan sonra, Prussiyaya qarşı "Yeddiillik müharibə" (1756-1763) adlanan yeni müharibə başladı.

§4."Diplomatik inqilab" və Yeddiillik müharibə

1. Beynəlxalq münasibətlərdə ziddiyyətlər kompleksi
2."Diplomatik inqilab"
3.Avropada Yeddiillik müharibə
4.Müstəmləkələrdə müharibə
5. Beynəlxalq sistemdə güc tarazlığının pozulması

1.Beynəlxalq münasibətlərdə ziddiyyətlər kompleksi

XVIII əsrin birinci yarısında, Avropadan kənarda beynəlxalq münasibətlər üçün ciddi fəsadlarla dolu hadisələr baş verdi. Burada, dövrün ən böyük müstəmləkə və dəniz dövlətləri olan Fransa ilə Böyük Britaniya arasında böyük rəqabət baş verirdi. Onları yer kürəsinin eyni bölgələri - Hindistan (Şərqi Hindistan) və Şimali Amerika cəlb edirdi. Fransızların Hindistanda ekspansiyasının ən aktiv dövrü XVIII əsrin ortalarına təsadüf edir, həmin dövrdə, Fransa, demək olar ki, öz ərazisinə bərabər olan bu torpaqları özünə tabe edə bilmişdi. XVIII əsrin əvvəllərində, ingilislər Şimali Amerikada şimalda Nyufaundlend adasından cənubda Florida yarımadasına qədər şimal-şərq sahillərini öz müstəmləkələrinə çevirə bildilər. Fransızlar Müqəddəs Lavrenti çayı vadisini, Böyük Amerika gölləri hövzəsini və Missisipi çayı hövzəsini zəbt edə bildilər.

Beləliklə, Fransız mülklərinin davamlı bir qövsvari zolağı, sanki Atlantik okeanının sahilləri boyunca uzanan Britaniya müstəmləkələrini əhatə etdi. Bu,

ingilislərin Şimali Amerikanın içərilərinə doğru girməsinə mane olan fransızlara böyük üstünlük verdi. İngiltərə hakimiyyəti ya Şimali Amerika ərazilərində müstəmləkə inkişafında birinciliyi fransızlara verməli, ya da vəziyyəti öz xeyrinə dəyişməyə çalışmalı idi. Onlar təslim olmaq istəmirdilər. Ona görə də, Şimali Amerikada Böyük Britaniya və Fransanın toqquşması yalnız zaman məsələsi idi. XVII əsrin sonu - XVIII əsrin birinci yarısında, Fransa ilə İngiltərə arasında baş vermiş bütün silahlı münaqişələrin, o cümlədən İspaniya və Avstriyanın varisliyi uğrunda gedən müharibələrin müstəmləkələrdə şiddətli toqquşmalarla müşayiət olunması bunu sübut edirdi.

Fransızların müstəmləkəçilik fəaliyyətinin güclənməsi, 1750-ci illərin əvvəllərində Britaniya hökumətini Şimali Amerikaya böyük hərbi ekspedisiya göndərməyə vadar etdi. Buna cavab olaraq, fransızlar müstəmləkə qoşunlarına əlavə qüvvələr göndərdilər. Bundan xəbər tutan Britaniya Nazirlər Kabineti 1755-ci ilin yanvarında fransız gəmi karvanının qarşısını almaq barədə qərar qəbul etdi. İngilis eskadrası fransız gəmiləri ilə döyüşə girdi və onlardan ikisini ələ keçirdi. Fransa İngiltərə ilə diplomatik əlaqələri dərhal kəsdi, lakin, məsələ hələ müharibə elan etmək dərəcəsinə çatmamışdı. Həm Böyük Britaniya, həm də Fransa gələcək müharibəyə diplomatik hazırlıqlara böyük əhəmiyyət verdikləri üçün tərəddüd edirdilər, öz tərəflərinə güclü müttəfiqlər cəlb etmək istəyirdilər.

XVIII əsrin birinci yarısında, Böyük Britaniya Habsburq monarxiyası ilə dostluq əlaqələri saxlayırdı. O, hətta 1740-1748-ci illərdə Avstriya varisliyi müharibəsi zamanı onun tərəfini saxladı. Bu dostluğun əsas səbəbi, hər iki dövlətin Fransa ilə düşmən olmaları ilə bağlı idi. Lakin, tədricən 1714-cü ildən İngiltərədə hökmranlıq edən Hannover sülaləsindən olan krallar belə qənaətə gəldilər ki, Avropa qitəsində ittifaq siyasətinə yenidən baxılması zəruridir. Onları buna, Almaniyada olan irsi mülklərinin təhlükəsizliyinə etibarlı təminatlar yaratmaq istəyi sövq edirdi.

Oranlı Vilhelm və Mariyanın varisi yox idi. Onların ölümündən sonra taxt-tac yenidən Stüartlara keçə bilərdi - sürgündə olan kral II Yakova və ya III Yakov adını almış oğluna. Ona görə də 1701-ci ildə, parlament taxt-taca varislik haqqında qanun qəbul etdi. Ona uyğun olaraq, İngiltərə taxt-tacı yalnız protestant inanclı kral nəslindən olan bir şəxsə verilə bilərdi. Beləliklə, Stüart nəslindən olan iddiaçılar hamısı katolik olduqları üçün təbii olaraq taxta- taca olan hüquqlarından məhrum edildilər. 1701-ci il qanunu ilə, Oranlı Vilhelmin ölümündən sonra taxt-tacın əvvəlcə protestant Danimarka şahzadəsi Annaya (II Yakovun ikinci qızı), onun ölümündən sonra isə Hannover kürfüstü Sofiyaya (I Yakovun nəvəsi) və həmçinin onun protestant olan nəslinə veriləcəyi müəyyən edildi. Və bu elə belə də oldu. 1702-ci ildə, Oranlı Vilhelmin ölümündən sonra Anna kraliça oldu. O, Sofiyadan çox ömür sürdü və 1714-cü ildə Annanın ölümündən sonra taxt-tac Sofiyanın oğlu Hannover kürfüstü Georqa keçdi.

2."Diplomatik inqilab"

Fransa, Böyük Britaniyanı açıq dənizlərdə onun gəmilərinə qarşı kaperlik (quldurluq) fəaliyyətinə görə cavab tədbiri olaraq, ilk növbədə onları, Almaniyada olan Britaniya monarxlarının mülklərinə hücumla hədələməyə başladı.

Hannoveri, Fransanın işğalından qorumaq üçün London hökuməti kömək üçün Niderlanda müraciət etdi. Lakin o, qəti şəkildə rədd cavabı verdi. Avstriya varisliyi uğrunda aparılan müharibədə onlar anladılar ki, Habsburqlar hətta öz ölkələrini də lazımınca müdafiə edə bilmirlər. Ona görə, ingilislər kömək üçün, bu müharibədə Habsburqların rəqibi olan Prussiya kralına müraciət etdilər. Ona görə də, İngiltərə hökuməti bu Avstriya dövləti ilə müttəfiqlik münasibətlərindən imtina edərək, Habsburq monarxiyası ilə müharibədə özünü parlaq şəkildə göstərən, böyük və nümunəvi ordu yaratmağı bacaran Prussiyaya arxalanmaq barədə qərar verdi. 1756-cı il yanvarın 16-da, Böyük Britaniya Prussiya ilə real olaraq Habsburq monarxiyasına qarşı yönəlmiş bitərəflik haqqında Vestminster konvensiyasını bağladı. Habsburqlar, Avropanın digər iki dövləti - Rusiya və Fransa ilə yaxınlaşmağa məcbur oldular. Habsburqlar elə əvvəllər də Rusiya ilə dostluq münasibətində idilər. Avstriya varisliyi müharibəsində Rusiyanın onların tərəfində olduğunu unutmamışdılar. Hələ 22 may (2 iyun) 1746-cı il tarixli müdafiə ittifaqı haqqında Rusiya-Avstriya müqaviləsində gizli bir maddə var idi. Razılaşmaya görə, Prussiya, Avstriya, Polşa və ya Rusiyaya hücum edərdisə, Vyana hökumətinin Sileziya ilə bağlı itirilən hüquqları bərpa edilirdi. Habsburq monarxiyası kimi Rusiya da, Prussiyanın ərazisinin genişlənməsindən və gücünün artmasından narahatlığını ifadə edirdi.

Eyni zamanda, Rusiyanın Böyük Britaniya ilə sıx əlaqələri var idi. Onlar 1755-ci ildə müttəfiqlik müqaviləsi bağlamışdılar. Bu müqaviləyə əsasən, Rusiya, Böyük Britaniya tərəfindən verilən maliyyə vəsaiti müqabilində Hannoverin müdafiəsi üçün nəzərdə tutulan 55 min nəfərlik qoşunu qərb sərhədində saxlamağı öhdəsinə götürürdü.

Lakin, Habsburqlar və Fransa arasında yaxınlaşma yolunda, iki əsrlik rəqabət dövründə yığılan çoxlu maneələr dayanırdı ki, hər iki tərəfin bir-birinə əl uzatması həqiqətən də siyasi cəsarət istəyirdi. Bu məsələdə, Prussiyanın "xəyanət" nəticəsində, Fransa ilə ənənəvi müttəfiqlik münasibətlərini kəsərək, Böyük Britaniyanın tərəfinə keçməsi də az rol oynamadı. Bundan başqa, İspaniyada Burbonların hakimiyyətə gəlməsindən sonra Fransa artıq "düşmən əhatəsindən" qorxmurdu.

Ən əsası isə, Böyük Britaniya və Prussiyaya qarşı eyni dərəcədə güclü koalisiya ilə çıxmaq lazım idi. Fransa ilə yaxınlaşmanın fəal tərəfdarı, 1753-cü ildə Habsburq monarxiyasının diplomatik idarəsinin rəhbəri vəzifəsinə təyin edilmiş görkəmli

Avstriya diplomatı qraf Kaunits idi. Əsasən onun səyləri sayəsində, 1756-cı il mayın 1-də hər iki saray arasında bitərəflik aktı və Versal müdafiə müqaviləsi imzalandı. Habsburq monarxiyası Fransa və Böyük Britaniya arasında müstəmləkələrlə bağlı mübahisədə bitərəf qalmaq niyyətini ifadə etdi, lakin hər iki monarxiya Avropada öz mülklərini qorumaq üçün bir-birlərinə kömək etməyə söz verdilər.

Hələ, 1754-1755-ci illərdə, Şimali Amerikada fransız və ingilis müstəmləkə qoşunlarının hərbi dəstələri arasında silahlı toqquşmalar başlamışdı. 1756-cı ilin mayında Böyük Britaniya Fransaya müharibə elan etdi. Və 1756-cı il avqustun 17-də (28) II Fridrix 95.000 nəfərlik ordu ilə Saksoniyaya hücum edərək, onun ordusunu mühasirəyə aldı. Belə bir vəziyyətdə, Rusiya da son seçimini edərək, Versal müqaviləsinə qoşuldu. 31 dekabr 1756-cı ildə (11 yanvar 1757-ci il) o, Sankt-Peterburqda, Habsburqlarla ittifaq müqaviləsi bağladı.

Nəticədə iki koalisiya yarandı: bir tərəfdə - Prussiya, Böyük Britaniya (Hannover ilə) və bəzi Alman dövlətləri (Hessen-Kassel, Braunşveyq, Şaumburq-Lippe və Saksen-Qota), digər tərəfdə - Habsburq monarxiyası, Fransa, Rusiya, İsveç, Saksoniya və Müqəddəs Roma İmperiyasının tərkibində olan və 6 (17) yanvar 1757-ci il tarixdə Regensburqda İmperiya seyminin qərarı ilə müharibəyə girən Alman dövlətlərinin əksəriyyəti. Dünənki düşmənlərdən yaradılmış hər iki koalisiya "diplomatik inqilab" adı ilə tarixə düşdülər. Bu məsələ, Prussiya-Avstriya antaqonizminin yaranması ilə əlaqədar olaraq, Avropada qüvvələrin yeni düzənini müəyyən etdi.

3.Avropada Yeddiillik müharibə

Yeddiillik müharibə Fransada Böyük Burjua inqilabından əvvəl baş vermiş sonuncu ümumavropa münaqişəsi idi. Bu münaqişədə, inqilab zamanı müəyyən edilmiş eyni ziddiyyətlər, beynəlxalq qüvvələrin düzəni meydana gəldi ki, bundan sonra onlar XIX əsrdə də uzun müddət mövcud oldular.

Birincisi, müstəmləkələr və dünya hökmranlığı uğrunda İngiltərə-Fransa mübarizəsi yeni mərhələyə qədəm qoydu.

İkincisi, Almaniyada hegemonluq uğrunda Avstriya ilə Prussiya arasında rəqabət xüsusilə kəskinləşdi.

Bütün münaqişələrin əsasında bu iki əsas ziddiyyət dayanırdı. Eyni zamanda, Fransa ilə Avstriya arasında, Burbonlar və Habsburqlar arasında çoxəsrlik antaqonizm aradan qalxdı. O, əks formaya - Fransa-Avstriya ittifaqına çevrildi. Nəhayət, Rusiya imperiyası fəal şəkildə Avropa münaqişəsinə müdaxilə etdi. Bu, Rusiyanın beynəlxalq əhəmiyyətinin və təsirinin durmadan artmasına dəlalət edən ən xarakterik yeni məqam idi.

Fransızlar XVII əsrin ikinci yarısından Napoleon müharibələrinin də daxil olduğu dövrü "İkinci yüzillik müharibə" adlandırırlar. Birinci yüzillik müharibədə (1338-1453) olduğu kimi, İngiltərə və Fransa yenə də dünya ağalığı uğrunda mübarizə aparırdılar. Lakin, XVII əsrdə dünya, əslində bir Avropa ilə məhdudlaşan XIV əsrdən daha geniş idi. Kapitalizmin sürətlə inkişaf etdiyi İngiltərə, fransız agenti Dyuplenin Hindistanda qazandığı uğurlarını və Fransanın Amerikada ələ keçirdiyi ərazilər barədə xəbərlərə qısqanclıqla yanaşırdı.

Bu zaman, İngiltərənin ticarət bayrağı bütün dünyada dalğalanmağa başlamışdı. Onun Şimali Amerikada olan müstələkəçilərının sayı yüz min, fransızlarda isə 30.000-dən çox deyildi. İspan varisliyi müharibəsindən sonra İngiltərə Fransa ilə gizli müharibə aparırdı. 1750-ci illərdə onun gəmiləri açıq şəkildə Fransız ticarət gəmilərini tutaraq talan etməyə başladılar. 1755-ci ildə, onlar bir ay ərzində Fransanın 8000 ekipaj üzvü olan 300 gəmisini ələ keçirdilər. XV Lüdovik buna etiraz edəndə və bir qədər tərəddüdlə günahkarların cəzalandırılmasını tələb etdikdə, ingilislər cavab olaraq iki fransız freqatını da ələ keçirdilər. XV Lüdovik müharibəyə başlamalı oldu.

Avstriya ilə Prussiya arasında gərginlik Avstriya varisliyi müharibəsindən sonra səngiməmişdi. Mariya Tereza fəal şəkildə yeni müharibəyə hazırlaşırdı. Avstriya, Prussiya, Fransa, İngiltərə - hamısı fəal diplomatik iş apararaq, özlərinə müttəfiqlər toplayırdılar. Nəticədə, demək olar ki, bütün Avropa münaqişəyə cəlb olundu.

Bütün Avropa üçün gözlənilməz olan hadisə iki köhnə rəqibin - Fransa və Avstriyanın ittifaqa girmələri oldu. Fransa özünün köhnə müttəfiqi - Prussiyaya qarşı çıxdı.

"İkinci yüzillik müharibə" dövründə İngiltərə Avropada Fransanın rəqibi kimi Habsburq monarxiyasını dəstəkləyirdi. XVIII əsrdən etibarən bu siyasət ikiqat zəruri oldu, çünki İngiltərə yeni İngilis sülaləsinin qitədə ailə mülkü olan Hannoveri fransızlardan müdafiə etməli oldu. Lakin, Avstriya varisliyi müharibəsindən sonra ingilislərə məlum oldu ki, qitədə Prussiya kimi yeni hərbi güc yaranıb və məhz o, Rusiya və Avstriya kimi Britaniyadan subsidiyalar almaqdan imtina etməzdi.

Belə ki, Mariya Tereza Hannoverin müdafiəsi üçün çox pul tələb etdiyindən və Sileziya uğrunda müharibə ilə məşğul olduğundan, bu müdafiəni həyata keçirə biləcəyinə əmin olmadıqlarından, ingilislər ona pul verməkdən imtina etdilər (1755) və II Fridrixi "xidmətə götürməyə" çalışdılar. Fridrix, bu təklifə həvəslə razı oldu, çünki o, bu addımla, Rusiyanın mümkün təxribatından xilas olmaq ümidində idi. Bundan əlavə, Fridrix ümid edirdi ki, özünün diplomatik məharəti ilə, faktiki olaraq Fransaya qarşı yönəlmiş müqavilənin, onunla fransızlar arasında münasibətlərinin pozulmasına imkan verməyəcək.

Rusiyada II Fridrixin uğurlarından ciddi şəkildə təşvişə düşdülər. Kansler Bestujev Prussiyaya qarşı qətiyyətli mövqe tutdu, onu "qonşuluqda olması və öz gücünü artırdığı üçün" Rusiya üçün təhlükəli hesab etdi. Protestant Almaniyası, xüsusən də Prussiya, İngiltərə və Avstriyanın düşməni olan Fransa ilə dostluq münasibətlərində olduğundan, Bestujev 1755-ci ildə ingilis səfiri Vilyamsla müqavilə bağladı. Müqaviləyə görə, Rusiya İngiltərənin xidmətinə girərək, bir dəfəyə 500 min funt-sterlinq və illik 100 min subsidiyanın verilməsi müqabilində, qitədə İngiltərənin düşmənlərinə qarşı 80 minlik ordu çıxarmağı öhdəsinə götürürdü. Düşmən isə, təbii ki, Prussiya nəzərdə tutulurdu.

II Fridrixi öz xidmətinə götürən ingilislər Avstriyanın Fransaya qarşı onsuz da vuruşacağına əmin idilər. Beləliklə, İngiltərə ucuz qiymətə Rusiya, Avstriya və Prussiyadan ibarət koalisiya yaradaraq, XV Lüdoviki qitədə darmadağın edə biləcək idi. Eyni zamanda, özü isə Fransa müstəmləkələrini ələ keçirəcək idi. Fridrix ingilislərlə müqavilə bağlayarkən hesab edirdi ki, ingilislər və ruslarla bir araya gəlməklə Rusiyanın hücumundan qoruna biləcək. "Dost"u olan Fransaya gəlincə, o, İngiltərə-Fransız mübahisəsində vasitəçi kimi çıxış edərək, İngiltərədən ayrılmadan Fransanın rəğbətini qazanmağa ümid edirdi. Üstəlik, o, XV Lüdovikin həqarətli təkəbbürlü himayəsindən bezmişdi və hesab edirdi ki, onun "müstəqillik" nümayiş etdirməsinin artıq vaxtı çatıb.

Fridrix və İngiltərə arasında Uaytholda (16 yanvar 1756-cı il) imzalanan müqavilə rusların və fransızların böyük hiddətinə səbəb oldu. Müqaviləyə görə hər iki tərəf Almaniyada sülhü qorumağa və "Almaniya ərazisinin bütövlüyünə qəsd edən istənilən dövlətə qarşı" əlində silahla çıxmağa borclu idi. Həm Avstriya, həm də Rusiya bu müqavilədə İngiltərə tərəfindən edilən xəyanət gördülər. Diplomatik addımlarının nəticələrinin onun gözləntilərinin tam əksinə çevrildiyini görən İngiltərə, sakitcə adasında gizləndi. Bütün zərbələr II Fridrixə qarşı yönəldildi. Prussiya kralının nankorluğundan qəzəblənən Fransa, Avstriya ilə münasibətləri yaxşılaşdırmaq qərarına gəldi.

Mariya Tereza Avstriya varisliyi müharibəsindən sonra Fransanı öz tərəfinə çəkməyi mümkün hesab etdi. XVIII əsrdə Avropanın demək olar ki, ən böyük diplomatı Kaunits Fransaya göndərildi. Hələ 1748-ci ildə o, XV Lüdovikin favoritkası Madam de Pompadura bildirmişdi ki, Fransa Avstriyaya Sileziyanı qaytarmağa kömək etsə, Avstriya, Belçika əyalətlərinin bir hissəsindən (Flandriya və Brabantdan) imtina etməyə hazırdır. 1751-ci ildə Kaunits Avstriyanın Parisdəki səfiri təyin edildi. Burada o, fransızları inandırdı ki, yalnız Fransa və Avstriya kimi böyük dövlətlərin etinasızlığı sayəsində, Prussiya və Sardiniya böyüyüb güclənibdirlər. Onların məqsədi böyük dövlətlər arasında nifaq salaraq, öz mülklərini genişləndirməkdir.

Beləliklə, Avstriya və Fransanın yaxınlaşması üçün zəmin hazırlandı. Onların arasında ittifaqın bağlanmasına son təkan, belə bir vəziyyətdə Fridrix diplomatiyasının həddindən artıq "incə" siyasəti oldu. 1755-ci ildə, fransız gəmilərinin ingilislər tərəfindən qarət edilməsindən dərhal sonra, II Fridrix XV Lüdovikə cəsarətli bir plan təklif etdi. XV Lüdovik dərhal Belçikanı istila etsin, Fridrix isə Bohemiyaya hücum edəcək, avstriyalıları məğlub edib bütün Almaniyaya sahib olacaqdır.

Beləliklə, prussiyalı hiyləgər hələ XVIII əsrdə, Bismarkın 1866-cı ildə həyata keçirdiyi ideyalarını xatırladan plan hazırlamışdı. O zaman Vyanada məlum oldu ki, Fridrix eyni vaxtda İngiltərə ilə də danışıqlar aparır. Mariya Tereza bu məlumatı dərhal XV Lüdovikin diqqətinə çatdırdı. Fridrix və İngiltərə arasında Uaytholl müqaviləsinin bağlanması xəbəri Vyana xəbərdarlığının təsdiqi idi. XV Lüdovik öz qərarını verdi. 1756-cı il mayın 1-də, Avstriya ilə Fransa arasında qarşılıqlı təminat əsasında ilk Versal müqaviləsi bağlandı: hər iki tərəf istənilən təcavüzkara qarşı 24 min nəfərlik ordu ilə bir-birilərinə kömək edəcəklərinə söz verdilər.

Bundan bir qədər əvvəl, İmperatriça Yelizaveta İngiltərə-Rusiya müqaviləsini təsdiq etməkdən imtina etdi və Avstriya ilə müdafiə-hücum ittifaqı bağladı (25 mart 1756). II Fridrixə hücum etmək üçün Rusiya Avstriyaya kömək məqsədilə 80 minlik ordu verməyə söz verdi. Fridrix üzərində qələbə qazanacağı təqdirdə Avstriya Sileziyanı, Rusiya - Şərqi Prussiyanı almalı idi. Fransa diplomatları bu koalisiyaya Saksoniya kürfüstünü və Polşa kralı III Avqustun cəlb edilməsinə də nail oldular. 1757-ci ildə İsveç də, subsidiyalara şirniklənərək, Pomeraniyanı ələ keçirmək ümidi ilə koalisiyaya qoşuldu.

Nəhayət, koalisiya iki ittifaq müqaviləsi ilə tam formalaşdı: əvvəlki müqavilənin şərtlərini təkrarlayan, lakin Rusiyaya hər il 1 milyon rubl subsidiya verən Rusiya-Avstriya müqaviləsi (2 fevral 1757-ci il), ikincisi, Versal müqaviləsi (1 may, 1757). Bu müqaviləyə görə, Fransa 24.000 əvəzinə 105.000 nəfər əsgər ilə kömək etməyi və Mariya Terezaya illik 12 milyon florin subsidiya verməyi öhdəsinə götürürdü.

Hərbi əməliyyatlar Prussiya sərhədlərinin bütün perimetri boyunca - Rusiya ordusunun döyüşdüyü Şərqi Prussiyadan (keçmiş Prussiya Hersoqluğu Prussiya Krallığı ilə qarışdırılmamaq üçün belə adlandırılmağa başlandı), avstriyalıların prussiyalılarla döyüşdüyü Saksoniya və Sileziyaya qədər və fransızların hücum etdiyi qərb əyalətlərində gedirdi. Prussiyalılar Saksoniyanı təslim olmağa məcbur etdilər və 1757-ci ildə Rosbax yaxınlığındakı döyüşdə fransızları və Leyten yaxınlığında isə avstriyalıları məğlub etdilər. Lakin bu qələbələrin bəhrələrini, 1758-ci ildə Şərqi Prussiyanı işğal edən və Qross-Eqersdorf döyüşündə prussiyalıları məğlub edən rus ordusu məhv etdi. 1759-cu ilin 1 (12) avqustunda Kunersdorf

döyüşündə Prussiya ordusu daha ağır məğlubiyyətə uğradı. Kral II Fridrix özü qaçmağa məcbur oldu və əsir düşməkdən çətinliklə xilas oldu. 1760-cı ildə rus qoşunları hətta Berlini qısa müddətə işğal etdilər.

Fridrix bu müharibədə öz sərkərdəlik məharətini parlaq şəkildə göstərsə də, onun vəziyyəti tezliklə fəlakətli hal aldı. Fridrix çox cəld və qətiyyətlə hərəkət edərək, bütün sərhədlərini qoruya bildi, düşmənlərini təkbətək vurdu və on döyüşdən yalnız üçünü uduzdu. Fridrixə, hərbi vəzifələrə Madam de Pompadur tərəfindən təyin olunan fransız generallarının müstəsna bacarıqsızlığı, Avstriya komandirlərinin bağışlanmaz ləngliyi və ona verilən ingilis subsidiyalarının bolluğu xeyli kömək etdi. 1762-ci ilin əvvəllərində, Fridrixin vəziyyəti o qədər ağırlaşdı ki, qardaşı şahzadə Henrixə göndərdiyi məktubda o, belə yazırdı: “"Ümidlərimizin əksinə olaraq, əgər heç kim bizim köməyimizə gəlməzsə, açıq deyirəm ki, məhv olmağımızı gecikdirmək və ya qarşısını almaq üçün heç bir yol görmürəm."

Fridrixi İmperatriça Yelizaveta Petrovnanın ölümü xilas etdi (5 yanvar 1762). Rusiya taxtına Fridrixin böyük pərəstişkarı III Pyotr oturdu. Yeni İmperator nəinki Prussiyadakı bütün fəthlərdən imtina etdi, həm də Fridrixə kömək etmək arzusunu bildirdi. Çernışev korpusuna Avstriyaya qarşı birgə hücum əməliyyatları aparmaq üçün Fridrixlə əlaqə yaratmaq əmri verildi.

Artıq 1762-ci ilin martında, Rusiya-Prussiya sülh danışıqları başladı. II Fridrix sülh müqaviləsi layihəsini hazırlamağa dəvət edildi. Üstəlik, Rusiya imperatoru diplomatlarına Fridrixin təklif etdiyi layihəyə hər hansı düzəliş etməyi qəti şəkildə qadağan etdi. 1762-ci il aprelin 24-də (5 may) Rusiya-Prussiya sülh müqaviləsi, bir aydan az sonra isə Rusiya-Prussiya müttəfiqlik müqaviləsi imzalandı. Hətta, müttəfiqlik müqaviləsinə arxalanan III Pyotr öz qoşunlarına Danimarkaya qarşı müharibəyə hazırlaşmağı əmr etdi. Qolşteyn hersoqu kimi o, yarım əsr əvvəl Danimarka kralı tərəfindən istila olunan Şlezviqi azad etmək arzusunda idi. .

Lakin, o, bu planı həyata keçirə bilmədi. 28 iyun 1762-ci ildə saray çevrilişi nəticəsində III Pyotr taxtdan salındı. Hakimiyyətə gələn II Yekaterina Avropa saraylarına, bütün ölkələrlə sülh münasibətlərini qorumaq niyyətində olduğunu bəyan etdi. O, II Fridrixə sülh müqaviləsinin şərtlərini yerinə yetirəcəyini vəd etdi, lakin ittifaq müqaviləsini təsdiq etməkdən imtina etdi. Beləliklə, Avropa müharibəsinin şərq ərazisində çox gərgin hadisələr baş vermiş oldu.

4.Müstəmləkələrdə müharibə

Fransa, lazımsız anti-Prussiya müharibəsinə nə qədər çox qarışırdısa, İngiltərə bir o qədər məmnun olurdu: Avropa dövlətləri səylə İngiltərə üçün şabalıdları oddan çıxarırdırdılar. Şərqdə başı qarışan Fransa qərbdə tamamilə gücsüz vəziyyətdə idi. Lakin, müharibənin nəticəsi, təkcə Avropada gedən müharibə meydanlarında deyil,

həm də müstəmləkələrdə həll olunurdu. Və burada güc nisbəti fransızlar üçün son dərəcə əlverişsiz olurdu. Şimali Amerikada olan İngiltərə müstəmləkələrinin əhalisi Şimal Buzlu okeanından Meksika körfəzinə qədər böyük bir əraziyə səpələnmiş fransızların sayından 20-30 dəfə çox idi. İngilis müstəmləkə qoşunlarının köməyinə gələn müstəmləkəçilərin silahlı dəstələrinə qarşı, fransızlar yalnız müttəfiq hindu tayfalarını çıxara bilirdilər. Fransa hökumətinin Hindistanda gedən hərbi əməliyyatların gedişinə təsir göstərmək cəhdləri də uğursuzluqla başa çatdı. 1761-ci ildə ingilislər tərəfindən mühasirəyə alınan Pondişeri şəhərinin qarnizonu təslim olmaq məcburiyyətində qaldı. Onlara köməyə göndərilən eskadranın gəmilərini qasırğa dənizin uzaq sularına səpələdi.

Müharibə iki sülh müqaviləsi ilə başa çatdı: Qərbdə - Paris müqaviləsi ilə(10 fevral 1763) və şərqdə - Qubertsburq müqaviləsi ilə (15 fevral 1763). Fransa, Kanadanın ona aid olan bütün ərazilərini, yəni Ohayo çayı vadisini və Nyu Orlean istisna olmaqla, Missisipi çayının bütün sol sahilini itirdi. Bundan əlavə, o, İspaniyaya eyni çayın sağ sahilini verməli və ispanlar tərəfindən İngiltərəyə verilən Florida üçün İspaniyaya əvəz ödəməli idi. Fransa Hindustanı tərk etmək məcburiyyətində qaldı. O, yalnız beş şəhəri özündə saxlaya bildi. Avstriya isə Sileziyanı həmişəlik olaraq itirdi.

Beləliklə, Yeddiillik müharibə qərbdə Fransanın dəniz arxası mülklərinə son qoydu, İngiltərənin dənizlərdə tam hegemonluğunu təmin etdi, şərqdə isə Prussiyanın Almaniyada hegemonluğunun əsasını qoydu. Bu, Almaniyanın gələcək Prussiyanın himayəsi altında birləşəcəyini əvvəlcədən müəyyənləşdirmiş oldu.

5. Beynəlxalq sistemdə güc tarazlığının pozulması

Yeddiillik müharibənin əsas nəticəsi Fransanın əvvəlki bir yarım- iki əsr ərzində belə çətinliklə yaratdığı müstəmləkə imperiyasını praktiki olaraq itirməsi oldu. Bir tərəfdən Böyük Britaniya və Portuqaliya, digər tərəfdən Fransa və İspaniya arasında bağlanmış 1763-cü il Paris sülh müqaviləsinə görə, fransızlar Amerika və Hindistandakı mülklərinin çoxunu - Yeni Fransanı (Kanada), Kap Breton adası, Şərqi Luiziana (Yeni Orlean istisna olmaqla), Dominik adalarını, Sent-Vinsent, Qrenada və Qərbi Hindistanda Tobaqonı, Seneqalın əvvəllər fransızlar tərəfindən ələ keçirilmiş demək olar ki, bütün əraziləri ingilislərə verməyə məcbur oldular. Hindistanda yalnız bir neçə şəhər fransızların əlində qaldı. İspaniya Floridanı Böyük Britaniyaya verdi, lakin bunun müqabilində Fransadan Qərbi Luiziana və pul təzminatı aldı. Paris sülhünə paralel olaraq, bir tərəfdən Prussiya, digər tərəfdən isə Habsburq monarxiyası və Saksoniya həmin il Qubertusburq sülhünü imzaladılar. Onun şərtlərinə əsasən, Prussiya, 1740-cı ildə ələ keçirdiyi Sileziyaya hüquqlarını təsdiqlədi, lakin Saksoniyadan çıxmaq məcburiyyətində qaldı.

Yeddi illik müharibə nəticəsində ən çox zərər çəkən Fransa oldu. Onun müstəmləkə, hərbi və dəniz qüdrəti ciddi şəkildə sarsıldı. Əksinə, Böyük Britaniya əməli olaraq heç bir layiqli rəqibi olmayan, dünyanın ən böyük müstəmləkəçi və dəniz dövlətinə çevrildi. O vaxtdan o, dənizlərin hökmranına çevrildi. Prussiya nəhayət imperiyanın onun üzərinə atdığı kölgədən çıxdı. İndi Avropanın böyük dövlətləri tərəfindən bərabərhüquqlu ölkə kimi qəbul edildi. Habsburq monarxiyası və Rusiya Yeddi illik müharibədə iştirakı ilə heç nə əldə etmədi. Ona görə də, gələcəkdə onlar öz diqqətlərini Şərq məsələsinə yönəltdilər. Əslində, Yeddiillik müharibə əvvəllər mövcud olan qüvvələr nisbətini Böyük Britaniya və Prussiyanın xeyrinə dəyişdi. Əvvəllər, Avropanın heç bir ölkəsi belə bir dərəcədə dəyişikliyə nail ola bilməmişdi. Beləliklə, Vestfal beynəlxalq münasibətlər sisteminin əsas dayaqlarından biri elə sarsıldı ki, bu da onun bütün nizamının möhkəmliyinə təsir göstərməyə bilməzdi.

ÜÇÜNCÜ FƏSİL
XVIII ƏSRDƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR

II BÖLMƏ
XVIII əsrdə Rusiya İmperiyasının diplomatiyası

§1. I Pyotrun dövründə Rusiya diplomatiyası
1.I Pyotrun xarici siyasəti
2.Böyük Şimal müharibəsi
3.Poltava savaşı
4.Nistadt sülhü
5. I Pyotr dövründə diplomatik idarələr və diplomatik iş metodları
6. I Pyotr diplomat kimi

§2. I Pyotrun varisləri dövründə Rusiya imperiyasının diplomatiyası
1. Şlezviq-Holşteyn məsələsi
2. 1726-1762-ci illərdə Rusiyanın xarici siyasəti
3. 1726 - 1762-ci illərdə Rusiya diplomatiyası Qərbi Avropa diplomatiyasına qarşı mübarizədə

§3. II Yekaterina dövründə Rusiyanın xarici siyasəti
1. II Yekaterinanın diplomatiyası
1.1.Rusiyanın xarici siyasətin əsas istiqamətləri
1.2.Kiçik Qaynarca sülhü

1.3.Krım və Şərqi Gürcüstan
1.4."Yunan layihəsi"
2. Polşanın bölüşdürülməsi
3.II Yekaterinanın diplomatik metodları
4.Rusiyanın diplomatik qurumları (1726 – 1796-cı illər)

§1. I Pyotrun dövründə Rusiya diplomatiyası

1.I Pyotrun xarici siyasəti
2.Böyük Şimal müharibəsi
3.Poltava savaşı
4.Nistadt sülhü
5. I Pyotr dövründə diplomatik idarələr və diplomatik iş metodları
6. I Pyotr diplomat kimi

1.I Pyotrun xarici siyasəti

I Pyotra XVII əsrdən iki ən çətin problemi miras aldı: türk və isveç. Hər ikisində -birinci halda – Qara dənizə, ikinci halda – Baltik dənizinə çıxış əldə etmək istəyirdilər. Pyotrun hakimiyyətinin ilk illəri tamamilə Qara dəniz probleminə həsr olundu. Qara dəniz o vaxta qədər Türkiyənin daxili dənizi idi. Osmanlı Portası (hökuməti), Qara dənizi göz bəbəyi kimi qoruyaraq, başqa gəmilərin dəniz sularında üzməsinə razılıq vermirdi.

I Pyotr və ya Pyotr Alekseyeviç Romanov (30 may (9 iyun) 1672 – 28 yanvar (8 fevral) 1725) — ilk Rusiya imperatoru. 7 may 1682-ci ildə qardaşı V İvanla birlikdə taxta çıxıb, 1696-cı ildə qardaşının vəfatından sonra Çar Rusiyasının yeganə hökmdarı olubdur. Döyüş meydanında qazandığı qələbələrlə, Rus çarlığını Avropanın güclü dövlətləri sırasına daxil etdi, Azov və Baltik dənizi sahillərindəki liman şəhərlərini ələ keçirərək rus donanmasının da əsasını qoydu. Pyotr eyni zamanda 1917-ci ilədək Rusiyanın paytaxtı olan Sankt-Peterburq şəhərinin də təməlini qoyubdur.

Pyotra, Sofiyanın hakimiyyəti dövründən anti-türk "alyansı" (ittifaqı) qalmışdı və o, Avstriya, Venesiya və Polşa- Litva Birliyi ilə ittifaqda müharibəni davam etdirirdi. Azovun ələ keçirilməsi və Taqanroqun tikilməsi ilə Rusiya Azov dənizində üstünlük əldə etdi. Lakin, Kerç boğazı türklərin əlində olduğu üçün, o, Qara dənizə çıxa bilmirdi. Bu zaman, əldə olunan uğurlardan razı qalan Rusiyanın müttəfiqləri artıq sülh bağlamağa meyl edirdilər.

1697-1698-ci illərdə "Böyük elçilik" səfərində gizli şəkildə iştirak edən Pyotrun əsas məqsədi müharibəni davam etdirmək üçün yeni müttəfiqlər əldə etmək idi. Bu vaxta qədər xarici siyasətdə Pyotr hələ də köhnə vasitələrdə istifadə edirdi, lakin diplomatik missiyasının tamamilə uğursuzluğuna əmin olduqdan sonra, qeyri-adi

sürətlə xarici siyasətinin bütün əsaslarını yenidən qurdu. Mövcud beynəlxalq vəziyyətdə, Qara dənizə giriş əldə etməyin mümkünsüzlüyünü nəzərə alaraq, İsveçə qarşı "Şimal ittifaqının" köhnə planı gündəmə gəldi. Ptotr, bütün Baltikyanı olmasa da, ən azı İngermanlandı və Kareliyanı fəth etmək planın həyata keçirmək qərarına gəldi.

Bu zaman çox əlverişli şərait yarandı. Livoniyanı İsveçdən qoparmaq arzusunda olan məşhur Livoniyalı avantürist Patkulun iştirakı ilə İsveçə qarşı Baltikyanı ölkələrin - Danimarka, Polşa-Litva Birliyi və Brandenburqun (Prussiya) koalisiyası yaranırdı. Onlar Rusiyanı bu ittifaqa cəlb etmək fikrində idilər, bununla belə, onlar "bu güclü müttəfiqin Narva və Çud gölündən uzağa getməməsi" üçün lazımı tədbirlər görmək fikrində idilər.

3 avqust 1698-ci ildə Ravda, Pyotr, Polşa kralı və Saksoniya kürfüstü II Avqustla İsveçə qarşı ümumi fəaliyyət haqqında çentlmen (şifahi) müqaviləsi bağladılar. Hələ 1697-ci ildə, rus elçilik heyəti Brandenburqdan keçərkən, Brandenburq kürfüstü Fridrix və Pyotr artıq bu məsələ ilə bağlı razılığa gəlmişdilər. 1699-cu ildə Moskvada, Polşa ilə İsveçə qarşı gizli müqavilə bağlandı; eyni zamanda, isveçlilərin şübhələrini aradan qaldırmaq üçün, Pyotr Kardiss müqaviləsini təsdiqlədi, lakin xaça and içməkdən imtina etdi. Beləliklə, Rusiya, Polşa-Litva Birliyi və Danimarkanın üçtərəfli ittifaqı yarandı. Lakin, Brandenburq müharibədə birbaşa iştirak etməkdən yayındı.

Bu andan etibarən Pyotr cənubda müharibəni tez bitirmək və şimalda azad hərəkət etmək üçün bütün tədbirləri görməyə başladı. Rus donanmasının təsirli nümayişi ilə dəstəklənən məmur Ukraintsevin Konstantinopoldakı missiyası tam müvəffəqiyyətlə başa çatdı. 1699-cu ildə, Rusiya Osmanlı İmperiyası ilə Karlovits atəşkəsi imzaladı, razılığa əsasən Azovda Donun mənsəbini aldı. 3 iyul 1700-cü ildə hər iki ölkə Azov, Taqanroq və Dnepr çayının aşağı axarındakı torpaqları Rusiya üçün təmin edən Konstantinopol sülhünü (formal olaraq 30 il müddətinə barışıq) imzaladı. Rusiya bütün fəthlərini özündə saxlaya bildi. 9 avqust 1700-cü ildə, Porta(Sultan sarayı) ilə sülh xəbərini alandan bir gün sonra İsveçə müharibə elan edildi. Bu zaman üçün, müttəfiqlərdən biri olan Danimarka artıq müharibədən çıxaraq, Travendalda separat sülh bağlamağa məcbur olmuşdu.

2.Böyük Şimal müharibəsi

Beləliklə, 1700-1721-ci illəri əhatə edən Böyük şimal müharibəsi başladı. Bu müharibə, İsveç və onun rəqibləri, o cümlədən Rusiya arasında Baltik dənizində hökmranlıq uğrunda həlledici savaş idi. İsveç ordusuna şəxsən müharibənin əvvəlində hələ 18 yaşı olmayan gənc Kral XII Karl (1697-1718) komandanlıq edirdi. O, 1700-cü ildə Danimarkaya sarsıdıcı zərbələr vuraraq, onu sülh imzalamağa

məcbur etdi, sonra dayanmadan Narva yaxınlığında rus qoşunlarını məğlub edərək, Polşaya qarşı hərəkət etdi. 1702-ci ildə isveçlilər, Polşa-Sakson qoşunları üzərində qəti qələbə qazandılar, Varşava və Krakovu işğal etdilər. Polşa Seymi II Avqustu taxtdan saldı və 1704-cü ildə İsveçin himayə etdiyi Stanislav Leşşinskini kral seçdi. 1706-cı ildə, II Avqust Polşa və Litvaya iddialarından, habelə Rusiya ilə ittifaqdan imtina edərək XII Karl ilə sülh imzaladı.

Polşa zadəganlarının bir hissəsi II Avqusta sadiq qaldı. Polşa zadəganlarının parçalanması vətəndaş müharibəsinə səbəb oldu. 1706-cı ildə İsveç kralı XII Karl II Avqustu Altranstedt müqaviləsini imzalamağa məcbur etdi və bu müqaviləyə əsasən Stanislav Leşşinskinin xeyrinə Polşa taxtından imtina etdi. Bundan sonra Stanislav Leşşinski Polşanın tam hüquqlu kralı və Litvanın Böyük Hersoqu oldu.

Lakin İsveç kralının bu qələbələri I Pyotru ruhdan salmadı. Üstəlik, o və hökuməti müharibənin əvvəlində Rusiyanın başına gələn uğursuzluqlardan düzgün nəticə çıxara bildi. İsveç ordusunun Polşada Leşşinskinin taxtını möhkəmlətməyə çalışmaqla çətinliyə düşməsindən istifadə edən, rus komandanlığı ordunu gücləndirmək üçün tədbirlər gördü və müdafiədən hücuma keçdi. 1702-ci ildə rus qoşunları çay donamasının dəstəyi ilə Nevanın yuxarı axarında Noteburq qalasını (köhnə rus adı Oreşek idi, Şlisselburq adlandırıldı) ələ keçirdilər. Növbəti il Nevanın mənsəbində başqa bir qala, Nienşants alındı. Bütün axarı boyunca Neva çayı üzərində nəzarət yaradaraq, 1703-cü il mayın 16-da (27) I Pyotr burada Sankt-Peterburq şəhərini yaratmaq ilə bağlı qərar verdi və 1712-ci ildə Rusiya dövlətinin paytaxtı bu şəhərə köçürüldü. 1704-cü ildə, rus qoşunları Baltikyanı ölkələrin bir sıra mühüm şəhərlərini, o cümlədən Qərb ölkələri ilə Rusiyanın dəniz ticarətində ənənəvi olaraq mühüm rol oynayan Derpt, İvanqorod və Narvanı fəth etdilər.

3.Poltava savaşı

Bu qələbələr sayəsində Rusiya Baltikyanı dəniz ticarət yollarına birbaşa çıxış əldə etdi. Bununla belə, müharibə davam edirdi. 1708-ci ildə XII Karlın ordusu rus qoşunlarını darmadağın etmək niyyəti ilə Polşadan şərqə tərəf yola düşdü.

Finlandiya körfəzi sahillərində qazanılan fəthləri özündə saxlamaq üçün Rusiya sülh bağlamaq məqsədilə vasitəçilər axtarmağa başladı. Bu məqsədlə Pyotr Niderland ştatlarına və XIV Lüdovikə müraciət etdi. Eyni zamanda o, yeni müttəfiqlər axtarırdı. İngiltərədə A.A.Matveev ingilis nazirləri ilə bu mövzuda nəticəsi olmayan söhbətlər etdi. Danimarkanı hərbi əməliyyatları bərpa etməyə razı salmağa cəhdlər edildi. Beləliklə, müharibənin bu həlledici anında Pyotr fəal diplomatik fəaliyyətini inkişaf etdirirdi.

XII Karl, Rusiyanın işğal etdiyi torpaqları geri almaq üçün Pribaltikaya gedə bilərdi. O, Rusiya dövlətinin ürəyinə zərbə endirmək üçün Smolenskdən Moskvaya

keçməyə də cəhd edə bilərdi. Lakin, XII Karl başqa yol seçdi: onun ordusu sol sahil Ukraynaya üz tutdu. Burada, Rusiya dövlətinin tərkibində nisbi müstəqilliyini qoruyub saxlayaraq, bu bölgənin idarəçiliyinə başçılıq edən getman İ.Mazepa XII Karla ərzaq, yem və ona sadiq kazak dəstələri ilə kömək vəd etmişdi. I Pyotr sadiq nökəri hesab etdiyi şəxsin xəyanətinə inana bilmirdi. Amma buna əmin olduqdan sonra, ciddi qabaqlayıcı tədbirlər gördü. Təcili olaraq, irəli göndərilən rus qoşunlarının dəstələri, isveçlilərin bu əraziyə yaxınlaşmasından əvvəl, onlar üçün hazırlanmış bütün tədarükü məhv etdilər, qaçmağa imkanı olmayan "xainləri" ələ keçirdilər və sərt şəkildə cəzalandırdılar. Onlara getman paytaxtı kimi xidmət edən Baturin şəhərini yandırdılar və onun müdafiəçilərinə aman vermədilər.

Mazepanın vəd etdiyi yardımı almayan XII Karl Poltava şəhərini mühasirəyə aldı. Burada, Poltava yaxınlığında, 27 iyun (8 iyul) 1709-cu ildə Şimal müharibəsinin həlledici döyüşü baş verdi. Bu döyüşdə, İsveç ordusu rus qoşunları tərəfindən tamamilə darmadağın edildi. İsveç kralı öz qoşunlarının qalıqları ilə döyüş meydanından qaçaraq, son anda, Türk Sultanının mülklərinə sığındı.

Parlaq Poltava "qələbəsi" dərhal bütün siyasi şəraiti alt-üst etdi. Rusiyanın İsveçlə bu dövlətin çoxdankı əleyhdarları ilə ittifaqda apardığı müharibə dərhal ümumavropa müharibəsinə çevrildi. Artıq, hər kəs, dağılan dövlətin mirasından öz payını almaq istəyirdi. Eyni zamanda, Avropa tarazlığı prinsipinin saxlanması məsələsi də kəskin şəkildə qaldırıldı.

Bu zaman, Rusiya Poltava yaxınlığında əldə etdiyi uğuru bütün istiqamətlərdə inkişaf etdirməyə başladı. 1709-cu ilin ikinci yarısında rus qoşunları Riqa, Pernov (indiki Pyarnu) və Revel şəhərləri də daxil olmaqla, demək olar ki, bütün Baltikyanı əraziləri istila etdilər. II Avqust da, isveçlilərə qarşı döyüşləri bərpa etdi. Onun qoşunları Polşanı isveçlilərdən və Leşşinskinin tərəfdarlarından təmizləyərək, ona köməyə gələn rus qoşunları ilə birləşdi. 1709-cu ildə İsveç ordusunun sarsıdıcı məğlubiyyəti XII Karl və onun tərəfdarlarının hakimiyyətinin süqutuna səbəb oldu. Rus ordusunun dəstəyindən istifadə edən II Avqust Polşa tacını geri aldı, Stanislav Leşşinski Prussiyaya, sonra isə Fransaya mühacirət etdi.

Şimal İttifaqı, keçmiş tərkibdə yenidən canlandı. Onlardan əlavə, Brandenburq-Prussiya dövləti və Hannover İsveçə müharibə elan etdilər.

Bu zaman, Avropanın qərbində İspan varisliyi müharibəsi rəvan şəkildə son mərhələsinə daxil olurdu. Orada qaliblər və uduzanlar müəyyənləşmişdi və münaqişə iştirakçıları əsasən bütün maraqlı tərəflərə uyğun sülh razılaşması layihəsini axtarmaqla məşğul idilər. 1700-cü ildə, Fransanın birtərəfli hərəkətləri ilə pozulan qüvvələr nisbətini bərpa etməyə çalışan Qərbi Avropa hökumətləri Avropanın şərqinə təşvişlə baxırdılar. İsveçin hesabına Rusiya dövlətinin qüdrətinin kəskin artması yeni beynəlxalq təlatümlər mənbəyinə çevrilə bilərdi. Ona görə də, XII Karla

məğlub olmaması üçün kömək etmək cəhdləri, İsveçin Baltik dövləti kimi gücünü bərpa etmək, Osmanlı İmperiyasını Rusiyaya qarşı qoymaq, Şimal İttifaqı daxilində nifaq salmaq kimi məsələləri reallaşdırmağa çalışırdılar.

Ticarət dövlətləri olan İngiltərə və Hollandiya Rusiyanın Baltikyanı ölkələrdə möhkəmlənməsinin qarşısını almaqda maraqlı idilər. Çünki bu məsələ, onların ticarətinə təhlükə yaradırdı. Hər iki dövlət diplomatik hiylələr vasitəsilə anti-İsveç koalisiyasının genişlənməsini pozmağa çalışırdılar. İspan varisliyi müharibəsi ilə məşğul olan Fransa Şimali Avropanın işlərinə fəal müdaxilə edə bilmirdi. Buna baxmayaraq, Fransa İsveçin məğlubiyyətinin, Rusiya və Polşanın təsirinin güclənməsinin qarşısını almağa çalışaraq, Rusiya silahlarının qələbələrindən artıq narahat olan Türkiyəni hərəkətə keçməyə təşviq etdi. Avropada türklərə qarşı müttəfiqlər tapmaq cəhdləri uğursuz olduqdan sonra Pyotr artıq XVII əsrdə istifadə olunan üsullara əl atdı. O, Türkiyə İmperiyasının xristian əhalisi arasında təşviqat aparır və Sultanın xristian vassalları ilə - Moldaviya və Valaxiya hökmdarları ilə müqavilələr bağlayırdı. 1710-cu ildə, Osmanlı sultanı Rusiyaya müharibə elan etdi. Prut əməliyyatı ruslar üçün uğursuz oldu, lakin vitse-kansler P.P.Şafirovun diplomatiyası və rüşvət sayəsində türklərdən nisbətən asan sülh şərtlərinə nail ola bildilər. 1711-ci ildə Prut müqaviləsinin şərtlərinə görə Rusiya Azovu, Taqanroqu və Zaporojyenin əhəmiyyətli bir hissəsini itirdi. Bununla da, Pyotr İsveçlə sonrakı mübarizədə arxa cəbhəni təmin edə bildi.

1712-ci ildə XII Karlın iqamətgahının yerləşdiyi Benderdə Rusiyaya qarşı Fransa-İsveç ittifaq müqaviləsi imzalandı. Fransızlar müttəfiqlərinə hərbi ehtiyaclar üçün böyük məbləğdə subsidiya – bir milyon livr verdilər. Rus qoşunlarının şücaətinə və isveçlilər üzərində quruda və dənizdə qazandıqları yeni qələbələrə baxmayaraq, müharibə uzandı. Sülh danışıqlarının başlanmasına yeni hərbi yürüşlər planlaşdıran İsveç kralının iddiaları mane olurdu.

Almaniya ərazisinə yayılan Şimal müharibəsi getdikcə daha geniş miqyas alırdı. Rus qoşunlarının Pomeraniyaya daxil olması və Danimarka vasitəsilə İsveçə desant çıxarmaq layihəsi İngiltərəni təşvişə saldı. Britaniya diplomatiyası bütün vasitələrdən istifadə etməyə başladı. Pyotrun diqqətinə çatdırıldı ki, İngiltərə İsveçin məğlubiyyətinə imkan verməyəcək. İngiltərənin siyasi oyunları nəticəsində müttəfiqlərin arasında, ingilis mənbələrinə əsaslanmaqla, Pyotrun Avropada geniş fəth planları haqqında şayiələr yayıldı. İngiltərə ilə gərgin münasibətlər Pyotra, Rusiyaya düşmən olan Fransa ilə ittifaq axtarmağa cəhd etdi. Bu məqsədlə o, 1717-ci ildə Parisə getdi. Bu səfərin nəticəsi Rusiya, Fransa və Prussiya arasında Amsterdam müqaviləsi oldu. Bu müqaviləyə əsasən, onun iştirakçısı olan dövlətlər Şimal müharibəsinə son qoyacaq müqavilələri qorunması haqqında öhdəlik götürdülər. Amsterdam sazişi Avropada Rusiya diplomatiyasının mühüm

əhəmiyyətinin nə qədər artdığını göstərirdi. Bununla da, bu məsələ, növbəti danışıqlara yol açdı. 1718-ci ildə Aland adalarında, rus və isveç nümayəndələrinin sülh konqresi açıldı. Lakin, XII Karlın ölümü ilə əlaqədar olaraq danışıqlar kəsildi və müharibə yenə davam etdi. İngiltərə özünün anti-rus siyasətini daha da fəal şəkildə davam etdirərək, Rusiyanın Almaniya ərazisindəki uğurlarını dayandırmağa çalışırdı. Öz növbəsində, rus diplomatları 1718-ci ildə İspaniya hökuməti ilə Hannover sülaləsini devirmək və Stüartları bərpa etmək məqsədi ilə İngiltərəyə qarşı hücum ittifaqı yaratmaq haqqında danışıqlar apardılar. İttifaq yaratmaq planı baş tutmadı, lakin Pyotr Stüartlarla əlaqələri kəsmədi, yəni bərpa təhdidindən Britaniya hökumətinə təzyiq göstərmək üçün istifadə edirdi. Sonra, İngiltərə açıq şəkildə İsveçin tərəfini tutaraq, onunla ittifaqa girdi. İngilis donanması iki dəfə - 1720 və 1721-ci illərdə, guya, İsveç sahillərini Rusiyanın hücumlarından qorumaq məqsədilə Baltik dənizində peyda oldular. Əslində, əsas məqsəd, Rusiyanı İngiltərənin vasitəçiliyini qəbul etməyə məcbur etmək idi. Pyotr İngiltərənin təzyiqinə tabe olmadı. Vasitəçilik xidmətlərini yalnız ingilis kralı deyil, həm də Fransa sarayı və Vyana hökuməti də təklif etmişdi. Rusiya, Fransa vasitəçiliyini qəbul etdi.

4.Nistadt sülhü

XII Karlın 1718-ci ildə Norveçdə, Frederik Kall qalasının mühasirəsi zamanı həlak olması İsveç hökumətində sülh tərəfdarlarının mövqelərini gücləndirdi. 1719-cu ildə İsveç Hannoverlə, 1720-ci ildə Brandenburq-Prussiya dövləti və Danimarka ilə sülh imzaladı (II Avqust, 1715-ci ildən müharibədə iştirak etmirdi). Bütün bunlara baxmayaraq, 1720-ci ildə İsveç Böyük Britaniya ilə müttəfiqlik müqaviləsi bağladı. O, Rusiya ilə müharibəni davam etdirmək üçün İngiltərənin köməyinə ümid edrdi. Lakin, anti-Rusiya koalisiyasının yaradılması ilə bağlı ümidlərinin puç olduğuna əmin olan İsveç, 1721-ci il avqustun 30-da (10 sentyabr) Nistadtda (Finlandiya) Böyük şimal müharibəsinə son qoyan müqavilə imzaladı. Bu müqaviləyə əsasən, Baltikyanı ölkələrin Riqa, Revel, Vıborq və başqa limanları daxil olmaqla əhəmiyyətli bir hissəsi Rusiyaya verildi.

Böyük şimal müharibəsi nəticəsində İsveç Baltik dənizinin şərqindəki (İsveç krallarının hakimiyyəti altında qalan Finlandiyadan başqa) və cənub sahillərindəki mülklərinin demək olar ki, hamısını itirdi. İsveç hökmdarlarının böyük dövlət olmaq planları alt-üst oldu. Baltik dənizinə çıxışı olan, onun su səthindən gəmiçilik, ticarət və müxtəlif fəaliyyət sahələri üçün istifadə edən digər ölkələr bundan ancaq faydalandılar. Rusiyaya gəlincə, Şimal müharibəsi onun tarixində çox böyük əhəmiyyətə malik oldu. Bu əhəmiyyəti bütün nöqteyi-nəzərdən - iqtisadi, siyasi, mədəni, beynəlxalq və s. sahələrdə qiymətləndirməmək mümkün deyil.

Otuzillik müharibədən sonra Avropada hökmran olan "İsveçin gücü və nüfuzu" aşağı düşdü. Sülh Rusiyaya, İsveçlə mehriban qonşuluq münasibətləri yaratmaq üçün imkanlarını açdı. 1724-cü ildə Rusiya hökuməti İsveç ilə hətta ittifaq müqaviləsi bağladı.

Nistadt müqaviləsinin imzalanmasından bir neçə ay sonra, 1721-ci il oktyabrın 22-də, I Pyotrun İmperator elan edilməsi onun hakimiyyəti dövründə Rusiyanın beynəlxalq uğurlarının zahiri ifadəsi olaraq, rəmzi xarakter daşıyırdı. Bununla da, dövlətin yeni adı - Rusiya İmperiyası, digər adlarla (Rusiya dövləti, Rusiya) eyni zamanda istifadə olunmağa başlandı.

Bu akt Avropa diplomatiyası tərəfindən dərhal tanınmadı. I Pyotrun sağlığında Rusiya hökmdarlarının İmperator titulunu Prussiya, Hollandiya, İsveç və Danimarka tanıdı. Böyük Britaniya və Habsburqlar onu 1742-ci ildə, Fransa 1744-cü ildə, İspaniya 1745-ci ildə, Polşa 1764-cü ildə tanıdı.

Beləliklə, Pribaltika uğrunda bir əsr yarımlıq mübarizə Rusiyanın xeyrinə başa çatdı. "Nə Azov, nə Qara, nə də Xəzər dənizi Pyotr üçün Avropaya birbaşa çıxış açа bilmədi". Baltikyanı dövlətlərin fəthi sayəsində "Rusiyaya qonşu şimal dövlətləri üzərində üstünlük təmin edildi; onun sayəsində Rusiya Avropanın istənilən dövləti ilə birbaşa və daimi əlaqəyə girə bildi. Eyni zamanda, Rusiya İsveç üzərində qələbəsi nəticəsində Avropa dövlətlərinin "konsertində" ilk yerlərdən birini tutdu. Şərqdə Pyotr Orta Asiyaya böyük maraq göstərirdi, oradan Hindistana tranzit yolu var idi. A.Bekoviç-Çerkasskinin uğursuz ekspedisiyası "Xivə xanını sədaqətə və təbəəliyə meyilləndirməli, Buxara xanını təbəəlik olmasa da, dostluğa dəvət etməli idi". Böyük şimal müharibəsindən dərhal sonra Pyotr artıq 1721-ci ilin dekabrında yeni bir məqsədini – Fars dövləti ilə müharibəyə başlamaq üçün hərəkətə keçdi. O, Türkiyədə olduğu kimi burada da şahın xristian təbəələrinin dəstəyinə arxalanırdı. Kartalin (Gürcü) kralı Vaxtanq Rusiya tərəfinə keçdi, eyni zamanda erməni katolikosu farslara qarşı kömək almaq üçün erməni xalqı adından Pyotra müraciət etdi. Rus qoşunlarının parlaq uğurları Dərbəndin və Bakının, Gilan, Mazandaran və Astrabad əyalətlərinin qonşu torpaqları ilə birlikdə işğalı ilə nəticələndi. Rusiyanın Xəzəryanı ölkələrdə güclənməsi İngiltərə, Fransa və Venesiya tərəfindən Rusiyaya qarşı qaldırılan Türkiyə ilə münasibətlərdə çətinliyə səbəb oldu. Türk qoşunları Zaqafqaziyaya yeridildi və Kartalin çarlığı Sultanın aliliyini tanımağa məcbur oldu. Buna baxmayaraq, 1724-cü ildə Rusiya, Fars dövləti və Türkiyə arasında aparılan sərhədlərin təyin edilməsi Rusiyanı fəthlərinin çox hissəsini təmin etdi.

I Pyotrun hakimiyyəti dövründə xarici siyasətinin əsas nəticələri belə idi.

5. I Pyotr dövründə diplomatik idarələr və diplomatik iş metodları

I Pyotrun dövründə cərəyan edən mürəkkəb xarici siyasət fəaliyyəti beynəlxalq münasibətlərə cavabdeh olan qurumun yenidən təşkilini və yeni diplomatik kadrların yaradılmasını tələb edirdi. Artıq adi üsullardan istifadə edən köhnə diplomatlar, XVIII əsrin əvvəllərində yaranmış mürəkkəb beynəlxalq vəziyyətin ortaya qoyduğu yeni xarici siyasət tələblərinə uyğun gəlmirdilər. Pyotrun dövründə bütün diplomatik xidmətlər Qərbi Avropa modelinə uyğun olaraq yenidən təşkil edildi. Xarici dövlətlərdə daimi diplomatik nümayəndəliklər yaradıldı, onların yoxluğu hələ XVII əsrdə də özünü artıq dərəcədə hiss etdirirdi.

1699-cu ildə, A. A.Matveyev "fövqəladə və səlahiyyətli səfir" rütbəsi ilə Niderlanda göndərildi, 1701-ci ildə Vyanaya "nazir" təyin edildi və s. Eyni zamanda, ən mühüm Avropa və bəzi qeyri-Avropa ölkələrinə, çar təbəələrinin kommersiya maraqlarını qorumaq məqsədilə rus konsulları göndərilirdi. Digər tərəfdən, XVII əsrin sonlarından etibarən çar sarayında daimi xarici nümayəndəliklər yaradıldı. Pyotr öz ölkəsinin nümayəndələrindən söhbət gedəndə, səfirlərinin şəxsiyyətinin toxunulmazlığı prinsipinin həyata keçirilməsinə böyük diqqət yetirirdi.

1708-ci ildə İngiltərədə, borca görə həbs edilən Rusiya səfiri A.A.Matveyevin işi böyük səs-küyə səbəb oldu. Çünki, o, təhqirlərə, hətta döyülmə cəzasına məruz qaldı. Bu hadisə, Londonda olan bütün diplomatik korpuslarda böyük həyəcana səbəb olub, onlar Rusiya səfirinin təhqir edilməsini beynəlxalq səfirlik qanunvericiliyinin pozulması kimi qiymətləndirdilər. Matveyev azad edildikdən sonra, zərər çəkmişi " bütün xarici nazirlərin hamısı ziyarət edərək, heç vaxt eşidilməyən belə bir təhqirdən dəhşətə gəldiklərini bildirirdilər." Kraliça Anna baş verənlərdən təəssüfləndiyini bildirdi. Pyotr onun səfirini təhqir edənlərə ölüm cəzasının verilməsini tələb etdi. Günahkarlar, doğrudan da, ədalət qarşısında cavabdehlik daşıdılar.

Parlamentin növbəti iclasında, Matveyevə qarşı həyata keçirilən əməl "həm ingilis qanunları, həm də elçilərin imtiyazının əsaslandığı beynəlxalq hüquq qarşısında" cinayət kimi tanındı. "Səfirlərin və dövlət nazirlərinin imtiyazlarının qorunması haqqında" xüsusi qanun layihəsi təqdim edildi; səfirlik toxunulmazlığı ilə bağlı bir sıra məsələlərə aydınlıq gətirildi. Qanunun mətninin hazırlanmasında diplomatik heyət də iştirak edirdi. Əlbəttə, ölüm hökmünün tətbiqindən söhbət gedə bilməzdi, lakin Britaniya hökuməti üzrxahlıq müraciəti ilə I Pyotra xüsusi fövqalədə səfirlik göndərdi.

Səfirlik müstəsna təntənə ilə qarşılandı və Pyotr "parlament aktında ifadə olunan millətin diqqətini, eləcə də xüsusi səfirlik göndərməklə kraliçanın ona

göstərdiyi ehtiramı görərək" öz tələblərini yerinə yetirilməsi məsələsində təkid etmədi. Beləliklə, bu hadisə, Pyotrun fəal müdaxiləsi sayəsində səfirlik hüququnun qanunvericilik qeydiyyatı üçün bir səbəb oldu. Pyotrun özü isə xarici səfirlərə qarşı daha ciddi idi. 1718-ci ildə Pyotr, Sankt-Peterburqda Hollandiya rezidenti Debisi həbs etmişdi. O, öz hökumətinə Rusiya haqqında əlverişsiz hesabatlar göndərməkdə və çarın rus təbəələri ilə şübhəli münasibətlərdə günahlandırılırdı. Səfirə qarovul təyin edildi, bütün sənədlər ondan alındı, çar özü onu sorğu-sual etdi. Pyotr, Niderland ştatlarından onu geri çağırmağı tələb etdi.

Köhnə Səfirlik idarəsi artıq dövlətin xarici siyasət əlaqələrinin işlək bir orqanı kimi yeni tələbatlara cavab vermirdi. Artıq XVIII əsrin əvvəllərində, Səfirlik idarəsində, birbaşa Pyotrun tabeliyində olan, "səyyar Səfirlik dəftərxanası" yaradıldı. Vaxt keçdikcə, İdarənin bütün vəzifələri tədricən bu quruma verilirdi. İsveç modelinə uyğun olaraq, 1716-cı ildə Səfirlik İdarəsində işlərin kollegial həlli qaydaları tətbiq edildi və onun özü də "Səfirlik kollegiyası" adlandırıldı. Nəhayət, 1720-ci ildə köhnə Səfirlik idarəsini əvəz edən xüsusi Xarici İşlər Kollegiyası yaradıldı. Kollegiyanın rəhbərliyinə kansler Qraf G.İ.Qolovkin və köməkçi-kansler P.P.Şafirov təyin edildi.

Onlarla bir yerdə "dəftərxana müşavirləri" A.İ.Osterman və V.Stepanov işləyirdi. A.İ.Osterman, sonralar diplomatik sahədə ön sıraya keçdi. Onların vəzifəsi "xarici hökmdarlara məktublar, nazirlərə reskriptlər (imperatorun şəxsi məktubu), qətnamələr, bəyannamələr, digər mühüm və məxfi sənədlər hazırlamaq" idi. Kollegiyanın işi birbaşa çarın özünün nəzarəti altında idi. Xüsusilə vacib olan "gizli dövlət işləri" müzakirə edilərkən, o, "yüksək ali şəxs kimi kollegiyada iştirak etməyə gəlirdi".

Avropa qaydaları Rusiyanın diplomatik mühitində dərhal kök salmadı. Yeni nizam adı altında bir müddət yerli köhnə ənənələr və şərəf anlayışları icra edilirdi. İlk növbədə, etiketin müvafiq aspektləri xarici təcrübədən götürülürdü. 1710-cu ildə, Danimarka elçisi Yul yazırdı: "Ruslar onları yüksəltməyə xidmət edə biləcək köhnə rus adətlərinin heç birindən əl çəkmirlər və hazırda onların ləyaqət və şərəflərinin qorunub saxlanması və artırılması üçün əlverişli olan xarici adətləri öyrənirlər." Xarici səfirlər Rusiya rəsmilərinin heç vaxt görüşə birinci gəlməmələrindan inciyirdilər. Mərasim vaxtında, I Pyotrun diplomatları da, atasının diplomatları kimi həmişə bütün proseslərə yersiz irad tutan idilər.

1710-cu ildə Rusiya-Danimarka müqaviləsinin imzalanması zamanı rəsmi nümayəndələrin imzalarının hansı sıra ilə yerləşdirilməsi ilə bağlı mübahisə yarandı. Danimarka rəsmi nümayəndəsi rus nüsxəsində rus rəsmi nümayəndəsinin imzalarının birinci yerdə olması ilə razılaşdı, lakin o, Danimarka nüsxəsində danimarkalıların imzalarının birinci yerdə olmasını tələb etdi. Rus nazirləri

razılaşdılar, amma sadə hiyləyə əl atdılar: kansler imzasını və möhürünü axırıncı yerdə, köməkçi-kansler ondan yuxarı, birinci yerdə isə Danimarka elçisi öz imzasını atdı. "Bununla ruslar sonuncu imzanı birinci olduğuna və birinci imzanın isə sonuncu olduğuna işarə etdilər." Menşikovun Danimarkanın Fil ordeni ilə təltif edildiyi zaman qəribə bir yerlipərəstlik hadisəsi baş verdi.

Qədim Danimarka rəvayətində deyilir ki, 1190-cı ildə, III səlib yürüşündə, Danimarka cəngavərləri döyüş filləri üzərində vuruşan ərəbləri məğlub etmişdilər. Bu nəhəng heyvanla görüşün xatirəsinə və qazanılan qələbənin şərəfinə Danimarkada Fil ordeni təsis edildi. Bununla belə, bu ordenin etibarlı (və əfsanəvi deyil) tarixini yalnız XV əsrin ortalarında, Danimarka kralı II Kristian tərəfindən hər iki cinsi mükafatlandırmaq üçün bərpa etdiyi zaman izləmək olar.

Danimarkanın Fil ordeni 1623-cü ildə, dünyəvi saray mükafatı kimi bərpa edildi. Bu dəfə Fil ordeni ilə yalnız kişilər təltif olunurdu.

Danimarka elçisi əvvəlcədən Menşikovdan bu ordeni bütün digərlərindən üstün tutmaq öhdəliyi götürdü. Bu zaman, Müqəddəs apostol Andrey Pervozvannı ordeni də istisna edilmirdi. Menşikov onu aldadaraq, hər iki ordeni növbə ilə taxmağa başladı. Hətta Pyotrun özü də qədim şərəf anlayışlarından hələ də imtina etməmişdi. Xarici səfirləri qəbul edərkən, "başına nə şlyapa, nə də başqa bir papaq qoymurdu" ki, xarici hökmdarların titulu elan edilərkən papağını çıxarmasın. Çar səfirləri qarşılayakən, taxtın qarşısındakı artırmanın ən kənarında dayanırdı ki, yanında səfirə yer qalmasın. Və boyu 2 metrdən çox (203 sm) olan imperator durduğu hündürlükdən qarşıladığı səfirə yuxarıdan aşağı baxmaqla, elə bil ki, öz üstünlüyünü ifadə etmək istəyirdi.

Müqəddəs apostol Andrey Pervozvannı ordeni , ilk rus ordenidir. 1698-ci ildən 1917-ci ilə qədər Rusiya çarlığı və Rusiya imperiyasının ən yüksək ordenidir. Orden ilə ilk təltif olunan 1699-cu ildə diplomat Fyodor Qolovin olmuşdur. 1998-ci ildə bu orden Rusiya Federasiyasının ən yüksək mükafatı kimi bərpa edilib.

XVIII əsrin birinci onilliyində istifadə edilən bütün bu hiyləgər addımlar, şübhəsiz ki, Moskva çarlarının təntənəli mərasiminin yadigarları idi. Xarici səfirlərin özlərinə bəzən çarın öz səfirlərinə tələb etdiyi hörmətlə yanaşılmırdı. Paytaxta gələnə qədər, onlar hələ də çox ciddi nəzarət altında olurdular, onların xidmətçilərini həyətdən kənara buraxmırdılar, səfirlərin özləri isə yalnız yerli komendantın icazəsi ilə evdən çıxa bilərdilər.

Geniş siyasət yürütmək üçün lazım olan diplomatik bacarıq da dərhal formalaşmamışdı. 1708-ci ildə, XIV Lüdovikin nazirləri Fransaya gələn, "kraldan öz hökmdarlarının xeyrinə heç nə xahiş etməyən, ancaq təkəbbürlə suallar verən" rus səfirləri haqqında çox mənfi rəy verirdilər.

Diplomatik üsullar bəzi məqamlarda sadəliyinə görə XVII əsrdən fərqlənmirdi. Belə ki, məsələn, rus diplomatları nadir hallarda yazılı cavab verməyə razılaşırdılar,

çünki bununla özlərini məsuliyyətə salmaqdan qorxurdular. 1710-cu ildə çar nazirləri Yuldan tələb etdilər ki, etimadnaməni onlara, arxa tərəfində tərcüməsi olan şifrəli formada təqdim etsin. O, bunun şifrənin açarını vermək demək olduğunu əsas gətirərək imtina etdikdə, ona uydurma sadəlövhlüklə cavab verdilər: "Bunda xüsusi bir problem olmayacaq, çünki onsuz da, rus çarı ilə Danimarka kralı arasında heç bir sirr olmamalıdır."

Pyotrun genişlik və cəsarət baxımından tamamilə yeni miqyasda diplomatik fəaliyyətə başladığı dövrdə fəaliyyət göstərən kadrlar bu formada idi. Bununla belə, gənc Pyotrun diplomatiyasının əldə etdiyi uğurların sürəti diqqəti daha çox cəlb edirdi. Pyotrun hakimiyyəti dövrünün ikinci yarısında artıq beynəlxalq münasibətlərdə mükəmməl yönümlü, böyük çeviklik və nəzakətlə hərəkət edən, bacarıqlı və incə siyasət yürüdən diplomatların yeni nəsli yetişirdi. 1718-ci ildə Aland konqresinə göndərilən rəsmi nümayəndələrə Pyotr tərəfindən verilən təlimat, şübhəsiz ki, diplomatik nəzakət və incə sənət nümunəsidir. Pyotr onlara "İsveç nümayəndələrini danışıqlara daha dərindən cəlb etməyi... və onlarla çox mehriban davranmaq" ilə bağlı tapşırıq vermişdi. Danışıqlar "yalnız İsveçlə sülh bağlamaq deyil, həm də dostluq vəd etmək" öhdəliyinə əsaslanmalı idi. Pyotr Ostermana verdiyi xüsusi təlimatda yazırdı: "O zaman ki, iki dövlət arasında keçmiş düşmənçilik və paxıllıq aradan qalxaraq, əbədi dostluq yaranarsa, o zaman biz nəinki özümüzü başqalarından qoruya bilərik, həm də Avropada tarazlığa nail olarıq". Ona görə də, çar İsveç üçün məqbul şərtlər təklif etməyi zəruri hesab edirdi. O, Ostermana yazırdı: "Biz bilirik ki, biz öz silahlarımız vasitəsilə İsveç kralını fəth etdiyimiz bütün torpaqlardan imtina etməyə məcbur etsək də, İsveç həmişə itirdiklərini geri qaytarmaq üçün fürsət axtaracaq və beləliklə, müharibə heç vaxt dayanmayacaq. Ona görə də biz bütün çəkişmələri aradan qaldırmaq üçün belə bir yol təklif edirik: əgər kral indi bizim olan əyalətləri (Finlandiyadan başqa) bizə versə, onda biz ona lazım olan başqa bir yerdə onun itkilərini əvəz etməyə köməklik göstərəcəyik."

Nəhayət, Pyotr İsveçə qarşı mübarizə aparan bütün müttəfiqlərin maraqlarının birliyi ideyasına sahib idi. Ona görə də o, separat sülh bağlamaqdan imtina edirdi: "Əgər biz Prussiya və Polşa kralları ilə bağlı şərtlər qoymasaq, onda bu sülh zəif əsasda olacaq, çünki biz onları müharibədə tək buraxa bilmərik".

Pyotrun diplomatiya sahəsindəki köməkçiləri də onun uğurlarının izi ilə gedirdilər. M.P.Bestujev-Ryuminin, 1720-ci ildə ingilislərin "vasitəçilik" layihəsi ilə bağlı təqdim etdiyi yazıları düşüncənin və sağlam əqlin aydınlığının nümunəsidir. Bestujev addım-addım ingilis hiylələrinin sirrlərini açır. İsveçdə səfir olan Bestujev, nəinki akkreditə olunduğu ölkənin çağdaş vəziyyətini təhlil etmişdi, həm də onun tarixini öyrənmişdi. Moskvalıların "kobudluğu" rəvayətlər diyarına qərq oldu.

1720-ci ildə İngiltərənin dövlət katibi Stenqop rus səfiri Veselovskiyə İngiltərənin İsveçlə ittifaq bağlamaları haqqında qəfil məlumat verəndə Veselovski susmağa üstünlük verdi. Sonralar o, yazırdı "çünki, mən bu məsələ haqqında bir neçə kəlmə belə desə idim, narazılıq olmadan ayrılmazdıq, bu insan çox hövsələsiz idi."

Diplomatik fəaliyyət sahəsinin genişlənməsi ilə Pyotrun rəhbərliyi altında olan rus diplomatlarının vəzifələri son dərəcədə mürəkkəbləşdi. Onlar xaricdə Rusiya üçün zərərli olan siyasi əhval-ruhiyyəyə qarşı ədəbi yazılar ilə mübarizə aparmalı idilər. Narva məğlubiyyəti barədə xəbər Haaqaya gəlib çatanda, Rusiya səfiri Matveyev bu xəbərin yaratdığı pis təəssüratı dağıtmaq üçün, bir yazı tərtib edib ştatlara təqdim etdi; İsveç səfiri bu məlumatı təkzib etmək məcburiyyətində qaldı. Sonralar knyaz Kurakin Haaqada qəzetlərdə Rusiyanı qınayan heç bir yazının dərc edilmədiyinə nəzarət etməli və çap olunanları təkzib etməli idi; hətta Hollandiya hökumətinə "qəzetlərdən" şikayət də edirdi.

Narva döyüşü 1700-cü il noyabrın 19-da (30) Narva şəhəri yaxınlığında baş vermiş, I Pyotrun rus ordusu ilə XII Karlın İsveç ordusu arasında Böyük şimal müharibəsinin ilk döyüşlərindən biridir. Rus qoşunlarının məğlubiyyəti ilə bitmişdir. Çar I Pyotrun rəhbərliyi altında rus ordusu Narvanı yalnız 1704-cü ildə ikinci mühasirə zamanı ala bildi.

1711-ci ildə səfir Volkova Fransada olarkən "bizimlə bağlı xoş xəbərlərin verilməsi və çap edilməsi üçün qəzet redaktorlarına "yaxşılıq" etmək" tövsiyə edilirdi. Avropa ictimai rəyini formalaşdırmaq üçün başqa tədbirlər də görülürdü. Matveyev, Haaqada "hər həftə bütün yerli nüfuzlu cənabları və xanımları öz evində məclisə toplamaq, kartlarla və digər əyləncələrlə məşğul etmək" ənənəsi yaratmışdı. O, bu addımın "məmurlarla yaxşı münasibətlər yaratmağın və onların düşüncələrini idarə etmək üçün ən yaxşı üsulun olduğunu"bildirirdi.

Pyotrun diplomatiyası düşmən ölkələrdə mövcud olan daxili ziddiyyətlərdən böyük məharətlə istifadə edirdi. Qonşu dövlətlərin daxili işlərinə qarışmaq onların siyasətində adi təsir vasitəsi idi. 1703-cü ildə Pyotrun görkəmli diplomatlarından biri olan P.A.Tolstoy, məsələn, Konstantinopolda Rusiyaya düşmən olan vəzirin ancaq dəyişilməsinə deyil, həm də edamına nail oldu. Pyotr dövrünün Rusiya hökuməti öz məqsədləri üçün, sələfinin dövründə olduğu kimi, Türkiyənin xristian təbəələrindən olan agentlərindən istifadə edirdi. Belə ki, Konstantinopol Patriarxının qardaşı oğlu dəyərli bir informator idi. İsveçdə müharibə başa çatdıqdan sonra rus diplomatiyası "Vətənpərvərlər" partiyasını dəstəkləməyə başladı.

Rusiya diplomatiyası, Rusiya üçün ən təhlükəli dövlətə - İngiltərəyə münasibətdə xüsusilə mürəkkəb hiyləgər fəaliyyət apardı. Londonda yaşayan rus diplomatı Veselovski ingilislərə təlqin edirdi ki, İngiltərə Hannoverin maraqları və siyasəti ilə idarə olunur, Sankt-Peterburqda İngiltərənin kral taxtına iddialı olan Yakov Stüart və onun yakobit tərəfdarları ilə münasibətlər saxlanılır.

Xarici dövlətlərin siyasətinə təsir göstərən əsas "yollardan" biri də rüşvətlə satınalma idi, onun vasitəsilə dəyərli siyasi məlumatlar əldə edilirdi. 1711-ci ildə, Türkiyə ilə sülh müqaviləsi bağlanarkən təkcə vəzirə və müftiyə (müsəlman ruhanilərinin başçısı) deyil, ingilis və holland səfirlərinə də böyük məbləğdə rüşvət vermək lazım olduğu ortaya çıxdı. 1720-ci ildə "əbədi sülhə" nail olmaq üçün türk əyanlarından başqa, Fransa səfiri və onun zövcəsinə də rüşvət verdilər.

Rüşvət təkcə Konstantinopolda istifadə olunmurdu. 1701-ci ildə Vyana sarayında olan nazir knyaz P.A.Qolitsın rüşvət verilməsi üçün maliyyə vəsaitinin olmamasından şikayətlənirdi- "ərlərindən çox nazirlərin arvadları utanmadan çoxlu hədiyyələr alırlar". O, 1703-cü ildə yazırdı: "Yerli sarayın necə olduğunu və yerli nazirlərin başqa hökmdarların hədiyyələri ilə necə korlandığını özünüz yaxşı bilirsiniz".

1706-cı ildə İngiltərəyə səfir gedən Matveyevə o dövrdə böyük nüfuza malik olan Hersoq Marlboronu Rusiya tərəfinə çəkməyə razı salmaq tapşırıldı. Pyotr bu tapşırığın uğuruna şübhə ilə yanaşırdı, "çünki o, hədsiz dərəcədə zəngindir, amma yenə 200 min və ya daha çox vəd edə bilərsiniz".

Marlboro Rusiyada ona knyazlıq verilməsini istədi, Pyotr o zaman İngiltərə ilə ittifaqda o qədər maraqlı idi ki, o, hersoqa öz seçimi ilə Kiyev, Vladimir knayazlığını və ya ilə 50 min yefimka gəliri olan Sibir knyazlığını, dünyanın ən böyük yaqutunu və Müqəddəs apostol Andrey Pervozvannı ordenini verməyə razı oldu. Lakin, bu sövdələşmədən heç nə alınmadı.

Xarici hökumətlər də Rusiyada eyni üsullara əl atırdılar. Xüsusilə rüşvətxorluqda ittiham olunan Rusiya dövlətinin kansler köməkçisi, ağıllı, lakin pul hərisi olan Şafirov idi.

Yefimok, XVIII əsrin ortalarına qədər istifadə edilən Qərbi Avropa gümüş talerinin rus təyinidir . 1654-cü ilə qədər yefimkalar rus qəpiklərinin istehsalı üçün yüksək dərəcəli gümüş mənbəyi idi. 1654-cü ildə yefimkanın üstünə çarın və dövlət gerbinin təsvirləri vuruldu. 28 qram ağırlığında olan bu sikkə Rusiyada nominal dəyəri bir rubl olan ilk pul vahidi idi.

6. I Pyotr diplomat kimi

Pyotr rus diplomatiyasının bütün sahələrinə özü nəzarəti edirdi. O, bütün danışıqlarda şəxsən iştirak edir, həm səfir, həm də Xarici İşlər naziri funksiyalarını yerinə yetirirdi. O, iki dəfə diplomatik məqsədlərlə xaricə səfər etmiş və Rav müqaviləsi (1698) və Amsterdam müqaviləsi (1717) kimi mühüm müqavilələri şəxsən imzalayıbdır. Çar öz ölkəsində xarici səfirlərlə birbaşa əlaqə saxlayır, onlarla evdə azad şəkildə söhbət edirdi – bu və ya digər məsələyə son qoymağın ən doğru, bəzən isə yeganə yolu bu idi.

Müəyyən qəbul günləri yox idi, çarı "ziyafətlərdə axtarmaq və verilən tapşırıqları orada yerinə yetirmək" lazım gəlirdi. 1709- 1712-ci illərdə Danimarkanın Rusiyada fəaliyyət göstərən elçisi Yust Yul yazır: “Mən bir şam yeməyindən istifadə edərək, hökmdarımın və kralımın əmrinə əsasən, Çar ilə müxtəlif mövzular barədə danışmaq üçün onun yanında oturdum. Bu söhbət əsnasında çar çox xoş və həvəslə məni dinlədi və ona dediklərimin hamısına cavab verdi.” Çarın xidmətçilərinin köməyi ilə çar ilə evdə də görüşmək olardı. Elə həmin Yul bir dəfə onunla “köynəksiz, ustaların dəri önlüyündə , torna dəzgahında işlədiyi vəziyyətdə” görüşmüşdü.

Pyotr heç bir rəsmiyyəti xoşlamırdı. Bir dəfə, Yul kansler vasitəsilə çardan onu məxfi qəbul etməsini xahiş edir. Qəbul admirallığın gəmiqayırma tərsanəsinə təyin olunur. Elçi padşahın onu hər hansı bir evdə qəbul edib qulaq asacağı ümidi ilə tələsik təyin olunmuş yerə gedir. Pyotr qayığa minib sahilə yaxınlaşanda Yul onu qarşılamaq üçün aşağı düşür. Çar dərhal onunla, çox yüksək səslə dövlət işlərindən danışmağa başlayır ki, ətrafdakıların hamısı onları eşitsin. Yul onu təklikdə dinləməyi xahiş etsə də, Pyotr ona öz sözünü birbaşa söyləməyi əmr edir və elçi pıçıltı ilə danışanda isə, o, qəsdən yüksək səslə cavab verirdi. "Bununla da, xahiş etdiyim bu məxfi qəbul beləcə başa çatdı, çar dinləmək istəmədiyini eşitməmək üçün bu görüşdən bu üsul ilə yayındı."

Pyotrun beynəlxalq siyasətdə özünəməxsus prinsipləri var idi. Onun əsas qaydası siyasi vicdan və öhdəliklərə sadiqlik idi. "Siz çox yaxşı bilirsiniz ki, müttəfiqlərə hörmət etməsək, onlar bizdən ayrılarlar, çünki verdiyimiz öhdəliklər bütün məsələlərdən daha üstündür."

Pyotrun xarici siyasətinin gücü ondan ibarət idi ki, o, bir neçə problemi birdən həll etmirdi, ancaq birinə diqqət yetirirdi; o, diplomatiyasının bütün səylərini bu bir problemə tabe edir, digərlərini yerinə yetirməkdən imtina edirdi, çünki onlar əsas yerdə deyildilər. Beləliklə, Pyotr üçün Polşa məsələsi yalnız Şimal müharibəsi çərçivəsində mövcud idi. Pyotrun xarici siyasətinin bu əsas prinsipindən öz iradəsi əleyhinə çıxmaq məcburiyyətində qaldığı yeganə hadisə, 1711-ci ildə Türkiyənin onu müharibəyə cəlb etdiyi vaxt oldu. I Pyotrun xarici siyasəti bu xüsusiyyəti ilə sələflərinin tərəddüdlü və ziddiyyətli siyasətindən fərqlənir. Onun ən yaxın varislərinin siyasətində müəyyən bir xətt tutmaq üçün belə bir qətiyyət yox idi.

§2. I Pyotrun varisləri dövründə Rusiya imperiyasının diplomatiyası

1. Şlezviq-Holşteyn məsələsi
2. 1726-1762-ci illərdə Rusiyanın xarici siyasəti
3. 1726 - 1762-ci illərdə Rusiya diplomatiyası Qərbi Avropa diplomatiyasına qarşı mübarizədə

Rusiyada qədim zamanlardan yazılmamış qaydaya görə, mərhum hökmdarın böyük oğlu və ya Zemstvo məclisinin seçdiyi namizəd böyük knyaz və ya çar olurdu. 1722-ci ildə, I Pyotr taxt-taca varisliyin köhnə qaydasını ləğv etdi və yenisini təsis etdi: hökmdar öz varisini öz seçimi ilə təyin etməli idi. Aydındır ki, bu qərara onu, oğlu şahzadə Alekseyin faciəli taleyi təsir etdi, o, xəyanətdə ittiham olunaraq əvvəlcə Rusiya taxt-tacından imtina etməyə məcbur edildi, sonra isə həbsdə öldü. Lakin, öz ölümündən əvvəl I Pyotrun öz varisini seçməyə vaxtı olmadı, bununla da, taxt-tac varisliyi məsələsi çox vaxt daxili siyasətin zor gücünə həll olunan mürəkkəb probleminə çevrildi. Rusiya monarxiyasının tarixində 1725-1762 –ci illər saray çevrilişləri dövrü kimi tanınır. 1730-cu ildə II Pyotrun (şahzadə Alekseyin oğlu) ölümü ilə Romanovlar sülaləsinin birbaşa kişi xətti kəsilir, 1761-ci ildə Yelizaveta Petrovnanın ölümü ilə qadın xəttinin də sona çatması vəziyyəti daha da mürəkkəbləşdirdi. Monarxiyanı gücləndirmək üçün İmperator Pavel 1797-ci ildə taxt-tacın Pyotrdan əvvəlki varislik qaydasını - ən böyük kişi övladlarının varislik hüququnu bərpa etdi. Qadın xətti vasitəsilə taxt-taca varisliyə indi yalnız birbaşa kişi övladları olmadıqda icazə verilirdi.

1. Şlezviq-Holşteyn məsələsi

XVIII əsrin əvvəllərində Rusiyanın beynəlxalq nüfuzunun və təsirinin güclənməsinə, I Pyotrun diplomatik fəallığının artması və ən əsası isə nikah diplomatiyasının effektivliyi səbəb olmuşdu. O, oğlu Alekseyi alman knyazlığı olan Braunşveyq-Volfenbyuttelin şahzadəsi Şarlotta ilə evləndirmişdi. Böyük qızı Anna Qolşteyn-Qottorp hersoqu Karl-Fridrixlə nişanlandı və imperatorun ölümündən sonra nikaha girdi. O, bir qardaşı qızı Anna İoannovnanı Kurlyand hersoqu Fridrix Vilhelmlə, digərini Yekaterina İoannovnanı isə Meklenburq hersoqu Karl Leopolda ərə verdi.

Bütün bu evliliklərdən Rusiya və Romanovlar nəsli üçün nəticələri baxımından ən əhəmiyyətlisi Anna Petrovnanın Holşteyn-Qottorp hersoqu ilə evliliyi idi. Onların oğlu Karl Peter Ulrix həm I Pyotrun nəvəsi, həm də İsveç kralı XII Karlın bacısının nəvəsi idi. Ona görə də, doğulduğu andan onun təkcə atasının mirasına deyil, həm də Rusiya və İsveç taxtlarına oturmaq hüququ var idi. İsveç kralı olmağa hazırlaşan

Karl Peter Ulrix, hətta isveç dilini öyrənməyə başladı, lakin 1742-ci ildə imperatriça Yelizaveta Petrovna onu Sankt-Peterburqa dəvət etdi, orada o, Böyük knyaz Pyotr Fyodoroviç adı ilə pravoslavlığı qəbul etdi və rus imperator tacının varisi təyin olundu. Prussiya kralı II Fridrix onu Anhalt-Serbst şahzadəsi Sofiya Avqusta Frederik ilə nişanladı. O, Yekaterina Alekseyevna adı ilə pravoslavlığı qəbul etdi.

1745-ci ildə gənclər evləndilər və 1754-cü ildə onların gələcəkdə İmperator olan Pavel Petroviç adlı bir oğlu oldu. 1761-ci ildə III Pyotrun imperator taxtına çıxması ilə Rusiyada Romanovlar sülaləsinin Holşteyn-Qottorp qolunun hakimiyyəti başlandı.

XVIII əsrin ikinci rübündə, Rus imperatriçaları I Yekaterina və Yelizaveta Petrovna Böyük şimal müharibəsi zamanı danimarkalılar tərəfindən istila olunan Şlezviq hersoqluğuna yaxın qohumları kimi Karl-Fridrixin və oğlunun iddialarını dəstəkləməyi öz vəzifəsi hesab etdilər. Bu məsələ, Rusiyanın ənənəvi olaraq dostluq və hətta müttəfiqlik münasibətlərinə malik olduğu Danimarka ilə az qala müharibəyə gətirib çıxaracaq idi. 1762-ci ildə dövlət çevrilişi nəticəsində III Pyotr taxtını və həyatını itirdikdən sonra münasibətlər bərpa olundu. Danimarka ilə 1767-ci ildə bağlanmış müqaviləyə əsasən, onun dul arvadı İmperatriça II Yekaterina oğlunun adından Danimarka kralı VII Xristianın xeyrinə Şlezviq və Qolşteyn hersoqluğuna varislik hüququndan imtina etdi. Yetkinlik yaşına çatdıqdan sonra, Böyük knyaz Pavel Petroviç 1773-cü ildə bu razılaşmanı təsdiq etdi.

2.1726-1762-ci illərdə Rusiyanın xarici siyasəti

XVII əsrdə Rusiyanın üzləşdiyi üç əsas vəzifədən biri, İsveç məsələsi I Pyotr dövründə tamamilə həll edildi. Digər ikisi - polyak və türk məsələsi həll olunmamış qalırdı. Onlar, XVIII əsr boyu Rusiya xarici siyasətinin əsas məsələləri oldu. Bununla yanaşı, "Avropa tarazlığı" məsələsi və ümumavropa işlərində həlledici rol oynamaq və I Pyotr dövründə Rusiyanın əldə etdiyi beynəlxalq nüfuzu saxlamaq məsələləri kimi bir sıra başqa diplomatik fəaliyyətlər də müəyyən edilmişdi.

I Pyotrun hakimiyyətinin sonunda Qərbi Avropa bir-birinə əks mövqedə duran iki dövlətlər qrupuna bölünmüşdü. 1725-ci ilin payızında, Fransa, İngiltərə və Prussiya dövlətləri Avstriya və İspaniyaya qarşı yönəlmiş müqavilə bağladılar. Rusiyanın Baltikyanı ölkələr üzərində hökmranlığı İngiltərəni narahat etməkdə davam edirdi və bu məsələ, iki dövlət arasında münasibətləri daha da gərginləşdirirdi, hətta 1726-cı ilin mayında Baltik dənizində ingilis eskadrasının peyda olmasına səbəb oldu. Belə bir zamanda, Rusiya qaçılmaz olaraq Avstriyaya qoşulmalı oldu. Avstriya həm də, onun Türkiyəyə qarşı təbii müttəfiqi idi.

Avstriya ilə müdafiə ittifaqı 1726-cı ilin avqustunda bağlandı. Bu andan etibarən Fransanın əsas vəzifəsi, Rusiya ətrafında ona düşmən olan dövlətlərdən - İsveç, Polşa

və Türkiyədən ibarət mühasirə yaratmaq oldu. Hər iki ittifaqın Polşada II Avqustun varisliyi məsələsi ilə bağlı mövqeləri toqquşdu. Burada Avstriya və Rusiyaya qarşı müttəfiq olan Fransa və İsveç çıxdı. Ölən kralın oğlu III Avqust rus qoşunlarının dəstəyi ilə Polşa taxtına oturuldu. Polşa kralının seçilməsi ilə bağlı münaqişə zamanı, Fransa diplomatiyası Türkiyəni Rusiyaya qarşı hərəkətə keçmək üçün ona böyük təzyiqlər göstərdi.

Öz növbəsində, Anna İvanovnanın hökuməti I Pyotrun fəth etdiyi əraziləri İrana qaytarmaq bahasına, qüdrətli Şah Nadirlə Osmanlı Portasına (hərfi mənada- qapı-Bab-i Əli) qarşı yönəlmiş "əbədi sülh"ün bağlanmasına nail oldu. 1735-ci ildə, Rusiya Avstriya ilə ittifaqda Türkiyə və Krıma qarşı çətin müharibəyə başladı. Müharibə Rusiya üçün nəticəsiz başa çatdı.1739-cu ildə Fransanın vasitəçiliyi ilə Belqrad sülhü bağlandı.

İngilis-Fransız müttəfiq sistemi ilə başqa bir toqquşma meydanı Baltikyanı ərazilər oldu. Burada, fransız diplomatiyasının təhriki ilə İsveç, 1741-ci ildə Rusiyaya qarşı çıxdı. Bu müharibədə (1741-1743) İsveç məğlubiyyətə uğradı. Avqustun 7-də Finlandiyanın Abo şəhərində bağlanmış müqavilə ilə Rusiya-İsveç müharibəsində İsveçin məğlubiyyəti təsdiqləndi. Abo sülhü ilə Nistadt sülhünün şərtləri möhkəmləndirildi və qismən də genişləndirildi. Danışıqlarda Rusiya, rus taxtının vəliəhdi Pyotr Fyodoroviçin əmisi Holşteyn şəhzadəsi, Lübek knyaz-yepiskopu Adolf Fridrixin İsveç taxtına vəliəhd seçilməsi şərti ilə öz ərazi iddialarını məhdudlaşdırmağa hazır olduğunu bildirdi. Əks halda, Rusiya Finlandiyanın tam öz ərazisinə birləşdirəcəyini bildirmişdi.

XVIII əsrin 40-cı illərinin ortalarında Rusiya, Avstriya və İngiltərə ittifaqı ilə, Fransa və Prussiya ittifaqı arasındakı müharibəyə cəlb olundu. Bu müharibədə rus diplomatiyası kifayət qədər aydınlıq və əminlik nümayiş etdirmədi. Həlledici addımdan əvvəl, Sankt-Peterburq sarayında xarici və yerli siyasətçilərin toqquşması nəticəsində uzun müddət davam edən qeyri müəyyən vəziyyət yaşandı. Rusiyanın ağıllı və təmkinli kansleri A.P.Bestujev-Ryumin ardıcıl olaraq anti-Prussiya siyasətinə rəhbərlik edirdi. O, Avstriya ilə ittifaqda hərəkət etməyin tərəfdarı idi.

1746-cı ildə, Rusiya Avstriya ilə müdafiə ittifaqını yenilədi. 1747-ci ildə, İngiltərə Rusiya ilə "subsidiya konvensiyası" bağladı. Bu razılığa əsasən Rusiya hökuməti müvafiq maliyyə vəsaiti hesabına İngilis kral evinin Hannover mülklərini qorumaq üçün hərbi korpus ayırmağı öhdəsinə götürürdü. 1750-ci ildə, İngiltərə hətta Avstriya-Rusiya ittifaqına qoşuldu və 1755-ci ildə Rusiya ilə daha geniş əsasda yeni "subsidiya konvensiyası" bağladı.

1756-cı ildə Qərbi Avropada siyasi vəziyyət qəfildən kəskin şəkildə dəyişdi. İngiltərə ilə Fransa arasında müharibənin başlaması ilə, İngiltərə hökuməti 16 yanvar 1756-cı ildə Prussiya ilə bağladığı Uaythol müqaviləsi ilə, hər hansı bir xarici

dövlətin Alman dövlətlərinə müdaxiləsinin qarşısını almaq üçün qüvvələri birləşdirməyi öhdələrinə götürdülər. Fransanın Hannoverə hücumundan ehtiyat edən Böyük Britaniya, qitədə Prussiyanın timsalında hərbi müttəfiq qazanmaq istəyirdi və Prussiya Böyük Britaniyanın köməyi ilə Avstriyaya və ehtimali düşmən hesab etdiyi Rusiyaya qarşı mübarizədə öz mövqelərini möhkəmləndirmək və yeni ərazi zəbtlərinə şərait yaratmaq niyyətində idi. İngiltərə hesab edirdi ki, "subsidiya konvensiyası" ilə bağlı olan Rusiya da, bu müqaviləyə qoşulmağa məcbur olacaq. 1756-cı il Uaythol müqaviləsi Avropada siyasi qüvvələrin yeni bir düzənini ortaya çıxardı. Fransa Avstriya ilə yaxınlaşaraq, ittifaq müqaviləsi bağladı. Sankt-Peterburqda ingilis və fransız təsirlərinin mübarizəsi nəticəsində yaranmış tərəddüdlər özünü büruzə verməkdə idi.

Nəhayət, Rusiya hökuməti tamamilə qəti mövqe tutdu və Prussiyanın hədsiz güclənməsinin Rusiya üçün yarada biləcəyi təhlükəni nəzərə alaraq, Avstriya-Fransa ittifaqına qoşuldu ki, "Prussiya kralını zəiflədərək, onu öz tərəfi üçün təhlükəsiz və baş ağrısı verməyən bir subyektə çevirsin." Sonra isə Prussiyanın bölünməsi nəzərdə tutulurdu. Bu siyasətin nəticəsi məlum olduqdan sonra Rusiyanın xarici siyasətinin aktual məsələlərinin - Türkiyə və Polşa problemlərinin həll edilməsi üçün lazımı şərait yaradılırdı.

Sonda, Rusiya rəsmi şəkildə, Avstriya-Fransa müdafiə alyansına qoşuldu. Lakin, İngiltərə ilə diplomatik əlaqələr pozulmadı, çünki hər iki tərəf qarşılıqlı ticarətin onlara verdiyi faydaları yüksək qiymətləndirirdi. Bu, Sankt-Peterburqda İngiltərənin fitnələri üçün geniş imkanlar açdı. Rus silahlarının Prussiyada qazandığı uğurlar II Fridrixi "ölüm çanağına" yaxınlaşdırdı. 1762-ci ildə, o, artıq taxtdan əl çəkməyə hazırlaşanda, Yelizavetanın ölümü onu ən təhlükəli düşmənlərinin birindən xilas etmiş oldu.

II Fridrixin böyük pərəstişkarı olan III Pyotr Rusiyanın xarici siyasətinin istiqamətini yenidən kəskin şəkildə dəyişdi. O, nəinki Prussiya ilə sülh bağladı, həm də onunla dərhal ittifaqa girdi.

3. 1726 - 1762-ci illərdə Rusiya diplomatiyası Qərbi Avropa diplomatiyasına qarşı mübarizədə

Rusiyanın xarici siyasətində kifayət qədər sabitliyin olmaması xarici dövlətlərin Sankt-Peterburqda son dərəcə sayğısız şəkildə fitnəkarlıqlar aparmasına, Rusiya imperiyasının daxili işlərinə açıq şəkildə müdaxilə etməsinə şərait yaratdı. Məlum olduğu kimi, 1741-ci ildə Yelizaveta Petrovna Fransa səfiri Şetardinin fəal dəstəyi ilə qvardiyaçılar tərəfindən taxta çıxarılıbdır. Fransız səfiri bu fitnəkar yol ilə, Rusiya ilə Fransanın yaxınlaşmasına nail olmağa ümid edrdi. Şetardi çevrilişi

maliyyələşdirdi və ilk günlər sarayda böyük nüfuza malik oldu. Lakin o, kansler A.P.Bestujevin simasında ciddi və ağıllı rəqiblə qarşılaşdı.

Şetardinin Rusiyada olmamasından istifadə edən, Avstriyanın səfiri Markiz Botta-Adorni, fransız həmkarının uğurlarından ruhlanaraq, müxalif fikirli Rusiya zadəganlarının bir hissəsi arasında devrilmiş İvan Antonoviçin yenidən taxtda bərpa edilməsi ehtimalı ilə bağlı təkliflərlə çıxış etdi. Bestujevi aradan götürmək üçün düşmənləri onu bu sui-qəsdə qarışdırmağa cəhd etdilər. Lakin, onların bu planı uğursuz nəticələndi.

1744-cü ildə Şetardi Rusiyanı Fransa və Prussiya tərəfində müharibəyə cəlb etmək məqsədə ilə Sankt-Peterburqa qayıdaraq, kansleri vəzifəsindən devirmək niyyətində olduğunu açıq şəkildə bəyan etdi. Şetardi, Böyük knyaz Pyotr Fedoroviçin nişanlısı gələcək II Yekaterinanın anası, II Fridrixə sadiq olan Anhalt-Serbst şahzadəsi ilə ittifaqda hərəkət edirdi. Bestujev özünəməxsus qətiyyət ilə hərəkət etdi. Kansler, Şetardinin yazışmalarını ələ keçirərək, fransız səfirinin fitnələrini üzə çıxardı və onun Rusiyadan qovulmasına nail oldu. Daha sonra, 1756-cı ildə, ingilis səfiri Çarlz Vilyam Böyük knyaginya Yekaterina Alekseyevna ilə birlikdə, Yelizaveta Petrovnanın ölümündən sonra onun hakimiyyəti ələ keçirməsi üçün plan hazırladılar. Xarici diplomatlar Sankt-Peterburqda çəkinmədən həyata keçirdikləri öz fitnəkar oyunlar ilə, XVIII əsrdə Rusiyada bir dəstə qvardiyaçının (hərbiçinin) köməyi ilə, çox asanlıqla çevrilişlər etməyə nail olurdular.

Rusiya hökuməti belə bir məsələdə daha az təşəbbüskar idi. Onlar yalnız, İsveçdə böyük bir fitnəkarlıq etmək imkanına malik oldular. Bu addımı atmağa onlara İsveçdə zadəganlarla kral hakimiyyəti arasında gedən daimi mübarizə şəraiti imkan verdi. İsveç zadəganları arasında rus partiyası yaratmaq üçün əhəmiyyətli vəsait xərclənirdi. Bu partiya, Fransa hökuməti tərəfindən eyni vasitələrlə dəstəklənən başqa bir qruplaşmaya qarşı qoyulurdu. 1740-cı illərdə, ingilis diplomatiyası bu məsələ ilə bağlı rus diplomatiyası ilə birgə hərəkət edərək, çəkilən xərclərin əhəmiyyətli hissəsini öz xəzinədarlığı hesabına ödəyirdi.

Məsələn, 1740-cı ildə rus və ingilis elçiləri müvafiq məqsədlər üçün hər biri 50.000 yefimka verməyə razılaşdılar. 1746-cı ildə Sankt-Peterburqda Seym deputatlarına rüşvət vermək üçün 20 min rubl ayrılmışdı. İsveç hökuməti Rusiya səfiri Baron Korfun İsveçin daxili işlərinə qarışmasına ilə bağlı Sankt-Peterburqa rəsmi şəkildə şikayət edərək, onun geri çağırılmasını tələb etdi.

Sankt-Peterburq isə anti-Rusiya partiyasının fəaliyyəti ilə bağlı İsveçə şikayət etməklə cavab notası verdi. Növbəti il Rusiyanın yeni diplomatik nümayəndəsi N.İ.Panin Rusiya kanslerine yazdığı məktubda xəstə İsveç kralının ölümü ehtimalı ilə bağlı bütün tədbirlər proqramını şərh etdi. Onun sözlərinə görə, Rusiyanın qarşısında üç vəzifə durur: İsveçdə mütləqiyyətin qurulmasının qarşısını almaq,

hazırki nazirliyi devirmək və nazirlərin yerinə müqabil "vətənpərvərləri" vəzifəyə gətirmək. Panin, Fransa partiyasının hər hansı bir nüfuzlu üzvünü Rusiya tərəfinə "çəkməyi" təklif etdi, lakin eyni zamanda hərbi müdaxilədən də istifadə etməkdə israr etdi: "pulun paylanması ilə heç bir fayda əldə olunmayacaq".

Silahlı müdaxilə ilə müşayiət olunan eyni rüşvət sistemi Polşa-Litva Birliyi və Kurlyandiyada da tətbiq edilirdi. XVIII əsrin ortalarında, bütün Avropada xarici dövlətlərdə nüfuz uğrunda bu fasiləsiz mübarizədə rüşvətxorluqdan təkcə fərdi şəxslər deyil, nazirlər də geniş şəkildə istifadə edirdi. Belə ki, 1737-ci ildə Sankt-Peterburqdan İsveç kralının qofmeysteri (monarxın saray idarəçisi) Horna bahalı hədiyyələr göndərildi. O, uzun müddət imtina etdi, lakin buna baxmayaraq, hədiyyələri çox ehtiyatla qəbul etdi və qəbz yazaraq bank çeki ilə malların ödənişini etdi. Və ertəsi gün rus elçisi bu qəbzi ona geri qaytardı.

Xarici hökumət nümayəndələri də Rusiya nazirlərinə və yüksək vəzifəli məmurlarını satın almaq üçün rüşvət verməklə xeyli çox pul xərcləyirdilər. 1725-ci ildə, Fransa səfiri Kampredona hökuməti tərəfindən Fransa və Rusiya arasında ittifaqın bağlanması üçün faydalı olan bütün yüksək rütbəli rəsmi şəxslərə görə 60 min dəyərinə qədər çervon (qızıl pul) xərcləməyə icazə verilmişdi. Rusiyanın xarici siyasətinin rəhbərlərinə mütəmadi olaraq illik pensiya ödəmək adət halı almışdı və bu dövrün ən görkəmli dövlət xadimləri eyni zamanda bir neçə xarici hökumətdən belə bir mükafatı qəbul etməkdən çəkinmirdi.

Çervon rus dilində xarici və yerli böyük qızıl sikkələrin ənənəvi adıdır. İlk olaraq bu qızıl sikkə nominalsız 3,3—3,5 qram çəkidə olmuşdur və dəyəri müxtəlif dövrlərdə 2—3,5 gümüş rus manatına bərabər idi. İlk rus çervonu XV əsrdə – rus çarı III İvanın dövründə, zərb edilmiş və dövriyyəyə buraxılmışdır. Həmin vaxtlarda istənilən böyük qızıl sikkəni, imperialları və yarım imperialları "çervon" adlandırırdılar.

1756-cı ilin avqustunda İngilis səfiri Vilyams tərəfindən belə bir hadisə şərh olunur ki, " Kansler Bestujev məndən, İngiltərə kralının ona təqaüd verməsi üçün xahiş etməyimi istədi, burada o, ildə yalnız 7000 rubl aldığını söylədi. O, vətəninin İngiltərənin maraqları ilə eyni olan maraqları haqqında bütün məsələləri bildiyini və Rusiyaya yaxşı xidmət edən şəxsin elə İngiltərəyə də xidmət etdiyini söylədi. Bu şəkildə, o, vicdanına qarşı çıxmadan vətəninə zərər vermədən, krala xidmət edə bilərdi. Bazar ertəsi, kralın ona ildə 12000 rubl təqaüd kəsdiyini bildirdikdə, çox təəccübləndi. O, çaşıb qalmışdı və əslində sözlərimə inanmadığına görə mənə təşəkkür etmədi." Yalnız bankir Volf onu məlumatın düzgün olduğuna əmin etdikdən sonra kansler, Vilyamsa öz minnətdarlığını bildirərək, "biz bir yerdə çox yaxşı yaşayacağıq, onun üçün əlimdən gələni edəcəyəm" ifadəsini krala çatdırmağı xahiş etmişdi.

Lakin bütün xarici hökumətlərdən pul alan Rusiya xarici siyasət rəhbərləri heç bir halda öz ölkələrinin mənafeyini başqa dövlətlərin maraqlarına qurban verməyərək, öz siyasi xəttini davam etdirirdilər.

Bütün hökumətlər xarici dövlətlərdə öz agentlərini saxlamağa çalışırdılar ki, onların vasitəsilə lazım olan məlumatları əldə etsinlər. Xarici ölkələrdə rus kəşfiyyatı yaxşı yerləşdirilmişdi. Təkcə onu demək kifayətdir ki, Anna İvanovnanın dövründə Rusiyanın Türkiyədəki elçisi Neplyuyevin Fransa səfirliyinin nümayəndə heyətində agenti var idi və onun vasitəsilə rəqibinin bütün addımlarından xəbər tuturdu. 1747-ci ildə, İsveçdə hətta kargüzarlıq yazışmaları sistemini dəyişdirməyə məcbur oldular, çünki rus elçisi Baron Korf bütün gizli dövlət işlərini öyrənmək imkanına malik idi. 1726-cı ildə məlum oldu ki, Prussiya müşaviri Ferber öz hökmdarının məxfi söhbətləri barədə Peterburqa məlumat verirmiş. Bu məsələ ilə bağlı olaraq Ferber edam edildi.

Rusiyanın o vaxtkı düşmənləri - İngiltərə və Prussiya, ruslardan daha çox cəsarətlə məxfi agentlərdən istifadə edirdi. Belə ki, onlar hətta gələcək imperatriçadan, əslən alman şahzadəsi olan Böyük knyaginya Yekaterina Alekseyevnadan istifadə etməyi bacarırdılar. Onun anası II Fridrixin casusu olduğuna görə İmperatriça Yelizavetanın əmri ilə Rusiyadan qovulmuşdu. İngilis səfiri Vilyams həm katibi Stanislav Ponyatovski (gələcək Polşa kralı) vasitəsilə, həm də ingilis kralının ona təqdim etdiyi vəsaitdən ödənilən böyük kreditlər hesabına Yekaterinaya yol tapa bildi. Nəhayət, bu dövrün səciyyəvi xüsusiyyətlərindən biri də, xarici siyasətlə məşğul olan rəsmi nümayəndələr və qurumlarla yanaşı, məxfi diplomatiyanın da güclənməsidir. Belə ki, İmperatriça Yelizaveta Petrovna və Fransa kralı XV Lüdovik dövlət nazirlərinin xəbəri olmadan bir-birləri ilə gizli yazışmalar aparırdılar.

Diplomatik fitnəkarların qarmaqarışıq şəbəkəsi və qonşu ölkələrin siyasətinə təsir etmək üsulları, 1789-cu ilin Fransa Burjua inqilabı ərəfəsində, milli dövlətlərin meydana gəlməsi zamanı beynəlxalq vəziyyətin mürəkkəbliyini açıq şəkildə göstərir. Bu dövrün rus diplomatiyasının bacarığı nəticəsində, Rusiya nəinki I Pyotrun əldə etdiyi uğurlar möhkəmləndirdi, həm də Qərbi Avropanın işlərində həlledici rol oynamaq qabiliyyətini də ortaya çıxardı. Ona görə də, onun hökuməti taxta çıxan şəxslərin tez-tez dəyişdirilməsinə baxmayaraq, daha səbatlı siyasət aparırdı.

Rusiya dövlətində görkəmli diplomatların olması da onun beynəlxalq uğurlarına kömək edirdi. I Pyotrun dövründə fəaliyyətə başlayan məşhur Andrey İvanoviç Osterman belə diplomatlardan biri idi. Osterman İsveçlə sülh danışıqlarının iştirakçılarından biri olmuşdur. Rusiya parlaq Nistadt sülhü üçün onun əzmkarlığına və çevikliyinə borclu idi. Təcrübə və təbii istedadlar onda tamamilə müstəsna

diplomatik keyfiyyətləri inkişaf etdirmişdi. Manşteyn onun haqqında yazırdı: “Çox vaxt Xarici İşlər nazirləri onunla iki saat artıq danışaraq, onun idarəsindən çıxanda ora daxil olanda bildiklərindən daha çox məlumat bilmirdilər. Nə yazsa, nə desə, iki mənada başa düşülə bilərdi. O, heç kimin gözünə baxmırdı ki, gözləri ona xəyanət etməsin və bəzən onları hərəkətsiz saxlamağı bacarırdı.” Deyilənə görə, Osterman təhlükəli bir kağıza imza atmaq məcburiyyətində qalanda, əlində podaqra olması yada düşürdü.

P. Bestujev-Ryumin fərqli insan tipinə malik idi. O, iddialı, hiyləgər, diplomatik uğurun bütün sirlərini bilən şəxs idi. Lakin, o, Osterman kimi hisslərini gizlətməyi bacarmırdı. Bestujev müəyyən bir siyasi sistem yaradaraq, onu ardıcıl şəkildə həyata keçirirdi. Bu sistemin əsas qayəsini- Prussiyanın artan qüdrətinə qarşı durmaq və Türkiyəyə hücum etmək üçün, Rusiya və Avstriya arasında ittifaqın yaradılması təşkil edirdi.

§3. II Yekaterina dövründə Rusiyanın xarici siyasəti

1. II Yekaterinanın diplomatiyası

1.1. Rusiyanın xarici siyasətin əsas istiqamətləri

1.2.Kiçik Qaynarca sülhü

1.3.Krım və Şərqi Gürcüstan

1.4."Yunan layihəsi"

2. Polşanın bölüşdürülməsi

3.II Yekaterinanın diplomatik metodları

4.Rusiyanın diplomatik qurumları (1726 – 1796-cı illər)

1. II Yekaterinanın diplomatiyası

1.1. Rusiyanın xarici siyasətin əsas istiqamətləri

1.2.Kiçik Qaynarca sülhü

1.3.Krım və Şərqi Gürcüstan

1.4."Yunan layihəsi"

1.1. Rusiyanın xarici siyasətin əsas istiqamətləri

1726-1762-ci illərdə rus diplomatiyası öz fəaliyyəti ilə XVII əsrin sonlarından etibarən Rusiyanın üzləşdiyi xarici siyasətin əsas problemlərinin həllinə lap yaxınlaşdı. “Şimalda - XII Karlın Rusiyaya hücum etməyə cəhd etməsi nəticəsində gücü zəifləmiş və nüfuzu düşmüş İsveç ... Cənubda - türklərin və onların tabeliyində olan Krım tatarlarının əvvəlki əzəmətinin itməsi ... tam dağılma vəziyyətində olan Polşa... öz konstitusiyası ilə heç bir ümummilli fəaliyyət göstərə bilməyən və bununla da qonşuları üçün asan qurban olmağa məhkum olan ölkə... Polşanın

arxasında dayanan digər bir ölkə -Almaniya da, sonradan ümidsiz çöküş vəziyyətinə düşdü. Otuz illik müharibədən sonra Roma-Alman İmperiyası ancaq adı ilə bir dövlət kimi tanınmışdır... Və onunla eyni zamanda Avstriya sülaləsinə rəqib olaraq Prussiya də tədricən güclənməyə başlamışdı.“ “Dünyanın geosiyasi vəziyyəti, 1762-ci ildə olduğu kimi çarizmin fəth planları üçün heç vaxt bu dərəcədə belə əlverişli vəziyyətdə olmamışdır... Yeddi illik müharibə bütün Avropanı iki düşərgəyə parçaladı. İngiltərə dənizdə, Amerikada, Hindistanda fransızların qüdrətini sarsıtdı və sonra isə, qitədə müttəfiqi olan Prussiya kralı II Fridrixi öz taleyinin qismətinə buraxdı. Bu sonuncu dövlət, hətta, 1762-ci ildə ölüm astanasında dayanmışdı ...”. Yenicə qurulmuş II Yekaterina hökumətinin fəaliyyət göstərməli olduğu beynəlxalq durum belə bir vəziyyətdə idi.

Xarici İşlər İdarəsinin rəhbərliyində əslində, o dövrün ən savadlı və ağıllı dövlət xadimlərindən biri olan N.İ.Panin dururdu. II Yekaterina hakimiyyətə çıxdıqdan dərhal sonra onun haqqında yazmışdı ki, Panin "mənim sarayımda ən bacarıqlı, ən ağıllı, ən qeyrətli insan"dır. Bir ingilis diplomatının fikrincə, qeyri-adi dərəcədə düzgün insan olan Panin, " imperatriçanın xeyrinə və şərəfinə, Rusiyada hökumətin gücləndirilməsinə uyğun gələn məqsədlərdən başqa mənafelər güdməmişdir". Dilində, bədxahlarının dediyinə görə, “yox” sözü olmayan “ən mehriban insanlardan biri” olan Panin, ciddi məsələlərdə qətiyyətlə və ardıcıl olaraq öz rəsmi xəttini davam etdirirdi.

Yekaterina özü elə ilk vaxtlardan dövlətinin xarici siyasətində böyük və fəal iştirak etmişdir. Bu sahədə heç bir ciddi məsələ ondan yan keçmədi, onun birbaşa müdaxiləsi olmadan heç bir məsuliyyətli qərar qəbul edilmədi. O, Potyomkinə demişdi: "Mən ölkəni özüm idarə etmək istəyirəm və bunu bütün Avropaya bildirmək istəyirəm!" Gənc yaşlarından saray fitnələri ilə yüksək səviyyəli siyasətə cəlb olunan Yekaterina, diplomatiya sahəsində artıq kifayət qədər təcrübəyə malik idi və diqqətəlayiq diplomatik qabiliyyətlərini mükəmməllik dərəcəsinə çatdırmışdı. O, XVIII əsrdə və daha sonra tez-tez diplomatın əsas keyfiyyəti hesab edilən böyük hiyləgərlik bacarığına sahib idi. O, özünə xitabən deyirdi-"Kim məsələləri şəxsi üsullarla təhlil etməyə çalışsa, tamamilə səhv edəcəklər".

II Yekaterina "maarifçilik" ifadələrindən məharətlə istifadə edərək öz iddialı planlarını məharətlə ört-basdır edirdi. Polşanın müstəqil dövlət kimi hüquqlarını pozaraq, parçalamağa hazırlaşaraq, öz hərəkətlərinə Polşa xalqının “azadlığını” müdafiə etmək forması geyindirirdi. “Maarifçilik”- XVIII əsr Avropasında çarizmin şüarı idi...”(F.Engels).

Yekaterinanın bir diplomat kimi gücü yalnız bunda deyildi. O, ağıllı bir qadın kimi dərk edirdi ki. idarə etdiyi ölkənin şərəfi həm də onun öz şərəfidir. O, diplomatik çıxışlarında özünü Rusiyadan ayırmadan, milli siyasətin müdafiəçisi kimi

təqdim edirdi. O, Danimarka sarayının Böyük Knyaz Pavel Petroviçin qəyyumluğunda iştirak etmək ilə bağlı irəli sürdüyü iddialarından qəzəblənərək yazırdı "Mən Rusiyanın İmperatriçasıyam, alçaqlığım olsaydı, Rusiya taxtının varisi olan oğlumun qəyyumluğunu qeyri-adi davranışı ilə məni və Rusiyanı təhqir edən bir xarici dövlətə təhvil verərək, xalqın ümidlərini doğrultmazdım." O, belə mühakimələri o qədər təkrar edirdi ki, nəhayət, özünü də onların həqiqiliyinə inandırırdı və bu məsələ, onun bütün hərəkətlərinə böyük əminlik və güc verirdi.

Yekaterina 20 ilə yaxın, Paninlə bir yerdə işləsə də, o, kanslerə çox etibar etmirdi və onu məhdud bir idarəetmə formasının tərəfdarı hesab edirdi. 1780-ci ilin noyabrında Panin, " danışıqlar aparmaq üçün tam səlahiyyətli" knyaz A.A.Bezborodko ilə əvəz olundu. İstedadlı və çalışqan, hesabat yazmaq üçün əla bacarığa malik olan icra məmuru, mahiyyət etibarilə yalnız imperatriçanın tapşırıqlarını mükəmməl yerinə yetirirdi. Rəsmi olaraq, Bezborodko II Yekaterinanın katibi vəzifəsində idi. Paninin yerini tutan vitse-kansler, məşhur A.İ.Ostermanın oğlu, özü isə tam bacarıqsız - "heç nə etməyən və nüfuzu olmayan saman müqəvvası" qraf İvan Andreyeviç Osterman xarici kollegiyada yalnız öz adı ilə "ilk şəxs" idi". Lakin, Q.A.Potyomkin o dövrdə bütün "siyasi sirlərdə" birbaşa iştirak edirdi. II Yekaterina Potyomkinin siyasətdə onun "şagirdi" olduğunu deməyi xoşlayırdı. Lakin II Yekaterina, özü də, Potyomkinin xarici siyasət layihələrini cəlbediciliyinə və parlaqlığına görə qəbul edirdi.

II Yekaterinanın taxta çıxdığı vaxt, rus diplomatiyası ilk növbədə III Pyotrun dövründə, Rusiyanın Yeddiillik müharibədən çıxması və Avstriya ilə ittifaqdan Prussiya ilə ittifaqa doğru kəskin dəyişiklik etməsi nəticəsində sarsılmış beynəlxalq nüfuzunu bərpa etmək üçün tədbirlər görməli oldu. II Yekaterina hökuməti ictimai rəyin təzyiqi altında II Fridrix ilə hərbi ittifaqını pozsa da, sülh müqaviləsinə sadiq qaldı. Bu ehtiyatlı siyasət döyüşən tərəflərin heç birini qane etmirdi. Onda, II Yekaterina onların arasında özünün vasitəçilik rolunu təklif etdi, lakin bu təklif rədd edildi. Qubertsburq müqaviləsi Rusiyanın heç bir iştirakı olmadan bağlandı. Yekaterinanın Yeddiillik müharibə iştirakçılarına münasibətdə tutduğu mövqe Rusiyanın beynəlxalq siyasətinin yeni istiqamətinə təsir etdi. Yeni xarici siyasət kursu ondan ibarət idi ki, Rusiya "daim xarici sarayların istəklərindən asılı olmadan, ölkənin həqiqi maraqlarına uyğun öz siyasətini apara bilsin".

Yekaterina hakimiyyətinin əvvəlində yazırdı: "Zaman hamıya göstərəcək ki, biz heç kimdən geri qalmırıq". Ona görə də, Yekaterina bütün səylərini Qərbi Avropa dövlətlərini Rusiya imperiyasının maraqlarına xidmət etməyə məcbur etməyə və çar Aleksey və I Pyotr dövründən etibarən gündəmdən çıxmayan planlarını həyata keçirməyə kömək etməyə yönəltdi: hələ də Polşa -Litva Birliyinin hakimiyyəti altında olan Ukrayna və Belarus torpaqlarını yenidən birləşdirmək, Rusiyanın

Baltikyanı ölkələrdə mövqelərini möhkəmləndirmək və Qara dənizə doğru irəliləmək kimi hədəflərə çatmaq lazım idi. Bu proqramın həyata keçirilməsinə ilk növbədə Avstriyanın dəstək verdiyi Fransa mane olurdu. Fransanın Şərqi Avropadakı bütün siyasi sistemi, Rusiyanın çoxdan artan nüfuzuna qarşı dayaq rolunu oynamalı olan Polşa, İsveç və Türkiyə üzərində qurulmuşdu. Digər tərəfdən, Fransa rus ticarət kapitalının, Yaxın Şərqə nüfuz edərək, Fransa ticarətinin inkişafına zərər verməsinin qarşısını almaqda maraqlı idi.

Kral III Avqustun ölümü ilə bağlı Polşa məsələsi gündəmdə birinci sıraya keçdi. Yekaterina öz adamlarına verdiyi göstərişlərdə "imperiyanın mənafeyinə faydalı olan, öz şərəfini qorumaq üçün bizdən başqa heç kimə ümid edə bilməyən" kral seçmək vəzifəsini irəli sürdü. Bu məsələdən əvvəl, II Fridrixi "Fransanın əlindən almaq", yəni onun dövlətinin Rusiyanın əsas düşməni ilə birləşməsinin qarşısını almaq məqsədi ilə Prussiya ilə yaxınlaşma siyasəti aparmaq planlaşdırılırdı. Prussiya Almaniya imperatorunun təbii rəqibi idi. Bununla belə, Engelsin fikrincə, "bu düşmən hələ də Fransanın və ya Rusiyanın, xüsusən də Rusiyanın köməyi olmadan heç nə edə bilməyəcək qədər zəif idi. O, Almaniya İmperiyasının vassal münasibətindən nə qədər çox qurtulsa da, Rusiya ilə münasibətdə, bir o qədər vassal vəziyyətinə düşürdü."

Lakin tezliklə, Rusiya, onun Qara dənizə və Balkan yarımadasına doğru istiqamətlənən işğalçı siyasətindən Habsburqların narazı olduğunu hiss etdi. Bu vəziyyət onu, "şimal sarayları" adlandırılan Prussiya, Danimarka, İsveç hökumətləri ilə yaxınlaşmağa məcbur etdi. Bu ölkələrə arxalanmaq siyasəti müasirləri tərəfindən "şimal sistemi" və ya "şimal akkordu" adlı aldı. Bu siyasətin təşəbbüskarı 1763-1781-ci illərdə Xarici Əlaqələr Kollegiyasına rəhbərlik etmiş böyük diplomat N.İ.Panin olmuşdur. Bu siyasəti həyata keçirmək məqsədilə, 1764-cü ildə Rusiya Prussiya ilə yeni ittifaq müqaviləsi bağladı və bu müqavilə ilə qonşuları, yəni ilk növbədə Habsburqlar tərəfindən hücuma məruz qaldıqda bir-birlərinə təminat verirdilər.

Uzun illər ərzində uzaqlaşmadan və hətta düşmənçilikdən sonra, Böyük Britaniya ilə də münasibətləri yaxşılaşdırmaq mümkün oldu. O, bu zaman, Rusiyanın türkləri Qara dəniz və Balkanlardan sıxışdırmaq istəyinə etiraz etmədi. Britaniya hökuməti hesab edirdi ki, bu addımlar dolayısı yol ilə Avropanın Levantla ticarətində dominant mövqe tutan Fransanın mövqeyini zəiflədər. 1766-cı ildə Rusiya və Böyük Britaniya arasında qarşılıqlı faydalı ticarət müqaviləsi imzalandı. Bütün bu tədbirlər Yaxın Şərqdə ziddiyyətlərin yeni kəskinləşməsi fonunda Rusiyanın diplomatik "arxa cəbhəsinin" güclənməsinə kömək etmiş oldu.

Müqavilədə nəzərdə tutulan gizli maddələr: Türkiyə ilə müharibə vəziyyətində Rusiyaya Prussiyadan nağd subsidiya, İsveçdə hərəkət birliyi və nəhayət, Polşa

konstitusiyasında hər hansı dəyişikliyin qarşısının alınması, çünki hər iki müttəfiq dövlət Reç Pospolitanın siyasi zəifliyinin saxlanılmasında maraqlı idi. Beləliklə, Prussiya ilə ittifaq Rusiyaya Polşa işlərinə təsir göstərməyə, Türkiyəni cilovlamağa, "şimalda üstün olmağa" və "Rusiya tərəfindən böyük xərc çəkmədən... Avropada birinci rol oynamağa" imkan verirdi. Rus diplomatiyasının bu böyük uğuru Paninin Prussiya ilə dostluğu rəhbər tutan xarici siyasət proqramının ilk nəticəsi idi. Onun 1764-cü ilin sonunda "Xarici İşlər Kollegiyasında ilk şəxs" vəzifəsinə təyin edilməsi bu proqramın rəsmi tanınması demək idi.

İsveçə münasibətdə, rus diplomatiyası ingilis diplomatiyası ilə birlikdə təxminən Polşada həyata keçirdikləri üsullara əl atırdılar. Burada da onlar, İsveç dövlət sisteminin arxaik formasını süni şəkildə qoruyub saxlamağa çalışırdılar. Seymdə ingilis və rus meylli partiyaları dəstəkləyən hər iki - rus və ingilis hökuməti, hələ də bu partiyaların yaradılmasına çox böyük məbləğdə vəsait xərcləyirdilər. İsveç hökumətinin özünə də böyük subsidiyalar ödənilirdi. Bu vasitə ilə, Fransa-İsveç ittifaqının yenilənməsinin qarşısını almağa ümid edirdilər. 1765-ci ildə, Böyük Knyaz Pavel Petroviçin Qolşteyn mülklərinin Danimarkaya verilməsinin qarşılığında, Danimarka dövləti də bu xərclərin ödənilməsinə cəlb edildi. Panin, Danimarka ilə bağlanan müqaviləyə Rusiya ilə Türkiyə arasında müharibə olacağı təqdirdə, onun Rusiyaya yardım edəcəyi ilə bağlı bənd də daxil etdi.

Panin, Şimali Avropa siyasəti məsələləri ilə bağlı ayrı-ayrı dövlətlərlə bağladığı separat müqavilələri ilə ümumi "şimal akkordu" sistemində birləşdirməyə çalışırdı. Belə bir sistemin ideyası hələ 1764-cü ildə Rusiyanın Danimarkadakı səfiri Baron Korf tərəfindən irəli sürülmüşdü. Onun layihəsinin əsas məqsədi, İngiltərənin iştirakı ilə Fransa və onun müttəfiqi Avstriyaya qarşı "şimalda nüfuzlu və güclü dövlətlərin ittifaqını yaratmaq" idi.

"Şimal akkordu"na Rusiya, Prussiya və Danimarka "aktiv dövlətlər kimi", Polşa və İsveç isə "passiv dövlətlər kimi" daxil olmalı idi; sonunculardan yalnız sülhü qorumaq tələb olunurdu. "Şimal akkordu" Rusiyanı digər dövlətlərdən "daimi asılılıqdan çıxarmalı" və ona xüsusilə də şimalda "ümumi işlərdə liderliyin diqqətəlayiq bir hissəsini" təmin etməli idi. "Akkord" ideyası Berlində rəğbətlə qarşılanmadı. II Fridrix artıq Rusiya ilə müttəfiqlik sayəsində əldə edilən nəticələrdən kifayət qədər razı idi və müttəfiqinin beynəlxalq gücünü artırmağa istiqamətlənən heç bir yeni öhdəlik götürmək fikrində deyildi.

Korf-Panin layihəsinin uğursuzluğuna baxmayaraq, Rusiya Polşaya münasibətdə əllərini kifayət qədər azad etdi. Polşa-Litva Birliyinin işlərinə qarışmaq və onu rus mütləqiyyətinin iradəsinə tabe etmək üçün bəhanə kimi, diplomatiya Polşanın katolik olmayan əhalisinin- dini müxaliflərin (dissidentlərin) mənafeyini qorumaq metodundan istifadə edirdi. Artıq 1764-cü ildə, Rusiya və Prussiya,

İngiltərə və Danimarkanın dəstəyi ilə, Polşa Seymi qarşısında dissidentlər üçün bərabər hüquqların verilməsi ilə bağlı tələblər irəli sürdülər. Digər tərəfdən, respublikanın dövlət quruculuğunun möhkəmlənməsinə yönəlmiş bütün tədbirlərə davamlı olaraq etiraz edirdilər.

1766-cı ildə Rusiya və Prussiya, Seym konstitusiyasında ən zərərli arxaizm olan "liberum veto"("sərbəst veto") hüququnun nəyin bahasına olursa olsun qorunub saxlanmasını tələb etdilər. Rüşvətdən geniş istifadə olunurdu, lakin daha qətiyyətli tədbirlərə də əl atılırdı: rus qoşunları Polşa ərazisini tərk etməmişdilər. 1767-ci ildə, Rusiya səfiri Repnin hakimiyyətdən narazı olan dini müxaliflərin və katoliklərin bir qismini birləşdirərək konfederasiya (şlyaxta (zadəgan) ittifaqı) yaratmağa müvəffəq oldu. Bu konfederasiyaya kömək bəhanəsi ilə rus qoşunları Varşavaya gətirildi. Bu məsələ, Seymi dissidentlərin(dini müxaliflərin) hüquqlarının katoliklərlə bərabərləşdirilməsi haqqında qanun qəbul etməyə məcbur etdi. Eyni zamanda, Rusiya köhnə Polşa konstitusiyasının qorunub saxlanmasının təminatını öz üzərinə götürdü. Bu konstitusiya ləğv edilmədən Polşanın, qonşuları üçün faydalı olan, davamlı anarxiya vəziyyətindən çıxması barədə düşünmək belə mümkün deyildi.

" Liberum veto" (lat. "Sərbəst veto") – Polşa-Litva Birliyində parlament strukturunun prinsipi, Seymin istənilən deputatına Seymdə məsələnin müzakirəsini və ümumilikdə Seymin işini dayandırmağa, qarşı çıxmağa imkan verirdi.

1.2.Kiçik Qaynarca sülhü

Rusiya siyasətinin gələcək uğurlarını dayandırmaq üçün Avstriya və Fransa Türkiyənin köməyinə müraciət etdilər. Yeni Rusiya-Türkiyə müharibəsinə bəhanə, Polşada Rusiyanın artan təsiri və 1764-cü ildə II Yekaterinanın himayədarı olan Stanislav Avqust Ponyatovskinin taxta çıxarılması ilə bağlı Portanın (Avropada Osmanlı İmperiyası hökuməti belə adlanırdı) narazılığı idi. Türkiyə, rus qoşunlarının, 1768-ci ildən, Ponyatovskini qəbul etməkdən imtina edən Bar Konfederasiyasına -Polşa zadəganlarının silahlı dəstəsinə qarşı hərbi əməliyyatlar apardığına görə, onların Polşadan çıxarılmasını tələb etdi. Rusiya bu tələbi rədd etdikdən sonra, 1768-ci il sentyabrın 25-də (6 oktyabr) Fransa və Habsburq monarxiyasının təhriki ilə Osmanlı ona müharibə elan etdi.

Osmanlı-Rus müharibəsi Dunay, Krım, və Cənubi Qafqaz istiqamətində aparılırdı. Osmanlı qoşunları 1769-cu ildə Rusiyanın içərilərinə doğru hərəkət etsə də sonrakı hərbi əməliyyatlar uğurlu alınmadı.Əsas hərbi əməliyyatlar 1770-1771-ci illərdə oldu. Rus qoşunlarının Baş komandanı Rumyantsev 1770-ci ilin yayında Larqa və Kaqul çayları yaxınlığında baş verən döyüşlərdə qələbə qazanaraq Dunayın sağ sahilinə keçdi. Bessarabiya, Valaxiya və Moldova ruslar tərəfindən zəbt edildi. Rus donanması 1770-ci ilin iyununda Xios yaxınlığındakı Çeşmə buxtasında

Osmanlı donanmasını məğlub etdi. Avstriya Rusiyanın Balkanlarda güclənməsini istəmirdi. Rusiyada baş verən Puqaçov üsyanı və Avropa dövlətlərinin Rusiyaya təzyiqi onu danışıqlara başlamağa məcbur etdi.

1774-cü ildə Osmanlı dövləti ilə Rusiya arasında Bolqarıstanın Kiçik Qaynarca kəndində sülh müqaviləsi bağlandı. Müqaviləyə əsasən:

1. Krımdakı Kerc, Yeniqala, Kubana qədər olan torpaqlar və Kinburn əraziləri Rusiyaya verildi;

2. Rus gəmilərinə Qara dənizdə sərbəst üzmək hüququ verildi (Beləliklə, Rusiya Qara dəniz dövlətinə çevrildi);

3. Rus ticarət gəmilərinə Bosfor və Dardanel boğazlarından sərbəst keçmək hüququ verildi;

4. Valaxiya və Moldaviya Rusiyanın "himayəsinə" keçdi. Osmanlı bu knyazlıqların idarə olunmasına aid şərtlərə əməl etməli idi;

5. Krım xanlığı Osmanlıdan ayrılaraq müstəqil oldu (1783-cü ildə Rusiya Krım xanlığını ləğv edərək "Tavrida" adı ilə özünə birləşdirdi);

6.Dnepr və Buq çayları arasındakı ərazilər Rusiyaya keçdi;

7. Porta "xristian qanunlarına və onun kilsələrinə möhkəm müdafiə" təmin etməyə borclu idi. Sonradan bu maddə Sultanın xristian təbəələrinin hüquqlarını qorumaq adı altında, Rusiyanın Osmanlı İmperiyasının daxili işlərinə müdaxilə etməsi üçün əsas oldu.

1770-ci illərin sonundan etibarən II Fridrixlə ittifaqdan bacardıqlarını alan Yekaterina Prussiyaya doğru Paninçi istiqamətdən yayınmağa və Avropa siyasətində yeni yollar axtarmağa başladı. İdarə etdiyi dövlətin gücünü hiss edən rus imperatriçası, Mərkəzi Avropanın taleyində həlledici rol oynamaq və hakimiyyətinin ilk illərindən onu rahat qoymayan "Avropanın taleyinin hakimi" olmaq arzusunu həyata keçirmək istəyirdi. Avropada, Prussiya ilə Avstriya arasında Bavariya varisliyi uğrunda müharibənin başlanması Yekaterinaya bunun üçün əlverişli bəhanə verdi. Fridrix, müttəfiqi kimi Rusiyadan hərbi yardım gözləyirdi. Lakin, Yekaterina hökmlü vasitəçi kimi çıxış etməyə üstünlük verdi və böyük bir bəyanatla Vyanaya müraciət etdi və Mariya Terezaya "alman knyazlarının ədalətli tələblərini tam şəkildə təmin etməyi" təklif etdi. Digər tərəfdən, Yekaterinanın Prussiya tərəfində olan nümayəndəsi "özünü hökuməti adından Almaniya qanunlarını müəyyən etməyə gəlmiş səlahiyyətli nazir kimi aparırdı". Beləliklə, dərhal aydın oldu ki, "Rusiyanın Prussiya ilə dostluq əlamətləri yalnız Yekaterinanın bu bəhanə ilə öz nüfuzunu bütün Avropaya yaymaq üçün Almaniyanın işlərinə qarışmaq istəyinə xidmət edir". Müharibəyə son qoyan 1779-cu il Teşen sülhü rus imperatriçasının zəfəri idi. O, təkcə vasitəçi deyil, həm də müqavilə ilə müəyyən edilmiş nizamın təminatçısı kimi çıxış edirdi. Həmin andan etibarən Rusiya müasirlərinin təbirincə desək, sanki

“imperiyanın üzvü” oldu və o, “öz qərarı ilə” Almaniyanın işlərində iştirak etmək razılığı aldı.

Bavariya varisliyi müharibəsi (3 iyul 1778 – 13 may 1779) — Avstriyanın Habsburq monarxiyası ilə Saksoniya və Prussiya ittifaqı arasında Vittelsbax sülaləsinin Bavariya qolunun yox olmasından sonra Bavariya Elektoratının varisliyi ilə bağlı mübahisə. Habsburqlar Bavariyanı əldə etməyə çalışırdılar, lakin ittifaq onlara qarşı çıxaraq Vittelsbaxların başqa bir qoluna üstünlük verdi. Hər iki tərəf böyük orduları toplasa da, müharibədə yeganə döyüş bir neçə xırda çəkişmə oldu. Bununla belə, minlərlə əsgər xəstəlik və aclıqdan ölmüşdü.

Alman knyazları imperatriçaya müraciət edərək, aralarındakı mübahisələri və anlaşılmazlıqları həll etməyi xahiş edirdilər. Onu "Almaniyaya verilən sülhə görə tərifləyərək, xilaskarlarıı kimi izzətləndirirdilər.” Sankt-Peterburqda Xarici İşlər Kollegiyasında hətta rus “təsiri”nin (yəni Almaniyada Rusiya təsirinin) istiqamətvericisi kimi xidmət edən xüsusi alman şöbəsi yarandı. Yaşlı II Fridrix özü də "şimal Semiramida"sına laqeyd yanaşmırdı, o, Yekaterinanın köməyi ilə Almaniya knyazların ittifaqını yaradaraq, anti-İngilis koalisiyası qurmaq ümidində idi.

Semiramidanın adı ənənəvi olaraq "dünyanın yeddi möcüzəsindən" biri olan - II Navuxodonosor (e.ə. 605-562) tərəfindən, Midiya çarı Kiaksarın qızı Semiramida ilə evləndiyi zaman onun üçün Babildə tikdirdiyi "Babilin asma bağları" ilə əlaqələndirilir.

Volter ona yazdığı məktubların birində II Yekaterina Şimallı Semiramida adlandırmışdı. Bununla o, Rusiya üçün nə qədər böyük işlər gördüyünü vurğulamış, onun hakimiyyətinə və dəyişikliklərinə heyran olduğunu bildirmişdi.

Yekaterinanın xarici siyasətinin perspektivləri Almaniya ilə məhdudlaşmırdı. İngiltərə, Amerika ilə müharibədə rus qoşunlarından istifadə etməyə çalışırdı və hətta bunun müqabilində Minorka adasını Rusiyaya verməyi təklif etdi. Ancaq burada da, Yekaterina başqaları üçün mübarizə aparmaqdansa, beynəlxalq qanunların hazırlanmasına üstünlük verirdi. İngiltərə-Amerika müharibəsi ilə bağlı olaraq, 28 fevral 1780-ci ildə Rusiya dənizlərdə silahlı bitərəflik haqqında məşhur bəyannaməsi ilə çıxış etdi. Bu akt dənizlərdə bitərəf ölkələrin gəmilərinin özlərini silahla müdafiə etmək hüquqlarını təsbit etdi. Bəyannamənin istiqamətləndiyi İngiltərə istisna olmaqla, dövlətlərin böyük əksəriyyəti ona qoşuldu.

Teşen sülhü və “silahlı bitərəflik” bəyannaməsi rus diplomatiyasının iddialarının indi nə qədər uzağa getdiyini, Rusiyanın beynəlxalq münasibətlər sahəsində hansı əhəmiyyətə malik olduğunu açıq-aydın göstərirdi. Amma onlar həm də, Paninin “şimal sistemindən” ayrılmasına şəhadət verdilər.

1780-ci ildən Rusiya ilə Avstriya arasındakı münasibətlərdə yaxınlaşma baş verdi. Həmin il, II Yekaterinanın Mogilyovda İmperator İosiflə görüşü “Prussiya kralının nüfuzuna dəhşətli zərbə” vurdu. Bu görüşdə, Rusiya və Avstriyanın Türkiyə və Polşaya münasibətdə “bərabər mövqeyi” yaradıldı və əlyazma məktublarının

mübadiləsi yolu ilə müdafiə ittifaqı bağlandı. Növbəti il Panin xaricə məzuniyyətə göndərilmə adı ilə vəzifəsindən azad edildi.

1.3.Krım və Şərqi Gürcüstan

Rusiya müstəqil şəkildə hərəkət etmək qərarına gəldi. 1783-cü ilin aprelində o, əvvəllər türk sultanının vassalı olan Krımın ilhaqını elan etdi və bununla da Şimali Qara dəniz bölgəsində üstün mövqeyini təmin etdi. 1783-cü il iyulun 24-də (4 avqust) Gürcüstanın Kartli-Kaxetiya krallığı (Şərqi Gürcüstan) ilə bağlanmış Müqəddəs Georgi müqaviləsi nəticəsində Rusiyanın Cənubi Qafqazda mövqeyi möhkəmləndi. Bu müqaviləyə əsasən gürcü kralı II İrakli Rusiyanın himayədarlığını tanıdı və müstəqil xarici siyasətindən əl çəkdi. II Yekaterina, öz növbəsində, İraklinin torpaqlarının bütövlüyünə zəmanət verdi. Böyük əhəmiyyət kəsb edən fakt o idi ki, Rusiya müharibə olduğu halda, Gürcüstanı müdafiə etmək öhdəliyini öz üzərinə götürürdü.

Onun bu hərəkətlərinə cavab olaraq, Osmanlı İmperiyası Böyük Britaniya, Fransa və Prussiyanın dəstəyi ilə 1787-ci ildə Rusiyaya müharibə elan edərək, Krımın geri qaytarılmasını tələb etdt. Lakin 1788-ci ildə, Habsburq monarxiyası Rusiyanın tərəfini tutdu. Bu müharibə, 1791-ci il dekabrın 29-da (9 yanvar 1792-ci ildə) bağlanmış Yassı Sülh müqaviləsinə əsasən Krımın təhlükəsizliyini təmin edən və Osmanlı İmperiyası ilə sərhədi Dnestr çayına qədər çatdıran Rusiyanın qələbəsi ilə başa çatdı. Bu müqavilə 1774-cü ildə Moldova və Valaxiya əhalisinə verilən imtiyazları təsdiqlədi. Türkiyə Gürcüstana iddialarından əl çəkdi və gürcü torpaqlarına qarşı heç bir düşmənçilik hərəkətləri etməyəcəyinə söz verdi.

XVIII əsrin sonlarında Osmanlı İmperiyası ilə müharibələrdə qazanılan qələbələr. Yaxın Şərqdə qüvvələrin nisbətini Rusiyanın xeyrinə əhəmiyyətli dərəcədə dəyişdirdi və müvafiq olaraq Şərq məsələsində maraqlı olan digər Avropa dövlətləri ilə münasibətlərdə onun mövqeyini gücləndirdi.

1.4."Yunan layihəsi".

Bu qələbələr II Yekaterinanı Habsburqlara Osmanlı İmperiyası ərazilərinin bölgüsü planını təklif etməyə vadar etdi ki, bu plan tarixə “Yunan layihəsi” kimi düşüb. Layihəyə uyğun olaraq Balkan yarımadasının şimal hissəsi Habsburqlar və Rusiya arasında bölünməli, cənub hissəsində isə Yekaterinanın nəvəsi Böyük Knyaz Konstantininin hakimiyyəti altında Yunan İmperiyası yaradılmalı idi. Digər Avropa dövlətləri də, Osmanlı İmperiyasının torpaqları hesabına və ya mülklərin mübadiləsi yolu ilə ərazi təzminatı almalı idilər. II Yekaterinanın layihəsi Avropa hökumətləri arasında böyük həyəcana səbəb oldu.

Böyük Britaniya və Fransa Osmanlı İmperiyasının ərazi bütövlüyünün qorunmasının tərəfdarı kimi çıxış etdilər. Onlar, özlərinin həm ticarət, həm də siyasi maraqlarını rəhbər tutaraq, Avropadan Cənubi Asiyaya ən qısa yolun keçdiyi Şərqi Aralıq dənizində nə Rusiyanın, nə də hər hansı digər dövlətin təsirinin artmasını istəmirdilər. İngilislərin təzyiqi ilə bu layihə Habsburq monarxiyası və Prussiya tərəfindən qınandı.

Birbaşa Yekaterinanın özünün və Potyomkinin rəhbərlik etdiyi rus diplomatiyasının bütün diqqəti indi türk probleminin həllinə və qondarma "Yunan layihəsi"nin həyata keçirilməsinə yönəldi. Söhbət artıq Türkiyə hesabına ərazi əldə etməkdən yox, türklərin Avropadan tamamilə qovulmasından və imperatriçanın nəvəsi Konstantin Pavloviçin hakimiyyəti altında Yunan imperiyasının bərpasından gedirdi. Moldova və Valaxiyadan Dakia adlı bufer dövlətinin təşkil edilməsi nəzərdə tutulurdu. Avstriya da öz növbəsində Balkan yarımadasının qərb hissəsini almalı idi.

"Çarqrad, Moskva və Sankt-Peterburqla birlikdə Rusiyanın üçüncü paytaxtı olmalı idi. Bu hadisə, Şərqi Xristian dünyası üzərində təkcə mənəvi hökmranlıq deyil, həm də Avropa üzərində hökmranlıq yolunda həlledici addım olardı" (F.Engels). Rusiya diplomatiyası tədricən bu "həlledici addım"a hazırlaşırdı. Fransanın müqavimətini zəiflətmək üçün tədbirlər görüldü. 1786-cı ilin sonunda, bu ölkə ilə bağlanan ticarət müqaviləsi iki ölkə arasında münasibətlərin əhəmiyyətli dərəcədə yaxşılaşmasına və xüsusən də Fransanın Konstantinopolda anti-rus siyasətindən imtina etməsinə əsas oldu. Nəhayət, Yekaterinanın Tavridaya (Krıma) məşhur səfəri Rusiyanın Qara dəniz uğrunda müharibəyə hazır olduğunu nümayiş etdirmək məqsədi daşıyırdı. Avstriya imperatoru İosifin bu səfərdə iştirakı İmperiya ilə anti-türk ittifaqını gücləndirdi.

Porta ona qarşı hazırlanan hücumu gözləmədi. O, özü 1787-ci ildə Rusiyaya müharibə elan etdi, bu addıma onu İngiltərə sövq etdi. 1780-ci il Mogilyov müqaviləsinə əsasən Avstriya Rusiya ilə ittifaqda hərəkət etdi. Gözlənilmədən müharibəyə İsveç də daxil oldu, onlar fürsətdən istifadə edərək Pyotr dövründə itirilən Baltikyanı torpaqların bir hissəsini geri qaytarmaq ümidində idilər. Lakin, hazırkı zamanda, Rusiyaya düşmən mövqedə dayanan İngiltərə və Prussiya, Rusiyanın müttəfiqi Danimarkanın, İsveç- Rusiya müharibəsinə qarışmasına imkan vermədi. Elə bir an yarandı ki, sanki, Peterburq təhlükə altında qalmışdı. Nəhayət, 1790-cı il Verel sülhü ilə, İsveç hər hansı sərhəd dəyişikliyindən imtina etməli oldu. İsveç müharibəsi və Avstriyanın separat sülh müqaviləsi bağlaması Yekaterinanın Türkiyə ilə bağlı planlarını alt-üst etdi. Konstantinopol üzərinə yürüş baş tutmadı. 1791-ci ildə bağlanmış Yassı sülhü yalnız Rusiyanın sərhədlərini Dnestrə qədər irəlilətdi və Krımın ilhaqına dair birtərəfli aktı təsdiqlədi.

Nəticədə, Yekaterina dövrünün rus diplomatiyası XVII əsrdən ona miras qalmış vəzifələri əsasən həll etdi: Böyük Pyotrun Baltikyanı ərazilərdə nailiyyətləri möhkəmləndirildi; rus xalqına qohum olan belarusların və ukraynalıların yaşadıqları torpaqlar yenidən Rusiyaya birləşdirildi. Rusiya Qara dənizdə möhkəmləndi. Nəhayət, Rusiya imperiyası Avropa məsələlərində həlledici söz demək ixtiyarı qazandı. Yekaterinanın xarici siyasətində, Engelsin təbirincə desək, XIX əsrdə çarizm siyasətinin "bütün əsas xüsusiyyətləri" artıq aydın şəkildə özünü göstərdi - Balkan yarımadasına can atmaq, "məhdudlaşdırıcı beynəlxalq qaydalar ulə İngiltərənin dəniz üstünlüyünü zəiflətmək", alman dövlətlərinin işlərinə müdaxilə etmək.

Rusiyanın XVIII əsrdə artan beynəlxalq əhəmiyyəti, həm də onun hökmdarlarına verilən imperator titulunun tədricən Avropa dövlətləri tərəfindən tanınması ilə özünü göstərdi (Almaniya İmperiyası - 1744-cü ildə, Fransa - 1762-ci ildə və Polşa-Litva Birliyi tərəfindən - 1764-ci ildə). Qərbi Avropa daxili ziddiyyətlərlə parçalansa da, geridə qalmış, lakin "vahid, yekcins, gənc, sürətlə inkişaf edən, demək olar ki, çox möhkəm və fəth etmək üçün tamamilə əlçatmaz olan Rusiya" digər Avropa dövlətləri arasında görkəmli mövqe tutmağı bacardı.

XVIII əsrin ikinci yarısında rus diplomatiyasının fəaliyyəti təkcə xarici siyasət uğurları ilə məhdudlaşmırdı. O, beynəlxalq hüququn prinsiplərinin inkişafında mühüm yer tutdu. Hərbi bitərəflik aktı hamılıqla tanınmış beynəlxalq dəniz hüququnun əsasını təşkil etdi. Türkiyə ilə 1783-cü il imzalanmış konvensiya konsulluq hüququnun prinsiplərini təsbit etdi və bu da beynəlxalq səviyyədə tanındı.

2. Polşanın bölüşdürülməsi

Türkiyə müharibəsi ilə eyni zamanda Polşanın bölünməsi məsələsi də gündəmə gəldi. Bu fikir Rusiya və Prussiya diplomatik dairələrində demək olar ki, 1763-cü ildən müzakirə olunurdu. Yekaterina Berlində dəfələrlə bu məsələ ilə bağlı onların mövqeyi ilə maraqlanmışdı. Türkiyə müharibəsi başlayan kimi, II Fridrix artıq , açıq şəkildə Polşanın bölünməsi layihəsi ilə çıxış etdi. O, hətta eyham vururdu ki, Rusiya Polşa torpaqları hesabına nəinki özünün hərbi xərclərini qarşılaya bilər, həm də türklərə qarşı Prussiya və Avstriyadan dəstək ala bilər. Yekaterina və Panin böyük məharətlə Prussiya kralının hədsiz inadına baxmayaraq, birbaşa cavabı gecikdirdilər; müttəfiqlərinin niyyətlərini daha dəqiq bilmək və imkan daxilində onların tələblərini bir qədər azaltmaq niyyətində idilər.

Birinci bölünmə: Şərq məsələsi ilə eyni vaxtda XVIII əsrin ikinci yarısında Avropa dövlətlərində Polşa-Litva Birliyində olan vəziyyət ilə bağlı böyük narahatlıq yarandı. 1764-cü ildə III Avqustun ölümündən sonra, Stanislav Avqust Ponyatovski Polşa kralı seçildi. O, Polşa zadəganlarının vətənpərvər dairələrinə arxalanaraq,

Polşa dövlətini möhkəmləndirmək üçün nəzərdə tutulmuş bəzi inzibati islahatlar həyata keçirməyə çalışdı. Onun bu siyasəti, Rusiya və Prussiyada narahatlığa səbəb oldu. Polşa-Litva Birliyinin daxili işlərinə qarışmaq üçün bəhanə olaraq "dissident(dini müxaliflik) məsələsi" seçildi.

Katolik Polşada dissidentlər, dini zəmində məhdudiyyətlərə məruz qalan pravoslavlara və protestantlara deyirdilər. Rusiya və Prussiyanın tələbi ilə Polşa Seymi "dissidentlərə" din azadlığı və digər hüquqlar verdi. Rusiya imperatriçası II Yekaterina bu qərarın həyata keçirilməsinin təminatçısı elan edildi. Bununla belə, katolik zadəganlığının nüfuzlu təbəqələri (şlyaxta) ona qarşı çıxdılar. Onlar hökumət əleyhinə birlik – Bar konfederasiyası (Bar şəhərinin adı ilə) yaradaraq, silahlı üsyan qaldırdılar. Bu üsyanı yatırmaq üçün Polşaya rus ordusu göndərildi.

Hərbi əməliyyatlar bir neçə il davam etdi. Bu döyüşlər, Rusiyadan əhəmiyyətli səylər tələb edirdi. Çünki, 1768-1774-cü illərdə, Rusiya eyni zamanda Türkiyə ilə də müharibə aparırdı. Yalnız, 1771-ci ilin yayında Avstriyanın Türkiyə ilə müdafiə ittifaqı bağlaması Rusiya hökumətini bölünmə məsələsində tələsməyə məcbur etdi. Nəhayət, Rusiya Polşa ərazisinin bir hissəsinin bölünməsi ilə bağlı Prussiya və Habsburq monarxiyası ilə razılığa gəldi. 1772-ci ilin əvvəlində, artıq maraqlı dövlətlər arasında ilkin razılaşma əldə edildi. 1772-ci il iyulun 25-də (5 avqust) onlar Sankt-Peterburq Konvensiyasını imzaladılar.

Rusiya, əslində, Polşanın bölünməsində maraqlı deyildi. Lakin o, Rusiya-Türkiyə müharibəsi ilə əlaqədar yaranmış çətin daxili və xarici vəziyyəti, Habsburq monarxiyasının Türkiyənin tərəfini tutması təhlükəsini, habelə müharibənin təşəbbüskarı olan Prussiyanın güclü təzyiqini nəzərə alaraq Polşanın bölünməsi ilə razılaşmağa məcbur oldu. Bu bölünmənin iştirakçılarının hər biri Polşa dövlətinin sərhəd ərazilərini aldı: Rusiya - Livoniyanın Polşa hissəsini, Şərqi Belarusiyanı, Prussiya - Pomeraniyanı, Habsburq monarxiyası - Qalitsiyanı. Strateji baxımdan, Polşanın ilk bölgüsündən ən çox Prussiya qazandı. O, Şərqi Prussiyanın krallığın əsas hissəsi ilə ərazi əlaqəsinə nail oldu.

Şübhəsiz ki, Şərqi Avropanın üç monarxiyasının Polşa-Litva Birliyinə münasibətdə hərəkətləri təcavüzkar xarakter daşıyırdı. Lakin, bu siyasət öz dövlət maraqlarına, eləcə də o dövrün əxlaq və ənənələrinə uyğun gəlirdi, o dövrdə, dövlətlər əməli olaraq digər xalqların mənafeyini, hətta ayrı-ayrı millətlərin maraqlarını nəzərə almırdılar. Dövlətlər arasında sərhədlər yerli əhalinin dili, dini, mədəni ənənələri nəzərə alınmadan qurulurdu.

XVIII əsrin sonlarında, Polşa xalqını başına gələn faciənin əsas səbəbi dövlətin zəifliyi idi . Belə ki, Polşa hökuməti öz əsas funksiyalarını yerinə yetirmək, o cümlədən ölkəni xarici təcavüzdən qorumaq iqtidarında deyildi.

İkinci bölünmə: 1772-ci il hadisələri Polşa cəmiyyətini silkələdi. Hakim dairələr, dövlət hakimiyyətinin gücləndirilməsinin, ölkədə hökm sürən anarxiyanın aradan qaldırılmasının zəruriliyini dərk edirdilər. XVIII əsrin sonlarında dünya xalqlarına cəmiyyətin və dövlətin kökündən dəyişdirilməsi nümunəsini göstərən Fransa inqilabının təsiri ilə Polşa Seymi 1791-ci il mayın 3-də konstitusiya qəbul etdi. O, keçmişdən Seym deputatlarının istifadə etdiyi veto hüququnu ləğv etdi, nəsli monarxiya qurdu və hakimiyyətlərin bölünməsi prinsipini ardıcıl olaraq həyata keçirməyə başladı.

Bu hadisələr Şərqi Avropa monarxiya hökumətlərini təşvişə saldı. Rusiya, Polşada 1791-ci il konstitusiyasının əleyhdarlarının üsyana başlamağa təhrik etdi. Üsyançılar, Tarqovits konfederasiyasını yaratdılar. Konfederatları Kral Stanislav Avqust Ponyatovski dəstəkləyirdi. Onlar konstitusiyanın ləğvinə nail oldular. Rusiya və Prussiya bu hadisələrdən istifadə edərək, 1793-cü il yanvarın 12-də (23) Polşanın ikinci dəfə bölünməsi haqqında konvensiya imzaladılar.

Polşanın ikinci bölgüsünə görə, Ukrayna və Litva torpaqlarının bir hissəsi, Kiyev, Volın əyalətləri və Vilnanın bir hissəsi Rusiyaya, Dantsiq, Torn və Poznan isə Prussiyaya verildi. Rusiya və Prussiya Polşanın bölünməsi üçün Polşa Seymindən heç olmasa yalandan da olsa qərar almağı zəruri hesab etdilər. Qrodnoya toplaşan Seym əsgərlər tərəfindən mühasirəyə alındı: onlar bölünmənin tanınmasına səs verənə qədər Seym nümayəndələrinin binanı tərk etmələrinə icazə vermədilər. Seymin nümayəndələri susaraq, yerlərindən tərpənmədilər. Nəhayət, Seymin sədri (marşal) susmağı razılıq əlaməti kimi qəbul etməyi təklif etdi. Beləliklə, Seymin "səssiz iclası" Polşanın ikinci bölünməsi aktını qanuniləşdirdi.

Üçüncü bölünmə: Qonşu dövlətlərin Polşada həyata keçirdiyi siyasətə cavab olaraq, 1794-cü ildə Polşada T. Kostyuşkonun başçılığı ilə üsyan baş verdi. Üsyanı yatırmaq üçün A.V.Suvorovun komandanlığı altında rus ordusu göndərildi. Aylarla davam edən döyüşlər nəticəsində üsyançıların əsas qüvvələri məğlubiyyətə uğradı, onların rəhbəri əsir götürüldü. Bu hadisə, Polşa dövlətinin taleyini həll etdi. 13 (24) oktyabr 1795-ci ildə Rusiya, Prussiya və Habsburq monarxiyası Polşanın üçüncü bölgüsü haqqında konvensiya imzaladılar.

1795-ci ildə Polşanın üçüncü bölgüsünə görə Rusiya Litvanı, Kurlyandiyanı və Polşa əhalisinin üstünlük təşkil etdiyi bir hissə də olsun torpaq əlavə etmədən Neman və Buqa qədər bölgələri aldı. Prussiya Varşavanı, Avstriya isə bölgələri ilə birlikdə Lyublin və Krakovu aldı.

Qrodnoya aparılan kral Stanislav Avqust Ponyatovski 1795-ci il noyabrın 25-də istefa verdi. 1797-ci il yanvarın 15-də (26) üç dövlət tərəfindən Birliyin bölünməsi təsdiq edən "Peterburq Konvensiyası"nı (1797) bağladılar, bu konvensiyaya görə Polşa borcları və Polşa kralı ilə bağlı məsələlərə dair qətnamələr daxil edildi. Polşa

dövlətçiliyinin qalıqları, Polşa vətəndaşlığı ləğv edildi, habelə müqavilə bağlayan tərəflərin hökmdarların titullarında "Polşa Krallığı" adından istifadə etməyəcəkləri öhdəliyi götürdülər. Polşa dövləti uzun müddət Avropanın siyasi xəritəsindən yoxa çıxdı.

Andjey Tadeuş Bonaventura Kostyuşko (04 fevral 1746 – 15 oktyabr 1817) – Peç Pospolitanın və ABŞ-ın hərbi və siyasi xadimi, ABŞ Müstəqillik müharibəsinin iştirakçısı(1776-1784), 1794-cü il Polşa üsyanının lideri, Belarusun, Polşanın, ABŞ-ın milli qəhrəmanı, Fransanın fəxri vətəndaşı. Polşa ordusunun generalissimusu. O, bu titulu 1794-cü il üsyanı zamanı – Matseyovits döyüşündə rus qoşunları tərəfindən əsir alınana qədər daşıyıb.

1796-cı ildə Rusiya İmperatraçisı II Yekaterinanın ölümündən sonra Kostyuşko onun varisi I Pavel tərəfindən əfv olundu və ABŞ-a mühacirət etdi. 1798-ci ildə Avropaya qayıtdı və uzun müddət Fransada, Vyana konqresindən sonra , 1817-ci ildə ölümünə qədər - İsveçrədə yaşayıb.

Polşa vətənpərvərləri öz ölkələrinin bölünməsini qəbul etmirdilər. Onlar onun müstəqilliyini və ərazi bütövlüyünü bərpa etmək uğrunda mübarizəni davam etdirirdilər. Onlar təkbaşına güclü rəqiblərin öhdəsindən gələ bilməyəcəklərini anlayaraq, Avropanın məzlum xalqlarının azadlığını öz xarici siyasətinin məqsədlərindən biri elan edən inqilabçı Fransaya müraciət etdilər. Lakin, Fransa da onlara kömək etmək etmədi.

Napoleon müharibələri nəticəsində Napoleon Bonapart qısa müddətə Sakson kralının tacı altında Varşava hersoqluğu şəklində Polşa dövlətini bərpa etdi.

Dördüncü bölünmə: Bu bölünmə, Polşanın aşağıdakı hissələrə bölünməsini rəsmiləşdirən Vyana Konqresi zamanı baş verdi:

-Poznan Böyük Hersoqluğu (Prussiyaya verildi)

-Azad Krakov şəhəri (1846-cı ildə Avstriya İmperiyasına daxil edildi)

-Polşa Krallığı (Rusiyaya verilmiş)

Napoleonun yaratdığı Varşava hersoqluğunun bir hissəsi Polşa krallığı adı altında Rusiya imperiyasının tərkibinə daxil oldu və Rusiya imperatoru I Aleksandr Polşa kralı oldu. Avstriya Kiçik Polşanın cənub hissəsini və Çervon Rusun çox hissəsini aldı və Poznan şəhəri və Polşa Pomeraniyası ilə birlikdə Böyük Polşanın qərb torpaqları Prussiyaya verildi.

Avropa siyasətinin Polşa məsələsi, yəni azad Polşa dövlətinin bərpası məsələsi belə yarandı. Sonradan o, Avropa dövlətləri arasında münasibətlərdə ciddi ziddiyyətlərin mənbəyi oldu. Eyni zamanda, o, uzun illər Polşa üzərində hökmranlıqlarını saxlamaqda maraqlı olan üç Şərqi Avropa monarxiyasını bir ittifaqda birləşdirdi.

Polşanın parçalanması nəticəsində üç Şərqi Avropa monarxiyasının - Rusiya, Habsburq (Avstriya) və Prussiya monarxiyalarının gücü və Avropanın siyasi vəziyyətinə təsiri xeyli artdı.

3.II Yekaterinanın diplomatik metodları

II Yekaterina dövründə diplomatik fəaliyyətin bəzi yeni üsulları tətbiq olunmağa başlandı. Yekaterina xaricdə siyasi təbliğat məsələsini çox geniş şəkildə tətbiq etdi. Bu məqsədlə o, xüsusilə də Volter, Qrimm, Didro və "maarifçilik dövrü"nün digər nümayəndələri ilə yazışmalar həyata keçirirdi. Eyni zamanda, Yekaterina bir imperatriça kimi Rusiyaya və ya şəxsən ona zərər verə biləcək xarici nəşrləri fəal şəkildə izləyirdi. O, 1762-ci il çevrilişi haqqında yazılan Rülyerin kitabının çapını dayandırmağa müvəffəq oldu.

Onun adından Amsterdamda "Antidot" çap olundu: bu nəşrdə, Abbat Şapp d'Oteroş tərəfindən Parisdə nəşr olunan Rusiya ilə bağlı kitabın təkzibi haqqında məlumat şərh olunmuşdu. Yeni diplomatik üsullarına aid olan məsələlərdən biri də, İmperatriçanın Rusiya ərazisində həyata keçirdiyi səfərlərdə iştirak etmək üçün xarici diplomatların dəvət olunması idi. Məsələn, 1785-ci ildə Baltik dənizindən Volqaya və 1787-ci ildə Krıma gedən su yolunu yoxlamaq üçün olan səfərlər bu qəbildəndir. Burada, onların, imperatriçanın özü və ya Potemkinlə qeyri-rəsmi söhbətlərində ən mürəkkəb diplomatik məsələlərə toxunulurdu və bəzən də onlar həll olunurdu.

Fransa səfiri Seqyur öz qeydlərində, bu birgə səfərlərdən Fransa-Rusiya dostluğu ideyasını təbliğ etmək üçün necə istifadə etdiyini geniş şəkildə izah etmişdir. Beləliklə, 1785-ci ildə Krıma səfəri zamanı, yolda Fransa-Rusiya ticarət müqaviləsinin bağlanması üçün zəmin hazırlandı və razılaşma Kiyevdə təsdiq olundu. Xarici hökmdarlarla birbaşa danışıqlar da böyük əhəmiyyət kəsb edirdi. Yekaterina, II Fridrixlə fəal halda "xüsusi" yazışmalar apararaq, bu yolla müttəfiq dövlətinin siyasətinə təsir göstərməyə və lazımi məlumatlar əldə etməyə çalışırdı. Yazışmalarla kifayətlənməyən Yekaterina şəxsi görüşlər də təşkil edirdi.

Belə ki, o, 1770-ci ildə İsveçə səfərə gedən II Fridrixin qardaşı şahzadə Henrixin oradan Peterburqa gəlməsini tələb etdi. 1780-ci ildə II İosif və Yekaterinanın Mogilyovdə görüşü baş tutdu. O, 1787-ci ildə İmperatorun, onu böyük öhdəliklə bağlayacaq görüşdən yayınmaq istəyinə baxmayaraq, onun" Tavrida" səfərində iştirakına nail oldu. Bu "taclı şəxslər"in görüşlərində, əyləncə və şam yeməyi arasında keçirilən bu qeyri rəsmi söhbətlərdə beynəlxalq siyasətin ən mühüm məsələləri müzakirə olunurdu.

II Yekaterina dövründə köhnə diplomatik təsir üsullarından olan xarici ölkələrdə yaşayan pravoslav əhali arasında demaqoq təbliğat metodu xüsusilə geniş istifadə olunurdu. Çar diplomatiyası dissident məsələsindən Polşa-Litva Birliyi dövlətinin işlərinə qarışmaq üçün istifadə etmişdir. Birinci Türkiyə müharibəsi zamanı, II Yekaterina hökuməti arxipelaq adalarında üsyan qaldırmağa müvəffəq

oldu və ilk dəfə olaraq Türkiyə ilə Kiçik-Qaynarca müqaviləsinə, Türkiyənin xristian əhalisinin dini hüquqları ilə bağlı maddələr daxil edildi. Yekaterina Krıma münasibətdə də eyni siyasəti həyata keçirirdi. Yerli xristianları - yunanlar və ermənilər tatarların zorakılığından xilas etmək bəhanəsi ilə, onların hamısı zorla, 1779-cu ildə Azov dənizi sahilinə köçürüldü. Bir sözlə, xristianlara münasibətdə hər yerdə "çarizm öz məqsədlərinə çatmaq üçün "azadedici" rolunu" oynaya bilirdi.

XVIII əsrin ikinci yarısında, diplomatik etiket sahəsində Rusiya artıq Qərbi Avropadan fərqlənmirdi. Bununla belə, Rusiya təcrübəsində təfərrüatlarda bəzi dəqiqləşdirmələr təqdim edilir. Belə ki, 1750-ci ildə Yelizaveta Petrovna rəsmi qəbula, yalnız səfirlərin, elçilərin və "səlahiyyətli nazirlərin" gəlməsinə icazə vermək qərarına gəldi, adi nazirlər və rezidentlər isə məktublarını Xarici İşlər Kollegiyasına təqdim etməli idilər. II Yekaterina dövründə, Rusiyanın digər Avropa dövlətləri arasında yüksək mövqeyini vurğulamalı olan daha bir yenilik tətbiq edildi. Xarici səfirlər imperatriçaya rəsmi şəkildə təqdim olunduqda, o dövrdə beynəlxalq ünsiyyət vasitəsi olan fransız dilindən istifadə etməli idilər və bu dildə imperatriça da cavab verirdi. Əgər səfir salamı öz ana dilində verirdisə, o da, rus dilində səlis danışa bilməməsinə baxmayaraq, rus dilində cavab verirdi. Belə ki, lord Bekinqem Yekaterina ilə ingiliscə salamlaşdıqda o, rusca cavab verdi. Onu əvəz edən Makartni, imperatriçənin rəğbətini qazanmaq üçün fransız dilində böyük nitq söylədi. Eyni məqsədlə - Rusiyanın ləyaqətini aşağı salmamaq üçün- səfirlərin təqdimatında, onlardan imperatriçanın əlini öpmək tələbi qoyulmuşdu. Bu məsələ ilə bağlı, 1762-ci ildə Avstriya səfiri qraf Mersi ilə münaqişə yarandı, o, əvvəlcə Vyana sarayında bu etiketin qəbul edilmədiyini bəhanə edərək bu mərasimi yerinə yetirməkdən imtina etdi. Lakin sonra, Vyanadakı rus səfirinin belə bir öhdəliyi yerinə yetirməsini tələb edərək, təkid etdi ki, o da, Avstriya imperatriçasının əlini öpsün. Ancaq, sonra o, bu məsələdə də güzəştə getməli oldu.

II Yekaterina hökuməti, imperatriçanın titulu məsələsinə də böyük diqqət göstərirdi. 1766-cı ildə Fransa sarayı "Əlahəzrət" tituluna "imperatriça" titulunu əlavə etməkdən imtina etdi. Belə bir əlavənin fransız dilinin qaydalarına zidd olduğunu əsas gətirdi. II Yekaterina bu münasibətlə ləyaqəti qoruyan bir qətnamə qəbul etdi: "Müvafiq titullar göstərilməyən məktubları qəbul etmək rus dilinin və protokolunun qaydalarına ziddir". XVII əsr üçün xarakterik olan diplomatiyanın yerli qaydalarına gəlincə, o, yalnız Qərbi Avropanın gündəlik həyatında tanındığı dərəcədə mövcud olmaqda davam edirdi.

Üstəlik, Sankt-Peterburqda diplomatik etiketə Qərbi Avropanın digər dövlətlərinə nisbətən daha az riayət olunurdu. Lakin, Fransa hökuməti öz nümayəndələrinə "hər yerdə ruslar üzərində könüllü və ya zor gücünə üstünlüyü tələb etməyi" tövsiyə etdikdə, o zaman Panin təklif etdi ki, rus səfirləri də "öz

yerlərini könüllü və ya zorla müdafiə etsinlər". Panin dövlətlər arasında münasibətlərdə diplomatik etiketin əhəmiyyəti ilə bağlı fikirlərini belə müəyyənləşdirirdi: "Onların yazışmalarının formasını tənzimləyən etiket daha sərt olmalıdır, çünki bu məsələ, onların qarşılıqlı hörmətinin və öz qüvvələrinə qarşılıqlı ehtiramının ölçüsü kimi xidmət edir".

4.Rusiyanın diplomatik qurumları (1726 – 1796-cı illər)

XVIII əsrin ikinci yarısında diplomatik fəaliyyətin mürəkkəbliyi xarici siyasət əlaqələrinə cavabdeh olan qurumların yenidən təşkilini vacib etdi. I Pyotrun dövründə Xarici kollegiya hələ nisbətən kiçik bir qurum idi (1718-ci ildə onun cəmi 120 işçisi var idi). 1762-ci ildə onların sayı artıq 261 oldu. Kollegiyada adətən kansler titulunu daşıyan bir sədr və vitse-kansler var idi. Xarici kollegiya iki idarəyə bölünürdü:

1.Məxfi və ya siyasi idarə- Avropa və Asiya məsələlərindən ibarət iki şöbəsi var idi;

2. İctimai şöbə- bura "xəzinə idarəsi", "cari işlər", "poçt işlərinə" və "mərasim məsələləri" şöbələri daxil idi.

Bütün işlər kollektiv şəkildə həll edilirdi. II Yekaterina hələ 1781-ci ildə fərmanla bütün məsələləri birlikdə həll etmək lazım olduğunu xatırlatmışdı. Sarayın Moskvaya uzun gedişləri zamanı (II Pyotr və Yelizaveta Petrovnanın rəhbərliyi altında) kollegiya onunla birlikdə ora köçürdü, Peterburqda cari işlər üçün "Peterburq idarəsi" saxlanılırdı.

İmperiyanın dövlət həyatında xarici siyasətin əhəmiyyəti hakimiyyətin bu qolu ilə bağlı məsələlərin cəmlənməsini tələb edirdi. Onlar ali hakimiyyətin başçısına yaxın olduqlarından, onun icazəsi olmadan heç bir qərar qəbul edə bilməzdilər. 1726-cı ildə qurulan Ali Məxfi şura bu məqsədlə qurulmuşdu və burada digər məsələlərlə yanaşı, "nazirlərin hesabatları və məlumatları" da təxirə salınmaz şəkildə müzakirə edilirdi. Xarici kollegiya ilə, 1731-ci ildə Anna İvanovna tərəfindən yaradılmış "kabinet" arasında sıx əlaqə mövcud idi. 1756-cı ildə Prussiyaya qarşı hərbi əməliyyatların başlanması ilə əlaqədar Yelizaveta Petrovna Bestujev-Ryuminin təklifi ilə xüsusi olaraq "İmperator sarayı yanında məclis" yaratdı. Bu qurum nüfuzlu məmurlardan təşkil olunaraq, qoşunların hərəkətinə "lazımi sürət və güc" vasitəsilə nəzarət etmək vəzifəsi daşıyırdı.

Məclisdə sırf hərbi məsələlərlə yanaşı, xarici siyasət məsələləri də müzakirə olunurdu. 1768-ci ildə II Yekaterina dövründə isə, Türkiyə ilə müharibə aparıldığı zaman, hərbi və siyasi məsələləri müzakirə etmək üçün xüsusi şura yaradıldı. Şura təfərrüatlara varmadan yalnız ümumi məsələləri həll etməli idi. Lakin, xarici

siyasətin bütün əsas məsələlərini şəxsən özü həll edən imperatriçanın dövründə bu şura böyük rol oynaya bilmirdi.

XVIII əsrdə yaradılmış xarici siyasət idarəçiliyinin kollegial təşkilatı aşkar edilmiş çatışmamazlıqlarına baxmayaraq, yalnız XIX əsrdə ləğv edildi. 8 sentyabr 1802-ci il I Aleksandr verdiyi manifesti ilə öz rəhbərliyi altında nazirliklər yaratdı. Lakin, bu dəyişiklik Xarici İşlər Kollegiyasına nisbətən az təsir göstərdi. Kollegiya nazirin və onun köməkçisiinin rəhbərliyi altında mövcudluğunu davam etdirdi. Lakin getdikcə, yalnız nazirin səlahiyyətləri artırıldı, köməkçinin rolu azaldıldı. Nəhayət, 10 aprel 1832-ci il tarixli fərmanı ilə, kollegiya ləğv edildi və onun yerinə Xarici İşlər Nazirliyi yaradıldı.

ÜÇÜNCÜ FƏSİL

XVIII ƏSRDƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR

III BÖLMƏ
ABŞ-ın yaranması və beynəlxalq münasibətlər (1775—1794-ci illər)

§1. Şimali Amerika müstəmləkələrinin müstəqillik uğrunda mübarizəsi

1.Şimali Amerikanın avropalılar tərəfindən məskunlaşması
2.Yeddiillik müharibənin gözlənilməyən nəticələri
3.Gənc Amerika dövlətinin yaranması

§2. XVIII əsrdə Gənc Amerika Respublikasının diplomatiyası

1.Məxfi yazışmalar komitəsi (1775 - 1777)
2.Saylas Dinin missiyası
3.Bencamin Franklin diplomat kimi
4. Amerika müstəmləkələrinə Fransa hökumətinin yardımı
5.Fransa ilə Birləşmiş Ştatlar arasında ittifaq və ticarət müqaviləsinin bağlanması (6 fevral 1778)
6.Fransa və İspaniyanın İngiltərəyə qarşı müharibəyə girməsi (1778-1779)
7. Silahlı bitərəflik (1780)
8.Sülh danışıqları

§3. ABŞ-ın azadlıq uğrunda müharibəsindən sonra Fransa və İngiltərə ilə münasibətləri

1. Birləşmiş ştatların Fransa inqilabı dövründə Fransa ilə münasibətləri
2.Müstəqillik müharibəsindən sonra İngiltərə və Birləşmiş Ştatların qarşılıqlı münasibətləri

§1.Şimali Amerika müstəmləkələrinin müstəqillik uğrunda mübarizəsi

1.Şimali Amerikanın avropalılar tərəfindən məskunlaşması
2.Yeddiillik müharibənin gözlənilməz nəticələri
3.Gənc Amerika dövlətinin yaranması

1. Şimali Amerikanın avropalılar tərəfindən məskunlaşması

İngilislər də Şimali Amerikada ilk müstəmləkələrini yaratmaq istəyirdilər. Lakin bu cəhd uğursuz olsa da, "Bakirə kraliça" I Yelizavetanın şərəfinə yeni müstəmləkə "bakirə" mənasını verən Virciniya adlandırılmışdı.1585-ci ildə burada yaşayış məntəqəsi salındı, lakin heç bir il keçməmiş, yüzlərlə sakin İngiltərəyə geri qayıtdı. 1587-ci ildə ser Uolter Reli Amerikaya ikinci ekspedisiya göndərdi, onlar yeni yaşayış məntəqəsi yaratdılar. Üç il sonra həyata keçirilən yeni ekspedisiya zamanı əvvəl gələn bu 918 sakindən heç kəs tapılmadı. Onların taleyi barədə heç nə məlum deyildi. Onlar aclıqdan və xəstəlikdən, yaxud da hindularla mübarizədə ölmüş ola bilərdilər. Məskunlaşmanın ilk cəhdi faciəli şəkildə başa çatdı. Lakin, 1607-ci ildə müstəmləkəçilər dəstəsi Ceyms çayının mənsəbində yeni məntəqə saldılar. Bu, Virciniyada ingilis məskunlaşmasının ilk səhifəsini açdı. Yaşayış məntəqəsi İngiltərə kralı şərəfinə Ceymstaun adlandırıldı. Müstəmləkəçilər 1612-ci ildə tütün becərməyə başladılar, bu, Virciniyanın təsərrüfat cəhətdən istifadə edilməsi məsələsini həll etdi. Tütünün becərilməsi çox gəlirli olduğuna görə, monokulturaya çevrilməyə başladı.

Müstəmləkədə işçi qüvvəsi çatışmadığına görə, Avropadan okeanın o tayına köçmək istəyənlər hesabına bu məsələ müsbət həll olundu. Hər bir ingilis şumlanan torpaq payı almaq hüququna malik idi. Əvvəlki dövrdə müstəmləkədə həyat çox ağır idi. Bir tərəfdən müstəmləkəçilər öz torpaqlarını müdafiə edən hinduların hücumlarına qarşı dayanmalı idilər, digər tərəfdən, onlar xəstəliklərdən, daha çox sınqa və malyariyadan əziyyət çəkir, aclıqdan ölürdülər.

Amerika qitəsinin şimalını (Kanadanı) isə fransızlar istila etdilər. Birinci dəfə Jan Kartye (1535-c il) buranı kəşf etmişdi, müstəmləkələşməni isə Samuyel de Şampleyn başladı, o, 1602-ci ildə Kvebek şəhərinin əsasını qoydu. Sonralar, Yeni dünyada hökmranlıq üstündə ingilislərlə fransızlar arasında bir neçə toqquşma baş verdi. Yeddiillik müharibənin sonunda isə Paris sülhünün şərtlərinə görə, Fransa tamamilə Kanadanı itirdi və ölkə Britaniya imperiyasının bir hissəsinə çevrildi.

1620-ci ilin noyabrında isə, İngiltərədən "Meyflauer" gəmisi üç ay müddətinə Şimali Amerikada Kod burnundakı sahilə gəlib çıxdı. İngilis puritan köçkünlərinin 41 ailəsi Amerika torpağına ayaq basdı. Hələ gəminin göyərtəsində olarkən "zəvvar atalar" gələcək, müstəmləkənin, öz dinlərinin sərt prinsiplərinə əsaslanan nizamnaməsini qəbul etdilər.

Öz nizamnamələrinin köçkünlər tərəfindən qəbul edilməsi mühüm hüquqi tədbir idi, çünki onlar ingilis qanunvericiliyinin qüvvədə olduğu ərazidən kənarda idilər. Müstəmləkəçilər özlərini ingilis kralı I Yakovun sədaqətli təbəələri adlandırsalar da, onlar öz qanunlarına malik olmaq və öz idarəetmə orqanlarını yaratmaq hüququnu özlərində saxlayırdılar.

Puritanların mühacirəti anqlikan kilsəsi ilə onların dini ayrı-seçkiliyi ilə əlaqədar idi. Puritanların radikal qanadı – independentlər öz icmalarının müstəqilliyinə nail olmaq istəyirdilər. Puritanların bir hissəsi vətənlərində öz inancları barədə mübarizəni davam etdirsə də, digərləri mühacirət etməyi qərara aldılar.

İndiki Nyu-Yorkün rayonu olan Manhetteni, Hudzon çayındakı bu adanı, 1626-cı ildə Yeni Niderland adlanan holland müstəmləkəsinin ilk qubernatoru hindulardan 60 quldenə alıb, orada Yeni Amsterdam şəhərini (indiki Nyu-York) salmışdı. Hollandlar Yeni dünyanın bu hissəsində məskunlaşdılar. Materikdən daha yaxşı müdafiə olunan adaya onların köçməsi hinduların tez-tez baş verən hücumları ilə əlaqədar olmuşdu.

Hollandların qəsəbələri ingilislərinkindən fərqlənirdi, ingilislər kilsə ətrafında kompakt kəndlərdə məskunlaşırdılar, hollandlar isə bir-birindən aralı olan xırda məskənlərdə yaşayırdılar, onların hindulardan müdafiə olunması çətinliyə məruz qalırdı. Həm də Niderland müstəmləkələri qarışıq etnik tərkibdən ibarət idi, burada hollandlardan başqa almanlar, skandinavlar, yəhudilər, ingilis puritanları yaşayırdı. Yeni Niderland müstəmləkələrində torpaq köçkünlərə özəl mülkiyyət hüququ əsasında məxsus deyildi, Vest-Hind kompaniyasından icarəyə götürülürdü, ona görə də müstəmləkəçilər onu öz mülkləri kimi müdafiə etmirdilər.

Bu hadisədən dörd il sonra isə, 1630-cu ildə ingilis puritanları Con Vintropun başçılığı altında Massaçusets körfəzinin sahillərində Boston adlanan yaşayış məntəqəsini saldılar. Puritan köçkünlərinin ilk min nəfəri Şimali Amerikaya elə həmin il gəldi. Burada onlar qısa müddət ərzində altı yaşayış məntəqəsi saldılar. İki il sonra Boston Massaçusets müstəmləkəsinin baş şəhəri oldu. Qubernator Vintropun rəhbərliyi altında təmsilçilik yığıncağı yarandı, ona seçmək və seçilə bilmək hüququna yalnız puritan icmasının üzvləri malik idi. Puritan olmayanlar Massaçusetsdə heç bir siyasi hüquqa malik deyildilər.

Bu müstəmləkənin ərazisində olan Kembricdə Yeni İngiltərədəki ən qocaman kollecin əsası qoyuldu. 1639-cu ildən kollec incəsənət bakalavrı Con Harvardın adını daşıyır. O, Amerikaya mühacirət etmiş və bu tədris müəssisəsinə zəngin kitabxana və varidatının yarısını vəsiyyət etmişdi. XIX əsrin birinci rübündə kollec universitetə çevrildi.

1650-ci ildə Şimali Amerikada artıq 50.000 müstəmləkəçi var idi. Ağ tacirlər hindularla razılaşmağa çalışırdılar. Köçkünlər isə onlardan torpaq almağa can atırdılar. Əvvəllər hindular müstəmləkəçilərə tikinti aparmaq üçün öz torpaqlarını həvəslə verirdilər. Lakin onlar anlayanda ki, bu torpaqlar həmişəlik ələ keçirilir, onda münaqişə yaranmağa başladı.

Köçkünlər özlərini aldadılmış hesab edib, hinduları yaşadıqları yerlərdən qovmağa başladılar. Ağ müstəmləkəçilər hinduları kütləvi şəkildə qırırdılar. 1680-ci ilə yaxın Yeni İngiltərədə yalnız 15.000 hindu var idi. Diri qalanlar Müqəddəs Lavrenti çayı bölgəsinə köçürüldülər. Oradan onlar ingilis məskənlərinə hücum edirdilər. Vaxt getdikcə hindular torpaqlarını geri qaytarmaq barədə bütün ümidlərini itirdilər.

Avropalıların Amerikada məskunlaşması hinduların inkişafının təbii gedişini dayandırdı. Çox sayda hindular Şimali Amerikada məhv edildi, qalan tayfalar isə rezervasiyalara köçürüldülər.

Hinduların dünya mədəniyyətinə töhfəsi olduqca böyükdür: dünya xalqları onlardan qarğıdalını, kartofu, günəbaxanı, kakao və digər bitkiləri becərməyi mənimsəmişdilər.

İngilislər özlərini müstəmləkələrinin tam hüquqlu sahibləri hesab etdiklərindən, hindulara qarşı əsl ov təşkil edirdilər. 1637-ci ildə Plimut, Massaçusets və Konnektikut məntəqələrindən olan müstəmləkəçi dəstələri kütləvi qırğın təşkil edib, yerli hindu tayfalarından birini tamamilə qırdılar. Düşmən münasibətlərində olduqları qırmızıdərili hinduların skalpları(baş dərisi) üçün ağdərili müstəmləkəçilər tərəfindən müzdlu" insan ovçularına" hətta ödəmələr belə edilmişdir. O zaman, Amerikada müstəmləkəçilər "ən yaxşı hindu ölü hindudur" ifadəsini işlədirdilər.

Müstələkələşmə dönəmində insan başından skalpların (baş dərisi) çıxarılması üsulunu fransızlar alovlandırmışdır. Belə ki, Şimali Amerikaya göndərilən fransız qarnizonları yerli hindularla danışığa gedərək döyüş zamanı öldürülən ağ adamların baş dərilərini istəyirdilər. Bunun müqabilində Avropadan gətirilən müxtəlif bəzək əşyaları və silah alan hindular yarım əsrə yaxın müddət ərzində muzdla skalpların çıxarılması ilə məşğul olmuşdular. Buna cavab olaraq isə Britaniya İmperiyası Şimali Amerikada fəaliyyət göstərən bəzi muzdlu cinayətkarlara hindu skalplarının gətirilməsi müqabilində pul vəd etmişdilər.

Massaçusetsdə baş verən Kral Vilyam müharibəsi zamanı (1689) baş dərisi mükafatı (ing. scalp bounty) adlı mükafat təyin olunmuşdur. 1703-cü ildə Kraliça Anna müharibəsi zamanı

Massaçusets Körfəz Koloniyası tərəfindən hər çıxarılmış düşmən baş dərisinə-skalpına görə 60 dollar mükafat təyin edilmişdir.

Kral Corc müharibəsi zamanı Fransızlar və onlara müttəfiq olan hindu qəbilələrinin ingilis ailələrinə qarşı etdikləri amansız qətliamlara görə 1744-cü ildən etibarən öldürüləcək qadın və uşaqlarında daxil olduğu bütün hinduların baş dəriləri üçün mükafat təyin edilmişdir.

Yeni İngiltərənin (Amerikanın avropalılar tərəfindən istismar olunan cənub-şərq və şərq rayonları) qanunverici orqanları təhvil verilmiş hər bir skalp üçün, o cümlədən qadın və uşaq skalpları üçün 50 – 100 funt-sterlinq arasında pul məbləği təyin etmişdilər. Amerikada baş vermiş müstəmləkəçilik və soyqırımı qurbanlarının dəqiq sayını müəyyən etmək qeyri-mümkündür.

1643-cü ildə Şimali Amerikada ingilis müstəmləkələri Yeni İngiltərə konfederasiyasında birləşdilər. İspaniya, Fransa və Hollandiya ilə yanaşı, İngiltərə dördüncü dövlət idi ki, Şimali Amerika qitəsində müstəmləkələrə malik idi. Yeni İngiltərə konfederasiyasında Plimut, Massaçusets, Konnektikut və Nyu-Heyvn daxil oldu. Plimut İngiltərədən 21 noyabr 1620-ci ildə "Meyflauer"gəmisində gələn puritan "zəvvar ataların" yaşayış məntəqəsi idi.

İngiltərə Amerikada koloniyalaşma həyata keçirərkən təkcə ticarət məqsədlərini güdmürdü, həm də çalışırdı ki, öz demoqrafik problemlərini həll etsin. Avropanın digər müstəmləkə əldə etmiş ölkələri isə hər şeydən əvvəl iqtisadi faydanı güdürdülər. Belə ki, Müqəddəs Lavrenti çayının üstündəki Monreal yaşayış məntəqəsindən olan fransız tacirləri və missionerləri müasir Kanada ərazisində yaşayan hindu tayfaları ilə intensiv əmtəə mübadiləsi aparırdılar.

2.Yeddiillik müharibənin gözlənilməyən nəticələri

Yeddi illik müharibə Şimali Amerikada olan vəziyyətə böyük təsir göstərdi. 1763-cü ildə Paris müqaviləsinə əsasən Luiziana ştatının şərq hissəsi Britaniya müstəmləkə imperiyasına birləşdirildi. İngilis müstəmləkəçiləri bu qazanılan uğurdan məmnun qaldılar. Onlar, qərbdən şərqə və şimaldan cənuba minlərlə kilometrə qədər uzanan nəhəng bir ərazinin iqtisadi inkişafı perspektivi ilə qarşılaşdılar. Xəz ovçuları xüsusilə sevinirdilər, çünki bu vəhşi torpaqlar, ilk növbədə, böyük ov yerləri idi. Lakin, onların sevinci vaxtından əvvəl idi. Metropoliya hökuməti başqa cür qərar verdi. Müstəmləkədə yaşayanlara keçmiş Fransa Luizianasının yeni əldə edilmiş torpaqlarına köçmək qadağan edildi. Britaniya hökuməti özünün bir sıra mülahizələrinin rəhbər tuturdu.

Birincisi, fiskal-vergi-maliyyə nəzarəti mülahizələrinə görə: Yeddiillik müharibə zamanı böyük xərclər çəkdiyindən, bütün növ vergiləri, rüsumları və ödənişləri yüksəltməklə büdcə gəlirlərini artırmaq qərarına gəldi. Əgər müstəmləkə

əhalisi kütləvi şəkildə qitənin içərilərinə, çöllərə, meşələrə köçməyə başlasalar idi, onda onlardan lazımi vergiləri toplamaq həqiqətən çətin olardı.

İkincisi, ingilis hökuməti hindu tayfalarının öz torpaqlarına müstəmləkəçilərin edəcəkləri hücumuna qarşı cavab addımlarından narahat idi. O dövrdə avropalılar Şimali Amerikada, çox seyrək yaşayırdı. XVIII əsrin ortalarında Britaniya müstəmləkələrində bit milyondan bir qədər çox avropalı müstəmləkəçi yaşayırdı. Bunlara, Afrikadan gətirilən və ya Qərbi Hindistanın qul bazarlarından alınan bir neçə yüz min qara qul da əlavə edilməlidir. Üstəlik, müstəmləkəçilər Atlantik okeanının sahil xətti boyunca cəmləşmişdilər. Sahildəki 13 Britaniya müstəmləkələrindən bir neçə dəfə böyük olan keçmiş Fransa müstəmləkələri olan Kanada və Luizianada avropalı müstəmləkəçilər daha da az cəmi 20-40 min nəfər idi. Eyni zamanda hindu tayfalarının sayı bir neçə milyon nəfər idi. Yeddi illik müharibə zamanı fransız müstəmləkəçi hakimiyyəti hindu tayfalarını ingilislərə qarşı mübarizəyə cəlb etdilər, çünki onların öz qüvvələri kifayət qədər deyildi. Ona görə də İngiltərə hökuməti idarə olunmayan və acgöz köçkünlərin hərəkətlərinin hindu tayfalarının üsyanına səbəb ola biləcəyindən çox narahat idi.

Lakin, öz mənfəətlərini düşünən müstəmləkənin ağdərili əhalisi İngiltərə hökumətinin qorxularını nəzərə almadılar. Onlar Britaniya hökumətinin Luiziana ştatının müstəmləkələşdirilməsini qadağan edən qərarını qanuni hüquqlarının kobud şəkildə pozulması kimi qəbul etdilər. Üstəlik də müharibədə, bu hüquqlar uğrunda özləri də qan tökmüşdülər. Virciniyanın plantasiya sahibkarı Corc Vaşinqtonun başçılıq etdiyi müstəmləkəçilərin silahlı dəstələri də Yeddi illik müharibədə Britaniya ordusunun əsgərləri ilə çiyin-çiyinə vuruşmuşdular.

Lakin, məsələ təkcə ticarət maraqları, müstəmləkəçilərin hərisliyi ilə məhdudlaşmırdı. Metropoliya hökumətinin hərəkətlərində onlar, ilk növbədə, tamamilə maarifçilik ruhuna uyğun olaraq, özlərinin təbii və ayrılmaz mülkləri hesab etdikləri hüquq və azadlıqlarına qəsd cəhdini gördülər. Ona görə, müstəmləkə əhalisi İngiltərə hökumətinə öz petisiya və etirazlarını göndərərək, öz tələblərini irəli sürdülər.

Onlar vergiləri və digər dövlət rüsumlarını ödəməyə, ingilis kralının digər təbəələri ilə bərabər dövlət vəzifələrini yerinə yetirməyə hazırdırlar. Amma bir şərtlə ki, onların hüquqları, o cümlədən qanunların hazırlanmasında iştirak etmə hüququ pozulmasın. Əgər, müstəmləkə əhalisi, Britaniya parlamentində öz deputatları tərəfindən təmsil olunsalar, bəyənməsələr belə qanuna tabe olacaqlarını iddia etdilər. Amma məsələ onda idi ki, müstəmləkələrin nümayəndələri orada təmsil olunmayıblar. Parlament müstəmləkələrin hüquq və mənafelərinə toxunan qanunları onların xəbəri və razılığı olmadan qəbul edirlər. Belə nəticə çıxır ki, Londonda müstəmləkə təbəələrinə ikinci

dərəcəli insanlar kimi yanaşaraq, onların fikirlərinə laqeyddirlər. Bu vəziyyət, onların daha çox qəzəblənməsinə səbəb oldu.

3.Gənc Amerika dövlətinin yaranması

1607-ci ildən 1733-cü ilə qədər olan dövrdə Şimali Amerikada 13 ingilis müstəmləkəsi meydana gəlmişdi. Bunlar ticarət kompaniyalarının, özəl şəxslərin yaratdığı yaşayış məntəqələri və ya Plimutdakı kimi, dini icmalar idi. Onların arasında ümumi əlaqələr gücləndikcə, ingilis hakimiyyət orqanlarının onlara sərt nəzarəti bu müstəmləkələrin inkişafını ləngidirdi.

Şimali Amerikada Corc Foks tərəfindən İngiltərədə yaradılmış kvaker dini icmasının üzvləri də məskunlaşmağa başladılar. Bu icma mütləq pasifizm mövqeyindən çıxış edirdi, hətta özünü müdafiə məqsədilə də zorakılığı qətiyyətlə rədd edirdi. Ona görə də onları həm İngiltərədə, həm də Şimali Amerikadakı müstəmləkələrdə təqib edirdilər.

1658-ci ildə Yeni İngiltərə konfederasiyasında birləşmiş müstəmləkələr kvakerləri (məzhəb) öz ərazilərindən çıxarmaq barədə qərar qəbul etdilər. Tabe olmayanları ölüm hökmü gözləyirdi. 1660-cı ildə kvakerlər sektasının qadın nümayəndəsi Meri Dayer əhalinin gözü qarşısında edam edildi.

Amerika müstəmləkəçilərinin Böyük Britaniyanın onlara qarşı qoyduqları vergi siyasətindən və digər məhdudlaşdırıcı tədbirlərindən narazılığı artırdı. Müstəmləkələr bu tədbirlərə qarşı açıq etirazlarını bildirməkdən də çəkinmirdilər. İngilis çayının (quru çayın) Şimali Amerikaya rüsumsuz gətirilməsi xüsusən onları hiddətləndirdi. 1773-cü ilin dekabrında, Yeni İngiltərədə Britaniya əleyhinə həyəcanlar öz yüksək həddinə çatdı, bu, yeni vergilərin qoyulması ilə əlaqədar idi. Bu vaxt "Boston çay dəstgahı" deyilən hadisə baş verdi. Boston sakinləri hindu paltarı geyinərək, Ost-Hind şirkətinin üç gəmisinə basqın etdilər və gəmidəki 342 yeşik çayı dənizə tökdülər. Bu hərəkətlə, onlar çayın rüsumsuz gətirilməsinə etirazlarını bildirirdilər. Rüsumsuz çay gətirilməsi barədə qərarı isə müstəmləkə nümayəndələrinin iştirakı olmadan Britaniya parlamenti qəbul etmişdir.

Ost-Hind şirkətinin mülkiyyətinə qəsd Böyük Britaniyada böyük narazılıq yaratdı. Britaniya hökuməti ziyanın bütünlüklə ödənilməsinə qədər Boston limanını bağlanması barədə qərar qəbul etdi və Yeni İngiltərəyə hərbi gəmilər göndərdi. Bu tədbirlər Şimali Amerika müstəmləkələrinin ümumi müqavimətinin başlanması üçün təkanverici rol oynadı.

1775-ci ilin aprelində isə Yeni İngiltərədə müstəqillik uğrunda müharibə başlandı. İngilis kral qoşunları Bostonun ətraflarına nəzarəti ələ keçirmək istəyəndə müstəmləkələrin silahlı dəstələri döyüşə girdilər. Massaçusetsdəki Leksinqtondakı nizami Britaniya qoşunları ilə amerikan üsyançı dəstələri arasında olan döyüşlə

Şimali Amerikada İstiqlaliyyət uğrunda müharibə başladı. Pis silahlanmalarına baxmayaraq, amerikan dəstələri ingilis kral qoşunları üzərində

qələbə çala bildi. Sonrakı Konkord döyüşündə ingilislər böyük itki verdilər. Müstəmləkələrin silahlı dəstələri ingilislərin olduğu yeri mühasirəyə alıb, onları Boston şəhəri üzərindəki iki yüksəklikdən təhdid etməyə başladılar. Britaniya hissələri Banker-hill təpəsini tuta bildilər, lakin müstəmləkə qüvvələri onlardan götürdükləri toplardan istifadə etdilər. Britaniya hissələri və Bostonun ingilislərin tərəfində olan sakinləri geri çəkildilər.

1775-ci ilin mayında Filadelfiyada İkinci Kontinental konqres keçirildi. Konqresdə Corciyadan başqa, bütün müstəmləkələrin nümayəndələri iştirak edirdi. Onlar birgə tədbirlər görmək barədə razılığa gəlmək qərarına gəldilər. Əvvəlcə müstəmləkə nümayəndələri metropoliya ölkəyə güzəştə getmək ehtimalından çıxış edirdilər. Onlar İngiltərənin verəcəyi güzəştləri ilə kifayətlənməyə hazır idilər.

Metropol hökumətinin müstəmləkələrə münasibətdə mövqeyinin həddindən artıq sərtliyi konstitusiya münaqişəsinin müstəqillik uğrunda müharibəyə çevrilməsinin mühüm səbəbi idi.

Yalnız müstəmləkəçilər III Georq hökumətinin kompromis ideyasını rədd etdiyinə və iradələrini onlara zorla tətbiq etməyə çalışdığına əmin olduqdan sonra, ifrat addıma müraciət etmək qərarına gələrək - metropoliyadan ayrılmaq qərarına gəldilər.

Onlar, Leksinqtondakı və Konkorddakı döyüşlərin təcrübəsini nəzərə alaraq, Corc Vaşinqtonun komandanlığı altında öz ordularını yaratmağı qərara aldılar. Hamı hələ də müstəmləkələrin Britaniya taxt-tacına məxsus olmasını qeyd etsə də, konqressin radikal qanadı müstəmləkələrin müstəqilliyi məsələsini irəli sürdüyünə görə özünə daha çox tərəfdar qazandırdı.

Bundan bir il əvvəl keçirilən birinci Konstitusion Konqresdə isə müstəmləkələrə gətirilən malların bütünlüklə boykot edilməsi barədə razılığa gəlinmişdi.1774-cü ildən Şimali Amerikada yaşayan Britaniya publisisti Tomas Peyn "Sağlam düşüncə" adlı pamfletini nəşr etdirmişdi. Məqalədə xalqın suvereniteti ideyası ifadə olunur və Britaniya müstəmləkələrinin müstəqilliyə can atması əsaslandırılırdı. Kitab metropoliyadan müstəqillik əldə etmək barədə daha aydın səslənən tələblə çıxış edən kütlənin əhvali-ruhiyyəsini əks etdirirdi. Peyn siyasi və dini azadlıq əleyhinə monarxiya Avropasını tərk edənlərin hamısına Şimali Amerikanın sığınacaq verməsini yüksək qiymətləndirirdi. Peynin fikrinə görə, Amerika dünyanın yeganə qitəsidir ki, orada adamlar azad, istismarsız və zorakılıqsız yaşaya bilərlər, lakin həm də yalnız müstəmləkələrin Böyük Britaniyadan ayrılaraq müstəqillik qazanması onların azadlıq hüquqlarına təminat verə bilərdi. Böyük Britaniya, Şimali Amerikadakı üsyan qaldırmış müstəmləkələrə qarşı təkcə siyasi və hərbi metodlarla

deyil, həm də iqtisadi metodlarla mübarizə aparırdı. 1776-cı il martın 1-dən Yeni İngiltərə müstəmləkələrinə qarsı ticarət embarqosu tətbiq edildi.

Britaniya hökuməti bu tədbiri ilə müstəmləkələrin mal idxalına və ixracına mane olmaq məqsədini güdürdü. İstiqlaliyyət müharibəsi 1775-ci ilin aprelində başlanana qədər Şimali Amerika yaşayış məntəqələri Böyük Britaniyanın iqtisadiyyatında böyük rol oynayırdı. Hələ 1740-cı ildə Şimali Amerika ilə ticarətin həcmi 9,5 milyon funt sterlinq təşkil etmişdi, müstəmləkələrin illik ümumi məhsulu isə, demək olar ki, 3,7 milyon funt sterlinq idi.

İngilis silahlı qüvvələri ilə Corc Vaşinqtonun amerikan milis dəstələrindən ibarət qoşunu arasında açıq münaqişə bağladıqdan bir il sonra, amerikan milis dəstələri, ingilislərin, bir neçə ay mühasirədə saxladıqları, şəhərini tutdular. Bu, amerikalıların Leksinqtondan sonra ikinci mühüm hərbi uğuru idi.

Bu qələbələrə baxmayaraq, ingilisləri şəhərdən çıxarmaq elə də asan məsələ deyildi. Bu cəhdi amerikan qoşunlarının Baş komandanı Corc Vaşinqton etdi. İngilislər yaxşı silahlanmış və hazırlıqlı professional qoşunlara malik idi. Onlara bir sıra hindu tayfaları və krala sədaqətli qalan müstəmləkəçilər dəstək göstərirdi. Vaşinqtonun yeni hərbi təlim keçmiş əsgərlərinin döyüş sursatı, pulu və ərzağı çatışmırdı. Yerli milis dəstələri əsasında yaradılmış orduda vahid komandanlığı həyata keçirmək, demək olar ki, mümkün deyildi. Müstəqilliyin elan edilməsindən bir neçə həftə sonra ingilislər Nyu-Yorku tutdular və Uayt-Pleynzdə amerikan qoşunları üzərində qələbə çaldılar.

İkinci Kontinental konqresin Amerikanın Böyük Britaniyadan ayrılması zərurəti haqqında olan qərarından iki gün sora Şimali Amerikanın 12 müstəmləkəsi, əsas müəllifi Tomas Cefferson olan "İstiqlaliyyət Bəyannaməsini" qəbul etdi. On üçüncü müstəmləkə olan Nyu-York bir neçə gündən sonra onlara qoşuldu. Filadelfiyada keçirilən konqresin 55 nümayəndəsinin hamısı dövlət müstəqilliyi haqqında sənədi imzaladı. 13 keçmiş ingilis müstəmləkəsi Amerika Birləşmiş Ştatları dövlətini yaratdılar. Onlar yeni dövlətin müstəqilliyinin tanınmasını tələb etdilər. Bu dövlət "Müharibə aparmaq, sülh bağlamaq, ittifaq münasibətlərinə daxil olmaq, ticarət əlaqələri qurmaq və digər fəaliyyəti həyata keçirmək hüququna və imkanına malikdir, bunlar isə hüquq əsasında müstəqil dövlətlərə məxsusdur". "İstiqlaliyyət Bəyannaməsində" deyilirdi ki, "Biz aşağıdakı həqiqətlərin aydın olduğunu hesab edirik: bütün insanlar bərabər yaranmışlar və onların hamısı öz Yaradanı tərəfindən anadangəlmə və toxunulmaz hüquqlara yiyələndirilmişdir, onlara həyat, azadlıq və xoşbəxtliyə can atmaq daxildir"

1776-cı il iyulun 4-də qəbul edilmiş məşhur İstiqlal Bəyannaməsində deyilirdi ki, "bəşəriyyətin fikirlərinə lazımi hörmət" üsyankar müstəmləkələri İngiltərədən ayrılmağa sövq edən səbəbləri bəyan etməyə məcbur etdi. Amerika Respublikası

bütün insanların bərabərliyi və xalq suverenliyi prinsiplərini elan etdi. Amerika torpağında "Azadlıq ağacı" əkilib və Cefferson deyirdi ki, onun böyüməsi üçün ən azı iyirmi ildən bir vətənpərvərlərin və tiranların qanı ilə suvarılmalıdır.

Amerika Birləşmiş Ştatlarının istiqlaliyyət uğrunda mübarizəsi Avropadan, Vaşinqtonun ordusunda vuruşmağa can atan çox sayda könüllüləri cəlb edirdi. Onların hərbi istedadı və taktiki bilikləri bilməsi Şimali Amerika qoşunlarının uğuruna köməklik edirdi. Almaniyadan keçmiş Prussiya zabiti Fridrix Vilhelm fon Şteyben gəlmişdi. O, Vaşinqton ordusunda general-mayor rütbəsində baş inspektor olmaqla qoşunların öyrədilməsinə və formalaşdırılmasına cavab verirdi. Axı amerikan əsgərləri kifayət qədər təlim keçməmişdilər və təcrübəli komandirlərə malik deyildilər.

Vaşinqtona öz vəsaitləri hesabına kömək göstərmək üçün fransız markizi Mari Jozef de Lafayet və polyak zabiti Tadeuş Kostyuşko da gəlmişdilər. Onlar amerikan qoşunlarında böyük nüfuz qazandılar və Şimali Amerikanın müstəqilliyinin müdafiəsində mühüm rol oynadılar. Lafayet vətəninə qayıtdıqdan sonra fransız inqilabının görkəmli nümayəndələrindən biri oldu. Kostyuşko isə 1794-cü ilə Polşada azadlıq üsyanına başçılıq etdi.

Şimali Amerikanın müstəqilliyi uğrunda mübarizədə Vaşinqton ordusu uğur qazanmağa başladı. 1777-ci ildə İngilislər ağır məğlubiyyətə düçar oldular. General Con Burqoynun ingilislərdən, almanlardan, loyalistlərdən və hindulardan ibarət olan 5 minlik ordusu təslim oldu. Lakin ilk uğurlarından bir az sonra xoş hərbi tale amerikanları yenidən tərk etdi.

Bununla belə, müharibənin gedişində Birləşmiş Ştatlar böyük xarici siyasi müvəffəqiyyət əldə etdilər. ABŞ-ın Fransadakı nümayəndəsi, görkəmli inqilabçı və alim Bencamin Franklin Fransanın Xarici İşlər naziri qraf de Verjenlə birlikdə ittifaq və ticarət haqqında müqavilə imzaladı. Fransa ABŞ-a maliyyə, iqtisadi və hərbi kömək göstərməyi, ABŞ-ın "azadlığını, müstəqilliyini və suverenliyini müdafiə etməyi, Böyük Britaniya Şimali Amerika müstəmləkələrinin müstəqilliyini tanımayana qədər silahı yerə qoymamağı" vəd etdi.

Müqavilə Fransanın ticarətdə və müstəmləkələr uğrunda mübarizədə başlıca rəqibi olan Böyük Britaniya ilə müharibəyə girməsi demək idi. Bundan sonra, 1778-ci ilin fevralında Böyük Britaniya Fransaya müharibə elan etdi. Floridanı almağa can atan İspaniya da Böyük Britaniyaya qarşı müharibəyə girdi, çünki ingilislər Cəbbəllütariqi ona qaytarmaqdan imtina etmişdilər. Müharibə əsasən dənizdə gedirdi. Amerikan qoşunları tərəfdə vuruşan fransızlar üçün Vest-Hinddə öz müstəmləkələrini qorumaq mühüm vəzifə idi. Fransız donanmasının köməyi ilə Corc Vaşinqton Yorktaun yaxınlığında 1781-ci ildə həlledici qələbə çaldı. İngilislər isə

dəniz döyüşündə 1782-ci ildə qələbə çalıb, Vest-Hinddə itirdiyi adaların əksəriyyətini özünə qaytardı.

Yorktaun yaxınlığındakı döyüş şəhərin üç həftəlik mühasirəsindən sonra ingilis qoşunlarının təslim olması ilə başa çatdı. General Çarlz Kornvallisin komandanlığı altında 8.000 ingilis əsgəri 16.000 əsgəri olan müstəmləkəçilərə və onların fransız müttəfiqlərinə qarşı vuruşurdu. Müharibənin belə nəticələnməsi gözlənilməz idi. Kornvallisin qoşunları 1781-ci ilin yayında Virciniyanın bütün ərazisinə nəzarət edirdi. Amerikalılar belə bir şəraitdə yalnız fransızların köməyilə uğur qazana bilərdilər.

Vaşinqton, admiral de Qrassenin fransız donanmasının müstəmləkələrə köməyə gəldiyini biləndən sonra döyüşə başladı. Kornvallisə də ingilis donanması kömək etməli idi. Çesapik körfəzindəki Henri burnu yaxınlığındakı dəniz döyüşündə fransızların qələbəsi onun planını pozdu. İngilislər ümidsiz vəziyyətdə idilər, onlar dənizdən və qurudan mühasirəyə alınmışdılar və axırda təslim oldular. İstiqlaliyyət uğrunda müharibə beləliklə yekunlaşdı, bu müharibə 1775-ci ildən gedirdi. Böyük Britaniya öz məğlubiyyətini etiraf etməli oldu. Londonda hökumət böhranı baş verdi.

Danışıqlar iki il davam etdi və nəhayət, Parisdə 3 sentyabr 1783-cü ildə sülh bağlandı. Eyni vaxtda Versalda bir tərəfdən Böyük Britaniya, digər tərəfdən isə Fransa və İspaniya arasında sülh imzalandı. Danışıqlar nəticəsində Böyük Britaniya Floridanı İspaniyaya verdi, Fransa isə Afrikada Tobaqo və Seneqalı aldı. Böyük Britaniya rəsmi qaydada Amerika Birləşmiş Ştatlarını tanıdı.

Getdikcə köhnə metropoliya ilə yeni müstəqil dövlət arasında münasibətlər normallaşırdı. Lakin 13 müstəmləkənin müstəqillik uğrunda azadlıq mübarizəsi Böyük Britaniyanın mövqelərinə ağır zərbə vurdu. Merkantilizm iqtisadi siyasəti müstəmləkələri metropoliya ilə sıx bağlayırdı və 13 müstəmləkənin qiyamı Avropa dövlətləri arasındakı ziddiyyətlərin müstəmləkələrin ərazisinə keçirilməsinin nəticəsi idi. Ümumiyyətlə götürdükdə isə Böyük Britaniya ilə münaqişə dərin siyasi və iqtisadi səbəblərə malik idi. 4 iyul 1776-cı ildə İstiqlaliyyət Deklarasiyasının, 17 sentyabr 1787-ci ildə isə Amerika Birləşmiş Ştatları Konstitusiyasının qəbul edilməsi həlledici ideya və siyasi əhəmiyyətə malik oldu. Konstitusiyada ilk dəfə insan haqları haqqında maddələr toplumu qanunvericilik qaydasında möhkəmləndi.

Konstitusiyanın mühüm maddələri hakimiyyətlərin icra, qanunvericilik və məhkəmə hakimiyyətinə bölünməsini nizamlayırdı. Onlar bir-birindən asılı olmayan, qarşılıqlı nəzarəti həyata keçirən orqanlarla təmsil olunurdular.

Dövlətin icra hakimiyyətinin başçısı, silahlı qüvvələrin Baş komandanı Prezident idi. O, Konqresin qərarına veto qoymaq hüququna malik idi, Nazirlər Kabinetini təşkil edirdi. Prezidentin idarəçilik müddəti dörd ildən ibarət idi. Qanunvericilik hakimiyyəti Konqresin səlahiyyətində idi, bu, Senatdan və

Nümayəndələr Palatasından ibarət idi. Konqres vergiləri təsdiq edir, ayrı-ayrı ştatlar arasında ticarəti nizamlayır və müharibə elan edirdi. Nümayəndələr Palatasının üzvləri birbaşa (müstəqim) səsvermə ilə iki illiyə seçilirdi, onların sayı bu və ya digər ştatın sakinlərinin sayından asılı idi. Onlar 25 yaşdan cavan olmamalı, daim seçildiyi ştatda yaşamalı və 7 ildən az olmayaraq ABŞ vətəndaşı olmalı idi. Hər ştatdan iki senator seçilirdi və onlar öz vəzifələrini 6 il müddətində icra edirdilər. Hər iki ildən bir senatorların üçdə birinin seçkisi keçirilirdi ki, hakimiyyətin vərəsəliyi təslim edilsin. Senat qanunların qəbul edilməsini öz üzvlərinin üçdə ikisi səs verənə qədər boykot edə bilərdi.

Məhkəmə hakimiyyəti Ali Məhkəmənin səlahiyyətində idi, federal əhəmiyyətli məsələlərdə isə aşağı məhkəmələr və ştat məhkəmələri üçün apelyasiya instansiyası kimi də fəaliyyət göstərirdi.

1789-cu ilin aprelində elektorlar yığıncağı Corc Vaşinqtonu yekdilliklə ABŞ-ın birinci Prezidenti seçdi, o, müstəmləkələr ordusunun Baş komandanı kimi xidmət etmişdi.

Vitse-prezident vəzifəsinə federalist Con Adams seçildi. Vaşinqtonun təklifi ilə xarici siyasət, ordu, maliyyə və ədliyyə məsələləri üzrə departamentlər (nazirliklər) yaradıldı. O, təkid edirdi ki, departament rəhbərlərinin təyin olunması və istefaya göndərilməsi hüququ yalnız Prezidentə məxsus olmalıdır.

§2. XVIII əsrdə Gənc Amerika Respublikasının diplomatiyası

1.Məxfi yazışmalar komitəsi (1775 - 1777)
2.Saylas Dinin missiyası
3.Bencamin Franklin diplomat kimi
4. Amerika müstəmləkələrinə Fransa hökumətinin yardımı
5.Fransa ilə Birləşmiş Ştatlar arasında ittifaq və ticarət müqaviləsinin bağlanması (6 fevral 1778)
6.Fransa və İspaniyanın İngiltərəyə qarşı müharibəyə girməsi (1778-1779)
7. Silahlı bitərəflik (1780)
8.Sülh danışıqları

1.Məxfi yazışmalar komitəsi (1775 - 1777)

ABŞ Respublikasında xarici işlərin aparılması formasının özü az-çox demokratik idi. Onlara Konqresin plenumu rəhbərlik edirdi.

5 noyabr 1774-cü il və 4 iyul 1776-cı il tarixləri arası dövründə (Müstəqillik Bəyannaməsi) Konqres xarici dövlətlərdən kömək istəməkdə tərəddüd edirdi, çünki bu addım, iqtidar hökumətinə xəyanət sayıla bilərdi. Lakin, Konqres yardım üçün

digər Britaniya müstəmləkələrinə, İrlandiya xalqına müraciət etdi, hindularla münasibətləri yaxşılaşdırmağa çalışdı. Xarici İşlər Nazirliyinə müvafiq qurumun rəsmi yaradılması 29 noyabr 1775-ci ildə baş verdi. Sonra, müstəmləkələrin Böyük Britaniya, İrlandiya və dünyanın digər yerlərində olan dostlar ilə məxfi yazışmalar aparmaq üçün Komitə yaradıldı.

2.Saylas Dinin missiyası

3 mart 1776-cı ildə, Məxfi Komitə Qitə konqresinin üzvü Saylas Dini gizli agent kimi Fransaya göndərdi. Ona İngiltərə ilə düşmənçiliyi məlum olan Fransadan kömək almaq tapşırıldı. Hələ 1763-cü ildə, İngiltərə ilə müstəmləkələrin qarşıdurması başlayan zamandan Fransanın Amerikada olan məxfi agentləri XVI Lüdovikə ölkədə gedən hadisələr ilə bağlı məlumatlar çatdırırdılar.

Müstəqillik müharibəsi başlayandan sonra, Fransa hökuməti amerikalılarla əlaqələr qurmaq kimi incə və eyni zamanda çox çətin bir vəzifəni məşhur dramaturq, "Sevilya bərbəri" və "Fiqaronun evliliyi" əsərlərinin müəllifi Bomarşeyə həvalə etdi. Bomarşe, məxfiliyi qorumaq məqsədi ilə, "Rodriqo Qortales və K" adlı qondarma ticarət evi yaratdı. Bomarşenin köməyi ilə Saylas Din Amerikaya könüllü zabitlərin və Fransa silahlarının göndərilməsini təşkil etdi. Gənc fransız hərbçisi markiz Lafayet öz maliyyə vəsaiti hesabına bir gəmi təchiz etdi və 1777-ci ildə özü də bu gəmi ilə Amerikaya getdi. Bu gəmiyə "Qələbə" (fr."La Victoire")adı verilmişdi.

Üsyançı müstəmləkələrin səmimi dostu olan Bomarşe öz gizli missiyasını çox böyük həvəslə yerinə yetirirdi. O, Konqresə yazırdı: "Cənablar, sizin nümayəndələriniz məndə əsl dost taparlar, mənim evimdə - təhlükəsiz sığınacaq, mənim sandığımda - pul, həm də öz vəzifələrini yerinə yetirmələri üçün, rəsmi və ya gizli xarakter daşısa da, hərtərəfli əməkdaşlıq tapacaqlar".

Saylas Din Parisə gəlib Bomarşe ilə əlaqə saxladıqda, o, amerikalıya bütün məsələlər barədə məlumat verdi, lakin ən vacib məsələni demədi ki, o, Bomarşe, Fransa hökumətinin qeyri-rəsmi agentidir. Sonradan məlum oldu ki, ehtiyat tədbirinin görülməsi çox vacib imiş. Belə ki, Din bütün məsələlər barədə Konqresin Fransadakı məxfi agenti olan amerikalı Edvard Bankrofta danışdı. Lakin, sonradan məlum oldu ki, Bankroft eyni zamanda, ingilis hökumətinin məxfi məlumatlar verən casusudur.

Bomarşe və Saylas Dinin köməyi ilə Amerika müstəmləkələrinin aldığı kömək çox əhəmiyyətli idi. "Rodriqo Qortales & K" adından fəaliyyət göstərən Saylas Din 20.000 nəfər üçün paltar, 30.000 tüfəng, 100 ton barıt və 200 top əldə etdi. "Rodriqo Qortales & K" firması 1776-1783-cü illərdə mövcud oldu və bu müddət ərzində 21 milyon livrdən çox pul xərclədi. Bu pulun nə qədərinin Fransadan, nə qədərinin

Konqresin Amerikadan göndərdiyi malların satışı hesabına alındığını söyləmək çətindir. Din daha 300 min dollar İspaniya hökumətindən almışdı.

Saylas Dinin fəaliyyətinin əsl mahiyyətini yaxşı başa düşən Britaniya Xarici İşlər Nazirliyi bu məsələyə öz etirazını bildirdi və "Rodriqo Qortales & K" firmasının icarəyə götürdüyü gəmiləri ələ keçirməyə başladı.

3.Bencamin Franklin diplomat kimi

Müstəqillik Bəyannaməsi elan edildikdən sonra ABŞ-ın rəsmi nümayəndəsini Fransaya göndərmək imkanı yarandı. Səfirin uğurlu seçimi böyük əhəmiyyət kəsb edirdi. Amerikalılar Avropada çox az tanınırdılar, hətta orada Vaşinqtonun adı da təhrif olunaraq, düzgün tələffüz olunmurdu. Lakin, gənc Amerika Respublikası Avropanın bütün qabaqcıl ictimaiyyəti arasında məşhur olan belə bir səfir tapmağı bacardı.

Bu vaxta qədər Avropada şöhrət qazanmış yeganə amerikalı Parisə səfir təyin edildi, hərtərəfli istedada malik, uzun illər İngiltərədə müstəmləkələrin nümayəndəsi olmuş, Fransada da böyük şəxsi əlaqələri olan bu şəxs Bencamin Franklin idi. O, həqiqətən də, dövrünün ən mütərəqqi adamlarından biri hesab olunurdu.

Bencamin (Veniamin) Franklin (17 yanvar 1706 Boston – 17 aprel 1790, Filadelfiya) — ABŞ-ın banilərindən biri, yüksək intellektə sahib olmaqla yazıçı, satirist, siyasi nəzəriyyəçi, siyasətçi, poçtmeyster, alim, ixtiraçı, dövlət xadimi, diplomat və filosof, bir çox peşə, bilik sahibi və ölçüyəgəlməz müdrik adam idi. Zamanının öndə gələn intellektuallarından sayılan Franklin, Amerika Birləşmiş Ştatlarının qurucularından biri, Birləşmiş Ştatların müstəqillik bəyannaməsinin müəllifi və imzaçısıdır. Millətin qurucu atalarından biri sayılır. Bundan əlavə, "XVIII əsrin ilk vətəndaşı" fəxri adını alıbdır. Elmdə elektrik və optika sahəsindəki tədqiqatları ilə tanınır.

Həyatlarında intellektual maraqları əhəmiyyətsiz rol oynayan bir çox həmvətənlərindən fərqli olaraq, Franklin görkəmli mütəfəkkir, alim və ictimai xadim idi. O, elektrik enerjisi sahəsində ən mühüm kəşfləri etmiş və gəmiqayırma nəzəriyyəsinin müəllifi olmuşdur. Onun siyasi iqtisad sahəsində biliyi sonralar Marks tərəfindən yüksək qiymətləndirilmişdir. Franklin Britaniya Elmi Kral Cəmiyyətinin üzvü seçilmişdi və elmi işlərinə görə 1753-cü ildə Kopli qızıl medalını almışdır.

Kopli medalı (ing. Copley medal) — elm adamları üçün İngiltərədə yaranmış London Kral cəmiyyəti tərəfindən verilən elmi mükafatdır. Bu mükafat müasir dövrdə verilən dünyanın ən qədim medalı kimi tanınır. Kopli medalı ilk dəfə 1731-ci ildə Stiven Qreyə verilib və bu günə qədər hər il bu davam etdirilir. Medal öz adını varlı bir torpaq sahibi və London Kral cəmiyyətinin üzvü olan ser Qodfri Koplidən alıb. Medal ilə birlikdə laureata əvvəllər 100 funt, müasir dövrdə 25 min funt sterlinq pul mükafatı da verilir. Bu medalı qazanan elm adamları arasında Çarlz Darvin, Albert Eynşteyn və 61 Nobel mükafatı qazanan laureatlar da var.

1775-ci ildə Şimali Amerika müstəmləkələrinin İngiltərə ilə müharibəsi başladıqdan sonra Franklin İngiltərədə Lordlar Palatasında Konqresin nümayəndəsi kimi çıxış etdi. Barışıq şərti kimi Franklin müstəmləkələrin 17 tələbini irəli sürdü. Lordlar qəzəblənərək, çılğın halda Franklinin üstünə hücum edəndə, Lord Çatam onun müdafiəsinə qalxdı. O, bəyan etdi ki, "Sizin qarşınızda gördüyünüz bu adam təkcə ingilis millətinə deyil, bütün bəşəriyyətə şərəf verir". Franklin Lordların ittihamlarına sakit şəkildə cavab verdi, lakin bu görüşlə bağlı Konqresə yazdığı məktubda qəzəbini bildirdi. "Onlara baxanda düşündüm ki, onlar o qədər də ağıllı deyillər ki, donuz sürüsünü də idarə edə bilsinlər. Nəsli qanunvericilər! Daha yaxşı olardı ki, Almaniya universitetlərində olduğu kimi, riyaziyyat üzrə nəsli professorlar olsun. Ən azından, onların hərəkətləri, bu cür fəlakətli nəticələrə gətirib çıxarmazdı. Aşağı, seçilmiş parlament heç də yuxarıdan yaxşı deyil.. ".

1767-ci ildə fərdi şəxs kimi ilk dəfə Fransaya gələn Franklin sadə əyalət kvakerin (məzhəb- hərfi mənası "titrəyənlər"(mənəvi)- "Dostların dînî dərnəyi") sadə kostyumunu dəbli bir kaftanla dəyişdirdi və hətta pudralı parik də taxdı. Sonradan o yazırdı: "Sadəcə gözünüzün qarşısına gətirin, balaca hörüklər və açıq qalmış qulaqlarla necə qəribə görünürdüm". Franklin ilk səfərində Paris modasına tabe olmuşdu, lakin 1776-cı ildə Amerika Respublikasının səfiri kimi ikinci dəfə Fransaya gələndə o, sadə qəhvəyi kaftanda gəlir, saçlarını səliqə ilə daramış, parikini dələ xəzindən hazırlanmış papaq əvəz etmişdi. Lakin, fransız cəmiyyətinin qabaqcıl dairələrinin Amerika demokratiyasına rəğbəti o qədər güclü idi ki, Franklinin şöhrəti o qədər böyük idi ki, o, nəinki ekssentrikliyinə görə bağışlandı, hətta onun bu geyimi dəbə çevrildi. Bərbərlər "la Franklin" saç düzümünü icad etdilər, Parisli modabazlar pariklərini çıxarıb özləri üçün belə bir saç düzümü düzəltdirirdilər. Franklinin büstləri və portretləri vitrinləri və kafelərin bufetlərini bəzəyirdi. Franklinin şəkilləri üzüklərə, medalyonlara, əsalara və tütün qutularına çəkilirdi. Əgər, Parisə ilk dəfə gələn Franklin Paris modasına tabe oldusa, ikinci səfərində onun ilhamvericisi oldu.

Franklin yalnız Fransa hökuməti ilə deyil, həm də diplomatik korpusla yaxşı münasibətlər qurmuşdu. O, bir tərəfdən Fransa ilə İngiltərə arasındakı köhnə rəqabətindən, digər tərəfdən isə Fransa cəmiyyətinin qabaqcıl hissələrinin Amerika Respublikasına rəğbətindən istifadə edərək, Fransanı İngiltərə ilə müharibəyə cəlb etmək üçün XVI Lüdovikə və saraya təzyiq göstərirdi.

Franklinin Fransaya səfir kimi göndərilməsi İngiltərədə layiqincə qiymətləndirildi. Lord Rokinqem bəyan etdi ki, Franklinin Parisdə peyda olması Böyük Britaniya üçün, bu yaxınlarda Nyu Yorkun ingilislər tərəfindən ələ keçirilməsi nəticəsində müstəmləkələrə dəyən zərbədən daha ciddidir.

Böyük Britaniyanın Parisdəki səfiri Lord Stormont "Amerika üsyançılarının başçısının" Fransaya gəlməsinə icazə verdikləri təqdirdə, Parisi tərk edəcəyi ilə

hədələdi. Bu çətin vəziyyətdən Fransanın Xarici İşlər naziri Verjen çıxış yolunu belə tapdı: o cavab verdi ki, Nanta, Franklinin Parisə girişini qadağan edən məktub göndəriblər, lakin məktub ünvana çatmayıb. Lakin, indi Franklin artıq Parisdə olduğu üçün, onu ölkədən qovmaq "qalmaqallı qonaqsevməzlik" və sivil xalqların adət-ənənələrini pozmaq demək olardı. Beləliklə, Parisə gələn Franklin çox böyük coşqunluqla qarşılandı.

Fransaya gəlməyindən danışan Franklin qeyd edirdi ki, o, "öz şəxsində Avropada Amerika hökumətini təmsil edib və o, yalnız səfir kimi deyil, həm də hərbi və dəniz idarələrinin, xəzinədarlığın, məhkəmənin, əsirlərə kömək və onları dəyişdirmək üçün yardım bürosunun nümayəndəsi, konsul, həmçinin Amerikadan gələn malların ticarəti ilə məşğul olan tacir kimi fəaliyyət göstərməyə məcbur olub".

Konqres Franklin ilə bir yerdə, onunla eyni səlahiyyətlərə malik daha iki nəfəri– hamıya həddən artıq inanan Saylas Dini və Nyu-York əyalətinin baş hakimi Con Ceyi də Parisə göndərmişdi. Nümayəndə heyətinin bu üç əsas üzvü ilə yanaşı, onun tərkibinə Konqres üzvü, Virciniyadan olan nümayəndə, görkəmli publisist Artur Li və Britaniya hökumətinin məxfi casusu Eduard Bankroft da daxil idi.

4. Amerika müstəmləkələrinə Fransa hökumətinin yardımı

Bəzi Avropa ölkələri, ilk növbədə Fransa, müstəmləkələrin tərəfini saxladı. 1763-cü ildə Paris sülhünün imzalanmasından dərhal sonra, XV Lüdovik hökumətində Hərbi və Dəniz nazirləri, eləcə də Xarici İşlər naziri vəzifələrini icra edən hersoq de Şuazel əvəz çıxmaq üçün hazırlıq görməyə başladı. Hökumət donanmanın bərpası və möhkəmləndirilməsi, quru ordusunun döyüş qabiliyyətinin artırılması, dövlət maliyyəsinin gücləndirilməsi üçün tədbirlər gördü. Gizli casuslar Böyük Britaniyaya və onun müstəmləkələrinə göndərildi, onların məlumatları bu ölkənin zəif yerlərini aşkar etməyə kömək etmiş oldu.

1774-cü ildə, XVI Lüdovik tərəfindən yeni Xarici İşlər naziri təyin edilmiş Şarl Qravye qraf de Verjen öz sələfinin siyasətini davam etdirdi. Şimali Amerikadakı Britaniya müstəmləkələri ilə metropol ölkə arasında açıq qarşıdurma mərhələsinin başlaması nəticəsində o anladı ki, tarix Fransaya köhnə düşmənlə hesablaşmaq üçün müstəsna əlverişli imkan verib. Fransa hökumətini Böyük Britaniya və onun müstəmləkələri arasında münaqişəyə müdaxilə etməyə sövq edən səbəblər sırf əməli idi. Söhbət, Fransanın Amerikada və dünyanın digər yerlərində itirdiyi müstəmləkə mülklərinin heç olmasa bir hissəsini geri qaytarmaqdan gedirdi. Bu, həm iki ölkə arasında olan münasibətlərdə, həm də bütün Avropada güc nisbətinin bərpa olunmasına kömək edə bilərdi. Avropada, Fransa ilə demək olar ki, hesablaşmağı dayandırmışdılar. Belə ki, onun fikrini soruşmadan, Fransanın köhnə dostları və

müttəfiqləri olan Polşa və Türkiyənin ərazilərini canfəşanlıqla bölməyə başlamışdılar.

Son nəticədə, əsas məsələ, həm Fransa monarxiyasının və həm də orada hökmranlıq edən Burbon sülaləsinin beynəlxalq nüfuzunu bərpa etmək idi. Tarixdə, bu formalı müharibə məqsədlərinin cəmiyyətdə ruh yüksəkliyi oyatmasına tez-tez rast gəlinmir. Lakin, bu dəfə Fransanın maarifçi insanları kralın ətrafında birləşərək onun döyüşmək niyyətlərini dəstəklədilər. İctimai rəy Amerika üsyançılarına rəğbət bəsləyirdi, çünki onlar öz hüquq və azadlıqlarını, zülmkar hökumətə qarşı çıxaraq, öz vətənlərini müdafiə edirdilər. Dramaturq P.Bömarşenin simasında fransız maarifçi dairələri üsyançılara kömək etməsi üçün birbaşa XVI Lüdovikə müraciət edirdilər.

23 dekabr 1776-cı ildə, Bencamin Franklin, Saylas Din və Artur Li Amerika tarixində ilk dəfə rəsmi diplomatik nota ilə Xarici İşlər naziri Verjenə müraciət etdilər. Bu notada və danışıqlarda amerikalılar, Fransaya Amerika ilə ticarət və müttəfiqlik müqaviləsi bağlamağı təklif etdilər və İngilis kreyserləri tərəfindən mühasirəyə alınan "Rodriqo Qortales & K" firmasının gəmilərini xilas etmək üçün səkkiz döyüş gəmilərinin göndərilməsini xahiş etdilər. Fransa tərəfi, Böyük Britaniyanı vaxtından əvvəl müharibəyə təhrik etmək istəməyərək, hərbi gəmilərin icarəsi və birbaşa silah tədarükü tələbini cavabsız buraxdı. Lakin, Verjen gizli kömək vəd etdi. Doğrudan da, il ərzində Fransa hökuməti amerikalılara hədiyyə olaraq 2 milyon livr verdi, əlavə olaraq daha 1 milyon livr borc verdi. Bu da, onlara özəl olaraq hərbi təchizat alışlarını artırmağa imkan verdi. Bununla belə, əsas məsələni, ittifaq haqqında xahişi Verjen hələlik nəzərdən keçirməkdən imtina etdi.

Franklinin əsas vəzifəsi Fransanı ABŞ-la müttəfiqlik müqaviləsi imzalamağa razı salmaq idi. Bu məqsədlə o, həm geniş ictimai dairələrdə, həm də sarayda fəal təbliğata başladı. O, Fransanın ictimai rəyini asanlıqla öz üzərinə çəkə bildi, lakin saray bu addımın vaxtında atılmasına şübhə edərək tərəddüd edirdi.

İngilislərə nifrət edən Fransa hökuməti amerikalılara maliyyə yardımı göstərsə də, yenə də amerikalıları "qiyamçı" hesab edirdi. Amerika müstəmləkələrinə kömək etmək istəyən və onların dostu olan Bomarşe məktubla XVI Lüdovikə müraciət etdi. O, kralı əmin edirdi ki, amerikalılara kömək yalnız öz qüvvələrini ingilislərlə bərabərləşdirmək və müharibəni qeyri-müəyyən müddətə uzatmaq üçün veriləcək. Bu fikir XVI Lüdovikə məntiqli görünürdü. Lakin hətta "qiyamçılara" belə dəstəyin verilməsi yenə də kralı narahat edirdi. O hesab edirdi ki, amerikalılara kömək etməyə razılıq verməklə böyük səhv edir.

Yalnız müharibənin tezliklə Birləşmiş Ştatlar və Böyük Britaniya arasında sülh razılaşması ilə başa çatacağı və bununla da Fransanın öz rəqibi ilə hesabı çürütmək fürsətini əldən verəcəyi qorxusu fransız sarayını öz tərəddüdlərini kənara atmağa

məcbur etdi. Kralın bu tərəddüdlərinə baxmayaraq, Fransa "qiyamçılara" kömək göstərməkdə davam edirdi.

5.Fransa ilə Birləşmiş Ştatlar arasında müttəfiqlik və ticarət müqaviləsinin bağlanması (6 fevral 1778)

Bu zaman, müstəmləkələrin vəziyyəti fəlakətli hala yaxınlaşmışdı. 1777-ci ilin avqustunda Amerika Respublikasının səfirləri Fransa hökumətinə bəyanat təqdim etdilər. Orada deyilirdi ki, Fransa daha çox yardım göstərə bilməsə, amerikalı müstəmləkələr İngiltərə ilə sülh bağlamağa məcbur olacaqlar. Fransada başa düşürdülər ki, bu təhlükə olduqca realdır. Çünki, həm Amerikada, həm də İngiltərədə müharibənin bitməsinin tərəfdarları var idi. Lakin, buna baxmayaraq, Verjen cavab verməyə tələsmirdi. Ona görə, Konqres İngiltərə ilə danışıqlara başladı.

Lakin ingilis qoşunlarının uğurlu əməliyyatları səbəbindən bu danışıqlar Britaniya tərəfindən kəsildi. 1777-ci ilin dekabrında, Amerikadan Parisə amerikalıların Saratoqa yaxınlığında, ingilis generalı Burqoyn üzərində böyük qələbəsi və 6 min nəfərlik ordu ilə əsir götürülməsi haqqında xəbər gəldi. Lakin bu qələbədən sonra belə, Fransa hökuməti Amerikaya daha ciddi dəstək vermək barədə qərar vermədi. Verjen ABŞ və İngiltərə arasında yenilənmiş sülh danışıqlarının gedişinə böyük diqqət verirdi.

Bu danışıqların nəticəsi haqqında məlumat almaq üçün o, Franklin və Dinin yaşadığı evin sahibindən casus kimi istifadə etdi. Bu casus gizli şəkildə onların danışıqlarını dinləyir və lazımı məlumatları toplayırdı. O, Verjenə danışıqların tam sürətlə getdiyini və tezliklə sülhün imzalanacağını bildirdi. Saratoqadakı qələbə və casusun hesabatları Verjen və XVI Lüdoviki dərhal hərəkətə keçməli olduqlarına inandırdı. Bir qədər də gecikmə İngiltərənin qələbəsini təmin edə bilər və Fransanın Vest-Hind müstəmləkələrini tamamilə itirməsi təhlükəsini yaradırdı. Franklinlə sıx əlaqədə olan Bomarşe, XVI Lüdoviki Birləşmiş Ştatlarla ittifaqın bağlanmasının zəruriliyini qətiyyətlə əmin etdi.

1777-ci il dekabrın 6-da Verjen elan etdi ki, Fransa hökuməti ittifaq üçün danışıqlara başlamaq qərarına gəlib. Verjen bu addımla müstəmləkələrlə İngiltərə arasındakı müharibəni uzatmaq istəyirdi ki, hər iki tərəfi daha çox tükənsinlər. İttifaq bağlamaq vədi alan ABŞ İngiltərə ilə danışıqları dayandırdı. Lakin, öz istədiyi nəticəyə nail olan Verjen yenə tələsməyi dayandırdı. O, Franklinə müttəfiqlik müqaviləsinin yalnız İspaniyanın ona qoşulmasından sonra bağlanacağını bildirdi.

Lakin, İspaniya hökumətindən heç bir cavab alına bilməzdi, çünki, Verjen Madriddən bu məsələ ilə bağlı heç bir rəy istəməmişdi. Nəhayət, 6 fevral 1778-ci ildə Franklin Fransa ilə iki son dərəcə mühüm sənəd -ittifaq və ticarət haqqında müqavilə imzaladı.

Müqaviləni Fransa adından Konrad-Aleksandr Jerar, ABŞ adından Bencamin Franklin, Saylas Din və Artur Li imzaladı. Müqavilənin şərtlərinə görə, Fransa "ABŞ-ın azadlığını, suverenliyini və müstəqilliyini" müdafiə edəcəyini və İngiltərənin Birləşmiş Ştatların müstəqilliyini tanıyana qədər silahı yerə qoymayacağını öhdəsinə götürdü

Birinci müqavilə Fransanın ABŞ-ın müstəqil və suveren dövlət kimi tanınmasını ehtiva edirdi. İkinci müqaviləyə görə, Fransa ilə Böyük Britaniya arasında müharibə olarsa, imzalayanlar bir-birlərinə "şərait tələb etdiyi kimi xoş xidmətlərlə, məsləhətlərlə və hərbi qüvvə ilə" kömək etməli idilər. Müqavilə ittifaqın məqsədini müəyyən etdi: ABŞ-ın azadlığına, suverenliyinə və müstəqilliyinə nail olmaq. Fransanın İngiltərə ilə müharibəyə girməsini nəzərdə tutan ittifaq müqaviləsi hər iki tərəfin tam bərabərliyi əsasında tərtib edildi. Bu müqaviləyə əsasən, Fransa ABŞ-ın müstəqilliyinə təminat verirdi.

Fransa 1763-cü il müqaviləsi ilə, Böyük Britaniyaya məxsus olan və ya bu müqaviləyə əsasən ona məxsus olan Şimali Amerika qitəsində yerləşən bütün ərazilərindən imtina etmişdi. Lakin, Fransanın gələcək müharibədə ələ keçirə biləcəyi Böyük Britaniyanın ada mülkləri onun olmalı idi. Əlavə müddəalar, nə Fransanın, nə də ABŞ-ın münaqişə zamanı göstərdikləri xidmətlərə görə kompensasiya tələbi irəli sürməyəcəklərini və tərəflərdən heç birinin, Britaniya ilə sülh müqaviləsi imzalanana və ABŞ-ın müstəqilliyinin Böyük Britaniya tərəfindən tanınacağına qədər, digər ölkənin razılığı olmadan hərbi əməliyyatları dayandırmayacaqlarını təmin edirdi. Eyni zamanda, Amerika Birləşmiş Ştatları Fransanın Amerikada olan mülklərinə təminat verirdi. Birləşmiş Ştatlar, Amerika qitəsindəki Britaniya mülklərinə, Bermud adalarına və Fransa isə - İngiltərənin Vest-Hind mülklərinə iddia etmək hüququnu aldı.

1778-ci ildə Fransa ilə gizli ittifaq müqaviləsinin şərtlərini açıqlamaqda günahlandırılan Saylas Dinin yerinə Amerikadan Con Adams göndərildi.

Amerika Konqresi digər Avropa dövlətləri ilə də diplomatik əlaqələr qurmaq üçün səylər göstərməyə başladı.

Diplomatiyanın ümumi qəbul edilmiş qaydalarına görə, hər hansı bir ölkəyə səfir yalnız onun hökumətinin razılığı ilə təyin oluna bilərdi. Con Adams Konqresə bu qaydalara məhəl qoymamağı təklif etdi. O, ABŞ-ın münasibətlər qurmaq istədiyi bütün ölkələrə həmin ölkələrin hökumətlərinin razılığı olmadan səfirlər təyin etməyi məsləhət gördü. Franklin etiraz etdi. Amma o, səfirlik nümayəndəliyinin üç üzvündən biri idi və o, səs çoxluğuna tabe olmaq məcburiyyətində qaldı.

Artur Li Madridə göndərildi - İspaniya hökuməti onu yarı yolda saxlayaraq geri qaytardı. Onda o, Berlinə təyin olundu, ora getdi, lakin II Fridrix tərəfindən qəbul edilmədi. Onun qardaşı Uilyam Li Berlinə və Vyanaya göndərildi, lakin bu

paytaxtların heç birinə gedə bilmədi. O, Parisdə qalaraq, vaxtını Franklinlə mübahisələrdə keçirməyə başladı. Adams Haaqaya göndərildi, lakin Hollandiya tərəfindən ABŞ-ın tanınmasına nail ola bilmədi, bir qədər sonra Frensis Dan II Yekaterinanın sarayında ölkəsini tanıtmağa çalışsa da, heç bir nəticə əldə edə bilmədi . Belə ki, Avropa dövlətləri Amerikanın missiyalarını qəbul etmək fikrində deyildilər. Çünki, onlar Amerika müstəmləkələri qiyamçı kimi qəbul edir və müstəmləkələrinin taleyi üçün narahat olurdular. Avropa monarxlarının heç biri ABŞ-ın istiqlaliyyətini tanımaq istəmirdilər.

6.Fransa və İspaniyanın İngiltərəyə qarşı müharibəyə girməsi (1778-1779)

1778-ci il müqaviləsi bağlandıqdan sonra ingilislərin dənizdə hökmranlığı zəiflədi. İngiltərəyə qarşı iki güclü dəniz dövləti - Fransa və İspaniya çıxdı. Buna baxmayaraq, İngiltərə dənizlərdə hökmranlıq iddiasında davam edərək, ona qarşı müharibə aparan ölkələrlə ticarət aparan bitərəf dövlətlərin gəmilərini ələ keçirərək, öz düşmənlərinin ticarət əlaqələrini pozmaq fikrinə düşdü.

1778-ci ilin iyununda Britaniya donanmasına Fransaya qarşı hərbi əməliyyatlara başlamaq əmri verildikdən sonra, iki dövlət arasında müharibə başladı. 1761-ci il tarixli "ailə paktı" ilə, Fransa ilə bağlı olan İspaniya da tədricən bu münaqişəyə cəlb olundu. Çünki İspaniyada, Fransa kralı ilə qohum olan Burbon sülaləsi hökmranlıq edirdi. 1779-cu ildə bağlanmış gizli razılaşmaya əsasən, Fransa Cəbəllütariqin İspaniyaya qaytarılmasını, eləcə də onun Minorka, Florida və Yamayka ilə bağlı iddialarını dəstəkləməyi öhdəsinə götürdü. Niderland, Böyük Britaniyanın Şimali Amerikada müharibənin başlaması bəhanəsi ilə, bitərəf ölkələrin dəniz ticarətini sıxışdırmaq siyasətindən qəzəblənərək anti-Britaniya koalisiyasına qoşuldu (Niderland o dövrdə hələ də dəniz nəqliyyatında əsas daşıyıcı idi). 1780-ci ildə Fransa ABŞ-a quru qoşunlarını, növbəti il isə hərbi dəniz donanmasını göndərdi.

Fransa monarxiyası üçün ABŞ-la ittifaqa girmək riskli addım idi. Axı, sülalə hüququ baxımından bu qarşıdurma, qiyamçılarla qanuni hakimiyyət arasında gedən bir müharibə idi. Fransız kralı bütün gücü və vasitələri ilə öz "qardaşı" ingilis kralının köməyinə getmək əvəzinə qiyamçıların tərəfini tutdu. Bu addımı ilə, o, qanuni hakimiyyətə qarşı çıxan qiyama haqq qazandırmış olurdu. Amma Fransa əvvəllərdə, beynəlxalq meydanda qeyri-standart davranışı ilə seçilirdi, öz sülalə və ya dövlət maraqlarını həmişə ön plana çəkirdi. O, XVI əsrdə müsəlman Türkiyəsinə, XVII əsrdə protestant alman dövlətlərinə arxalanaraq, Habsburqlara qarşı mübarizə aparmışdı.

Belə ki, Fransanın üsyançılara dəstək verməsi, bütövlükdə fransız siyasətçilərinin və diplomatlarının praqmatist fikirlərinə uyğun gəlirdi. Lakin, bu dəfə Fransa monarxiyası həqiqətən də odla oynayırdı. Amerika üsyançılarının metropol ölkə

üzərində qələbəsindən bir neçə il sonra, Fransanın özündə də kral hakimiyyətinə qarşı böyük bir inqilab baş verdi. Burbonların, Avropa monarxlarına ünvanlanan kömək yalvarışları demək olar ki, heç bir nəticə vermədi.

7. Silahlı bitərəflik (1780)

1779-cu ildə III Georq, II Yekaterinaya həyəcan dolu məzmuna malik bir məktubla müraciət etdi:

"Mənim Bacım!.. Sizin istedadınızın böyüklüyünə, hisslərinizin nəcibliyinə və baxışlarınızın genişliyinə heyranam. Cənubi Avropada olan hazırkı vəziyyət bu keyfiyyətləri sərfəli şəkildə genişləndirmək və səltənətinizin şöhrətini artırmaq üçün yeni bir fürsət təqdim edir. Düşmənlərimin niyyətləri, hətta diqqətlə niqab taxsalar da, Əlahəzrətin nüfuzlu baxışlarından yayına bilməzlər. Amma mənim düşmənlərim öz niyyətlərini heç də gizlətməyə çalışmırlar, onları hər kəsə həvəslə açırlar, məhz bütün Avropanı alt-üst etməyə hesablanmış layihələri və istəkləri ilə öyünürlər. Əgər belə böhranlı məqamda Əlahəzrət laqeyd tamaşaçı kimi qalsa, onların layihələri gerçəkləşə bilər. Dəniz qüvvələrinizin hətta qismən olsa da nümayişi, Avropanın əmin-amanlığını bərpa edə və gücləndirə bilər, mənə qarşı təşkil edilmiş ittifaqı dağıda bilər və bu ittifaqın dağıtmağa çalışdığı tarazlıq sistemini möhkəmləndirə bilər. Mən sülhü arzu edirəm və həmişə arzulayacağam, lakin mənim hüquqlarımın, dostlarımın və müttəfiqlərimin bizimlə qırılmaz şəkildə bağlı maraqlarının qorunmasını təmin edən, tacımın ləyaqətinə uyğun şərtlər əsasında.

Mənim əziz Bacım, İmperatriça Əlahəzrətləri, həmişə, sizin səmimi sevgi dolu qardaşınız olaraq qalan Georq.

Bütün Rusiyanın Hökmdar İmperatriçasına."

Əslində, III Georqun vəziyyətinin çətin olduğuna əmin olan və ehtimal olunduğu kimi, Rusiyanın Haaqada olan səfiri Qolitsının Hollandiyada anti-ingilis əhval-ruhiyyəsinin artması ilə bağlı hesabatlarının təsiri altında, II Yekaterina donanmanın hərbi dəniz nümayişini III Georqun lehinə deyil, əleyhinə həyata keçirdi. Rusiya, ingilis donanmasının onların ticarət gəmilərinə hücumlarına hərbi yol ilə cavab vermək üçün şimal bitərəf ölkələrinin birləşməsi təşəbbüsü ilə çıxış etdi. Rusiyanın bu məsələ ilə bağlı siyasəti Silahlı bitərəflik adlanırdı. Silahlı bitərəflik siyasəti amerikalı üsyançıları dəstəkləmək məqsədi daşımırdı. Onu həyata keçirən dövlətlər öz ticarət və digər maraqlarını müdafiə edirdilər.

Avropa dövlətlərinin əksəriyyəti Şimali Amerikada müstəqillik uğrunda gedən müharibəyə münasibətdə bitərəf mövqe tuturdular. Onlar öz dövlət və ticarət maraqlarını üstün tuturdular. Üsyançılara rəğbət bəsləməsələr də, onların fikrincə, Yeddiillik müharibə nəticəsində hədsiz dərəcədə güclənmiş Böyük Britaniyanın beynəlxalq mövqelərinin zəiflətməsi onlar üçün daha müqabil olardı. Amma bu ölkə

ilə ticarətin inkişafında maraqlı olduqları üçün onunla münasibətləri korlamaq da istəmirdilər.

Lakin, Böyük Britaniyanın elan etdiyi Amerika limanlarının dəniz blokadası, hərbi əməliyyatların Avropa sahillərini yuyan dənizlərə yayılması təhlükəsini də yaratdı. Britaniya silahlı gəmiləri (kaperlər) Avropa limanları arasında mülki yük daşıyan amerikan və bitərəf ticarət gəmilərini ovlamağa başladılar. Ona görə də, 1780-ci ildə, Rusiya gəmiçiliyin azad hərəkət azadlığını coşqunluqla müdafiə etdi, dəniz nəqliyyatı məsələsinə müdaxilə edənlərə qarşı silahlı güc tətbiq etməklə hədələdi.

Silahlı bitərəflik bəyannaməsi İngiltərənin öz düşmənlərinin fəaliyyətlərinin qarşısını almaq cəhdinə ağır zərbə vurdu. İngiltərə artıq Amerika müstəmləkələri, Fransa və İspaniya ilə müharibə vəziyyətində idi. İndi də bir sıra dövlətlər, əgər, İngiltərə onların ticarətini pozmağa davam edərdisə, onunla müharibəyə etməyə hazır idi. Şimal ölkələrinə - Rusiya, Hollandiya, Danimarka və İsveçə, Prussiya, Avstriya (1781), Portuqaliya (1782) və İki Siciliya Krallığı (1783) da qoşuldu. 1782-ci ildə silahlı bitərəfliyin ən böyük iştirakçılarından biri olan Niderlandın güclü hərbi dəniz qüvvələri İngiltərəyə qarşı müharibəyə girdi. İndi İngiltərənin dənizdəki hökmranlığı sözsüz ki, tamamilə sarsıldı.

Silahlı bitərəflik siyasətinin nəticələri Birləşmiş Ştatlar üçün faydalı oldu, çünki Böyük Britaniya bitərəf bayraqlarla üzən ticarət gəmilərinə Amerika limanlarını açmağa məcbur oldu.

Ancaq, Amerika qitəsinin özündə ingilislər qalib gəlirdi. İngilis qoşunları Cənubda bir sıra şəhərləri yandırdı və ingilis generalı Kornuollis Cənubi Karolinanı işğal edərək, Virciniyaya hücum etdi. Belə bir çətin məqamda Konqres öz nümayəndəsi Lourensi, Fransadan yardım alması üçün Franklinin yanına göndərdi. Franklin Fransadan yeni subsidiya ala bildi. Amerikaya böyük miqdarda kredit götürdü, oraya 20 min nəfərlik sursat və silah göndərdi. 26 döyüş gəmisi və bir neçə freqat ilə Amerikaya yeni köməkçi qüvvələr göndərildi.

Xəstə, 74 yaşlı Franklin Konqresdən onu artıq qüvvəsi çatmadığı bu ağır xidmətdən azad etməsini və vətəninə qayıtmasına icazə verməsini xahiş etdi. lakin Konqres, Franklini "cəmiyyətin xidmətindən" uzaqlaşdırmağa razı olmadı və ona vətənə "son xidmət" göstərməyi - ABŞ və İngiltərə arasında sülh danışıqları aparmağı xahiş etdi. Franklin öz vəzifəsində qaldı.

8.Sülh danışıqları

1781-ci il martın 15-də, ingilis generalı Kornuollis Şimali Karolinada Qilford Korthauz yaxınlığında amerikan general Qrinin ordusunu məğlub edə bilmədi. Bu döyüşdən sonra, Kornuollis Çarlstondan başqa hər iki Karolina ərazisini tərk edərək, Virciniyaya getdi. Vaşinqtonun Kontinental ordusunun və general Roşambonun

komandanlığı ilə Fransa ordusunun üstün qüvvələrinin hücumu altında Kornuollis Yorktauna çəkildi, orada sentyabrın 27-də mühasirəyə düşdü və oktyabrın 19-da 9000 minlik ordu ilə birlikdə təslim oldu.

Eyni zamanda İngiltərədə müstəmləkələrlə sülh tərəfdarı olan Viqlər hakimiyyətə gəldi. Sülh danışıqları başlandı. Amerika tərəfdən bu danışıqları Franklin, Con Cey və Con Adams aparırdı. Con Cey danışıqlarda mühüm rol oynadı. O, bir vaxtlar Nyu Yorkda məskunlaşan fransız quqenot ailəsindən idi. 1777-ci ildən 1779-cu ilə qədər həmin ştatın baş hakimi olub. 1779-cu ildə Cey dövlət işində təqaüdə çıxaraq, ticarət işləri ilə məşğul olmağa başlamışdı. Bu zaman o, Nyu-Yorkun ən zəngin adamlarından biri idi.

Con Ceyə məlum oldu ki, Fransanın təsiri ilə İngiltərə və İspaniya Amerika Qərbini öz aralarında bölüşdürmək niyyətindədirlər və Fransa ABŞ-ın zərərinə sülhün bağlanmasına qarşı heç bir etirazı yoxdur. Onda, Con Cey, Fransaya həddən artıq inanmaqda və meylli olmaqda günahlandırdığı Franklinə heç bir söz demədən, sentyabr 11-də Parisdəki ingilis agentlərindən birinin vasitəsilə Britaniya hökuməti ilə birbaşa danışıqlara girdi. Bu zaman İngiltərədə hökumət kabinetində aparıcı şəxs olan Şelbern, düşmənlərini ayırmaq və hər biri ilə ayrıca danışıqlar aparmaq qərarına gəlmişdi. O, Con Ceyin təklifini qəbul etdi və sonrakı danışıqlar Fransadan gizli aparıldı.

Amerika nümayəndələri Konqres tərəfindən bütün danışıqları Fransanı məlumatlandırmaqla aparmaq tapşırılmışdı. Bununla belə, Con Cey, Con Adamsı öz tərəfinə çəkdi, Franklinlə həmişə məsləhətləşmədən və Verjendən gizli şəkildə, Konqresin göstərişlərindən kənar hərəkət etdi. Nəticədə, İngiltərə müstəmləkələrin müstəqilliyini tanıdı və onlarla tam bərabərlik əsasında müqavilə bağladı.

Bu müqavilənin şərtləri 1782-ci ildə, Parisdə işlənib hazırlanmış və son formada növbəti il Versalda imzalanmışdır.

Bu müqavilələr bir çox sənədlər toplusunu özündə birləşdirirdi. Müqavilələr Fransa kralı XVI Lüdovikin vasitəciliyi ilə imzalanır. ABŞ İstiqlal müharibəsindən sonra Britaniya və ABŞ, Fransa, Niderland və İspaniya arasında imzalanmışdır.

*30 noyabr 1782-ci ildə Böyük Britaniya və ABŞ arasında.

*20 yanvar 1782-ci ildə Böyük Britaniya və Fransa arasında.

*2 sentyabr Niderland və Böyük Britaniya arasında(son müdüalar 1784-ci ilin 20 mayında imzalanır).

*3 sentyabr (Üç böyük anlaşma) ABŞ və Britaniya, Fransa və Britaniya, İspaniya və Britaniya arasında imzalanmışdır.

3 sentyabr 1783-cü ildə Versalda bağlanmış sülh müqaviləsini, bir tərəfdən Böyük Britaniya, digər tərəfdən ABŞ, Fransa, İspaniya və Hollandiya imzaladı. O,

İngiltərənin ABŞ və müttəfiqləri ilə əvvəllər imzaladığı ilkin sülh müqavilələrini birləşdirdi.

Amerika tərəfini Bencamin Franklin və Con Adams təmsil edirdi. Britaniyanı isə III Qeorqun adından Devid Qartli təmsil edirdi. Sənəd konqres tərəfindən 14 yanvar 1784-ci ildə ratifikasiya edildi. Britaniya tərəfdən isə 9 aprel 1784-ci ildə ratifikasiya edildi. İmzalanmış sənədlərin dəyişdirilməsi 12 may 1784-ci ildə Parisdə baş tutdu. Müqavilə 10 bəndən ibarət idi.

1.Böyük Britaniya 13 koloniyanın müstəqilliyini tanıyır. Onlara öz müstəmləkəsi kimi baxmaqdan imtina edir.

2.ABŞ və Britaniyaya məxsus Şimali Amerika torpaqları arasında sərhəd müəyyənləşir.

3.ABŞ Nyufandlend hövzəsində və Müqəddəs Lavrentiya körfəzində sərbəst balıqçılıqla məşqul olma hüququ əldə edir.

4.Hər iki tərəf kreditlərin ödənilməsini öz üzərinə götürür.

5.Konfederasiya konqresi loyalıstlərə dəyən zərəri ödəmək üçün ştat hökumətlərinə məlumat verməyi öz üzərinə götürür.

6.ABŞ loyalistlərin əmlaklarının müsadirəsinə son qoyacağına razı olur.

7.Hərbi əsirlər dərhal qaytarılmalı, əmlaklar öz sahiblərinə qaytarılmalıdır.ABŞ vətandaşlarının əmlakı (qara dərili qullar) ştatdan kənara cıxarıla bilməzdilər.

8.Hər iki tərəf Missisipi çayında əbədi üzmək hüququ əldə edir.

9.Sülh müqaviləsi imzalandıqdan sonra(30 noyabr 1783) ələ keçirilən torpaqlar əvəzsiz geri qaytarılmalıdır.

10.Müqavilənin imzalandıqdan 6 ay sonra qüvvəyə minir.

1783-cü il noyabrın 30-da ABŞ ilə bağlanmış sülh müqaviləsinə əsasən Böyük Britaniya keçmiş müstəmləkələrini suveren və müstəqil dövlətlər kimi tanıyırdı (sərhədləri müqavilənin xüsusi maddələri ilə müəyyən edilirdi) və gələcəkdə onlara qarşı bütün iddialarından imtina edirdi.

O, qoşunlarını, qarnizonlarını və gəmilərini ABŞ ərazisindən çıxarmağı öhdəsinə götürürdü. 1783-cü il yanvarın 20-də, Fransa və İspaniya ilə ilkin sülh müqaviləsinə əsasən, Böyük Britaniya Vest-Hinddə olan Tobaqo adasını Fransaya, Afrikadakı Seneqalı, Aralıq dənizindəki Minorka adasını isə İspaniyaya qaytardı. Hindistanda, Fransa və Böyük Britaniya müharibə zamanı ələ keçirdikləri bütün əraziləri bir-birilərinə qaytardılar. 2 sentyabr 1783-cü ildə Hollandiya ilə ilkin sülh müqaviləsinə əsasən, Böyük Britaniya Hindistanın Hollandiya ticarət məntəqəsi olan Neqapatamı aldı.

Versal müqaviləsi bağlandıqdan sonra Franklinin üzərinə çətin bir vəzifə düşdü - Amerikanın Fransa ilə münasibətlərini nizama salmaq. O, bu vəzifəni özünəməxsus bacarığı ilə həll etdi.

1785-ci ildə artıq yetmiş doqquz yaşı olan Franklin vətəninə qayıtmaq icazəsi aldı. O, özünün son gücünü vətənin başqa ölkədə təmsilçisi kimi xidmətə verdi. İcazə alınan kimi, Franklin Parisdən xərək ilə Qavr şəhərinə aparıldı və oradan gəmi ilə vətənə qayıtdı. O, həmvətənliləri tərəfindən böyük coşqu ilə qarşılandı. Franklin xatirələrində "Mən öz həyatımı çox xoşbəxt yaşadım" yazırdı.

Formal olaraq, 1783-cü il Versal sülh müqaviləsinin şərtləri əvvəllər Yeddi illik müharibə nəticəsində Böyük Britaniyanın xeyrinə dəyişmiş qüvvələr nisbətinin müəyyən qədər də olsa bərpası demək idi. Lakin, faktiki vəziyyət daha da mürəkkəb idi. 1783-cü il Versal müqaviləsi, Vestfal beynəlxalq münasibətlər sistemini nəinki gücləndirmədi, hətta onu daha da laxlatdı. Bunun səbəbi bu müqavilənin əsasını təşkil edən prinsiplərdə idi.

Şimali Amerikada Britaniya müstəmləkələrinin Müstəqillik müharibəsi və 1783-cü ildə Versal müqaviləsi mahiyyətcə Vestfal beynəlxalq münasibətlər sisteminin əsaslandığı prinsiplərin təkzibi idi. Bu proseslər, Yeddiillik müharibədən sonra Şərqi və Cənub-Şərqi Avropada baş verən ərazi dəyişiklikləri ilə, XVII əsrin ortalarında Avropada formalaşmış beynəlxalq münasibətlər sistemini daha da sarsıtdı.

Diplomatik tarixi nöqteyi-nəzərindən, sonrakı dövrdə ən çox maraq doğuran məsələ, ABŞ və Fransa arasında olan münasibətlər idi. Bu dövlətlər arasında 1778-ci il müttəfiqlik müqaviləsinin epiloqu 1793-cü ildə oldu.

§3.ABŞ-ın müstəqillik müharibəsindən sonra Fransa və İngiltərə ilə münasibətləri

1.Birləşmiş ştatların Fransa inqilabı dövründə Fransa ilə münasibətləri

2.Müstəqillik müharibəsindən sonra İngiltərə və Birləşmiş Ştatların qarşılıqlı münasibətləri

1.Birləşmiş ştatların Fransa inqilabı dövründə Fransa ilə münasibətləri

1793 –1794-cü illərdə Fransanın yeni səfiri "Vətəndaş Jenenin " Birləşmiş Ştatlarda fəaliyyəti dövründə adi diplomatik təcrübədən çox kənara çıxan bir sıra münaqişələr baş verdi. Edmond Jene, 1792-ci ildə Jirondistlərin Konventdə hökmranlığı dövründə Fransa Respublikasının ABŞ-da səfiri təyin edildi. Jene Amerikaya 8 aprel 1793-cü ildə, Jirondistlər və Yakobinlər arasında gedən şiddətli mübarizə zamanı gəldi. Adətən, səfir ilk növbədə etimadnaməsini akkreditə olunduğu hökumətə təqdim edir. Lakin, Jene Filadelfiyaya deyil, Çarlstonda sahilə çıxaraq dərhal fəaliyyətə başladı. Bu fəaliyyətində o, ABŞ və Fransa arasında 1778-ci il müttəfiqlik müqaviləsinin qüvvədə qalmasına əsaslanaraq, İngiltərə və İspaniyaya qarşı müharibədə ABŞ-ın Fransanın müttəfiqi olması qənaətindən çıxış edirdi.

Qısa müddət ərzində Jene ingilis donanmasına qarşı döyüşmək üçün Amerika gəmilərindən 300-ə yaxın kaper gəmiləri (rəsmi dəniz quldurları) təchiz etdi. Bu kaperlər tərəfindən tutulan ingilis gəmiləri Amerika limanlarına gətirilirdi. Orada onlara hərbi qənimət kimi yanaşırdılar. İspaniyaya qarşı Amerika müstəmləkəçilərindən Missisipi çayı hövzəsinə quru-dəniz hərbi ekspedisiyası yaradıldı. Luiziananı fəth etmək və onu Fransaya birləşdirmək üçün Qərbə yürüş təşkil edildi. Jenenin köməyi ilə Amerikada bir sıra demokratik klublar yaradıldı. Xalq kütlələri Jeneni alqışla qarşılayırdılar. Amerika Birləşmiş Ştatlarının Dövlət katibi Cefferson da ona müsbət münasibət bəsləyirdi.

Jenenin hamılıqla qəbul edilmiş beynəlxalq normaları kəskin şəkildə pozan hərəkətlərindən xəbərdar olan ABŞ hökuməti, Fransa ilə İngiltərə arasında gedən müharibəyə və bu cür qeyri-adi hərəkətlərə yol verən səfirə münasibətini müəyyənləşdirməyə məcbur oldu. Cefferson və Konqresin ən nüfuzlu üzvlərindən biri olan Medison Fransa ilə müttəfiqlik müqaviləsi öhdəliyini yerinə yetirməyi təkid edirdilər: hər ikisi müharibənin tərəfdarı idi. Bununla belə, onlar azlıqda qaldılar. Lakin, şimal-şərq əyalətlərinin ticarət və sənaye burjuaziyasının maraqlarını təmsil edən, mühafizəkar federalistlər Hamilton və Ceyin nöqteyi-nəzəri qalib gəldi.

22 aprel 1793-cü ildə Vaşinqton tərəfindən bitərəflik haqqında bəyannamə elan edildi. Bəyannamədə "bitərəflik" sözü işlənməsə də, müharibə edən dövlətlərə qarşı "dost və qərəzsiz" münasibətdən danışılırdı. Birləşmiş Ştatların bütün vətəndaşlarına döyüşən tərəflərə düşmənçilik etməmək barədə xəbərdarlıq edildi; onlarla qaçaqmalçılıq ticarəti qadağan edildi. Jenenin Fransa səfiri kimi tanınması məsələsi müsbət həll olundu, lakin Vaşinqtonda onu XVI Lüdovik və Mariya Antuanettanın portretləri ilə bəzədilmiş otaqda qəbul etdilər.

İyul ayında Fransanın "Ambyuskad" hərbi freqatı, Amerika sularında Britaniyanın "Kiçik Sara" adlı gəmisini ələ keçirdi. Jene gəminin adını "Kiçik demokrat" adlandırdı və Dövlət katibi Ceffersonun xəbərdarlığına baxmayaraq, kapitana ingilislərə qarşı döyüşlərdə iştirak etmək üçün gizli şəkildə dənizə çıxmağı əmr etdi. Avqustun 23-də, ABŞ hökuməti Jenenin vəzifəsindən geri çağırılmasını tələb etdi. Bundan sonra, Jene Prezidentə qəzəbli və təhqiredici məktub ünvanladı. Eyni zamanda, özünə bəraət qazandırmaq məqsədilə xalqa müraciət edərək, məktubun məzmununu qəzetlərdə dərc etdirdi.

1794-cü ilin fevralında, Jene yakobinlər tərəfindən geri çağırıldı və məhkəməyə verildi. Lakin, o, mülki şəxs kimi ABŞ-da qalmaq qərarına gəldi. Fransa hökuməti də öz növbəsində krala və zadəganlara rəğbət bəsləyən Amerikanın Parisdə olan səfiri Morrisin geri çağırılmasını tələb etdi. Bu tələb təmin edildi.

1794-cü ildə, Birləşmiş Ştatlar bitərəflik haqqında rəsmi bəyannamə verdi. Bununla da, ABŞ-ın Fransa ilə 1778-ci il müttəfiqlik müqaviləsi qüvvəsini itirdi.

2.Müstəqillik müharibəsindən sonra İngiltərə və Birləşmiş Ştatların qarşılıqlı münasibətləri

Birləşmiş Ştatların gələcək xarici siyasətində ən mühüm problemlərindən biri onun keçmiş metropol dövləti olan İngiltərə ilə münasibətləri idi. ABŞ, müharibədən sonra da, iqtisadi cəhətdən İngiltərədən asılı qalmışdı. Belə ki, 1790-cı ildə ABŞ-a rüsum ödənilməklə gətirilən idxal 15 milyon dollar həcmində qiymətləndirilirdi. Bunun 13 milyon dolları İngiltərədən gətirilən malların payına düşürdü. 20 milyonluq ixracatın 9 milyonu İngiltərəyə göndərilirdi. Amerikada əksər adamlar İngiltərə ilə ticarət etməkdə və onunla yaxşı münasibətlər qurmaqda maraqlı idi. Məsələn, hakimiyyətdə olan federalistlər Hamilton, Cey və digərləri ingilis meylli siyasi istiqamətlərinə sadiq qalırdılar.

Bununla belə, ABŞ-ın İngiltərə ilə münasibətləri çətinliklə tənzimlənirdi. Britaniya hökuməti keçmiş Amerika müstəmləkələrini özünə geri qaytarmaq fikrindən daşınmamışdı. ABŞ-ın kifayət qədər mərkəzləşməmiş idarəçilik sisteminin zəifliyindən istifadə edən, İngiltərə 1783-cü il sülh müqaviləsinin şərtlərini yerinə yetirmirdi. İngiltərə, öz qoşunlarını qərb qalalarından çıxarmırdı; o, hinduları qərbdə olan müstəmləkəçilərə hücuma təhrik edir və Amerikanın özünün Vest-Hind müstəmləkələri ilə ticarətinə mane olurdu.

1793-cü ildə, İngiltərə Fransa ilə müharibəyə girdikdən sonra, ingilis hərbi gəmiləri Amerika gəmilərində axtarış apararaq, həm fransız mənşəli, həm də Fransa limanlarına göndərilən malları müsadirə edirdi. İngilis kapitanları, "əgər ingilissənsə, deməli həmişə ingilissən" prinsipinə əsaslanaraq, əvvəllər ingilis vətəndaşı olan dənizçiləri Amerika gəmilərindən çıxarıb, uzaqlaşdırırdılar və ABŞ gəmilərini Fransa Vest-Hindinə buraxmırdılar. Bu cəza tədbirlərinə cavab olaraq, ABŞ Britaniya mallarının idxalını müvəqqəti olaraq qadağan etdi. Münaqişəni həll etmək üçün Baş hakim Con Cey xüsusi tapşırıqla İngiltərəyə göndərildi. 1794-cü ildə o, mübahisəli məsələləri həll edən müqavilə bağlamağa müvəffəq oldu.

Lakin, müqavilə tam şəkildə bərabərhüquqlu deyildi. İngilis gəmilərinə ABŞ-ın bütün limanlarını daxil olmaq hüququ verilirdi, lakin Amerika gəmiləri Şimali Amerikada olan ingilis mülklərinə daxil olmaq hüququndan məhrum edilirdi. Missisipi çayı həm amerikalıların, həm də ingilislərin gəmilərinin hərəkəti üçün azad elan edilirdi. Lakin, Vest-Hinddə amerikalılara su tutumu 70 tondan az olan gəmilərdə ticarət etməyə icazə verilirdi. Eyni zamanda, amerikalılara Vest-Hinddən bəkməz, şəkər, qəhvə, kakao və pambıq kimi mallar ixrac etmək qadağan edilirdi. Bir sıra başqa məsələlər də, ABŞ-ın xeyrinə həll olunmadı.

Con Ceyin müqaviləsi 1794-cü il noyabrın 19-da Londonda imzalandı. Atlantik okeanında əks tərəfdən əsən küləklər müqavilənin Amerikaya çatdırılmasına mane oldu. Yalnız üç ay yarım sonra, Vaşinqton müqavilənin bağlanmasından xəbər tutdu və onun mətni ilə tanış ola bildi.

Müqavilə dərc olunanda Ceyin mövqeyi qibtəedilməz idi. Onu xainlikdə günahlandıraraq, müqavilənin mətnini, Ceyin şəkillərini, ingilis bayrağını ictimaiyyat qarşısında tonqalda yandırdılar. Amerika xalqı, Amerika burjua respublikasının rəsmi diplomatiyasına münasibətini belə ifadə etdi.

Müqaviləni imzalayan şəxs kimi Con Ceyin mövqeyi daha da mürəkkəbləşdi. Çünki, müqavilə Senatda güclü etirazla qarşılandı və Vest-Hind ilə ticarətə aid maddə qəbul edilmədən təsdiq olundu. Birləşmiş Ştatlar hökuməti İngiltərə hökuməti ilə əlavə danışıqlara getməli oldu və nəticədə, London bu bənddən imtina etməyə razı oldu. Lakin, müqavilə Nümayəndələr palatasından da keçməli idi. Amerikada Nümayəndələr palatasının müqavilələri təsdiq etmək hüququ yox idi, lakin büdcəni təsdiq edərkən müəyyən müqavilələrin icrası ilə bağlı xərcləri qəbul edə və ya rədd edə bilərdi.

Bu dəfə, Nümayəndələr palatası Con Cey tərəfindən imzalanmış müqaviləni ləğv etmək üçün xərcləri ödəmə səlahiyyətindən istifadə etməyə hazır idi. Palata bu müqavilə ilə bağlı yazışmaları tələb etdi. Lakin, bu vaxt Vaşinqton məsələyə müdaxilə etdi. O, palatanın hərəkətlərinin qanunsuz olduğunu bildirdi. Vaşinqtonun fikrinə görə, Con Cey ABŞ-ın Baş hakimi kimi, bu məsələdə tam sərbəst mühakimə yürütmək səlahiyyətinə malikdir. Vaşinqtonun təsiri nəticəsində müqavilə təsdiq olundu. Diplomatiya tarixində belə bir məsələ ilk dəfə baş verirdi.

DÖRDÜNCÜ FƏSİL

BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ SARSINTILAR VƏ DƏYİŞİKLİKLƏR DÖVRÜ (XVIII ƏSRİN SONU – XIX ƏSRİN ƏVVƏLLƏRİ)

I BÖLMƏ

Fransa Burjua inqilabı və beynəlxalq münasibətlər (1789-1792-cü illər)

§1. Fransa monarxiyasının diplomatiyası və burjuaziya inqilab ərəfəsində
1.XVI-XVIII əsrlərdə mütləq monarxiyaların diplomatiyası və burjuaziya
2.1789-cu il üçün Fransa mütləqiyyətinin diplomatiyasının böhranı
3.XVIII əsrin mütləq monarxiyalarının diplomatiyasının burjuaziya ideoloqları tərəfindən tənqidi
4.Böyük Fransa inqilabı ərəfəsində siyasi vəziyyət

§2. Böyük Fransa inqilabı və Avropa diplomatiyası
1.Böyük Fransa inqilabı
2.Fransa diplomatiyası Milli Müəssislər məclisi dövründə
3. 1789 - 1792-ci illərdə Avropa diplomatiyası
4. Reyxenbax müqavilələri (27 iyul 1790-cı il)
5. 1791-ci il Şərq böhranı. Uilyam Pitt və II Yekaterina
6. Kral XVI Lüdovikin ölkədən uğursuz qaçma cəhdi və əksinqilabi koalisiyanın yaradılması
7. Fransaya müdaxilə etmək üçün Avropa konqresinin çağırılması ideyası (1791)
8.Qanunvericilik məclisi dövründə Fransa diplomatiyası (1791-ci ilin payızından 1792-ci ilin 10 avqustuna kimi)

§1. Fransa monarxiyasının diplomatiyası və burjuaziya inqilab ərəfəsində
1.XVI-XVIII əsrlərdə mütləq monarxiyaların diplomatiyası və burjuaziya
2.1789-cu il üçün Fransa mütləqiyyətinin diplomatiyasının böhranı
3.XVIII əsrin mütləq monarxiyalarının diplomatiyasının burjuaziya ideoloqları tərəfindən tənqidi
4.Böyük Fransa inqilabı ərəfəsində siyasi vəziyyət

1.XVI-XVIII əsrlərdə mütləq monarxiyaların diplomatiyası və burjuaziya

Vestfal beynəlxalq münasibətlər sistemi nəhayət, XVIII əsrin sonunda Fransız inqilabının zərbələri altında dağıldı. Fransız xalqı Versal müqaviləsinin imzalanmasından cəmi 6 il sonra, 1789-cu ildə öz mütləqiyyətçi hökumətinə qarşı üsyan qaldırdı. Və bu təsadüfi deyil idi. Hər iki hadisə - Şimali Amerikada Müstəqillik müharibəsi və Fransa inqilabı bir-biri ilə o qədər mənəvi, ideoloji cəhətdən bağlı idi ki, bəzi tarixçilər onları eyni tarixi hadisənin ardıcıl epizodları hesab edirlər və bunu "Atlantik inqilab" adlandırırlar. Hər halda, onların hər ikisi - həm müharibə, həm də inqilab - əsasən milli suverenlik nəzəriyyəsindən irəli gəlirdi.

Lakin, Fransa inqilabı, əvvəldən ciddi beynəlxalq təlatümlərə səbəb olan Şimali Amerika Müstəqillik müharibəsindən fərqli idi. Şimali Amerikada söhbət müstəmləkələrin metropoliya ölkəsindən ayrılmasından, yəni, əslində bir xalqın digərinin əsarətindən qurtulmasından gedirdi. Fransada inqilab bu ölkənin daxili həyatının bir fenomeni olaraq başladı. Cəmiyyətdə konflikt, daxili strukturun müxtəlif islahatlarının aparılmasının məqsədəuyğunluğu, forması, sürəti və üsulları məsələsi ilə bağlı ziddiyyətlər zəminində yaranmışdı. İnqilab ərəfəsində böyük büdcə kəsiri yaranmışdı və bu, məhz Şimali Amerikada Müstəqillik müharibəsi illərində ortaya çıxmışdı. Fransa amerikalı üsyançıların qələbə qazanmasına kömək edərək, böyük maliyyə xərcləri tələb edən Amerikaya hərbi ekspedisiya qüvvələri və hərbi donanma göndərdi. Xərclərin çoxalması gəlirlərin artması ilə əvəz olunmadı və kəsir problemi daxili siyasətdə inqilaba səbəb olan ən qaynar məsələlərdən birinə çevrildi. Həmçinin zadəganların və ruhanilərin imtiyazları, kənd yerlərində senyorluq sistemi, kral mütləqiyyətinin məhdudlaşdırılması, xalqın təmsilçiliyi və s. haqqında daha ümumi məsələlər də var idi.

Beləliklə, burjuaziyanın feodalizmə və mütləqiyyətə qarşı mübarizəsinin kəskin şəkildə güclənməsi nəticəsində baş verən 1789-1794-cü illər Fransa inqilabı Fransa monarxiyasının zadəgan-süləla diplomatiyasına ciddi zərbə vurdu.

Fransız mütləqiyyətinin diplomatiyası və onun bütün xarici siyasəti 1789-cu ildən xeyli əvvəl fransız burjuaziyasında dərin narazılıq doğurmuşdu. Güclənmiş burjuaziya artıq mütləqiyyətin müdafiə olunmasına ehtiyac görmür və o, artıq xarici və daxili siyasətdə zadəgan və sülalə maraqlarının üstünlüyünə dözmək istəmirdi.

Kral hakimiyyətinin ilahi mənşəyi və mütləq monarxların tək hakimiyyəti anlayışına qarşı XVIII əsrin burjua "maarifçiliyinin" radikal fəlsəfəsi millətin suverenliyi ideyasını irəli sürürdü. Təbii ki, "millət" deyiləndə, o zaman üçüncü silk nəzərdə tutulurdu. Millət ideyası ilə çıxış edən burjuaziya özünü bu sinfi mənada başa düşərək zadəganlıq və xanədanlıq siyasəti əvəzinə milli xarici siyasət tələb edirdi. Ona görə də, dövlətin xarici siyasətini idarə etməyin bütün vasitələrinin

burjuaziyaya tabe olması burjua inqilabının zəruri hissəsinə çevrilirdi. O, ardıcıl olaraq inqilabi hadisələrin gedişində həyata keçirilmiş və Termidor irticası və Direktoriya illərində tamamlanmışdır.

Avropa qitəsinin digər ölkələrində də, 1789-cu il inqilabı ərəfəsində mütləq monarxiyaların diplomatiyası əsasən zadəganların və hakim sülalələrin maraqlarına tabe edilirdi. Lakin Avstriyada, Prussiyada və xüsusilə Rusiyada Fransadan fərqli olaraq hələ siyasi hakimiyyət uğrunda mübarizə apara bilən güclü burjuaziya yox idi. Yalnız XVII əsrdə, artıq burjua inqilabı yaşamış İngiltərədə parlamentin kral hakimiyyəti üzərində üstünlüyü sayəsində burjuaziyanın xarici siyasətdəki maraqları Avropa qitəsinin dövlətlərindən fərqli olaraq, daha dolğun şəkildə həyata keçirilirdi.

2.1789-cu il üçün Fransa mütləqiyyətinin diplomatiyasının böhranı

XVIII əsrin ikinci yarısında fransız diplomatiyasının əsas dayağı taxt varisinin (gələcək XVI Lüdovik) 1770-ci ildə Avstriya şahzadəsi ilə evlənməsi ilə möhkəmlənmiş 1756-cı il Fransa-Avstriya ittifaqı idi. İlk vaxtlar, bu ittifaq Fransanın arxa cəbhəsini Avstriya mülkləri tərəfindən və Prussiyanın hücumundan qorumalı və bütün Fransız qüvvələrini İngiltərə ilə müstəmləkələr uğrunda döyüşə atmağa imkan verməli idi. 1756-1763-cü illər Yeddiillik müharibə zamanı, Fransa sarayı Avstriya ilə qohumluq əlaqələrində olduğuna görə, onu həddən çox qoşun və pulla təmin etdi və bununla da öz ölkəsini zəiflətdi.

Avstriya Fransanı öz siyasətinin alətinə çevirdi. XV Lüdovikin sülalə diplomatiyasının səhvləri İngiltərənin Yeddiillik müharibədə qələbə çalmasına, Fransanın Kanada və digər müstəmləkələrini itirməsinə səbəb oldu. Mənfur "avstriyalı"ya – yəni, Avstriya kraliçasına aid edilən "Avstriya sistemi" burjuaziyanın ən şiddətli tənqidi hücumlarına səbəb oldu. Burjuaziya düşmənini Avstriyada görürdü və gələcəkdə Avstriya Niderlandını fəth etməyə ümid edirdi. Avstriya ilə ittifaq, fransız burjuaziyasının maraqları ilə kəskin şəkildə ziddiyyət təşkil edərək, Fransaya yalnız uğursuzluqlar gətirirdi.

Fransanın xarici siyasətinin ikinci əsas dayağını İspaniya ilə ittifaq təşkil edirdi: o, İngiltərənin müstəmləkə üstünlüyünə qarşı yönəlmişdi. Bu ittifaq Avstriyanın müttəfiqliyindən daha əsaslı idi. Lakin burjuaziya, ona da sülalə maraqlarına öhdəlik kimi baxırdı. Öz formasına görə, bu ittifaq, Burbon sülaləsinin ispan və fransız qolları arasında "ailə müqaviləsi" idi. Bundan əlavə, fransız kralları bu ittifaqdan ispan müstəmləkələrinə fransız mallarının aparılmasını asanlaşdırmaq üçün istifadə etməyə cəhd etmədilər. Əslində, bu addım "ailə müqaviləsi"ni burjuaziya üçün daha sərfəli edə bilərdi.

Fransız monarxiyasının diplomatiyasını burjuaziyanın maraqları nöqteyi-nəzərindən tənqid edən yazıçılar (Mabli, Favye, Mirabo və s.) çox təəssüf edirdilər

ki, Fransa monarxiyasının maliyyə və siyasi böhran ilə sıxışdırılan ümumi gücsüzlüyü, onu qətiyyətli xarici siyasət yürütməkdə və Fransanın nüfuzunu saxlamaqda aciz edirdi.

Monarxiya Fransasının zəifləməsinə baxmayaraq, onunla İngiltərə arasında ticarət və müstəmləkə üstünlüyü uğrunda mübarizə, 1789-cu ilə qədər beynəlxalq siyasətin əsas məsələsi olaraq qalırdı.

1778-1783-cü illərdə Fransa və İspaniyanın ABŞ-a öz müstəqilliyini qazanmağa kömək göstərdiyi zaman qismən uğur qazanmasına baxmayaraq, Fransa monarxiyası İngiltərəyə güzəştə getməyə məcbur oldu. Fransa diplomatiyası tərəfindən o dövrdə İngiltərənin xeyrinə edilən güzəştlərdən ən əhəmiyyətlisi 1786-cı il ticarət müqaviləsi idi. Bu müqavilə, Britaniya istehsalı olan manufaktura mallarının Fransaya gətirilməsini asanlaşdırdı. Bu məsələ, zadəgan torpaq sahibləri üçün faydalı olsa da, Fransa sənayesini sarsıtdı.

1778-1783-cü illərdə İngiltərəyə qarşı müstəqil mübarizə aparmaq üçün çox zəif olan Fransa Rusiyaya yaxınlaşdı. O, Türkiyəni Rusiyaya qarşı dəstəkləməyi dayandırdı və 1787-ci il ticarət müqaviləsi ilə ölkəsini Rusiyanın yeni Qara dəniz limanları ilə ticarətdən gələn gəlirlə təmin etdi. Rusiya ilə 1787-ci il ticarət müqaviləsi inqilab ərəfəsində fransız diplomatiyasının yeganə böyük uğuru idi. Nəhayət, fransız tacirləri Türkiyədən Qırmızı dənizə çıxış əldə etməyə nail oldular. Onlar, Misirdə və Hindistana gedən yollar boyunca fəaliyyət göstərməyə başladılar. Beləliklə, Fransa Yaxın Şərqdə hələ də, ticarət hegemonluğunu qoruyub saxlaya bilsə də, İngiltərə onu inadla sarsıdırdı.

1787-1788-ci illərdə, Fransanın beynəlxalq nüfuzuna ciddi zərbə vuruldu. Fransa monarxiyası maliyyə və siyasi imkansızlığına görə Niderland qarşısında müttəfiqlik öhdəliklərini yerinə yetirməkdən imtina etdi. Hələ 1785-ci ildə, Fransa İngiltərə və Prussiyaya qarşı Niderland ilə ittifaq bağlamışdı.

XVIII əsrin sonlarında, Niderlandda vətəndaşların hüquqlarının genişləndirilməsini və ştatholderin səlahiyyətlərinin məhdudlaşdırılmasını tələb edən Vətənpərvərlər Partiyası adlanan təşkilat yaradılmışdı. 1785-ci ildə İngiltərə ilə düşmən olan "vətənpərvərlərin" burjua partiyası hakimiyyətdə olan ştadholder V Vilhelmi hakimiyyətdən uzaqlaşdırmağa müvəffəq oldular. Lakin o, hakimiyyətini zorla geri qaytarmaqda qərarlı idi. Ölkə vətəndaş müharibəsinin astanasında idi.

Prussiya respublikanın daxili işlərinə qarışmaq fürsətini əldən vermədi, o, beynəlxalq nüfuzunun güclənməsinə ümid edirdi. V Vilhelm Prussiya kralı II Fridrix Vilhelmin bacısı ilə nikahda idi. II Fridrix Vilhelm, bu hadisədən istifadə edərək, guya respublika hakimiyyəti tərəfindən tapdalanan ləyaqətini qorumaq bəhanəsi ilə Niderland inqilabını yatırmaq üçün öz ordusundan istifadə etdi. 1787-ci il sentyabrın 13-də başlayan hərbi müdaxilə nəticəsində ştadholderin hakimiyyəti bərpa olundu və

“vətənpərvərlər” hərəkatı məğlub oldu. Hakimiyyətə gələnlər, İngiltərə və Prussiya ilə ittifaqın tərəfdarları olaraq, alman dövlətləri ilə ticarət əlaqələri ilə bağlı Niderland burjuaziyasının bir hissəsi tərəfindən dəstək alırdılar.

Fransanın Prussiya müdaxiləsinə qarşı Niderlanda kömək etməkdən imtina etməsi fransız diplomatiyasının sözsüz uğursuzluğu idi və onun bütün Avropa qarşısında acizliyini göstərdi. Prussiya müdaxiləsinin müvəffəqiyyəti Niderlandı, İngiltərə və Prussiyanın təsiri altına saldı. Artıq 1788-ci ildə İngiltərə, Prussiya və Hollandiya, Rusiya, Fransa və Avstriyaya qarşı hərbi ittifaq - üçlü liqa yaratdılar. 1789-cu il inqilabı ərəfəsində Türkiyə və İsveçi dəstəkləyən bu İngiltərə-Prussiya-Hollandiya liqası ən güclü dövlətlər birliyi idi. Onlar, ayrı-ayrı ittifaqlara qarşı- Avstriya - Rusiya və Fransa, Avstriya və İspaniya koalisiyalarına qarşı dururdular.

3.XVIII əsrin mütləq monarxiyalarının diplomatiyasının burjuaziya ideoloqları tərəfindən tənqidi

XVIII əsrin burjua “maarifçiliyi” ideoloqları tərəfindən bütün feodalizm və mütləqiyyət institutlarının tənqidi, hələ 1789-cu il inqilabından əvvəl, feodal-monarxist Avropa diplomatiyasını da əhatə edirdi. Mütərəqqi burjuaziya, mütləq monarxiyaların beynəlxalq münasibətlərinə xalqlar arasında deyil, monarxlar arasında münasibətlər kimi baxılmasını qəbuledilməz hesab edirdi. Burjuaziya zadəgan-sülalə maraqlarına tabe olan diplomatiyanın “miraslar” uğrunda saysız-hesabsız müharibələrə səbəb olduğunu, çox vaxt yalnız onu viran etdiyini, lakin mütləqiyyəti gücləndirdiyini görüb çox təəssüflənirdi.

Burjuaziyanın mötədil hissəsi fransız diplomatiyasının istiqamətini dəyişmək, “Avstriya sistemini” məhv etmək, xarici siyasətdə zadəgan və sülalə maraqlarının üstünlüyünü aradan qaldırmaq və Fransanın nüfuzunu gücləndirmək istəyirdi. Liberal məmur zadəganların ideoloqu Monteskye yazırdı ki, “hədsiz fəthlər despotizm doğurur” və Fransa “müharibə tərəfdarları tərəfindən məhv edilir”. Volter, mütləq monarxiya diplomatlarının fitnəkarlıqlarını və taxt-tac uğrunda bitib-tükənməyən sülalə müharibələrini “ədalətsiz” və “mənasız” kimi qələmə verirdi. Bir rasionalist kimi o, sırf məntiqlə iddia edirdi ki, əgər iki hökmdar diplomatik mübahisəni həll etmədən müharibəyə başlayırsa, o zaman onlardan heç olmasa biri əqli baxımı nöqteyi-nəzərindən yanılır. Volter belə yekunlaşdırır: “Hökmdarlardan birinin səhv etdiyi üçün xalqların məhv olması mənasız və barbarlıqdır”.

Fransada xırda burjua radikalizminin təmsilçiləri Mabli və Russo mütləq monarxiyaların diplomatiyasını tənqid etməkdə daha da irəli getdilər. Mabli “Avstriya sistemi”nin qatı düşməni idi. O, sülalə ittifaqlarını tənqid edərək yazırdı ki, mütləq monarxiyaların diplomatik sənəti “böyük prinsiplər” ilə deyil, “xüsusi motivlər, xırda maraqlar və hökmdarların şıltaqlıqları” ilə idarə olunur.

"Hökumətlərimizin quruluş sistemi danışıqlar elminin tərəqqisinə mane olur", çünki insanlar hakimiyyətə bəxt və ya fitnəkarlıq vasitəsilə gəlir.

Russo da mütləq monarxiyaların diplomatiyasına mənfi qiymət verirdi. Polyaklara, Polşada islahatlar aparmağı tövsiyə edərək, yazırdı: "Boş-boş danışıqlarla özünüzü yormayın, böyük xərclər çəkərək, digər ölkələrə elçilər və nümayəndələr göndərməyə çalışmayın, bəyannamələrin və ittifaqların hər hansı bir dəyərə malik olması haqqında düşünməyin". Burjuaziyanın radikal ideoloqları, diplomatik məxfiliyi hökmdarların öz xalqını aldatmaq və gizli şəkildə anti-milli siyasət yürütmək vasitəsi hesab edirdi.

Sülalələrin nüfuzunun yüksəldilməsi üçün ərazilərin zəbt edilməsini ört-basdır edən mütləqiyyətin gizli diplomatiyasına etiraz edən bu ideoloqlar istənilən şəraitdə, ümumiyyətlə, diplomatik sirri inkar etmək qənaətinə gəlirdilər. Burjua "maarifçiliyi"nin radikal nümayəndələrinin ideyalarına görə, ərazi ilhaqları nə fəthlərə, nə hökmdarların özbaşınalığına, nə də sülalə iddialarına əsaslanmamalıdır. Onlara ancaq ilhaq edilmiş ərazilərinin əhalisinin iradəsi ilə icazə verilirdi. Monarxlar tərəfindən həyata keçirilən fəthlər yalnız despotizmi artırır. Russo deyirdi, hökmdarlar öz qarşılarına yalnız iki məqsəd qoyurdular: "öz ərazilərini kənar torpaqlar hesabına genişləndirmək və daxildə isə daha güclü mütləq monarxiya yaratmaq".

Onların müqavilələrdə və qeydlərdə irəli sürdükləri "ictimai rifah", "təbəələrin xoşbəxtliyi", "millətin şöhrəti" kimi bütün digər motivlər, Russoya görə, ikiüzlü bəhanələrdən başqa bir məsələ deyil. Bu bəhanələr yalnız ona görə lazımdır ki, onlarla mütləq monarxiyaların diplomatiyasının əsl məqsədlərini ört-basdır etsinlər. Russo əbədi sülhün bərqərar olması və müharibələrin tam dayandırılması kimi utopik layihəni daha da inkişaf etdirərək, bunun yalnız mütləqiyyəti və diplomatiyada sülalə maraqlarının üstünlüyünü məhv etməklə həyata keçirilə biləcəyinə açıq-aşkar eyham vururdu. Russo müharibələri məhv etmək vasitələrini ümumavropa seyminə malik dövlətlər federasiyasında görürdü. Dövlətin ərazilərinin toxunulmazlığının universal təminatı fəthləri və müharibələri qeyri-mümkün edərdi. Münaqişələri həll etmək üçün beynəlxalq tribunal kimi bir qurum yaradıla bilər.

1789-cu ildə, İngiltərədə Bentam eyni fikirləri söyləyirdi, Almaniyada isə onları ,1795-ci ildə Kant tərəfindən ifadə edildi. Bentam sülalə diplomatiyasını və müharibələri pisləməklə yanaşı, müstəmləkə müharibələrinə və onunla bağlı müqavilələrə qarşı da çıxış edirdi, onun fikrincə, bunlar, yalnız böyük ticarət və maliyyə burjuaziyası üçün faydalı idi. Bentam azad ticarətlə, müstəmləkələrdən imtina ilə, orduların ixtisarına dair müqavilələrlə, gizli diplomatiyanın ləğvi ilə, "miras" haqqında mübahisələrə səbəb olan monarx titullarının ləğvi ilə müharibələrin məhvinə nail olmaq arzusunda idi.

Bu layihələrdə, XX əsrin burjua pasifizm ideyalarının demək olar ki, bütün məcmusu göstərilir: burjua cəmiyyəti mühitində sülhü qorumaq üçün dövlətləri birləşdirərək müharibələrin məhv edilməsi, silahların azaldılması haqqında müqavilələr, beynəlxalq məhkəmə.

XVIII əsrin ikinci yarısının yazarları bu pasifist ideyalardan mütləq monarxiyaların diplomatiyasını və ingilis müstəmləkəçilik siyasətini tənqid etmək üçün vasitə kimi istifadə edirdilər. Öz dövrləri üçün onlar mütərəqqi rol oynayırdılar.

Bununla belə, XVIII əsr "maarifçilik" ideoloqlarının pasifizmi dayaz və keçici bir hərəkat idi. Burjuaziyanın hakimiyyəti ələ keçirdiyi dövlətlərdə, onların özlərinin yeni fəthlər ilə bağlı istəkləri üzə çıxdı, işğalçılıq təbliğatı inkişaf etdi və diplomatiya təcavüzkar xarakter aldı.

Buna baxmayaraq, mütləq monarxiyaların xarici siyasətinin və müharibələrinin tənqidi, inqilab illərində fransız burjuaziyasının diplomatiyası üçün nəzəri başlanğıc nöqtəsi oldu.

4.Böyük Fransa inqilabı ərəfəsində siyasi vəziyyət

XVIII əsr Fransası özünün dövlət quruluşu baxımından mərkəzi bürokratik sistemə və hərbi dayaqlara əsaslanan mütləq monarxiya idi. Hakim feodal sinfindən tamamilə azad olan kral iri zadəgan feodallar və katolik ruhanilərinə böyük miqyaslı imtiyazlar verməklə mütləq hakimiyyətini qoruyub saxlayırdı. Müəyyən dövrə qədər kral "milli sərvətlərin" artırılması, yəni milli sənaye müəssisələrinin və ticarətin inkişafına böyük səylə qayğı göstərməklə fransız burjuaziyasının etimadından da istifadə edirdi. Bununla belə kral tədricən hakim sinfin artmaqda və günü-gündən kəskinləşməkdə olan yeni tələblərini ödəməkdə çətinlik çəkirdi.

1777-ci ildə tamamilə müflisləşmiş adamların rəsmi sayı 1milyon 100 min nəfər müəyyən edilmişdir. Kəndli kütlələri müflis olurdu. Kiçik bir quraqlıq aclığa səbəb olurdu. Ac kəndlilərin kütlələri şəhərlərə axışırdı. O biri tərəfdən, harınlamış zadəganlar illik yüz minlərlə gəlirlərini eyş-işrətə israf edirdilər. Zadəganların bir çoxu da müflisləşməkdə idi, amma onlar bunu birüzə verməmək üçün daha da çox eyş-işrətə qapılırdılar. Lakin əyalətlərdə vəziyyət ikili idi, bəzi kəndlilər əksinə, öz yoxsullaşan qonşularının hesabına varlanırdılar. Kəndlərdə kənd burjuaları yaranırdı və məhz onlar inqilab ərəfəsində feodal qaydalara qarşı birinci etiraz etdilər. Məhz onlar feodal hüquqların, zadəgan mülklərinin müsadirəsi və bölünməsi yolu ilə, təmənnasız ləğvini tələb etdilər. 1786-cu ildən kəndli üsyanları getdikcə çoxalmaqda idi.

Taxta çıxmasında iki ay sonra XVI Lüdovik, yazıçı-iqtisadçı Türqonu nazirliyə cəlb etdi, bir aydan sonra isə onu maliyyənin əsas nəzarətçisi təyin etdi. İlk vaxtlar kral hətta israfçı zadəganlara qarşı Türqonun mövqeyini müdafiə etdi. 1774-cü ildə

azad çörək ticarətinin elan olunması, 1776-cı ildə isə biyarın və şəhərlərdə sex korporasiyalarının ləğv edilməsi xalqda müəyyən ümid yaratmalı idi. Daha varlı kəndlilər isə vergi yığılmasında qarşılıqlı məsuliyyətin ləğv edilməsinə xüsusi ilə sevinirdilər. Nəhayət 1779-cu ildə kralın xüsusi mülklərində mortmayn (ölü əl-kəndli öləndən sonra onun mülkiyyətinin 1 hissəsini feodal özünə götürürdü) və təhkimçilik hüququ, sonrakı ildə isə 1670-ci ildən cinayət işlərində tətbiq olunan işkəncə təcrübəsi ləğv edildi. Lakin Türqo əyalət təmsilçilik yığıncaqları və varlı zümrələrdən seçilənlərin parlamenti haqqında danışmağa başlayanda kral onu istefaya göndərdi. Amma konstitusiya məsələsindən qurtulmaq artıq mümkün deyildi və 1777-ci ildə Nekkerin nazir təyin edilməsi ilə bu məsələ yenidən gündəmə gəldi. Nekker qüvvələr arasında müvazinəti saxlamağa çalışırdı. O, parlament məsələsini uzaq gələcəyin işi olduğunu vurğulayaraq, ilk növbədə əyalət təmsilçiliyi barədə danışırdı, ancaq kral bundan qətiyyətlə imtina etdi. Lüdovik ancaq, Berri və Yuxarı Qiyendə (1778-1779) əyalət yığıncaqları kimi, əhəmiyyətsiz güzəştlərə getdi.

4 iyul 1776-cı ildə Şimali Amerika ingilis müstəmləkələri öz müstəqilliklərini elan etdilər, 1778-ci ildə Fransa onların müstəqilliyini tanıdı və bu İngiltərə ilə 1783-cü ilə qədər çəkən müharibəyə gətirib çıxardı. Bunun Fransada inqilab öncəki vəziyətə təsiri çox güclü oldu. Birincisi ona görə ki, Amerika ştatlarında elan olunan "İnsan haqları bəyannaməsi" fransız inqilabçılarına böyük təsir göstərdi, o biri tərəfdən isə Fransa iqtisadiyyatı İngiltərə ilə olan müharibə səbəbindən ağır vəziyyətə düşdü. 1775-1777-ci illər arasında, məhsul qıtlığı səbəbindən, bir sıra yerlərdə aclıq üsyanları baş verdi.

1782-1783-cü illərdə üsyanlar yenidən qızışdı və bütün ölkəni bürüdü. 1787-ci ildə Paris parlamenti, saraya pul verməkdən imtina etdi. Bunun əvəzində kral Paris parlamentini Truaya sürgün etdi, lakin Parisdə üsyan başladı və kral zümrə parlamentini geri qaytarmağa məcbur oldu. 1788-ci ildə Bretanda üsyan qalxdı. Dofinedə, xüsusi ilə Qrenoblda, vəziyyət daha da ciddi idi. Qanlı toqquşmalar və çoxlu ölən oldu.

1787-ci ildə baramaçılıq istehsalının zəifləməsi Lion ipək toxuculuq istehsalının azalmasına səbəb oldu. 1788-ci ilin sonunda təkcə Lionda 20-25 min işsiz var idi. 1788-ci ilin iyulunda yağan güclü dolu bir çox əyalətlərdə taxıl əkinlərinə ziyan vurdu. 1788/89-cu ilin son dərəcə sərt qışı çoxlu üzüm bağlarını və məhsulun bir hissəsini məhv etdi.

Ərzaq qiymətləri qalxdı. Bazarların çörək və digər məhsullarla təminatı kəskin şəkildə pisləşdi. Üstəlik, 1786-cı il İngiltərə-Fransa ticarət müqaviləsi ilə başlayan sənaye böhranı başladı. Bu müqaviləyə əsasən, hər iki tərəf gömrük rüsumlarını xeyli azaltmışdı. Müqavilə Fransaya daxil olan daha ucuz ingilis mallarının rəqabətinə tab

gətirə bilməyən fransız istehsalı üçün ölümcül oldu. Fransanın minlərlə müəssisəsi iflasa uğradı. İşsizlik kəskin şəkildə artdı.

1783-cü ildə sülh bağlandıqdan sonra kral xəzinəsinin kəsiri 20 faizdən çox idi. 1788-ci ildə xərclər 629 milyon livr, vergilər isə cəmi 503 milyon gəlir gətirmişdi.80-ci illərin iqtisadi tənəzzülü şəraitində əsasən kəndlilərin ödədiyi ənənəvi vergiləri artırmaq mümkün deyildi. Müasirləri sarayı israfçılıqda ittiham edirdilər. Bütün təbəqələrin ictimai rəyi yekdilliklə hesab edirdi ki, vergilərin təsdiqlənməsi Baş ştatların və seçkili nümayəndələrin səlahiyyətində olmalıdır.

§2. Böyük Fransa inqilabı və Avropa diplomatiyası

1.Böyük Fransa inqilabı

2.Fransa diplomatiyası Milli Müəssislər Məclisi dövründə

3. 1789 - 1792-ci illərdə Avropa diplomatiyası

4. Reyxenbax müqavilələri (27 iyul 1790-cı il)

5. 1791-ci il Şərq böhranı. Uilyam Pitt və II Yekaterina

6. Kral XVI Lüdovikin ölkədən uğursuz qaçma cəhdi və əksinqilabi koalisiyanın yaradılması

7. Fransaya müdaxilə etmək üçün Avropa konqresinin çağırılması ideyası (1791)

8.Qanunvericilik məclisi dövründə Fransa diplomatiyası

(1791-ci ilin payızından 1792-ci ilin 10 avqustuna kimi)

1.Böyük Fransa inqilabı

XVIII əsrdə Fransa özünün dövlət quruluşu baxımından mərkəzi bürokratik sistemə və hərbi dayaqlara əsaslanan mütləq monarxiya idi. Hakim feodal sinfindən tamamilə azad olan kral iri zadəgan feodallar və katolik ruhanilərinə böyük miqyaslı imtiyazlar verməklə mütləq hakimiyyətini qoruyub saxlayırdı. Müəyyən dövrə qədər kral "milli sərvətlərin" artırılması, yəni milli sənaye müəssisələrinin və ticarətin inkişafına böyük səylə qayğı göstərməklə fransız burjuaziyasının etimadından da istifadə edirdi. Bununla belə kral tədricən hakim sinfin artmaqda və günü-gündən kəskinləşməkdə olan yeni tələblərini ödəməkdə çətinlik çəkirdi.

Kralın mütləq hakimiyyəti get-gedə ruhani sinfi, burjuaziya və zadəganlar arasında nüfuzunu itirirdi. Sonralar bu hakim siniflər arasında belə bir fikir formalaşır ki, mütləq monarxiyası Fransa yüksək hakim təbəqəsinın və ya fransız xalqının milli maraqlarına ziddiyyət təşkil edir. Volter, Monteskyu, Russo və digər fiziokrat və ensiklopedist yazıçı-filosofların yaradıcılığı sayəsində fransız cəmiyyətinin ziyalı təbəqəsində də hadisələrə münasibət inqilabi şəkildə dəyişir. Russonun, Mablinin, Didronun demokratiya haqqında fəlsəfi əsərləri geniş xalq

kütlələrini riqqətə gətirir. Şimali Amerikada gedən Vətəndaş müharibəsi də inqilaba ciddi təsir göstərir.

Silklər Məclisinin (Fransa parlamenti) seçkilərindən sonra hər üç zümrədən olan deputatlar 5 may 1789-cu ildə kralın Versal sarayında öz ilk iclasına toplaşırlar. Tezliklə parlamentdə üstünlük tamamilə üçüncü silkin əlinə keçir. Bundan əsəbiləşən kral parlamentin fəaliyyətini dayandırmaq qərarına gəlir.

20 iyun 1789-cu ildə üçüncü silkdən olan deputatlar iclaslar salonunun giriş qapısına yaxınlaşarkən orada silahlı keşikçilərlə üzləşirlər. Keşikçilər salonun təmirə görə bağlandığını bildirirlər. Lakin deputatlar dağılışmaqdan qəti boyun qaçırır, yaxınlıqdakı tennis zalına toplaşaraq and içirlər ki, kral hakimiyyətini məhdudlaşdırıb feodal imtiyazlarını ləğv edən və əsas insan hüquqlarına təminat verən yeni Konstitusiya qəbul olunmayana qədər buranı tərk etməyəcəklər.

Kral güzəştə getməli olur. O, qalan deputatlara da üçüncü silkə qoşulub parlamentin iclasını davam etdirməyi təklif edir. Tədricən deputatların əksəriyyəti demokratların irəli sürdükləri islahatların lehinə meyl göstərməyə başlayır. Birləşmiş deputatlar özlərini, vəzifəsi ölkənin yeni Konstitusiyasını təsis etməkdən ibarət olan Milli Məclis elan edirlər. Bu zaman kral parlamenti zor gücünə buraxmaq üçün qoşunları Parisə və Versala çəkib gətirməyə başlayır.

Kralın ikiüzlü siyasəti və Parisin çörəklə təchizatının kəskin pisləşməsi cəmiyyətdə gərginliyin artmasına səbəb olur. Parlamenti dəstəkləyən əhalinin gözünə hər yanda "aristokrat sui-qəsdi" görünməyə başlayır, şəhərə şayiə yayılır ki, kral qoşunları Bastiliya qalasının yanında cəmləşəcək. Paris qiyama qalxır. Qiyamçılar silah anbarlarını ələ keçirir, 14 iyul 1789-cu ildə isə hamının kral tiraniyasının rəmzi kimi tanıdığı Bastiliya ələ keçirilir (Bastiliyanın alınması günü Fransada milli bayram kimi qeyd olunur). Bu, artıq qiyam deyil, əsl inqilab idi.

Bastiliyanın alınmasından dərhal sonra Fransada iri torpaq sahiblərinə qarşı kəndlilərin üsyanı başlayır. Üsyançıları dəstəkləyən Milli Məclis avqustun 6-da feodal imtiyazlarının və kilsə vergisinin (mədaxilin 10%-i) ləğv olunması barədə dekret qəbul edir. Bu dekretdən xəbər tutan kəndlilər yubanmadan kütləvi şəkildə aristokratların və katolik kilsəsinin torpaqlarını zəbt etməyə başlayırlar.

26 avqustda Milli Məclis əsas insan hüquqlarının toxunulmazlığını elan edən "İnsanın və vətəndaşın hüquqları haqqında bəyannamə"ni qəbul edir. 1789-cu ilin avqustunda nümayişçilərin tələbi ilə kral Versaldan Parisə köçür. Onun ardınca Milli Məclisin deputatları da Parisə gəlir və orada ölkənin yeni siyasi quruluşunun layihəsi üzərində işləməyə başlayırlar.

Milli Məclis hər kəsin vətəndaş bərabərliyini və dövlətdə hər hansı vəzifəni tutmaq hüququnu qanuniləşdirir, katolik kilsəsinin torpaqlarını milliləşdirir və kilsəni dövlətdən ayırır; ölkənin seçkili inzibatçıların idarə edəcəyi departament,

kanton və kommunalardan ibarət yeni və rasional inzibati bölgüsünü müəyyən edir, məhkəmə sistemini dəyişdirir (indən belə hakimlər də seçki yolu ilə təyin edilməli idi). Milli Məclis ölkədə konstitusiyalı monarxiya qurmağa cəhd göstərir.

"İnsanın və vətəndaşın hüquqları haqqında bəyannamə" dünyadakı liberal fikrin, düşüncə tərzinin bütün əvvəlki nailiyyətlərini özündə cəmləmiş mühüm tarixi sənəd idi. Bəyannamədə ingilis və Amerika inqilablarının təcrübəsi (azadlıq, mülkiyyət, təhlükəsizlik və zorakılığa müqavimət göstərmək hüququ; təqsirsizlik prezumpsiyası), eləcə də Russonun xalq iradəsinin aliliyi haqqındakı baxışları əks olunurdu.

Təqsirsizlik prezumpsiyası cinayətin törədilməsində təqsirləndirilən hər bir şəxsin, onun təqsiri qanunla nəzərdə tutulan qaydada sübuta yetirilməyibsə və bu barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü yoxdursa, təqsirsiz sayılmasını nəzərdə tutan hüquqi prinsipdir.

Lakin bəyannamədə yeni ideyalar da var idi: qanunlar yalnız cəmiyyətə ziyan vuran məsələləri qadağan edə bilər; bütün vətəndaşlar bərabərdir və öz qabiliyyətlərinə uyğun olaraq istənilən vəzifəni tutmaq hüququna malikdirlər; vergilər insanın imkanlarına müvafiq ödənilməlidir.

Bəyannamə universal xarakter daşıyırdı - yalnız Fransa vətəndaşları üçün hüquq və azadlıqları deyil, həm də bütün bəşəriyyət üçün "təbii və ayrılmaz hüquqlar"ı bəyan edirdi. Bütün Avropaya yayılan bəyannamənin mətni geniş müzakirə edilərək inqilaba rəğbət, dəyişikliklərə meyl və həvəs oyadırdı.

Eyni zamanda, bəyannamənin tənqidçiləri sübut etməyə çalışırdılar ki, orada yazılmış qanunlar ritorika, sözçülükdən başqa heç nə deyildir və Fransada əməli olaraq bunları təmin etmək qeyri-mümkündür. Britaniya tarixçisi Karleyl həmin inqilabdan 45 il sonra yazırdı: "İnsan hüququ bütün kağız konstitusiyaların həqiqi kağız əsası deməkdir. "İnsanın vəzifələrini göstərmək də yaddan çıxıb!", - deyə opponentlər bağırırlar. "İnsanın imkanlarını təsdiq etmək də yaddan çıxıb", - deyə biz cavab veririk".

2.Fransa diplomatiyası Milli Müəssislər Məclisi dövründə

Mütləq monarxiya dövründə Xarici İşlər Nazirliyi və səfirliklər elə təşkil olunurdu ki, mütləq monarxiya siyasətinin itaətkar aləti kimi xidmət etsin. Xarici işlər naziri monarx tərəfindən təyin olunurdu və yalnız onun qarşısında cavabdeh idi.

Səfirlər və nazirlər adətən sarayla sıx bağlı olan aristokrat əsilli insanlardan təyin edilirdilər. Nazirliyin azsaylı məmurları daha çox, üzvləri artıq nazirlikdə və ya sarayda xidmət etmiş burjua əsilli şəxslərdən seçilirdi. Diplomatiya sahəsində

xidmətə başlayan diplomatlar ömrünün sonuna qədər orada qulluq edirdilər. Onlar əsasən etibarlı, itaətkar, sadiq və yaxşı maaş alan insanlar olurdu.

Nazirlik, ərazilərə görə bölünən iki "siyasi idarə"dən ibarət olurdu. Birincisi Qərbi və Mərkəzi Avropa və Amerika dövlətləri ilə, ikincisi - Şərqi və Cənubi Avropa və Skandinaviya dövlətləri ilə yazışmalar aparırdı. Bu iki idarədən başqa, köməkçi şöbələr də var idi.

Bastiliya alındıqdan sonra, Milli Məclis demokratiya prinsipinə əsaslanaraq kral nazirliyinin diplomatiyasına müdaxilə etməyə, onu öz məqsədlərinə tabe etməyə çalışmağa başladı. Milli Məclis zaman-zaman Xarici İşlər nazirinin xarici işlər üzrə məruzələri ilə bağlı sərəncamlar verirdi. 1790-cı ilin mayında, Milli Məclis xarici siyasət məsələləri ilə bağlı kral hakimiyyəti ilə kəskin toqquşdu. Bu zaman İspaniya və İngiltərə arasında, Şimali Amerikanın Sakit okean sahillərinin bir hissəsinə iddialar irəli sürüldüyü üçün müharibə təhlükəsi var idi.

1790-cı ilin yazında, hər iki tərəf müharibəyə hazırlaşırdı. 1761-ci il müttəfiqlik haqqında "ailə müqaviləsi"nə əsaslanan İspaniya sarayı XVI Lüdovikdən kömək tələb etdi. Xarici İşlər naziri, Kralın hərbi dəniz donanmasını İngiltərəyə qarşı silahlandırmaq niyyəti barədə Milli Məclisə məlumat verdi. Onun bu açıqlaması Milli Məclisdə böyük səs-küyə səbəb olub. Burjuaziya fransız mallarını ispan müstəmləkələrinə buraxmayan, "ailə müqaviləsi"nə rəğbət bəsləməyən İspaniya siyasətinə qəzəbləndi. O, bu müqavilədə yalnız bir sülalə birliyi görürdü. Əslində, bir çoxları hesab edirdi ki, kral İngiltərə ilə müharibə bəhanəsi adı altında sadəcə olaraq, inqilaba qarşı mübarizə aparmaq üçün, silahlı qüvvələri artırmaq və onların köməyi ilə Milli Məclisi qovmaq istəyir.

Ona görə də, Milli Məclisin sol hissəsi kralı müharibə elan etmək və sülh bağlamaq hüququndan məhrum etmək qərarına gəldi. Milli Məclis qərara aldı ki, diplomatik danışıqlara özü nəzarət etsin və müqavilələri özü təsdiq etsin. Qızğın mübahisələrdən sonra deputatların əksəriyyətini qraf Mirabo öz tərəfinə çəkə bildi, o, məhz bu zaman kraldan gizli pul vəsaiti almağa başlamışdı. Mayın 24-də, Mirabo Milli Məclisdə müharibə və sülh elan etmək hüququ məsələsinin kompromis həllinə nail oldu. Əldə olunan razılığa əsasən, əgər kral müharibə elan etmək və ya sülh bağlamaq ilə bağlı təkliflər verərdisə, bu məsələlər haqqında yalnız Milli Məclis qərar verə bilərdi. Beləliklə, müharibə elan etmək və sülh bağlamaq hüququ kral ilə Milli Məclis arasında bölünürdü.

İnqilabın ilkin mərhələsində bütün qrupları, cəmiyyətləri və klubları onların radikallığını və inqilabi xarakterini azaltmaq meyarına, yəni soldan sağa tərtib edilmiş müəyyən bir sistem kimi təqdim edilə bilər:

Həddindən artıq solçu qrup, lider J.P.Marat;

Kordelyerlər Klubu, liderlər J.Danton, K.Demulen;

Sosial klub, liderlər K.Foşe, N.Bonvil;

Yakobin Klubu, liderləri Lamet qardaşları, Maksimilian Robespyer;

1789 Cəmiyyəti, lider Lafayet;

Monarxist Konstitusiyanın Dostları Klubu, lider S.Klermon-Tonner;

Aristokrat –Royalistlər Klubu.

Müzakirələr zamanı deputatlar sülalənin məxfi diplomatiyasını və ittifaqlarını kəskin şəkildə pisləyərək bəyan etdilər ki, Fransaya ancaq "ədalətli xalqlarla" "milli müqavilələr" lazımdır. İspaniyanın "ailə müqaviləsi"nin həyata keçirilməsi ilə bağlı tələblərinə baxılması ilə əlaqədar, Milli Məclis diplomatik işlərə nəzarət etmək üçün daimi komissiya yaratdı. Mirabo "Diplomatik komitə"nin rəhbəri oldu. Diplomatik Komitə və Milli Məclis nəhayət kralın və nazirliyin rəsmi diplomatiyasını özünə tabe etdi. Nəhayət, iri mötədil burjuaziya Fransanın xarici siyasətinə rəhbərlik etməyə başladı.

Diplomatik Komitənin təklifi ilə, Milli Məclis İngiltərəyə qarşı mübarizəyə lazım ola biləcəyi üçün İspaniya ilə ittifaqı dəstəklədi. Lakin o, müqavilədən hücumedici xarakter daşıyan bütün maddələri ləğv etdi. Yalnız müdafiə və ticarət öhdəlikləri qaldı. Fransanın xarici siyasətinin əsasları "ümumbəşəri sülh və ədalət prinsipləri" elan edildi.

1791-ci ilin dekabrında qəbul edilmiş xüsusi fərmanla müəyyən edildi ki, "Fransız milləti işğalçılıq məqsədi ilə hər cür müharibədən həmişəlik imtina edir və heç vaxt heç bir xalqın azadlığına qarşı öz gücündən istifadə etməyəcək". Fransız burjuaziyasının özünün fəth istəkləri sonralar, inqilab nəticəsində onun hakimiyyəti möhkəmlənəndə üzə çıxdı. Milli Müəssislər Məclisi dövründə burjuaziyanın hakimiyyəti hələ də qeyri-sabit idi: hərbi tədbirlər onu sarsıda bilərdi və Milli Məclis 1791-ci ilin payızında buraxılana qədər, xarici siyasətdə və diplomatiyada özünün sülhsevər siyasi xəttini qoruyub saxladı.

1789-cu ildə, Avstriya Niderlandında (Belçika) inqilab baş verəndə, Milli Məclis feodal-monarxist Avropa ilə münaqişədən ehtiyat edərək, Belçikanın Avstriyadan müdafiə etmək məsələsinə qarışmağın əleyhinə oldu. Qəzetlərin və klubların Belçika inqilabı ilə bağlı coşqusuna baxmayaraq, kralın və Xarici İşlər nazirinin qərarı ilə, Belçikanın müstəqilliyini elan etməsi barədə bildirişi möhürü açılmadan geri qaytarıldı. Hökumətin addımına Milli Məclis etiraz etmədi.

Milli Məclisin sülhsevər olmasına baxmayaraq, feodal asılılığının bir hissəsinin ləğv edilməsi, Fransanı monarxist Avropa ilə toqquşmağa cəlb etdi. Fransada, Elzasda alman imperiya knyazlarının bir sıra kiçik mülkləri var idi. İnqilab orada senyorların köhnə feodal hüquqlarını ləğv etdi. Knyazlar Almaniya İmperiya seyminə şikayət edərək, öz imtiyazlarını bərpa etmək üçün Avstriya və Prussiyanın, habelə Rusiya və İsveçin bu məsələyə müdaxilə etməsinə çalışdılar. Münaqişədən

qaçmaq istəyən Milli Məclis knyazları fərdi şəxslər kimi itkilərinə görə əvəzini ödəmək qərarına gəldi. Xarici İşlər Nazirliyi onlarla danışıqlara başladı və bu danışıqlar koalisiya ilə müharibə başlayana qədər uzandı. Lakin, sonda razılaşma baş tutmadı. Avstriya, Rusiya və Prussiya knyazları Fransa ilə müharibə etmək üçün əlavə bəhanə əldə etmək ümidi ilə müqavimət göstərməyə çağırdılar. II Yekaterina bu dövlətləri tez bir zamanda Fransa ilə müharibəyə cəlb etmək ümidi ilə, knyazları Avstriya və Prussiyanın müdaxiləsini tələb etməyə təhrik etdi. Konvent, Elzas knyazlarına zərərin ödənilməsi barədə qərarını yalnız koalisiya ilə müharibə başlayanda ləğv etdi.

Milli Məclisin həyata keçirdiyi kilsə torpaqlarının müsadirə edilməsi və ruhanilərin mülki vətəndaşlığının təşkil edilməsi layihəsi Fransa ilə Papa arasında qarşıdurmaya səbəb oldu. Məsələni həll etmək üçün Nazirlik Roma ilə gizli danışıqlara başladı və lakin bu danışıqlar, Milli Məclis tərəfindən əsasən qınandı. Və nəticədə heç bir razılıq əldə olunmadı. İnqilab, Papaya məxsus olan və fransızların məskunlaşdığı Avinyon ərazisinə yayıldı. 1791-ci ilin aprelində, Avinyon əhalisi onun Fransaya birləşməsini tələb etdi.

Diplomatik Komitə, Milli Məclisə əhalinin öz iradəsinin ifadəsi əsasında ərazi ilhaqlarının yeni prinsipini əməldə tətbiq etməyi təklif etdi. Milli Məclisin 14 sentyabr 1791-ci il tarixli fərmanı ilə, Avinyon "kommunaların və vətəndaşların əksəriyyətinin sərbəst və təntənəli şəkildə ifadə etdiyi arzuya görə" Fransaya birləşdirildi. Avinyonun birləşdirilməsi təkcə Roma ilə deyil, həm də əhalisinin inqilabi Fransaya qoşulmaq istəməsindən qorxan qonşu monarx dövlətlərlə münasibətləri daha da gərginləşdirdi. Həmin vaxtdan etibarən, Fransa inqilabı tərəfindən Avropanın beynəlxalq siyasətinə daxil edilmiş milli suverenlik prinsipi, Fransanın koalisiya ilə inqilabi müharibələrinin gedişi zamanı ərazi ilhaqlarına dair bütün dekretlərdə səslənmişdir.

Rəsmi diplomatiya, Milli Məclisin Diplomatik Komitəsinin nəzarəti altında olduğu halda, saray mütləq monarxiyanı bərpa etmək üçün xarici dövlətlərin müdaxiləsini həyata keçirmək üçün gizli fitnəkarlığını davam etdirirdi. Bu barədə xəbərlər yayılırdı. Milli Məclisdə və inqilabi klublarda krala xarici hökumətlərlə əlaqə saxlamağa gizli şəkildə kömək edən keçmiş diplomatik heyətə inamsızlıq artırdı.

Milli Məclisdə diplomatik heyətin mütləqiyyət hökumətinin tərəfdarlarından təmizlənməsi tələbləri səsləndirilirdi. Bu tələblərin təzyiqi altında, hətta gizlicə saraya satılan Mirabo da, 1790-cı ilin yanvarında xarici hökumətlərdə olan Fransa səfirlərinin demək olar ki, tamamilə dəyişdirilməsinin zəruriliyini etiraf etməyə məcbur oldu. 1791-ci ilin martında yeddi səfir dəyişdirildi. Məclis səfirlər üçün

xüsusi and içmə mərasimi təyin etdi. Köhnə diplomatların bəziləri and içməkdən imtina etdiklərinə görə, vəzifələrindən uzaqlaşdırıldılar.

Yayda kralın Fransadan, uğursuzluğa düçar olmuş, qaçmaq cəhdindən sonra, köhnə diplomatik heyət öz etibarını tamamilə itirdi. 1791-ci ildə, Xarici İşlər Nazirliyi də, bu məsələ ilə bağlı əlbir olmaqda ittiham edildi. Varenə qaçış cəhd etdikdən sonra kral müvəqqəti olaraq hakimiyyətdən uzaqlaşdırıldı və demək olar ki, bütün xarici hökumətlər Fransa səfirləri ilə əlaqələri kəsdilər. Bütün bunlara baxmayaraq, inqilabın daha da dərinləşməsindən qorxan Milli Məclis yenidən kral hakimiyyətini bərpa etdi. 1791-ci il konstitusiyasına görə, ona bütün xarici əlaqələri həyata keçirmək və müqavilələr bağlamaq hüququ verildi. Lakin, bir şərt ilə, bu beynəlxalq əlaqələr və bağlanmış müqavilələr qanunverici orqan tərəfindən sonradan mütləq təsdiq olunmalı idi.

3. 1789 - 1792-ci illərdə Avropa diplomatiyası

Fransada inqilab başlayan zaman avropalı diplomatların diqqəti Şərqi Avropada baş verən hadisələrə yönəlmişdi. Rusiya və Avstriyanın Türkiyə ilə 1788-ci ildə başlayan müharibəsi davam edirdi. Avstriya ordusu məğlub oldu. Rus qoşunları uzun müddət mühasirədə saxladığı Oçakovu fəth etdilər. Lakin mübarizənin nəticəsi hələ ki, müəyyənləşmədi. Rusiya eyni zamanda İsveçlə ikinci müharibə aparırdı. İngiltərə və Prussiya həm Türkiyəyə, həm də İsveçə hər cür diplomatik dəstək verirdi. Buna baxmayaraq, Fransa inqilabı çox keçmədən bütün beynəlxalq siyasətə həlledici təsir göstərdi. İnqilab, dövlətləri öa diqqətlərini Avropanın şərqindən qərbinə yönəltməyə məcbur etdi. Köhnə Avropa tarazlığı pozuldu. Fransız inqilabı beynəlxalq münasibətlərin inkişafında yeni bir dövr açdı. Tezliklə burjua-inqilabçı Fransaya qarşı mübarizə, bütün beynəlxalq hadisələrin və diplomatik danışıqların əsas məsələsinə çevrildi.

O dövrdə Avropa siyasətində əsas rolu ən güclü iki qüvvə - ingilis və rus diplomatiyası oynayırdı. İngiltərədə xarici siyasətin rəhbəri Uilyam kiçik Pitt idi. O, Yeddi İllik müharibə zamanı Viq partiyasının üzvü məşhur nazir Lord Çatamın (Uilyam böyük Pitt) oğlu idi. Uilyam Pitt 1783-cü ilin sonundan 1806-cı ilə qədər demək olar ki, fasiləsiz olaraq nazirliyin rəhbəri olaraq qaldı. 1783-cü ilin dekabrında, kabinetin başçısı vəzifəsini öz üzərinə götürən gənc Pitt, Amerika müstəmləkələrini itirməsi ilə sarsılan İngiltərənin mövqeyini gücləndirməyə çalışdı. Bunun üçün Avropa qitəsində müttəfiqlər əldə etmək lazım idi. İngiltərə maliyyə cəhətdən zəngin idi. Əksinə, iqtisadiyyatı daha geridə qalmış Avropa monarxiyalarının maliyyəsi çox zəif idi. Ona görə də, Pitt, sələfləri kimi, müttəfiqlər əldə etməyin əsas yolunu pul subsidiyalarının verilməsində gördü.

Pitt İngiltərənin əsas düşməni kimi Fransanı görürdü, lakin Rusiyanın Baltik və Qara dənizlərdə sürətli möhkəmlənməsi də onu narahat edirdi. Pitt əvvəlcə, subsidiya vasitəsilə Rusiya ilə müttəfiqliyə nail olmaq istəyirdi ki, sonra onu Fransaya qarşı mübarizədə istifadə etsin. Eyni zamanda, onun başqa bir məqsədi də var idi: Rusiya siyasətinə müdaxilə edərək, onun uğurlarının qarşısını almağa cəhd etmək. Sankt-Peterburqda onun niyyətləri yaxşı təxmin edildiyi üçün, o. rədd cavabı aldı. Pitt, Prussiya və Niderlandda zadəgan partiyası ilə yaxınlaşmaq siyasətinə getdi. Bu partiya, Niderland burjuaziyasının bir hissəsi ilə İngiltərə və Prussiya meylli siyasət aparırdılar. Fransız İnqilabından əvvəl, Fransa ilə ticarət müqaviləsi və İngiltərə-Prussiya-Hollandiya ittifaqının yaradılması Pitin əsas diplomatik uğurları idi. Onun müttəfiqlər ilə münasibətdə siyasəti- onlardan nə var hamısını almaq və heç nə verməmək idi.

Xarici düşmənlərə münasibətdə, Pitt heç bir vasitədən çəkinmirdi. Pitt "böyük üslüb"a malik siyasi xadim idi - o, Britaniya xarici siyasətinin ana xəttini yalnız özü möhkəm və qəti şəkildə təyin edirdi. Fransız inqilabının lap əvvəlindən Pitt ona nifrət edirdi. Lakin o, inqilabın Fransanı zəiflədəcəyinə ümid edirdi. O, Ən çox, inqilabın bütün Avropaya yayılmasından qorxurdu. Belçikada inqilab başlayanda, Pitt ümumi qüvvələrlə alovlanan yanğını söndürmək üçün, Avstriya və Prussiyanı diqqətlərini Şərqi Avropa məsələlərindən yayındırmağa və qarşılıqlı düşmənçiliklərini unutmağa məcbur etmək qərarına gəlmişdi. Prussiyaya göndərdiyi müraciətdə ona Belçika inqilabının birgə yatırılması barədə razılığa gəlməyi təklif etdi. Hətta o zaman inqilabçı Fransa ilə mübarizə aparmaq üçün beynəlxalq birlik yaratmağın qayğısına qaldı. Gələcəkdə Pitt Fransaya qarşı yaranmış əksinqilabi koalisiyanın əsas ilhamçısı və təşkilatçısı oldu.

Rusiya diplomatiyası II Yekaterina və ona yaxın bir neçə adamın səlahiyyətində idi. Xarici Əlaqələr Kollegiyasında "birinci şəxs" olan vitse-kansler Qraf Osterman təşəbbüskarlıq məsələsində qətiyyətsiz və bacarıqsız bir adam idi. O, yalnız danışıqlarda və qəbullarda özünü böyük əhəmiyyət kəsb edən adam kimi apara bilirdi. II Yekaterinanın özü, onun etibar etdiyi istedadlı müşaviri knyaz Bezborodko və knyaz Potyomkin bütün yeni diplomatik planların əsas təşəbbüskarları idilər. Fransada inqilab illərində yaranmış siyasi vəziyyət rus diplomatiyasının uğur qazanmasına kömək edirdi. Çarizm hələ də güclü idi.

Rusiyada öz mübarizəsi ilə hərbi-feodal quruluşunu zəiflədəcək güclü burjuaziya yox idi. II Yekaterina kəndli müharibəsini qan içində boğmağı bacardı. Nəhəng ərazi, çoxsaylı əhali və güclü ordu Rusiyanı güclü hərbi-feodal dövlətinə çevirmişdi. Rusiyanın qonşuları zəif və geridə qalmış dövlətlər idi: tam dağılma vəziyyətində olan Polşa, İsveç və Türkiyə. Rusiya diplomatiyası öz dövlətlərinin Avropa

siyasətində payını artırmaq üçün, İngiltərə ilə Fransa, Avstriya ilə Prussiya arasındakı mübarizədən məharətlə istifadə edirdi.

Görkəmli diplomatik bacarıqlara malik olan Yekaterina özü də digər dövlətlərin maraqlarını və istəklərini açıq şəkildə dərk edirdi. Pitt kimi, o, da diplomatik məqsədlərinə çatmaq üçün ən əlverişli anı seçərək, kifayət qədər soyuqqanlılıq, səbir və möhkəmlik nümayiş etdirirdi. Bu məqsədləri, mülkədarların və tacirlərin zadəgan-təhkimli imperiyasının maraqları müəyyən edirdi. 1789-cu ildə, şərq məsələsində onlar Buq və Dnestr arasında Qara dəniz sahillərinin alınmasına və Avstriya ilə ittifaqda Türkiyənin bölünməsinə qədər gedib çıxdılar. Bundan əlavə, Yekaterina Polşada Rusiyanın hökmranlığını saxlamaq və öz imperiyasını şimalda İsveç hücumundan qorumaq istəyirdi. Məqsədlərinə çatmaq üçün İmperatriça İngiltərə-Prussiya-Hollandiya liqasına qarşı yönəlmiş möhtəşəm bir koalisiya yaratdı. Bu dörd dövlətin -Rusiya, Avstriya, Fransa və İspaniyanın ittifaqı idi. Bu ittifaq haqqında danışıqlar hələ 1787-ci ilin sonlarında Sankt-Peterburq və Parisdə başlamışdı.

Rusiya diplomatları, Türkiyə hesabına Misir və Yunanıstanda edəcəyi fəthlərlə Fransanı şirnikləndirirdilər. Maliyyə və siyasi böhran keçirən Fransa monarxiyasının zəifliyi, İspaniyanın Şərqi Avropanın işlərinə qarışmaq istəməməsi danışıqları ləngitdi. Yekaterina başa düşürdü ki, Fransız İnqilabı onların tam uğursuzluğu deməkdir, çünki Müəssislər Məclisi bu birliyə heç vaxt icazə verməyəcək idi. Lakin, II Yekaterina Fransada inqilabın zadəganlara və monarxiyaya vurduğu zərbədən çox təəssüfləndi. İmperatriça inqilaba dərindən nifrət edirdi. O, Müəssislər Məclisini "1200 başlı əjdaha", "dəlilər və quldurlar dəstəsi" adlandırırdı və getdikcə onu əzmək üçün inqilabla müharibəyə başlamaq istəyi ilə yanırdı. Amma İsveç və Türkiyə ilə mübarizə onun bu niyyətlərinə mane oldu. O, üzünü daxili tədbirlərlə məhdudlaşdırmalı oldu: senzuranın artırılması, polis nəzarəti, katorqaya (ağır icbari iş) göndərmək və azad düşüncəli yazıçıları sürgün etmək. Lakin fransız mühacirləri, Rusiyada xüsusi mehribanlıqla qarşılanırdı.

4. Reyxenbax müqavilələri (27 iyul 1790-cı il)

Fransada baş verən inqilabi hadisələrin təsiri ilə 1789-cu ilin payızında Belçikada Avstriya hakimiyyətinə qarşı inqilab baş verdi. Üsyan edən əyalətlər Avstriyadan ayrıldıqlarını elan etdilər. Bu, Avstriya diplomatiyasını əsas diqqətini Türkiyə ilə apardığı müharibədən Avropanın qərb hissəsinə çevirməyə məcbur etdi. Aşağı Niderlandın Avstriyanın hakimiyyəti altına qaytarılması II Leopoldun əsas vəzifəsinə çevrildi. İngiltərə və Niderland bu məsələdə Avstriya ilə həmrəy idilər. Avstriya Niderlandında (Belçika) inqilabın uğuru həmin ölkəni Fransanın təsiri

altına sala bilərdi. Bu da, Belçikanın strateji mövqeyinin əhəmiyyəti baxımından İngiltərə və Hollandiya üçün böyük təhlükə yarada bilərdi.

Lakin Prussiyada, Avstriyanı zəiflətmək üçün onun çətinliklərindən istifadə etmək qərarına gəldilər. Prussiya diplomatiyası 1763-cü ildən nazir postunu tutan Hersberqin əlində idi. O, II Fridrixin tələbəsi və özündənrazı hiyləgər şəxs idi. O, ərazi ilhaqlarının və mübadilələrin mürəkkəb və qarmaqarışıq layihələrini tərtib etməyi və əvvəlcədən, siyasətdə gözlənilməz prosesləri ən xırda təfərrüatlarına qədər hesablamağı xoşlayırdı. II Fridrix onu müəyyən dərəcədə nəzarətdə saxlayırdı. Lakin, II Fridrixin ölümündən sonra (1786), bacarıqsız və zəif Kral II Fridrix Vilhelmin hakimiyyəti dövründə qoca nazir öz siyasi fantaziyalarını icra etməkdə qərarlı idi.

Hersberqin əsas məqsədi Avstriyanı zəiflətmək, Polşaya aid olan Dantsiq və Torn şəhərlərini ilhaq etmək idi. Bu şəhərlərə sahib olmaq Prussiyaya Visla çayının aşağı axarında hökmranlıq etmək imkanı verəcək idi. 1790-cı ildə, Prussiya Avstriya və Rusiyaya qarşı Polşa və Türkiyə ilə ittifaqa girdi. Hersberq və kral Avstriyaya müharibə elan etmək və Belçika inqilabına dəstək verməklə təhdid edərək, imperator Leopoldu Türkiyə ilə müharibədən əl çəkməyə və Qalitsiyanı polyaklara verməyə məcbur etməyə çalışdılar. Bu dəstəyə görə, mükafat olaraq, Hersberq Polşadan Dantsiq və Tornu almaq istəyirdi. O, İngiltərənin köməyi ilə Avstriyanı qorxutmağa və diplomatiya yolu ilə güzəştlər əldə etməyə ümid edirdi. Son çarə kimi, Hersberq Avstriya ilə müharibəyə getməyə hazır idi.

II Leopold ən çox Belçikanı itirməkdən qorxurdu, lakin Qalitsiyanı polyaklara vermək və Türkiyədə baş tutacaq fəthlərdən də imtina etmək istəmirdi. Çünki, Suvorovun qələbələri, ruslara və avstriyalılara 1789-cu ildə Moldaviya və Valaxiyanı işğal etməyə imkan vermişdi. İmperator özü də Prussiya ilə müharibəyə hazırlaşırdı. Hər iki tərəf ordularını öz sərhədlərinə yeritdilər.

Hersberq ümid edirdi ki, şimalda və cənubda müharibə etnək ilə məşğul olan Rusiya Avstriyaya, Prussiyaya qarşı mübarizədə kömək etməyəcək. O, hesab edirdi ki, Prussiyanın Avropanın taleyinin əsas hakimi olacağı, həm Şərq, həm Polşa, həm də İsveç məsələlərində vasitəçi rolunu oynaya biləcəyi, İngiltərənin isə ona sadiq müttəfiq kimi kömək edəcəyi an gəlib çatmışdır.

İngilis diplomatları, özlərini Prussiyanın planlarını həqiqətən təqdir etmiş kimi aparırdılar. Hersberq bunun sadəcə olaraq İngiltərə və İspaniya arasında Amerikanın Sakit okean sahilindəki torpaqlar uğrunda müharibə təhlükəsi aradan qalxana qədər Pittə lazım olan bir oyun olduğunu başa düşmədi. O, eyni zamanda İngiltərənin, II Leopoldun Türkiyə Serbiyasının bir hissəsini ilhaq etmək hüququnu tanımasından belə şübhələnmədi. Hətta İngiltərə səfirinin Vyanada Avstriyanın müharibədə olan itkiləri barədə dediyi "qırılan qabların əvəzini türklər ödəməlidir" sözlərini nəzərə

almadı. Pitt öz agentləri vasitəsilə, Berlində təkzib ediləni Vyanada təsdiq edir və eyni ilə əks addım da atırdı. Heç nədən şübhələnməyən Hersberq diplomatları Sileziyanın Reyxenbax kəndində konfransa dəvət etdi. Prussiya burada yerləşən düşərgəyə, Avstriyaya hücum etmək üçün öz ordusunun əsas qüvvələrinin cəmləmişdi.

Lakin, Pitt o zaman artıq müttəfiqi olan Prussiya üçün ağır zərbə hazırlayırdı. O, Prussiya maraqları naminə Avstriya ilə müharibədə Prussiyanı dəstəkləmək üçün ingilis subsidiyalarını sərf etmək istəmir və Avstriyanı prussiyalılara qurban vermək niyyətində deyildi. Putt, Avstriyanı Rusiya ilə ittifaqdan qoparmaq və şərqdə işğalçılıq istəklərinə mane olmaq fikrində idi. Pitt aydın şəkildə görürdü ki, 1790-cı ildə, Prussiya və Avstriya qüvvələri təxmini bərabər olduğuna görə, Prussiya deyil, İngiltərə Avropa tarazlığında taleyin hakimidir.

Fransada bütün diqqət daxili mübarizəyə yönəlmişdi. Rusiya şimalda və cənubda iki rəqiblə müharibə aparırdı. Pitt bunu yaxşı nəzərə alırdı. O bilirdi ki, əvvəllər Avstriya ilə Prussiya arasında mübahisələri həll edən bu iki dövlətin yeri indi İngiltərəyə məxsusdur. Prussiyanın Polşa hesabına Baltik dənizində möhkəmlənməsi onun planlarına aid deyildi.

Son anda, xoşagəlməz bir hadisə olacağını hiss edən Prussiya kralı müxtəlif bəhanələrlə, ingilis və holland səfirlərini Breslavlda saxlayaraq, Reyxenbaxa buraxmamağa çalışırdı. Lakin kəskin etirazlardan sonra, səfirlər konfransa getdilər. Burada Pittin planları açıqlandı və Hersberqin xəyalları sona çatdı. İmperator II Leopold da aldadılmış oldu.

Reyxenbax konfransı başlayan zaman, Pitin qarşısında artıq İspaniya ilə müharibə təhlükəsi dayanmırdı. Ona görə də onun prussiyalıların yanında çəkinəcəyi heç bir məsələ yox idi. İngiltərə və Hollandiya, Prussiyanın Avstriyaya qarşı hərbi dəstək olmaqdan qəti şəkildə imtina etdilər. Onlar, sərt status-kvo əsasında hər iki tərəfin barışmasını və Belçika inqilabını yatırmağa razılıq vermələrini tələb etdilər. Avstriya Türkiyə əraziləri hesabına fəthlərdən əl çəkməli və Krım müharibəsindən əliboş çıxmalı oldu. Yalnız bu şərtlə İngiltərə, Hollandiya və Prussiya ona Belçika üzərində hakimiyyətinin bərpasına kömək etmək üçün razılaşırdılar.

Şərq siyasətinə sələfi II İosifdən daha çox biganə olan imperator II Leopold, bu şərt ilə tez razılaşdı. O, hesab edirdi ki, Belçikanı geri almaq imkanı ilə kifayətlənmək daha yaxşıdır. Lakin, bütün həyatlarını Prussiyaya qarşı barışmaz düşmənçilik ənənəsi ilə yaşamış köhnə kansler Kaunits kimi köhnə fikirli Avstriya diplomatları qəzəb, hiddət hissləri ilə özlərini alçaldılmış kimi qəbul etdilər.

Prussiyanın qarşısında iki yol qalırdı: müttəfiqsiz Avstriya ilə müharibə və ya Hersberq planından imtina etmək. Kral, Prussiyanın tək özünün, Avstriya üzərində

hərbi üstünlüyünə malik olmadığını görürdü. O, uğursuz nazirinin planlarını qurban verərək, müharibəyə başlamaq ilə risk etməmək və güzəştə getmək qərarına gəldi.

1790-cı il iyulun 27-də, imzalanan Reyxenbax müqavilələrinə əsasən Prussiya Hersberq planından, Avstriya isə Türkiyə hesabına ərazi fəthlərindən imtina etdi. Avstriya, status-kvo əsasında Şərq müharibəsindən çıxacağını və Rusiyaya bir daha kömək etməyəcəyini öhdəsinə götürdü. Bu müqavilənin nəticəsi Avstriya-Türkiyə atəşkəsi (1790-cı ilin sentyabrı) və Avstriya ilə Türkiyə arasında Sistovda (1791-ci ilin avqustunda) yekun sülh müqaviləsinin bağlanması oldu. Bunun müqablində, İngiltərə və Prussiya Avstriyanın Belçika üzərində hakimiyyətini bərpa etməyə kömək edəcəklərinə söz verdilər. Bu, Pitt diplomatiyasının tam təntənəsi idi: qatı düşmənlər - Avstriya və Prussiya arasında müharibənin qarşısını alan Pitt, onları Fransa inqilabının Avropaya təsirinə qarşı mübarizədə əməkdaşlıq yolu tutmağa məcbur etdi. O, həmçinin Avstriya Belçikasını inqilabçı Fransaya qarşı bufer (aralıq) ərazi kimi saxladı.

Reyxenbax müqavilələrindən sonra, artıq 1790-cı ilin dekabrında Avstriya qoşunları Brüsseli işğal etdilər və Belçikada inqilabı yatırdılar. 1790-cı ilin sonunda, İngiltərə, Avstriya, Prussiya və Hollandiya nümayəndələrinin Haaqada toplanan konqresi nəhayət, Avstriyanın Belçika üzərində hakimiyyətinin bərpasını tanıdı və rəsmiləşdirdi. Bu hadisə, diplomatik konqreslərin tarixində ilk təcrübə idi ki, inqilabı yatırmaq planları ilə bağlı çağırılmışdı. Reyxenbax sazişlərinin tarixi əhəmiyyəti ondan ibarət idi ki, Avstriya və Prussiyanı Belçikadakı inqilaba qarşı mübarizədə əməkdaşlığa məcbur etməklə, Fransaya qarşı əksinqilabi koalisiyanın yaradılmasına yol açdılar. Lakin, bununla belə, İngiltərə ilə Prussiya arasında münasibətlər bir qədər də soyudu.

5. 1791-ci il Şərq böhranı. Uilyam kiçik Pitt və II Yekaterina

Avstriyanı Belçikanı itirmək ehtimalı ilə qorxudan və onu Krım müharibəsindən əliboş çəkilməyə məcbur edən Pitt, Rusiya ilə də eyni addımı atmaq qərarına gəldi. O, hesab edirdi ki, Türkiyə ilə müharibə Rusiya üçün Yekaterinanın əvvəldə düşündüyündən qat-qat çətin olmuşdur. Avstriya müharibədən çıxdı. Onun dəstəyi olmadan, Yekaterina türk mülklərinin bölünməsi planını həyata keçirə bilməz. O, indi yalnız Oçakovun Rusiyaya verilməsini və Buq və Dnestr arasındakı çöl sahəsinin bir hissəsini tələb edirdi. Suvorovun yeni qələbəsi – türklərin Dunay çayının sahilində yerləşən İzmail qalasına hücum edib ələ keçirməsi, türkləri bu şərtlərlə razılaşmağa məcbur etdi.

İzmail qalasının tikintisinə 1781-ci ildə başlanmış və 1790-cı ilə qədər davam etmişdir.1790-cı ildə A.V.Suvorov tərəfindən fəth edilən bu qala torpaq istehkam

tipli, torpaq sipər və xəndəkli, cənub-qərb küncündə daş sədləri olmuşdur. 1796-1797-ci illərdə, daha təkmil olan yeni qalanın tikintisinə başlanmışdı.

1790-cı ilin martında ruslar Budayk regionunda (indiki Ukrayna) İzmailin mühasirəsinə başladı. Suvorovun əmri ilə 22 dekabr 1790-cı ilin səhərində ruslar qalaya hücum etməyə başladı. 8:00-dan etibarən ruslar qalaya daxil oldular. Nəticədə, Osmanlı qüvvələrinin 26,000-dən çox əsgəri qətlə yetirildi və beləcə qarnizonda olan əsgərlərin hamısı həlak oldu, yaralandı və ya əsir düşdü. Ruslar isə sadəcə 4,330 nəfər itki verdi.

Lakin, Pitt bu hadisəni Rusiyanın bütün Qara dəniz hövzəsi və Polşa üzərində hökmranlığının qurulmasına təhlükə kimi görürdü. Polşa cənubdan rus torpaqları ilə əhatə olunaraq, Buq və Dnestrdən çıxışı bağlayacaqdı. Bu zaman, Pitt özü də türk mülklərində və Polşada ingilis ticarətini genişləndirmək arzusunda idi. O istəmirdi ki, Rusiya Qara dənizə axan bütün böyük çayların mənsəbinə sahib çıxsın. Prussiya nazirliyi və Pitt Yekaterinanı müharibə ilə təhdid etməyə başladılar. Onlar, israrla Türkiyə ilə danışıqlarda öz vasitəçi olmalarını təklif edirdilər. Çünki, onlar status-kvonu saxlamaq şərti ilə bağlı Rusiyadan razılıq almaq istəyirdilər.

Yekaterina ehtiyatla özünü elə göstərdi ki. guya İngiltərə və Prussiyanın "xoşməramlı xidmətini" (bons offices) qəbul etməyə razıdır, lakin, onların vasitəçilik təkliflərini qəti şəkildə rədd etdi. XVIII əsrdə danışıqlarda iştirakın bu iki formasını artıq yaxşı fərqləndirirdilər. Vasitəçilik o demək idi ki, Yekaterina Türkiyə ilə birbaşa danışıqlardan imtina etməli və onunla bütün əlaqələri yalnız İngiltərə və Prussiya nümayəndələri vasitəsilə saxlamalıdır. "Xoşməramlı xidmət"in qəbulu imperatriçanı yalnız Prussiya və İngiltərənin məsləhət və təkliflərinə qulaq asmağa məcbur edərdi: ancaq, Rusiya türklərlə sülh danışıqlarını təkbaşına apara bilərdi. "Xoşməramlı xidmət"in təklifindən də Yekaterina ən sonda, əlverişli an yaranan kimi imtina edəcəyinə ümid edirdi.

Rusiyanın inad etdiyini görən İngiltərə 36 döyüş gəmisindən ibarət donanmanı təchiz etməyə başladı. Prussiya silahlanaraq və səfərbərlik elan edərək, Torn və Dantsiqi işğal etmək üçün fürsət gözləməyə başladı. Peterburqda olan Britaniya səfirinin Rusiyaya qarşı kəskin ultimatumu hazır idi. Lakin, II Yekaterina hadisələri sakitcə seyr edirdi. İmperatriça, Pitin siyasətinin bu dəfə Parlamentdə şiddətli etirazla qarşılandığını bilirdi. Rusiyanın Londondakı səfiri Vorontsov müxalifətlə sıx əlaqə saxlayırdı. Müxalif Britaniya xadimləri və qəzetləri Pitt hökumətini amansızcasına tənqid edirdilər.

Bu, İngiltərənin Rusiya ilə Baltik ticarətindən artan böyük gəlirlər əldə etməsi ilə izah edilirdi. Rusiya ilə münasibətləri pozmaqla onları itirmək təhlükəsi yaradırdı. İngilis tacirləri, haradasa uzaqlarda yerləşən bir parça çöllüyün və Oçakov şəhərinə

görə, Rusiya ilə müharibə apararaq, itkilərə məruz qalmaq haqqında heç eşitmək belə istəmirdilər.

Hökumətin müharibə ilə bağlı kredit alma qanunu Parlamentdə o qədər kiçik səs çoxluğu aldı ki, Pitt öz hakimiyyətini itirməkdən qorxmağa başladı. Rusiyaya ultimatum verilməsinin qarşısını almaq üçün, dərhal Sankt-Peterburqa çapar göndərildi. Tezliklə o, donanmanı da tədricən tərksilah etməyə məcbur oldu.

Bu vaxt ərzində, Yekaterina İngiltərənin "xoşməramlı xidmətini" qəbulunu gecikdirirdi. Peterburqda olan ingilis nümayəndəsinin başını, türklər heç bir vasitəçi olmadan barışıq imzalayana qədər, müxtəlif əyləncələrlə qarışdırdılar. Yassi müqaviləsi (29 dekabr 1791-ci il) nəhayət, Oçakovu və Buq və Dnestr arasındakı sahili Rusiyaya birləşdirilməsini təmin etdi.

1791-ci ilin yazında, Şərq böhranı Pitin diplomatik məğlubiyyəti və II Yekaterinanın qələbəsi ilə başa çatdı. Piti daha da qəzəbləndirmək üçün, Yekaterina Vorontsova açıq şəkildə Londondan onun üçün müxalifətin məşhur nümayəndəsi Foksun büstünü almağı əmr etdi. Və sonra isə, həmin büstü öz sarayının qarşısında quraşdırmağı əmr etdi.

6. Kral XVI Lüdovikin ölkədən uğursuz qaçma cəhdi və əksinqilabi koalisiyanın yaradılması

1790-cı ildə Reyxenbax razılaşması ilə Pitt kralın Fransaya qarşı yaratmaq istədiyi koalisiyanın ilk əsasını qoydu. Amma dövlətlər hələ də Şərq məsələləri ilə məşğul idilər. 1791-ci ilin iyununda, XVI Lüdovikin Parisdən uğursuz qaçışına qədər koalisiyanın yaradılması ilə bağlı heç bir iş görülməmişdi. Koblentsdə toplanan fransız mühacirləri Avropa hökumətlərindən kömək istəyirdilər. Fransanın kraliçası Avstriya və digər dövlətlərlə gizli yazışmalar aparır, onlardan kömək istəyirdi. Eyni zamanda, kral ikiüzlü şəkildə Avropanı əmin edirdi ki, o, Milli Məclislə həmrəydir.

Qaçış planı haqqında yalnız bir neçə nəfər bilirdi, lakin, onun hazırlanması ilə bağlı şayiələr çoxdan bütün hər yerdə dolaşırdı. İmperator Leopold kraliçaya, yalnız kral ailəsi Fransanı tərk etsə kömək edəcəyini vəd etmişdi. Kral və kraliça Rusiya səfiri Simolinin xahişi ilə, nazirlik tərəfindən rus polkovnikinin dul arvadının adına verilən pasportlarla gizli şəkildə qaçmaq qərarına gəldilər.

1791-ci il iyunun 21-nə keçən gecə Lüdovik və bütün ailəsi gizli şəkildə üç mühafizəçinin müşayiəti ilə karetada ölkənin şərq sərhədinə doğru yola düşdü. Qaçış isveçli qraf Hans Aksel fon Ferzen tərəfindən həyata keçirildi.

Sent-Mendə poçt müdiri Drue hərəkət edən karetada kralı gördü, lakin buna əmin olmaq üçün atına minib onların dalınca yola düşdü. Varendə libasını dəyişmiş Lüdoviki tanıyaraq həyəcan təbili çaldı. Kral və kraliça həbs olundu və müşayiət

altında Parisə qaytarıldı. XVI Lüdovikin qaçışı uğursuz oldu. Kral Varendə saxlanıldı və monarxiyanın nüfuzu tamamilə sarsıldı.

Onları qaytardıqdan sonra milli Müəssislər Məclisi qərara aldı ki, kral konstitusiya ilə razılaşarsa, hakimiyyətə qaytarıla bilər.

1791-ci ilin payızından kral xilas ümidlərini xarici müdaxilənin perspektivlərinə bağladı. Eyni zamanda, o, Qanunverici Məclisdə Jirondist fraksiyasını Avstriya ilə müharibə siyasətinə təşviq etdi. O, hesab edirdi ki, Fransanın hərbi fəlakəti onun kral hakimiyyətinin bərpasına zəmin açacaq. O, gizli şəkildə əksinqilabi siyasət aparmağa başladı.1791-ci il sentyabrın 14-də Lüdovik yeni konstitusiyaya and içdi, lakin mühacirlərlə və xarici dövlətlərlə danışıqlara davam etdi.

Kralın qaçış planının uğursuzluğu və Fransada respublika qurmaq hərəkatının genişlənməsi feodal-monarxist Avropasını təşvişə saldı. Bu, əksinqilabi koalisiyanın yaradılmasını sürətləndirən təkan verici rol oynadı.1791-1792-ci illərdə bu koalisiyanın yaradılmasında əsas rol, Rusiya, Avstriya və Prussiya diplomatiyasına aid idi.

7.Fransaya müdaxilə etmək üçün Avropa konqresinin çağrılması ideyası (1791)

1791-ci ildə Aaxen və ya Spada Avropa konqresi çağırmaq ideyası yarandı. Bu konqresdə Fransa işlərinə müdaxilə etmək üçün ümum-Avropa ittifaqı təşkil etmək və Fransa inqilabını yatırmaq məsələləri müzakirə olunmalı idi. Kraliça Mariya Antuanetta imperator II Leopold və digər monarxlarla gizli yazışmalarında həyacanla bu konqresin çağırılmasında təkid edirdi. Eyni zamanda, Avstriya ilə Prussiya, Fransaya qarşı daha sıx birləşərək, 1791-ci ilin iyulunda, birgə hərəkətlərin mümkünlüyü barədə razılığa gəldilər. II Leopold diplomatik konqres çağırmaq və Fransaya qarşı ittifaq yaratmaq layihəsi ilə Avropa dövlətlərinə müraciət göndərdi.

Leopold, Prussiya kralına müfəssəl fəaliyyət planı ilə xüsusi məktub göndərdi: Dövlətlər birlikdə Fransanı öz inqilabi yolunda dayanmasını tələb etməli idilər, imtina etdiyi təqdirdə, konqres çağırmaq, Fransada gələcək idarəetmə formasını ilkin şərtlərini razılaşdırmaq və sonra isə silahlı müdaxiləyə başlamaq nəzərdə tutulurdu. Bu yazışmalarda Leopold və Avstriya kansleri Kaunits "yoluxucu" inqilabi ruhu yatırmaq üçün monarxiya dövlətlərinin Fransanın daxili işlərinə müdaxiləsinin qanuniliyini sübut etməyə çalışdılar. Onlar əminliklə bildirirdilər ki, bu addımın "dövlətlərin ictimai sülh və təhlükəsizliyini, mülkiyyət toxunulmazlığını və müqavilələrə riayət edilməsini qorumaq üçün" həyata keçirilməsi vacibdir. Bu təmtəraqlı sözlər altında, mürtəce monarxist diplomatiya inqilabın zadəganların imtiyazlarını və hökmranlığını devirəcəyi ilə bağlı qorxusunu gizlədirdi.

1791-ci il diplomatik yazışmaları və əksinqilabi koalisiyaların yaradılması ilə bağlı o dövrün digər sənədləri öz ilkin formasında, XVIII əsrin sonu və XIX əsrin əvvəllərində əks-inqilabi zadəgan-monarxist diplomatiyasının əsas prinsiplərindən birini - inqilabları yatırmaq üçün başqa ölkələrin daxili işlərinə silahlı müdaxilə fikrinin əsaslandırılmasını ehtiva edirdi. Bu bədnam "müdaxilə hüququ" daha sonralar, Müqəddəs İttifaq dövründə, 1820-ci ildə Troppauda keçirilən konqresdə tam hazır sənəd vəziyyətində ortaya çıxarıldı.

1791-ci ildə, Leopold ümumavropa birliyi və konqres planını həyata keçirə bilmədi. İngiltərə və Rusiya imperatorun dəvətinə cavab vermədilər. Pitt hadisələrin gedişini müşahidə etmək qərarına gəldi. O, mühacirlərin silahlı müdaxilə etmək təklifindən imtina etdi və açıq şəkildə dövlətlərin ümumi tədbirlərində iştirak etmək istəmədi. 1791-ci il mayın 3-də, Polşada baş verən, Rusiya təsirinə qarşı yönəlmiş çevriliş, Rusiyanı qəfildən Avropa məsələlərindən yayındırdı.

Fransa ilə müharibə əvəzinə, Yekaterina polyaklarla məşğul olmağa məcbur oldu. Belə bir şəraitdə Yekaterina Fransaya qoşun göndərmək istəmirdi və göndərə də bilməzdi. Lakin o, tez bir zamanda digər dövlətlərin anti-Fransa koalisiyası yaratması üçün hər cür səy göstərdi. Keçmiş düşməni İsveçlə barışqıdan sonra o, İsveç kralı III Qustavı Fransaya qarşı səlib yürüşünə rəhbərlik etməyə çağırdı. 1791-ci ilin oktyabrında Yekaterina İsveçlə hərbi ittifaqa girdi və ona donanma və əsgərlərlə bağlı kömək vəd etdi. III Qustav fransız mühacirlərlə sıx əlaqələr qurdu. Kraliça Mariya Antuanetta onunla gizli yazışırdı. III Qustav, müalicə və Fransaya qarşı yürüşə hazırlaşmaq üçün şəxsən Aaxenə getdi. Yekaterina həmçinin Prussiya və Avstriyanı da tezliklə Fransaya qarşı çıxmağa çağırdı.

O, Fransa inqilabını, heç olmasa başqa qüvvə ilə də olsa , darmadağın etmək və Avstriya və Prussiyanın diqqətlərini Polşadan yayındıraraq, oranı ancaq öz gücü ilə idarə etmək fikrinə düşdü. 1791-ci ilin sonunda, imperatriça öz katibi Xrapovitskiyə demişdi: "Mən, Vyana və Berlin saraylarını Fransa işlərinə müdaxilə etməsi üçün çox səy göstərirəm... deyilə bilməyən çoxlu səbəblər var. Yarımçıq qalmış çoxlu işlərim var, onların məşğul olması, mənə mane olmaması lazımdır." Lakin, Rusiya-İsveç müdaxiləsi baş tutmadı. Polşada baş verən çevriliş və polyaklarla mübarizə II Yekaterinanın qüvvələrini yayındırdı; bundan əlavə, III Qustav Aaxendən İsveçə qayıdarkən bir İsveç zadəganı tərəfindən öldürüldü. Kralın ölümündən sonra, İsveçdə Rusiyaya düşmən olan partiya hakimiyyətə gəldi.

Hələ 1791-ci ilin fevralında, Berlin və Vyana arasında Fransaya qarşı yaxınlaşma ilə bağlı gizli danışıqlar başladı. Avqust ayında Saksoniyada olan Pilnits qəsrində İmperator Leopold ilə Prussiya kralı arasında görüş keçirildi və avqustun 27-də "Pilnits bəyannaməsi" imzalandı. Bu bəyannamədə kifayət qədər qeyri-müəyyən bir şəkildə elan edilirdi ki, Prussiya və Avstriya XVI Lüdovikin hakimiyyətini bərpa

etmək üçün müharibəyə başlamağa hazırdırlar. Buna baxmayaraq, Pilnitsdən sonra hər iki tərəf hərbi əməliyyata başlamaq üçün uzun müddət tərəddüd etdilər. Hiyləgər və ehtiyatlı Leopold, Yekaterinanın fikrini başa düşdü. O, təxmin edirdi ki, Prussiya kralı Rusiya ilə birlikdə Polşanın ikinci dəfə bölünməsində iştirak etmək istəyir və ona görə, Fransa ilə müharibəyə girməklə, bu sövdələşmədən kənarda qalacağından ehtiyat edirdi. Lakin, 1792-ci il fevralın 7-də inqilab qorxusundan və Prussiya ilə yaxınlaşmanın tərəfdarı olan nazir Kobentslin təkidi ilə, Leopold nəhayət, Prussiya ilə müttəfiqlik müqaviləsi bağladı. Avstriya və Prussiya Fransaya qarşı hər biri 40.000-dən 50.000-ə qədər qoşun çıxarmaq üçün öhdəlik götürdülər. Hər iki tərəf Fransanın əraziləri hesabına qazandıqları ilə özlərini mükafatlandırmağa ümid edirdilər. Prussiya kralı Elzası işğal etmək, avstriyalılar isə Belçikada olan mülklərini genişləndirmək və ya Belçikanı Bavariya ilə dəyişmək istəyirdilər.

8.Qanunvericilik məclisi dövründə Fransa diplomatiyası (1791-ci ilin payızından 1792-ci ilin 10 avqustuna kimi)

1791-ci ilin sentyabrında XVI Lüdovik konstitusiyaya imza atdı və yenidən Avropa hökumətlərinə Milli Müəssislər Məclisi ilə həmrəy olduğu barədə rəsmi məlumat verdi. Eyni zamanda, kraliça gizli məktublarla monarxlara məlumat verirdi ki, XVI Lüdovik öz hərəkətlərində azad deyil. Belə bir şəraitdə, 1791-ci ilin oktyabrında Qanunvericilik Məclisi açıldı.

Fransa İnqilabının hadisələrinin məntiqi ona gətirib çıxardı ki, Konstitusiya qəbul edildikdən və Qanunvericilik Məclisinə seçkilər elan edildikdən sonra Müəssislər Məclisi özünü buraxdı. 1791-ci il konstitusiyasına əsasən, Fransa konstitusiyalı monarxiya elan edilmiş, ali qanunvericilik hakimiyyəti 750 deputatdan ibarət Qanunvericilik Məclisinə, icra edici hakimiyyəti isə krala verilmişdi.

Fransa Qanunvericilik Məclisində mövcud olan fraksiyalardan ibarət ilk protopartiya sistemi yaranmışdı:

-Montanyarlar fraksiyası (fr. montagnards- dağlılar)- Onlar şəhərin aşağı təbəqələrinin və inqilabi ziyalıların maraqlarını ifadə edirdilər. O, qurulduğu klubun adını saxlamışdı - Yakobinlər. Siyasi mənada ən radikal, ən inqilabi və barışmaz qruplaşma idi. O, inqilabi-demokratik ideologiyanı təbliğ edirdi, onun əsasında sonralar sosialist ideologiyası formalaşdı. Yakobinlərin lideri Robespyer idi. Montanyarlar fraksiyası 100 deputatdan ibarət idi;

- Jirondistlər fraksiyası (qurumun adı ilə Jironda): orta təbəqənin -tacirlər, sahibkarlar, yeni orta torpaq sahibləri, azad peşə sahiblərinin maraqlarını ifadə edirdi. O, mötədil siyasi mövqelərdə dayanırdı; ideoloji mənada meydana çıxan sol-liberal və ya liberal-demokratik ideologiyaya arxalanırdı. Jirondistlərin liderləri

özlərini monarxiyanın əleyhdarları və solçu respublikaçılar kimi göstərən Brisso və Vernyo idi. Fraksiyaya Qanunvericilik Məclisinin 165 üzvü daxil idi;

- Felyanlar fraksiyası- iri maliyyəçilərin, sahibkarların və plantatorların maraqlarını ifadə edirdi. O, sağ mərkəzçi siyasi mövqelər tuturdu. Felyanlar özlərini sağçı respublikaçılar adlandırırdılar.

Deputatların əksəriyyəti isə (üç yüzdən çox) heç bir fraksiyaya qoşulmayaraq, özlərini müstəqillər adlandırırdılar.

Müharibə təhlükəsi artırdı. Qanunvericilik Məclisi kralın əksinqilabi çıxış hazırlamaq üçün diplomatik əlaqələrdən istifadə etməyindən ehtiyat edərək, kralı XVI Lüdoviki uğursuz qaçışı zamanı öz etibarını itirən Xarici İşlər nazirini əvəz etməyə məcbur etdi.

Qanunvericilik Məclisinin qorxularının əsası var idi. Krala yaxın olan bir neçə zadəgan ona əksinqilabi hazırlamağa kömək edən və "Avstriya sistemi" tərəfdarlarından ibarət gizli komitə yaratdılar. Kral, gizli şəkildə, Xarici İşlər Nazirliyinin məxfi vəsaitlərini komitə üzvlərinə xərcləyirdi.

1791-ci ilin payızında Qanunvericilik Məclisi, Müəssislər Məclisi kimi, nazirlərin fəaliyyətinə nəzarət etmək və xarici dövlətlərlə aparılan ən mühüm yazışmalarla tanış olmaq üçün, 12 nəfərdən ibarət Diplomatik Komitə seçdi. Diplomatik komitə hər ay üzvlərinin üçdə biri qədər yenilənməli idi. Bu komitəyə daha mötədil deputatlarla yanaşı, jirondstlərin rəhbərləri də seçilmişdi.

O dövrdə xarici siyasətin əsas məsələsi müharibə təhlükəsinin artması idi. Saray və aristokrat hərbçilər müttəfiqlərin qələbəsinə və Fransaya xarici müdaxilə nəticəsində əks-inqilabi hərəkatın başlanmasına ümid edərək müharibə istəyirdilər. Sağçı partiya- felyanlar və onların mötədil tərəfdarları, əksinə, müharibədən qorxurdular, onunla bağlı sarsıntıların onların əlindən kövrək hakimiyyəti alacağını hiss edirdilər. Jirondistlər fəal xarici siyasətin və Avstriya ilə müharibənin qızğın tərəfdarları idilər. Onlar ümid edirdilər ki, müharibə ümumi vətənpərvərlik hissini oyadacaq və kütlələri gələcək daxili islahatlar həyata keçirmək tələblərindən yayındıracaq və eyni zamanda qazanacaqları qələbələr burjuaziyanın gücünü möhkəmləndirəcək. Onlar həmçinin ümid edirdilər ki, müharibə Belçikada inqilabi nizamı bərqərar edəcək və onu Fransanın təsiri altına salacaq.

Robespyer və Marat anlayırdılar ki, müharibə qaçılmazdır: lakin onlar daxili düşmənləri - aristokratiyanı və mürtəce hərbçiləri məhv etməmişdən əvvəl Jirondistlərin müharibəyə başlamaq niyyətinə kəskin şəkildə qarşı çıxırdılar.

Felyanlar və Jirondistlər fransız diplomatiyasının əsas vəzifəsini koalisiyanın yaranmasının qarşısını almaqda və Avstriya ilə Prussiyanı arasında olan köklü qarşılıqlı düşmənçiliyindən istifadə edərək onları ayırmaqda görürdülər. Lakin, felyanlar öz diplomatiyasının köməyi ilə müharibənin qarşısını almağa və

kompromis əldə etməyə ümid edirdilər, jirondistlər isə əksinə, Avstriyanı Prussiyadan təcrid edərək, özlərinin hərbi qələbəsini asanlaşdırmaq istəyirdilər.

Hər iki tərəf Avstriyanı Fransanın əsas düşməni hesab edirdi. Felyanlar və Jirondistlər Prussiyaya yaxınlaşmağa və onunla ittifaq bağlamaq baş tutmasa da, heç olmasa onun bitərəfliyinə nail olmağa çalışırdılar. Onlar həmçinin, Avstriya-Fransa müharibəsi baş verərdisə, İngiltərənin bitərəfliyini təmin etməyə çalışırdılar.

Lakin, bütün bu diplomatik cəhdlər uğursuzluqla nəticələndi. XVI Lüdovikin və kraliçanın gizli diplomatiyası onların uğuruna qismən mane oldu. Onların məxfi agentləri gizli şəkildə Prussiya kralına göndərilən fransız missiyalarına qarşı çıxırdılar. Lakin, felyanlar və jirondistlər diplomatiyasının uğursuzluğunun əsas səbəbi, Avropa hökumətlərinin hələ inqilabçı Fransanın gücünə inanmamaları və onun təkliflərini nəzərə almamaları idi. Onlar, Fransada mütləqiyyəti bərpa edərək, əksinqilabi xidmətlərinə görə Fransadan "mükafat" kimi bir sıra ərazilər almaq arzusunda idilər.

Prussiyaya uğursuzluğa düçar olan iki diplomatik missiya göndərildi. İngiltərəyə göndərilən keçmiş Otyen yepiskopu Şarl Moris Taleyran da ingilis nazirliyindən heç bir aydın cavab ala bilmədi.

Şarl Moris de Taleyran-Périqor (2 fevral 1754 - 17 may 1838) - Benevent knyazı, Fransada üç hakimiyyət dövründə (Direktoriya, Napoleon və Lui Filipp hökumətləri dövründə) Xarici İşlər naziri vəzifəsində çalışmış fransız siyasətçisi və diplomatıdır. Tanınmış siyasi fitnəkarlıq ustası idi. Otyen yepiskopu (2 noyabr 1788-ci ildən 13 aprel 1791-ci ilə qədər) olmuşdur. Taleyranın adı hiyləgərlik, çeviklik və mənəviyyatsızlığı ifadə etmək üçün demək olar ki, misal olaraq çəkilib.

1792-ci il martın 15-də kral Jirondistlərə yaxın olan general Şarl Fransua Dyumuryeni Xarici İşlər naziri təyin etmək məcburiyyətində qaldı. Dyumurye, Fransanın əsas düşməni kimi Avstriyanı görürdü və onu məğlub etdikdən sonra Fransanı asılı dövlətlər ilə əhatə etməyi xəyal edirdi. O dövrdə Diplomatik Komitədə əsas rolu jirondist Brisso oynayırdı.

Xarici İşlər Nazirliyinin bir çox köhnə məmurları kralın və "Avstriya sistemi"nin tərəfdarları idi. Dyumurye onları jirondistlərə yaxın olan yeni şəxslərlə əvəz etdi. Adi səfir (ambassadeurs ordinaires) rütbəsi ləğv edildi. Avropa saraylarına o, yalnız birinci və ikinci dərəcəli elçilər (nazirlər) təyin edirdi. Eyni zamanda, bir çox keçmiş səfirlər yeniləri ilə əvəz olundu.

O dövrdə jirondistlər və Dyumurye tərəfindən yayılan diplomatiyaya aid kitabçalarda inqilabi diplomatiyanın hüquq bəyannaməsi və fəthlərdən imtina etmək prinsiplərinə əsaslanma fikri inkişaf etdirilirdi. Diplomatiya sadə və aydın olmalıdır, yalan danışılmadan və hiyləgərlik edilmədən aparılmalıdır. İnqilabçı Fransada diplomatın davranışı açıq, birbaşa və sadə olmalıdır. Səfirlərin rütbələri ləğv

edilməlidir. Onların hamısını eyni formada “Fransa nuntsiləri” adlandırmaq lazımdır.

1792-ci ilin martında İmperator II Leopold vəfat etdi. Onun varisi I Frans açıq şəkildə Fransa ilə müharibəyə başlamaq üçün can atırdı. O, jirondist nazirliyinin Prussiya ilə ittifaqı ləğv etmək və Fransaya qarşı yürüşə hazırlaşan silahlı mühacir dəstələrinə himayədarlıq etməyi dayandırmaq tələbini rədd etdi. Düşmənlərin hücumunu gözləmədən, 1792-ci il aprelin 20-də, Milli Qanunvericilik Məclisi kralın müharibə elan etmək təklifini böyük həvəslə qəbul etdi. Beləliklə, inqilabi müharibələr dövrü başlandı.

Mütləq monarxiyadan miras qalan və zadəgan zabitlər tərəfindən idarə olunan zəif fransız ordusu müdaxiləçilərə ciddi müqavimət göstərə bilmədi və heç göstərmək də istəmirdi. Kraliça gizli məktublarında, koalisiyanın təhdid edici manifest dərc etməsini xahiş edirdi. O, ümid edirdi ki, təhdid dolu manifest inqilabçıları qorxudacaq. Lakin, Braunşveyq hersoqunun öz manifesti ilə, Fransanı, Parisin dağıdılması və inqilabçıların məhv edilməsi ilə hədələməsi, yalnız kral hakimiyyətinin vəziyyətini daha da pisləşdirdi. İlk hərbi uğursuzluqlar və kralın aşkar xəyanəti monarxiyanın süqutuna təkan vermiş oldu.

1792-ci il avqustun 10-da baş verən üsyan nəticəsində, Fransada monarxiya devrildi və Milli Konventin (qanunverici orqan) çağırılmasına səbəb oldu.

1792-ci il avqustun 10-da baş verən üsyandan sonra XVI Lüdovik taxtdan salındı və Tampl qalasında güclü mühafizə altına alındı. 1792-ci il noyabrın 20-də, Tyuilridə gizli seyfin tapılması kralın mühakimə olunmasını qaçılmaz etdi. Orada tapılan sənədlər kralın ikili oyununa dair bütün şübhələri təsdiq etdi. Kralın məhkəməsinə hazırlıq Montanyarlarla Jirondistlər arasında mübarizə ilə müşayiət olunurdu. Montanyarlar respublikanın möhkəmlənməsi yolunda növbəti addım kimi kralın mühakimə olunaraq, edam edilməsini tələb etdilər, jirondistlər isə gözləmək və uzatmaq mövqeyi tutdular. Milli Konventin sədri Vernyo iddia edirdi ki, krala toxunulmazlıq konstitusiya ilə verilir və onun taleyini Konvent deyil, xalq həll etməlidir.

Məhkəmə dekabrın 11-də başladı. XVI Lüdovik düşmən və millətə yad olan "qəsbkar" kimi təsnif edildi. Səsvermə 1793-cü il yanvarın 15-də başladı. Məhkəmədə, Kralın günahkar olması ilə bağlı keçirilən səsvermə yekdil oldu. Səsvermənin nəticəsi barədə Konventin sədri Vernyo elan etdi: “Milli Konvent Fransa xalqı adından Lui Kapeti millətin azadlığına və dövlətin ümumi təhlükəsizliyinə qarşı cinayətdə təqsirli elan edib. "

Cəza ilə bağlı səsvermə yanvarın 16-da başladı və ertəsi gün səhərə qədər davam etdi. İştirak edən 721 deputatdan 387-si ölüm hökmünün lehinə oldu. Konventin əmri

ilə Parisin bütün Milli qvardiyası eşafota gedən yolun hər iki tərəfinə düzüldü. XVI Lüdovik yanvarın 21-də səhər İnqilab meydanında edam edildi.

Mari Antuanettanın məhkəməsi 1793-cü il oktyabrın 15-də başladı. Ertəsi gün, oktyabrın 16-da səhər saat 4-də ölüm hökmü oxundu, yekdilliklə qəbul edildi. Kraliça İnqilab (indiki Yekdillik) meydanında gilyotində edam edildi.

Gilyotin — bir sıra Avropa ölkələrində barəsində ölüm hökmü çıxarılmış məhkumun boyun nahiyəsindən üzülməsi ilə icra olunmuş edam üsulunda istifadə edilən alətə verilən ad. Oxşar alət əvvəllər Şotlandiya və İrlandiyada istifadə olunurdu, burada onu Şotland qızı adlandırırdılar. Fransada gilyotini "luizetta" və hətta Ədalət mebeli də adlandırırdılar.

Müəssislər məclisinin deputatı Jozef İqnas Gilyoten adı ilə adlandırılmışdır. Məhz edam prosesinin hamı üçün eyni olduğunu düşünən Gilyoten adını tarixə yazmış "ölüm maşınını" hazırlamışdır. Konstruksiyasını isə cərrah Antuan Lui işləyib təkmilləşdirmişdir. 1792-ci il martın 20-ndə Qanunverici məclis tərəfindən ölüm hökmlərinin həyata keçirilməsi vasitəsi kimi qəbul edilmişdir. Fransada 1792-ci il aprelin 25-dən edam hökmünün ləğv edilməsinədək tətbiq olunmuşdur. Sonuncu dəfə 1977-ci il sentyabrın 10-da tətbiq edilmişdir.

DÖRDÜNCÜ FƏSİL

BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ SARSINTILAR VƏ DƏYİŞİKLİKLƏR DÖVRÜ (XVIII ƏSRİN SONU – XIX ƏSRİN ƏVVƏLLƏRİ)

II BÖLMƏ
Fransa Respublikasının diplomatiyası və beynəlxalq münasibətlər

§1. Milli Konvent dövründə Fransa diplomatiyası və Avropa dövlətləri

1. Milli Konvent dövründə jirondistlərin diplomatiyası (1792-ci ilin sentyabr--1793-cü ilin aprel)

2. Uilyam Pitt və əksinqilabi koalisiyanın genişlənməsi

3. Fransanın məğlubiyyəti və Dantonun diplomatiyası

4. Fransa inqilabı dövründə yeni təqvim

§2.Yakobin diktaturasının diplomatiyası

1.Dantonçular və Yakobinlər diktaturası dövründə diplomatiya

2.Fransada koalisiyanın casus və təxribatçı agentləri

3.Ebertistlər, Kloots və diplomatiya
4.Robesyer və İctimai Təhlükəsizlik Komitəsinin diplomatiyası (1793-cü ilin payızından- 9 termidora (27 iyul 1794-cü il) qədər)
5.Yakobinlər dövründə diplomatik idarənin yenidən qurulması

§1. Milli Konvent dövründə Fransa diplomatiyası və Avropa dövlətləri

1. Milli Konvent dövründə jirondistlərin diplomatiyası (1792-ci ilin sentyabr--1793-cü ilin aprel)
2. Uilyam Pitt və əksinqilabi koalisiyanın genişlənməsi
3. Fransanın məğlubiyyəti və Dantonun diplomatiyası
4. Fransa inqilabı dövründə yeni təqvim

1.Milli Konvent dövründə jirondistlərin diplomatiyası (1792-ci ilin sentyabr--1793-cü ilin aprel)

1792-ci il avqustun 10-da əyalətlərdən gələn federativlər ilə yakobinlərin həyata keçirdiyi üsyan nəticəsində kral hakimiyyəti devrildi. 1792-ci il avqustun 19-da Parisdə, ümumi seçki hüququ əsasında seçilmiş Milli Konventin iclasları başladı. Konvent 750 deputatdan ibarət idi. Seçkilərin nəticələrinə görə, orada iki fraksiya yaradıldı: 165 yer almış jirondistlər və 100 yerə malik yakobinlər. Qalan 485 deputat, formal olaraq müstəqil qalaraq, öz meyllərində tərəddüd edirdilər, ən çox mötədil jirondistlərin tərəfinə keçirdilər. Ona görə də, onlar yakobinlərdən aşağılayıcı "bataqlıq" ləqəbini almışdılar.

Milli Konvent ümumi seçki hüququ əsasında çağırıldı və o, Fransada respublikanın yarandığını elan etdi. Kral tərəfindən təyin edilmiş keçmiş nazirlərin əvəzinə Konvent qarşısında cavabdeh olan İcraiyyə şurası seçildi. Şurada Xarici İşlər naziri vəzifəsinə jirondist Lebren təyin edildi. Əslində o, Konventdə üstünlük təşkil edən bu partiyanın liderlərindən tamamilə asılı idi. Danton xarici siyasətə böyük təsir etmək imkanına malik idi. Lakin, İcraiyyə şurasında o, Ədliyyə naziri vəzifəsində idi.

Prussiya ordusu Braunşveyq hersoqunun komandanlığı altında Fransaya hücumundan bir neçə böhranlı həftə keçəndən sonra, sentyabrın 20-də (Valmi döyüşü olan gündən) hərbi əməliyyatların gedişində dönüş nöqtəsi baş verdi. 1793-cü ildə respublika qoşunları Fransa ərazisini müdaxiləçilərdən təmizləyərək, Savoy, Nitsa, Reynin sol sahilini, Belçikanı tutmuş, Hollandiyaya məxsus olan Şeldt çayının mənsəbini fransız və Belçika ticarəti üçün açmışdı. Fransızların fəth etdiyi ərazilərin əhalisi inqilabi qoşunların zəfərlə irəliləməsini böyük şadlıqla qarşılayaraq, dərhal feodal imtiyazlarını məhv etməyə başladılar.

“Bütün xalqı, xüsusən də kütlələri, yəni məzlum sinifləri sonsuz inqilabi ruh yüksəkliyi bürümüşdü: hamı müharibəni ədalətli, müdafiə xarakterli hesab edirdi və əslində isə bu belə deyildi”.

Jirondistlər bu dövrdə Avropa xalqlarının inqilabi azadlığı şüarı altında Fransadan kənarda inqilabi müharibə ilə bağlı geniş təbliğat aparmağa başladılar. Bu təbliğat, Fransanın nüfuzunu Belçikaya da yaymaq arzusunda olan fransız burjuaziyası arasında müsbət qarşılandı. Noyabrın 19-da, Konvent öz tiranlarını devirmək istəyən bütün xalqlara dəstək vermək haqqında fərman verdi. Dekabrın 15-də, fransız qoşunlarının işğal etdiyi ərazilərdə yeni inqilabi hakimiyyət orqanlarının yaradılması və müharibə xərclərinin ödənilməsi üçün inqilab düşmənlərinin əmlakının müsadirə edilməsi haqqında fərmanlar verildi. Bu fərmanlar ilə bağlı məruzə edən Kambon inqilabi qoşunların məşhur şüarını irəli sürdü: "Daxmalara sülh - saraylara müharibə!"

1792-1793-cü illərdə istila edilmiş bölgələr - Savoy, Nitsa, Reynin sol sahili və Belçikanın bir hissəsi azadlıq müharibəsi və işğallardan imtina prinsipinə uyğun olaraq kommunalarda ümumxalq səsverməsi yolu ilə təntənəli şəkildə Fransaya birləşdirildi. İnqilabi müharibənin təbliğatını yalnız jirondistlər deyil, həm də inqilabi əqidələrinə görə Hollandiyadan, Belçikadan, Almaniyanın Reynin sol sahilindəki bölgələrindən, Savoydan qovulmuş, öz klublarını və legionları yaradan çoxsaylı əcnəbilər də aparırdılar. Bu təbliğatda onlar jirondistlərdən daha çox irəli getdilər. Bu dairələrin ən görkəmli nümayəndəsi Kloots dünya inqilabı və dünya respublikası ideyasını təbliğ edərək, Russonun "əbədi sülh" layihəsnə əsaslanan bir plan inkişaf etdirdi. Jirondistlər və Danton inqilabi Fransanı Reyn və Alp dağlarına qədər genişləndirmək ideyalarını təbliğ etməklə məhdudlaşırdılar. Fransız burjuaziyası Reyn çayını, Pireney və Alp dağlarını Fransanın “təbii sərhədləri” hesab edirdi.

Əldə edilən uğurlara baxmayaraq, inqilabi Fransanın fəthləri hələ möhkəmləndirilməmişdi. Jirondistlər ordunun yenidən təşkili, şəhərləri və qoşunları ərzaqla təmin etmək, kəndlərdə feodal asılılığını tamamilə ləğv etmək üçün qətiyyətli inqilabi tədbirlər görmək istəmirdilər. Əksinə, geniş müharibə təbliğatı onlara kütlələri bu məsələlərdən yayındırmaq vasitələrindən biri kimi xidmət edirdi. Əslində, yalnız bu tədbirlər inqilabçı Fransanın fəthlərini möhkəmləndirə və bununla da ona düşmən üzərində həlledici hərbi üstünlük imkanı yarada bilərdi. Lakin, jirondistlər koalisiyanı parçalamaq üçün diplomatik cəhdlərə böyük əhəmiyyət verirdilər. Bunun üçün onlar, koalisiyanın bəzi üzvlərini digərlərinin hesabına təzminat almaları ilə bağlı ümid vermək fikrində idilər.

Lebren və Danton, Dyumerye kimi əsasən eyni siyasi və diplomatik planları inkişaf etdirməkdə davam etdilər. Onlar Fransaya birləşdiriləcək və ya ondan asılı

respublikaya çevriləcək Belçikada, avstriyalılara əsas zərbə vurmağa ümid edirdilər. Hollandiyanı Fransanın təsirinə tabe etməyi nəzərdə tuturdular. Dyumerye kimi, bir çox jirondistlər, Fransanın sərhədi boyunca Şimal dənizindən İtaliyaya qədər, ondan asılı olan bir sıra respublikalar yaratmağa ümid edirdilər. Onlar hələ də, Prussiya ilə münasibətləri yaxşılaşdırmaq və onun bitərəfliyinə nail olmaq istəyirdilər. Onlar, Prussiyaya Avstriya mülklərindən təzminat verməyi nəzərdə tuttur və digər dövlətləri isə koalisiyaya qoşulmaqdan çəkindirməyə çalışırdılar. Lebren, İsveç və Türkiyə ilə ittifaq bağlamağa və II Yekaterinanın əl-qolunu bağlamaq üçün bu dövlətləri Rusiya ilə yeni müharibəyə sövq etməyə ümid edirdi.

Bundan əlavə, jirondistlər İngiltərədə parlament müxalifətinin qələbəsinə və İngiltərə ilə razılaşmanın mümkünlüyünə ümid edirdilər. Lebren və Dyumurye, Uilyam Pitə 1786-cı il ticarət müqaviləsinin yenilənməsini və Fransaya ingilis krediti müqabilində, əhalisinin razılığı ilə Tabaqo adasının İngiltərəyə verilməsini təklif etmək istəyirdilər. İngiltərəni İspaniya ilə müharibəyə cəlb etmək və bu iki dövlətin əl-qolunu bağlamaq üçün Pitə İspan Amerikasının azad edilməsi və onun ingilis, fransız mallarına açılması planını təklif etmək qərarına gəlmişdilər. Jirondistlər və Danton İngiltərə ilə Fransa arasında barışmaz ziddiyyətlərin olduğunu başa düşmək istəmirdilər. İngiltərəni ən çox inqilabi Fransanın uğurları, Belçika və Hollandiyada olan inqilabların qələbələri narahat edirdi. Çünki bu məsələlər İngiltərə hegemonluğunun zərərinə olaraq, Fransanın Avropada ticarət və sənayesinin çiçəklənməsinin və üstünlük təşkil etməsinin əsasını qoya bilərdilər.

Monarxiya devrildikdən sonra demək olar ki, bütün dövlətlər Fransa ilə diplomatik münasibətləri kəsdi. Yalnız İsveçrə, Amerika Birləşmiş Ştatları və İsveç Fransaya qarşı düşmən mövqe tutmadı. Belə bir şəraitdə, jirondistlər əsasən qeyri-rəsmi diplomatiya üsullarından istifadə edə bilərdilər - qeyri-rəsmi agentlərin göndərilməsi, pərdəarxası danışıqlar, ikinci dərəcəli vasitəçilər tərəfindən məsələlərin araşdırılması və s. Bu cür cəhdlərin sayı-hesabı yox idi. Yalnız, mütləq monarxiyaların diplomatiyası üçün məcburi sayılan diplomatik məxfiliyə məhəl qoymamaq, bəzən bu cəhdləri əvvəlcədən uğursuzluğa məhkum edirdi.

1792-ci ilin sentyabrında, Taleyran ikinci dəfə qeyri-rəsmi tapşırıqlarla Londona göndərildi. Nazirlər onunla danışmaq belə istəmədilər. Dyumurye əsirlərin mübadiləsini həll etmək üçün göndərilən kral adyutantı vasitəsilə Prussiya ilə danışıqlara girdi. Adətən, Prussiya kralı və Avstriya imperatoru bir-birləri ilə ən kiçik fikir ayrılığı halında Fransa ilə danışıqların mümkünlüyünü araşdırırdılar. Lakin, 1792-ci ildə, Prussiya ilə razılaşma əldə etməkdən söhbət belə, gedə bilməzdi. Prussiya kralı Fransa monarxiyasının bərpasını tələb edir və Elzası Fransadan ayırmaq xəyalına düşmüşdü.

1793-cü ilin əvvəlində, kral XVI Lüdovikin edamından sonra, jirondistlərin diplomatiya yolu ilə koalisiyanı parçalamaq üçün etdiyi bütün cəhdləri uğursuzluqla nəticələndi. Feodal-monarxiya Avropası inqilaba qarşı sıx birləşdi. Onunla razılaşmaq mümkün deyildi.

2. Uilyam Pitt və əksinqilabi koalisiyanın genişlənməsi

İnqilabçı orduların zəfər yürüşləri, onları qarşılayan əhalinin ruh yüksəkliyi, İngiltərədə inqilabi əhval-ruhiyyənin sürətlə yüksəlməsi, fransız klubları ilə ingilis demokratları arasında davamlı qarşılıqlı təbriklər mübadiləsi Pitə göstərdi ki, Fransanın zəifləməsinə və onun yalnız, Avstriya və Prussiya qüvvələri tərəfindən darmadağın edilməsinə ümid etmək olmaz. İnqilabçı ordular Belçikanı işğal etdikdən və Hollandiyanı təhdid etməyə başlayandan sonra Pitt koalisiyaya özü rəhbərlik etmək qərarına gəldi. İngiltərə, əsas rəqibi olan fransız burjuaziyasının gücünün fövqəladə dərəcədə artması və inqilabın Avropada yayılması təhlükəsi ilə üzləşdi.

XVI Lüdovikin edamından sonra, Fransanın müvəqqəti işlər vəkili dərhal Londondan qovuldu. Belçikada qazandıqları qələbələrdən məst olan jirondistlər və Danton cəsarətlə İngiltərə ilə əlaqəni kəsmək haqqında qərar verdilər. Onlar, özlərini o qədər güclü hesab edirdilər ki, monarxiya Fransasının ingilis hegemonluğu ilə mübarizədə son məğlubiyyətlərinin qisasını almaq üçün çalışmaq qərarına gəldilər. Onlar hələ də, ingilis parlament müxalifətinin Pitt üzərində qaçılmaz qələbəsinə inanırdılar. Fransız qoşunlarına Hollandiya sərhədlərinə daxil olmaq əmri verildi və fevralın 1-də Konvent, Brissonun məruzəsinə əsasən İngiltərəyə müharibə elan etməli idi. Ordusu olmayan Pitt, Avropa qitəsində özünə müttəfiqlər satın almaq kimi köhnə ingilis ənənəsinə əməl etməyə başladı. O, Rusiya, Prussiya, Sardiniya və Neapolla birgə fəaliyyət haqqında müqavilələr bağladı, onların hamısına böyük subsidiyalar ödəməyi öhdəsinə götürdü. Sardiniya, Neapol, Toskana kimi dövlətləri koalisiyaya cəlb etmək üsulu vasitəsini pul, təhdid, şantaj və təxribatlar oynayırdı.

İngiltərə donanması və qızılı Fransa inqilabının ən güclü düşməni oldu. "Lakin, ingilis burjuaziyası öz şəxsi qüvvələri ilə vuruşmağı sevmir. O, həmişə müharibəni başqasının əli ilə aparmağa üstünlük verirdi. Və bəzən həqiqətən də, onun üçün oddan qızmış şabalıdları çıxarmağa hazır olan səfehləri tapmağı bacarırdı." Fransa İnqilabı zamanı da belə oldu. İngilis burjuaziyası inqilabçı Fransaya qarşı Avropa dövlətlərinin ittifaqını yaratmağa müvəffəq oldu.

Mart ayında koalisiya artıq İngiltərə, Avstriya, Prussiya, Rusiya, İspaniya, Hollandiya, bəzi alman knyazlıqları, Pyemont- Sardiniya ilə və Neapoldan ibarət idi.

Əks-inqilabi koalisiya lap əvvəldən Fransa monarxiyasının bərpasını, Fransanı parçalamaq və talan etmək planları ilə əlaqələndirirdi. Prussiya, Elzas və

Lotaringiyanı ələ keçirmək niyyətində idi və Fransada apardığı müharibəyə görə "mükafat" almaq bəhanəsi ilə Rusiyadan Polşanın yeni bölünməsinə razılıq verməsini tələb edirdi. Avstriya, Fransız Flandriyasını, Artuanı, Pikardiyanın Somma və Bavariyaya qədər olan ərazini almaq istəyirdi və ya bir az torpaqlar əlavə etməklə Belçikanı Bavariya ilə dəyişmək istəyirdi. İspaniya və Sardiniyanın da oxşar planları var idi. Pitt İngiltərə üçün, strateji mövqeyinə görə çox vacib olan Dunkerki tələb edirdi.

Fransanın parçalanması ilə bağlı təcavüzkar layihələr koalisiya diplomatları arasında sonsuz ixtilaf və mübahisələrə səbəb olurdu. Avstriya, avstriyalıların Bavariyanı ələ keçirməsini istəməyən Prussiya ilə yekun razılığa gələ bilmədi. 1792-ci ilin iyulunda, imperator Frans və kral II Fridrix Vilhelm Mayntsda keçirilən görüşdə, Bavariyanın, Prussiya "mükafatı" olan Polşa ilə dəyişdirilməsi barədə Avstriya layihəsini müzakirə etdilər. 1793-cü ilin aprelində, Antverpendə konfrans keçirildi. Rusiya diplomatları bu danışıqlarda iştirak edərək, onların istəklərini yerinə yetirməyə sövq edirdilər. Rusiya, Fransanın hər hansı bölünməsinə razılıq verməklə və digər hökumətləri buna təhrik etməklə onların diqqətlərini Polşadan yayındırmağa çalışırdı.

Prussiya da, Fransa ilə müharibəyə görə, Polşanın ikinci dəfə bölünməsini "mükafat" şəklində tələb etdi. Yekaterina Polşanın bölünməsinə ilə razılaşmağa məcbur oldu, çünki Valmi döyüşündən sonra, Prussiya kralı planlaşdırılan Polşa "mükafatını" alana qədər Fransa ilə döyüşməkdən imtina etdi. Hətta öz qoşunlarını Böyük Polşaya keçirdi.

Lakin Avstriya, Belçikanın fransızlar tərəfindən işğalından sonra Fransa ilə müharibədə son dərəcə maraqlı idi: Belçikanı fransızların əlindən almadan onu Bavariya ilə dəyişmək mümkün deyildi. Avstriyanın çətin vəziyyəti Rusiya və Prussiyaya, onu Polşanın ikinci parçalanmasında iştirakdan kənarlaşdırmaq imkanı verdi. Bunun üçün 1793-cü ilin yanvarında, onlar bölünmə müqaviləsi bağladılar və avstriyalıları fakt qarşısında qoydular. Prussiya kralı, Avstriyaya yalnız, Niderland Belçikasını geri qaytarmağa və onu Bavariyaya dəyişdirməyə kömək edəcəyini vəd etdi. Və İmperator bununla barışmalı oldu.

3. Fransanın məğlubiyyəti və Dantonun diplomatiyası

1793-cü ilin yazında koalisiya bir qədər də gücləndi və jirondistlərin qələbələrinin möhkəm olmaması artıq 1793-cü ilin martında özünü büruzə verdi. Avstriyalılar yenidən Belçikanı, prussiyalılar isə Reynin sol sahilini işğal etdilər. Xarici qoşunlar yenidən Fransaya daxil oldular. Ölkə daxilində əksinqilabi üsyanlar baş qaldırdı. 1793-cü ilin yayında, respublikanın vəziyyəti sözün tam mənasında gərgin idi.

6 aprel 1793-cü ildə, Konvent İctimai Təhlükəsizlik Komitəsi yaratdı və ona icraedici hakimiyyəti həvalə etdi. Danton və Barer orada xarici əlaqələr məsələlərinə cavabdeh idilər. Məğlubiyyətlər jirondistləri yeni xalq üsyanı təhlükəsi qarşısında qoydu. İnqilabi diktaturanın qarşısını almaq üçün, jirondistlər Fransadan kənarda inqilabi müharibə təbliğatını dərhal dayandırdılar və koalisiya ilə təslimçilik danışıqlarına girmək istədilər. Hərbi məğlubiyyətlərdən sonra, bütün ümidlərini inqilabi müharibə üsullarına deyil, diplomatiyaya bağladılar. Əksinə, yakobinlər və Kloots sülh haqqında eşitmək belə istəmirdilər. Onlar inqilabın yekun qələbəsi üçün yeni inqilabi tədbirlər və ordunun tamamilə yenidən təşkil olunmasını tələb edirdilər. Sağçı yakobinçi Danton da inqilabi diktaturanın qurulmasını istəmirdi. O, bu iki tərəfi barışdırmağa ümid edərək, jirondistlər kimi güzəştlərə əsaslanan sülh danışıqlarına can atırdı. 1793-cü ilin yazında, Konventdə olan "bataqlığın" bir hissəsi jirondistləri tərk edərək Dantona qoşuldular.

Aprel ayında, Konvent Fransanın başqa dövlətlərin işlərinə tamamilə qarışmamaq haqqında elan edən fərman verdi ki, bu da Fransa hüdudlarından kənarda silahlı inqilabi təbliğatın rədd edilməsi demək idi. Eyni zamanda, Robespyer jirondistləri və Dantonu nəzərdə tutaraq, düşmənlə sülh danışıqları təklif edən hər kəsə ölüm cəzası tələb etdi. Bu təklif Dantonun "xalqın suverenliyini tanımaqdan imtina edən düşmənlə" düzəlişi ilə qəbul edildi. Danton bu düzəlişdən istifadə edərək sülh danışıqlarına başlaya bilərdi, ancaq bir halda ki, respublika koalisiya tərəfindən tanınsın, lakin bu, inanılan məsələ deyildi.

Buna baxmayaraq, Komitə gizli diplomatik xərclər üçün Dantona 6 milyon livr ayırdı. Danton koalisiyanı dağıtmaq üçün bir çox agentlər göndərdi. Danton tərəfindən seçilən bu agentlər arasında çoxlu şübhəli fitnəkarlar da var idi. Agentlərə verilən göstərişlər, Lebrenin Prussiya və digər dövlətlərlə bağlı artıq məlum olan planlarını əks etdirirdi. Danton və Lebren bitərəf dövlətləri Fransanın tərəfinə cəlb etməyə çalışırdılar, lakin əsl danışıqlar yalnız İsveçlə aparılırdı. İsveçlə ittifaq müqaviləsi layihəsi artıq hazır idi, lakin respublikanın cəbhədəki məğlubiyyəti İsveç naibini onu imzalamaqdan çəkinməyə vadar etdi.

31 may - 2 iyun 1793-cü ildə baş vermiş üsyan Konventdə jirondistlərin hakimiyyətini devirdi və yakobin diktaturasının başlanğıcını qoydu. Danton İctimai Təhlükəsizlik Komitəsində qaldı və 10 iyul 1793-cü ilə qədər koalisiyanın parçalanması üçün diplomatik cəhdlərini davam etdirdi. Bu, hərbi məğlubiyyətlər şəraitində ümidsiz səylər idi. Avropa dövlətləri inqilabi Fransanın öz mövcudluğunu müdafiə etmək qabiliyyətinə hələ ki, əmin deyildi.

4. Fransa inqilabı dövründə yeni təqvim

Fransız inqilabı təqvimi və ya İnqilab təqvimi Böyük Fransa inqilabından sonra 5 oktyabr 1793-cü ildə Milli Konvent tərəfindən verilmiş dekretlə Fransada tətbiq olunmağa başlanılmışdır. Fransız inqilabı təqvimi 1 yanvar 1806-cı ildə Napoleon Bonapart tərəfindən ləğv edilmişdir. Təqvim Jilber Rommun rəhbərliyi altında hazırlanmışdı. Məqsəd dini xristian təqviminin yerinə ateist - materialist təqvim yaratmaq olmuşdur.

Təqvimdə Fransa inqilabının birinci ili — 1792-ci il yeni era başlanğıcı elan edilir. Beləliklə də, xristianlıqla başlanan era isə ləğv edilmiş olunur. İllər, 1792 ci ilin 22 sentyabrından başlayaraq hesablanmağa başlanır. İl hər biri 30 gündən ibarət 12 aya bölünür. Bir həftə 10 gündən (dekada)ibarət olurdu. Qalıq qalmış 5 ya 6 gün isə sankulotid (əlavə, artıq) adlandırıldı. Hər bir gün isə təbiət hadisələrinə müvafiq xüsusi adlarla adlandırılmışdır. Ayları isə fransız, yunan və latın söz köklərinin birləşmələrindən yaranmış adlarla adlandırıldı. Dövlət məmurları dekadanın yalnız bir günü istirahət kimi istifadə edə bilərdilər.

Aylar

Payız

Vandemyer (fr. Vendémiaire) (22 sentyabr — 21 oktyabr) — üzüm yığımı ayı
Brümer (fr. Brumaire) (22 oktyabr — 20 noyabr) — duman ayı
Frimer (fr. Frimaire) (21 noyabr — 20 dekabr) — şaxta ayı

Qış

Nivoz (fr. Nivôse) (21 dekabr — 19 yanvar) — qar ayı
Pluvioz (fr. Pluviôse) (20 yanvar — 18 fevral) — yağış ayı
Vantoz (fr. Ventôse) (19 fevral — 20 mart) — külək ayı

Yaz

Jerminal (fr. Germinal) (21 mart — 19 aprel) — cücərmə ayı
Floreal (fr. Floréal) (20 aprel — 19 may) — çiçəklənmə ayı
Prerial (fr. Prairial) (20 may — 18 iyun) — zəmi ayı

Yay

Messidor (fr. Messidor) (19 iyun — 18 iyul) — yığım ayı
Termidor (fr. Thermidor) (19 iyul — 17 avqust) — istilər ayı
Fruktidor (fr. Fructidor) (18 avqust — 16 sentyabr) — məhsul ayı

Sanskulotidlər(əlavələr)
Şücaət/Qəhrəmanlıq günü - 17 sentyabr
İstedadlar/Dahilər günü - 18 sentyabr
Əmək günü - 19 sentyabr

Rəylər/İdeyalar günü - 20 sentyabr

Mükafatlar/Təltiflər günü - 21 sentyabr

İnqilab günü - 22 sentyabr 1792-ci ildə Milli Konvent Fransanı Respublika elan edib

"Sankulotidlər" sankyulotlar sözündən götürülmüşdür.

Sankyulotlar (fr. sans - inkar şəkilçisi + fr. culotte – diz, sağrı) — Parisdə inqilab əhvali-ruhiyyəli kasıb adamlara Böyük Fransa inqilabı dövründə verilmiş ad. Ad fr. sans-culotte sözündən götürülmüşdür, mənası dizliksiz (kyulotsuz) deməkdir. XVIII əsrdə varlı, əsilzadə insanlar, zadəganlar uzun corabla dizə qədər olan dar, qısa şalvar(kyulot-dizlik), kasıblar isə uzun şalvar geyirdilər. Ona görə də, kasıb və yoxsul zümrəni "dizliksizlər" - sanskyulotlar adlandırırdılar.

Yeni zaman vahidləri

Uzunluq, həcm, çəki vahidləri kimi zaman üçün də onluq sistemi yaradıldı. Belə ki, 1 dekada 10 günə bir gün 10 saata, hər bir saat 100 dəqiqəyə, hər bir dəqiqə isə 100 saniyəyə bölünmüş olur. (24 noyabr 1793-cü il (4 Frimer II) dekretindən)

§2.Yakobin diktaturasının diplomatiyası

1.Dantonçular və Yakobinlər diktaturası dövründə diplomatiya

2.Fransada koalisiyanın casus və təxribatçı agentləri

3.Ebertistlər, Kloots və diplomatiya

4.Robesyer və İctimai Təhlükəsizlik Komitəsinin diplomatiyası
(1793-cü ilin payızından- 9 termidora (27 iyul 1794-cü il) qədər)

5. Yakobinlər dövründə diplomatik idarənin yenidən qurulması

1.Dantonçular və Yakobinlər diktaturası dövründə diplomatiya

31 may - 2 iyun 1793-cü il üsyanı kiçik burjuaziyanın ən inqilabi qruplarından ibarət birliyinə, şəhər və kəndlərin plebey kütlələrinə arxalanan Yakobinlər diktaturasının qurulmasına səbəb oldu. Yakobinlərin diplomatiyası ölkəni inqilabı müdaxiləçilərdən qorumaq vəzifəsinə və inqilabi-azadlıq müharibəsini tam qələbəyə qədər inkişaf etdirmək şüarına tabe idi. Jirondist Lebrenin yerinə Dantonun himayə etdiyi Deforq Xarici İşlər naziri təyin edildi. Lebren həbs edildi.

Yakobinlər — Fransanın inqilab tarixində mövcud olmuş fransız siyasi cərəyanının - yakobinlər klubunun üzvləri. 1793-1794-cü illərdə Yakobinlər diktaturasının qurucuları. Klub 1789-cu ildə milli şuranın Breton deputatlarının fraksiyası əsasında, Parisin Müqəddəs Yakob dominikan kilsəsində yaradıldığı üçün yakobinlər adlandırılmışdır. Yakobinlər klubu fransız inqilabının gedişində böyük təsir qüvvəsinə malik olmuşdular. Fransız inqilabı məhz, yakobinlər klubunun təsiri ilə inkişaf etdi və onun taleyi ilə birlikdə məğlub oldu. Yakobinlərin hakimiyyəti

dövründə bir sıra radikal islahatlar və kütləvi terrorlar həyata keçirilmişdir. Yakobinlər klubuna 3 cərəyan (partiya) daxildir:

Jorj Jak Dantonun rəhbərlik etdiyi sağlar;

Maksimillian Robespyerin başçılıq etdiyi mərkəzçilər;

Jan Pol Maratın (ölümündən sonra Jak Rene Eberin və Pyer Qaspar Şomettin) rəhbərlik etdiyi sollar.

Yakobinlər Maksimillian Robespyerin edamından sonra termidorlar və royalistlər tərəfindən təqiblərə məruz qaldılar. 1794-cü ilin noyabrında yakobinlər klubu bağlandı.

Yakobin diktaturası dövründə dantonçular ümumiyyətlə koalisiya dövlətləri ilə real danışıqlara başlaya bilmədilər. 1793-cü ilin avqustunda, özünü Britaniya hökumətinin agenti kimi təqdim edən Matyus adlı şəxs İngiltərənin sülh şərtlərini qeyri-rəsmi şəkildə Fransa Xarici İşlər Nazirliyinə çatdırdı. Fransa inqilab zamanı fəth etdiyi bütün ərazi ilhaqlarından imtina etməli, Tabaqo adasını güzəştə getməli və kral ailəsini Fransadan təxliyə etməli idi. İctimai Təhlükəsizlik Komitəsində Deforq bu təkliflərlə bağlı çıxış etdi. Lakin, Matyusun şəxsiyyəti etimad göstərilməyə layiq deyildi. Artıq qətiyyətli siyasət yolu tutan komitə Matyusun həbsinə göstəriş verdi.

1793-cü ilin dekabrında, Danton başqa bir ingilis agenti Maylzdan, Britaniya hökumətinin sülh danışıqlarına başlamaq istəməsi haqqında dolayısı yolla məlumat aldı. Görünürdü ki, İngiltərədə Fransaya alçaldıcı sülh şərtlərini qəbuk etdirmək üçün, Dantonun hakimiyyətə gəlməsinə ümid edirdilər. Oxşar dolayı təkliflər, Hollandiya, İspaniya və Avstriyadan Komitənin agentlərinə də edildi.

1793 -1794-cü ilin qışında dantonçular nəhayət varlı yeni burjuaziya nümayəndələri ilə yaxınlaşdılar. Terrordan qorxan və nəyin bahasına olursa-olsun tezliklə sülh arzulayan möhtəkirlər, bankirlər və avantüristlər ümidlərini onlara bağlayırdılar. Bu adamların bir çoxu koalisiyanın xeyrinə casusluqla məşğul olurdu. Bəzi dantonçular inqilabi diktaturaya qarşı mübarizələrinə görə, hətta İngiltərədən pul alırdılar.

Dantonun daxili siyasətdə qətiyyətsizliyi və Fransa tərəfindən nəzərdə tutulan güzəştlər əsasında koalisiya agentləri ilə sülh danışıqları aparmaq cəhdləri, nəhayət, Dantonu nüfuzdan və etibardan məhrum etdi. İyul ayında o, daha İctimai Təhlükəsizlik Komitəsinə seçilmədi və xarici siyasətə rəhbərlik etməyi dayandırdı. 1793-cü ilin dekabrında, dantonistlər qəti olaraq yakobin diktaturasının düşmənlərinin düşərgəsinə keçdilər. Dantonçular İngiltərədə Foksun başçılıq etdiyi müxalifətin qələbəsinə utopik ümidlərini sona qədər qoruyub saxladılar. Lakin 1794-cü ilin yazında, "İngiltərədə keçirilən seçkilər Pitt üçün əlverişli oldu... və bu məsələ Dantonun mövqeyinə mənfi təsir etdi, Robespyer qalib oldu və onu edam etdirdi"

Parisdə, Pitin parlamentdə qələbəsi xəbərinin alınmasının ertəsi günü Danton həbs olundu və gilyotinə göndərildi. Lebren hələ qışda inqilab tribunalına verilmiş və edam edilmişdi.

Jorj Jak Danton (26 oktyabr 1759 - 5 aprel 1794) - Fransız inqilabçısı, görkəmli siyasətçi və natiq, Birinci Fransa Respublikası dövründə Kordelyer Klubunun həmsədri, Ədliyyə naziri, İctimai Təhlükəsizlik Komitəsinin ilk sədri. İnqilabi terror zamanı edam edilib. Edama aparılan Danton, Robespyerin yaşadığı evin yanından keçərkən "Maksimilian (Robespyer), mən səni gözləyirəm, sən mənim arxamca gələcəksən!" sözlərini qışqırmışdı. Cəllada "başımı insanlara göstərməyi unutma; belə başlar hər gün görünmür" demişdi və bu, onun son sözləri idi.

2.Fransada koalisiyanın casus və təxribatçı agentləri

Koalisiyanı yaradan dövlətlər – İngiltərə, Avstriya və Prussiya - inqilabi diktaturaya qarşı təxribatçı casusluq işlərini həyata keçirmək üçün Fransaya çoxlu agentlər göndərirdilər. İngilis casusları ayrı-ayrı şəhərlərdə baş verən əksinqilabi üsyanları pul ilə təmin edirdilər. İngiltərənin məxfi agentləri, Due, Valensyen, Bayon silah zavodlarında, artilleriyanın yerləşdiyi məkanlarda, cəbbəxanalarda və yem anbarlarında yanğınlar və partlayışlar törədirdilər. Lilldə bir ingilis casusunun portfelində tapılan təlimatda bu təxribatları törətmək üçün xüsusi partladıcı vasitələr tövsiyə olunur. Pitt və avstriyalı agentlər Fransanı saxta əskinaslarla doldururdular və təxribatlar törətmək məqsədilə ruhanilərin dini təbliğatının təsiri altına düşən keşişlər və qadınlar arasından sui-qəsdçilər yığırdılar. Konvent bu tədbirlərə cavab olaraq, bütün şübhəli əcnəbilərin həbsi ilə bağlı qərar verdi.

Pitin və Britaniya Xarici İşlər Nazirliyinin bankiri olan Boyd adlı şəxsin, Parisdə özünün şöbəsi və agentləri var idi. O, yalnız dantonçuların ona verdiyi pasport sayəsində həbsdən qaça bildi. Avstriyalı agent, belçikalı bankir Proli, dekabr ayına qədər komitənin iclaslarında iştirak etmiş, keçmiş jirondist Ero-de-Seşelin vasitəsilə İctimai Təhlükəsizlik Komitəsinin məxfi qərarlarını əldə etmişdi. Ölkədə, o qədər çox casus var idi ki, Robespyer iki fəaliyyət planının - biri tamamilə gizli, digəri – dəftərxana işçiləri üçün- yaradılmasını zəruri hesab edirdi. Bu plan xarici agentləri yanlış yola yönəltməli idi.

Xarici mühacirlər arasında da casuslara rast gəlinirdi. Onlar, bütün ölkələrdən könüllü azadlıq döyüşçülərinin Fransaya axışmasından istifadə edirdilər. Konvent bir çox xarici mütərəqqi yazıçı və mütəfəkkirlərə Fransa vətəndaşlığı hüququnu verdi. Hətta, Kloots və Tomas Peni kimi bəzi məşhurlar Konventin iclaslarında iştirak edirdilər. Xarici inqilabçıları hər yerdə coşqu ilə qarşılayırdılar. Onlar tez-tez mühüm əhəmiyyətli rollar oynayırdılar. Casuslar bu vəziyyətdən istifadə etməyə

çalışır və bəzən də ideyalarına görə təqib olunan xarici vətənpərvərlər adı altında gizlənirdilər.

3.Ebertistlər, Kloots və diplomatiya

Sol yakobinçilər, Kloots və ebertistlər, dantonçulardan fərqli olaraq, ümumiyyətlə hər cür diplomatiyanı və danışıqları rədd edirdilər. Onlar, koalisiya qarşı terror və amansız müharibə aparmağı təbliğ edirdilər. Bağlı olduqları kommuna və kasıb kütlələr üçün ən vacib məsələ inqilabın müdafiəsi, inqilabi fəaliyyətin davam etdirilməsi və genişlənməsi üçün tam qələbəyə qədər müharibə etmək idi.

Ebertistləri, inqilabı bütün Avropaya yaymaq ideyası cəlb edirdi. Bu ideyanın əsas təbliğatçısı Kloots idi. Ebertistlər hətta xarici ticarəti və bitərəf ölkələrlə diplomatik münasibətləri saxlamağı da lüzumsuz hesab edirdilər. Ərzaq, onların fikrincə, xaricdən idxalla deyil, terror və müsadirə yolu ilə əldə edilməli idi. Sol yakobinçilər 1793-cü ilin yayında, Danimarka və Hanza şəhərləri ilə münasibətləri pozmağı tələb etdilər. Noyabrın əvvəllərində Şomet, Fransa Respublikasının xaricdəki diplomatik nümayəndəliyinin ləğvinin lehinə çıxış etdi. Lakin, artıq noyabrın ortalarından etibarən İctimai Təhlükəsizlik Komitəsinin təzyiqi ilə ebertistlər tədricən diplomatiyadan tam imtina, bütün ölkələrlə münasibətləri pozmaq və silahlı inqilab təbliğatından imtina etməyə başladılar. Onları sakitləşdirən Respublikanın ilk qələbələri oldu.

Jak-Rene Eber (15 noyabr 1757 - 24 mart 1794) - fransız jurnalisti; fransız inqilabının lideri, yakobinlər arasında ifrat solçu, ebertistlərin "lideri" və sankyulotların müdafiəçisi olubdur. 1791-ci ilin əvvəlində Eber Kordelyerlər klubunun üzvü oldu (1792-ci ilin iyulunda Klubun sədri seçildi). 1792-ci il avqustun 10-da üsyanda şəhər şurasının üzvü və Paris Kommunasının komissarı kimi iştirak etmişdir. Elə həmin ay Yakobin klubuna qoşuldu. 1792-ci ilin dekabrında Eber Paris Kommunası prokurorunun müavini seçildi. 1793-cü il mayın 25-də onu həbs edən, lakin kütlələrin təzyiqi altında onu azad etməyə məcbur olan jirondistlərin süqutuna töhfə verdi. Eber inqilabi terrorun gücləndirilməsinin zəruriliyini müdafiə edən, xristian ibadətinin ləğvini və "ağıl kultu"nun tətbiqini tələb edən ebertistlərin rəhbəri idi; islahatçı Danton və Robespyeri azadlığa qəsd etməkdə ittiham edirdi. Robespyer ebertistləri əxlaqi iyrənclikdə, anarxizmdə və vətənə xəyanətdə günahlandırdı və onları həbs etməyi tələb etdi. 1794-cü il martın 14-də hökumət ebertistləri həbs etdi. Uydurulmuş bir ittihama görə, İnqilab Tribunalının 24 mart 1794-cü il tarixli qərarı ilə Eber yoldaşları ilə birlikdə gilyotində edam edildi.

Bununla belə, Kloots diplomatik münasibətlərin bütün əvvəlki formalarını inkar etməyə davam etdi. Onun üçün inqilabi diplomatiya respublikanın bütün Avropa ilə müharibə etməsindən və Ümumdünya Federativ respublikasının yaradılmasından ibarət idi. Xarici inqilabçılar arasından olan bir çox tərəfdarları üçün, onun məqsədi daha əsas idi. Kloots, inqilaba önəm verəcək Ümumdünya respublikasında,

diplomatların fəaliyyətinə ehtiyac olmayacağını öncədən görürdü. Onun fikrincə, xalqların ümumbəşəri qardaşlığı, azadlığı və bərabərliyi diplomatiyanı lüzumsuz edəcək.

Anaxarsis Kloots (Jan-Batist Kloots), antik dövrün ideyalarına meyl etdiyi üçün Anaxarsis adını götürmüşdü, (24 iyun 1755 - 24 mart 1794-cü il) - Fransa İnqilabı zamanı siyasətçi və inqilabçı olub. Filosof-pedaqoq, fəal publisist idi. Prussiya baronu tituluna sahib idi. Jan Batistin atası, əslən holland tacir ailəsindən olan baron Tomas Fransua Kloots Hollandiyanı tərk edərək Prussiyaya köçmək məcburiyyətində qalmışdı. Kloots 1776-cı ildə Parisə gəldi, burada ensiklopedistlərlə yaxınlaşdı.

1789-cu ildən Kloots Yakobin klubunun üzvü idi. İnqilab illərində Fransa vətəndaşlığını qəbul etdi, Uazz departamentindən Konventə üzv (1792) seçildi. 1790-cı ildən, Milli Məclisə göndərilən, inqilaba qoşulmuş xarici xalqların nümayəndələrindən ibarət nümayəndə heyətinə başçılıq etdi. Nümayəndə heyətinin rəhbəri kimi o, Fransa İnqilabının dünya inqilabının yalnız başlanğıcı olduğunu bəyan etdi və bu, məqalələrində, çıxışlarında və çıxışlarında əsas "təbliğat" mövzusuna çevrildi. Onun "dünya inqilabı" məsələsini çıxışlarında əsas "təbliğat" mövzusuna çevirməsi və avantürizmi M.Robespyer və digər yakobinçilər tərəfindən son dərəcə mənfi düşmənçilik ruhunda qarşılandı. 1793-cü ilin dekabrında o, Yakobin klubundan qovulmuş, 1794-cü ilin yazında əcnəbilərin Konventdən çıxarılması barədə qərar qəbul edildikdən sonra həbs edilərək məhkəmə qarşısına çıxarıldı. Kloots, ebertistlərlə birlikdə casusluq ittihamı ilə edam edildi. Lakin, əslində isə, inqilabi müharibə və "ümumdünya respublikalar ittifaqı" yaratmaq ideyalarının həyata keçirilməsinin birmənalı olaraq Fransanı bütün Avropa ilə müharibəyə apara biləcəyinə görə, həyatına son qoyulmuşdu.

4.Robesyer və İctimai Təhlükəsizlik Komitəsinin diplomatiyası (1793-cü ilin payızından- 9 termidora (27 iyul 1794-cü il) qədər)

1793-cü il konstitusiyası yakobinlərin inqilabi diplomatiyasının prinsiplərini təsbit etdi. Konstitusiyaya görə fransızlar bütün azad xalqların təbii müttəfiqləri kimi tanınırdılar. Fransız xalqı başqa xalqların idarəetmə formalarına qarışmır, lakin öz işlərinə qarışmağa da imkan vermirlər. Fransa azadlıq döyüşçülərinə sığınacaq verir, lakin tiranlara bu məsələdə imtina olunur və ərazisini işğal edən düşmənlə barışmır. 1793-cü il konstitusiyası həyata keçirilmədi, çünki, siyasi vəziyyət inqilabi diktatura idarə sisteminin yaradlmasını tələb edirdi. Buna baxmayaraq, Robespyerin diplomatiyası bir çox cəhətdən onun prinsiplərinə uyğun gəlirdi. O, həm Fransadan kənarda dünya inqilabını həyata keçirmək məqsədi ilə bütün Avropa ilə müharibə

edilməsini, həm də təslimçilik sülhünun bağlanmasını inkar edirdi. Lakin ölkənin müdaxiləçilərdən azad edilməsini tələb edirdi.

Koalisiyaya qarşı mübarizə vasitəsi kimi diplomatiyaya böyük əhəmiyyət verən Robespyer eyni vaxtda iki əks təmayülə qarşı çısdı: Kloots və ebertistlər tərəfindən aparılan nəyin bahasına olursa olsun, inqilabi müharibənin təbliğatına və dantonçuların təslimçilik sülhü bağlamaq cəhdlərinə. 1793-cü ilin yayında, Robespyer dantonçulara əleyhinə olan, Fransa ərazisini işğal edən düşmənlə sülh bağlamağı təklif edən hər kəsə ölüm cəzası verilməsi haqqında fərman qəbul etdi. Xarici siyasətlə bağlı çıxışlarında o, monarxiya diplomatiyasının makiavelist siyasətini tənqid edirdi.

Robespyerin sözlərinə görə, inqilab diplomatiyası ədalət, düzlük və qanunilik prinsiplərinə əsaslanmalıdır. Robespyer Avropanın kiçik dövlətlərini Fransa ilə ittifaqa və birləşməyə çağırırdı. Lakin o hesab edirdi ki, bu ittifaq məcburiyyət və fəthlər yolu ilə deyil, yalnız xalqın azad iradəsi əsasında əldə edilə bilər. Robespyer Fransa torpaqlarıının azad edilməsinə can atırdı, ondan kənarda inqilaba deyil. Komitə, jirondistlərin xalqı inqilaba təhrik etmək üçün İsveçrəyə göndərdiyi agentləri geri çağırdı. Xarici casuslar və mühacirlər, Fransadan kənarda yakobinlərin inqilabi təbliğatını həddən çox şişirtmək və mənfi rəylər yaratmaqla, Avropa dövlətlərini qorxutmaq və onları Fransa ilə daha ciddi mübarizə aparmağa sövq etməyə çalışırdılar. Beləliklə, Sen-Jüstun Avropada yakobinlərin təbliğatı və bu məsələyə çəkilən xərclər haqqında fantastik məlumatları özündə əks etdirən saxtalaşdırılmış hesabatı xaricdə çap edilmişdi.

Dantondan fərqli olaraq Robespyer Fransanın əsas düşmənini İngiltərədə görürdü. Dantonçuların İngiltərə ilə fitnəkarlığını qarşısını almaq və xarici ticarət siyasətinin prinsiplərində ciddi dəyişiklik etmək üçün, sentyabrın 21-də Barer Komitə adından İngiltərəyə qarşı böyük bir nitq ilə çıxış etdi. Konvent, İngiltərəyə qarşı olan, Kromvel aktına oxşar ingilis gəmilərinin Fransaya daxil olmasını qadağan edən Naviqasiya Aktı qəbul etdi. Yakobin diktaturası, ingilis ticarətinə qarşı yönəlmiş bu kəskin qərarla jirondistlərin azad ticarət siyasətini pozdu, Fransanın ticarət siyasətini sənaye burjuaziyasının maraqlarına yaxınlaşdırdı və dantonçuların planlarına zərbə vurdu. Daha sonra, Yakobinlərin süqutundan sonra, Naviqasiya aktının prinsipləri Fransanın fəth etdiyi bütün ərazilərə yayıldı. Napoleon bu prinsipləri, İngiltərənin kontinental blokadası ideyasına çevirdi.

Robespyerin başçılıq etdiyi İctimai Təhlükəsizlik Komitəsinin diplomatiyası qarşısına üç əsas vəzifə qoymuşdu:

1)Fransanı iqtisadi və siyasi təcriddən çıxarmaq və ərzaq idxalını genişləndirmək;

2) əksinqilabi koalisiyaya qarşı digər dövlətlərdən başqa bir qrup yaratmaq;

3) koalisiya daxilində nifaq salmaq və onun parçalanmasını sürətləndirmək. Ebertistlərin istədiyi kimi varlılara və zənginlərə qarşı terror və müsadirə tələblərini daha da artırmaq istəməyən Robespyer, ordu üçün mühüm təminat mənbəyini xaricdən gətirilən ərzaq idxalında görürdü. Fransanın iqtisadi və siyasi təcridini yüngülləşdirmək üçün o, İsveçrə, ABŞ, Danimarka və Hanza şəhərləri ilə yaxşı əlaqələr saxlayırdı.

Bu dövlətlərdən böyük miqdarda ərzaqlar alınırdı. Robespyer, İsveçrənin sərhəd rayonlarını ələ keçirmək kimi, jirondist planlarından qətiyyətlə imtina etdi. Komitə, həmçinin təbliğatı ilə ABŞ hökumətində narazılıq yaradan jirondistlərin ABŞ-a səfir təyin etdiyi Jeneni geri çağırdı. Robespyer, Amerika hökumətinin başı üzərindən Amerika əhalisinə İngiltərə ilə müharibə etmək çağırışları ilə müraciət edən və Amerikadakı gəmi kapitanlarına kaperlik (talan) etmək üçün icazə sənədləri verən Jenenin hərəkətlərini pislədi.

İkinci diplomatik vəzifəni həyata keçirmək üçün Robespyer İsveç, Danimarka, Genuya və Türkiyədən ibarət koalisiya yaratmağı nəzərdə tuturdu. Hətta, Dantonun dövründə diplomatik agentlər Mare və Semonvil İstanbul və İtaliya şəhərlərinə göndərilmişdi. Lakin, onların səfəri lazımi ehtiyat tədbirləri ilə təmin olunmamışdı. İsveçrədən keçərkən avstriyalılar onları bu bitərəf ərazidə soyğunçuluq adı ilə ələ keçirdilər. Yolda diplomatik agentlərə və kuryerlərə hücum, koalisiya qüvvələrinin inqilabi hökumətin planları haqqında məlumat əldə etmək üçün istifadə etdiyi adi üsul idi. Semonvilə, Türkiyəni Rusiyaya qarşı hərbi təxribata sövq etmək göstərişi verilən təlimat Vyana hökumətinin əlinə keçdi. Türkiyəni koalisiyaya qarşı tarazlıq qüvvəsi hesab edən və Türkiyə hökumətində qıcıq və təşviş yaratmaq istəməyən Komitə, Şərqdə, Fransanın ticarət məhəllələrində inqilabi təbliğatdan çəkinmək barədə qərar verdi.

Parisdəki Yakobin klubu İstanbulda olan Fransız məhəlləsində təşkil edilmiş "Xalq cəmiyyəti"ni öz filialı kimi tanımaqdan imtina etdi. Fransanın İstanbuldakı agenti, Lebren tərəfindən ora göndərilən varlı aristokrat, hiyləgər və fitnəkar Dekorş idi. Komitənin Türkiyəyə böyük subsidiya təklif etməyə pulu olmadığından o, fəaliyyət göstərə bilmədi. Bundan əlavə, türk rəhbərliyi Rusiya və İngiltərədən çəkinirdilər. Onlar həm də, 1793-cü ilin sonuna qədər çox çətin vəziyyətdə olan Fransa respublikasının qələbəsinə inanmırdılar. Dekorş, Semonvilin gəlib ona çatan baqajında olan hədiyyələrlə türkləri əbəs yerə sakitləşdirməyə çalışırdı. O, həmçinin Bağdadda olan Fransa konsulu vasitəsilə Rusiya və İran ilə münasibətləri bərpa etməyə çalışdı.

Komitə, yalnız İsveçlə müttəfiqlik və subsidiyalar haqqında gizli danışıqlar aparırdı; lakin Komitənin pulunun olmaması və hərbi hadisələrin nəticəsinin qeyri-müəyyənliyi onların uğurla başa çatmasına mane olurdu. Eyni zamanda, yakobinlər

1794-cü ildə Polşada baş verən Kostyuşko üsyanına tam biganəlik nümayiş etdirdilər. Kostyuşkonun agenti dəstək almaq üçün Parisə gələndə, o, burada şifahi təqdir belə almadı. Robespyer və Sen-Jüst Polşa hərəkatının kifayət qədər demokratik və inqilabi olmadığını nəzərə alaraq, polyaklara kömək etməkdən çəkinmək qərarına gəldilər. Bundan başqa, onlar Polşanın artıq nəzərdə tutulmuş bölünməsinin koalisiyanın diqqətini və qüvvələrini Fransadan yayındıracağına ümid edirdilər.

Qarşıya qoyulan üçüncü vəzifəni - koalisiyanın parçalanmasını yerinə yetirilməsini sürətləndirmək üçün - Komitə 1793-cü ilin payızında xüsusi məxfi agentlərdən ibarət bütöv bir şəbəkə yaratmaq ilə bağlı qərar verdi. Bu agentlər koalisiyaya daxil olan dövlətlər arasında qarşılıqlı şübhə və nifaqın yaranmasına səy göstərməli idilər. Bundan əlavə, onlara xarici hökumətlərdə nazirlər və digər rəhbər şəxslərlə əlaqələr qurmaq tapşırıldı. Agentlər, Fransa Respublikasına sədaqəti sınanmış əcnəbilər arasından seçilirdi. Komitə, münasib şəxslərin axtarışını, onlarla yazışmaları və bütün məlumatların toplanmasını Fransanın İsveçrədəki səfiri Bartelemiyə həvalə etmişdi. Barteleminin olduğu Bazel əlverişli müşahidə yeri idi; orada Komitəyə xaricdən daxil olan bütün məlumat xətlərini öz əlində cəmləmək mümkün idi. Artıq noyabr ayında, Bartelemi biri Hollandiyada, digəri Berlində olan iki agent tapa bildı.

Yakobin diktaturası dövründə, koalisiya dövlətləri ilə sülh danışıqları hələ başlamamışdı. Lakin, Fransanın qələbələri nəticəsində getdikcə aralarında artan ixtilaf onları vəziyyəti dərindən araşdırmağa məcbur etdi. İspaniyanın Danimarkada olan səfiri, Kopenhagendəki fransız agenti ilə sülh danışıqları aparmaq üçün cəhdlər etdi. Prussiya və Avstriya agentləri Bartelemiyə danışıqlara başlamaq imkanları barədə dəfələrlə məlumat verdilər. Bununla belə, Komitə həlledici qələbələrin qazanılmasını gözləyirdi. 1794-cü ilin yayında, inqilabi orduların uğurları xarici işğal təhlükəsini aradan qaldırdı; 26 iyun 1794-cü ildə Fleuryusda qazanılan qələbə ilə Belçika yenidən fransızların əlinə keçdi.

Yakobin diktaturası, Fransanın koalisiya üzərində hərbi üstünlüyünü təmin edə bilən yeni güclü böyük inqilabi ordu yaratdı. Hərbi uğurlar, Fransanın iri burjuaziyasının Reynin sol sahilinin fəthi haqqında olan xəyallarını canlandırdı. Lakin, Robespyer hesab edirdi ki, Fransa artıq xarici hücum təhlükəsindən özünün müdafiəsini təmin edib: onun əsl məqsədi qalib kimi sülh bağlamaq və demokratiyanın daxili düşmənlərinə qarşı mübarizə idi. Savoy və Nitsanın müdafiəsini zəruri hesab edən Robespyer Reynin bütün sol sahilinin fəth edilməsinə qarşı idi. Robespyer bilirdi ki, yakobin diktaturasına qarşı sui-qəsd hazırlanır. İri burjuaziyanın agentlərindən olan sui-qəsdçilər, eləcə də ebertistlər müharibənin davam etdirilməsini istəyirlər.

Onlar qələbələrdən sonra yaranan şəraitdən, əksinqilabi çevriliş vasitəsilə, inqilabi diktaturanın devrilməsi, Belçikanın və Reynin sol sahilinin zəbt edilməsi üçün istifadə etməyə ümid edirdilər. Barer və digər gələcək termidorçular, 1794-cü ilin yazından başlayaraq, Robespyerin daxili siyasətini həyəcanla izləyir, ona hər cür formada qarşı çıxır və yeni qələbələr əldə etmək üçün ehtirasları qıcıqlandırırdılar. Bu fikir ayrılıqları, hakimiyyəti iri burjuaziyanın əlinə keçirən Termidor çevrilişinin (27 iyul 1794) səbəblərindən biri idi. Əksinqilabi çevriliş edən burjuaziya, inqilabi-azadlıq müharibəsini tədricən işğalçılıq müharibəsinə çevirmək üçün özlərinə yol açdılar.

Maksimilian Mari Isidor de Robespyer (6 may 1758 - 28 iyul 1794) - Fransız inqilabçısı, Fransa İnqilabının ən məşhur və nüfuzlu siyasi xadimlərindən biri. Yarandığı gündən Jakobin klubunun ən məşhur və aparıcı üzvüdür. Üsyançı Paris kommunasının üzvü, Milli Məclisə (Konvent) seçilmişdi, burada jirondistlərin siyasətinə qarşı çıxırdı. 31 may - 2 iyun 1793-cü il üsyanından sonra o, 27 iyul 1793-cü ildə İctimai Təhlükəsizlik Komitəsinin üzvü olmuş, xarici monarxiyaların koalisiyasına qarşı müharibə şəraitində inqilabi hökumətin yaradılmasında və vətəndaş müharibəsində iştirak etmişdir. "Böyük terror" dövrünün başlanğıcını qoyan 22 Prairial (10 iyun 1794) qanununun qəbulunu dəstəkləmişdi.

---

9 termidorda (27 iyul 1794) Konventdə gərgin iclasdan sonra Robespyer, qardaşı Oqyusten və tərəfdarları Kuton, Sen-Jüst və Leb ilə birlikdə həbs edildi. Həbs olunanlara dəstək olaraq baş verən Paris kommunasının üsyanından sonra, Konvent tərəfindən qanundan kənar elan edildi. İstintaq aparılmadan və mühakimə edilmədən ertəsi gün, 10 termidorda (28 iyul 1794) iyirmi bir tərəfdarı ilə birlikdə edam edildi.

5. Yakobinlər dövründə diplomatik idarənin yenidən qurulması

Yakobin diktaturası dövründə diplomatik idarə tamamilə yenidən quruldu. 1793-cü ilin payızından Barer və Robespyer İctimai Təhlükəsizlik Komitəsində respublikanın xarici əlaqələri üzrə məsul şəxslər idilər. Bu əlaqələr xeyli azaldıldı. Komitə Türkiyə, İsveç, ABŞ, Danimarka, Cenevrə, İsveçrə, Genuya və Əlcəzair ilə yarı rəsmi diplomatik əlaqələr saxlayırdı. Xarici İşlər nazirinin siyasi əhəmiyyəti çox cüzi idi. Konvent, ümumiyyətlə onun məlumatlarını dinləmədən xarici siyasətlə bağlı fərman və qərarlar qəbul edirdi. 1793-cü ilin yayından etibarən, bütün mühüm diplomatik məsələlər - danışıqlar, agentlərin təyin edilməsi və onlara nəzarət İctimai Təhlükəsizlik Komitəsinin əlində cəmləşdi. 1793-cü ilin sentyabrında, Komitə "Müvəqqəti diplomatik əsasnamələr" sənədini qəbul etdi. Əsasnaməyə görə, respublikanın rəsmi səfirləri yalnız ABŞ və İsveçrədə saxlanıldı. Başqa dövlətlərdə isə, Komitənin yalnız məxfi agentləri olmalı idi. Bu "qərarlar" mahiyyət etibarı ilə məhz faktiki vəziyyəti təsdiq edirdi.

Diplomatik heyət əksinqilabçılardan təmizləndi. Etibarsız agentləri izləmək üçün xüsusi müşahidəçilər göndərilirdi, hələ ki, onları əvəz edəcək heç kim yox idi. 1793-cü ilin sentyabrından, Komitə müharibə edən dövlətlərin emissarları ilə bütün danışıqları dayandırdı. Nəhayət, 5 dekabr 1793-cü il tarixli fərman rəsmi olaraq bütün diplomatiyanı Komitənin ixtiyarına verdi. 1794-cü ilin martında, Komitə qərara gəldi ki, səfirlərə göndərilən məktubları özü imzalayacaq, onlara danışıqlar aparmaq üçün xüsusi səlahiyyətlər və təlimatlar verəcək və bunların əsasında da nazir öz göstərişlərini yazacaq.

Koalisiyanın agentləri tərəfindən göndərişlərin tez-tez ələ keçirilməsi və Semonvilin avstriyalılar tərəfindən quldurcasına oğurlanması, Komitəni mümkün qədər təlimatlar yazmaqdan çəkinməyə məcbur etdi. Nazirlik rəsmilərinə diplomatik sirrlərin qorunması ilə bağlı ciddi tapşırıqlar verildi. 1793-cü ildə, İngilis sənayesinin blokadası haqqında yaranan ideya ilə əlaqədar olaraq, xarici gömrük məsələləri Xarici İşlər Nazirliyinin səlahiyyətinə verildi. Eyni zamanda, Konvent nazirlikləri ləğv edib və onları İctimai Təhlükəsizlik Komitəsinin tabeliyində olan 12 komissiya ilə əvəz etdi.

"Nazir" sözünün özü də, inqilabi hökumət üçün uyğun hesab edilmədi. Xarici İşlər Nazirliyi komissar Byuşotun rəhbərlik etdiyi Xarici Əlaqələr Komissiyasına çevrildi. Bu qurum, tamamilə Komitədən asılı idi. Komissiyanın tam şəkildə təşkili yalnız 9 Termidordan sonra, sülh danışıqları məsələsi əməli olaraq ortaya çıxanda tamamlandı. O vaxta qədər komissiyaya çox az diqqət verilirdi.

Komitə yetkin yakobin diplomatlara malik deyildi. Etibarsız agentlərə nəzarət etmək üçün xüsusi şəxslərin göndərilməsi bəzən mübahisələrə səbəb olurdu. Agent Enen, Dekorşa nəzarət etmək üçün, İstanbula göndərildi. Onların arasında açıq düşmənçilik başladı. Dekorşa fransız icmasının yerli mötədil burjuaziyası, Enen isə yerli yakobinlər tərəfindən dəstəklənirdi. Onların açıq qarşılıqlı ittihamları və toqquşmaları Türkiyə hakimiyyətinin gözündə respublikanı nüfuzdan salırdı.

Komitənin diplomatiyasının təşkilində Barteleminin yaratdığı agentlər şəbəkəsi böyük rol oynamalı idi. Bu şəbəkədə ilkin olaraq 45-ə qədər agent var idi. Sonra onların sayı 120-yə çatdı, lakin zaman keçdikcə fəaliyyətləri zəiflədi. Bu işlərin geniş şəkildə təşkil edilməsi üçün kifayət qədər vəsait yox idi. Ümumiyyətlə, inqilabi müharibə şəraitində, tam qələbəyə qədər diplomatiya, təbii ki, hərbi tapşırıqlar tərəfindən ikinci plana sıxışdırılmış şəkildə qaldı. Bu agentlərin əksəriyyəti, Fransa daxilində idi. Xaricdə olanların əksəriyyəti isə, ümumiyyətlə hesabat göndərmirdi.

DÖRDÜNCÜ FƏSİL

BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ SARSINTILAR VƏ DƏYİŞİKLİKLƏR DÖVRÜ (XVIII ƏSRİN SONU – XIX ƏSRİN ƏVVƏLLƏRİ)

III BÖLMƏ

Termidor irticası və Direktoriya illərində diplomatiya (1794 – 1799)

§1. Termidor irticası illərində diplomatiya (1794-1795)
1.Avropada Fransanın hərbi üstünlüyü və Termidor irticasının diplomatiyası
2.1795-ci ildə Polşanın son bölünməsi və koalisiyanın dağılması
3. 1795-ci il İngiltərə-Rusiya-Avstriya ittifaqı

§2.Direktoriya illərində diplomatiya (1795 — 1799)
1.Fransa Direktoriya illərində
2.Direktoriyanın xarici siyasəti
3.Xarici İşlər Nazirliyinin bərpası. Generalların diplomatiyası
4.İtaliya yürüşü
5.Misir ekspedisiyası
6.Taleyran və Bonapart
7.İkinci koalisiya

§1. Termidor irticası illərində diplomatiya (1794-1795)

1.Avropada Fransanın hərbi üstünlüyü və Termidor irticasının diplomatiyası
2.1795-ci ildə Polşanın son bölünməsi və koalisiyanın dağılması
3. 1795-ci il İngiltərə-Rusiya-Avstriya ittifaqı

1.Avropada Fransanın hərbi üstünlüyü və Termidor irticasının diplomatiyası

9 Termidorda hakimiyyətə gələn iri burjuaziya yakobin diktaturasından yeni inqilabi ordunu miras aldı. İnqilab illərində fransız xalqı müharibənin gedişində "nəhəng inqilabi yaradıcılıq nümayiş etdirdi, bütün strategiya sistemini yenidən qurdu, müharibənin bütün köhnə qanunlarını və qaydalarını dağıdıb köhnə qoşunların əvəzinə yeni, inqilabi xalq ordusunu və müharibə etməyin yeni üsulunu tətbiq etdi". Bu ordu, Fransaya, feodal-monarxiya Avropa dövlətləri üzərində qeyd-

şərtsiz hərbi üstünlük verdi. Fransanın hərbi üstünlüyü uzun müddət Avropada beynəlxalq vəziyyəti müəyyən etdi. Bu üstünlük, 1815-ci ilə qədər davam edən, Fransa ilə Avropa arasında olan uzun sürən müharibələrdə fransızların qələbələrinin zəmini oldu və Fransa burjuaziyasının Avropa və dünya hegemonluğu uğrunda mübarizəsini özündə əxz etdirdi.

Yeni tipli ordu: Konventin tribunasından Sen-Jüstun təklifi ilə, iki könüllü batalyon bir nizami batalyonla birləşdirərək, yarım briqadaya çevirdilər. Komandirlərin 2/3-ə qədərini əsgərlərin özləri seçirdilər. "Əsgərlərin səsvermə hüququnu əsaslandıran prinsipə müraciət edirdilər."

Bu zaman orduya göndərilən xalq nümayəndələri İnqilabın əsl siyasi idarəçilərinə çevrildilər.

Orduda süvari və artilleriya kadrları əhəmiyyətli dərəcədə artırıldı, bu da qoşunları daha manevrli edə bildi və atəş gücünü artırdı. 8-10 min əsgərdən ibarət süvari və atlı artilleriya birləşməsi ilə, tez cəmləşməyə qadir olan ordu bölmələri yaradıldı. Komanda rəhbərliyi yeniləndi. Generallar icra hakimiyyəti (İctimai Təhlükəsizlik Komitəsi) tərəfindən təyin edilirdi, o da orduda öz səlahiyyətlərini çox vaxt xalq nümayəndələrinə verirdi. Demək olar ki, bütün köhnə hakimiyyətin generalları ordudan uzaqlaşdırıldı, onların yerinə həm xalq, həm də xırda zadəganlar arasından, əsasən fəaliyyəti ilə özünü yaxşı göstərən gənclərdən ibarət zabitlər təyin edilirdi. Orduda ciddi nizam-intizam yaradıldı, talançılar və fərarilər üçün ölüm hökmü tətbiq edildi.

Fransanın qələbələri koalisiya daxilindəki ziddiyyətləri o qədər kəskinləşdirdi ki, artıq 1794-cü ilin sonunda onun parçalanması nəzərdə tutulmağa başlandı. Fransız diplomatiyası qarşısında bu prosesi sürətləndirmək, koalisiyanı parçalamaq, fransız burjuaziyasının təcavüzkar arzularının həyata keçirilməsini təmin etmək vəzifəsi dururdu. Hələ əvvəldən yakobinçilər, inqilabçılar, işğalların əleyhinə olanlar diplomatik heyətdən qovulmuşdular. Mütləq monarxiyanın diplomatik üsul və institutlarının tənqid olunması bir kənara atıldı. Danışıqlar aparmağa hazırlaşan burjuaziya diplomatiyada öz maraqlarını güdmək niyyətində idi.

Xarici Əlaqələr Komissiyasının nəzdində xüsusi "araşdırma bürosu" yaradıldı. Onun vəzifəsi Fransanın xarici əlaqələrinin iqtisadi və siyasi əsaslarını tarixi baxımdan öyrənməkdən ibarət idi. 1794-cü ilin qışında, diplomatik nümayəndəliklərin əvvəlki təşkilatını, səfirlər və agentləri bütün rütbələri ilə birlikdə bərpa etmək qərara alındı. Lakin sonuncular, artıq monarxın şəxsiyyətini deyil, yeni burjua respublikasının simasında milləti təmsil etməli idilər.

Termidor Konventi İctimai Təhlükəsizlik Komitəsini saxladı, lakin onu tamamilə özünə tabe etdi. 1795-ci ilin yazında, Konvent Komitəyə sülh danışıqları aparmaq və müqavilələr bağlamaq səlahiyyəti verdi. Müqavilələrə açıq öhdəliklərə zidd olmayan və respublikaya zərər vurmayan məxfi maddələrin də salınmasına yol verilirdi. Komitə öz yanında deşifrə bürosu təşkil etdi.

Hələ 1794-cü il noyabrın sonlarında, Prussiya ilə sülh danışıqları başlandı. 1795-ci il aprelin 2-də, Bazeldə Reyn çayının sol sahilini Fransanın tabeliyində saxlayan sülh müqaviləsi imzalandı. Şimali Almaniya bitərəfləşdirildi. Beləliklə, Müqəddəs Roma İmperiyasının tamamilə məhv edilməsinə başlandı. Bu proses, 1806-cı ildə Napoleon tərəfindən tamamlandı.

22 iyul 1795-ci ildə, yenə də Bazeldə İspaniya ilə sülh bağlandı. Hətta bundan əvvəl, may ayında müstəqil Birləşmiş Əyalətlər Respublikası ilə sülh imzalanmışdı. O, Fransadan asılı olan Bataviya Respublikasına çevrildi. 1 oktyabr 1795-ci il tarixli fərmanla Belçika və Reyn çayının sol sahili Fransaya birləşdirildi. 1794-cü ildən bu bölgələrə artıq azad edilmiş ərazilər deyil, işğal edilmiş ərazilər kimi baxılırdı. Onlara amansız təzminat və zərərlərin ödənilməsi tələbi qoyuldu, milli qürur hissini təşkil edən ən yaxşı sənət əsərləri Fransaya aparıldı. Bu müqaviləyə əsasən Fransa 100 milyon florin təzminat aldı və ittifaq dövlətinin ərazisinə özünün 25.000 ekspedisiya qüvvəsini yerləşdirdi. Zərərlərə görə alınan odənişlər və təzminatlar əvvəlcə zənginlərə və zadəganlara paylanırdı, sonra isə əhalinin daha geniş dairələrinə yaymağa başlayırdılar.

Fransızların hökmranlığı 1798-ci ildə ilhaq edilmiş əyalətlərin əhalisinin üsyanına səbəb oldu. Üsyan işğalçılar tərəfindən vəhşicəsinə yatırıldı.

Əhalinin özünün Fransaya qoşulmağa razı olmaları unudulmağa başlandı. Danışıqlarda getdikcə daha çox digər amillərə önəm verilirdi: hərbi təhlükəsizliyin təmin edilməsi və hərbi xərclərin ödənilməsi. Fransanın uğurları göstərdi ki, o, feodal-monarxiya Avropasını məğlub edə bilər, lakin inqilabi müharibənin tərəfdarları əvəzinə artıq hakimiyyətdə Termidorçular dururdu.

2.1795-ci ildə Polşanın son bölünməsi və koalisiyanın dağılması

Koalisiyanın dağılması Polşa hadisələri ilə sıx bağlı idi. 1794-cü ilin yazında Kostyuşkonun başçılığı ilə polyakların üsyanı başladı. Polşalılara qarşı hərəkətə keçən Suvorovun ordusu Polşaya daxil olaraq, Varşavanı zəbt etdi. Prussiya kralı, Yekaterinanın Polşanın son qalıqlarına təkbaşına sahib çıxacağından qorxaraq öz qoşunlarını Varşava və Krakova yeritdi. Avstriyalılar isə Lyublini işğal etdilər. Prussiya ilə müharibə etmək istəməyən Yekaterina Polşanın son bölünməsinə razılıq vermək məcburiyyətində qaldı və Polşanın yalnız Rusiyaya tabe etdirmək arzusundan imtina etdi. Avstriya və Prussiya arasında hər iki tərəfin iddia etdiyi mühüm strateji mövqe olan Krakov uğrunda diplomatik mübarizə başlandı.

Bu mübarizə hər iki dövlət arasında münasibətləri gərginləşdirdi və Prussiyanın koalisiyadan çıxmasını sürətləndirdi. Prussiya kralı, 1794-cü ilin yazında Polşaya getdi və bundan sonra Fransa ilə müharibədə demək olar ki, iştirak etmədi. Bunu görən Pitt, 1795-ci ildə Prussiyaya ingilis subsidiyalarını ödəməyi dayandırmaq

haqqında qərar verdi. Yekaterina Krakovun Prussiya tərəfindən tutulmasından və onun həddindən artıq güclənməsindən ehtiyat edirdi. O, Avstriyanı ilk növbədə, Türkiyəyə qarşı mübarizədə müttəfiq kimi gördüyündən, ikincisi, burjua Fransasının daha fəal düşməni kimi qəbul etdiyindən ona yaxınlaşırdı. Prussiya Krakovu Avstriyaya verməkdən imtina etdikdən sonra, Yekaterina Prussiyanın xəbəri olmadan Polşanın yekun bölünməsi haqqında Avstriya ilə gizli müqavilə bağladı. O, Prussiyanı təcrid edərək, onu fakt qarşısında qoyduğundan, onu təslim olmağa və şərtlərini qəbul etməyə məcbur etdi. Bu dəfə Yekaterina, 1793-cü ildə Polşanın ikinci bölünməsi zamanı avstriyalılara qarşı istifadə etdiyi üsulu Prussiyaya qarşı tətbiq etdi.

1795-ci il Polşanın üçüncü bölgüsünə görə, Rusiya Litvanı, Kurlandiyanı və Neman və Buqa qədər olan bölgələrini aldı. Prussiya Varşavanı, Avstriya isə bölgələri ilə birlikdə Lyublin və Krakovu aldı. "1792-1794-cü illərdə Polşada həyata keçirilən soyğunçuluq koalisiyasının qüvvələrini Fransa ilə müharibədən yayındırdı. Onların Fransaya qarşı təzyiqinin gücü zəiflədi, ona güclənmək üçün vaxt verildiyindən, o, sonradan tamamilə müstəqil şəkildə qələbələr qazandı. Polşa dövləti məhv edildi, lakin onun müqaviməti Fransa inqilabını xilas etdi."(F.Engels)

II Yekaterina öz imperiyasını genişləndirmək üçün Avstriya və Prussiyanın Fransa ilə müharibəsindən məharətlə istifadə etdi. Engels yazırdı: "Fransa İnqilabı Yekaterina üçün yeni bir uğur idi". Polşanın parçalanmasında Rusiya, Avstriya və Prussiyanın mürtəce əməkdaşlığı onların yaxınlaşması və Avropada, xüsusən də Müqəddəs İttifaq illərində inqilablara və milli-azadlıq hərəkatlarına qarşı gələcək birgə siyasətinin əsaslarından biri oldu.

3. 1795-ci il İngiltərə-Rusiya-Avstriya ittifaqı

Prussiya, Hollandiya, İspaniya və İttifaqın digər dövlətləri koalisiyadan çıxdıqdan sonra, Fransa ilə müharibəni yalnız İngiltərə və Avstriya davam etdirirdi. Polşa problemini həll edən Yekaterina, Fransaya qarşı göndərmək üçün 60.000 nəfərdən ibarət ordu hazırlamağa başladı. O, 1795-ci ildə İngiltərə və Avstriya ilə yeni ittifaqa girdi, lakin onun ölümü (1796) və Prussiyanın düşmən mövqeyi yenidən rus ordusunun əksinqilabi müharibədə iştirakına mane oldu. Bu zaman, xüsusilə koalisiyanın talançı planları tam aydın oldu.

Fransanın parçalaması və talan edilməsi ehtimalı olduğu üçün, bu halda özlərinin əl-qolunu bağlamamaq üçün Pitt və imperator, XVI Lüdovikin qardaşı Provans qrafını Fransa kralı kimi tanımaqdan imtina etdilər. Fransanın hesabına ərazi əldə etməsinə ümid etməyən Yekaterina bu tanınma ilə bağlı israr edirdi. XVI Lüdovikin başqa bir qardaşı, inadkar, israfçı və təkəbbürlü qraf Artua daha əvvəldən əmin idi

ki, ingilis burjuaziyası öz ciblərini bütün məsələlərdən üstün tutur, Fransa taxt-tacına və zadəganlarına isə daha az qiymət verir.

Qraf Artua 1793-cü ildə, İngiltərədə fəal kömək axtarmaq üçün oraya getmək qərarına gəldikdə, o, sahilə ayaq basmağa cəsarət etmədi. Çünki, dostları ona xəbərdarlıq etdilər ki, o, sahilə çıxarsa, ingilis qanunlarına görə, kreditorları tərəfindən dərhal borclular həbsxanasına salınacaq. Bu vaxt üçün qrafın, artıq 10-20 milyon livr məbləğində borcu var idi və onun bu borcu ödəmək şansı hər gün azalırdı.

§2.Direktoriya illərində diplomatiya (1795 — 1799)

1.Fransa Direktoriya illərində
2.Direktoriyanın xarici siyasəti
3.Xarici İşlər Nazirliyinin bərpası. Generalların diplomatiyası
4.İtaliya yürüşü
5.Misir ekspedisiyası
6.Taleyran və Bonapart
7.İkinci koalisiya

1.Fransa Direktoriya illərində

Fransada dövlət çevrilişi 1794-cü ilin termidor (iyul) ayının 9-da həyata keçirildiyi üçün hakimiyyəti ələ keçirən burjuaziya "termidor burjuaziyası" adlanırdı. Konventdə və hökumətdə termidorçular üstünlük təşkil edirdi. M.Robespyer hökumətinin devrilməsində iştirak etmiş sol yakobinçilərin çoxu Qvianaya (Cənubi Amerikanın şimal-şərq sahilində yerləşən ərazi) sürgün edildi. 73 jirondist deputat Konventə qaytarıldı. Paris Kommunası ləğv edildi. 1794-cü ilin noyabrında Yakobin klubunun fəaliyyəti qadağan edildi. Yakobinçilər, xalq hərəkatının fəalları təqib edilirdi. Parisdə "qızıl gənclər" adlı silahlı dəstələr fəaliyyət göstərirdi. Lion, Nim və Marsel şəhərlərində yüzlərlə inqilab iştirakçısı ağ terrorun qurbanı oldu.

1794-cü ilin dekabrında Fransada "ərzaq maksimumu" ləğv edildi. Qiymətlər və inflyasiya artdı, əhalinin ərzaqla təchizatı pisləşdi. 1795-ci ilin yazında Paris əhalisi aclıqdan əziyyət çəkirdi. Əhali çörək mağazalarının qarşısında gecə növbələrinə dayanırdı. Fransada sosial təbəqələşmə daha da sürətləndi.

1795-ci ilin aprelin 1-də, 10 min nəfər Paris zəhmətkeşi Konventin binasına hücüm edib dərhal aclığa qarşı tədbirlər görülməsini, 1793-cü il konstitusiyasının həyata keçirilməsini və həbs olunmuş vətənpərvərlərin azad edilməsini tələb etdi. Lakin silahsız xalqın çıxışı ordu tərəfindən asanlıqla yatırıldı. 1795-ci ilin mayın 20-də baş vermiş üsyanda Milli qvardiya batalyonları da iştirak edirdi. Üsyançılar Konventin binasını ələ keçirdilər. Konventdə qalan yakobinçilər üsyana rəhbərlik

etməyə cəhd göstərdilər. Hökumət Parisə 20 min nəfərlik qoşun gətirdi və üsyan yatırıldı. Ölümə məhkum edilən 36 nəfərdən 6-sı yakobinçilərin nümayəndəsi idi.

Termidorçu burjuaziya respublika quruluşunu qoruyub saxlamışdı. Ölkənin müxtəlif yerlərində baş verən royalist qiyamları hökumət qoşunları tərəfindən yatırılırdı.1795-ci ilin iyununda Bretana İngiltərə gəmilərindən çıxarılmış 748 mühacirdən ibarət desant (onlar ingilis əsgəri formasında idi) hökumət qoşunu tərəfindən məhv edildi. Fransa ordusu koalisiya qoşunlarına qarşı hərbi əməliyyatları davam etdirirdi. Hərbi əməliyyatlar qonşu ölkələrin ərazisində aparılırdı. 1795-ci ilin yanvarında, Polşanın üçüncü bölüşdürülməsindən sonra Avstriya ilə Prussiya arasında ziddiyyətlərin kəskinləşməsi Fransanın xeyrinə oldu. 1795-ci ilin avqustunda, Konvent Fransanın yeni konstitusiyasını qəbul etdi. Konstitusiyaya görə ölkənin Qanunverici Korpusu (məclisi) 500-lər Şurasından və Ağsaqqallar Şurasından ibarət idi. Ağsaqqallar Şurasının 250 üzvü 40 yaşdan yuxarı olmalı idi. Seçkilər ikimərhələli olub yaş və əmlak senzinə əsaslanırdı. Ölkədə seçicilərin sayı cəmi 30 min nəfər idi. Ali icra orqanı Qanunverici Korpus tərəfindən seçilən 5 nəfərdən ibarət Direktoriya idi.

İlk seçkidə seçilmiş Direktoriya üzvlərinə- Luis Mari de Larevelyer-Lepo,
Şarl Lui Fransua Onore Leturner, Jan Fransua Rebel, Emmanuel Jozef Siyes,
və Paul Jan Fransua Nikola Barras daxil idilər.

18 bryumer çevrilişinə qədər ilk Direktoriya üzvlərindən Siyes və Barras qalmış oldu. 4 il ərzində(1795-1799) Direktoriyanın tərkibi yeni 13 üzv ilə dəyişdirildi.

1795-ci ilin oktyabrın 4-də 20 min nəfər silahlı kral tərəfdarı Konventin binasına hücum etdi. Monarxiyanı açıq şəkildə dəstəkləməyə cəsarət etməyən royalistlər öz çıxışlarını demokratik şüarlarla ört-basdır edərək, qiyam qaldırdılar. Vendemyer qiyamı (3-5 oktyabr 1795) çevrilişdən (27 iyul 1794) sonra qalib gələn Termidor irticasının təzahürlərindən biri idi. Onlar, Fransada monarxiyanı bərpa etmək niyyətində idilər. Vendemyer qiyamı, Termidor Konventinin 22 avqust 1795-ci ildə III il Fransa Konstitusiyasını qəbul edərək monarxistləri qanunverici orqanda üstünlük əldə etmək imkanından məhrum etdikdən sonra baş verdi. Royalistlər (kral tərəfdarları), Parisdə xeyli sayda gizli monarxistləri və onlara yaxın adamları cəmləşdirərək, oktyabrın 3-də Konventin binasını mühasirəyə aldılar və Termidor hökuməti üçün ciddi təhlükə yaratdılar. 25-30 min qiyamçı royalist qüvvələrinə qarşı Konventin cəmi 5-6 min əsgəri var idi. Konventin qoşunlarının Baş komandanı Barrasın təklifi ilə, 9 Termidordan sonra Robespyerin qardaşı və digər yakobinlərlə əlaqəsinə görə gözdən düşmüş general Napoleon Bonapart, İctimai Təhlükəsizlik Komitəsinin razılığı ilə, onun köməkçisi təyin edildi. Ona təcili şəkildə, qiyamı yatırmaq üçün aparılacaq hərbi əməliyyata rəhbərlik etmək vəzifəsini yerinə yetirmək tapşırıldı.

Barras və Bonapart ilk növbədə Konventin yaxınlığına 40 top gətirilməsi haqqında əmr verdilər. Qiyamçıların sayı çox olsa da, toplara malik deyildilər. Napoleon Bonapart toplardan istifadə edərək 5 oktyabr 1795-ci ildə royalistlərin qiyamımı darmadağın etdi. Beləliklə, Napoleon paytaxt küçələrində qiyamçılara qarşı artilleriyanın yaylım atəşindən istifadə etdi.

Bu döyüşdə hər iki tərəfdən 400 nəfər itki verildi. Konventi monarxiyanın bərpasını istəməyən orta təbəqələr xilas etdi. Qiyamçılar müxtəlif istiqamətlərə qaçaraq, öz evlərində gizləndilər. Daha sonra, kimin gücü və vaxtı var idisə, dərhal Parisi tərk etdi. Axşam Barras gənc generala hərarətlə təşəkkür etdi və Bonapartı arxa cəbhənin hərbi qüvvələrinin komandanı təyin olunmasını təkid etdi (qiyam yatırılan kimi Barras özü bu vəzifədən dərhal istefa vermişdi).Bununla da, royalist qiyamı N.Bonapartın başçılıq etdiyi hökumət qoşunları tərəfindən yatırıldı.

1795-ci ilin oktyabrın 25-də Konvent öz fəaliyyətini dayandırdı, ölkəni yeni hakimiyyət orqanları idarə etməyə başladı. Qanunverici korpus üzvlərinin 60%-i termidorçu burjuaziyanı təmsil edirdi. Direktoriyanın fəal üzvlərindən biri 9 termidor çevrilişini təşkil etmiş Barras idi. Direktoriya dövründə müxtəlif maliyyə əməliyyatları nəticəsində burjuaziyanın sərvəti daha da artmışdı.

1796-1797-ci illərdə Fransada pul islahatı keçirildi, dəyərdən düşmüş kağız pullar əvəzinə dövriyyəyə metal pullar buraxıldı. Əhalinin maddi vəziyyəti pisləşdi, onların inqilabın son yekunlarından narazılığı artdı. Bu şəraitdə ölkədə "Bərabərlik naminə qəsd" adlı hərəkat başlandı. Hərəkata başçılıq edən Baböf "Xalq tribunu" adlı qəzetin redaktoru idi. O, xalqın iqtisadi vəziyyətinin yaxşılaşdırılması tərəfdarı və radikal sosial ideyaların fəal təbliğatçısı idi. Q.Baböfün dünyagörüşünün formalaşmasına Yakobin diktaturası böyük təsir göstərmişdi.

1796-cı ilin yazında, Q.Baböfün tərəfdarları üsyana hazırlaşmaq üçün gizli İctimai Nicat Direktoriyası adlı təşkilat yaratdılar. Təşkilatın üzvləri fəhlələr və əsgərlər arasında iş aparırdı və xüsusi Hərbi komitə yaratdı. 1796-cı ilin mayında hərəkatın rəhbərləri həbs edildi. 1797-ci ilin mayında hərəkata rəhbərlik edən Baböf və Dante edam edildi.

Direktoriya rejiminin ilk illəri Fransanın koalisiyaya qarşı uğurları ilə səciyyəvi idi. Fransa ticarət və müstəmləkə sahəsində İngiltərənin rəqabətini zəiflətməyə və yeni ərazilər işğal etməyə çalışırdı. 1796-cı ilin aprelində Fransa hökuməti N.Bonapartın başçılığı altında Şimali İtaliyaya qoşun göndərdi. Fransa qoşunları əvvəlcə Pyemont ordusunu, mayın 10-da Avstriya ordusunu məğlub etdi və mayın 15-də Milana daxil oldu.

1796-cı ilin noyabrında Arkol döyüşündə, 1797-ci ilin yanvarında Rivoli döyüşündə Avstriya qoşunlarını məğlub edən Fransa ordusu Avstriya ərazisinə daxil oldu. 1797-ci ilin oktyabrın 17-də, Kampo-Formio yaxınlığında Avstriya ilə Fransa

arasında sülh müqaviləsi imzalandı. Avstriya Belçikanın və Reynin sol sahilinin Fransa tərəfindən işğalını tanıdı. Venesiya respublikası Avstriya ilə Fransa arasında bölündü: Venesiya, İstriya və Dalmatsiya Avstriyaya, İonik adaları Fransaya verildi. Şimali və Mərkəzi İtaliyada Fransadan asılı respublikalar yaradıldı. Fransa generallarının İtaliya ərazisində topladığı təzminatın bir hissəsi Parisə göndərildi. İtaliya muzeylərində olan qiymətli əşyalar Fransaya aparılırdı. İsveçrədə Fransadan asılı respublika yaradıldı, Cenevrə şəhəri Fransaya birləşdirildi.

Kampo-Formio sülhünün imzalanması ilə Fransaya qarşı yaradılmış birinci koalisiya dağıldı. Yalnız İngiltərə dənizdə müharibəni davam etdirirdi. Direktoriya Britaniya adalarına desant çıxarmaq haqqında hərbiçilərin təklifini qəbul etmədi.

1798-ci ilin mayında Fransa hökuməti Osmanlı imperiyasının müstəmləkəsi olan Misirə 38 min əsgər və zabit göndərdi. Misir Hindistana gedən yolun üzərində əlverişli mövqedə yerləşirdi. Fransanın məqsədi Yaxın Şərqdə İngiltərənin mövqeyini zəiflətmək idi. N.Bonapartın başçılıq etdiyi Fransa qoşunları Qahirə yaxınlığında Misir paşasının qoşunlarını məğlub edib, Suriyaya doğru hərəkət etdi. Suriyada məğlub olan Napoleon əsgərlərinin 1/3-ni itirdi. Admiral Nelsonun başçılıq etdiyi İngiltərə eskadrası Misirin Abukir limanında dayanmış Fransa gəmilərini batırdı.

1798-ci ildə Fransaya qarşı İngiltərə, Rusiya, Avstriya, İsveç, Türkiyə və Neopolitanıyanın iştirakı ilə ikinci koalisiya yaradıldı. 1799-cu ilin yayında A.Suvorovun başçılığı altında Rusiya və Avstriya qoşunları Şimali İtaliyada Fransa ordusunu məğlub etdi. Admiral F.Uşakovun başçılıq etdiyi Rusiya eskadrası İonik adalarını Fransa işğalından azad etdi. 1799-cu ilin payızında Rusiya öz qoşunlarını İtaliya ərazisindən çıxartdı. Fransa yenidən Şimali İtaliyanı işğal etdi. Müharibə Fransada daxili siyasi vəziyyətə böyük təsir göstərdi.

Xalqın narazılığının artması burjuaziyanı narahat edirdi. Hökumət yakobinçilərə, royalistlərə və respublikaçılara qarşı mübarizə aparırdı. 1797-ci ildə Qanunverici Korpusda monarxiya tərəfdarlarının sayı artdı. İnqilab dövründə Fransada zadəganlara və ruhanilərə qarşı qəbul edilmiş qanunlar ləğv olundu, respublika klubları bağlandı.

1797-ci ilin sentyabrın 4-də Direktoriya İngiltərə və mühacirlər tərəfindən hazırlanmış qəsdin qarşısını almaq məqsədilə çevriliş etdi. Qanunverici Korpusda royalistləri təmsil edən 177 deputatın səlahiyyətləri ləğv edildi, mühacirətdən qayıdan zadəganlara və ruhanilərə qarşı cəza tədbirləri gücləndirildi. 1798-ci ilin yazında Qanunverici Korpusa seçkilərdə respublikaçı demokratlar üstünlük qazandı. Bu hadisədən narahat olan Direktoriya "yakobin qəsdinin" qarşısını almaq adı ilə 106 sol deputatın mandatını ləğv etdi.

“Yelləncək siyasəti” Direktoriya hakimiyyətinin apardığı siyasətin zəif olduğunu göstərirdi. Ölkədə Direktoriyanın sosial bazası zəifləmişdi. Sabitliyi təmin etmədiyinə görə burjuaziyanın çox hissəsi Direktoriyadan narazı idi.

Şimali İtaliyadakı hərbi uğursuzluqlar Direktoriyanın böhranını sürətləndirdi. Müxalifət həm də ikinci koalisiya qoşunlarının Fransaya hücum etməsindən narahat idi. Royalist qiyamlarının sayı artmağa başladı. İri burjuaziya həm xalq hərəkatının, həm də monarxiyanın bərpası uğrunda mübarizənin qarşısını almağa qadir olan güclü hakimiyyət yaradılmasını tələb edirdi.

Napoleon Fransada baş verən hadisələrdən xəbərdar olaraq, Direktoriyanın nüfuzunun zəifləməsini yeni hakimiyyətin yaradılması üçün şans kimi dəyərləndirmiş və 1799-cu ilin noyabrında 30 minlik qüvvəni Misirdə taleyin ümidinə buraxaraq təcili Fransaya qayıtdı.

İri burjuaziya ordunun köməyi ilə Direktoriya rejimini devirmək üçün plan hazırladı. Dövlət çevrilişinə general N.Bonapart başçılıq etməli idi. 1799-cu ilin noyabrın 9-da Parisdəki silahlı qüvvələrin baş komandanı təyin edilən N.Bonapartın göstərişi ilə Qanunverici Korpusun iclası şəhərin kənarında yerləşən Sen-Klu qəsəbəsinə keçirildi. Noyabrın 10-da 500-lər Şurasının iclasına gələn N.Bonapart deputatları Sen-Kluya getməyə məcbur etdi. 500-lər Şurası Direktoriyanın ləğvi və hakimiyyətin bütün səlahiyyətlərinin üç konsuldan - Emmanuel Jozef Siyes, Pyer-Roje Roje Dyuko və Napoleon Bonapartdan ibarət müvəqqəti hökumətə verilməsi haqqında qərar qəbul etdi. Qanunverici Korpusun palatalarının əvəzinə konstitusiya hazırlamaq üçün iki komissiya yaradıldı. Konstitusiya layihəsi plebisitdə təsdiq edilməli idi.

1799-cu ilin dekabrında Fransanın yeni konstitusiyası qəbul edildi. İcra hakimiyyəti geniş səlahiyyətləri olan üç konsula məxsus idi. N.Bonapart Birinci konsul idi. Birinci konsul 10 ilə seçilirdi. Qanunverici hakimiyyəti təmsil edən Dövlət Şurası, Tribunat və Qanunverici Korpus kimi icra hakimiyyətindən asılı idi. Qanun layihələri həmin orqanlardan keçib Senata daxil olurdu. Senatın üzvlərini Napoleon təyin edirdi, sonra qanunu birinci konsul təsdiq etməli idi. Qanunvericilik təşəbbüsü hökumətə məxsus idi. Konstitusiyaya görə Birinci konsul qanun layihəsini birbaşa Senata təqdim edə bilərdi.

Fransada Napoleonun şəxsi hakimiyyət rejimi qurulmuş, eyni zamanda inqilabın əsas nailiyyətləri saxlanıldı. Konstitusiya inqilab nəticəsində torpaq ələ keçirənlərin hüquqlarını təsdiq etdi. Yeni konstitusiya plebisitdə bəyənildi. 1802-ci ildə keçirilən plebisitdən sonra Birinci konsul vəzifəsi ömürlük oldu. Birinci konsul varis təyin etmək, Qanunverici Korpusu buraxmaq, sülh müqavilələrini təsdiq etmək hüququna malik idi. 1802-ci ildə Napoleonun ad günü milli bayram elan edildi, 1803-cü ildə dövriyyəyə üzərində onun əksi olan pul buraxıldı.

Napoleon Bonapart 15 avqust 1769-cu ildə Korsika adasının Ayyaço şəhərində anadan olub. O, Karlo Bonapartın və Letizia Ramolinonun 2-ci oğlu idi. Napoleon Briendəki hərbi akademiyaya daxil olur və 1785-ci il 28 oktyabra qədər burada təhsilini davam etdirir. Elə həmin ildən artilleriya üzrə kiçik leytenant rütbəsi ilə peşəkar hərbi fəaliyyətə başlayır. O dövrdə Fransada böyük çaxnaşmalar baş verirdi. Napoleon Korsikaya qayıdıb öz vətəni uğrunda döyüşlərə qoşulur. O, 1793-cü il 17 dekabrda ilk hərbi uğurunu İngiltərə tərəfindən zəbt olunmuş Tulonu azad etməklə qazanır. Bu qələbəsinə görə Napoleon briqada generalı, 23 fevral 1796-cı ildə isə İtaliya ordusunun komandanı təyin edilir.

1796-cı il 9 martda Napoleon Bonapart Jozefina de Boqarne ilə ailə həyatı qurur. O, 1799-cu ilin noyabr ayında dövlət çevrilişi edərək birinci konsul olur və bütün hakimiyyəti öz əlində cəmləyib ölkədə diktatura rejimi yaradır. 1804-cü ildə "Vətəndaş məcəlləsi" islahatını həyata keçirir. 1804-cü il may ayının 18-i isə Napoleon özünü imperator elan edir.

Napoleonun Avropada qazandığı parlaq qələbələri Fransanı qitənin demək olar ki, hegemon dövlətinə çevirir. Lakin dəniz rəqabətində Böyük Britaniyaya uduzması, 1812-ci ildə Rusiyaya məğlub olması onun qurduğu Fransa imperiyasının süqutunu tezləşdirir.

1813-cü ildə Leypsiq yaxınlığında Xalqlar döyüşündə fransızlar qəti məğlubiyyətə düçar olur. Müttəfiqlərin Parisə daxil olması ilə Napoleon imperator taxtından imtina edir və onu Elbaya sürgünə göndərirlər. 26 fevral 1815-ci ildə sürgündən qaçaraq 20 martda maneəsiz Parisə dönən Napoleon əldən verilmiş mövqeləri qaytarmaq istəyirdi. Lakin yüz günlük hakimiyyətdən, 1815-ci il iyunun 22-də baş verən Vaterloo döyüşündə məğlubiyyətdən sonra onu ikinci dəfə imperatorluqdan imtina etməyə vadar edirlər. O, Müqəddəs Yelena adasına sürgün edilir və 5 may 1821-ci ildə 51 yaşında vəfat edir. 15 oktyabr 1840-cı ildə ekshümasiya olunaraq Fransaya gətirilir və Parisin Zəfər Tağından keçirilməklə Əlillər meydanında sarkofaqda dəfn edilir.

2.Direktoriyanın xarici siyasəti

Direktorluq illərində yeni hərbi sistem Fransaya koalisiya üzərində parlaq qələbələr qazandırdı. Lakin, möhtəkirliklə qazanc götürən burjuaziyaya arxalanan Direktoriya ölkədə güclü idarəçilik sistemi yarada bilmədi: getdikcə daha çox, müharibənin gedişindən və generallarının uğurlarından asılı oldu. 1796-1799-cu illərdə, müharibə, təzminat və fəth edilən ölkələrin talanları Direktoriyanın əsas maliyyə mənbəyinə çevrilirdi. Paris qəzetlərindən biri yazırdı ki, generallar "respublikanın xəzinədarları"na çevriliblər və Direktoriyaya çox az hesablaşırlar.

Direktoriya dövründə Fransa diplomatiyasının əsas vəzifəsi hərbi qələbələrdən ən sərfəli formada istifadə etmək və respublikanın şərq sərhədi boyunca Fransanın Mərkəzi Avropa və İtaliya üzərində hökmranlığını təmin edəcək asılı dövlətlər qurşağı yaratmaq idi. İtaliya Direktoriya üçün zəngin ərzaq, pul mənbəyi və Şərq bazarlarına rahat yol idi. Transatlantik müstəmləkələr itirildikdən sonra, bu

bazarların zəbt edilməsi fransız burjuaziyasının müstəmləkəçilik siyasətinin əsas məqsədinə çevrilirdi

Aralıq dənizindəki İon adalarının zəbt eilməsi, Malta adasının işğalı və Bonapartın Misirə ekspedisiyası bu siyasətin ardıcıl mərhələləri idi. Ancaq Bonapartın başqa planları da var idi. O, Misir ərazisini zəbt edərək, Hindistanda olan ingilis mülklərini təhdid etmək istəyirdi. Bununla bağlı olaraq, o, müstəqilliyi uğrunda ingilislərlə mübarizə aparan ən güclü Hindistan hökmdarı Maysor sultanı Tipu Saibə müttəfiqlik təklifi barədə məktub göndərmişdi. Lakin qasid yaxalandı və məktub ingilislərin əlinə keçdi.

3.Xarici İşlər Nazirliyinin bərpası. Generalların diplomatiyası

Direktoriya illərində mütləq monarxiyaların diplomatiya institutlarının və üsullarının qalib burjuaziya tərəfindən, istifadə edilmə üçün daha da uyğunlaşdırılması baş verdi. 1795-ci il Konstitusiyası xarici siyasətin istiqamətini Direktoriyanın ixtiyarına verdi. Müharibə elanı yalnız onun təklifi ilə Qanunvericilik Korpusu tərəfindən təsdiqlənə bilərdi. Konstitusiyaya əsasən, Direktoriya danışıqlar aparır, müqavilələr bağlayır və diplomatik agentləri təyin edirdi. Gizli müqavilələr təsdiq olunmamalı və Fransa ərazisinin özgəninkiləşdirilməsinə dair maddələri ehtiva etməməli idi.

Gizli diplomatiyaya münasibətdə Termidor Konventinin qərarları qüvvədə qalırdı. Xarici İşlər Komissiyası yenidən nazirliyə çevrildi. Bir çox keçmiş məmurlar nazirlikdə xidmətə cəlb olundular. Bununla belə, nazirin hələ də siyasi nüfuzu yox idi. Direktoriya illərində hər yerdə hökm sürən xəyanət, möhtəkirlik və qazanc əldə etmək ruhu diplomatik heyətin mühitinə də nüfuz etmişdi.

Bir çox vəzifəpərəst və zirək iş adamları nazirliyə yol tapırdılar. Məmurlar maaşlarını sürətlə qiymətdən düşən əskinaslarla alırdılar ki, bu da onların satqınlıqlarını artırırdı. Ciddi nizam-intizam tələb edən və diplomatik sirlərin saxlanması ilə bağlı tez-tez həyata keçirilən yoxlamalar heç bir fayda vermirdi. Yalnız 1797-ci ildən, nazirliyin aparatının tədricən gücləndirilməsinə başlanıldı.

Faktiki olaraq, Direktoriya illərində Fransa diplomatiyası bir nazirin, hətta direktorların deyil, respublikanın müqavilələr bağlayan və demək olar ki, bütün diplomatik aktları imzalayan generalların təsiri altında idi. Getdikcə yüksələn Napoleon Bonapart, 1797-ci ildə Toskana ilə konvensiya, papa və Avstriya ilə sülh müqaviləsi (18 oktyabr 1797-ci il Kampo- Formi sülhü) bağladı. Napoleon, Direktoriyanın rəyini soruşmadan, onun nümayəndəsinin gəlməsini gözləmədən və göstərişlərini nəzərə almadan bu sazişi şəxsən özü imzaladı. Generallar (Bonapart, Moro) özbaşına atəşkəs və ilkin müqavilələr imzalayırdılar. Yalnız 1796-cı ildə, İspaniya ilə ittifaq müqaviləsi Direktoriyanın özü tərəfindən bağlanmışdı.

Öz hərbi üstünlüyünü dərk edən Fransa diplomatik danışıqlara sərtlik, kobudluq və zorakılıq xarakteri verirdi. Bonapart yüksək diplomat bacarığına sahib olduğunu nümayiş etdirdi. Lakin, onun da, sakit və təmkinli danışıqlar aparmaq üçün səbri çatmırdı. Bəzən o, qəzəbindən vəhşilik dərəcəsinə çatırdı. Belə ki, 1797-ci ildə Kampo Formioda Avstriya nümayəndəsi Kobentslə sülh danışıqları apardığı zaman, o, hiddətlə qışqırmışdı: "Sənin imperiyan hamı tərəfindən təhqirə öyrənmiş qoca qarıdır... Siz unudursunuz ki, buradakı danışıqlar mənim qrenaderlərimin (elit əsgərlər) əhatəsində aparırılır." Napoleon, II Yekaterina tərəfindən Kobentsə hədiyyə edilən qiymətli çini servisini götürərək, onu qəzəblə yerə çırpmışdı. Avstriya ilə bu danışıqlar sülh imzalanması ilə başa çatdı. Avstriya, Venesiya müqabilində Belçikadan imtina etdi. Venesiya Respublikası Polşanın taleyini yaşadı. Onun ərazisi Avstriya və Fransa arasında bölündü. İtaliyada gedən müharibə zamanı fransız inqilabi ifadəçiliyi açıq talançılığı və tabe edilən ərazilərin işğal faktını örtbasdır edirdi. Millətin suverenliyindən və onlara qoşulmaları nəzərdə tutulan ərazilərdə plebisitin keçirilməsinə aid məsələlər tamamilə mənasız və həmişə riayət olunmayan rəsmiyyət idi.

Qrenaderlər (fransızca grenade hərfi mənada qumbara deməkdir) - İlk əvvəllər əsasən mühasirə əməliyyatlarında düşmən istehkamlarına hücum etmək üçün nəzərdə tutulmuş seçilmiş piyada və ya süvari birləşmələri idi.

Qrenaderlər əl qumbaraları və odlu silahlarla silahlanırdılar. Əl qumbaraları əvvəllər "qranadlar" və ya "qranadkalar" adlanırdı. Onlar içi barıtla doldurulmuş fitili olan, boş çuqun şarlar idi. Onları əl ilə düşmən istehkamlarına atırdılar. Sonralar, nizami xətt piyadalarının elit bölmələri- qrenaderlər adlanmağa başlandı.

Danışıqlarda, artıq əhalinin iradəsi barədə deyil, ilhaq edilmiş torpaqların hərbi və iqtisadi dəyərləri ilə bağlı müzakirələr gedirdi. Ən kiçik itaətsizlik halında, əhali sərt cəzalara məruz qalırdı. İtaliyada Bonapart, Luqo və Binaskonun bütün əhalisinin itaətsizliklərinə görə öldürülməsini, Paviyada bütün bələdiyyə üzvlərini güllələməyi əmr etmişdilər, sonra isə, şəhəri talan etmək üçün 24 saat müddətində öz əsgərlərinə vermişdilər. Napoleon, yaxınlığında ölən fransızlar tapılan kəndləri yandırmağı əmr etmişdi.

1796-cı ildə, həm İngiltərədə, həm də Fransada müharibə ilə bağlı yorğunluq hissi hədsiz dərəcədə artmışdı. Pitt və Direktoriya artıq öz ölkələrinin xalqını hökumətin sülh istədiyinə inandırmağa məcbur olurdu. Nəhayət, payızda Pitt sülh danışıqları üçün Lord Malmsberini Parisə göndərdi. Hər iki tərəf yaxşı bilirdi ki, danışıqlar heç bir nəticə ilə yekunlaşa bilməz. Onlar dincəlmək üçün vaxt qazanmaq və müharibənin davam etdirilməsi üçün məsuliyyəti rəqiblərinin üzərinə atmaq ümidi

ilə danışıqları uzadırdılar. 1796-cı ilin dekabrında, Malmsberi heç bir nəticə əldə etmədən Londona qayıtdı.

4.İtaliya yürüşü

1796-cı ildə Fransa qitədəki anti-fransız koalisiyasının qalıqlarına - Habsburq monarxiyasına və Sardiniya krallığına sarsıdıcı zərbə vurdu. Fransızların əsas qüvvələri Reyn çayında cəmləşmişdi. Onlar Almaniyanın cənubuna hücum edərək, Vyanaya doğru hərəkət etməli idilər. Lakin, Reyn ordusu avstriyalılar tərəfindən məğlub edildi. Hərbi əməliyyatların taleyi, gözlənilənlərin əksinə olaraq, İtaliyanın şimalında fəaliyyət göstərən General N.Bonapartın komandanlıq etdiyi ordu tərəfindən müəyyən edildi. Bu yürüşdə, onun hərbi liderlik istedadı ilk dəfə bütün əzəməti ilə özünü büruzə verdi. Bir neçə həftə ərzində, Bonapart avstriyalıların və sardiniyalıların onlara qarşı irəliləyən hərbi qüvvələrini məğlub etdi və artıq may ayında Sardiniya kralını Fransa ilə sülh bağlamağa məcbur etdi. Sonra isə, onun ordusu İtaliyanın şərqdə Venesiyaya və cənubda Papa mülklərinə qədər olan bütün şimal torpaqlarını işğal etdi.

1796-cı ildə, ölümündən bir qədər əvvəl II Yekaterina Fransa ilə müharibə etmək üçün rus qoşunlarını Reyn çayına göndərməyə hazırlaşırdı. Onun oğlu, anasının siyasətinə ümumiyyətlə tənqidi yanaşan, yeni Rusiya imperatoru I Pavel bu niyyətdən imtina etdi. Bundan başqa, o, II Yekaterina tərəfindən anti-Fransa koalisiyasına kömək etmək üçün Böyük Britaniya sahillərinə göndərilmiş Rusiya hərbi dəniz eskadrasını geri çağırdı. Rəsmi olaraq, Rusiya hökuməti monarxiyanı bərpa etməyə çalışaraq, taxt-tacı əvvəl XVII Lüdovikə (1795-ci ildə XVI Lüdovikin həbsdə vəfat etmiş oğluna), sonra isə edam olunmuş kralın ortancıl qardaşı XVIII Lüdovikə təhvil vermək istəyən fransız əksinqilabçılarına öz dəstəyini əsirgəmədi.

Belə ki, 1797-ci ildə I Pavel, Rusiyada fransız royalist mühacirlərin böyük bir qrupuna, o cümlədən onların Konde korpusu adlanan (XVII əsrin məşhur sərkərdəsi Böyük Kondenin adı ilə bağlı idi) silahlı birləşmələrinə və eləcə də mühacirətdə olan XVIII Lüdovikin kral sarayına sığınacaq verdi. Ancaq bu addım, məqsədli şəkildə edilmişdi. I Pavel, onları bir müddət əvvəl Rusiya imperiyasının tərkibinə daxil edilən Novorossiya adlanan Qara dənizin şimal bölgəsinin məskunlaşması və iqtisadi inkişafı probleminin həllinə cəlb etməyə çalışırdı. Bəzi fransız mühacirlərinin adları bu bölgənin tarixinə həqiqətən qırmızı hərflərlə yazılmışdır, məsələn onlardan biri, XIX əsrin əvvəllərində Odessa şəhərinin rəisi, sonra isə Novorossiya bölgəsinin general-qubernatoru olan məşhur "Dyuk" (hersoq) de Rişelye idi. Rusiya hökumətinin bu tədbirləri onu göstərir ki, I Pavel bəlkə də fərqində olmadan II Yekaterinanın göstərişlərindən birini yerinə yetirirmiş: Fransada inqilabdan əvvəlki nizamın bərpası kimi Rusiya üçün əhəmiyyətsiz məqsədlər uğrunda mübarizə

aparmamaq. Özü də, bu məsələ ilə bağlı belə demişdi: “Fransada kimin hökmranlıq etməsinin heç bir fərqi yoxdur, ancaq, orada idarə sistemi mütləq monarxiya olsun”.

Osmanlı İmperiyası və İsveçlə müharibələr başa çatdıqdan, eləcə də Polşada T.Kostyuşkonun başçılıq etdiyi üsyanın yatırılmasından sonra, Rusiyanın düşdüyü çətin maliyyə vəziyyətini nəzərə alan I Pavel, hətta Fransa Direktoriyası ilə diplomatik və ticarət əlaqələrinin bərpası üçün danışıqlara başlamağa hazır idi. Onun əsas şərti, Fransanın işğalçılıq siyasətindən əl çəkməsi idi. Direktoriya da danışıqlara etiraz etmirdi. Lakin, tezliklə məlum oldu ki, Fransa Respublikası heç də ədalətli sülhə can atmır, danışıqlar yolu ilə yalnız, Rusiyanın iştirakı ilə yeni anti-Fransa koalisiyasının yaradılmasının qarşısını almağa çalışır və o, qətiyyən təcavüzkar siyasətindən imtina etmək niyyətində deyildir.

Şimali İtaliyada, fransızlar tərəfindən onlardan asılı olan -marionet dövlətlər - Sizalp (yəni, Alp dağlarının "bu tərəfində" yerləşən) və Liquriya (keçmiş Genuya) respublikalarını yaratdılar. Nəhayət, Habsburq monarxiyası silahı yerə qoyaraq, 1797-ci ilin oktyabrında Kampo-Formio məntəqəsinin yaxınlığında Fransa ilə sülh müqaviləsi imzaladı. O, Fransanın Reyn çayının sol sahilini, İtaliyanın şimalını və Aralıq dənizi adalarında, o cümlədən Korfu adasında həyata keçirdiyi işğalları tanıdı. Fransızlar, bunlara əvəz olaraq, Venesiya Respublikasının Habsburqların hakimiyyəti altına keçməsinə razılıq verdilər. Bir neçə ay sonra, 1798-ci ilin aprelində fransızlar İsveçrəyə hücum edərək, onu istila etdilər. Onu parçalayaraq bir hissəsini ilhaq etmiş, digər hissəsini isə Fransa ilə müttəfiq olan Helvetiya Respublikasına çevirmişdir (Respublika antik dövrdə İsveçrə yaylasında məskunlaşmış Keltlərin Helvetlər tayfasının adı ilə adlandırılmışdır).

5.Misir ekspedisiyası

Bu fəthlər həm Bonapartı, həm də Direktoriyanı ruhlandırdı. Onlar, hələ silahını yerə qoymayan sonuncu düşməni - Böyük Britaniyanı diz çökdürmək barədə qərar verdilər. Lakin, 1796 və 1798-ci illərdə fransızların Britaniya adalarına qarşı (İrlandiyaya) təşkil etdikləri iki ekspedisiya tam uğursuzluqla başa çatdığından, onlar daha az gözlənilən yerə - Misirə zərbə endirmək qərarına gəldilər. Bu ölkə formal olaraq, Böyük Britaniya ilə heç bir formada bağlı deyil idi. Misir, uzun zamandan bəri məmlüklər tərəfindən idarə edilirdi və onlar türk sultanlarının ali hakimiyyətini tanıyırdılar. Lakin Misir, Avropadan Britaniya müstəmləkə imperiyasının ürəyinə - Şərqi Hindistana gedən ən qısa yol idi. Onun üzərində nəzarəti bərqərar etməklə Fransa XVIII əsr müharibələrində müstəmləkə itkilərini qarşılamaqla yanaşı, Cənubi Asiyadakı İngilis mülklərini də təhdid etməyə başlayacaq idi.

19 may 1798-ci ildə, göyərtəsində 40.000 əsgər olan Fransız donanması Tulonu tərk etdi. Aralıq dənizində onları gözləyən İngilis gəmiləri ilə görüşdən yayınaraq,

iyulun əvvəlində Nil çayının deltasına çatdılar. Öz səfərləri zamanı, fransızlar səlib yürüşləri dövründə yaradılmış mənəvi - cəngavər qospitalyerlər ordeninin varisləri olan cəngavər ioannitlərə məxsus Malta adasını ələ keçirdilər. Hələ 1797-ci ildə, I Pavel Malta ordeni ilə müqavilə bağlayaraq, onu öz himayəsinə götürmüşdü, ona görə də, o, Bonapartın hərəkətini şəxsi təhqir və Rusiyaya qarşı təcavüz aktı kimi qəbul etdi. Buna baxmayaraq, 21 iyul 1798-ci ildə, məşhur Piramidalar döyüşündə Məmlük ordusunu məğlub edən Bonapart Suriyanı fəth etmək üçün hərəkətə keçdi. Lakin burada o, uğursuzluğa düçar oldu və Misirə qayıtmağa məcbur oldu. Ancaq Misir yürüşünün taleyi Suriyada baş verən məğlubiyyətlərdən xeyli əvvəl müəyyən edilmişdi. 1798-ci il avqustun 1 və 2-də Admiral Nelsonun komandanlığı ilə İngilis donanması Əbukir körfəzində fransız gəmilərini məhv etdi. Bununla da, Bonapartın ordusu tələyə düşdü.

6.Taleyran və Bonapart

1797-ci ildə, Taleyran Xarici İşlər naziri təyin edildi. Əslən nəcib aristokrat, keçmiş yepiskop, karyera və zənginləşmə məqsədi ilə inqilabın tərəfinə keçdi. Hələ 1792-ci ildə, o, felyanlar və jirondistlər üçün diplomatik missiyalar yerinə yetirirdi, lakin hər ehtimala qarşı gizli şəkildə kral sarayına da xidmət edirdi. 1792-ci ildə, inqilabi terrordan xilas olmaq üçün, müəyyən tapşırıqlar alaraq İngiltərəyə getdi. İngiltərədən sürgün ediləndən sonra Amerikaya getdi və 1795-ci ildə Fransaya qayıtmağa icazə aldı.

Artıq 1797-ci ildə, Taleyran böyük ağıla və bacarıqlı diplomatik istedada malik olan, eyni zamanda insanlara və mənəvi məsələlərə qarşı tam biganəliyi ilə seçilən bir insan kimi tanınırdı. Taleyranda karyerapərəst, tamahkar, həyasız yalançılığın və riyakarlığın bütün xüsusiyyətləri var idi. Ancaq bütün bunlara baxmayaraq, o, əzəmətli bir zadəgan kimi, sakit təmkini, ən incə aristokratık davranışı ilə hər bir şəraitdə özünü necə aparmağı bilirdi. Nazir olan Taleyran, ilk növbədə, yalnız, şəxsi zənginləşmə və karyera haqqında düşünürdü.

Ağıllı siyasətçi kimi Taleyran Direktoriyanın süqutunun və hərbi diktaturanın qurulmasının labüdlüyünü dərk edirdi. Taleyran, Fransanın Şərqdə və Şimali Afrikada yeni bazarlar əldə etməsi ideyasını həvəslə təşviq edirdi və Bonapartın Misir yürüşü ideyasını dəstəkləyərək, bu addımı fransız burjuaziyasının ticari maraqları ilə əlaqələndirirdi. Bonapartda Fransanın gələcək diktatorunu görərək, ona yaxınlaşmağa çalışır, yaltaqcasına məktublar yazaraq, ona lazım olan məlumatları göndərirdi. 1799-cu ildə, Direktoriyanın süqutu yaxınlaşanda, Taleyran, direktorlarla birlikdə qınanması üçün təcili istefaya getməyə nail oldu.

Bonapart Misirdən qayıtdıqdan sonra, 18 Brümer çevrilişinin hazırlanmasında fəal iştirak etdi. Müstəqil siyasi rola iddia etməyən Taleyran Bonapartın xidmətçisi,

məsləhətçisi və məmuru olmağı özü üçün ən faydalı iş hesab edirdi. 18 Brümer çevrilişindən sonra Bonapart onun qabiliyyətlərini yüksək qiymətləndirdi və yenidən onu Xarici İşlər naziri təyin etdi.

Hələ Direktoriya dövründə, Taleyran Xarici İşlər Nazirliyinin idarə sistemində bir sıra dəyişikliklər etmişdi. Belə ki, o, konsullar institutunu fransız burjuaziyasının ticarət maraqlarına xidmət etməyi tapşırmışdı. İnqilabdan əvvəl Fransa monarxiyasının konsulları (əksər hallarda, ticarət maraqlarına yad olan zadəganlardan ibarət olurdu) fransız tacirlərinin mənafeyini heç də həmişə lazımı dərəcədə müdafiə etmirdilər. Belə ki, şərqdə onlar yalnız ticarətin xırda tənzimlənməsinə nəzarət edirdilər. Ona görə də, artıq inqilabın ilk illərində, fransız tacirləri israrla onları özlərinin seçdikləri nümayəndələri ilə əvəz etməyə çalışırdılar.

Yakobin diktaturası dövründə ön planda siyasi məsələlər dururdu. Konsulluqlar nazirliyin siyasi idarələrinə tabe idi. Onların vəzifələri respublikanın siyasi agentlərinin fəaliyyəti ilə qarışdırılırdı. Taleyran nazirlikdə Konsulluq bürosunu bərpa etdi. Konsulların əsas vəzifəsi fransız tacirlərinin ticarət maraqlarını qorumaq və kommersiya məlumatlarını toplamaq oldu. 18 Brümer çevrilişindən sonra konsullar "ticarət əlaqələri üzrə komissarlar" adlandırılmağa başlandılar, çünki "konsul" adı da artıq, siyasi məna kəsb etməyə başladı.

Taleyran Konsulluq bürosunda Fransanın şərq səfirlikləri və konsulluqları üçün dilmanclar hazırlayan gənc tərcüməçilər məktəbini bərpa edərək, yenidən təşkil etdi. Sayları iyirmiyə yaxın olan tələbələr Şərqdə yaşayan fransız ailələrinin övladlarından yığılırdı. Taleyran nazirlikdə əvvəlki məmurlardan geniş istifadə edirdi. Diplomatik agentlərə siyasi məsələlərlə bağlı şəxsi yazışmalar aparmaq qadağan edilirdi. Nazirliyin siyasi idarələrinin sayı inqilabdan əvvəl, 1789-cu ildə olduğu kimi ikiyə endirildi.

7.İkinci koalisiya

1798-ci ildə Niderland və İsveçrədə fransız təsirinin güclənməsi, Maltanın Bonapart tərəfindən fəthi və Misir ekspedisiyası Fransaya qarşı ikinci koalisiyanın yaranmasına səbəb oldu. Onun əsas iştirakçıları İngiltərə, Avstriya, Rusiya və Türkiyə, əsas təşkilatçıları isə Britaniya və Rusiya diplomatiyası idi. Pitt Fransanın Hollandiya, İsveçrə, İtaliya və Misir üzərində hökmranlığına imkan vermək istəmirdi. I Pavelə gəlincə, o, burjua Fransasına çox nifrət edirdi. Pavel taxta çıxdığı zaman öz manifestində bəyan etmişdi ki, bütün Avropanı “qanunların, hüquqların, mülkiyyətin və rifahın tamamilə məhv edilməsi” ilə hədələyən “azğın Fransa Respublikası”na bütün mümkün vasitələrlə müqavimət göstərmək lazımdır.

Fransanın bütün Mərkəzi Avropa üzərində hökmranlığı Rusiya üçün də arzuolunmaz idi. Bonapartın Misir ekspedisiyasının uğuru Fransanın Türkiyə

üzərində hökmranlığına və orada Rusiyanın təsirinə maneə yaradılmasına gətirib çıxara bilərdi. Rusiyanın Şərqdə təsirini gücləndirmək arzusunda olan Pavelin, Malta adasından Aralıq dənizində rus təsirinin forpostu(dayaq nöqtəsi) yaratmaq fikri var idi. Sultanı qorxudan Bonapartın Misir yürüşü Rusiya və İngiltərəyə Türkiyəni koalisiyaya cəlb etmək imkanı verdi. Avropa qeyri-adi bir vəziyyətlə qarşılaşdı - Türkiyə Fransa Respublikasına qarşı Rusiya ilə ittifaqa girdi.

İkinci koalisiyanın Fransa ilə müharibəyə başlaması, Avstriya tərəfindən beynəlxalq hüququn quldurcasına pozulması ilə müşayiət olundu. Belə ki, avstriyalılar Rastadt konqresində fransız nümayəndələrini öldürdülər. 1797-ci ildə Avstriya ilə sülh bağlandıqdan sonra, Müqəddəs Roma İmperiyası ilə bağlı ərazi məsələlərini həll etmək üçün Rastadtda diplomatların konqresi toplanmışdı. Hərbi əməliyyatlar başlayan kimi, Avstriya hökuməti Rastadtda olan fransız nümayəndələrinin dərhal oradan çıxıb getmələrini tələb etdi.

Şəhərin kənarında, Avstriya qusarları (süvariləri) ölkələrinə qayıdan Fransa səfirlərinə hücum edərək, onları müşayiət edən ailələrinin gözü qarşısında fransızları qılınclarla tikə- tikə doğradılar. Bu cinayətkar basqın "kədərli bir anlaşılmazlıq" elan edildi və sonra isə avstriyalılar qatillərin Direktoriyanın özü tərəfindən göndərilməsi barədə şayiə yaydılar. Direktoriyanın nüfuzu o qədər aşağı düşmüşdü ki, bir çoxları bu uydurmaya inandı.

Bonapartın Misir ekspediyası həm Rusiyanı həm də Türkiyəni narahat etdi. Bu məsələ, hər iki əzəli rəqibi ümumi düşmənlə mübarizədə əməkdaşlıq haqqında düşünməyə vadar etdi. 1798-ci ilin mayında, Osmanlı İmperiyası Fransaya müharibə elan etdi və iki ay sonra Portanın xahişi ilə F.F.Uşakovun komandanlığı ilə hərbi dəniz eskadrası İstanbula göndərildi. Sentyabrda Rusiya hərbi gəmiləri boğazlardan keçərək Aralıq dənizinin sularına daxil oldu. 23 dekabr 1798-ci ildə (3 yanvar 1799-cu ildə) Rusiya-Türkiyə ittifaq müqaviləsi bağlandı. Müqaviləyə görə Rusiya donanmasına Bosfor və Çanaqqala boğazlarından keçmək hüququ verildi, Qara dəniz qapalı rus-türk dənizi statusu aldı. Rusiya, Fransa tərəfindən təcavüz baş verdiyi halda Türkiyəyə hərbi yardım vəd etdi.

Rusiya və Türkiyə hərbi dəniz donanmaları Aralıq dənizində aktiv şəkildə birgə fəaliyyət göstərirdilər. 1799-cu ilin fevralında, onlar 636 top və 2000-dən çox düşmən əsgərini əsir götürərək fransızları İon adalarından qovdular. Üstəlik, F.F.Uşakov burada, yalnız donanma komandiri kimi deyil, həm də diplomat və idarəçilik istedadlarını da nümayiş etdirdi. Daha sonra, Rusiyanın Aralıq dənizi donanması bir müddət əvvəl fransızlar tərəfindən ələ keçirilən İtaliyanın cənubunu azad etmək üçün hərbi əməliyyatlarda iştirak etdi. 1799-cu ilin iyununda, inadlı döyüşlər nəticəsində rus dənizçiləri Neapolu ələ keçirərək, Romaya qarşı yürüşə hazırlaşmağa başladılar. Lakin, Roma şəhəri, hələ onlar yaxınlaşmazdan əvvəl ingilis

qoşunlarına təslim oldu. Bununla belə, rus desant dəstəsi onun azad edilməsində iştirak etdi.

Eyni zamanda, müharibənin digər sahələrində - Almaniyanın cənubunda və İtaliyanın şimalında hərbi əməliyyatlar başladı. Üstəlik, müttəfiqlərin əsas qüvvələri (100 minə qədər, onların 30 mini rus qoşunu idi) Şimali İtaliyada cəmləşmişdi. Rus qoşunlarının komandanlığı A.V.Suvorova həvalə edildi. Suvorov 3 aprel 1799-cu ildə döyüş bölgəsinə gəldi və artıq 8-də Müttəfiq qoşunları ümumi hücuma başladılar. Hərbi əməliyyatın 10 günü ərzində Suvorovun ordusu 100 mildən çox yürüş edərək bütün Lombardiyanı azad etdi. Suvorov ordusu əsas düşmən qüvvələrini darmadağın edərək, Fransaya hücum etmək üçün, Müttəfiqlərə dayaq meydanı yaratdı.

Lakin, müttəfiqlər arasında yaranan fikir ayrılıqları bu hücuma mane oldu. Məlum oldu ki, Böyük Britaniya və Habsburq monarxiyası hərbi əməliyyatları Fransa ərazisinə keçirmək fikrində deyildir. Monarxiyanı bərpa etmək üçün, Fransaya silahlı müdaxilə etmək, onların planlarına daxil deyildir. Onlar, Direktoriya tərəfindən həyata keçirilən siyasi oyuna qoşularaq, dövlətlər arasında sərhədlərin yenidən qurulmasına rəvac verdilər. Xüsusilə, Habsburqlar uzun müddətdən bəri ərazi iddialarının obyektinə çevrilmiş Şimali İtaliyanı öz təsirini möhkəmləndirmək üçün müttəfiq qüvvələrin qələbələrindən istifadə etmək fikrində idilər. Və bu nöqteyi-nəzərdən İtaliyada olan rus qoşunları, eləcə də Aralıq dənizindəki rus eskadrası onların öz planlarını həyata keçirməyə sadəcə olaraq mane olurdu.

Müttəfiqlərin fitnəkarlıqları nəticəsində Suvorov Fransaya qarşı hücumu dayandıraraq, müharibə aparmaq üçün yeni tapşırıq aldı. Ona qoşunları birlikdə İsveçrəyə getmək əmri verildi. 1799-cu ilin payızında, Suvorov ordusu Alp dağları üzərindən görünməmiş bir keçidə imza atdı. Ancaq, Şimali İtaliyada onun qazandığı qələbələrin bəhrələri itirildi. Yalnız bundan sonra I Pavel müttəfiqlərin əsl niyyətlərini başa düşdü. 1799-cu ilin oktyabrında o, Habsburqlar və Böyük Britaniya ilə ittifaqını ləğv etdi və onların səfirlərindən Sankt-Peterburqu tərk etmələri tələb olundu. Və Qərbi Avropada olan rus qoşunlarına vətənlərinə qayıtmaq əmri verildi. Eyni zamanda, Uşakovun eskadrası Aralıq dənizindəki iki illik yürüşündən sonra Sevastopola qayıtdı.

BEŞİNCİ FƏSİL

NAPOLEON MÜHARİBƏLƏRİ DÖVRÜNDƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR (1799 — 1814). VYANA KONQRESİ

I BÖLMƏ

Napoleon Bonapartın hakimiyyəti dövründə Fransanın xarici siyasəti və Avropada diplomatik münasibətlər

§1. Napoleonun diplomatiyası və beynəlxalq münasibətlər (1799 – 1807)

1.Avropada hökmranlıq uğrunda mübarizə
2.Amyen sülhü
3.Fransaya qarşı Üçüncü koalisiya
4.Prussiyanın mövqeyi
5.Dördüncü koalisiya. Prussiyanın məğlubiyyəti (14 oktyabr 1806)
6.Kontinental blokadanın elan edilməsi (21 noyabr 1806-cı il)

§2. Tilzit sülhü və beynəlxalq münasibətlər

1.Prussiyanın Britaniya və Rusiya ilə münasibətləri
2.Aleksandrla Napoleonun münasibətlərində yaxınlaşma
3.Tilzitdə görüş (27 iyun 1807)
4.Pireneydə müharibə
5.Erfurtda görüş (27 sentyabr — 14 oktyabr 1807-ci il)
6.Beşinci koalisiya

§3. Napoleonun "ailə" və "kontinental" sistemləri

1."Qardaş" monarxiyalar
2.Protektoratlar
3.Müttəfiqlər
4."Böyük İmperiya"

§4.Anti-Fransa koalisiyasının məqsədləri

1.Hücumdan müdafiəyə
2.Müdafiədən qurtuluş uğrunda mübarizəyə
3.Avropa dövlətlərinin xüsusi maraqları

§1. Napoleonun diplomatiyası və beynəlxalq münasibətlər (1799 – 1807)

1.Avropada hökmranlıq uğrunda mübarizə
2.Amyen sülhü
3.Fransaya qarşı Üçüncü koalisiya
4.Prussiyanın mövqeyi
5.Dördüncü koalisiya. Prussiyanın məğlubiyyəti (14 oktyabr 1806)
6.Kontinental blokadanın elan edilməsi (21 noyabr 1806-cı il)

1.Avropada hökmranlıq uğrunda mübarizə

1799-cu ilin avqustunda, İtaliyada müttəfiq qüvvələr öz qələbələrinin zirvəsində olanda Fransa Respublikası yenidən çətin vəziyyətə düşdüyü zaman, Bonapart gizli şəkildə Misirdən Fransaya qayıtdı. Onun tərəfindən taleyin mərhəmətinə buraxılan ordu 1801-ci ilin sentyabrında təslim oldu.

Bonapart Fransaya qayıdanda Direktoriya çıxılmaz vəziyyətdə idi. İnqilabın başlanmasından keçən 10 il ərzində, Fransada konstitusiyalı monarxiya, demokratik və liberal respublika qurmaq cəhdləri (müvafiq olaraq, 1791, 1793 və 1795-ci il konstitusiyaları ilə) ardıcıl olaraq uğursuzluğa düçar oldu. Bu şəraitdə hakim inqilabi elita general Bonapartın həyata keçirdiyi dövlət çevrilişinə etiraz etmədi. Bonapart, Fransada hakimiyyəti ələ keçirərək, 1799-cu ildə əvvəlcə konsulluq, 1804-cü ildən isə imperiya qurdu.

Avropanın siyasi dairələrində bonapartist diktaturanın yaranması ilk öncə "qanuni" Burbon monarxiyasının bərpasının proloqu kimi qəbul edildi. Həmin zaman, II koalisiyada olan müttəfiqlərinin xəyanətindən məyus olan I Pavel bu hadisəyə məhz belə münasibət göstərdi. Onun müsbət şərhləri birinci konsulun qulağına çatdı, o da öz növbəsində Fransa ilə Rusiya arasında yaxınlaşma ideyasına müsbət yanaşdı.

Birinci konsul ilk vaxtdan öz qərarını belə ifadə etdi ki, ilk növbədə Fransanı birbaşa işğalla təhdid edən Avstriya üzərində qələbə lazımdır. O, digər qitə dövlətləri ilə bütün danışıqları, Fransa bu qələbəni qazanana qədər, qəsdən təxirə saldı. Onun siyasəti bir məqsədə yönəldilmişdi: Avstriya ilə hesablar çəkilənə və Suvorovun İtaliyada qazandığı qələbələrinin nəticələri aradan qaldırılana qədər xarici nümayəndələrlə danışarkən ən barışdırıcı və sakit təmkinliyi qoruyub saxlamaq.

Prussiya və Rusiyanın bitərəfliyindən istifadə edən Bonapart 1800-cü ilin mayında öz ordusu ilə Alp dağlarından keçərək Şimali İtaliyaya hücum etdi. İyunun 14-də Marenqo döyüşündə Avstriya qoşunlarını məğlub etdi.

Marenqo qələbəsindən sonra, Avstriya öz məğlubiyyətini hələ son final kimi qəbul etməmişdi. Lakin, başqa dövlətlər Avstriyanın öz vəziyyətini yaxşılaşdıra

biləcəyinə artıq inanmırdılar. Prussiya kralı artıq savaş haqqında danışmaq haqqında düşünmürdü, ispan Burbonları itaət etdiklərini göstərirdilər. Qərbi Alman dövlətləri isə, Fransaya dostluq hisslərini nümayiş etdirmək üçün bir-biri ilə yarışa girmişdilər.

Bir müddət sonra, Avstriya ordusu Qoqenlindendə 1800-cü ilin dekabrın 2 - 3-də yeni bir məğlubiyyətə uğradı. Artıq 1801-ci ilin fevralında, Habsburqlar Fransa ilə Lyunevil sülh müqaviləsi bağladılar. Razılığa görə onlar Cənubi Niderlandı tərk etdilər, Fransanın Reyn çayı boyunca yeni şərq sərhədini və onun yaratdığı "asılı" respublikaları tanıdılar. Lyunevil sülhünə əsasən, Şimali İtaliyanı və Avstriyanın Reyn əraziləri Fransanın təsiri altına keçdi.

Bütün bunlardan sonra, Bonapart 1800-1812-ci illərdə xarici siyasətinin əsas qayəsini təşkil edən planı həyata keçirməyə başladı: bir tərəfdən İngiltərəni məğlub etmək, digər tərəfdən Rusiya ilə hərbi hücum və müdafiə ittifaqı bağlamaq. Rusiya ilə ittifaq bağlamadan Napoleonun Avropa qitəsində təsiri və sonra isə hökmranlığı həmişə kövrək ola bilərdi. Eyni zamanda, güclü hökmranlıq əldə etmədən Britaniya adalarına sarsıdıcı zərbə vurmaq barədə düşünmək belə mümkün deyildi.

Bu planı həyata keçirmək məqsədilə. Birinci konsul 1798-1799-cu illərdə baş verən döyüşlərdə əsir götürülmüş 6000 rus əsgərinin heç bir şərt olmadan, öz silahları, yeni hərbi geyimləri və öz döyüş bayraqları ilə birlikdə azad edərək, Rusiyaya qaytarılmasını əmr etdi. Lakin, əvəzində fransız əsirlərinin qaytarılmasını isə tələb etmədi.

Bundan sonra Birinci konsul, Pavel ilə əvvəlcədən başladığı yaxınlaşma siyasətini intensiv şəkildə həyata keçirməyə başladı. Artıq, 1800-cü ilin sonundan etibarən, çar Bonapartın əməllərinə heyran olduğunu gizlətmirdi. Napoleon, nəzərdə tutduğu kimi, incə mülayim siyasəti ilə, xeyirxah əməlləri ilə, ən əsası isə üçüncü şəxslər vasitəsilə çara verilən daimi təminat vasitəsi ilə buna nail oldu. O, çarın əmin etdi ki, müharibə yalnız İngiltərəyə lazımdır. Birinci konsul bu addımı ilə, 1799-cu ildə bu qədər möhtərəm çarı alçaqcasına aldadan, xəyanətkar Avstriyanı ciddi şəkildə cəzalandırmışdır. Taleyrana çarın diqqətinə belə bir məsələ çatdırmaq tapşırıldıı ki, İtaliyada fransızlar üzərində qələbə qazanan ingilislər və avstriyalılar deyil, yalnız ruslar olmuşdur. Pavel ilə ingilislər arasında nifaq salmaq üçün Napoleon çarı Malta cəngavərləri Ordeninin Böyük magistri olmağa dəvət etdi və Malta adasını ona "bağışladı". Lakin, İngiltərə hərbi dəniz desantı, 1800-cü ilin oktyabrında, Malta adasını iki il mühasirədə saxladııqdan sonra onu fransızlardan ala bildi.

Nəhayət Pavel, əvvəl Sprenqporteni, sonra isə artıq martın əvvəlində isə, sülh danışıqları aparmaq və şəraitdən asılı olaraq ittifaq bağlamaq səlahiyyəti verdiyi Kolıçevi Parisə göndərdi. Rusiya-Fransa sülh danışıqları başladı və bu danışıqlar zamanı məlum oldu ki, hər iki tərəf Böyük Britaniyaya düşmən münasibət bəsləyir

və ona qarşı mübarizədə sıx əməkdaşlığa hazırdırlar. Fransızlar Rusiya imperatoruna Hindistana birgə yürüş, eləcə də Osmanlı İmperiyasının Avropa mülklərinin bölünməsi ilə bağlı planlarını müzakirə etməyi təklif etdilər. I Pavel Hindistana yürüş planı ilə çox maraqlanırdı. Pavel belə bir ittifaqın bağlanmasına müsbət yanaşırdı, çünki o, Fransa-Rusiya birləşmiş ordusu vasitəsi ilə, Hindistanın işğal planını həyata keçirmək arzusunda idi.

Həştərxanda birləşən rus və fransız qoşunları Xəzər dənizini keçərək Astrabada (İranın şimalında müasir Gürgan,) getməli, sonra qədimdə Makedoniyalı İsgəndərin əsgərlərinin və XVIII əsrdə Nadir şahın süvarilərinin keçdiyi ən qısa yolla, Heratdan Hindistana getməli idilər. Persiya ilə ittifaq bağlamaq, yem və ərzaq anbarlarının yaradılması ilə bağlı bir sıra tədbirlər görüldü. Güman edilirdi ki, qoşunlar 1801-ci ilin mayında səfərə çıxaraq, sentyabrın sonunda Hindistana çatacaqlar. Rusiya hökuməti Cənubi Asiyaya nüfuz etməklə əhəmiyyətli ticarət qazanclarının olacağına ümid edirdi. 1799-cu ilin dekabrında, yaradılan Rusiya-Asiya şirkəti Orta Asiyanın bir sıra şəhərlərində öz məntəqələrini yaratdı.

O, artıq Hindistana gedən yolları öyrənmək və kəşfiyyat aparmaq üçün 24.000 kazak dəstəsinin Orta Asiyaya yürüş etməsini əmr etdi. Avropanın diplomatik dairələrində qitənin iki güclü dövlətinin yaxınlaşması böyük narahatlıqla izlənilirdi. Avstriya imperatoru təkcə şifahi deyil, həm də yazılı şəkildə bütün ümidlərini Pavel və Bonapartın bağladığı ittifaqın mümkün "kövrəkliyinə" ümid bağladığını bildirmişdi.

Britaniya siyasətinin liderləri daha çox təşviş içində idilər. İngilis diplomatik departamenti Sankt-Peterburqda olan ingilis səfiri Uitvort vasitəsi ilə, Rus çarını cismani şəkildə aradan qaldırmağın yolları haqqında düşünməyə başladı. Bu məqsədlə onlar, zadəgan təbəqəsinə aid olan xanım Olqa Aleksandrovna Jerebtsova vasitəsilə, onun qardaşı qraf Platon Zubov, Nikita Panin və sui-qəsdinin digər rəhbərləri ilə gizli əlaqələrə girdilər. Və onların köməyi ilə, bu hazırlıqlar 1801-ci il martın 11-dən 12-nə keçən gecə Pavelin öldürülməsi ilə başa çatdı. Pavelin bütün planları, həyata keçirilən saray çevrilişi nəticəsində alt-üst edildi. Belə ki, Pavel yüksək rütbəli sui-qəsdçilər tərəfindən öldürüldü. Onların bir çoxu xarici siyasət sahəsində Britaniya yönümlü siyasi istiqamətə sadiq idilər. Təsadüfi deyil ki, I Aleksandrın imperator taxtına çıxmasından sonra rus diplomatiyasının ilk addımı Böyük Britaniya ilə münasibətlərin bərpası oldu. Təbii ki, bu şəraitdə fransızlarla birgə Hindistana yürüş planının həyata keçirilməsindən söhbət belə gedə bilməzdi.

Rusiya taxtına 24 yaşlı gənc I Aleksandr çıxdı. Aleksandr çevik və dərrakəli ağla sahib idi. O, özünü idealist kimi göstərməyi xoşlayırdı, guya, özünün birbaşa etdiyi xeyirxahlıqlar barədə unutmağa meyllidir. O, diplomatik danışıqlarda özünü

xəyalpərəst kimi aparmaq bacarığını qoruyub saxlayırdı. Səfirlər, nazirlər və hökmdarlar dəfələrlə bu qarmağa düşürdülər.

Hələ 1801-ci ildə, I Aleksandr Bonapartın istilalarından və bəşəriyyətin başına gələn bəlalara nəhayət son qoymalı olan "ümumbəşəri sülh"dən danışmağa başladı. Eyni zamanda, çar açıq şəkildə bildirirdi ki, belə sülhə yalnız imperator Aleksandrın başçılıq etdiyi anti- Fransa koalisiyası yaratmaqla nail olmaq olar.

Lakin, Fransa ilə münasibətlərin pozulması ilə son dərəcə çətin vəziyyət yarandı. Rusiya, bütün böyük dövlətlərin bu və ya digər şəkildə fateh qarşısında baş əydiyi bir zamanda, qitədə tamamilə tək qalmaq riski ilə üzləşdi.

Fransızlar Rusiya ilə apardıqları çətin danışıqlar gedişində, I Pavelin dövründə planlaşdırdıqları kimi, müttəfiqlik müqaviləsi imzalamaq üçün təkid etdilər. 1801-ci il oktyabrın 8-də (20) Parisdə iki rus-fransız müqaviləsi imzalandı: sülh müqaviləsi və gizli konvensiya. Sonuncu sənəd, digər məsələlərlə yanaşı, Almaniya və İtaliya ilə bağlı məsələlərin həllində Rusiya ilə Fransanın əməkdaşlığını, Fransa ilə Osmanlı İmperiyası arasında sülh müqaviləsinin bağlanmasında Rusiyanın vasitəçiliyini nəzərdə tuturdu.

2.Amyen sülhü

XIX əsrin əvvəllərində Fransanın daimi rəqibi, əvvəlki kimi, Böyük Britaniya idi. 1783-cü ilin dekabrından, ölkənin xarici siyasətinə gənc Uilyam Pitt rəhbərlik etdi. O, Yeddiillik müharibə zamanı viqi partiyasından olan məşhur nazir Lord Çatamın (Böyük Pitt) oğlu idi. Kiçik Pitt, 1801-ci ilə qədər davamlı olaraq hökumətə rəhbərlik etdi və sonra 1804-cü ildən 1806-cı ildə ölümünə qədər yenidən bu vəzifəni tutdu. Böyük Britaniya eyni zamanda, yeganə ölkə idi ki, orduları qitədə döyüşməsə belə, bütün anti-Fransa koalisiyalarında iştirak etmişdi. Britaniya subsidiyaları alan müttəfiqlər, Fransaya qarşı müharibə aparmaq üçün, onun pulu ilə vuruşurdular. Ən təcili ehtiyaclar üçün xroniki maliyyə çatışmazlığı şəraitində yaşayan qitə dövlətləri Britaniya subsidiyalarını almaqdan asılı idilər, ona görə də maliyyə vəsaitlərinin öz aralarında bölünmələri ilə bağlı mübahisələr edir və pulları vaxtında almadıqları üçün Britaniya hökumətindən inciyirdilər.

Lakin, Böyük Britaniya, Rusiya-Fransa sülh müqaviləsi bağlandıqdan sonra Bonapartla danışıqlara getməyə məcbur oldu. Danışıqlar 1802-ci il martın 27-də, Amyendə sülh müqaviləsinin imzalanması ilə başa çatdı. Bu sülh əslində atəşkəsə bərabər idi, çünki, Böyük Britaniya, Fransanın Reyn boyunca yeni sərhədlərini və digər ilhaqları tanımadı. O, yalnız fransız qoşunlarının Romadan, Neapoldan və Elba adasından çıxarılmasına nail oldu. Özü isə, Fransaya və onun müttəfiqlərinə onlardan ələ keçirdiyi müstəmləkələri (Seylon və Trinidad adaları istisna olmaqla) qaytarmağa və qoşunlarını Malta adasından çıxarmağa söz verdi. Lakin, faktiki

olaraq, Malta adası əslində yüz ildən artıq bir müddət ərzində İngiltərənin müstəmləkəsinə çevrildi.

Hər iki tərəf Osmanlı mülklərinin bütövlüyünə zəmanət verdi. Müqavilə fransız qoşunlarının Misirdən çıxarılmasını nəzərdə tuturdu. Bütün bunlar tərəflərin tələblərini və iddialarını cüzi dərəcədə təmin etdi. Buna baxmayaraq, Amyen müqaviləsinin, eləcə də Avropa dövlətləri ilə Fransa arasında digər sülh müqavilələrinin imzalanması böyük siyasi əhəmiyyət kəsb edirdi. Bu, Fransa Respublikasının digər dövlətlər tərəfindən tam formada beynəlxalq hüquqi tanınmasına şəhadət verirdi və bununla da onun suverenliyinə hörmətlə yanaşmağa öhdəlik götürürdü. 1783-cü il Versal sülh müqaviləsində təsbit edilmiş milli suverenlik prinsipi tam təsdiqini tapdı: o, Avropanın ən böyük və nüfuzlu dövlətləri tərəfindən öz gücü nəticəsində dəstəkləndi.

Məhz, Böyük Britaniyanın düşmənçiliyi, Bonapartı Fransanın Şimali Amerikada əvvəllər itirdiyi müstəmləkələri geri qaytarmaq ümidindən nəhayət imtina etməyə sövq etdi. Və belə bir fürsət, 1800-cü il oktyabrın 1-də San-İldefonsoda İspaniya ilə bağlanan müqavilə ilə əlaqədar yenidən özünü büruzə verdi. Müqaviləyə əsasən İspaniya, 1763-cü ildə Paris müqaviləsinə əsasən bir vaxtlar aldığı Luiziana əyalətinin bir hissəsini Fransaya verdi. Luizianaya həqiqi sahiblik edə bilməyəcəyini və ya onu başqa dövlətlərin təcavüzündən qorumaq imkanını olmaycağını anlayan Bonapart, onu ABŞ-a satmağı məqbul hesab etdi. Müvafiq olaraq, 1803-cü il aprelin 30-da Fransa-Amerika müqaviləsi bağlandı. Müqaviləyə görə ABŞ Fransaya bu əraziyə görə 15 milyon dollar (80 milyon frank) ödədi.

Lakin, 1802-ci ildə Amyendə İngiltərə ilə imzalanan sülh qısa bir möhlət oldu.

İngilis tacirləri və sənayeçiləri bundan sonra Fransa da daxil olmaqla bütün Avropa bazarlarının onların mallarına açıq olduğuna inanaraq çox erkən sevindilər. Tezliklə bəlli oldu ki, Napoleon onlara qarşı davam etdirdiyi iqtisadi müharibədən əl çəkməyi ağlına belə gətirmir və ingilis mallarının ondan asılı olan ölkələrə keçməsinin qarşısını almaq üçün bütün tədbirləri görür. Artıq 1803-cü ilin martında, Britaniya siyasətinin rəhbərləri anladılar ki, Amyendə səhvə yol verilib. Bonapartla barışmaq, ona rəqib dövlətləri məğlub etmək və Avropa üzərində hökmranlığı ələ keçirmək üçün tam imkan vermək deməkdir.

Napoleon bilirdi ki, məsələ tezliklə İngiltərə ilə münasibətlərin pozulması ilə bitəcək, amma bundan qorxmurdu. Gözlənilən müharibə astanasında gəmi donanması və desant üçün ordu hazırlamağa başladı. Britaniya səfiri ilə son görüşlər, demək olar ki, ictimaiyyət üçün açıq çağırışlar idi. Bu görüşdə, Napoleon ingilislərin Amyen müqaviləsinə əsasən evakuasiya etməyi öhdələrinə götürdükləri Maltanı azad etmədiklərinə görə qəzəblənmiş kimi göstərdi. Uzun sürən görüşün sonunda,

Napoleon ingilis səfirinə qəzəblə "Malta və ya müharibə!" ifadəsini eşitdirdi. 1803-cü il mayın 12-də ingilis səfiri Parisi tərk etdi.

Sonrakı yaxın dövrdə, Fransa ilə İngiltərə arasında başlanan qızğın müharibə bütün diplomatik oyunların və fitnəkarlığın əsas mərkəzinə çevrildi.

3.Fransaya qarşı Üçüncü koalisiya

Fransa ilə Böyük Britaniya arasında sülh bir ildən bir qədər çox davam etdi. 1803-cü il martın 8-də Bonapart ultimatum tonunda ingilis qoşunlarının Maltadan çıxarılmasını tələb etdi. Bu tələbə, Britaniya kralı III Georqun cavabı - Fransanın onun ölkəsinin təhlükəsizliyini təhdid etməsi oldu. May ayında Fransa ilə Böyük Britaniya arasında yenidən müharibə başladı. İngilis donanmasının hərəkətlərinə cavab olaraq, Fransız qoşunları Bonapartın əmri ilə İngilis kralının (həm də Hannover kürfüstü idi) mülkü olan Hannoveri işğal etdilər.

Fransızlar Böyük Britaniyanı qüruruna toxunmaq istəyirdilər, amma əslində onlar başqa ölkələrin - yalnız Prussiya və İmperiyaya aid olan hər bir məsələyə həssaslıqla yanaşan Habsburq monarxiyasının deyil, həm də Rusiyanın maraqlarına toxundular. Fransanın hərəkətləri ilə təhdid edilən Baltik və Şimal dənizlərində gəmi nəqliyyatı azadlığı Rusiyanın ticarət etməsi üçün böyük əhəmiyyət kəsb edirdi. Bundan əlavə, Rusiya Polşanın bölünməsindən sonra birbaşa həmsərhəd olduğu Alman dövlətlərində baş verən siyasi vəziyyətə biganə qala bilməzdi. Üç dövlət tədricən anti-Fransa koalisiyasının yenidən yaradılması məsələsini müzakirə etməyə başladı. Onlar bu məsələni, Bonapartın qəzəbinə tuş gəlməməyə çalışaraq, ehtiyatla müzakirə edirdilər. Lakin o, özünün təcavüzkar hərəkətləri ilə onları danışıqların gedişini sürətləndirməyə məcbur etdi.

1804-cü ilin may ayında, İngiltərədə Pitt yenidən hakimiyyətə gəldi. Əslində, o, artıq 1803-cü ildən xarici siyasətin ümumi istiqamətinə rəhbərlik edirdi. Pitt Napoleona qarşı Avropanın böyük dövlətlərinin yeni koalisiyasını yaratmaq üçün böyük səylə çalışırdı. Onun fikrincə, yalnız belə bir koalisiyanın yaradılması, Napoleonun artıq Bulonda döyüş hazırlığına gətirdiyi fransız qoşunlarının İngiltərəyə hücumunun qarşısını ala bilərdi.

I Aleksandr, Pitin planını tam rəğbət ilə qarşıladı. Bonapartın tiranlığından "Avropanın qurtuluşunun" başçısı olmaq kimi boş bir ideya nəhayət çarın düşüncələrinə hakim oldu. Artıq 1804-cü ildə o, Pitt tərəfindən yaradılması planlaşdırılan koalisiyada iştirak etmək qərarına gəldi. Əslində, Napoleonun istila etdiyi bütün torpaqlar yalnız Alman ölkələrinə, Hollandiyaya, İtaliyaya, İsveçrəyə aid idi və bunlar Rusiyanın maraqlarına heç bir təsir göstərmirdi. Aleksandrla Napoleon arasındakı münasibətlərdə dönüş nöqtəsi 1804-cü ilin yazında baş verdi.

Fransanın qüdrətli hökmdarı Bonapart öz həyatı üçün qorxu içində yaşayırdı və səbəbsiz deyildi. Royalistlər dəfələrlə ona sui-qəsd təşkil etməyə cəhd etmişdilər. 1804-cü ilin yanvarında, fransız polisi belə bir sui-qəsdin təşkilatçılarının izinə düşdü. Onun bəzi müəyyən edilmiş iştirakçıları həbs olundu. Həbs olunanlardan biri, şuanların (əks-inqilabi üsyançılar) əfsanəvi lideri J.Kadudal, istintaq zamanı Fransada dövlət çevrilişinə rəhbərlik edəcəyi güman olunan hansı isə bir fransız "şahzadəsinin" adını çəkmişdi. Şübhə, Burbonların qohum nəsli olan Konde xəttinin son üzvü Engien hersoqunun üzərinə düşdü. Bu əsasda, Almaniyanın Baden knyazlığında Fransa sərhədindən bir neçə kilometr aralıda dinc həyatını yaşayan Engien hersoqu silahlı şəxslər tərəfindən evindən qaçırılaraq, müşayiət altında Paris yaxınlığındakı Vensen qalasına aparıldı. Və martın 21-də hərbi tribunalın qərarı ilə güllələndi.

Bu siyasi edam bütün Avropanı silkələdi. Ən azı, Fransa hökuməti öz hərəkətləri ilə beynəlxalq hüququn əsas normalarını - suverenliyi, knyazlığın sərhədlərinin toxunulmazlığını pozmuşdu. İctimai rəy Bonapartı kral qanı tökməklə, yakobinlərin yolu ilə getdiyinə görə günahlandırmağa meylli idi. Engien hersoqunun edam edilməsi Avropa hökmdarlarının gözündə Bonapart hakimiyyətinin legitimliyini məhv etdi. Xüsusilə, Rusiya diplomatiyası indi Bonapartla heç bir razılaşmanın mümkün olmaması qənaətinə gəldi və Qərbdəki tərəfdaşlarını da buna inandırmağa çalışdı. Rusiyanın Xarici İşlər naziri A.Çartorıyski bəyan etdi ki, Fransa hökuməti "özünü elə dəhşətli qətllə ləkələyib ki, ona ancaq quldur yuvası kimi baxmaq olar".

Engien hersoqunun həbsi və ölümü ilə əlaqədar imperator I Aleksandrın adından Fransa hökumətinə etiraz notası göndərildi. Bonapart öz Xarici İşlər naziri Ş.M.Taleyrana ona cavab verməyi əmr etdi. Taleyran, Bonapartın göstərişi ilə, 1801-ci il saray çevrilişində olan roluna eyham vuraraq, Rusiya imperatorunu dərindən yaralayan cavab verdi: "Əgər siz o vaxt, İngiltərənin I Pavelə sui-qəsd hazırladığını və sui-qəsdin təhrikçilərinin sərhəddən bir lyo (5,556 км) məsafədə olduğunu bilsə idiniz, həqiqətən onları ələ keçirməyə çalışmazdınızmı?" Əmin olun ki, Napoleon sizin bu addımınıza qətiyyən etiraz etməzdi.

Bu cavab, dəhşətli və üstəlik ictimailəşmiş təhqir idi. I Aleksandrın simasında fransız diktatoru ömürlük barışmaz düşmən qazanmış oldu. Əslində, Napoleon indiyə qədər yalnız Avropa saraylarında pıçıltı ilə deyilənləri ucadan səsləndirdi. Çünki, Aleksandr atası Pavelə qarşı həyata keçirilən sui-qəsddən nəinki xəbərdar idi, həm də o, bunda bilavasitə iştirak etmişdi.

Lakin, şəxsi təhqir çarın Napoleonla mübarizə əzmini daha da gücləndirdi. Pitin krala təklif etdiyi subsidiya qəbul edildi; Rusiya müharibəyə hazırlaşmağa başladı. Pitt üçün Avstriyanı öz tərəfinə çəkmək çətin olmadı. Belə ki, Avstriya Lyunevil sülhünün çətin şərtlərindən xilas olmaq istəyirdi.

18 may 1804-cü ildə, Bonapart özünü Fransa İmperatoru I Napoleon elan etdi. Bu titul yeni hökmdarın Fransa krallarının deyil, imperator Böyük Karlın mirasını qəbul etməsi demək idi. Sonuncu kimi, o, Qərbi Avropanın əksər hissəsini öz hakimiyyəti altında birləşdirərək, Qərbin imperatoru olmağa can atırdı. Və eynilə Böyük Karl kimi, Bonapart da Papanın onun tacqoyma mərasimində şəxsən iştirakını istəyirdi. Ancaq bunun üçün Böyük Karl özü Roma papasının yanına getsə də, Bonapart Papanın Parisə onun yanına gəlməsini arzu etdi. 1804-cü il dekabrın 2-də, Parisin Notr-Dam kilsəsində I Napoleonun tacqoyma mərasimi keçirildi. Təntənəli anda, VII Piy onun başına imperator tacını qoymağa hazırlaşarkən, Napoleon tacı papanın əlindən alaraq, onu özü, öz başına qoydu.

Napoleon bu mərasimə hansı siyasi məna versə də, formal olaraq söhbət Bonapart diktaturasının irsi monarxiyaya çevrilməsindən gedirdi. Ömürlük Birinci konsulun timsalında, Fransa inqilabının varisini görmək istəyən insanlar onun bu hərəkətindən məyus oldular. Lakin monarxistlər də öz etirazlarını bildirdilər. Ola bilsin ki, başqa bir şəraitdə monarxiya Avropası bu hadisəyə daha yumşaq formada yanaşardı. Tarixdə kral ailəsinin nümayəndəsi olmayan zadəganların qanuni hökmdar kimi tanınması nümunələri mövcuddur. Lakin, Bonapartın imperator elan edilməsindən əvvəl Engien hersoqu edam edildiyi üçün, dərhal ona qarşı, qanunla ona aid olmayan hakimiyyəti qəsb etmək cəhdində ittiham irəli sürüldü. Monarxiya dairələrində, Napoleonun İmperator titulunu tanımaq istəməyərək, uzun müddət onu qəsbkar kimi qəbul etdilər.

1805-ci ildə Böyük Britaniya, Rusiya, Habsburq monarxiyası, İki Siciliya krallığı və İsveçin iştirakı ilə Avropa dövlətlərinin anti-Fransa koalisiyasını yenidən yaratmağa müvəffəq oldu. İngiltərə müttəfiqlərinə böyük məbləğdə pul subsidiyaları (hər 100.000 əsgər üçün - 1.250.000 funt sterlinq) ödəməyi öhdəsinə götürdü.

Bu şəraitdə, Napoleon Britaniya adalarını dənizdən işğal etmək üçün, 1803-1804-cü illərdə qurduğu planlarından əl çəkdi. Və öz "böyük ordusunu" qitədəki düşmənlərinə qarşı yönəltdi. O, çox cəld hərəkət edərək, qüvvələrini birləşdirməyə vaxt tapmamış rəqiblərini bir-bir darmadağın etməyə çalışdı.

4.Prussiyanın mövqeyi

İngiltərə, Rusiya və Avstriya Prussiya kralına təzyiq göstərərək onu koalisiyaya qoşulmağa çağırırdılar. Lakin, bu cəhdlər onun tərəfindən güclü müqaviməti ilə üzləşirdi. III Fridrix Vilhelm bilirdi ki, Napoleonun işğalından ilk olaraq Prussiya əziyyət çəkəcək və İmperator təbii ki, Bulon düşərgəsində topladığı qoşunlarını ilk növbədə Prussiyaya qarşı hərəkət etdirəcək. III Fridrix Vilhelm Rusiya və Avstriyanın köməyinə ümid etmirdi və ingilislərə ümumiyyətlə heç inanmırdı. I Aleksandr aylar ötdükcə istənilən nəticəni əldə etmədiyini görərək, Prussiya kralını

koalisiyaya qoşulmağa məcbur etmək üçün birbaşa təhdidlərdən istifadə etmək qərarına gəldi. O, Rus ordusunu artıq Prussiya sərhədində yerləşdirdi.

Prussiya kralı elan etdi ki, o, Prussiya istəmədiyi halda onu döyüşməyə məcbur etmək üçün zorakı bir yola boyun əyməkdənsə, onun bitərəfliyini pozan hər bir dövlətə qarşı döyüşməyi üstün tutur. Lakin, qəfildən bütün diplomatik vəziyyət kəskin şəkildə dəyişdi. Məlum oldu ki, kral, Napoleonun Prussiya ərazisindən keçərək Bavariyaya qoşun yeritməklə Prussiyanın bitərəfliyini pozması xəbərini alıb. Qorxuya düşən kral kömək üçün Aleksandra və Avstriyaya müraciət etdi. Ancaq, Avropada siyasi mühit yenidən dəyişməyə başladı. III Fridrix Vilhelm eyni zamanda, 20 oktyabr 1805-ci ildə, Ulmda, Napoleon tərəfindən mühasirəyə alınmış və təcrid olunmuş ən yaxşı Avstriya ordusunun öz mövcudluğunu dayandırdığı xəbərini də aldı.

General Mak 32.000 nəfərlik ordusu ilə təslim olaraq, qalanı fransızlara təhvil verməyə razı oldu. Fridrix Vilhelm müharibənin birinci yarısının məğlubiyyətə düçar olduğunu anladı. Ulm fəlakətindən əvvəl Napoleona qarşı çıxmaqdan qorxan kral, indi buna ümumiyyətlə cəsarət etmirdi. Tam səkkiz gün ərzində I Aleksandr Fridrix-Vilhelmi inandırmağa çalışdı, ancaq buna nail olmadı. Lakin, çar ilə münasibətləri pozmamaq üçün, Prussiya kralı, Aleksandrı II Fridrixin məzarı üstündə qarşılıqlı dostluq andı içməyə dəvət etdi. Aleksandr bununla ona görə razılaşdı ki, onun Berlində qalması heç olmasa Avropanın gözündə hansısa diplomatik uğur kimi qəbul edilsin.

1805-ci il noyabrın 3-də (15) Prussiya ilə Rusiya arasında, Fransaya qarşı birgə hərəkətləri nəzərdə tutan müttəfiqlik haqqında konvensiyası imzalandı.

Aleksandr Berlindən Avstriyaya yola düşdü. Orada onu Austerlitsdə baş verən hadisələr gözləyirdi.

Bununla belə, Prussiya kralı Napoleona ultimatum göndərmək qərarına gəldi. Bu ultimatumu çatdırmaq Qauqvitsə həvalə edildi. Qauqvits təyinat yerinə 20 noyabr (2 dekabr) 1805-ci ildə, Austerlits döyüşünün başladığı günün axşamı gəlib çıxdı. Napoleonun tam qələbəsi və Avstriya imperatorunun sülh xahişi ilə Napoleonun qərargahına gəlməsi - bütün bunlar Qauqvitsin fransız fatehi ilə görüşündən bir qədər əvvəl baş vermişdi. Hadisələrin gedişinin məşum nəticəsini izləyən Qauqvits, Napoleona təqdim etməyə gətirdiyi "ultimatumu" gizlədərək, sevinclə, Napoleonu qələbə münasibəti ilə təbrik etməyə gəldiyini bildirdi. Napoleon, yalnız soyuq formada deyil, hətta kobud şəkildə. ona baş əyən Qauqvitsə “təbriklər onun göndərildiyi ünvana yanlış gəlib” deyə cavab verdi. Napoleon başa düşürdü ki, Austerlitsdən sonra Prussiya onu heç bir formada təhdid edə bilməyəcək.

Austerlits döyüşü (20 noyabr (2 dekabr), 1805) Napoleon ordusunun üçüncü anti-Fransa koalisiyasının ordularına qarşı həlledici döyüşüdür. Bu, tarixə "üç imperatorun döyüşü" kimi düşüb, çünki Avstriya imperatoru II Frans və Rusiya imperatoru I Aleksandrın orduları İmperator I Napoleonun ordusuna qarşı vuruşurdular. Döyüş müttəfiq orduların məğlubiyyəti ilə başa çatdı. General M.İ.Kutuzovun ümumi komandanlığı altında müttəfiq ordunun sayı təxminən 85 min nəfər idi (60 min rus ordusu, 25 min Avstriya ordusu). Napoleonun ordusunun sayı 73,5 min nəfər idi.

Əslində, Prussiya artıq hərbi əməliyyatların gedişinə təsir göstərə bilməzdi. "Böyük ordunun" zərbələri altında avstriyalılar Vyananı döyüşsüz təslim etdilər. 1805-ci il noyabrın 20-də (2 dekabr), Austerlits döyüşündə birləşmiş rus-avstriya qoşunlarının məğlubiyyətindən sonra, Avstriya Presburqda (indiki Bratislava) Napoleonla sülh müqaviləsi imzaladı. Bu şəraitdə prussiyalılar da fransızlarla, Rusiya ilə müttəfiqliklərini faktiki olaraq ləğv edən, müqavilə bağlamaq məcburiyyətində qaldılar.

Taleyran, Napoleona Prussiyanı da uzaqlaşdırmaq deyil, onu dərhal Fransa ilə "müttəfiqliyə" girməyə məcbur etməyi məsləhət gördü. Napoleon razılaşdı və Qauqvitsi Prussiya adından Fransa İmperiyası ilə "müttəfiqlik" müqaviləsi bağlamağa məcbur etdi. Napoleon, Prussiyaya Hannoveri verəcəyini söz verdi. Prussiya bir sıra ərazilərindən (Nevşatel, Ansbax, Klev knyazlıqları) imtina etməli oldu. Lakin, Hannover Prussiya üçün pis qazanc oldu: çünki, bu ərazi ingilis kralına məxsus irsi kürfüst mülkü olduğuna görə, fransızlar tərəfindən işğal edilmişdi. Bu hədiyyə vasitəsi ilə, Napoleon, Prussiya ilə İngiltərə arasında nifaq yaratmaq istəyirdi.

Napoleonun Prussiyaya sırıdığı bu məcburi "müttəfiqlik", Napoleonu hər zaman daha çox narahat etdiyi vəzifəni - Prussiya ilə müharibə etmək üçün apardığı diplomatik hazırlığın icrasını xeyli asanlaşdırdı.

Böyük Britaniya silahlarını yerə qoymayaraq, hətta dənizdə fransızlar üzərində mühüm qələbələr qazana bilsə də, anti-Fransa koalisiyası faktiki olaraq fəaliyyətini dayandırdı. 21 oktyabr 1805-ci ildə İspaniya sahillərində Trafalqar burnunda baş verən dəniz döyüşündə admiral Nelsonun komandanlığı altında İngilis eskadrası tərəfindən birləşmiş fransız-ispan donanması demək olar ki, tamamilə məhv edildi. Bu döyüş, Böyük Britaniya ilə Fransa arasında bir əsrə yaxın davam edən dəniz rəqabətinə son qoydu. Bundan sonra və çox uzun müddətdə Böyük Britaniya mübahisəsiz "dənizlərin hökmdarı" oldu.

Qeyd: Trafalqar döyüşü - Böyük Britaniya və Fransa, İspaniya hərbi dəniz donanmaları arasında 21 oktyabr 1805-ci ildə, İspaniyanın Atlantik okeanı sahilindəki Trafalqar burnunda, Kadis şəhəri yaxınlığında baş vermiş tarixi dəniz döyüşü. Napoleon ilə müharibənin bu həlledici döyüşündə, İspaniya ilə müttəfiq olan Fransa birlikdə 18 gəmi 15 min canlı qüvvə itirdikləri

halda, Britaniya donanması 2000-dək canlı qüvvə itkisi verərək heç bir gəmi itirməyərək parlaq qələbə çaldılar. Lakin, döyüş zamanı ingilis donanmasının komandanı vitse-admiral Qoratsio Nelson həlak oldu.

Austerlitsdəki uğursuzluğa baxmayaraq, Rusiya da Fransa ilə müharibə vəziyyətində qaldı. Avropadakı siyasi vəziyyəti nəzərə alaraq, Rusiya hökuməti əslində, vaxt qazanmaq, güc toplamaq və yeni koalisiya yaratmağa çalışmaq üçün Fransaya qarşı mübarizəni davam etdirməkdən əl çəkməli oldu. Napoleon Rusiyaya başqa seçim qoymamışdı. O, Rusiyanı qitədə mümkün qədər təcrid etməyə çalışaraq, Mərkəzi Avropa dövlətlərindən ona düşmən olan ittifaq yaratmağa çalışırdı. Napoleon diplomatiyasının, Şərqdə sülh bağlamaq yolunda ciddi maneəyə çevrilən fitnəkarlıqları, Rusiyanın təhlükəsizliyini bilavasitə təhdid edirdi. Presburq müqaviləsinə əsasən, Habsburqlar nəinki İtaliyada, Qərbi və Cənubi Almaniyada Fransanın bütün işğallarını tanımışdılar, həm də son italyan mülklərini - Venesiya, İstriya və Dalmatiyanı (Triest limanını saxlamaqla) Napoleona verdilər. Fransa əslində, Rusiyanın protektoratı olan İon adalarındakı rus qarnizonları olmasa idi, Adriatik dənizinin tam hökmdarına çevrilə bilərdi. Napoleon koalisiya üzərində qazandığı qələbələrdən Şərqdə qüvvələr nisbətini kəskin dəyişmək üçün istifadə etməyə çalışırdı.

Austerlits döyüşündən sonra Sultan III Səlim Napoleonun imperator titulunu tanıdı. Sonra Fransanın diplomatik nümayəndəsi general Sebastian İstanbula gəldi. O, Türkiyədən rus döyüş gəmilərinin keşməməsi üçün Bosfor və Dardanel (Çanaqqala) boğazlarını bağlamağı tələb etdi. Napoleon diplomatiyasının təsiri altında Osmanlı hakimiyyəti Rusiyaya qarşı bir sıra düşmənçilik addımları atdı. Buna cavab olaraq, rus qoşunları Dunay knyazlıqları olan Moldova və Valaxiyanı işğal etdilər. Bu da öz növbəsində, XVIII əsrin ikinci yarısında rus-türk müharibələrinin nəticələrini dəyişmək istəyən sultana, 1806-cı ilin dekabrında Rusiyaya müharibə elan etməyə əsas verdi.

Fransa və Osmanlı dövlətlərinin uzlaşdırılmış təcavüzü qarşısında Rusiya hökuməti manevr etməyə çalışırdı. O, Rusiya-İngiltərə ittifaqının möhkəmlənməsinə böyük əhəmiyyət verirdi, lakin, Kiçik Pitin ölümü İngiltərənin xarici siyasətinin dəyişməz olacağına şübhələr yaratdı. Napoleonun hiyləgər təklifi ilə aldadılan Prussiyanı anti-fransız ittifaqına cəlb etmək cəhdi uğursuzluqla başa çatdı. Belə bir şəraitdə, Rusiya Fransa ilə heç olmasa barışıq danışıqları aparmağa cəhd etdi. Lakin 1806-cı il iyulun 20-də, Parisdə aparılan danışıqlar nəticəsində Rusiya tərəfdən edilən əsaslı güzəştləri özündə əks etdirən sülh müqaviləsi imzalandı. Müşavirləri ilə məsləhətləşdikdən sonra imperator I Aleksandr onu təsdiq etməkdən imtina etdi.

5. Dördüncü koalisiya. Prussiyanın məğlubiyyəti (14 oktyabr 1806)

Bu zaman, Napoleon xarici siyasətində əl atdığı kobud üsulların vasitəsilə yenə dəhşətli bir zarafat etdi. 1806-cı il iyulun 12-də, Parisdə Almaniyanın 16 əyaləti (Bavariya, Vürtemberq, Baden, Hessen-Darmştadt və s.) Reyn ittifaqının yaradılması haqqında müqavilə imzaladılar. Onlar Müqəddəs Roma İmperiyasından ayrılaraq, knyaz- primasın başçılıq etdiyi öz birliklərini yaratdılar və Fransa ilə ittifaqa girdilər, onun tərəfində müharibələrdə iştirak etmək ilə bağlı öhdəlik götürdülər. Reyn İttifaqının protektoru Napoleon elan edildi.

Qeyd: Knyaz- primas (lat. primas - birinci), Roma Katolik kilsəsində və Anqlikan kilsəsində ölkənin digər yepiskopları üzərində ən yüksək mənəvi səlahiyyətə malik olan ölkədə kilsə iyerarxının fəxri adı. Pravoslav kilsələrində oxşar başlıq "təmsilçi" kimi istifadə olunur.

Knyaz- primas –Mayntsın sonuncu kürfüstü və ertskansleri, İmperiya baronu Karl-Teodor fon Dalberqin (1744 - 1817) titulu olubdur. 1802-ci ildə Dalberq Maints arxiyepiskopluğunun dünyəvi mülklərinin başçısı oldu;1803-cü ildə dünyəviləşmədən sonra kürfüst-ertskansler kimi Reqensburq, Aşaffenburq və Vetslar ərazilərini qəbul etdi və I Napoleona (1804-1814/15) qoşularaq, 1806-cı ildə Reyn İttifaqında (ilk əvvəl Napoleonun protektoratı altında olan 16 alman dövlətinin birliyinə) knyaz- primas vəzifəsinə təyin edildi.

O, qardaşı Jozefi Neapol kralı və digər qardaşı Lüdoviki Hollandiya kralı təyin etdi. Bütün bunlar ilə, yenicə məğlub olmuş Avstriyanın köməyindən məhrum olan Prussiyanı təcrid etmiş oldu.

Məhz bu hadisələr Mərkəzi Avropanın böyük siyasi yenidən qurulmasına aparıb çıxardı. 6 avqust 1806-cı ildə, II Frans Müqəddəs Roma İmperatoru tacından imtina etdi. Əslində, orta əsrlərdən miras qalmış bu dövlət qurumu faktiki olaraq, tam hüquqlu vahid mərkəzləşmiş dövlətə çevrilmədən öz fəaliyyətini dayandırdı. Bu, Napoleonun istəyi ilə həyata keçdi. Çünki, o, özünü qədim Romanın yaratdığı böyük imperiyanın varisi kimi görürdü.

Hadisələrin bu dönüşünü əvvəlcədən görən II Frans, hələ 1804-cü ildə, özünə Avstriya İmperatoru titulunu götürərək, ən azı formal olaraq öz sülaləsinin nüfuzunu qoruyub saxlamağa nail oldu. Avropadakı Habsburqların irsi mülkləri o vaxtdan başlayaraq, Avstriya İmperiyası və ya sadəcə Avstriya rəsmi adını aldı.

Reyn İttifaqının yaranmasının əlavə nəticələri də az əhəmiyyətli deyildi. Napoleon nəinki Avstriya imperatorunun qüruruna toxundu, onu fəxri, lakin hələ də qədim, əfsanəvi titulundan məhrum etdi. O, Avstriya imperatorunun Mərkəzi Avropada aparıcı rola iddia etmək, onlarla irili-xırdalı alman dövlətlərinin siyasətinə təsir göstərmək üçün formal hüquqi əsasını əlindən aldı. Eyni formada, o, kiçik alman knyazlıqlarını ilhaq etməklə öz dövlətinin ərazisini genişləndirməyə çalışan və Avropanın mərkəzində üstünlük uğrunda Avstriya Habsburqları ilə rəqabət aparan

Prussiya Qoqentsollernlərin maraqlarına zərbə vurdu. Prussiya rəhbərliyi, Reyn İttifaqına tarazlıq olaraq Prussiyanın rəhbərliyi və Rusiyanın himayəsi altında Şimali Almaniya dövlətlərinin ittifaqını yaratmaq planını irəli sürdülər. Fransa diplomatiyası bu planlara kəskin formada müqavimət göstərdi. Bu addım, diplomatik münaqişəyə səbəb olaraq, Prussiyanı Napoleonla müharibəyə sövq etdi.

Napoleon mürəkkəb siyasi oyun həyata keçirdi. Artıq 1806-cı ilin fevralında, Pitin ölümündən sonra yaradılmış yeni İngilis nazirliyi Napoleonla sülh danışıqları aparmaq istəyini nümayiş etdirdi. Fevralın 20-də, İngiltərə ilə Fransa arasında diplomatik əlaqələrin olmamasına baxmayaraq, İngiltərənin yeni Xarici İşlər naziri Foks Taleyrana ünvanladığı məktubla Napoleona məlumat verirdi ki, Fransa imperatorunu öldürmək üçün yeni bir plan hazırlanır, ona görə onun həyatını qorumaq üçün ciddi tədbirlər görülməlidir.

Diplomatik cəbhədə İngiltərə tərəfindən aparılan siyasi dəyişiklik II Fridrix-Vilhelmi tam çaşqınlıq vəziyyətinə saldı. O, kömək üçün Aleksandra müraciət etdi. Rusiya imperatoru, Prussiya ilə Napoleon arasında müharibə olacağı təqdirdə, dərhal ona kömək edəcəyinə söz verdi.

1806-cı ilin payızında, əvvəlki ilin məğlubiyyətlərindən sonra dağılan anti-Fransa koalisiyası yenidən quruldu. 15 sentyabr 1806-cı ildə, İngiltərə, Rusiya və Prussiya dördüncü anti-Fransa koalisiyasını yaratdılar. İngiltərə yenidən koalisiyanın canlı qüvvəsinə maliyyə dəstəyi verirdi. Müharibədən çıxmış Avstriyanın əvəzinə orada Prussiya iştirak edirdi.

Sərhədin bütün məntəqələrindən və Reyn İttifaqının bütün dövlətlərindən III Fridrix Vilhelmə fransız qoşunlarının hərəkətə başlaması haqqında həyəcanlı məlumat gəlirdi. Artıq gözlənilən hücumdan xilas ola bilməyəcəyini görən III Fridrix Vilhelm, bütün cəsarətini toplayaraq, Napoleona Almaniyanın cənubunu fransız qoşunlarından təmizləmək və on gün ərzində Reyn İttifaqını ləğv etmək barədə ultimativ tələb göndərdi. Eyni zamanda, Prussiya "Şimal İttifaqı"nın yaradılmasına razılıq verdi. Bu tələbə cavab olaraq, Napoleonun ordusu əvvəl Saksoniyaya, sonra isə Prussiyaya hücum etdi.

Oktyabrın 8-də müharibə başladı. İlk döyüşdə (Zalfelddə, 10 oktyabr 1806-cı ildə) prussiyalılar məğlub oldular, bir neçə gün sonra (14 oktyabr) eyni anda iki döyüşdə - Yena və Auerştedtdə tam məğlubiyyətə uğradılar. Auerştedt döyüşü zamanı Prussiya ordusunun Baş komandanı hersoq Braunşveyq həlak oldu. Prussiya kralı bu çətin vəziyyətdə komandanlığı öz üzərinə götürməyə cəsarət etmədi. Bu qələbələr, Almaniyanın Elbaya qədər olan bütün ərazisini Napoleonun hakimiyyətinə tabe etdi. Prussiya kralı şərq sərhədlərinə qaçdı və əslində bundan sonra böyük Prussiya ordusu mövcudluğunu dayandırmışdı. Yena və Auerştedt döyüşlərindən sonra, müharibə Prussiyanın tam məğlubiyyəti ilə başa çatdı. Yena qələbəsindən iki həftə sonra, 27

(14) oktyabr 1806-cı ildə, Napoleon "böyük ordu"nun başında Berlinə daxil oldu. Prussiya tam məğlubiyyətə uğradı.

Prussiya sarayının qaçıb yerləşdiyi Königsberqdən III Fridrix-Vilhelm Aleksandra kömək etməsi üçün müraciət edir. Kömək olaraq, Rusiya fransızların Visladan keçməsinin qarşısını almaq üçün iki ordu göndərir. Prussiya ordusunun qalıqları rusların ordusuna qoşulurlar. Napoleon polyaklara müraciət edərək onları müstəqillik uğrunda mübarizə etməyə dəvət edir. 2 yanvar 1807-ci ildə, o, maneəsiz Varşavaya daxil oldu. 1806-1807-ci illərin qışında Visla üzərində bir sıra inadlı döyüşlər aparıldı. Bunlardan Preysiş-Eylau döyüşü Napoleona indiyə qədər onu müşayiət edən parlaq uğur qazandırmadı. Fransızların Dantsiqi (24 may 1807-ci il) işğal etməsindən və Fridland yaxınlığında rusların növbəti dağıdıcı məğlubiyyətindən (14 iyun) sonra fransızlar Königsberqi zəbt edərək, hətta Rusiya sərhədini də təhdid etməyə başladılar.

Rusiya üzərinə yürüş bir sıra çətinliklərlə üz-üzə qalmış oldu: həddindən pis kommunikasiyaya və yollara malik uzaq bir ərazi ordunun çevik hərəkəti və təchizatı üçün böyük problemlər yaradırdı. General Levin Avqust fon Benniqsenin tabeçiliyində olan rus ordusunun döyüşə girmədən geri çəkilməsi, 1806–1807 ci illərin kəskin qışı və Polşa vətənpərvərlərinin müqaviməti Napoleonu Varşavada dayanmağa məcbur edir.

6.Kontinental blokadanın elan edilməsi (21 noyabr 1806-cı il)

Napoleonun Berlində, özünü artıq Avropanın hökmdarı kimi hiss edən zaman gördüyü ilk işlərindən biri, bundan sonra onun xarici siyasətinin əsasını təşkil edən Kontinental blokada ilə bağlı fərmanın elan olunması oldu. 1806-cı il noyabrın 21-də, Berlində, Napoleona tabe olan bütün ölkələrə, Britaniya adaları və ingilis müstəmləkələri ilə ancaq ticarət deyil, həmçinin, ümumiyyətlə hər hansı əlaqələri qadağan edən fərman dərc olundu. Napoleona tabe olan Avropa ərazilərində olan bütün ingilis təbəələri dərhal həbs edilməli, bütün ingilis malları müsadirə edilməli idi. Taleyran təcili olaraq bu fərmanı bütün Avropa hökumətlərinə və bütün hökmdarlara göndərmək əmri aldı.

"Bitərəf" dövlətlərin nəzərinə çatdırıldı ki, Napoleon, ona qarşı olan dostluq dərəcəsini, yalnız onların ingilislərlə apardıqları ticarətin qarşısını alacaqları səylərlə ölçəcək. İngiltərəyə hücum etmək üçün donanmasının olmaması, 1798-1799-cu illərdə Misirdə olarkən Hindistana qarşı bir yürüş təşkil edə bilməməsi və 1801-ci ildə Pavelin öldürülməsindən bir qədər əvvəl, Napoleon bütün xarici bazarları ingilis mallarının üzünə bağlayaraq İngiltərənin müqavimətini iqtisadi müharibə ilə qırmaq qərarına gəlmişdi. O dövrdə Avropa, Britaniya mallarının- həm sənaye mallarının, həm də müstəmləkə məhsullarının əsas istehlakçısı idi.

Beləliklə, qitə demək olar ki, tamamilə Napoleonun hakimiyyəti altına keçmiş olur ki, bu da Böyük Britaniyanın təcrid olunması demək idi. Napoleon Böyük Britaniyaya qarşı Avropa qitəsi boyu ticarət boykotu – "kontinental blokada siyasətini" yürütməyə başladı.

Belə ki, bu fərmana əsasən, Fransa və ondan asılı olan ölkələrin ərazisində Böyük Britaniya ilə ticarət qadağan edilirdi. Bu, həmin ölkənin Fransaya qarşı elan etdiyi dəniz blokadasına cavab olaraq sırf hərbi tədbir idi. Britaniyanın Avropa ölkələrinə böyük həcmdə ixracatını nəzərə alaraq (XVIII-XIX əsrlərin əvvəlində Böyük Britaniya sənaye inqilabının ilkin mərhələsini yaşayırdı) Napoleon ümid edirdi ki, kontinental blokada bu ölkənin iqtisadi qüdrətini sarsıdacaq və mübarizəni davam etdirmək vasitələrindən məhrum edəcək. Həmin vaxtdan etibarən, Napoleonun Avropada apardığı müharibələrin əsas məqsədlərindən biri, mümkün qədər daha çox ölkəni kontinental blokadaya qoşulmağa məcbur etmək istəyi idi.

§2. Tilzit sülhü və beynəlxalq münasibətlər

1.Prussiyanın Britaniya və Rusiya ilə münasibətləri
2.Aleksandrla Napoleonun münasibətlərində yaxınlaşma
3.Tilzitdə görüş (27 iyun 1807)
4.Pireneydə müharibə
5.Erfurtda görüş (27 sentyabr — 14 oktyabr 1807-ci il)
6.Beşinci koalisiya

1.Prussiyanın Britaniya və Rusiya ilə münasibətləri

Prussiyanın fransızlar tərəfindən işğalına baxmayaraq, müttəfiqlər müharibəni davam etdirirdilər. Müqavimət göstərən rus ordusu və Prussiya ordusunun qalıqları Polşa torpaqlarından keçərək Şərqi Prussiyaya çəkildi. Burada Napoleon Fransasının əleyhdarlarının əhval-ruhiyyəsini yüksəldən bir neçə şiddətli döyüşlər baş verdi. 28 yanvar 1807-ci ildə, Prussiya kralı III Fridrix Vilhelmin müvəqqəti sığınacaq tapdığı Memeldə Prussiya-Britaniya sülh və dostluq müqaviləsi imzalandı. Müttəfiqlər Avstriyanın münaqişənin sülh yolu ilə həllinə vasitəçilik etmək təklifindən imtina etdilər. Napoleonun onların arasında narazılıq yaratmaq cəhdi də uğursuz oldu: Prussiya kralı onunla separat sülhün şərtlərini müzakirə etməkdən imtina etdi. Əksinə, 1807-ci il aprelin 14-də, Rusiya və Prussiya müharibənin qalibiyyətlə sona çatdırılması haqqında Bartenşteyn bəyannaməsini imzaladılar.

Bəyannamədə, hər iki dövlətin müharibədə məqsədləri müəyyənləşdirildi: Reyn ittifaqının ləğvi, fransızların Almaniyadan qovulması, Rusiya, Böyük Britaniya və İsveçin təminatı altında alman dövlətlərinin federasiyasının yaradılması. Bəyannaməyə Böyük Britaniya və Avstriyanı da cəlb etmək niyyəti də ifadə olundu.

1807-ci il mayın 5-də, İngiltərənin yeni Xarici İşlər naziri C.Kanninq ölkəsinin Rusiya-Prussiya müqaviləsinə qoşulmağa hazır olduğunu elan etdi. Avstriya hökuməti öz növbəsində ehtiyatlı olmağı daha uyğun hesab edərək, anti-Fransa koalisiyasında iştirakdan imtina etdi.

2.Aleksandrla Napoleonun münasibətlərində yaxınlaşma

Bu vaxtdan etibarən, Napoleon diplomatiyasının yeni dövrü başlayır. "Qitə blokadası" qaydalarına ardıcıl, sərt şəkildə riayət edilməsi onun bütün diplomatik və hərbi fəaliyyətinin əsas məsələsinə çevrilir. Bu nizam, hələ də müharibənin təsirinə məruz qalmamış müstəqil dövlətlər arasında ilk növbədə Rusiya üzərində sınaqdan keçirildi.

Rus ordusunun 1806-cı ilin dekabrından 1807-ci ilin iyununa qədər apardığı qanlı hərbi əməliyyatlar Prussiyanı xilas edə bilmədi. Rus qoşunlarının qəhrəmancasına döyüşməsinə baxmayaraq, 1807-ci il iyunun 14-də Napoleonun Fridlandda son qələbəsi hərbi əməliyyatların taleyini həll etdi. Ondan bir neçə gün sonra atəşkəs barışığı bağlandı və Aleksandr Fridland savaşından dərhal sonra öz siyasətində kəskin dəyişiklik etmək qərarına gəldi. 1805-ci ildən sonra, rus ordusunu iki çətin müharibədə məğlub edən dəhşətli düşmən Neman sahilində dayanmışdı. Müttəfiq Prussiya, artıq hərbi qüvvə kimi mövcud deyildi.

Rusiya imperatorunun Fransa ilə sülh bağlamaq üçün ciddi səbəbləri var idi. 1806-cı ildə, Türkiyə ilə başlayan müharibə, rus ordusunun və donanmasının əhəmiyyətli qüvvələrini özünə cəlb edərək, uzun müddət davam etmək təhlükəsi yaratdı. Bu zaman, I Aleksandrın Böyük Britaniyadan hərbi və maliyyə yardımı almaq ümidləri baş tutmadı. Britaniya hökuməti qitəyə desant qüvvələri çıxardaraq Müttəfiqləri dəstəkləyəcəyini vəd etmişdi, lakin o, bu addımı ümumiyyətlə atmadı. Maliyyə dəstəyinə gəlincə, bütün 1806-cı ildə Rusiya vəd edilmiş 800 min funt sterlinq əvəzinə cəmi 300 min funt sterlinq aldı. Böyük Britaniya qalan vəsaiti yalnız o şərtlə ödəyəcəkdi ki, Rusiya öz fəaliyyət azadlığını məhdudlaşdıran bir sıra əlavə öhdəliklər götürsün. Lakin, Rusiya hökuməti bu təzyiqlərə boyun əymədi.

Ona görə də, çar çox qəzəblənmişdi. Çünki, Britaniya hökuməti Napoleona qarşı mübarizədə Aleksandra böyük dəstək verəcəyini vəd etməsinə baxmayaraq, çıxılmaz vəziyyətə düşən Rusiyaya heç bir köməklik göstərməmişdi. "Bəzən elə bir vəziyyət yaranır ki, özümüzü necə xilas edəcəyimiz barədə düşünməyə məcbur oluruq" deyən Aleksandr, Fridlanddan dərhal sonra, knyaz Lobanov-Rostovskini sülh təklifi ilə Napoleonun yanına göndərdi.

3.Tilzitdə görüş (27 iyun 1807)

27 iyun 1807-ci ildə, Aleksandr Napoleonla Tilzit yaxınlığındakı Neman çayının ortasına bərkidilmiş salda görüş keçirdilər. İlk görüşdə Napoleonun: "Hökmdar, biz sizinlə niyə müharibə edirik?" sualına Aleksandr cavab verməyə tələsdi: “Mən də ingilislərə sizin qədər nifrət edirəm və onlara qarşı etdiyiniz hər bir işdə mən siz əlahəzrətin köməkçisi olacağam”. "Əgər elədirsə, onda sülh bağlandı" Napoleon demişdi. Bununla Tilzit sülh danışıqları başlandı. Bütün məsələlər ümumi mənada iki imperator arasında üzbəüz şəkildə müzakirə olunurdu. Bu uzun söhbətlərə heç kim buraxılmadı. Napoleon bu münasibətlə dedi: "Mən sizin katibiniz olacağam, siz də mənim". Təbii ki, Napoleonun əsas məqsədi təkcə sülh deyil, həm də Aleksandrla ittifaq bağlamaq idi. Bu birlik bağlandı. Kontinental blokadaya qoşulmaq müqabilində, I Aleksandr İsveç və Osmanlı İmperiyasına qarşı gələcək müharibələrdə Napoleonun dəstəyini almaq üçün şifahi öhdəlik əldə etdi.

Əlbəttə ki, Napoleon, Aleksandrdan daha çox qazandı. Amma o, qalib idi və bu bərabərsizlik tamamilə təbii idi. Aleksandrın öhdəsinə götürdüyü öhdəliklər:

1) Kontinental blokada haqqında Napoleonun fərmanının Rusiya imperiyasına şamil edilməsi;

2) İngiltərəyə müharibə elan etmək;

3)Napoleonun Qərbi Avropada etdiyi və ya gələcəkdə edəcəyi bütün dəyişiklikləri tanımaq.

Bu əsas öhdəliklərin müqabilində I Aleksandr Napoleondan fransız qoşunlarını Prussiya ərazisindən bir müddət sonra çıxarmaq və Türkiyənin bölüşdürülməsi halında çara daha böyük pay vermək barədə “vəd” aldı. Prussiya ilə Rusiyanı birdəfəlik ayırmaq və düşmən etmək məqsədilə, Napoleon Aleksandra, Vislaya qədər olan Prussiya mülklərinin Rusiya imperiyasına birləşdirilməsini təklif etdi. Aleksandr bu təklifdən imtina etdi. Lakin buna baxmayaraq, Rusiya, Tilzitdən əvvəl Prussiyanın "müttəfiqi" sayılsa da, Napoleon tərəfindən ona təklif edilən Belostok şəhərini ətraf ərazisi ilə birlikdə ondan almağa razı oldu. Müqavilə 1807-ci il iyulun 8-də imzalandı. Həmin gün Prussiya ilə də sülh bağlandı. Prussiya əhalinin sayına görə iki dəfə azaldı (10 milyondan, 5-milyondan bir az çox qaldı), ərazi baxımından da demək olar ki, iki dəfə azaldı. Təbii ki, Prussiya da Kontinental blokada qaydalarına əməl etməyi öhdəsinə götürdü. Bundan əlavə, o, 1793 və 1795-ci illərdə Polşanın bölünməsi nəticəsində ələ keçirdiyi Polşa torpaqlarını itirdi. Bu ərazilərdə, Fransa ilə dostluq münasibətlərində olan, Varşava Böyük hersoqluğu yaradıldı.

Bu vaxtdan sonra, İngiltərəni blokada ilə məhv etməyi qarşısına məqsəd qoyan Napoleonun diplomatiya üsulları qeyri-adi şəkildə sadələşir. Napoleon Tilzitdən sonra qardaşı Lüsyenə "Mən hər bir məsələni həll edə bilərəm" demişdi. Birbaşa və

ya dolayı yolla, şəxsən və ya asılı ölkələrin taxtlarına oturan qardaşları, marşalları və generalları vasitəsilə hökmranlıq edən, Avstriya İmperatorunu və Prussiya Kralını vassala çevirən Napoleon artıq I Aleksandrdan başqa heç kimlə danışıqlar aparmırdı. Qalan hökmdarlara əmr edir və əgər itaətsizlik baş verərdisə, onlara qarşı müharibəyə gedirdi. Lakin, Tilzit sülh müqaviləsindən bir neçə ay sonra, Çar ilə də aralarında narazılıq başlandı.

Napoleon Aleksandra, İsveçdən bütün Finlandiyanı Torneo çayına qədər almaq üçün azad hərəkət hüququ verdi. Lakin Finlandiyanın alınması, İngiltərə ilə ticarət əlaqələrinin kəsilməsi ilə Rusiya maliyyəsinin və Rusiya ixrac ticarətinin yaşadığı ağır nəticələrini çox cüzi şəkildə qarşılayırdı. Zadəganlar və iri rus tacirləri qitə blokadasının Rusiyanı məhv etdiyinə əmin olaraq, Fransa ilə ittifaqa nifrətlə yanaşırdılar. Rusiya, 1807-ci ildə, onun sərhədlərində qondarma Varşava hersoqluğunun yaranmasının yaratdığı daimi təhlükədən xüsusilə çox narahat idi.

Əlbəttə ki, İstanbulun və boğazların işğalı və ya heç olmasa Moldaviya və Valaxiyanın daimi olaraq zəbt edilməsi, rusların milli qürurunu zərbə vuran Tilzit sülhünün acı xatirəsini əvəz edə bilərdi. Amma məhz Türkiyəyə münasibətdə Napoleon Tilzit vədlərini yerinə yetirməkdən qətiyyətlə yayındı. Aleksandr 1806-cı ildən Türkiyə ilə müharibə aparırdı. Bu uzun sürən Rusiya-Türkiyə müharibəsində türklər Parisdən gizli və dolayı şəkildə müəyyən yardımlar alırdılar. Rus diplomatları bu məsələni Taleyranın nəzərinə çatdıraraq, bildirdilər ki, Tilzitdə çar və Napoleon Türkiyə haqqında danışanda, çar Napoleondan tamam başqa vədlər almışdır. Taleyran cavab vermişdi ki, axı diplomatiya musiqi ilə eynidir: öhdəliklər notlar kimi kağızda qeyd olunmayıbsa, onun heç bir əsası yoxdur. Başqa sözlə, Aleksandrın nəzərinə çatdırıldı ki, Napoleon verdiyi vədləri müqavilədə qeyd etməyərək, onu aldatmışdır.

4.Pireneydə müharibə

Avropanın şərqində xarici siyasətində öz məqsədlərinə çatan Napoleon əsas zərbəni Avropanın əks tərəfinə keçirdi. 1807-ci ildə, Portuqaliyaya ultimatum verərək, onun qitə blokadasına qoşulmasını tələb etdi. Ultimatum rədd edildikdə, oktyabrın 27-də Napoleon və İspaniya arasında Portuqaliyanı fəth etmək və bölmək üçün gizli müqavilə bağladı. Fransa ordusu bu ölkəyə hücum etdi. Napoleon Jyunonun 25 minlik korpusunu Lissabona göndərdi. İspaniya ərazisindən keçən iki aylıq yorucu yürüşdən sonra Jyuno noyabrın 30-da 2000 əsgərlə Lissabona gəlib çatdı. Portuqaliya şahzadəsi-varis Juan, fransızların yaxınlaşmasından xəbər tutaraq paytaxtını tərk etdi. O, qohumları və sarayı ilə birlikdə Rio-de-Janeyroya qaçdı. Kral ailəsinin və Portuqaliya gəmilərinin onun əlindən çıxmasına qəzəblənən Napoleon

dekabrın 28-də Portuqaliyaya 100 milyon frank məbləğində təzminat təyin edilməsini əmr etdi.

Uzunmüddətli müharibə başladı, bu müddət ərzində İngiltərə qoşunları portuqallara köməyə gəldi.

1808-ci ildə müharibə bütün Pireney yarımadasını bürüdü. 13 mart 1808-ci ildə 100 min əsgərlə Burqosda olan Myurat Madridə doğru hərəkət etdi. 1807-ci il martın 18-də Aranxuesdə "fernandistlər" tərəfindən həyata keçirilən qiyam nəticəsində, IV Karl öz oğlu VII Ferdinandın nəfinə taxtdan əl çəkdi. Martın 23-də Myurat Madridə gəldi. 1808-ci ilin mayında Napoleon hər iki ispan kralını - ata və oğlunu izahat üçün Bayonnaya çağırdı. Onsuz da fransapərəst siyasət yürüdən hər iki monarx, Napoleon tərəfindən ələ keçirildikdən sonra, taxt- tacdan imtina etməyə məcbur edildi. İmperator, İspaniya taxtına əvvəl Neapol kralı olan qardaşı Jozef Bonapartı oturtdu. Bacısının əri Myurat isə Neapol kralı oldu.

Bu hərəkətə cavab olaraq ispanlar üsyan etdilər. Sevilyada üsyançı yerli hökumət (xunta) yarandı və o, Britaniya hökumətinin dəstəyi ilə devrilmiş kral VII Ferdinandın adından Fransaya müharibə elan etdi. Demək olar ki, 200 minlik ordunun başında İspaniyaya daxil olan Napoleon üsyanın əsas mərkəzlərini yatıra bilsə də, ispanların azadlıq mübarizəsi dayanmadı. Bu mübarizə, hərbi əməliyyatların yeni formasına, yəni, xalq - partizan müharibəsi formasına keçdi. İyulun 22-də Düpon 18.000 əsgəri ilə Baylen yaxınlığında gedən döyüşdə ispanlara təslim oldu və əvvəllər yenilməz olan Böyük ordunun nüfuzuna ciddi zərbə vurdu. Böyük Britaniya İspaniyaya böyük dəstək verirdi. A.Uelslinin (gələcək hersoq Vellinqton) komandanlığı ilə ingilis qoşunları yerli hakimiyyət orqanlarının və əhalinin dəstəyi ilə Pireney yarımadasına gəldi. Onlar, Vimeyrada məğlubiyyətə uğrayan Jyunonu ölkəni tərk etməyə məcbur etdilər. Oktyabrın 29-da Napoleon Almaniyadan gələn 160 minlik ordunun başında İspaniyaya yürüşə çıxdı. Dekabrın 4-də fransız qoşunları Madridə daxil oldular. Yanvarın 16-da ingilislər La Coruna yaxınlığında Sultun hücumunu dəf edərək, öz gəmilərinə minərək İspaniyanı tərk etdilər. 1809-cu il yanvarın 1-də Astorqada, Napoleon Avstriyanın hərbi hazırlıqları haqqında məlumatlar aldı. Yanvarın 17-də o, Valyadoliddən Parisə qayıtdı. Əldə olunan uğurlara baxmayaraq, Pireneyin fəthi tamamlanmadı: ispanlar partizan müharibəsini davam etdirdilər, ingilis kontingenti Lissabonu mühasirəyə aldı, üç ay sonra Uelslinin komandanlığı altında ingilis qoşunları yenidən yarımadanın sahillərinə çıxdılar. Fransız qoşunlarının böyük məğlubiyyətləri Napoleonun yenilməz komandan olması şöhrətini sarsıtdı.

5.Erfurtda görüş (27 sentyabr — 14 oktyabr 1807-ci il)

Belə bir şəraitdə Napoleonun Rusiya ilə yaxşı münasibətlərə ehtiyacı həmişəkindən çox idi. O, rus-fransız ittifaqının gücünü bütün Avropa dövlətlərinə, xüsusən də fransızların İspaniyada olan çətinliklərini görən və 1805-ci il məğlubiyyətinin qisasını almaq arzusunda olan Avstriya imperatoruna nümayiş etdirmək istəyirdi.

1808-ci ilin yayında, Napoleon Aleksandrı şəxsi görüşə dəvət etdi. Çar niyə çağırıldığını bildiyi üçün tələsmirdi. Görüş 1808-ci il sentyabrın 27-də Erfurt şəhərində baş tutdu və təxminən iki həftə davam etdi.

Rus İmperatorunun da Napoleon ilə görüşü ilə bağlı öz düşüncələri var idi. Aleksandr, Napoleondan Finlandiya və Dunay knyazlıqlarının Rusiyaya birləşdirilməsinə rəsmi razılıq almaq istəyirdi. İki imperatorun görüşündən əvvəl, Sankt-Peterburqda Rusiyanın Xarici İşlər naziri N.P.Rumyantsev Fransa səfiri A.Kolenkurla danışıqlar apardı. Dunay knyazlıqlarının Rusiyaya birləşdirilməsi müqabilində fransız səfiri Fransanın Balkan yarımadasının qərb hissəsinə hüquqlarının tanınmasını tələb etdi. Kolenkur hətta Dardanelin fransızlara keçməsi şərti ilə, Bosforun Rusiyaya verilməsini təklif etdi. Ancaq, bütün bu təkliflər, eləcə də Hindistan yürüşünün yenidən bərpa edilməsi planı, artıq Rusiya hökumətini maraqlandırmırdı. Bu layihələrdə Fransanın şabalıdları başqasının əlləri ilə oddan çıxarmaq istəyi açıq şəkildə görünürdü.

İmperatorların görüşü 1808-ci ilin payızında Erfurtda baş tutdu. Buraya, Fransaya tabe olan dövlətlərin çoxsaylı hökmdarları, o cümlədən Avropanın ən qədim sülalələrinin nümayəndələri də dəvət olunmuşdu. 1808-ci il sentyabrın 30-da (12 oktyabr) Tilzitdə bağlanmış ittifaqı təsdiq edən və yeniləyən bəyannamə imzalandı. Fransa, Rusiyanın Finlandiya və Dunay knyazlıqlarına olan hüquqlarını tanıdı.

Düzdür, Napoleon Fransa ilə Avstriya arasında yeni müharibə başlayacağı təqdirdə I Aleksandrın dəstəyini almaq istəyirdi. Beləliklə, o, ordusunun əsas qüvvələrinin İspaniyada döyüşdüyü zaman arxa cəbhəsini gücləndirməyə ümid edirdi. Lakin, Rusiya İmperatoru bununla bağlı hər hansı konkret öhdəlik götürməkdən qəti şəkildə imtina etdi. Buna görə də Erfurt bəyannaməsinin müvafiq maddəsi ümumi mənada ifadə edildi.

Erfurta gedərkən Napoleon səhv bir addım atdı, lakin onun nəticələri xeyli sonra üzə çıxdı. Olduqca gözlənilmədən o, Tilzitdən sonra artıq rəsmi olaraq istefaya çıxan knyaz Taleyranı özü ilə Erfurta apardı. Lakin, Taleyran bir müddət əvvəldən belə qənaətə gəlmişdi ki, kontinental blokada qaçılmaz olaraq Rusiya ilə müharibəyə və bütün Avropanın ümumi üsyanına aparıb çıxaracaq.

Erfurtda Taleyran, ilk dəfə olaraq, Napoleona xəyanət edərək, Aleksandr ilə gizli əlaqələrə girdi. Məhz Erfurtda, Tilzit müqaviləsinin imzalanmasından sonra təqaüdə çıxan, lakin Napoleon tərəfindən hökumətdə xarici siyasət üzrə müşavir kimi saxlanılan Taleyran I Aleksandra gizli informator kimi öz xidmətlərini təklif edərək, demişdi: "Siz Avropanı xilas etməlisiniz. Və yalnız Napoleona müqavimət göstərsəniz uğur qazanacaqsınız. Fransız xalqı mədənidir, lakin fransız hökmdarı mədəni deyil. Rus hökmdarı mədənidir, rus xalqı isə mədəni deyil. Deməli, yalnız, rus hökmdarı fransız xalqının müttəfiqi olmalıdır". Heç nədən şübhələnməyən Napoleon Taleyrana öz gələcək planlarını və niyyətlərini bölüşməkdə davam edirdi. O isə, bütün bunları I Aleksandra çatdırırdı.

Taleyranın məsləhətinə qulaq asan Aleksandr, Fransa ilə Avstriya arasında qarşıdan gələn müharibədə Rusiyanın Napoleonun tərəfində iştirakını təmin edən müqaviləni imzalamadı. Hər iki imperator arasında mövcud olan isti dostluğun zahiri nümayişləri Napoleonu aldatmadı: o, rus çarı ilə möhtəşəm şənliklərdən, hərbi nümayişdən, kütlə qarşısında qucaqlaşmalardan və öpüşlərdən sonra Erfurtdan tutqun ayrıldı. Yalnız bir neçə aydan sonra (1809-cu il yanvarın sonunda) o, Taleyranın xəyanətkar hərəkətlərindən şübhələnməyə başladı və onu tamamilə özündən uzaqlaşdırdı. Lakin, əlində heç bir dəlil olmadığına görə, onu cəzalandıra bilmədi.

6.Beşinci koalisiya

Avstriya, fransızların Pireney yarımadasında olan uğursuzluqlarından istifadə edərək Böyük Britaniya ilə birlikdə Fransa əleyhinə yeni koalisiya yaratmaq qərarına gəldi. 1809-cu ilin aprelində, Avstriya qoşunları Napoleon Fransasının müttəfiqlərindən biri olan Bavariya ərazisinə hücum etdilər. Lakin, Napoleonun özünün komandanlıq etdiyi fransız ordusu Bavariyaya gələrək, avstriyalıları geri çəkilməyə məcbur etdi. May ayında fransız qoşunları Vyananı işğal etsə də, müharibə davam edirdi. Avstriyalılar hətta Dunay çayının sağ sahilinə keçməyə cəhd edərkən fransızları ciddi məğlubiyyətə uğratdılar. Bu hadisə, Napoleonu əlavə qüvvələrun köməyə gəlməsini gözləmək üçün, müdafiəyə keçməyə vadar etdi.

Fransızların məğlubiyyət xəbəri müttəfiqləri ruhlandırdı. İspaniyada fəaliyyət göstərən hərbi qüvvələri ilə yanaşı, İngiltərə hökuməti Niderlanda 40.000 nəfərlik desant dəstəsi göndərdi. Lakin Napoleon, yeni qüvvələr cəlb edərək, 5-6 iyulda Vaqramda baş verən həlledici döyüşdə avstriyalıları məğlub etdi. Bir neçə gündən sonra, onlar, barışıq xahişi ilə Napoleona müraciət etdilər. 1809-cu il oktyabrın 14-də, Şenbrun qəsrində sülh müqaviləsi imzalandı. Bu müqaviləyə əsasən, Avstriya bir sıra ərazilərini, o cümlədən Adriatik dənizinə çıxışını itirdi, ordusunu ixtisar etdi, böyük məbləğdə təzminat verdi və kontinental blokadaya qoşuldu.

Napoleon bərabərhüquqlu qanuni hökmdarlar dairəsinə daxil olmaq ümidi ilə hərbi və siyasi qələbələrini nikah vasitəsi ilə möhkəmləndirmək qərarına gəldi. 1796-cı ildə Napoleon Direktoriya dövrünün Paris gözəllərindən biri olan Jozefina Boqarne ilə evlənmişdi. Jozefinanın, 1794-cü ildə edam edilən general Boqarne ilə ilk evliliyindən onun Yevgeni adlı oğlu və Qortenziya adlı bir qızı var idi. Napoleon onları öz övladları kimi himayə edirdi. 1804-cü ildə Napoleonla eyni vaxtda Jozefina da imperatriça tacını aldı. Onların evliliyindən öz övladı olmadığına görə, Napoleonun 1809-cu ildə Jozefinadan ayrılaraq, yeni həyat yoldaşı axtarmağa başladı. Əvvəlcə, imperator I Aleksandrın bacısı Böyük knyaginya Anna Pavlovnaya elçi düşdü. Nəzakətli, lakin qəti formada rədd cavabı alan Napoleon Avstriya Habsburqları ilə qohum olmaq qərarına gəldi.

Avstriyanın Xarici İşlər naziri Klement fon Metternix faktiki olaraq Avropanın Fransa və Rusiya arasında təsir dairələrinə bölünməsini nəzərdə tutan və bununla da Avstriyanın maraqlarını toxunan "Tilzit sistemi"nin əleyhinə idi. O, belə bir evliliyin siyasi faydalarını dərhal qiymətləndirdi: bu, onun hökmdarına Avropanın ağası ilə xüsusilə yaxın, etibarlı münasibətlər qurmağa və Rusiyanı arxa plana keçirməyə imkan verəcək idi. Təbii ki, o, "qəsbkar"la evlilik ittifaqının Habsburqların şərəfinə ləkə gətirəcəyinin fərqində idi. Lakin, Metternix bir diplomat kimi, bu addımı məcburi evlilik kimi təqdim etdi.

6 yanvar 1810-cu ildə, Napoleon rəsmi olaraq Avstriya şahzadəsi Mariya-Luizaya evlənmək təklifi etdi və heç bir çətinlik olmadan Avstriya Habsburqlarından razılıq aldı. Martın sonunda şahzadə fransız torpağına ayaq basdı. Artıq aprelin 1-də, imperator iqamətgahlarından biri olan, Sen-Klu qəsrində vətəndaş nikahı bağlandı (1804-cü ildə qəbul edilmiş Napoleon Məcəlləsinə görə məcburi idi) və ertəsi gün Luvrda kilsə nikahı icra edildi. Bu evlilikdə xüsusi əhəmiyyət kəsb edən məsələ, Fransız İmperatorunun inqilab zamanı edam edilən kral XVI Lüdovik ailəsi ilə qohum olması idi: onun həyat yoldaşı Mariya Antuanetta Mariya Luizanın babası İmperator II Leopoldun bacısı idi. Bununla, Napoleon Fransa taxtında oturmaq üçün hüquqi legitimlik əldə etmiş oldu. Yeni evliliyindən Napoleonun bir oğlu oldu. O, Bonapartist dairələrdə II Napoleon kimi tanınırdı. Lakin, o, heç vaxt imperator taxtına sahib olmayıb.

§3. Napoleonun "ailə" və "kontinental" sistemləri

1."Qardaş" monarxiyalar

2.Protektoratlar

3.Müttəfiqlər

4."Böyük İmperiya"

Napoleon Avropada Fransa hökmranlığının kifayət qədər nizamlı sistemini qurdu. Onun əsasını, Fransanın artan əzəməti təşkil edirdi. Çünki, Fransa, çoxsaylı ilhaqlar sayəsində ərazisinə, əhalisinə və iqtisadi potensialına görə Qərbi Avropanın ən böyük dövlətinə çevrilmişdi. Bu da, Fransanın digər ölkələrlə açıq şəkildə qeyri-bərabər xarakter daşıyan münasibətlərini müəyyənləşdirirdi.

1."Qardaş" monarxiyalar

Hələ 1790-cı illərin sonlarında, Fransanın sərhədləri boyunca asılı dövlətlər yaradıldı - Bataviya, Helvetiya, Sizalp, Liquriya, Roma, Partenopeya (müvafiq olaraq Hollandiya, İsveçrə, Lombardiya, Genuya Respublikası, Papa bölgəsini və İki Siciliya Krallığının materik hissəsini əhatə edirdi). Sizalp Respublikası və Venesiya daxil olmaqla Şimali İtaliyanın bəzi digər əraziləri Napoleon tərəfindən 1802-ci ildə İtaliya Respublikasına verildi.

1804-cü ildə Napoleon Bonapart özünü imperator, Fransanı isə irsi monarxiya elan etdikdən sonra qohum respublikalarda da idarəetmə formasını dəyişərək, onları öz yaxın qohumlarının nəzarəti altına verdi. Lui Bonapart Hollandiya kralı, Jerom Bonapart Vestfal kralı, Jozef Bonapart əvvəlcə Neapol, sonra isə İspaniya kralı təyin edildi; onun yerinə Neapol kralı Napoleonun bacısı ilə evlənmiş Myurat oldu. Napoleonun özü imperator tacını saxlamaqla, özünə İtaliya kralı titulunu götürdü, lakin əslində, İtaliya krallığını İtaliyanın vitse-kralı titulunu alan Napoleonun ögey oğlu Yevgeni idarə edirdi.

O, Avstriya şahzadəsi Mariya-Luiza ilə evliliyindən olan oğluna Roma kralı titulunu verdi. Bu "qardaş" monarxiyalar təkcə Napoleon Fransasının ən yaxın və etibarlı müttəfiqləri deyil, həm də tamamilə ondan asılı dövlətlər idi. İmperator Napoleon öz mülahizəsinə görə onların monarxlarını yerini və dövlət sərhədlərini dəyişdirə bilərdi. Fransa və ondan asılı dövlətlər arasında "ailə sistemi" adlanan münasibətlər yaranmışdı.

2.Protektoratlar

Protektoratlar Napoleonun Avropada qurduğu münasibətlər sistemində ikinci sırada dururdu. 1803-cü ilin fevralında, Napoleonun təzyiqi ilə Reqensburq Reyxstaqında imperiyanın xüsusi nümayəndə heyəti Maynts istisna olmaqla, bütün kilsə (ən yüksək ruhanilərə məxsus) knyazlıqlarının ləğvi haqqında qərar qəbul etdi. Əhalisinin ümumi sayı 3 milyona çatan 112 kiçik dövlət ləğv edildi. Onlar daha böyük qonşulara birləşdirildi. Ən böyük ərazi artımları Napoleondan asılı olan dövlətlərə - 1805-ci ilin dekabrında Austerlits döyüşündən sonra krallıq elan edilmiş Baden, Bavariya, Vürtemberq və Saksoniyaya verildi.

1806-cı il iyulun 12-də, Almaniyanın qərbində Napoleonun protektoratı altında paytaxtı Frankfurt-Mayndə olmaqla Reyn İttifaqı yaradıldı. Maynts arxiyepiskopu Dalberq ona knyaz -primas kimi rəhbərlik edirdi. İlk vaxtlar, bu konfederal birləşmə 16, lakin 1811-ci ildə - artıq 36 Alman dövlətini (Vestfal krallığı, Baden, Vürtemberq, Bavariya və s.) birləşdirirdi. Napoleon daxili və xarici siyasətə qarışmaq hüququ ilə özünü bu ittifaqın protektoru təyin etdi. Fransanın hüquqları və Reyn İttifaqının öhdəlikləri xüsusi müqavilə ilə müəyyənləşdirildi.

Napoleonun digər böyük protektoratı 1807-ci ildə yaradılmış Varşava Böyük Hersoqluğu idi.

Hersoqluğun Konstitusiyası Napoleon tərəfindən 1807-ci il iyulun 22-də Drezdendə təsdiq edilmişdir. Saksoniya kralı I Fridrix Avqust hersoq təyin olunmuşdur. Konstitusiyada həmçinin hökumət, Dövlət Şurası, Deputatlar Palatası və Senatdan olan iki palatalı parlament və əlavə olaraq müstəqil məhkəmələr də təsbit edilmişdi. Polşa və polyak sözlərinin siyasi mənada istifadəsinə icazə verilmirdi.

1808-ci il mayın 1-də ölkədə Napoleon məcəlləsi tətbiq olundu, bununla əlaqədar bir ifadə meydana çıxdı: "Varşava knyazlığı, Saksoniya kralı, Polşa ordusu, Prussiya sikkəsi, Fransız qanunu."

Onun Avropanın siyasi xəritəsində görünməsi, şübhəsiz ki, polyakların milli tələblərinə bir güzəşt idi. Polyaklar, Polşanın Habsburq monarxiyası, Prussiya və Rusiyanın 1795-ci ildə birgə həyata keçirdiyi üçüncü bölgüsü nəticəsində, ölkələrinin dövlətçiliyini itirmələri ilə barışmaq istəmirdilər. O zamandan, polyaklar Polşa dövlətinin bərpası uğrunda mübarizədə, xüsusi ilə də fransız inqilabçılarının məzlum xalqlara öz yardımlarını vəd etdikdən sonra, Fransanın dəstəyinə ümid bəsləyirdilər.

On minlərlə polyak vətənpərvərləri Fransa ordusunun sıralarında "mürtəce" monarxiyalara qarşı vuruşurdular. Lakin, Varşava Böyük Hersoqluğu tarixi Polşa torpaqlarının yalnız bir hissəsindən, yəni Prussiyaya və Habsburq monarxiyasına

verilmiş torpaqlardan ibarət idi. Napoleon 1807-ci ildən Rusiya ilə müttəfiqlik münasibətində olduğu üçün, ona məxsus torpaqlara qəsd etmək istəmədi. Özünü Varşava Hersoqluğunun protektoru elan edən Napoleon, onu idarə etmək vəzifəsini müttəfiqi Sakson kralı Fridrix-Avqusta həvalə etdi.

Onlardan başqa, Helvetiya törəmə respublikasının çevrildiyi İsveçrə İttifaqı da, Napoleon protektoratı idi.

3.Müttəfiqlər

Nəhayət, asılı dövlətlərlə münasibətlərin bütün bu sistemi üzərində Fransaya müttəfiq olan dövlətlərin üst düzəni də yüksəlirdi. Onlar nominal olaraq sərbəst və müstəqil idilər. Lakin bununla belə, Napoleonun hərbi, iqtisadi, strateji maraqlarına əsasən, onlar məcburən imzaladıqları müqavilələrlə Fransaya bağlı idilər. Bir qayda olaraq, onlar Fransa ilə məlum məsafələrdə yerləşən Avropanın böyük dövlətləri idi. Bu və ya digər səbəbdən Napoleon onları ilhaq etmədi, qohumlarının (İspaniya kimi) nəzarəti altına vermədi və öz protektoratına da çevirmədi. O, 1807-ci ildə Tilzitdə Rusiyanı ittifaq müqaviləsi bağlamağa vadar etdi, 1809-cu ildə Avstriya İmperiyası ilə, 1810-cu ildə İsveçlə, bundan başqa müxtəlif illərdə Prussiya, Danimarka, Saksoniya və digər dövlətlərlə müttəfiqlik müqavilələri bağladı.

4."Böyük İmperiya"

Napoleonun işğalçılıq müharibələri nəticəsində Avropanın siyasi xəritəsi kəskin şəkildə dəyişdi. Fransa görünməmiş bir ərazi genişlənməsinə nail oldu. Onun tərkibinə Reynin sol sahilindən başqa, Hamburq daxil olmaqla Şimal dənizinin sahilləri, İtaliyanın şimal və mərkəzi bölgələri, hətta Balkan yarımadasının bir hissəsi (İlliriya əyalətləri), Pireney yarımadasında yerləşən Kataloniya da daxil olmuşdu (Napoleonun imperiyasının dağılmasına qədər Fransaya qoşulmasını rəsmiləşdirməyə vaxtı çatmamışdı). Lakin ərazi dəyişiklikləri Avropanın digər böyük dövlətlərinə də təsir etdi.

Alman xalqının Müqəddəs Roma İmperiyası siyasi xəritədən yox oldu. Reyn ittifaqının ərazisində onun qurumları ləğv edildi. Ona görə də, Müqəddəs Roma İmperiyasının imperatorunun hakimiyyəti Dunayın orta axarında Habsburqların irsi mülklərinin ölçüsünə qədər azaldı (Prussiya kralı daha əvvəl, XVIII əsrin ortalarından "Alman-Roma" imperatorunun itaətindən çıxmışdı). Habsburqlar bu mülklər üçün dərhal yeni bir titul tapdılar. Onlar, 1804-cü ildə Avstriya imperatoru titulunu qəbul etdilər.

İtaliyanın siyasi xəritəsi də dəyişikliklərə məruz qaldı, oradan bir neçə kiçik dövlət yox oldu. Ən əsası isə, bir neçə əsrdən sonra ilk dəfə olaraq bu ərazi üzərində "İtaliya" adı peyda oldu. Düzdür, o, rəsmi olaraq İtaliya torpaqlarının yalnız kiçik

bir hissəsinə şamil edilirdi. Lakin, bu yeniliyin İtaliya xalqının tarixində rəmzi əhəmiyyəti çox böyük idi.

Beləliklə, Napoleonun sayəsində avstriyalılar istər-istəməz xüsusi bir Avropa xalqı kimi öz müqəddəratını təyin etdilər, almanlar və italyanlar isə milli dövlətlərin müəyyən prototipini (müvafiq olaraq Reyn İttifaqı və İtaliya Krallığı) əldə etdilər.

Mərkəzi Avropada Fransanın hökmranlığından daha çox Prussiya və Avstriya zərər çəkdi. Napoleon, Prussiyanı yalnız I Aleksandrın təkidi ilə müstəqil dövlət kimi saxladı. 1807-ci ildə Tilzit müqaviləsinə əsasən o, Vestfal krallığına verilən qərb əyalətlərini və Polşanın ikinci və üçüncü bölünməsi zamanı ələ keçirdiyi əraziləri itirdi. Prussiyaya böyük məbləğdə təzminat təyin edildi, ölkə Fransız qoşunları tərəfindən işğal edildi. Bir vaxtlar Avropanın ən güclü bir hərbi qüvvəsi olan Prussiya ordusunun ölçüsü ciddi şəkildə məhdudlaşdırıldı: 42 mindən çox əsgər saxlaya bilməzdi. Avstriya da, xüsusilə İtaliya və Balkanlarda ərazilərinin əhəmiyyətli hissəsini itirdi. Belə ki, bu ırazilər, Napoleon tərəfindən ilhaq edilmiş və ya qonşu dövlətlərə verilmişdi.

Napoleonun hakimiyyəti dövründə Avropada aparılan bir çox ərazi dəyişiklikləri müvəqqəti oldu və onun imperiyasının dağılmasından sonra bu ərazilər geri qaytarıldı. Napoleon müharibələrinin sosial və daxili siyasi nəticələri daha davamlı oldu. Fransaya tabe olan ölkələrdə - həm ilhaq edilmiş ərazilərdə, həm də "ailə sistemi" dövlətlərində fransız modeli üzrə islahatlar və dəyişikliklər aparıldı ki, bu da orta əsrlərin bir çox qalıqlarına son qoymağa kömək etdi.

Avropanın mütləqiyyətçi dövlətlərində Napoleonla müharibələrdə onların məğlubiyyətləri tez-tez sosial sistemin liberallaşdırılması üçün islahatlara təkan verirdi, məsələn, İspaniyada, Fransa işğalçılarına qarşı baş verən xalq üsyanları və ya Prussiyanın mövcudluğunun təhlükə altına alınması. Ümumiyyətlə, müəyyən bir qanunauyğunluğu müşahidə etmək olurdu: hansısa ölkənin Fransadan asılılığı nə qədər az və aralarındakı məsafə nə qədər çox olardısa, onlarda bir o qədər də islahatçılıq ruhu zəif olurdu. Varşava hersoqluğu Napoleonun protektoratı olsa da, islahatların keçirilməsinin dərinliyi baxımından Prussiyanın islahatlarından nəzərəçarpacaq dərəcədə aşağı səviyyədə idi.

Napoleonun müxtəlif səbəblərdən təmkinlə yanaşdığı Avstriya və Rusiya islahatlardan tamamilə qaça bildilər. Napoleon imperiyasının məğlubiyyətindən, fransızların fəth etdikləri ölkələrdən qovulmasından sonra müharibə zamanı aparılan islahatların əksəriyyəti fransızların diktəsi ilə olsa da, onları heç kim ləğv etməyə cəhd etmədi. Xalqlar öz təcrübələri ilə bu dəyişikliklərin məqsədə uyğunluğuna əmin oldular, yeni şəraitdə yaşadıqları həyata öyrəşərək, köhnəyə qayıtmaq istəmədilər.

§4.Anti-Fransa koalisiyasının məqsədləri
1.Hücumdan müdafiəyə
2.Müdafiədən qurtuluş uğrunda mübarizəyə
3.Avropa dövlətlərinin xüsusi maraqları

1.Hücumdan müdafiəyə

1792-1793-cü illərdə, Avropa monarxları cəmiyyətlərinin əsaslarını təhdid edən inqilabı yatırtmaq, monarxiyanı bərpa etmək və taxt-tacı Burbonlara qaytarmaq üçün Fransa ilə müharibəyə başladılar. Bu hədəflər, müharibəyə başlamalarının rəsmən elan edilmiş əsas məqsədləri idi. Təbii ki, bundan əlavə, monarxların gizli planları da var idi. Onlar uzun müddət ərzində, Almaniya və İtaliya torpaqlarında nüfuz əldə etmək, dənizlərdə və müstəmləkələrdə üstünlük qazanmaq üçün Fransa ilə rəqabət aparırdılar. Ona görə də, bu fürsətdən istifadə edərək onun hərbi və dəniz qüdrətini zəiflətməyə, Avropada və dünyada olan nüfuzunu sarsıtmağa çalışırdılar.

Lakin, beynəlxalq vəziyyət dəyişdikcə anti-Fransa koalisiyasına daxil olan ölkələr öz xarici siyasət məqsədlərinə yenidən baxmaq məcburiyyətində qaldılar. Fransa, ümidlərinin əksinə olaraq, müdaxiləçilərin hücumlarını dəf edə bildi və bu, onların inqilabdan əvvəlki nizamın bərpa etmək planlarını puç etdi. Onun hərbi qüdrətini sarsıtmağın mümkün olması ilə bağlı ümidləri də puç oldu. Fransız donanmasının əsas qüvvələri məhv edilsə də, Fransa bir müddət əsas dəniz dövlətlərindən biri kimi öz rolunu itirsə də, onun quru ordusu düşmən üzərində üstünlüyünü dəfələrlə sübut etdi. Tədricən Fransanın özü müdafiədən aktiv xarici istilaya, sonra isə Avropada hökmranlıq uğrunda mübarizəyə keçərək Avropa dövlətlərinin müstəqilliyini və ərazi bütövlüyünü təhdid etməyə başladı. Ona görə də bu dövlətlərin xarici siyasətində müdafiə vəzifələri ön plana çıxdı.

İlk növbədə öz təhlükəsizliyini qorumaq haqqında düşünən Avropa monarxları Burbonların (edam edilmiş kral XVI Lüdovikin qardaşları - Provans qrafı və qraf d'Artua, sonradan Fransa kralları olmuş XVIII Lüdovik və X Karl) taleyinə qarşı münasibətləri xeyli soyuqlaşdı. Onlar sürgündə yaşayaraq, Avropanın müxtəlif ölkələrində qalmağa məcbur oldular. Bu ölkələrdə onlara arzuolunmaz əcnəbi şəxslər kimi baxırdılar. Kondenin mühacirətdə olan ordusu da ləğv edildi. Onlar, 1798-1799-cu illərdə Rusiyada yerləşmişdilər. Burada, Mitavada (indiki Latviyada olan Yelqava) əsrin əvvəllərindən sürgün edilmiş XVIII Lüdovikin sarayı da yerləşirdi. Lakin sonradan, o, Böyük Britaniyaya köçdü.

2.Müdafiədən qurtuluş uğrunda mübarizəyə

XIX əsrin əvvəllərində, müharibənin müdafiə məqsədləri anti-Fransa koalisiyalarının iştirakçıları arasında bağlanan müttəfiqlik müqavilələri ilə müəyyən edildi. Bu sənədlərdə onlar həm respublikaya, həm də imperiyaya mənfi münasibətlərini gizlətmirdilər. Fransa üçün ən yaxşı idarəetmə formasının Burbonların monarxiyasının olduğuna əmin olduqlarını ifadə edərək, onların iradəsinə zidd olaraq, Fransada öz seçdikləri hökuməti tətbiq etməyə çalışdıqları barədə ittihamı rədd etdilər. Müttəfiqlər yalnız Fransanın işğal etdiyi ərazilərin azad edilməsi uğrunda mübarizə apardıqlarını vurğuladılar. Xüsusilə, Rusiya və Böyük Britaniya, Avropada sülhün və asayişin bərpası vəzifələrinə qarşı çıxmaması şərti ilə, Fransa xalqının seçdiyi istənilən idarəetmə formasını tanımağa hazır olduqlarını bildirdilər.

Anti-Fransa koalisiyasının üzvləri, xarici siyasətlərinin əsas məqsədinin, Avropada "Fransa hökumətinin hədsiz ambisiyası və bütün mülahizələrə uyğun olmayan nüfuzu ilə hər yeri özününküləşdirmə istəyi" ilə pozulan qüvvələr nisbətinin bərpası olduğunu elan etdilər. Onların imzaladığı müqavilələr də müharibə bəlasından bezmiş xalqların ədalət və sülh arzusunu ifadə edirdi. Xüsusilə, əvvəlki sitatın da götürüldüyü 1805-ci il Rusiya-Britaniya İttifaqı müqaviləsi, hər iki dövlətin hökumətlərinin "Avropada ədalət, qanun və beynəlxalq hüquq prinsipləri əsasında daimi və davamlı sülhü təmin etmək istəyi vurğulanırdı. " Və eyni zamanda, müharibənin sonunda "ümumi" beynəlxalq konqres çağırılması nəzərdə tutulurdu.

3.Avropa dövlətlərinin xüsusi maraqları

Təbii ki, müdafiə müharibələrinin gedişində anti-Fransa koalisiyasının iştirakçıları öz dövlətlərini, xanədanlıq və digər maraqlarını da unutmurdılar. Müharibənin rəsmi elan edilmiş, açıq məqsədlərinə əlavə olaraq, qarşıya hələlik elan edilməmiş gizli məqsədlər də qoydular. Fransanın düşmənləri beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, müharibələrin təsiri altında Avropada və dünyada baş verən dəyişikliklərdən istifadə etməyə ümid edirdilər. Onlar, Avstriyanın Rusiya ilə 1804-cü il müttəfiqlik müqaviləsində əksini tapan, müharibə nəticəsində dəymiş itkilərə və qurbanlara görə "mükafat" almaq hüququnun tanınmasını istəyirdilər.

Təbii ki, belə fürsət yaranarsa, sərhədləri öz xeyrinə dəyişdirməyin və yeni torpaqları ilhaq etməyin başqa yollarını da nəzərdən qaçırmırdılar. Bu məsələ, 1793 və 1795-ci illərdə üç Şərqi Avropa monarxiyası - Rusiya, Prussiya və Habsburq monarxiyası tərəfindən həyata keçirilən Polşanın bölünməsi prosesi zamanı sübut olundu. Müxtəlif ölkələrin hökumətlərinin, 1795-ci ildə Prussiyanın etdiyi kimi, üçüncü dövlətlər hesabına ərazi təzminatları barədə Fransa ilə razılaşmaq üçün

cəhdlər edildi. Belə ki, Bazel müqaviləsinə əsasən, Fransa Prussiyaya Reynin sol sahilindəki mülklərinin ona verilməsinə görə, "müvafiq əvəz" ödəyəcəyini vəd etdi.

Lakin, Avropa dövlətləri bir müddətdən sonra aşkar etdilər ki, onların müharibə zamanı özlərinə tez bir zamanda müəyyən fayda və üstünlüklər əldə etmək istəyi Fransa qarşısında mövqelərini xeyli zəiflədir. Fransa, onlardan birinə və ya digərinə vədlər və paylar verməklə özünə cəlb edir, bununla da, onları bir-birinə qarşı qoyur, sıralarında parçalanma salır, ona müqavimət göstərə biləcək əsas dövlətlərin iştirakı ilə güclü koalisiya yaradılmasının qarşısını alırdı.

Avropa hökmdarları, Napoleon Fransasına qarşı azadlıq mübarizəsinin məqsədlərinə çatana qədər, hərbi qənimətlərin bölünməsi, çəkdikləri maddi və mənəvi xərclərin ödənilməsi ilə bağlı bütün mübahisələri müharibənin sonuna təxirə salmağın zəruriliyini dərk etdilər. Napoleon müharibələrində, bir-birlərinə olan iddialarından məmnunluq haqqında. Rusiya və Prussiya suverenləri ikitərəfli müqavilədə müvafiq öhdəliyi təsbit edərək, bu məsələ ilə bağlı demək olar ki, ilk əminlik qazananlar oldular.

İddialarının təmin edilməsini və qarşılıqlı mübahisələrin həllini gələcək zaman üçün təxirə salan əsas Avropa dövlətləri müharibənin son mərhələsində Napoleon Fransası üzərində qələbə qazana biləcək güclü koalisiya yarada bildilər. Ancaq, müharibənin sonunda qənimətləri bölməyə başlayanda onların hərisliyi yenə tamamilə üzə çıxdı.

Bu şəxsi maraqlara baxmayaraq, XIX əsrin əvvəllərində Fransaya qarşı koalisiya müharibələrinin əsasını, şübhəsiz müdafiə olunmaq və qurtuluş xarakteri təşkil edirdi.. Üstəlik, Fransa tərəfindən təcavüzə məruz qalan dövlətlərin Fransaya qarşı mübarizəsi getdikcə açıq formada milli, vətənpərvərlik xarakteri alırdı. Onların o dövrdə apardıqları müharibələr, tarixdə haqlı olaraq vətən müharibəsi kimi müəyyən edilmişdir. Əgər, əvvəlki əsrdə yalnız peşəkar, o cümlədən muzdlu ordular döyüşürdüsə, dövrün ənənələrinin əksinə olaraq, bu dəfə xalqlar yadelli işğalçılara qarşı mübarizəyə özləri qalxırdılar.

İnqilabın əvvəlində, Avropa ölkələrində cəmiyyətin maarifpərvər, azadlıqsevər təbəqələri liberal və demokratik islahatların aparılmasında Fransanın köməyinə ümid bəsləyərək, ona ümidlə baxırdılar. Lakin, fransızların təcavüzkar siyasəti onları çox məyus etdi. Ona görə də, onlar fransız işğalçılarına qarşı mübarizədə (Prussiyada, Rusiyada və başqa ölkələrdə olan xalq mübarizləri) nəinki öz hökumətlərinə dəstək verirdilər, hətta bəzən təşəbbüsü də öz əllərinə alırdılar (İspan partizanları).

Bir qayda olaraq, Avropa ölkələrinin ictimai fikri, hökumətlərin özündən daha çox, təcavüzkara qarşı daha qətiyyətli mübarizənin tərəfdarı idi. Avropa hökmdarları özünü qoruma hissini, habelə öz sülalə maraqlarını əsas götürərək, birbaşa maddi və ya siyasi qazanc mülahizələrini rəhbər tutaraq, Napoleonla danışıqlara və hətta, 1807

Prussiya və Rusiya, 1809-cu ildə isə Avstriyanın etdiyi kimi, ona böyük güzəştlərə getməyə razılıq verirdilər. Bu cür siyasi sövdələşmələr, Fransanın zülmünə məruz qalan ölkələrin ictimai fikri tərəfindən, qanunun icazə verdiyi qədər, "milli marağa zidd" olduğu üçün, daim tənqid olunurdu. Napoleon müharibələri zamanı Avropa ölkələrində vətənpərvərlik yüksəlişi, Avropa dövlətlərinin xarici siyasətinin xarakterinə əhəmiyyətli dərəcədə təsir edirdi.

BEŞİNCİ FƏSİL
NAPOLEON MÜHARİBƏLƏRİ DÖVRÜNDƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR (1799 — 1814). VYANA KONQRESİ

II BÖLMƏ
Napoleon müharibələrində hərbi –siyasi qüvvələrin yeni düzəni və beynəlxalq vəziyyət

§1.Napoleon imperiyasının süqutuna doğru
1.Fransa- Rusiya diplomatik münasibətlərində böhranın yaranması
2.Rusiya- İsveç ittifaqı
3.Buxarest sülhü
4.1812-ci il Britaniya- Amerika müharibəsi
5.Fransanın Rusiyaya hücumu. 1812-ci il Vətən müharibəsi
6.1813-1814-cü illər müharibəsi zamanı diplomatik qüvvələrin nizamlanması
§2.Avropada Napoleon hökmranlığının sona çatması
1.Altıncı koalisiya
2. Napoleon ilə sövdələşmə cəhdləri
3. Şomon traktatı
5. Hakimiyyətdən imtina
§3.Yüz günlük hakimiyyət
1.Napoleon idarəçiliyinin Elba adası dövrü
2.Napoleonun yenidən hakimiyyətə dönüşü
3.Yüz gün ərzində Napoleonun siyasəti
3.1.Daxili siyasəti
3.2.Xarici siyasəti
4. Paris sülhü və yüz günlük hakimiyyətin sona çatması

§1.Napoleon imperiyasının süqutuna doğru

1.Fransa- Rusiya diplomatik münasibətlərində böhranın yaranması
2.Rusiya- İsveç ittifaqı
3.Buxarest sülhü
4.1812-ci il Britaniya- Amerika müharibəsi
5.Fransanın Rusiyaya hücumu. 1812-ci il Vətən müharibəsi
6.1813-1814-cü illər müharibəsi zamanı diplomatik qüvvələrin nizamlanması

1.Fransa- Rusiya diplomatik münasibətlərində böhranın yaranması

Avstriya sərhədində yerləşdirilən rus "müşahidə korpusu" istisna olmaqla, Aleksandr Avstriya ilə müharibədə ümumiyyətlə iştirak etmirdi. Buna cavab olaraq, Napoleon Avstriyadan qoparılan Qalitsiyanı (Qərbi Ukrayna) 1809-cu il müharibəsindən əvvəl nəzərdə tutduğu kimi Rusiyaya deyil, Varşava hersoqluğuna verdi. Bununla o, öz gizli niyyətini -bir qədər sonra Polşa dövlətini bərpa etmək istəyini açıqlamış oldu. Bununla belə, Napoleon Aleksandra Avstriya torpağı olan Tarnopolu və onun ətraf ərazisini Rusiyaya birləşdirməyi təklif etdi. Daha sonra, əvvəlcə 1811-ci il avqustun 15-də Rusiyanın Parisdəki səfiri knyaz Kurakinlə, sonra isə 1812-ci ilin iyununda Vilnoda general Balaşovla söhbətlərində Napoleon bu iki hədiyyənin-1807-ci ildə Prussiyadan alınan Belostoku və 1809-cu ildə Avstriyadan alınan Tarnopolu Aleksandra verməsində gizli məqsədinin mənasını açıqladı. Napoleon bu addımı ilə, Rusiyanı, Prussiya və Avstriya ilə uzun müddətə düşmən etmək niyyətində idi.

1809-cu ilin sonu və 1810-cu ilin əvvəlində, Napoleonun Aleksandrın bacısı Anna Pavlovna ilə uğursuz elçiliyi Rusiya ilə münasibətləri daha da soyuqlaşdırdı. Bu işin uğursuzluğu ilə bağlı olaraq, Napoleon Avstriya imperatorunun qızı ertshersoginya Mariya-Luizaya evlilik təklif etdi və dərhal onunla nikaha girdi. Bu evlilik çox ciddi diplomatik əhəmiyyətə malik idi.

Kontinental blokadaya qoşulma Rusiya iqtisadiyyatına çox mənfi təsir göstərdi. XVIII əsrin sonlarında. onun əsas ticarət tərəfdaşı o dövrdə sənaye inqilabının ilkin mərhələsini yaşayan Böyük Britaniya idi. Bu ölkədə sənaye xammalına tələbat sürətlə artırdı ki, bu da əsasən idxal hesabına ödənilirdi. Rusiya, Britaniya bazarını başqa xammallarla yanaşı, kətan və dəmirlə təmin edir, əvəzində həm müstəmləkə mallarını, əsasən tropik kənd təsərrüfatı məhsullarını, həm də hazır sənaye məhsullarını, o cümlədən o dövrdə ingilis ustalarının istehsal etdiyi müxtəlif cür mexaniki qurğular alırdı. Və birdən-birə bu qarşılıqlı faydalı ticarətin yolunda ciddi siyasi və inzibati maneələr yarandı. Nəticədə ticarət dövriyyəsi aşağı düşdü, müvafiq olaraq tacirlərin və ixrac malları istehsalçılarının gəlirləri, xəzinəyə daxil olan vergi və gömrük ödənişləri azaldı.

İqtisadi çöküşünün qarşısını almaq üçün, Rusiya-Britaniya ticarətini, ilk vaxtlar qadağanedici tədbirlərin aid edilmədiyi bitərəf vasitəçi dövlətlərin köməyi ilə aparmaq mümkün oldu. Bununla belə, Napoleon kontinental blokadada neytral ticarətin yaratdığı boşluğun ölçüsünü qiymətləndirərək, onun da fəaliyyətinə məhdudiyyət qoymağa çalışdı. 1810-cu ilin avqustunda o, Trianonda təsdiqlənən gömrük tarifinə görə bütün müstəmləkə mallarına həddindən artıq yüksək rüsumlar tətbiq edərək, son istehlakçılar üçün onların qiymətlərinin dəfələrlə artmasına səbəb oldu. Napoleon Rusiyadan, eləcə də digər müttəfiq dövlətlərdən Fransadan nümunə götürməyi tələb etdi.

Lakin, I Aleksandr öz ölkəsinin iqtisadiyyatına ziyan vuran siyasi istiqamətdən imtina etdi. Belə ki, Rusiya hökuməti 1810-cu ildə yeni gömrük tarifi qəbul etdi ki, bu da idxal malları üçün rüsumları azaltdı və ya tamamilə ləğv etdi. Bu addım ilə Napoleona birbaşa meydan oxudu. Əgər əvvəllər, Rusiya Fransa ilə münaqişələrdən qaçmağa çalışırdısa, indi o, münasibətlərinin belə bir durumunda onunla üzbəüz qarşılaşdı. Əslində, bu məsələ, yalnız ilk baxışdan ikinci dərəcəli görünə bilərdi, lakin Napoleonun özü ona böyük əhəmiyyət verirdi. O, Kontinental blokadanın uğur qazanması üçün həddən artıq səy göstərirdi.

Rusiyanın Kontinental blokadanı möhkəmləndirməkdən imtina etməsinə cavab olaraq, Napoleon Şimali Almaniyanın bir sıra torpaqlarını Fransaya birləşdirmək ilə bağlı qərar verdi. Onların arasında Rusiya imperator evinin irsi mülkiyyəti olan Oldenburq hersoqluğu da var idi. 1773-cü ildə, Danimarka kralı onu Böyük Hersoq Pavel Petroviçə (sonradan İmperator I Pavel) güzəştə getmişdi. Pavel bu knyazlıqdan imtina etsə də, bu torpaq, Holşteyn-Qottorp sülaləsinin kiçik xəttinin nümayəndəsinin ixtiyarında qaldı. Belə çıxırdı ki, fransızlar Rusiya imperatorunun qohumunu heç bir səbəb olmadan taxtdan qovdular.

Fransa hökumətinin bu hərəkətlərində bəd niyyətin olmadığını güman etmək çətindir. Ancaq, Rusiya hökuməti də bu qalmaqalı mümkün qədər daha çox şişirtməyə çalışdı. 1811-ci ilin yazında, iki ölkə arasında diplomatik münasibətlərin az qala pozulmasına qədər çatdı. Fransızların qəfil hücumundan ehtiyat edən I Aleksandr qoşunlara qərb sərhədinə doğru irəliləməyi əmr etdi. Qısa müddətdən sonra diplomatlar bu hadisəni nizamlaya bilsələr də, buna səbəb olan səbəblər hələ də qalırdı. Hər iki paytaxtda, Rusiya və Fransanın müharibənin başlaması şəraitinə yaxınlaşdıqlarını çox yaxşı başa düşürdülər və onlar müharibənin özləri üçün ən əlverişli şəraitdə başlaması üçün yalnız vaxt qazanmağa çalışırdılar.

1811-ci il avqustun 15-də diplomatik korpusun təntənəli qəbulunda, knyaz Kurakinə yaxınlaşan Napoleon onun üzünə Rusiya ilə bağlı qınaqlar yağdırmağa başladı. O, I Aleksandrın etirazlarına rəğmən, öz torpaqlarına birləşdirdiyi Oldenburq hersoqluğunu və Varşava hersoqluğunu misal çəkərək, Rusiyanın əbəs

yerə müttəfiqlərinə arxalandığını xatırlatdı. Rusiyanın, Avstriyadan Tarnopolu, Prussiyadan Belostoku aldığını görə, bu hökmdarlar onun ardınca getməyəcəklər! İsveç də getməyəcək, çünki Rusiya Finlandiyanı ondan alıb! "Bütün qitə sizə qarşıdır! Sizi məğlub edə biləcəyimi bilmirəm, amma biz döyüşəcəyik!" deyən Napoleon öz sözlərini yekunlaşdırmışdı.

Bundan sonra müharibənin qaçılmaz olduğuna zərrə qədər də şübhə qalmadı. Napoleon, təbii ki, "qitənin Rusiyaya qarşı olduğunu" düşünməklə yanılırdı. Əksinə, qitə Napoleon boyunduruğundan qurtulmaq üçün bütün ümidlərini məhz Rusiyaya bağlamışdı. Lakin bu azadlığın yaxında olmasına hələ də inam yox idi. Napoleon, Avstriya və Prussiyanı onunla hərbi müqavilələr imzalamağa məcbur etdi. Müqaviləyə görə hər iki ölkə Fransa ordusuna kömək etmək üçün ordu hissələri təqdim etməyə borclu idi. Eyni zamanda, Avstriya və Prussiya, Rusiya hesabına yeni ərazilər almağa ümid edirdilər: Avstriya Volını, Prussiya kralı Fridrix-Vilhelmi isə bütün Baltik bölgəsini almaqdan imtina etməzdilər.

Napoleon, həmçinin Rusiya ilə müharibə vəziyyətində olan Türkiyənin və Napoleonun keçmiş marşalı Karl Bernadotun vəliəhd şahzadə kimi idarə etdiyi İsveçin dəstəyinə ümid edirdi. Napoleon daha sonralar deyirdi ki, nə Türkiyənin, nə də İsveçin Rusiya ilə döyüşməyəcəyini öyrəndiyi zaman, o, Rusiya ilə müharibə etməkdən mütləq imtina etməli idi.

Müharibə başlayandan dərhal sonra İngiltərə Aleksandr ilə ittifaq bağladı.

2.Rusiya- İsveç ittifaqı

Əslində, Fransa ilə bağlanan Tilzit müqaviləsi müəyyən mənada Rusiya üçün faydalı idi, çünki, bu məsələ, Baltik məsələsini tədricən həll edilməsinə imkan yaradırdı. Rusiyanın Baltik hövzəsində əsas rəqibi olan İsveç Fransanın Pomeraniyada olan (Şimali Almaniya) mülklərini ələ keçirəcəyindən ehtiyat edirdi. Bu zəmində, onun Böyük Britaniya ilə yaxınlaşması baş verdi ki, bu da rus diplomatiyasını bu vəziyyətdən yararlanmağa imkan verdi. Tilzit müqaviləsinə əsasən, Rusiya İsveçin kontinental blokadaya qoşulmasına nail olmaq üçün ona təzyiq göstərməli idi. Bir neçə ay davam edən uğursuz danışıqlardan sonra, Rusiya İsveçə müharibə elan etdi. Fransanın bəzi digər müttəfiqləri - Prussiya və Danimarka-Norveç dövlətləri də, onun kimi hərəkət etdilər.

İsveç çıxılmaz vəziyyətə düşdü. Böyük Britaniyanın ona göstərdiyi dəstək yetərli deyildi. 1808-ci ilin fevralında, rus qoşunları Finlandiyaya daxil oldular və bir ay sonra I Aleksandr, geniş daxili müstəqilliyini saxlamaq şərti ilə, onun Rusiyaya ilhaqını elan etdi. 1809-cu ilin martında, rus qoşunları don vurmuş Botniya körfəzində buz üzərindən keçərək, İsveçin öz ərazisində hərbi əməliyyatlara başladılar.

Belə bir vəziyyətdə, İsveçdə dövlət çevrilişi baş verdi - əvvəlki kral IV Qustav Adolf devrildi, taxta onun əmisi XIII Karl keçdi. 1809-cu ilin sentyabrında o, Rusiya ilə Fridrixsqam Sülh müqaviləsi bağladı. Müqaviləyə görə İsveç, Rusiyanın nəfinə Finlandiyadan və Aland adalarından imtina etdi, həmçinin kontinental blokadaya qoşuldu. Beləliklə, Rusiya şimal-qərb sərhədlərinin təhlükəsizliyini xeyli möhkəmləndirdi.

Bir müddətdən sonra məlum oldu ki, Fridrixsqam müqaviləsinin tarixi əhəmiyyəti daha genişdir - o, Rusiya və İsveç arasında "əsrlərdir davam edən münaqişənin" üstündən xətt çəkdi. Bununla belə, məğlub olan İsveçin taleyi əhali arasında dərin ümidsizliyə səbəb oldu. Onlar, məğlubiyyət nəticəsində zəifləyən İsveçin Napoleonun əlində alətə çevriləcəyindən qorxurdular. XIII Karlın övladı olmaması səbəbindən Napoleonun marşalı J.B.Bernadot 1810-cu ilin avqustunda vəliəhd şahzadə seçildikdə, Rusiya hökumətinin qorxuları daha da artdı. Kral nəslindən, hətta aristokrat mənşəli olmayan bu adam, müharibə zamanı əsir götürülmüş isveç əsgərlərinə göstərdiyi humanist rəftarı ilə şöhrət qazanmışdı. I Aleksandr onun vəliəhd seçilməsini birmənalı olaraq Napoleon diplomatiyasının qələbəsi kimi qəbul etdi.

İsveçin siyasi xətti ilə bağlı Bernadota iki təklif irəli sürüldü. Əgər, İsveçin Rusiyaya qarşı çıxmasına, Napoleon Finlandiyanı və İsveçin Napoleona qarşı çıxmasına isə, Aleksandr Norveçi təklif edirdi. Hər iki təklifin faydasını müəyyənləşdirən Bernadot Aleksandrın təklifinə meyl etdi. Buna səbəb, yalnız Norveçin Finlandiyadan zəngin olması deyil, həm də İsveçi Napoleondan qoruyan dənizin olduğu halda, onu Rusiyadan ayıran heç bir maneənin olmamasını qəbul etmələri oldu.

Lakin Aleksandr, tezliklə Karl Yohan adını götürən vəliəhd ilə, ona təkəbbürlə öz vassalı kimi yanaşan Napoleon arasında olan münasibətlərin süni olduğunu hiss etdi. Rusiya imperatoru vəliəhd şahzadəni öz tərəfinə cəlb etməyə çalışaraq, ona mənəvi cəhətdən dəstək vermək qərarına gəldi. Və sonra o, İsveçə, onun Norveçə olan iddialarını dəstəkləyəcəyinə söz verdi. Bu yanaşma özünü tam doğrultdu: 1812-ci il martın 24-də (5 aprel) Sankt-Peterburqda Rusiya ilə İsveç arasında gizli ittifaq müqaviləsi imzalandı. Onlar Fransa və onun müttəfiqi Danimarkaya qarşı müharibədə bir-birinə kömək edəcəklərini öhdələrinə götürdülər. Bundan əlavə, İsveç yenidən, Finlandiyadan imtina etdiyini təsdiqlədi. Bu müqavilə ilə, əslində yeni anti-Fransa koalisiyasının yaradılmasının əsası qoyulmuş oldu.

3.Buxarest sülhü

Belə bir şəraitdə, hələ 1806-cı ildə başlayan Rusiya-Türkiyə müharibəsinin sonu görünmürdü. Tilzitdə, Napoleon I Aleksandra bu münaqişənin həllində Fransanın vasitəçiliyinə söz vermişdi. 1807-ci ilin avqustunda, Rusiya və Türkiyə iki ilə yaxın davam edən atəşkəs sazişi imzaladılar. Lakin, Fransa diplomatiyası bu müddətdən, onları yaxınlaşdırmaq üçün deyil, rəqibləri daha da ayırmaq üçün istifadə etdi. 1809-cu ildə Buxarestdə, rus və türk diplomatları danışıqlar aparsalar da, hərbi əməliyyatlar yenidən başladı. Osmanlı İmperiyasından da təhlükəli bir düşmənlə - Fransa ilə, daha dəqiq, Napoleon Fransasının başçılıq etdiyi birləşmiş Avropa ilə münaqişənin böyüdüyü bir şəraitdə, Rusiya hökuməti Türkiyəyə ciddi güzəştlərə getməyə hazır idi.

Danışıqlarda irəliləyiş, yalnız 1811-ci ildə M.İ.Kutuzovun komandanlığı altında rus qoşunlarının türk ordusuna vurduğu bir sıra məğlubiyyətlərdən sonra baş verdi. 1812-ci il mayın 16-da (28) Buxarest müqaviləsi imzalandı və bu müqaviləyə əsasən Rusiya Osmanlı İmperiyasına qarşı olan iddialarının əksəriyyətindən imtina etdi. Rus qoşunları tərəfindən faktiki olaraq azad edilən Moldova və Valaxiya Türkiyəyə qaytarıldı. Rusiya Bessarabiyanı qəbul etdi, müvafiq olaraq Rusiya-Türkiyə sərhədi Prut çayı boyunca quruldu. Rusiya Suxumu və Qara dənizin Qafqaz sahillərində yerləşən bir sıra digər məntəqələri də özündə saxladı. Dunay knyazlıqlarının və Serbiyanın daxili özünüidarəsinin imtiyazları təsdiqləndi. Amma ən əsası isə, Osmanlı İmperiyası, Rusiya ilə Fransa arasında müharibə olacağı təqdirdə bitərəf qalacağına söz verdi.

Beləliklə, yalnız əla hərbi strateq geyil, həm də parlaq diplomat olan Kutuzov, müharibə ərəfəsində - 1812-ci ilin mayında - Türkiyə ilə, Rusiya üçün çox faydalı bir sülh bağlaya bildi.

4.1812-ci il Britaniya- Amerika müharibəsi

İngiltərə ilə Rusiya arasında ittifaq müqaviləsi bağlanmasına baxmayaraq, Aleksandr , Napoleonun Rusiyaya hücumu zamanı Böyük Britaniyanın köməyinə arxalana bilmədi.

Amerika Birləşmiş Ştatları ilə Böyük Britaniya arasında 1812–1814-cü illəri əhatə etmiş müharibə, İkinci İstiqlal müharibəsi də adlandırılırdı. Müharibə, Böyük Britaniyanın 1810-cu ildən artan siyasi təziqlərinin nəticəsində başlamışdı.

18 iyun 1812-ci ildə Birləşmiş Ştatlar Britaniya hakimiyyətinin onun ticarəti və gəmiçiliyinə qoyduğu maneələrdən qəzəblənərək "dənizlərin hökmdarına" müharibə elan etdi. Böyük Britaniya, Amerika Birləşmiş Ştatlarının bəzi ştatlarında olan tərəfdarları vasitəsi ilə müharibəyə başladı. Əsas məqsəd Şimali Amerikada əvvəlki

tək ingilis ağalığı qurmaq idi. Həqiqətən də iki il davam edən müharibə Böyük Britaniyadan müəyyən səylər tələb etdi. Amerikalıların işğal etməyə çalışdığı Kanadaya, öz qoşunlarına kömək etmək üçün, çox sayda əlavə qüvvələr göndərməli oldu. Rusiya tərəfləri barışdırmaq üçün vasitəçilik etmək təklifi etdi. Amerikalılar asan qələbəyə ümid edirdilər, amma əllərində silah öz müstəqilliklərini yenidən müdafiə etmək üçün xeyli səy göstərmək məcburiyyətində qaldılar. Britaniya qoşunları hətta Amerikanın yeni paytaxtı Vaşinqtonu da ələ keçirdilər və bir sıra hökumət binalarını, o cümlədən prezidentlərin rəsmi iqamətgahı olan Ağ evi də yandırdılar. İki il davam edən müharibənin sonunda Böyük Britaniya məğlub oldu.

1812-ci il dekabrın 24-də, Gentdə, ABŞ və Böyük Britaniya arasında sülh müqaviləsi imzalandı. Müqaviləyə görə, müharibədən əvvəlki status-kvo bərpa olunur və İngiltərə bir daha onun ərazilərinə iddia etməyəcəyinə dair öhdəlik götürürdü.

Lakin, sülh müqaviləsi müharibəyə səbəb olan ərazi və iqtisadi məsələləri həll etmədi. Teleqrafdan əvvəlki dövrdə Avropadan xəbərlər çox yavaş yayılırdı və ona görə də, əslində hərbi əməliyyatlar yalnız 1815-ci ilin fevralında başa çatdı.

Bu müharibə, ingilisləri nəhayət Şimali Amerika müstəmləkələrinin itirilməsi ilə barışmağa və gənc Amerika dövləti ilə ticarət əlaqələrini inkişaf etdirməyə yönəltməyə vadar etdi.

5.Fransanın Rusiyaya hücumu. 1812-ci il Vətən müharibəsi

1812-ci ildə, Pireney yarımadasının xalqlarını tamamilə fəth etməmiş və vətənində həll olunmamış bir çox problemləri olan Napoleon Rusiyaya qarşı hərbi yürüşə başladı. I Aleksandrın hədsiz iddiaları və getdikcə artan müstəqil xarici siyasəti onu bu addımı atmağa vadar etdi.

Rusiya sanki, qitədə demək olar ki, tamamilə təcrid olunmuş şəkildə küncə sıxışdırıldı. Napoleonun 1812-ci il iyunun 12-də (24) Rusiyaya hücum etmiş "Böyük ordusu"nun sayı 600 minə yaxın idi. Onun üçdə ikisini Fransaya müttəfiq və ya ondan asılı olan ölkələrin əsgərləri - almanlar, polyaklar, italyanlar, ispanlar təşkil edirdi ki, onların da əksəriyyəti müharibəyə çox könülsüz gedirdi.

Rusiyanın sərhəd boyu dağınıq vəziyyətdə yerləşən ordusu isə 220 min əsgər və zabitdən ibarət idi.

Müharibə başlamazdan bir müddət əvvəl rus diplomatları Avstriya hakimiyyət orqanları ilə şifahi razılığa gəldilər, yəni, onlar "centlmen" müqaviləsi bağladılar. Belə ki, əgər avstriyalılar rus qoşunlarına birbaşa hücum etməsələr, onlar da aktiv hərəkətlərdən çəkinəcəklər. Buna baxmayaraq, Napoleon ordusu rus ordusundan xeyli üstün idi. Napoleonun planı bir sıra "həlledici" sərhəd döyüşlərində düşməni məğlub edərək, İmperator I Aleksandra öz sülh şərtlərini diktə etmək idi.

Lakin, rus hərbi komandanları Barklay de Tolli və Baqration Napoleonun onları cəlb etməyə çalışdığı döyüşdən yayındılar. Geri çəkilərək Smolensk yaxınlığında rus ordusunun əsas qüvvələrinə qoşulmağa müvəffəq oldular.

Napoleon Rusiya qoşunlarını sərhəddə mühasirəyə alıb məhv edə bilmədi, Smolensk döyüşündən sonra Rusiya ilə ilk dəfə danışıqlara cəhd etdi. Lakin, Rusiya bu təklifə partizan hərəkatı ilə cavab verdi. Napoleonun planının əksinə olaraq Rusiya qoşunu böyük döyüşə girməyib ölkənin içərilərinə geri çəkildi.

Bu müharibənin ən böyük savaşı 1812-ci il avqustun 26-da (7 sentyabr) Borodino kəndi yaxınlığında, fransızlar Moskvaya cəmi yüz kilometrə yaxın məsafədə yaxınlaşdıqda baş verdi. Bu vaxta qədər Napoleon ordusunun verdiyi ağır itkilər səbəbindən rəqiblərin qüvvələri demək olar ki, bərabər idi. Borodino döyüşü 12 saat davam etmişdi. Lakin Borodino döyüşü heç bir tərəfə ciddi üstünlük vermədi. Borodino çölündə baş vermiş döyüşdə Fransa ordusu 60 min nəfər, Rusiya ordusu isə 40 min əsgər itirdi. Borodino döyüşü "Böyük Fransa ordusu"nun məğlubedilməzliyi haqqında əfsanəyə son qoydu.

Rus ordusunun Baş komandanı M.İ.Kutuzov səhər saatlarında döyüşü bərpa etməyə hazır idi, lakin çoxlu sayda ölən və yaralanandan xəbər tutandan sonra geri çəkilmək və Moskvanı döyüşsüz düşmənə təslim etmək qərarına gəldi. Moskvalıların əksəriyyəti ordunun ardınca şəhəri tərk etdilər.

Sakinləri tərəfindən tərk edilmiş Moskvanın, Napoleon ordusu üçün bir tələ olduğu ortaya çıxdı. I Aleksandr onun danışıqlarla bağlı yeni təkliflərinə də cavab vermədi. Moskvanın isti mənzillərində sərt rus qışını gözləmək də mümkün olmadı. Fransızların gəlişindən qısa müddət sonra şəhərdə yanğınlar baş verdi, evlərin üçdə ikisi yandı. Ordunu aclıq təhlükəsi gözləyirdi. Bir aylıq tərəddüd içində gözlədikdən sonra, Napoleon oktyabrın 7-də (19) fransızlar Moskvanı tərk etdilər. Napoleon hələ də rusları məğlub etməyə və ya heç olmasa dağıdılmamış cənub bölgələrinə girməyə ümid edirdi, çünki ordunun ərzaq və yemlə təmin edilməsi məsələsi çox kəskinləşmişdi. O, ordunu rus ordusunun ərzaq anbarlarının yerləşdiyi Kaluqaya aparmağa cəhd etdi. Lakin, güclü müqavimətə rast gəldikdən sonra geri çəkilmək məcburiyyətində qaldı. Belə ki, oktyabrın 12-də Maloyaroslavets şəhəri yaxınlığında növbəti qanlı döyüş baş verdi. Yenə də heç bir tərəf qəti qələbə qazana bilmədi. Lakin fransızlar dayandırıldı və viran qoyduğu Smolensk yolu ilə geri çəkilməyə məcbur oldular.

Müharibənin son mərhələsində, M.İ.Kutuzov paralel təqib taktikasını seçdi. O, anlayırdı ki, düşmən qüvvələri hər gün azalır. Napoleonun son məğlubiyyəti Borisov şəhəri yaxınlığında planlaşdırıldı. Bu məqsədlə cənubdan və şimal-qərbdən qoşunlar gətirildi. Noyabrın əvvəlində Krasnı yaxınlığında geri çəkilən ordunun 50.000 adamının yarıdan çoxunun əsir götürülməsi və ya döyüşdə həlak olması nəticəsində,

fransızlara ciddi ziyan dəydi. Mühasirəyə düşməkdən qorxan Napoleon noyabrın 14-17-də qoşunlarını Berezina çayından keçirməyə tələsdi. Keçiddəki döyüş Fransa ordusunun məğlubiyyətini tamamladı. 1813-cü ilin yanvarında Polşaya yalnız 30-40 minə yaxın əsgər qayıda bildi. Fransızların bu hərbi uğursuzluğu, sonradan bütün Avropanı azadlıq uğrunda mübarizəyə qaldırdı.

Geri çəkilmə zamanı "Böyük ordu" öz fəaliyyətini dayandırdı. 13(26) dekabr 1812-ci ildə onun qalıqları Rusiya sərhədlərini tərk etdi. Napoleon dərhal, ordu komandanlığını Myuratın ixtiyarına buraxaraq, tələsik Parisə yola düşdü. Çünki, oradan onu hakimiyyətini devirmək üçün respublikaçı general Male tərəfindən həyata keçirilən dövlət çevrilişinə cəhd xəbəri gəlmişdi. Parisə gələn və hakimiyyətinə qəsd etməyə imkan verən polis rəisini vəzifəsindən uzaqlaşdıran Napoleon, Şərqi Avropada müharibəni davam etdirmək üçün dərhal yeni ordu yaratmağa başladı. Artıq 1813-cü ilin aprelində o, yenidən 150.000 nəfərlik ordunun başında Almaniyada peyda oldu.

6.1813-1814-cü illər müharibəsi zamanı diplomatik qüvvələrin nizamlanması

Bütün Avropada Napoleona qarşı amansız mübarizə başladı. Artıq ön plana diplomatlar deyil, generallar çıxdı. Lakin Napoleonun hakimiyyətinin sarsıdılması məsələsi uzanırdı. Məğlubiyyətdən özünə gələn Napoleon yeni böyük bir ordu toplaya bildi. Bu ordu ilə yaz və yay aylarında prussları və rusları amansız şəkildə əzməyə başladı. Aleksandr hətta Lyutsen, Bautsen və Drezdendə məğlubiyyətə düçar olduqdan sonra da Napoleonla sülh bağlamaq istəmədi. Lakin Prussiya kralı çox qorxurdu.

1813-cü ilin mayında Bautsendə baş verən məğlubiyyətdən sonra Aleksandr və III Fridrix Vilhelm ən azı dörd dəfə kömək etməsi üçün İmperator Fransa müraciət etdilər. Lakin o, Metternixin təkidi ilə müttəfiqlərə qoşulmağa tələsmirdi.

Birincisi, Metternix Napoleonun hökmranlığından qorxduğu kimi, Rusiyadan da çəkinirdi. Artıq 1813-cü ildə o, qələbələrin Aleksandrı xeyli gücləndirəcəyindən ehtiyat edirdi.

İkincisi, o, özü deyirdi ki, o, Napoleonu həmişə, bütün Avropanı baş verə biləcək inqilablardan müdafiə etmək üçün "anarxiyaya qarşı sədd" hesab edirdi: Napoleonun devrilməsi ilə, onun fikrincə, bütün Avropada inqilab qüvvələr fəallaşa bilərdi.

Üçüncüsü, I Frans unutmurdu ki, Napoleonun yaratdığı böyük imperiyanın varisi, onun, I Fransın nəvəsi, Napoleonun və Mariya Luizanın oğlu kiçik Roma kralıdır (Napoleonun oğluna verdiyi titul).

Ancaq eyni zamanda, Napoleondan gizli olaraq, Metternix müttəfiqlərlə fəal danışıqlar aparırdı. Hər halda, o, ümid edirdi ki, ümum-Avropa müharibəsi ilə sıxışdırılan Napoleon güzəştə gedərək, Avstriyanın ona kömək etməsinə və ya

bitərəf qalmasına görə, əvvəlki illərdə Fransa tərəfindən zəbt edilmiş torpaqların heç olmasa bir hissəsini ona geri qaytaracaq.

§2.Avropada Napoleon hökmranlığının sona çatması
1.Altıncı koalisiya
2. Napoleon ilə sövdələşmə cəhdləri
3. Şomon traktatı
4. Hakimiyyətdən imtina

1. Altıncı koalisiya

Rusiya 1812-ci il hərbi əməliyyatlarında demək olar ki, müstəqil şəkildə özü qələbə qazandı. Onun gizli müttəfiqi İsveç, rus qoşunları Napoleonun ordusu qarşısında geri çəkildiyi zaman Fransaya açıq şəkildə müqavimət göstərməyə cəsarət etmədi. 6 (18) və 8 (20) iyul 1812-ci il tarixlərində Böyük Britaniya və İspaniya səltənət naibliyi şurası (üsyançı hökuməti) ilə imzalanmış ittifaq müqavilələri əsasən siyasi əhəmiyyət kəsb edirdi. Çünki, Rusiya və İspaniya kimi bir-birindən uzaq məsafədə olan hərbi əməliyyatlar meydanlarında onların həyata keçirdikləri hərbi fəaliyyətlərinin koordinasiyasının reallaşdırılması mümkün deyildi.

Rusiyada "Böyük ordu"nun məğlubiyyəti, koalisiyanın tərkibinin genişləndirilməsi, daha doğrusu, səmərəli anti-Fransa koalisiyasının yaradılması üçün bir başlanğıc rolunu oynadı. Rusiya və Böyük Britaniya ilə yanaşı, onun tərkibinə Prussiya, İsveç və Avstriya daxil oldu. Yeni koalisiya bir sıra müttəfiqlik müqavilələri ilə, o cümlədən 16 fevral (28) 1813-cü ildə Rusiya və Prussiya, 3 iyul (15) 1813-cü ildə Rusiya və Böyük Britaniya, habelə Avstriya, Prussiya və Rusiya arasında 15 iyul (27) 1813-də imzalanmış müttəfiqlik müqavilələri ilə tədricən rəsmiləşdirildi.

1813-cü il hərbi əməliyyatları ilk əvvəl Müttəfiqlər üçün uğursuz oldu. May ayında fransızlar, Saksoniyada Lyutsen və Bautsen döyüşlərində qələbə qazandılar. Lakin, müttəfiqlər ehtiyat qüvvələr gətirərək, düşmən üzərində əhəmiyyətli say üstünlüyünü təmin etdikdən sonra, hərbi əməliyyatların gedişində dönüş yarandı. Avqustda Napoleonun məşhur hərbi komandanları Makdonald və Udino, sentyabrda isə Ney ayrı-ayrılıqda məğlub oldular. Napoleon ordusunun əsas qüvvələri oktyabrın 16-19-da Leypsiq yaxınlığındakı "xalqlar döyüşü"ndə məğlub oldular. Böyük itkilər verən fransızlar döyüş meydanından nizamsız şəkildə geri çəkildilər.

"Xalqlar döyüşü" - 1813-cü il oktyabrın 4-6-da (16-18-də) Saksoniya ərazisində Leypsiq şəhəri yaxınlığında, Avropanın demək olar ki, bütün xalqlarının hərbi qüvvələrinin I Napoleonun hakimiyyətindən azad edilməsi prosesində iştirak etdiyi döyüşdür. Napoleonun tərəfində fransız və polyak alayları, belçikalılar, sakslar, italyanlar və hollandlar - 155 min nəfər vuruşurdular. Anti-Napoleon koalisiyasının tərəfində Rusiya, Prussiya, Avstriya və İsveç qoşunlarının 220 min nəfər əsgəri var idi.

Döyüş üç gün davam etdi. Onun bütün iştirakçıları inanılmaz dərəcədə böyük cəsarət nümayiş etdirdilər, lakin Fransa imperatorunun ordusu çoxsaylı düşmənə müqavimət göstərə bilmədi, xüsusən döyüşün ortasında Sakson ordusu öz toplarını fransızlara qarşı çevirdi.

Döyüşün ilk günü, 4 (16) oktyabr 1813-cü ildə Napoleon müvəffəqiyyətlə hücum etmişdi, lakin üstün müttəfiq qüvvələrin təzyiqi altında oktyabrın 18-də Leypsiqə tərəf geri çəkilməyə məcbur oldu. Oktyabrın 19-da Napoleon ağır itkilərlə Fransaya çəkildi.

Döyüş nəticəsində 1813-cü il hərbi əməliyyatlarını başa çatdı. Napoleonun hakimiyyəti altında yalnız Fransa qaldı.

Nəticədə Napoleon 70 min, müttəfiqləri isə 54 min əsgər itirdi(onlardan 23 mini rus, 16 mini pruss, 15 mini avstriyalı və 180-ı isveçli idi). Napoleon üçün bu itkilər xüsusilə ağır idi. Bu itkilər onun ordusunun demək olar ki, yarısını təşkil edirdi və Fransanın ehtiyat mənbələri tükənmişdi.

Məğlubiyyət nəticəsində Napoleon ordusunun qalıqları Reyn çayına doğru geri çəkildilər. Müttəfiq qoşunları Almaniyanı azad etmək imkanı qazana bildilər və sonra isə Fransa ərazisinə daxil oldular. Leypsiqdəki döyüş, 1814-cü ildə yeni hərbi əməliyyatların başlanmasının əsasını qoydu.

Leypsiq yaxınlığında fransızların məğlubiyyətindən sonra Bavariya Altıncı koalisiyanın tərəfinə keçdi. Noyabrın 2-də Napoleon Reyn çayını keçərək Fransaya ketdi və iki gün sonra müttəfiq ordular Reynə yaxınlaşaraq orada dayandılar. Napoleona tabe olan Alman dövlətlərinin Reyn ittifaqı dağıldı, noyabrın 12-də (24) Frankfurt-Mayndə onun ləğvi haqqında akt imzalandı.

Leypsiqdə baş verən məğlubiyyət Napoleonun siyasi və hərbi gücünün tənəzzülündən soraq verirdi. Son müttəfiqləri, xüsusilə Danimarka, Saksoniya və Bavariya onu tərk etdi. Avropa xalqları bir-bir xarici hökmranlığın təsiri altından çıxmağa başladılar. Napoleonun hakimiyyətinin əvvəlində olduğu kimi, anti-fransız koalisiyasına daxil olan ölkələrin orduları Fransanın sərhədlərinə yaxınlaşdılar. Lakin o, artıq ölkəsinin ərazisinin etibarlı müdafiəsini təmin edə bilmədi. Çağırışçıların kütləvi şəkildə orduya cəlb edilməsi ilə, qısa müddətdə ordunun sayını yüz minlərlə insana çatdırmağa imkan verən günlər keçmişdə qalmışdı. 1792-ci ildən başlayan, demək olar ki, iyirmi il davam edən müharibə Fransanı viran qoymuşdu.

Ona görə də, 1813-cü ilin dekabrında 350.000 nəfərlik Müttəfiq ordusu Fransa ərazisinə daxil olanda, Napoleon ona qarşı yalnız 70.000-ə yaxın əsgər çıxara bildi.

1814-cü il hərbi əməliyyatları zamanı Napoleon sonuncu dəfə öz hərbi istedadını nümayiş etdirdi. Daim hərəkətdə olaraq, məharətlə manevrlər edərək, qəfildən üstün düşmən qüvvələrinə hücum edir, onları tez-tez geri çəkilməyə məcbur edirdi. Onun üçün xüsusilə uğurlu olan, fevralın ortalarında, səkkiz gündə yeddi qələbə qazandığı vaxt sayılırdı. Amma bu qələbələr yerli əhəmiyyətli idi və müharibənin ümumi gedişini dəyişə bilmirdi. Müttəfiqlər, öz güclərinin yenilməzliyini tam dərk edərək, Napoleonun onlara qarşı yaratdığı xırda pisliklərə fikir vermədən, Parisə hücumu davam etdirirdilər.

2. Napoleon ilə sövdələşmə cəhdləri

Metternix "vasitəçi" rolunu öz üzərinə götürməyə qərar verdi. 1813-cü ilin iyununda Avstriya nümayəndələri Rusiyanın nümayəndəsi Nesselrode və Prussiya nümayəndəsi Qardenberqlə razılaşaraq Napoleona aşağıdakı sülh şərtlərini təqdim etdilər:

1) Napoleon Varşava hersoqluğundan imtina edir;

2) Dantsiqi Prussiyaya qaytarır;

3) 1809-cu ildə Avstriyadan aldığı İlliriyanı ona qaytarır;

4) Hamburq və Lyubek şəhərlərindən fransız qoşunlarını çıxarır.

Qardenberq, Napoleondan daha sonra Reyn ittifaqı üzərindəki protektoratlığından imtina etməsini və Tilzit müqaviləsinə əsasən alınan torpaqların heç olmasa bir hissəsini Prussiyaya qaytarmasını istədi. Ancaq sülhü mümkün qədər tez bağlamaq istəyən Metternix bununla razılaşmadı.

Şərtlər Napoleon üçün o qədər yüngül idi ki, mahiyyət etibarı ilə demək olar ki, bütün nəhəng imperiyası öz yerində qalırdı. Ona görə, Aleksandr məyus halda, "Bu şərtləri qəbul etsə nə baş verəcək?" deyərək Metternixə müraciət etdi. Və qərara alındı ki, bu şərtlərin qəbulu yalnız danışıqların başlanması üçün əsas olacaq və sonradan, danışıqlar zamanı Napoleondan növbəti güzəştlər tələb olunacaq.

26 iyun Metternix vasitəçi kimi Drezdendə yaşayan Napoleonun yanına getdi. Avropanın taleyinin asılı olduğu danışıqlar bir neçə saat davam etdi və Metternixin səfəri tamamilə uğursuz şəkildə başa çatdı. Napoleon güzəştlər haqqında eşitmək də istəmədi. O, Metternixin üstünə qışqıraraq, Metternixin ona, İmperator Napoleona belə şərtlər təklif etməyə cəsarət etmək üçün İngiltərədən aldığı pul rüşvətinin nə qədər böyük olduğunu soruşdu və onu tezliklə ordu ilə birlikdə Vyanada olacağı ilə hədələdi. Metternix cavabında bildirdi ki, Napoleon danışıqlara razı olmasa, Avstriya Napoleon ilə müttəfiqlər arasında barışıq başa çatdıqdan dərhal sonra, Fransaya qarşı müharibəyə girəcək. Lakin, heç bir razılıq əldə olunmadı.

Napoleon heç bir güzəştə getmədi. Bütün qitəni Fransanın bazarına və müstəmləkəsinə çevirmək istəyən İmperator, fəthlərin itirilməsi və İngiltərə ilə

mübarizəsinin onun qələbəsi ilə başa çatmadığı təqdirdə, öz hökmranlığının mənasını görmürdü. Ya hamısı və ya heç nə! Bu onun şüarı belə idi. Təbii ki, Praqada başlayan ilkin danışıqlardan da heç nə alınmadı. 1813-cü il avqustun 10-da Avstriya rəsmi olaraq Napoleona qarşı müharibəyə girdi.

Müharibə yenidən bərpa olundu. 1813-cü il oktyabrın 16-19-da Leypsiq yaxınlığında üç günlük dəhşətli döyüşdən sonra Napoleon Fransaya çəkildi. Lakin, burada Napoleonun Fransanın ərazisinə daxil olan düşmənlər üzərində bir sıra parlaq qələbələri onları Napoleona yenidən sülh təklif etməyə sövq etdi. Ancaq, bu dəfə, onun üçün daha pis şərtlərlə. 1814-cü ilin fevralında, Şatilyon şəhərində müttəfiqlərlə Napoleon tərəfindən göndərilmiş Viçents hersoqu Arman Kolenkur arasında sülh danışıqları başlandı.

Napoleona 1792-ci il sərhədləri daxilində bir imperiya, yəni fəthlərdən imtina etmək təklifi edildi. Napoleon qəzəblə bu şərtləri nəzərdən keçirməkdən dəə imtina etdi. Bu günlərdə fransız qoşunlarının bir sıra yeni hərbi uğurları Napoleonun barışmazlığını gücləndirirdi.

İngilis casusları, Napoleonun uğurlarından narahat olan Metternixin artıq müttəfiqlərdən gizli olaraq, Kolenkurla əlaqə yaratdığını və onunla sövdələşməyə çalışdığı barədə məlumat əldə etdilər.

3. Şomon traktatı

1814-cü il fevralın 17-də (1 mart) Fransa əleyhinə koalisiyanın dörd əsas dövləti - Böyük Britaniya, Rusiya, Avstriya və Prussiya - Reyndən Parisə qədər olan yolun yarısında yerləşən Şomonda, kiçik bir fransız şəhərciyində ittifaq müqaviləsi imzaladılar. Bu müqaviləyə əsasən, onlar Fransa ilə separat danışıqlara getməməyə və onunla müharibəni tam qələbəyə qədər çatdırmağa söz verdilər. Dövlətlərin hər biri döyüşə 150.000 əsgər çıxarmalı idi. Böyük Britaniyaya istisna edildi: o, ordu əvəzinə, müttəfiqlərə hər il 5 milyon funt sterlinq maliyyə vəsaiti ilə dəstək olmalı idi.

Martın 30-da Müttəfiq qoşunları Parisin divarlarına yaxınlaşdılar. Elə həmin gün onun müdafiəçiləri şəhərlərinin Moskvanın taleyini yaşayacağından qorxaraq silahlarını yerə qoydular. Ertəsi gün, İmperator I Aleksandr və Prussiya kralı III Fridrix Vilhelm öz orduları ilə Fransa paytaxtına daxil oldular.

5. Hakimiyyətdən imtina

Bu hadisələr baş verən zaman, Paris yaxınlığında, Fontenblo qəsrində olan Napoleon öz hakimiyyətini qoruyub saxlamaq ümidini itirməmişdi. O, hələ də 60.000 sadiq əsgərin əhatəsində idi. Bundan əlavə, o, qayınatası Avstriya İmperatorunun dəstək verməsinə ümid edirdi. Ancaq, Napoleonun ən az gözlədiyi bir hadisə baş verdi: o, yaxınlarının anlayışı ilə qarşılaşmadı.

Marşallardan Ney, Bertye, Lefevr qələbəyə inamlarını itirdiklərindən, imperatora oğlu Roma kralının nəfinə taxt-tacdan əl çəkməyi tövsiyə etdilər. Napoleon bir neçə gün tərəddüd etdi. Lakin, aprelin 6-da o, hakimiyyətdən imtina sənədinə imza atdı. Ancaq artıq çox gec idi. Taleyranın təşəbbüsü ilə aprelin 1-də, senat müvəqqəti hökumət yaratdı və aprelin 3-də "andı pozmaqda və xalqın hüquqlarına qəsd etməkdə təqsirli bilinən Napoleonun konstitusiyanın müddəalarından kənara çıxaraq, orduya əsgər və qanunsuz vergilər yığdığına görə hakimiyyətdən uzaqlaşdırıldığını elan etdi". Aprelin 6-da, senat yaxt-tacı XVIII Lüdovikə təklif etdi.

Aprelin 11-də müttəfiqlər Fontenblouda müqavilə bağladılar və bu müqaviləyə görə, Aralıq dənizindəki Elba adası Napoleonun ömürlük idarəçiliyinə verildi.

Öz taleyindən xəbər tutan Napoleon intihara cəhd etsə də, sonda onun üçün hazırlanmış qismətə təslim oldu. Aprelin 20-də, Fontenblonun həyətində onun qvardiyaçılarla vida mərasimi keçirildi. Əsgərlərin çoxu bədbəxt imperatorunu görəndə göz yaşlarını saxlaya bilmədilər. Bundan sonra, Napoleon dərhal sürgün olunduğu yerə yola düşdü.

On il yarım müasirlərini həyəcana salan Napoleon dövrü sona çatdı. Əslində, Napoleon Bonapart da ondan əvvəl Fransanı idarə edən inqilabçı qruplar kimi eyni taleyi yaşadı. O, varislərinə ötürə biləcəyi güclü və sabit bir hakimiyyət qura bilmədi. Napoleonun hökmranlığı həll olunmayan daxili ziddiyyətlə səciyyələnirdi və bu ziddiyyətlər hakimiyyətin gec-tez süqutuna səbəb olmalı idi. İstila müharibələri onun daxili və xarici siyasətinin uğurunun əsas amili olmasa da, mühüm əhəmiyyət kəsb edirdi. Məhz bu müharibələr fransız cəmiyyətini qısa müddətdə Napoleonun ətrafında topladı və onun hakimiyyətinin beynəlxalq səviyyədə tanınmasını təmin etdi. O, hərbi şöhrətinin əsiri oldu. Hakimiyyətini qorumaq üçün o, hərbi üstünlüyünü bütün dünyaya dönə-dönə sübut etməli oldu və nəhayət Fransanın bütün gücünü qeyb etdi.

Mümkün olduqca, köhnə mütləqiyyətçi-zadəgan hakimiyyətinin, bəzi yerlərdə təhkimli, bəzi yerlərdə isə yarı təhkimli formasının bərpası, müharibə başa çatdıqdan sonra Şomon müqaviləsi ilə birləşən dövlətlərin siyasətinin əsas sosial prinsipi idi. Bu utopik məqsəd özlüyündə, 1814-cü ildə Fransanı məğlub edən dövlətlərin nailiyyətlərinin kövrək olduğunu göstərirdi. Bu məsələdə, Marks və Engels

Napoleon hakimiyyətinin mütərəqqi rolunu görürdülər. Belə bir tarixi rolu, heç də şəxsən buna can atmadan, yalnız fəthlər, Fransanın gücü, burjuaziyanın iqtisadi üstünlüyü haqqında düşünən Fransa imperatoru Napoleon oynadı.

§3.Yüz günlük hakimiyyət

1.Napoleon idarəçiliyinin Elba adası dövrü

2.Napoleonun yenidən hakimiyyətə dönüşü

3.Yüz gün ərzində Napoleonun siyasəti

3.1.Daxili siyasəti

3.2.Xarici siyasəti

4. Paris sülhü və yüz günlük hakimiyyətin sona çatması

1.Napoleon idarəçiliyinin Elba adası dövrü

Paris sülh müqaviləsinin nəticəsi Napoleon Bonapartın artıq Avropanın siyasi həyatında iştirak edə bilməyəcəyi anlamına gəldi. Napoleonun sürgün edilməsi məsələsi, müttəfiqləri təmsil edən qraf Karl Nesselrode ilə İmperatoru təmsil edən hersoq Arman de Kolenkur arasında müzakirə edildi. Napoleona ömürlük sürgün yeri kimi adalardan birini seçmək təklif edildi: Korfu, Korsika və ya Elba. Napoleon doğma Korsikanın yaxınlığında yerləşən Elba adasını seçdi. 1814-cü il mayın 3-də Napoleon admiral Uşerin komandanlığı altında ingilis gəmisində onun tam sərəncamına verildiyi adaya gəldi. Mayın 14-də imperatora sadiqlik göstərən Pyer Jak Kambron və köhnə qvardiyaçıların bir hissəsi ona qoşuldu. Həmçinin adada başqa generallar da vardı: Anri Bertran, Antuan Druo və Boynod. Bələdiyyə sədrinin başçılıq etdiyi adanın sakinləri Portoferraio şəhərinin fəxri açarlarını təntənəli şəkildə İmperatora təhvil verdilər.

Keçmiş imperatorun iqamətgahı olaraq Portoferraio yaxınlığındakı San Martino vadisində yerləşən dəbdəbəli bir köşk seçildi, lakin isti iqlim səbəbindən Napoleon orada yalnız qışda qalırdı.

Napoleon sahib olduğu adadan gəlir əldə etməyə çalışırdı. Beləliklə, əvvəlcə o, adada domna sobaları qurmağı planlaşdırırdı, lakin maliyyə çatışmamazlığı səbəbindən bu fikrindən dərhal imtina etmək məcburiyyətində qaldı. Mədənlərdən gələn gəlirlər nəzarət altına alındı; xəzinənin xeyrinə yerli vətəndaşlardan vergilər alınırdı. Tədricən Napoleon yaxınlıqdakı Pianosa adasını da istila etdi.

Fontenblo müqaviləsinin on yeddinci maddəsi Napoleona dörd yüz əsgərdən çox adam saxlamağı qadağan edirdi. Lakin o, bu məhdudiyyətə məhəl qoymurdu. Onun hərbi dəstəsinin heyətinə 1649 nəfər daxil idi.

Həmçinin səkkiz gəmidən ibarət kiçik bir donanma da onun ixtiyarında idi. Onlardan üçü sahili dəniz quldurlarından qorumaq üçün silahlandırılmışdı.

Boynod adanın baş müfəttişi, Bertran - daxili işlər naziri, Druo adanın qubernatoru, Kambron isə qvardiyanın rəisi təyin edildi. Ancaq İmperiya dövründə olduğu kimi Napoleon həmişəki kimi son sözə sahib idi.

Napoleonun səyləri və nüfuzu sayəsində adada ticarət canlandı, bu da maddi vəziyyətin yaxşılaşmasına kömək etdi.

Napoleonu adada müxtəlif insanlar ziyarət edirdilər. Onunla görüşmək üçün Mariya Valevskaya oğlu ilə 1814-cü ilin sentyabr ayının əvvəllərində gizli şəkildə adaya təşrif buyurmuşdu. Amma Maria Luiza və oğlu heç vaxt taxtdan imtina etmiş imperatoru ziyarət etmək üçün adaya gəlmədilər.

Qrafinya Mariya Valevskaya (7 dekabr 1786 - 11 dekabr 1817) - Polşa zadəgan qadını, Qostin şəhərinin başçısı Matvey Lonçinskinin qızı, Napoleonun sevgilisi və onun nikahdan kənar oğlu qraf Aleksandr Kolonna-Valevskinin anası.

2.Napoleonun yenidən hakimiyyətə dönüşü

Napoleon Burbonların monarxiyasının bərpası ilə əlaqədar Fransada narazılıqların artması barədə xəbərlər alırdı. Ona həmçinin Vyanadan da xəbərlər çatdırılırdı. Belə ki, burada Avropanın böyük dövlətlərinin gələcək dünya düzəni barədə razılığa gəldikləri Vyana konqresi keçirilirdi. XVIII Lüdovikin daxili siyasəti mühacirlərin geri qaytarılması ilə müəyyən edilmiş və inqilabın bir çox nailiyyətlərini alt-üst etmişdi. 1814-cü ildə qəbul edilmiş liberal xartiyaya baxmayaraq bu siyasət çox mürtəce idi. İmperiya dövründə hakimiyyətdə olan elita indi özünü ikinci cərgəyə atılmış hiss edirdi. Digər tərəfdən kəndlilər inqilabdan əvvəlki qayda-qanunu yaxşı xatırlayır və torpaqlarını itirməkdən qorxurdular. Xarici siyasətdə isə, artıq Altıncı koalisiya dövründə olan müttəfiqlərin birliyi yox idi. İngiltərə və Avstriya Rusiyanın Avropa qitəsində rolunun güclənməsini istəmirdi. Həmçinin Polşa və Saksoniyanın taleyi ilə də bağlı güclü fikir ayrılıqları var idi Bütün bu amillər Napoleona Fransanın onun qayıtmasına hazır olduğuna inanmağa əsas verdi.

1815-ci il fevralın 25-də, Napoleon özbaşına sürgün yerini tərk etdi. Daha altı gəmi ilə müşayiət olunan "L'Inconstant" briqində Portoferrayo limanından ayrıldı.

1815-ci il martın 1-də günorta saat üçdə Napoleon və kiçik ordusu Fransa sahillərinə çatdı və Juan körfəzində sahilə çıxdı. Onların qarşısına çıxan gömrükçülər keçmiş İmperatoru sevinclə qarşıladılar. Ancaq ən yaxın Antib şəhərinə girmək cəhdi uğursuzluqla başa çatdı: Napoleonun 25 əsgəri içəri girdikdən sonra şəhər qarnizonu qala qapılarını bağladı və içəri keçənlər həbs edildi. Axşam saat 11-də Napoleonun dəstəsi burada yubanmayaraq yoluna davam etdi.

Kann və Qras şəhərləri heç bir müqavimət göstərmədən geri dönən Napoleonu imperator olaraq qəbul etdilər. Napoleon, Kannda ərzaq və silah ehtiyatını artırdı və sahildə dörd top qoyaraq, Qrasda etdiyi müraciətin mətnindən vərəqələr çap etdirdi. Bunun ardınca Napoleon Dofin əyalətindən şimala doğru getmək qərarına gəldi. Din-le-Ben və Qap kimi şəhərlərdə dayanmadan 1815-ci il martın 7-də əyalətin paytaxtı Qronobla doğru getdi.

Onu yolunda çıxan bir çox şəhərlərdən fərqli olaraq Qronoblun qapıları Napoleonun üzünə bağlanmışdı. Təbliğatın vacibliyini dərk edən Napoleon, geri döndükdən dərhal sonra fransızlar üçün bir manifest hazırlamışdı. Burada o, özünü qanuni taxtını geri almağa gələn VII Karl ilə müqayisə edirdi. Sonradan Qap, Qronobl və Lion sakinlərinə də belə müraciətlər dərc edildi. Bütün bunlar imperatorun qayıdacağına inanan insanlara güclü təsir göstərdi. Qronobla doğru qusar alayı və artilleriya ilə iki piyada alaylarından ibarət hökumət qoşunları göndərildi. Napoleonun dəstəsi və hökumət qoşunlarının görüşü Laffre şəhərində baş tutdu. Napoleonun hakimiyyətinin legitimliyini tanımayan kral qoşunlarının komandanlığı, onun göndərdiyi vəkillərə qulaq asmaq istəmədi, bundan sonra o, özü kral qoşunlarına yaxınlaşdı və məşhur ifadəsini söylədi:

“5-ci alayın əsgərləri! İmperatorunuzu qəbul edin! Kimsə məni öldürmək istəyirsə, mən buradayam".

Buna cavab olaraq hökumət qoşunları kapitanının "Atəş!" əmri səsləndi. Lakin bunun əvəzində əsgərlər "Yaşasın imperator!" deyə qışqırmağa başladılar. Napoleon, başqa şəhərlər kimi Qronoblu da qan tökmədən döyüşsüz ələ keçirdi. Royalistlərin qalıqları şəhəri tez tərk etdilər.

Qronobldan sonra Napoleon artilleriya ilə silahlanmış altı alayın başında Liona doğru istiqamət aldı. Napoleonun qarşısını almaq üçün Lüdovik tərəfindən oraya göndərilən diviziyalar da döyüşmədən imperatorun tərəfinə keçdi və martın 11-də o, onların hərbi rəsm keçidini qəbul etdi. 12 mart tarixli fərmanında Napoleon Zadəganlar Palatasının və zadəganların hüquqlarını məhdudlaşdırdı və yeni hakimlər təyin etdi. Lionun süqutundan sonra artıq Napoleonun sərəncamında 15000 əsgər var idi.

Bu ordu Parisə doğru hərəkət edirdi. Lon-le-Sonye yaxınlığında "korsikalı canavar"ı qarşılamağa göndərilən marşal Neyin ordusu onu gözləyirdi. Ney Fontenbloda imperatorun taxtdan imtinasından sonra, Burbonların xidmətinə keçənlərdən biri idi. O, Napoleonu dəmir qəfəsdə Parisə gətirəcəyinə və vətəndaş müharibəsinin qarşısını alacağına vəd vermişdi. Hökumət qüvvələrinin rəhbərliyində həyəcan hökm sürürdü.

Ney, Şalon şəhərindən əlavə qüvvələr gözləyirdi, bunun əvəzində isə onun köməyinə gələcək qüvvələrin də Napoleonun tərəfinə keçdiyi xəbəri yayıldı. Neyin

ordusu Lon-le-Sonyedən Burkaya gedən yolda mövqe tutmuşdu. Eyni vaxtda Napoleon Lionu tərk edərək əhalisi onu məmnuniyyətlə qarşılayan Makonu ələ keçirdi. Hökumət qoşunları arasında Napoleonun agentləri fəal təbliğat apararaq onun tərəfinə keçməyi təşviq edirdilər. Napoleonun emissarları Neyə imperatorun "Moskva döyüşündən bir gün sonra onu qəbul etdiyi kimi" qəbul edəcəyinə dair bir məktub çatdırdılar. Napoleonun elçiləri siyasətdə səriştəsi olmayan Neyi bütün xarici dövlətlərin Burbonları dəstəkləmədiyinə və ingilislərin qəsdən Napoleonun qaçmasına şərait yaratmaq üçün patrul gəmilərini Elbadan çəkdiklərinə inandırdılar. Bütün bunlar yalan olsa da, elçilər Neydə lazımi təəssürat yaratmağa nail oldular. Nəticədə o, əsgərlərin imperatorun tərəfinə keçməyə çağırdığı müraciət imzaladı.

1815-ci il martın 17-də Ney qoşunları ilə Napoleonun tərəfinə keçdi. Martın 9-da kral ailəsi ilə birgə Parisdən Belçikaya qaçdı.

Sovet tarixçisi Yevgeni Tarle təkrarolunmaz istehza ilə yazırdı: “Hakim dairələrə yaxın olan Paris mətbuatı hədsiz özünəinamdan tam ruh düşkünlüyü və örtülməmiş qorxuya keçmişdi. Onun bu günlərdə xarakterik davranışı, Napoleon cənubdan şimala doğru irəliləyərkən ona tətbiq edilən ifadələrin ciddi ardıcıllığında özünü biruzə verirdi:

İlk xəbər: “Korsika canavarı Juan körfəzinin sahilinə çıxdı”.

İkinci xəbər: “Adamyeyən Qrassa gedir”.

Üçüncü xəbər: “Qəsbkar Qrenobla girdi”.

Dördüncü xəbər: “Bonapart Lionu işğal etdi”.

Beşinci xəbər: “Napoleon Fontenbloya yaxınlaşır”.

Altıncı xəbər: “Bu gün, həşəmətli İmperator Əlahəzrətlərini sadiq Paris şəhərində gözləyirlər”.

1815-ci il martın 20-də Fransa sahillərinə çıxandan iyirmi gün sonra Napoleon Bonapart bir atəş belə açmadan Parisə girdi və yenidən Fransanın hakimi oldu.

3.Yüz gün ərzində Napoleonun siyasəti

3.1.Daxili siyasəti

3.2.Xarici siyasəti

3.1.Daxili siyasəti

Napoleon Lazar Karno və Bencamin Konstan kimi mühafizəkar respublikaçılara istinad etməyə çalışırdı. Aprelin 23-də "İmperiya konstitusiyalarına əlavə Akt" nəşr edildi. Bu qanun toplusunda aşağı palatadan (300 nəfər seçilmiş deputat) və üzvləri imperator tərəfindən təyin edilmiş və irsi olduğu ehtimal edilən yuxarı palatadan ibarət iki palatalı parlamentin yaradılması nəzərdə tutulmuşdu.

Bundan sonra qəbul edilən hər hansı bir qanun, hər iki palatada müzakirə olunmalı və imperatorun razılığı ilə qəbul olunmalı idi. Mayın 25-də yeni konstitusiya plebissit (referendum) tərəfindən lehinə 1,305,206 səs, əleyhinə 4206 səslə təsdiq edildi. İyunun 1-də yeni seçilmiş palatanın təntənəli açılışı oldu və ilk iclası keçirildi.

1815-ci il martın 20-də yeni hökumət işə başladı. Jozef Fuşe yenidən polis naziri, Lui Davu - Paris general-qubernatoru və müharibə naziri, Arman de Kolenkur - xarici işlər naziri, Lazar Karno - daxili işlər naziri, Yuq-Bernar Mare – dövlət katibi təyin edildi. Fransa ümumilikdə imperatorun geri qayıtmasını qəbul etsə də, Vandeyada üsyan başladı və Napoleon 1000-ə yaxın əsgəri ora göndərmək məcburiyyətində qaldı.

3.2.Xarici siyasəti

Myuratın başçılıq etdiyi Neapol krallığından başqa bütün Avropa ölkələri Fransanın yeni elan edilmiş imperatoru Napoleona qarşı çıxdılar. Napoleon ölkəsinin sülhə ehtiyacı olduğunu başa düşürdü. O, barışıq təklifi ilə, Avropa dövlətlərinin başçılarına müraciət etdi və Fransanın sərhədlərini keçməyəcəyinə söz verdi. Müttəfiqlərin arasına nifaq salmaq məqsədi ilə Napoleon, Burbonlardan sonra qalan bəzi gizli sənədləri I Aleksandra göndərdi. Bu yazışmalarda, Fransa, İngiltərə və Avstriyanın Rusiya və Prussiyanın Avropada nüfuzunun artmasının qarşısını almaq üçün onlara qarşı gizli sövdələşmələr əksini tapmışdı. Ancaq bu kömək etmədi. Napoleon rəqiblərinə Belçikada qabaqlayıcı zərbə endirmək qərarına gəldi. Müharibə Şimal ordusunun (fr. Armée du Nord) Sambr çayını keçməyə başladığı 15 iyun 1815-ci il tarixində başladı.

Belçika kampaniyası 1815-ci il iyunun 15-dən 18-dək davam etdi. Fransız Şimal ordusuna qarşı Yeddinci koalisiyanın iki ordusu: ingilis və Prussiya qoşunları durmuşdu. İngilis ordusunun başında hersoq Artur Vellinqton dururdu. Prussiya ordusuna isə knyaz Qebxard Blyuxer komandanlıq edirdi. Napoleon Vaterloo döyüşündən əvvəl qoşunlara başçılıq edirdi, bundan sonra o komandanlığı marşallar Nikola Sultu və Emanuel Qruşiyə təhvil verdi. Tezliklə Fransanın Müvəqqəti Hökumətinin göstərişi ilə onları marşal Lui Davu əvəz etdi.

Vaterloo döyüşü — 1815-ci il 18 iyun tarixində Niderland Birləşmiş Krallığının ərazisində (müasir Belçika) baş vermiş və Napoleon Bonapartın başçılığı altındakı fransız ordusunun Lord Vellinqtonun rəhbərlik etdiyi Britaniya və müttəfiq qoşunları, həmçinin Qebhard Blyuxerin rəhbərliyi altındakı Prussiya ordusundan ibarət Yeddinci koalisiya ordularına məğlub olduğu döyüş.

Napoleon Lini döyüşündə Blyuxerin pruss ordusunu məğlub edə bildi, eyni zamanda Ney Katr-Bra döyüşündən sonra Vellinqtonu geri çəkilməyə məcbur etdi.

Marşal Drue nə Napoleona, nə də Neyə vaxtında kömək edə bilmədi, bu da fransızlara rəqiblərini darmadağın etməyə imkan vermədi. Napoleon marşal Qruşinin komandanlığı altında ordusunun üçdə birini Blyuxerin ardınca göndərdi. Özü isə Vaterloo yaxınlığında mövqe tutan Vellinqtonun üzərinə hücum etdi. Qruşi Vavre döyüşündə prussiyalıların ön cəbhəsinə hücum edərək onu darmadağın etdi. Lakin prussiyalıların əsas qüvvələri Vaterlooya getməyə müvəffəq oldu. Sonrakı döyüşdə Napoleon Vellinqtonu bütün mövqelərdən vurub çıxara bildi, ancaq vaxtında çatan Blyuxer Napoleonun məğlubiyyətinə səbəb olan həlledici zərbəni endirdi.

4. Paris sülhü və yüz günlük hakimiyyətin sona çatması

Fransız ordusu Vaterloo döyüşündən sonra bir sıra taktiki qələbələr qazansa da, bu Fransanın strateji mövqeyini dəyişmədi. Napoleon ölkənin potensialının artıq tükəndiyini və artıq döyüşə bilməyəcəyini gözəl başa düşürdü. 1815-ci il iyunun 21-də imperator hadisələrin gedişini müzakirə etmək üçün ona müxtəlif fikirlər təklif edən nazirləri bir yerə topladı. Onlardan bir neçəsi diktaturanın elan olunmasından milli məclisin (palata) buraxılmasına qədər təkliflər irəli sürdülər. Palata bunu dinlədikdən sonra Lafayetin rəhbərliyi ilə özünü "buraxılmaz" elan etdi:

“Nümayəndələr Palatası ölkənin müstəqilliyinə təhlükə olduğunu bəyan edir. Nümayəndələr Palatası özünü "buraxılmaz" elan edir. Onu buraxmaq üçün edilən hər hansı bir cəhd dövlətə xəyanət hesab olunur. Kim belə bir cəhd etsə, vətən xaini elan ediləcək və bu maddə ilə də ittiham ediləcək. Fransanın azadlığını, müstəqilliyini və torpağını müdafiə edən və vuruşmaqda davam edən ordu və Milli qvardiya, vətənin minnətdarlığına layiqdirlər. Hərbi, xarici əlaqələr, polis və daxili işlər nazirləri təcili olaraq Assambleyanın iclasına gəlməlidirlər.”

Ancaq, Napoleon Paris ətrafında məskunlaşan fəhlələr tərəfindən dəstəklənirdi və onlar işğalçılara qarşı mübarizənin davam etdirilməsini tələb edirdilər. Sonradan Napoleon xatirələrində deyirdi ki, "... kütlənin bütün palatanı məhv etməsi üçün onun bir sözü kifayət edərdi". Ancaq bunun heç biri edilmədi. Napoleon həmişə iri burjuaziyaya arxalanırdı; o, heç vaxt aşağı təbəqənin carçısı deyildi. İri burjuaziya ona dəstək verməkdən imtina etdi, birjada yaranan həyəcan bunun əyani sübutu idi.

22 iyun 1815-ci il tarixində axşam saat 9-da Napoleon oğlunun xeyrinə taxtdan imtina etdi və Malmezona yola düşdü. Amma iyunun 25-dək onun bir çox tərəfdarı imperatorun taxtdan imtinası ilə barışmaq niyyətində deyildi. Hər kəs çoxlarının nifrət etdiyi Burbonların yeni gəlişinin baş verəcəyini yaxşı başa düşürdü. Napoleon buna müqavimət göstərə bilən yeganə insan idi, amma o, fikrini dəyişmədi. İyunun 28-də Amerikaya getmək niyyəti ilə Malmezondan Roşfora gəldi. Bütün səfər boyu və şəhərin özündə də onu böyük təntənə və sevinclə qarşılayırdılar. İyulun 8-də o,

iki freqatla açıq dənizə çıxdı, lakin Eks adasından irəli gedə bilmədi. Adanın yaxınlığında İmperator Fransanı dənizdən blokadaya alan ingilis eskadrası ilə qarşılaşdı. Fransız dənizçiləri ingilislərlə ölümcül döyüşə girməyi təklif etdilər ki, imperator başqa bir gəmidə ("Zaale") vuruşmanın qızğın yerində açıq dənizə çıxsın. Amma Napoleon artıq taleyi ilə barışmışdı.

1815-ci il iyulun 15-də "Bellerofon" gəmisindəki ingilislərə təslim oldu. İngilislər isə onu Müqəddəs Yelena adasına, sürgün məkanına apardılar.

"Yüz gün" ifadəsi Sena departamentinin prefekti qraf Şabrolun Gentdən qayıdan XVIII Lüdovikə iyulun 8-də ünvanladığı salamlaşma müraciətindən sonra meydana gəlmişdir: "Əlahəzrət, təbəələrinizin göz yaşları və iztirabları içində paytaxtı tərk etmək məcburiyyətində qaldığınızdan yüz gün keçdi".

Müqəddəs Yelena adasında ikən Napoleon öz memuarlarını yazır. Səhhətinin get-gedə pisləşməsilə 5 may 1821-ci ildə 51 yaşında vəfat edir. Mayın 9-da dəfn edildi. Atopsiyanın nəticəsinə görə Napoleon qanaxma ilə fəsadlaşmış mədə xərçəngindən vəfat etmişdir. Onun zəhərlənməsi ilə bağlı iddialar təsdiqini tapmayıb.

Ölümündən demək olar ki, iyirmi il sonra Napoleon Bonapartın cəsədi 15 oktyabr 1840-cı ildə ekshumasiya olunaraq Fransaya gətirilmiş və özünün tikdirdiyi, lakin sağlığında altından keçə bilmədiyi Parisin Zəfər yağından keçirilməklə Əlillər meydanında sarkofaqda dəfn edilmişdir.

BEŞİNCİ FƏSİL
NAPOLEON MÜHARİBƏLƏRİ DÖVRÜNDƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR (1799 — 1814). VYANA KONQRESİ

III BÖLMƏ
Vyana konqresi və Vyana sisteminin yaranması

§1. Vyana konqresinin çağırılması
1.1814-cü il Paris sülhü
2.Konqresə hazırlıq
3.Konqresin fəaliyyətinin həyata keçirilmə üsulları
§2. Legitimizm prinsipi
1.Problemlərin müxtəlifliyi
2.Dövlətlərin ümumi yanaşmaları
§3.Vyana Konqresinin qərarları
1.Uğursuzluqlar astanasında
2.Dövlətlərin sərhədləri
3.Avropanın cənubunda geosiyasi vəziyyət

4.Alman İttifaqı
5.Yekun aktı
6.Rütbələr haqqında müddəalar
7.Əvvəlcədən nəzərə alınmayan məsələlər
§4."Avropa konserti"

§1. Vyana konqresinin çağırılması
1.1814-cü il Paris sülhü
2.Konqresə hazırlıq
3.Konqresin fəaliyyətinin həyata keçirilmə üsulları

1.1814-cü il Paris sülhü

Demək olar ki, əsrin dörddə biri qədər davam edən inqilab və Napoleon müharibələri dövrünün sonunda Avropanın vəziyyəti çox kədərli görüntülərə malik idi. Xarici orduların işğalından və hərbi əməliyyatlardan əziyyət çəkməyən ölkə və xalq demək olar ki, yox idi. Ən əsası isə, bu müharibələr Avropa dövlətləri arasında ərazi, iqtisadi və sülalə ziddiyyətlərinin düyününü daha da çətinləşdirdi. Napoleon Fransası üzərində qələbədən sonra müttəfiq dövlətlərin əsas vəzifəsi bu düyünü açmaq mümkün olmasa da, heç olmasa onu zəiflətmək idi.

Müttəfiqlər ilk növbədə, Fransa ilə münasibətlərini nizamlamağa tələsdilər: 1814-cü il mayın 30-da, məğlub olan düşmənə qarşı son dərəcə mərhəmətli olan, XVIII Lüdovik hökuməti ilə sülh müqaviləsi bağladılar. Müqavilə, Fransanın suverenliyini və ərazi bütövlüyünü təmin etdi. Fransa, yalnız 1792-ci ildən sonra istila etdiyi əraziləri itirdi. Lakin o, 1789-cu il sərhədləri daxilində yalnız bütün öz ərazisini deyil, həm də inqilab dövrünün bəzi fəthlərini - əsasən keçmiş papa mülkü olan Avinyonu və Venesiya qraflığını özündə saxladı. Müttəfiqlər qisas almaq fikrindən daşındılar. Onlara dəyən ziyana görə maddi təzminat belə tələb etmədilər və qısa müddətdə öz qoşunlarını Fransadan çıxardılar. Fransa ilə sülh müqaviləsini, mayın 30-da "müttəfiqlər" adlandırılan yeddi dövlət - Rusiya, Böyük Britaniya, Avstriya, Prussiya, İspaniya, Portuqaliya və İsveç imzaladı.

Fransaya qarşı bu cür yumşaq rəftarın səbəbi, bir tərəfdən, müttəfiqlərin həmişə bəyan etdiyi kimi, onların Fransaya və fransız xalqına qarşı deyil, "qəsbkar" Napoleon Bonaparta qarşı mübarizə aparmaları idi. Həmçinin onların məqsədi fransız torpaqlarını ələ keçirmək deyil, Avropa xalqlarının fransız əsarətindən azad edilməsi idi. İşğalçıları qovub və Bonapartı taxtdan saldıqdan sonra onlar öz vəzifələrini yerinə yetirmiş hesab etdilər. Fransa ilə sülh müqaviləsinin şərtləri müttəfiqlərin müharibənin azad edici məqsədlərinə uyğun gəlirdi.

Digər tərəfdən, müttəfiqlərə Avropada qüvvələr nisbətini bərpa etmək üçün kifayət qədər güclü və müstəqil Fransa lazım idi. Onlar yaxşı bilirdilər ki, dövlətlərin münasibətlərində fikir ayrılıqları var. Onlar, əvvəlcədən görürdülər ki, Napoleon müharibələrinin sona çatması ilə bu ziddiyyətlər daha da güclənəcək. Müttəfiq dövlətlərin hər biri beynəlxalq aləmdə öz rolunu artırmağa çalışır və eyni zamanda, rəqiblərindən çəkinirdilər. Onlar gələcəkdə Fransaya elə bir dövlət rolu verirdilər ki, zərurət yarandıqda ona arxalanaraq, öz iddialarını təmin etməyə nail olsunlar və ya ən azı ondan, daha güclü rəqibə qarşı tarazlıq kimi istifadə edə bilsinlər.

2.Konqresə hazırlıq

Lakin, Fransa ilə bağlanan müqavilə Avropada sülh yolu ilə nizamlanmanın bütün problemlərini həll etmədi. 1814-cü ildə Napoleonun məğlubiyyəti ilə, onun hakimiyyəti dövründə Avropa dövlətlərinə zorla tətbiq etdiyi beynəlxalq nizam süqut etdi. Anti-Fransa koalisiyasına daxil olan ölkələr ixtilafın qarşısını almaq üçün qarşılıqlı münasibətlərdə yeni qaydalar müəyyən etmək, eyni zamanda sərhədlərin qarşılıqlı tanınması barədə razılığa gəlmək məsələsi ilə üzləşdilər.

Artıq 1814-cü il Paris müqaviləsi, Avropanın gələcək strukturunun bəzi mühüm xüsusiyyətlərini müəyyən etmişdi. Hollandiyanın Oranlı knyazlıq evinin "hakimiyyəti altına" verilməsi nəzərdə tutulurdu. Alman dövlətləri öz müstəqilliklərini qoruyub saxlamalı, eyni zamanda bir növ "ümumi ittifaq"ın tərkibinə daxil olmalı idilər. Müttəfiqlər İsveçrə konfederasiyasının müstəqilliyini də bərpa etmək niyyətində idilər. İtaliya ərazisinin bir hissəsinin Avstriya İmperiyasına verilməsi, qalan hissəsinin isə "suveren bölgələrdən" ibarət olması planlaşdırılırdı. Aralıq dənizindəki Malta adası Böyük Britaniyanın "tam mülkiyyətinə və sahibliyinə" keçirdi. Britaniya hökuməti öz növbəsində, bir sıra adalar - Tobaqo və Vest- Hinddə olan Sen-Lyusi, habelə Hind okeanında olan İl de Frans (indiki Mavrikiya) istisna olmaqla, 1792-ci il dövründə Fransaya ona aid bütün xarici mülklərini, ona qaytarmağı öhdəsinə götürürdü..

Bununla belə, sülhün nizamlanması yolunda bir çox digər məsələlərdə müttəfiqlər hələ razılığa gələ bilməmişdilər. Bu məqsədlə Vyanada beynəlxalq konqres çağırılması qərara alındı. Ən zəruri məsələləri əvvəlcədən müzakirə etmək üçün, Britaniyanın şahzadə- varisi (ağır xəstə atası III Georqu əvəz edən gələcək Kral IV Georq) digər üç əsas müttəfiq dövlətin - Rusiya, Prussiya və Avstriyanın hökmdarlarını Londonda görüşə dəvət etdi. Danışıqlarda I Aleksandr şəxsən iştirak edirdi, kral III Fridrix Vilhelmi öz naziri Hardenberqin müşayiəti ilə gəldi və İmperator Frans öz yerinə Metternixi göndərməyə üstünlük verdi. Əvvəlcə bu ilkin danışıqların iştirakçıları ümid edirdilər ki, bütün mübahisəli məsələlərdə razılığa gələ biləcəklər və Vyanada toplanacaq hökmdarlara hazır həll yolları təklif edəcəklər.

Bununla belə, məlum oldu ki, onlar düşündüklərindən daha dərin fikir ayrılıqlarına malikdirlər. Ona görə də, Konqresin açılışı bir neçə dəfə təxirə salındı və sonda 1814-cü il noyabrın 1-ə təyin olundu.

Artıq sentyabr ayında, Avropanın hər yerindən hökmdarlar və nazirlər, onların səlahiyyətli nümayəndələri və hətta təsadüfi tamaşaçı kütləsi siyasi və dünyəvi həyatda belə diqqət çəkən qeyri-adi hadisənin baş verəcəyi Vyanada toplanmağa başladılar. Bununla belə, təşkilati rəsmiyyətçilik minimum dərəcəyə endirildi. Paris müqaviləsində qeyd olunan maddə nəzərə alınmasa, heç kim heç kəsi Konqresə xüsusi olaraq dəvət etməmişdi. Müvafiq olaraq, onun reqlamenti əvvəlcədən hazırlanmamışdı. Nəticədə, Vyana konqresində iştirak etmək üçün bütün Avropa ölkələrindən (Osmanlı İmperiyasından başqa) 216 nümayəndə toplandı, o cümlədən Napoleon müharibələri zamanı mülklərini itirmiş və indi onları özlərinə qayıtmağa can atan krallar və şahzadələr də. Rusiya İmperatoru I Aleksandr, Avstriya İmperatoru I Frans, Prussiya Kralı III Fridrix Vilhelm və digər monarxlar şəxsən iştirak edirdilər. Dövlət və hökumət başçılarının rəhbərlik etdiyi diplomatik nümayəndələrlə birlikdə, onların zövcələri, qohumları, çoxsaylı müttəfiqləri, tacirlər, bankirlər, rəssamlar, şairlər və digər tanınmış şəxslər Vyanaya gəlmişdilər. Onların əksəriyyətini bütün Avropanın taleyini həll edəcək çoxsaylı hökmdarları öz gözləri ilə görmək, qismət olsa, hətta onlarla danışmaq imkanı cəlb edirdi. Bütövlükdə, Vyana konqresi çox nüfuzlu bir forum oldu.

3.Konqresin fəaliyyətinin həyata keçirilmə üsulları

Avstriya, Böyük Britaniya, Prussiya və Rusiya nümayəndələrinin Vyanada görüşləri (onlar "kiçik şura" adlanırdı) yenidən başladı. Bu görüşlərdə, müharibədən sonrakı strukturun ən mühüm məsələlərinə, xüsusilə də Polşa, Almaniya və İtaliyanın sərhədlərinə dair qərarların, yalnız bu dörd dövlət tərəfindən öz dar dairələrində qəbul edilməsi barədə razılıq əldə edildi. Fransa və İspaniya bu görüşlərə yalnız lazım gəldikdə dəvət olunacaq idilər. İsveçə gəlincə, o, əslində belə məsələlərin müzakirəsindən kənarlaşdırılmışdı.

Konqres iştirakçılarının öz aralarında uzun müddət davam edən mübahisələri oldu. Onlar ümumi yığıncaqlarının keçirilməsinin zəruri olub-olmaması və lazım gələrsə, nə qədər və hansı tərkibdə keçirilməsi barədə qızğın müzakirələr apardılar. Lakin onlar, heç bir razılığa gələ bilmədilər. Əslində, konqres noyabrın ilk günlərində, Paris sülhünü imzalayan səkkiz dövlətin nümayəndə heyətlərinin mandatlarının yoxlanılması ilə işə başladı. Sonradan, bu qondarma "səkkizlər komitəsi"nin iclasları qurultayın ümumi yığıncaqları kimi tanındı. Onlardan əlavə, ayrı- ayrı məsələlər və konqresin fəaliyyət istiqamətləri üzrə yaradılmış komissiya və komitələrin - Almaniya komitəsinin, İsveçrə işləri üzrə komitənin, statistika

komissiyanın, qul ticarətinin ləğvi üzrə komissiyanın, naviqasiya üsulu məsələsi komissiyasının, diplomatik etiket komissiyasının və s. iclasları da keçirilirdi.

Lakin əsas rolu Napoleon Fransasına qarşı mübarizənin əsas yükünü öz üzərində daşımış dörd müttəfiq dövlət - Rusiya, Böyük Britaniya, Prussiya və Avstriya İmperiyası oynayırdı. Onların adından danışıqları Rusiya İmperatoru I Aleksandr, Böyük Britaniyanın Xarici İşlər naziri Lord Kaslri, Prussiya Kansleri knyaz fon Hardenberq, Avstriya Kansleri knyaz fon Metternix və digər yüksək vəzifəli şəxslər aparırdılar.

Vyana konqresində Fransanı, XVIII əsrin sonlarında baş verən inqilabın keçmiş iştirakçısı, Napoleon İmperiyasının yüksək məmuru, indi isə XVIII Lüdovik hökumətinin Xarici İşlər naziri olmuş Taleyran təmsil edirdi. İlk vaxtlar, avropalı diplomatlar və siyasətçilər ona etimadsızlıqla yanaşdılar. Fransız işğalçılarının uzun illər təlqin etdikləri düşmənçiliyə qalib gəlmək onlar üçün çox çətin idi. Bundan əlavə, Taleyranın şəxsən özü də onların gözündə qüsursuz olmaqdan uzaq idi. Lakin hamı başa düşürdü ki, Fransanın fəal iştirakı olmadan möhkəm beynəlxalq nizam qurmaq mümkün deyildir. Bundan əlavə, Taleyran Fransanın nüfuzunu yüksəltmək üçün müttəfiqlər arasında olan fikir ayrılıqlarından məharətlə istifadə edirdi. Ona görə də, Fransa nümayəndələri də, dörd müttəfiq dövlətlə birlikdə Avropa siyasətinin əsas məsələlərinin həlli yollarının axtarışında iştirak etdilər.

Konqresin ümumi iclaslarının sayı az oldu. Konqresin işi, əsasən Fransanın iştirakı ilə müttəfiq dövlətlərin nümayəndələrinin iclasları ilə məhdudlaşırdı, lakin lazım gəldikdə, hər hansı konkret ərazi və ya sülalə problemini müzakirə etmək üçün digər ölkələrdən nümayəndələr dəvət edilirdi. Qeyri-rəsmi görüşlər, söhbətlər, fikir mübadiləsi çox mühüm rol oynayırdı. Onlar, bir qayda olaraq, kübarların çoxsaylı əyləncələri ilə tanınan Vyana konqresi dövründə keçirilən balların, qəbulların, teatr tamaşalarının qeyri rəsmi mühitində baş verirdi. Müasirləri onu zarafatla "rəqs edən" konqres adlandırırdılar.

§2. Legitimizm prinsipi

1.Problemlərin müxtəlifliyi

2.Dövlətlərin ümumi yanaşmaları

1.Problemlərin müxtəlifliyi

Vyana konqresində iştirakçılar arasında mübahisələrə səbəb olmayan heç bir məsələ yox idi. Əvvəlki illər ərzində dövlətlərin dəfələrlə dəyişmiş sərhədlərinin taleyi məsələsi ən mübahisəli problemlərdən biri idi. Konqresin bəzi üzvləri 1792-ci il sərhədlərinə qayıtmağın tərəfdarı idilər. Amma bu təklifə anti-Fransa koalisiyasının üzvləri olan ən böyük dövlətlər, o cümlədən Rusiya, Prussiya,

Avstriya Napoleon Bonapartla müharibə zamanı qələbəyə verdikləri öz töhfələrinə görə ərazi təzminatına iddia etdiklərinə görə etiraz etdilər. Fransanın və onun müttəfiq dövlətlərinin müstəmləkələrinin bir hissəsini ələ keçirən Böyük Britaniya da onları keçmiş sahiblərinə qaytarmağa əsla tələsmirdi.

Alman məsələsi də konqres iştirakçılarının baş ağrısına səbəb oldu. Əsrlər boyu Avropada qurulmuş nizam, ayrı-ayrı dövlətlərin geniş hüquqlara malik olduğu Alman xalqının Müqəddəs Roma İmperiyasının mövcudluğunu nəzərdə tuturdu. Onların müstəqilliyi həm Habsburq monarxiyasının, həm də Fransanın hədsiz güclənməsinə qarşı bir növ təminat idi. Lakin, indi onlar, Avropa tarazlığını qorumaq üçün, 1806-cı ildə Napoleon tərəfindən ləğv edilən Müqəddəs Roma İmperiyasını bərpa etmək fikrində deyildilər.

Avropanın siyasi quruluşu məsələsi Fransa inqilabının və Napoleon İmperiyasının mirasının ümumi məsələsi ilə sıx bağlı idi. Fransızların ilhaq edilmiş ərazilərdə və onlardan asılı olan ölkələrdə apardıqları dəyişikliklərin taleyi ilə məşğul olmaq lazım gəlirdi. Bir çox monarxlar, xüsusən Avstriya imperatoru, Prussiya və İspan kralları bu irsi açıq şəkildə rədd etdilər. Onlar hesab edirdilər ki, ən yaxşısı Avropanı 1789-cu ildən əvvəl mövcud olan ictimai münasibətlərə qaytarmaqdır.

2.Dövlətlərin ümumi yanaşmaları

Qarşılıqlı məqbul razılaşma əldə etmək üçün Vyana konqresinin iştirakçıları bu müxtəlif problemlərin həllinə müəyyən ümumi yanaşma tapmağa məcbur idilər. Onlar üçün, Fransız inqilabı və Napoleon müharibələri illərində bir sıra Avropa mütəfəkkirləri tərəfindən irəli sürülən mühafizəkar izaha əsaslanan legitimlik və ya qanunilik (lat. lex - qanun) nəzəriyyəsi çox faydalı oldu. Onun formalaşmasına ingilis siyasətçisi və publisisti Edmund Berk, fransız dini yazıçıları və filosofları Jozef de Mestr və de Bonald, həmçinin Metternixin müşaviri olmuş alman publisisti Fridrix Gentz mühüm töhfə vermişlər.

Onların hamısı inqilabi və Napoleon çevrilişlərinə mənfi münasibət bəsləyərək, onları sabit, oturuşmuş və ənənəvi ictimai quruluşun məhv edilməsində günahlandırırdılar. Bununla, onlar hesab edirdilər ki, Avropa xalqlarının başına gələn bütün bədbəxtliklər - vətəndaş iğtişaşları, xarici müharibələr, mənəviyyatın pozulması və s. inqilabın nəticələridir. Mühafizəkar mütəfəkkirlər insanları zamanın sınağından keçmiş dəyərlərə - dinə və kilsəyə, dövlətlərin monarxiya quruluşuna, silki bölgü sisteminə qayıtmağa çağırırdılar. Eyni zamanda, onlar tarixin yeni "zaman mühitinə" uyğun olan müəyyən güzəştlərin edilməsinin zəruriliyini dərk edirdilər.

Konqres iştirakçıları arasında aparılan müzakirələr zamanı legitimlik prinsipinə münasibətdə ikitərəfli şərhi qeyd olundu - tarixi və hüquqi. Üstəlik, elə həmin dövlət xadimləri müzakirə olunan məsələdən və öz maraqlarından asılı olaraq, onun bu və ya digər izahına müraciət edirdilər.

Legitimizmin tarixi şərhi nöqteyi-nəzərindən həqiqətin, müəyyən sosial institutların qanuniliyinin, sərhədlərinin və s.-nin əsas meyarı onların qədimliyindədir. Ona görə də, məsələn, Fransada olan Burbon sülaləsi daha əvvəldən hakimiyyətdə olduğu üçün Bonapart sülaləsindən daha artıq taxt hüququna malik olduğu qəbul edilirdi. 1789-cu ildə mövcud olan sərhədlər, inqilabi və Napoleon ilhaqları və işğalları nəticəsində yaranan sərhədlərdən daha böyük hüquqi qüvvəyə malik idi. Ona görə də xalqların qədim zamanlardan bəri yaşadıqları qanunlar daha ədalətli və düzgün elan edilir, hər hansı yeniliklər səhv və hətta cinayət elan edilirdi.

Bununla belə, əksər Avropa hökumətləri 1789-cu ildən əvvəl mövcud olan idarə sisteminə tam qayıdışın mümkün olmayan bir iş olduğunu çox yaxşı anlayırdılar. Belə ki, Avropada inqilabdan əvvəlki dövrün cəmiyyətini "köhnə nizam" adlandıran və ona qayıtmaq istəməyən bütöv bir nəsil yetişmişdi. Mövcud qanunlar və mövcud sərhədlər onlar tərəfindən adi, normal həyat şəraiti kimi qəbul edilirdi. Ancaq ən əsası o idi ki, onların əsasında mülkiyyət, sülalə, siyasi münasibətlər formalaşmışdı, bunlara etinasız yanaşmaq, sadəcə olaraq, təhlükəli olardı: bu, güclü qüvvələrin mənafeyinə zərbə vurar, onların qarşıdurmasına səbəb ola bilərdi.

Bunlardan əlavə, 1789-cu ilə qədərki nizama tam qayıtmaq heç bir halda monarxların özlərinin niyyətlərinə daxil deyildi. Onlardan bəziləri nəinki Napoleon müharibələrindən gözə çarpmayan itkilərlə çıxdılar, hətta müəyyən qazanclar əldə edə bildilər və indi bu qazandıqlarından ayrılmaq istəmirdilər. Məsələn, Bavariya, Saksoniya və Vürtemberq kralları Napoleonun onlara verdiyi titullarını qoruyub saxlamaq istəyirdilər. Bundan əlavə, Napoleon Fransasına qalib gələn dövlətlər qələbəyə verdikləri töhfəyə görə mükafat kimi yeni mülkiyyətlər almağa ümid edirdilər.

Ona görə də, özlərini legitimliyin tərəfdarları elan edən, bir çox monarxlar bu anlayışa tamamilə fərqli, hüquqi şərh verirdilər. Onlar, ilk növbədə hamı tərəfindən tanınmış beynəlxalq müqavilələrə əsaslanan qanuni nizamın güc və hüquqa əsaslandığını bildirirdilər. Dövlətlər arasında müqavilənin beynəlxalq həyatın bir növ qanunu olması fikri heç də yenilik deyildi. Hətta, 1648-ci ildə imzalanmış Vestfal müqaviləsi göstərdi ki, Avropa dövlətlərinin əksəriyyəti tərəfindən tanınan belə müqavilələr uzun müddət beynəlxalq nizamın əsası ola bilər. Bununla belə, Vestfal beynəlxalq münasibətlər sistemi daha çox dövlətlər arasında bağlanmış müqavilələrə, onların qanunun aliliyinə riayət etmələrinə deyil, XVII əsrin

ortalarında kortəbii şəkildə formalaşmış qüvvələrin tarazlaşdırılması siyasətinə əsaslanırdı.

XVII əsrin ikinci yarısı - XVIII əsrin birinci yarısında baş verən sülalə müharibələri. o dövrün insanlarının hüquqi baxımdan şüurunun nə qədər natamam olduğuna şahidlik edirdi. Beynəlxalq münasibətlərdə güc siyasəti hələ də hökm sürürdü. Müqavilələr dövlətlərin sülalə və ya digər həyati maraqları ilə toqquşmağa başlayan kimi, hökumətlər heç bir peşmançılıq çəkmədən, bu razılaşmalara mənasız "kağız parçası" kimi yanaşaraq onları yerinə yetirməkdən imtina edirdilər. Fransız kralı XIV Lüdovik 1700-cü ildə sahibsiz qalan İspan mirasına münasibətdə məhz belə bir addım atdı. Prussiya kralı II Fridrix də 1740-cı ildə Avstriyanın mirası uğrunda müharibəyə başlayaraq, eyni siyasəti həyata keçirdi.

Vyana konqresi yeni Avropa nizamının əsasını təşkil edəcək beynəlxalq müqavilələrin nüfuzunu və əhəmiyyətini yüksəltməyə çalışırdı. Bu nizam, Avropanın ən böyük dövlətləri arasında, bütün digər ölkələr üçün də problem yarada bilən müharibələrin təkrarlanması ehtimalını istisna etmək üçün nəzərdə tutulmuşdu. İlk növbədə, inqilabçı və Napoleon Fransası ilə müharibələrin əsas yükünü daşıyan Avropanın ən böyük dövlətləri, xüsusən də əsas müttəfiq dövlətlər belə bir nizam yaratmağa can atırdılar. Hər bir dövlətin öz şəxsi maraq və məqsədlərinin olduğunu inkar etmədən, onların müdafiəsi, mənafelərin qarşılıqlı olaraq nəzərə alınması və hamı tərəfindən qəbul edilmiş müqavilələrin bağlanması üçün, müzakirələri bütün hamıya məqbul olan danışıqlar forması ilə əhatə etmək istəyirdilər.

Onlar bu nizamı pozanlara qarşı güc tətbiq etməyə də hazır idilər. Avropa dövlətlərinin ciddi təlatümlər və müharibələr istisna olmaqla, sabit beynəlxalq nizamın yaradılmasında maraqlı olması çox sadə izah olunurdu. Onlar yeni müharibə istəmirdilər və ondan qorxurdular, çünki yaxın tarixin təcrübəsi onları əmin etmişdi ki, müharibələr inqilabların başlanması üçün zəmindir. Baş verə biləcək hər cür sosial sarsıntılardan ehtiyat etmələri, Avropa monarxlarının döyüşkən ruhuna mənfi təsir edərək, onları uzun müddətə hərbi şöhrət istəklərindən çəkindirmiş və sülhsevər xarici siyasət yürütməyə məcbur edirdi.

Lakin Avropa monarxları hələ də, sülhün qorunmasının və beynəlxalq müqavilələrə riayət edilməsinin əsas təminatını, qüvvələr nisbətinin köhnə sınanmış prinsipində görürdülər. Əvvəllərdə olduğu kimi, Böyük Britaniya bu prinsipin əsas qızğın müdafiəçisi olmuşdu. Bir tərəfdən onun adada yerləşməsi, digər tərəfdən bütün dünyaya səpələnmiş nəhəng müstəmləkə imperiyası onu digər böyük dövlətlərdən nümunə götürərək, ordu və donanmasının mühüm qüvvələrini Avropada daim döyüş hazırlığında saxlamaq imkanından məhrum edirdi. Təbii ki, o, elə bir güc nisbətini təmin etməyə çalışırdı ki, qitədəki hər hansı bir dövlət və ya dövlətlər qrupu digər ölkələr tərəfindən tarazlaşdırıla bilsin. Avropanın yenidən

qurulması ilə bağlı bütün layihələr haqqında Vyanada çıxış edərkən, Britaniya naziri Kaslri bu və ya digər şəkildə Avropa tarazlığını bərpa etmək məqsədi güdürdü - bu, Fransanın şərq sərhədi boyunca bufer dövlətlərin yaradılması və Rusiya və Fransaya qarşı əks tarazlıq yaratmaq üçün, Prussiya və Avstriyanın ərazilərinin möhkəmləndirilməsi idi. Taleyran və Metternix də, Vyanada qüvvələr nisbətinin ardıcıl tərəfdarları olduqlarını sübut etdilər.

Eyni zamanda, hər üç dövlət xadimi öz dövlətlərinin mənafeyini müdafiə edərək, gələcəkdə Avropanın konkret cizgilərini fərqli formada təsəvvür edirdilər. Tarazlıq adı altında bəziləri, məsələn, Saksoniyanın müstəqilliyinin qorunub saxlanmasını tələb edə bilərdi, digərləri isə - Varşava Hersoqluğunun Rusiyaya birləşdirildiyi kimi, Saksoniyanın Prussiyaya verilməsini və ya digər dövlətlər arasında bölünməsini tələb edə bilərdi. Vyanada toplanan monarxların və dövlət xadimlərinin fikirlərində, legitimlik nəzəriyyəsi, gələcək beynəlxalq nizamın əsası kimi, ənənəvi Avropa tarazlığı siyasətinə əlavə olunaraq, onu tamamlamalı idi. Bu nəzəriyyə, onların açıq-aydın qaydalar yaratmaq istəyini təcəssüm etdirirdi. Onlar bu düzəni, Avropada sülhün və siyasi sabitliyin qorunması üçün ən mühüm ilkin şərtlərdən biri hesab edirdilər. Legitimizm prinsipi, Napoleon müharibələri sona çatdıqdan sonra yaradılan və adətən Vyana sistemi kimi adlanan beynəlxalq nizamın əsasını təşkil edərək, onun mühüm fərqləndirici xüsusiyyətinə çevrildi.

§3. Vyana Konqresinin qərarları

1.Uğursuzluqlar astanasında
2.Dövlətlərin sərhədləri
3.Avropanın cənubunda geosiyasi vəziyyət
4.Alman İttifaqı
5.Yekun aktı
6.Rütbələr haqqında müddəalar
7.Əvvəlcədən nəzərə alınmayan məsələlər

1.Uğursuzluqlar astanasında

Vyana konqresinin işinin lap əvvəlində onun əsas iştirakçıları Napoleon üzərində qələbəyə verdikləri töhfəyə görə, Avropada özlərinin qanuni mükafatı hesab etdikləri torpaqların bölünməsi ilə bağlı öz aralarında mübahisə edərək, az qala dalaşmaq həddinə gəldilər.

Napoleon müharibələrinin son mərhələsində müstəsna olaraq mühüm rol oynayan Rusiya fəal şəkildə öz ərazi iddialarının təmin olunmasına çalışırdı. O, digər ölkələrdən 1809-cu ildə Finlandiyanın və 1812-ci ildə Bessarabiyanın onun ərazisinə birləşdirilməsinin qanuniliyini tanınmasını tələb edirdi. Bu məsələnin çətinliyi onda

idi ki, bütün bu əldə olunan ərazilərin fəthi, o vaxt Rusiyanın müttəfiqlik münasibətlərində olduğu Napoleon Fransasının razılığı ilə həyata keçirilmişdi. Ancaq, ən əsası o idi ki, Rusiya 1807-ci ildə Napoleon tərəfindən yaradılmış Varşava Böyük hersoqluğunun ərazisinə də iddia irəli sürürdü.

Bu iddiaya bütün böyük dövlətlər etiraz etdilər. İlk növbədə Prussiya və Avstriya dövlətləri etiraz etdilər, çünki söhbət, XVIII əsrdə Polşanın bölüşdürülməsi haqqında bağlanan müqavilələrinə əsasən bu ölkələrə birləşdirilən Polşa torpaqlarından gedirdi. Böyük Britaniya və Fransa isə hesab edirdilər ki, bu addım, qüvvələr nisbətinin Rusiyanın xeyrinə dəyişməsinə gətirib çıxaracaq. Avstriya ilə Prussiya arasında, Prussiyanın kiçik alman dövləti olan Saksoniyanı ələ keçirmək niyyəti ilə bağlı kəskin fikir ayrılıqları yarandı. Saksoniyanın günahı onun Napoleon Fransasının sadiq müttəfiqi olması idi. Hətta, bütün digər müttəfiqlər Napoleondan ayrılsalar da, Saksoniya yenə də onun tərəfində vuruşmaqda davam etmişdi.

Son nəticədə, Rusiya və Prussiya öz aralarında razılığa gələ bildilər. Prussiya Saksoniya ilə bağlı iddiasını dəstəkləmək vədi müqabilində Varşava Böyük Hersoqluğunun ərazisinin Rusiyaya verilməsinə razılıq verdi. Lakin, digər dövlətlər bu məsələlərdə hər hansı güzəştə getməkdən inadla imtina etdilər.

Ziddiyyətlər o qədər kəskin həddə çatdı ki, hətta dünənki müttəfiqlər arasında parçalanmanın qaçılmaz olduğu aydın olurdu. 3 yanvar 1815-ci ildə, Böyük Britaniya, Fransa və Avstriya İmperiyası faktiki olaraq Rusiya və Prussiyaya qarşı yönəlmiş gizli hərbi ittifaqa girdilər. Bu müqaviləni imzalayan dövlətlərin hər biri 150.000 əsgərdən ibarət bir ordu yaratmağı öhdələrinə götürdülər. Bavariya, Hannover, Hollandiya, Sardiniya və Hessen-Darmstadt bu ittifaqa qoşuldular. Müqavilənin bağlanması çox məxfi saxlanılırdı.

Onun mətni Robert Kaslri (2-ci markiz Londonderri) tərəfindən hazırlandı və digər iki nazir özləri şəxsən, onun hazırladığı sənədin daha iki nüsxəsini yazaraq, onları öz hökmdarlarına göndərdilər. Avropada yeni müharibənin olması gözlənilirdi. XVIII Lüdovik bu müqaviləni dərhal təsdiq etdi. Böyük Britaniya və Avstriya ilə müttəfiq olması sayəsində Fransa məğlub ölkə statusundan ayrılaraq, dünən ona düşmən olan ən nüfuzlu dövlətlərin sırasına bərabərhüquqlu ölkə kimi daxil oldu. 1815-ci il yanvarın ortalarından, Taleyran Avstriya, Böyük Britaniya, Prussiya və Rusiya nümayəndələrinin yığıncaqlarında ümumi əsasda iştirak etməyə başladı. Dördlər şurası Beşlər şurasına çevrildi.

Siyasi hadisələri yaxından izləyən Napoleon Bonapart Fransada öz hakimiyyətini yenidən bərpa etmək üçün əlverişli məqamdan istifadə etmək qərarına gəldi. 1815-ci ilin martında taxt-tacdan əl çəkdikdən sonra müttəfiqlər tərəfindən sürgün edildiyi Elba adasından qaçaraq, Fransanın cənubunda sahilə çıxdı və keçmiş taxt-tacını geri qaytarmağa cəhd etdi. O, Burbonların bərpasından narazı olan ordu

və geniş əhali kütləsi tərəfindən dəstəkləndi. Napoleonun taxt-tacı geri qaytarmaq üçün həyata keçirdiyi uğursuz cəhdi ("yüz gün" kimi tanınır) Fransaya baha başa gəldi. 8 (20) noyabr 1815-ci ildə müttəfiqlər Fransa ilə yeni sülh müqaviləsi bağladılar (İkinci Paris sülhü). Müqaviləyə əsasən, Fransa, şərq sərhədindəki bir sıra qalaları, həmçinin Savoy və Nitsanı itirdi və 700 milyon frank təzminat ödəməyi öhdəsinə götürdü. Bundan əlavə, Fransa 3-5 il müddətinə 150.000 nəfərlik Müttəfiq ordusunun işğalına məruz qaldı və bu ordunun təchizatını o özü təmin etməli idi.

2.Dövlətlərin sərhədləri

Napoleonun hakimiyyətini bərpa etmək səyləri və Avropa saraylarına sirayət edən "qəsbkar" tərəfindən gələn qorxu, dövlətlər arasındakı ziddiyyətləri yumşaltmağa kömək etdi və onları qarşılıqlı güzəştlərə getməyə sövq etdi. Nəticədə, Rusiya Böyük Varşava hersoqluğunu aldı, Poznan Prussiyanın tərkibində qaldı, Avstriya Qalisiyanı özündə saxladı, Krakov isə "azad şəhər" elan edildi. Rusiyanın tərkibində Polşa torpaqları Polşa muxtar Krallığı (Çarlığı) statusunu aldı. Bundan əlavə, Vyana konqresinin iştirakçıları Rusiyanın Finlandiya və Bessarabiyaya olan hüquqlarını tanıdılar. Hər iki halda, bu məsələ, tarixi hüquqlara zidd şəkildə həll edildi. Varşava hersoqluğunun ərazisi heç vaxt Rusiyaya aid olmayıb və etnik baxımdan da (dil, din) onunla ümumi birliyi çox az idi.

Eyni sözləri, uzun müddət İsveç krallarının mülkiyyəti olan Finlandiya haqqında da demək olar. Rusiyanın tərkibində Finlandiya muxtar Böyük hersoqluq (knyazlığı) idi. Napoleon Fransasına qarşı müharibələrin fəal iştirakçısı olan İsveç Finlandiyanı itirdiyinə görə, təzminat kimi Norveçi aldı. Bu ölkə bir neçə əsr Danimarka ilə ümumi birlikdə olmuşdu. Müttəfiqlərə görə Danimarkanın səhv addımı, son ana qədər Napoleonla ittifaqda qalması olmuşdur. Belə ki, ən fəhmli Avropa monarxları vaxtında onunla əlaqəni kəsə bilmişdilər. Prussiya ilə Avstriya arasında Saksoniya ilə bağlı mübahisə dinc razılaşma yolu ilə həll edildi.

Prussiya, nəhayət Saksoniyanın bir hissəsini ala bildi, lakin o, bu knyazlığın bütün ərazisini almağa ümid edirdi. Lakin bu iddia, Avstriya tərəfindən kəskin etirazla qarşılandı. Çünki, Avstriya, özü ilə Prussiya arasında kiçik, o vaxt deyildiyi kimi, bufer (aralıq) dövlətin saxlanmasını istəyirdi. O dövrün mülahizələrinə görə, öz sərhədlərinin perimetri boyu kiçik dövlətlərin mövcud olması, böyük dövlətlər tərəfindən öz təhlükəsizliyinin ən mühüm təminatı kimi qəbul edilirdi. Prussiya mübahisəli məsələnin belə bir həlli ilə kifayətləndi, çünki o, bunlardan əlavə də geniş ərazilər aldı: Almaniyanın qərbində yerləşən Vestfal və Reyn bölgəsini, Poznan və Torn da daxil olmaqla Polşa torpaqlarının bir hissəsini, həmçinin İsveç Pomeraniyasını və Ryuqen adasını.

Avstriya da qazandıqlarından razı qaldı. Ona, Varşava Böyük hersoqluğunun bir hissəsi, habelə əvvəllər Napoleon tərəfindən ondan alınmış Balkan yarımadasındakı mülkləri geri verildi. Lakin, Avstriya, Napoleon Fransasına qarşı müharibəyə verdiyi töhfəyə görə əsas mükafatı Şimali İtaliyada aldı. O, Şimali İtaliyada XVIII əsrin əvvəllərindən Lombardiyaya sahiblik edirdi. İndi isə, bundan əlavə, o, Dalmatiya da daxil olmaqla Venesiya respublikasının ərazisini də aldı. Mərkəzi İtaliyanın kiçik dövlətləri - Toskana, Parma, Modena və s. Avstriyanın nəzarəti altına qaytarıldı.

XVIII əsrin 90-cı illərində fransızlar tərəfindən ələ keçirilən kiçik Sardiniya krallığı (paytaxtı Turin) müstəqil dövlət kimi bərpa edildi. Əvvəllər, Fransanın ilhaq etdiyi Savoy və Nitsa Sardiniyaya qaytarıldı. Eyni zamanda, müharibə dövründə etdiyi xidmətlərinə görə, Sardiniya, bir vaxtlar fransızlar tərəfindən ləğv edilmiş və Napoleon müharibələri bitdikdən sonra isə bərpa olunmayan Genuya respublikasının ərazisini də aldı.

Birləşmiş Əyalətlər Respublikası (Hollandiya) da, orta əsrlərin ən böyük respublikaları olan Genuya və Venesiya respublikaları kimi eyni taleyi yaşadı. Onun ərazisi, Cənubi Hollandiya, eləcə də Lüksemburqla birlikdə kifayət qədər böyük Niderland krallığının tərkibinə daxil oldu. Əvvəllər, belə bir dövlət mövcud deyildi. Onun ərazisi XV əsrdə, Burqundiya hersoqluğuna məxsus idi. XVI-XVIII əsrlərdə — növbə ilə əvvəl Avstriyaya, İspaniyaya və yenidən Avstriya Habsburqlarına məxsus olmuşdu. Niderland krallığı Napoleona qalib gələn dövlətlər tərəfindən qəsdən yaradılmışdı. Onlar, istəyirdilər ki, Niderland, Fransa və alman dövlətləri arasında bufer dövlət rolunu oynasın. Onlar, bu geosiyasi dəyişikliyi, öz təhlükəsizliklərinə əlavə təminat olaraq görürdülər.

Orta əsrlər və Yeni dövrün başlanğıcına aid olan bu respublikaların ümumi taleyindən yalnız İsveçrə Konfederasiyası xilas oldu. İsveçrə Konfederasiyası, Fransa Respublikası tərəfindən ləğv edilmiş və Napoleon tərəfindən fransız protektoratı kimi bərpa edilmiş, Vyana Konqresi tərəfindən müstəqilliyi saxlanılmış və bitərəf dövlət statusu almışdı.

1825-ci il martın 8-də (20) qəbul edilmiş müvafiq bəyannamə, konqres başa çatdıqdan sonra dövlətlər tərəfindən imzalanmış ayrıca müqavilə ilə təsdiqləndi.

3.Avropanın cənubunda geosiyasi vəziyyət

İspaniyada tarixi təfsirdə legitimlik prinsipi tam qələbə çaldı: Burbonlar sülaləsinin hakimiyyəti bərpa olundu. Napoleon hələ 1813-cü ilin noyabrında, hakimiyyətdən imtina etməyə məcbur etdiyi İspaniya kralı VII Ferdinand ilə Britaniya ilə bütün əlaqələri kəsmək müqabilində, onun taxt-tacını geri qaytarmaq ilə bağlı müqavilə imzalamışdı. Lakin, Napoleonun İspaniya tərəfinin bu müqaviləni

vicdanla yerinə yetirməsinə nəzarət etmək imkanı yox idi. VII Ferdinand öz tarixi taxtına oturmaq üçün Fransa-İspaniya sərhədini keçən zaman, Fransada Napoleon hakimiyyəti ölüm ayağında idi: müttəfiq ordular Parisə yaxınlaşırdı. 1815-ci ilin mayında, İspaniya kralı artıq Britaniya və Avstriya səfirlərinin müşayiəti ilə təntənəli şəkildə Madridə daxil oldu. Onun hakimiyyətinin başlanğıcı, Napoleon Fransasının hakimiyyətinə qarşı qurtuluş müharibəsi aparılan zaman yaradılan hakimiyyət orqanlarından biri olan Kadis Kortesi tərəfindən qəbul edilmiş 1812-ci il liberal konstitusiyasının ləğv olunması ilə əlamətdar oldu.

İtaliyanın cənubunda bütün hadisələr o qədər də rəvan getmədi. 1813-cü ildə, Napoleonun bacısı ilə evlənən və onun hərbi sərkərdələrindən biri olan Neapol kralı Myurat, öz qayını ilə münasibətlərini kəsərək, anti- Fransa koalisiya üzvləri ilə danışıqlara başladı. Xəyanət bahasına o, özünün kral tacını saxlamaq ümidində idi. 1814-cü ilin yanvarında, Avstriya hətta onunla müqavilə bağladı və nəinki Neapol krallığını onda saxlamağı, hətta Napoleonla müharibədə dəstək edəcəyi təqdirdə, onu İtaliyada digər ərazilər verməklə mükafatlandıracağını vəd etdi. Bu özündən razı ləyaqətsiz insan (Myuratın atası meyxana sahibi idi) artıq özünü İtaliya kralı I İoahim olaraq təsəvvür edirdi. Lakin, onun nümayəndələri konqresdə iştirak etmək üçün Vyanaya gələndə Avstriyadan başqa heç bir dövlət onların səlahiyyətlərini qəbul etmədi. Fransa, Böyük Britaniya, Rusiya dövlətləri İki Siciliya Krallığının bərpasını və Neapol taxtını onun qanuni kralı IV Ferdinanda qaytarılmasına tərəfdar idilər. IV Ferdinand Napoleon müharibələri zamanı İngilis donanmasının müdafiəsi altında olan Siciliyada yerləşmişdi.

Bununla belə, Avropa dövlətləri bir müddət Myurata toxunmadılar. Lakin Napoleonun "yüz günü" onların səbir kasasını doldurdu. Myurat, "qəsbkar" ilə döyüşmək bəhanəsi ilə ordusunu Şimali İtaliyaya yönəltdi. Lakin, Şimali İtaliya artıq Avstriya qoşunları tərəfindən fəth edilmişdi. İndi Avstriya da onu dəstəkləməkdən imtina etdi. 1815-ci ilin aprelində, Avstriya Myurata müharibə elan etdi və mayın sonunda o, Neapolu işğal etdi. Myurat taxtdan salındı, həbs olundu və edam edildi. IV Ferdinand Neapol taxtına qayıdaraq, I Ferdinand adı ilə hökmranlıq etməyə başladı. Beləliklə, legitimlik prinsipi İtaliyanın cənubunda da qalib gəldi.

4.Alman İttifaqı

Avropa monarxları alman xalqının Müqəddəs Roma İmperiyasını bərpa etməmək qərarına gəldilər. Əslində, onlar Napoleonun Almaniyada həyata keçirdiyi bir çox ərazi dəyişiklikləri ilə barışdılar. Xüsusilə də, onlar Napoleonun ləğv etdiyi yüzlərlə kiçik mülklərin hökmdarlarının ümidlərini doğrultmadılar. Onların əksəriyyəti Avstriya, Prussiya və digər böyük Alman dövlətlərinin tərkibində öz suverenliklərini itirdilər.

Vyana konqresində, Müqəddəs Roma İmperiyasının hüdudları daxilində Alman İttifaqı adlı yeni konfederasiyanın yaradılması qərara alındı. Müqəddəs Roma İmperiyasında başçı (imperator) ilə imperiya üzvləri (ərazi knyazları) arasında münasibətlər feodal xarakterli idi — imperator senyor, ayrı-ayrı dövlətlərin başçıları isə onun vassalları sayılırdılar. Almaniya İttifaqında isə münasibətlər ittifaq üzvləri arasında müqavilələr əsasında qurulurdu. Onu 34 monarxiya və 4 azad şəhər (Bremen, Hamburq, Lübek və Frankfurt-Mayn) imzaladı. Bu müqavilələrə uyğun olaraq, federal seym (məclis) yaradıldı. Seym daim Frankfurtda toplaşırdı. Onun qərarları yekdilliklə qəbul edilirdi. Alman İttifaqının hər bir üzvü Seymə öz nümayəndələrini göndərirdi. Onun sədri Avstriyanın nümayəndəsi idi. Heç bir icraedici idarələr olmadığı kimi, müstəqil büdcə da yox idi. Alman İttifaqının üzvləri, İttifaqın digər üzvlərinə qarşı yönəldilməyən müstəqil xarici siyasət yeritmək və xarici dövlətlərlə istənilən müqavilələr imzalamaq hüququnu özündə saxlayırdılar.

Müqəddəs Roma İmperiyasından Alman İttifaqına bir sıra arxaik xüsusiyyətlər miras qalmışdı. Prussiya (Şərqi Prussiya, Poznan) və Avstriya (Macarıstan, Şimali İtaliya və s.) mülklərinin bir hissəsi ittifaqa daxil deyildi. Bununla belə, Hannover (Hannover sülaləsindən olan Britaniya krallarının irsi mülkiyyəti), Holşteyn (Danimarka krallarının hakimiyyəti altında olan Alman hersoqluğu) və Lüksemburqun (Niderland Kralının hakimiyyəti altında olan) ittifaqda iştirakı xarici dövlətlərə onun işlərinə qarışmaq imkanı verirdi. Almaniya XIX əsrin ortalarına qədər bu formada mövcud olmuşdur.

5.Yekun aktı

Ərazi məsələləri ilə bağlı qərarların əksəriyyəti Vyana konqresinin 1815-ci il mayın 28-də (9 iyun) imzalanmış Yekun (Əsas) Aktında təsdiqləndi.

Burada onu, bir il əvvəl Paris sülhünü bağlamış ölkələrin - Avstriya, Böyük Britaniya, Rusiya, Fransa, Prussiya, İsveç və Portuqaliyanın nümayəndələri imzaladılar. Sonra, bütün digər dövlətlər də Aktın imzalanmasına qoşulmağa dəvət edildi. 1815-ci ilin iyulunda bu dəvəti qəbul edən ilk ölkə Sardiniya krallığı oldu. Ondan sonra Yekun Aktını daha 33 dövlət imzaladı. İspaniya, İtaliya ilə bağlı olan bəzi maddələrdən narazı qalaraq, onu imzalamağı 1817 qədər təxirə saldı. Hamıdan gec tərpənən Bavariya oldu - o, bu sənədi yalnız 1820-ci ilin mayında imzaladı.

Yekun Aktın mətninə, Almaniya İttifaqının yaradılması haqqında 8 iyun 1815-ci il tarixli müqavilənin ilk və ən mühüm maddələri daxil edilmişdi. Ayrı-ayrı maddələrdə çaylarda naviqasiya yollarının azadlığı prinsipi müəyyən edilmişdi.

Yekun Aktına konqresin gedişi zamanı bağlanmış ayrı-ayrı sazişlər də əlavə edilmişdi. Onların arasında, əlbəttə ki, qul alverinin qadağan edilməsi haqqında bəyannamə də təqdirə layiq idi. Lakin bu, maddələr məcburilikdən daha çox

məsləhət xarakteri daşıyırdı. Buraya həmçinin, diplomatik nümayəndəlik rütbələri haqqında müddəalar da daxil idi. Bütün əlavələr, Yekun Aktının tərkib hissəsi hesab edilirdi.

6.Rütbələr haqqında müddəalar

Bu müddəanın qəbulunun səbəbi, Vestfal sülhünün imzalanmasından sonra beynəlxalq münasibətlərdə tətbiq edilən dövlət suverenliyi prinsipi ilə orta əsrlərdən miras qalmış diplomatik etiket arasında aşkar ziddiyyətlərin olması ilə əlaqədar idi. Vestfal konqresi, Müqəddəs Roma İmperiyasının İmperatoru ilə kralların hüquqlarını tam müstəqil, suveren monarxlar kimi bərabərləşdirmişdi. Lakin, diplomatik etiket hələ də feodal titullarının və sülalələrinin kimin üstün olmasına əsaslanan ənənəvi iyerarxiyasına əsaslanırdı. Belə ki, məsələn, Portuqaliya kralına və onun diplomatik nümayəndələrinə, Böyük Britaniya kralından daha çox üstünlük verilirdi. Avropa monarxları arasında ən böyüyü Müqəddəs Roma İmperatorluğunun İmperatoru hesab olunurdu. Lakin, bu titullar ümumiyyətlə imperiyanın özünün Napoleon tərəfindən ləğv edildiyi vaxtdan sonra daha istifadə olunmurdu. Və ümumiyyətlə, Vyana konqresindən xeyli əvvəl də, beynəlxalq münasibətlərin xarakteri artıq onların hökmdarlarının titulu ilə, mənsub olduqları sülalənin qədimiliyi və ya nüfuzu ilə deyil, onların real siyasi, maliyyə, hərbi gücü ilə müəyyən olunurdu.

Müxtəlif ölkələrin diplomatik nümayəndələri arasında kimin üstün olması ilə bağlı mübahisələr səbəbindən beynəlxalq münasibətlərdə hər cür çətinliklər yaranmağa başlanmışdı. Bunun qarşısını almaq üçün, səkkiz dövlətin ümumi yığıncağı bütün diplomatik nümayəndələri üç sinfə və ya rütbəyə bölünməsi haqqında qərar verdi:

1) Səfirlər və Papa legatları və ya nuntsilər: statuslarına uyğun bütün üstünlükləri və şərəfləri ilə öz hökmdarlarının şəxsi nümayəndələri hesab olunurdular və müvafiq olaraq hökmdar tərəfindən də akkreditasiya alırdılar;

2) Elçilər, nazirlər və hökmdarların tabeliyində olan digər nümayəndələr: səfirlərdən fərqli olaraq, onlar daha aşağı dərəcədə idilər;

3) Müvəqqəti işlər vəkili: Xarici İşlər nazirini təmsil edir və həmçinin nazir tərəfindən akkreditə olunurdu.

Vyana konqresi bütün ölkələr üçün, öz rütbələrinə uyğun olaraq, diplomatik nümayəndələrin eyni formalı qəbul edilmə qaydasını müəyyən etdi. Onların arasında hər bir rütbə üzrə üstün mövqe etimadnamələrin təqdim olunma tarixi ilə müəyyən edilirdi. Rütbələr haqqında əsasnamədə xüsusi olaraq qeyd edilirdi ki, "saraylar arasında nə qohumluq, nə də ailə əlaqələri diplomatik agentlərə heç bir xüsusi üstünlük vermir".

Rusiya, Avstriya, Böyük Britaniya, Prussiya və Fransa 1818-ci ildə Aaxen konqresində diplomatik rütbələr haqqında Vyana əsasnaməsinə əlavə maddələr daxil etdilər. Onlar, nazirlər və müvəqqəti işlər vəkili vəzifələri arasında nazir-rezident adlanan "xüsusi orta rütbə"nin yaradılması haqqında protokol imzaladılar.

7.Əvvəlcədən nəzərə alınmayan məsələlər

Yekun aktında, İnqilabi və Napoleon müharibələri zamanı Böyük Britaniya tərəfindən ələ keçirilən Fransa və Hollandiya müstəmləkələrin taleyi ilə bağlı məsələlər gündəmə gətirilmədi. Bu məsələ, Britaniya nümayəndələrinin müstəmləkələrin bəziləri üzərində öz ölkələrinin hökmranlığını inadla saxlamağa çalışmaları ilə əlaqədar idi. Nəticədə Böyük Britaniya Kap müstəmləkələsini, Hind okeanında Seylon, Mavrikiya, Rodriqes və Seyşel adaları, Qərbi Hindistanda Tobaqo və Sent-Lüsi adalarını, habelə Aralıq dənizində Malta və İon adalarını özündə saxladı..

Vyana Konqresi İnqilab və Napoleon dövrlərinin siyasi və ideoloji irsinə münasibət məsələsi ilə bağlı heç bir ümumi qərar da qəbul etmədi. Faktiki olaraq, bu məsələ ayrı-ayrı hökmdarların öz ixtiyarlarına buraxıldı.

Vyana konqresinə toplaşan monarxlar o dövrün mühiti və xalqların əhval-ruhiyyəsi ilə hesablaşmağa hazır olduqlarını nümayiş etdirdilər. Üstəlik, bu keyfiyyətləri ilk növbədə nümayiş etdirən Rusiya imperatoru idi. I Aleksandr, öz "qardaşlarının", (Avropa monarxları arasında bir-birlərinə "qardaşım" deyərək müraciət etmək adət halı almışdı) Avropada və öz ölkələrində mütləqiyyət nizamını bərpa etmək istəyinə şəxsən özü mane oldu. O, israrla XVIII Lüdovikə fransız xalqına liberal konstitusiya verməyi, fransızların dörddə bir əsrdə adət etdiyi qanunvericilik yeniliklərini qoruyub saxlamağı tövsiyə edirdi. Demək lazımdır ki, XVIII Lüdovik bu məsləhətə əməl etdi və öz təbəələrinə vətəndaş bərabərliyini, əsas sosial, iqtisadi və siyasi azadlıqları təsbit edən konstitusiyanı - Xartiyanı "əta etdi". XIX əsrin ortalarına qədər, Xartiya bir çox Avropa ölkələrinin liberal konstitusiyaları üçün nümunə olaraq qaldı.

Hətta Prussiya kralı, Vyana konqresində yaxın gələcəkdə öz ölkəsində konstitusiya tətbiq edəcəyinə söz verdi. Lakin, o, vədini yerinə yetirmədi. Ancaq Avstriya imperatoru və İspaniya kralı bu cür vədlərlə özlərini bağlamaqdan inadla imtina etdilər.

Nəticədə, Vyana konqresindən sonra konstitusiyalı idarəetmə prinsipi əvvəlki dövlərlərdən daha geniş vüsət aldı. Avropanın monarxları daxili siyasətlərində inqilabın varisi və icraçısı, özünü əsl despot kimi sübut edən Napoleondan daha liberal oldular. 1815-ci ildən sonra, konstitusiyalar nəinki Böyük Britaniyada (burada yazılmamış konstitusiyanın, yəni kralın səlahiyyətlərini məhdudlaşdıran bir

sıra fundamental qanunların, siyasi prosedurların və adətlərin formalaşdığı toplu) deyil, həm də Fransada, Niderland krallığında, İsveç və Norveçdə də fəaliyyət göstərirdi. Vyana konqresindən qısa bir müddət sonra, Fransa Xartiyasının nümunəsində və bənzərində bir sıra Qərbi Almaniya dövlətlərində (1818-ci ildə Bavariya və Badendə, 1819-cu ildə Vürtemberqdə, 1820-ci ildə Hessen-Darmştadtda və s.) konstitusiyalar tətbiq olundu.

I Aleksandr, Rusiya imperiyasının tərkibində muxtariyyətə malik olan Polşa krallığına və Finlandiya Böyük hersoqluğuna konstitusiyalar verdi. Konstitusiyaların tətbiqi edilməsi uğrunda mübarizə İspaniya, Prussiya və İtaliya dövlətlərində geniş vüsət aldı. Düzdür, konstitusion idarəetmə prinsipinin əksər Avropa dövlətləri tərəfindən qəbul edilməsi üçün, 1920-ci illərin əvvəllərində İspaniya, Portuqaliya, İtaliya, Yunanıstanda baş vermiş inqilabların, eləcə də 1830 və 1848-1849-cu illər inqilablarının həyata keçirilməsi lazım oldu. Lakin, bütün bunlara baxmayaraq, Vyana konqresindən sonra, Avropa əvvəlkindən daha çox liberal və siyasi cəhətdən daha azad oldu.

§4. "Avropa konserti"

Vyana konqresində yaradılmış yeni beynəlxalq nizam böyük dövlətlərin qüvvələr nisbətini qorumaq üçün bir vasitə oldu. Onun dayanıqlığının mühüm səbəblərindən biri məhz bu məsələdə idi. O, ümumi mənada demək olar ki, yarım əsr - 1950-ci illərin ortalarına qədər sabit qaldı. O, yalnız 1848-1849-cu illər inqilabları nəticəsində ciddi sarsıldı və 1853-1856-cı illər Krım müharibəsi isə onu dağılmaq təhlükəsi ilə üzləşdirdi.

Ancaq Vyana nizamının əsas vəzifəsi, Avropada yalnız qüvvələr nisbətini qorumaq deyil, həm də "Avropa konserti" adlandırılan sistemi də saxlamaq idi. Bu, beynəlxalq münasibətlər tarixində nisbətən yeni bir siyasi vəziyyət idi. Bu, Avropanın əsas dövlətlərinin öz aralarında olan ziddiyyətlərin sülh yolu ilə həllinə, bütün mübahisəli problemlərin kollektiv şəkildə nizamlanmasına yönəlmiş siyasətinə verilən ad idi. Dövlətlərin heç biri beynəlxalq ziddiyyətləri müharibə həddinə çatdırmağa can atmırdı. Bütün mübahisəli problemlər, hətta üçüncü, kiçik ölkələrə aid olsa da, onlar əsas dövlətlər arasında ümumi razılaşma əsasında həll edilirdi.

Bu, dünya siyasətinin bütün aktual məsələlərini müzakirə etmək üçün hökumət başçılarının, monarxların, nazirlərin və səfirlərin müntəzəm görüşlərin keçirilməsini nəzərdə tuturdu. Tərəflər bir-biriləri ilə daim təmasda olaraq, tərəflərin mövqelərini ətraflı şəkildə aydınlaşdırır, uzun davam edən müzakirələr nəticəsində razılığa gələrək, nəticədə qarşılıqlı məqbul bir kompromis əldə edirdilər. Yeni nizamın əsaslandığı və "Avropa konsertinin" asılı olduğu ölkələr, Vyana konqresindən sonra

qeyri-rəsmi olaraq Böyük dövlətlər adını aldılar. Bu ölkələrin Avropadakı xüsusi mövqeyi, onların öz aralarında diplomatik münasibətləri ən yuxarı səviyyədə - səfirlər, yəni, "yüksək səviyyəli" diplomatik nümayəndələr vasitəsilə saxlamalarında özünü göstərirdi.

İlk vaxtlar, Böyük dövlətlərin sırasına, 1814-cü ildə Şomon müqaviləsini, 1815-ci ildə isə anti-Fransa koalisiyasının bərpası haqqında saziş imzalayan Avstriya, Böyük Britaniya, Prussiya və Rusiya daxil idi. Lakin, tezliklə Fransa da onlara qoşuldu. 1818-ci il noyabrın 3-də (15), Qərbi Almaniyanın Aaxen şəhərində (Vyana Konqresinin qərarı ilə Prussiyaya verilmiş Böyük Karlın qədim paytaxtı) dörd müttəfiq dövlətin nümayəndələri və XVIII Lüdovik hökuməti arasında imzalanmış protokola görə, "Avropa siyasəti sistemində" Fransaya "mənsub olan yer" ona geri qaytarıldı. Beləliklə, 1815-ci ildə Fransada hər hansı inqilabi və təcavüzkar meyllərə qarşı mübarizə aparmaq məqsədi ilə yaradılmış Dördlü ittifaqın hökmranlığı ("tetrarxiya") Beşli ittifaqın hökmranlığına ("pentarxiya") çevrildi. Müttəfiqlərin işğalçı qoşunlar Fransa ərazisini vaxtından əvvəl tərk etdilər. Avropada sülhün qorunması üçün ümumi məsuliyyətin bir hissəsi ona verildi. Bu addım, Vyana Beynəlxalq sistemini ümumilikdə daha sabit və balanslı etdi. Bu dövlətlərin təntənəli şəkildə ifadə olunmuş istəyi ilə, Fransa hökumətinə özlərinin və ya nümayəndələri vasitəsilə danışıqlarda iştirak etmək hüququnun təmin edilməsi hüququ verildi.

NƏTİCƏ: Beynəlxalq münasibətlərin Vestfal sisteminin inkişafının əsas qanunauyğunluqları və nəticələri

Uzun illər ərzində beynəlxalq münasibətlər dalğavari şəkildə inkişaf edirdi, vaxtaşırı qarışıq vəziyyətə düşür və "hamının hamıya qarşı" mübarizəsini xatırladırdı, ya da nisbi sabitlik əldə edir, bu da müəyyən beynəlxalq nizamın yaranmasına dəlalət edirdi ki, bu zaman dövlətlər bir-birilər ilə münasibətlərdə aralarında bağladıqları müqavilələrdə tərtib etdikləri qaydaları rəhbər tuturdular. Digər qanunauyğunluq ondan ibarət idi ki, bu qaydaların özləri çox vaxt ümumi qəbul edilmiş hüquqi prinsiplərə qədər inkişaf edir, sosial inkişafın müxtəlif amillərinin təsiri altında zamanla dəyişirdilər. Onların hamısı birlikdə bu və ya digər beynəlxalq nizamın hüquqi əsasını təşkil edirdilər. Başqa sözlə, yeni dövrdə beynəlxalq münasibətlərin inkişafını nizamsızlıqdan nizama və əksinə dövri dəyişmə prosesi kimi təqdim etmək olar. Uzun müddət mövcud olan sabit beynəlxalq nizam beynəlxalq münasibətlər sistemi kimi müəyyən edilirdi.

Müasir dünya siyasətinin əsas prinsipləri 1648-ci ildə qəbul edilən Vestfal beynəlxalq münasibətlər sistemində yaradılmışdır. Milli dövlətlərin yaranması yeni dövrün gəlişini qeyd edən ən mühüm xüsusiyyətdir ki, onun gəlişi ilə dünya sənaye inkişafı yoluna qədəm qoyur. Məlum olduğu kimi, Avropa Qərbi Roma İmperiyasının dağılmasından sonra erkən orta əsrlərdə meydana çıxdığı zaman ayrılmaz bir katolik dünyası kimi meydana çıxmışdı. Dini cəhətdən Avropada Papanın başçılıq etdiyi katoliklik mövcud idi. Üstəlik, Roma Katolik kilsəsinin başçısı bütün Avropanın həm mənəvi, həm də siyasi rəhbəri olduğunu iddia edirdi. Kilsə ümumi normativ sistem, vahid dəyər məkanı formalaşdırırdı. XVI –XVII əsrlərdə protestant-katolik qarşıdurması, əslində, ilk dəfə olaraq Avropa normativ nizamının mövcudluğunu ciddi şəkildə şübhə altına almışdı.

Avropa normativ nizamına yeni sima və məna verən 1648-ci il Vestfal müqaviləsinin mahiyyəti yeni ideoloji, daha sonra isə yeni siyasi məkan yaratdı. Vestfal sülhü ilk dəfə olaraq Avropa miqyasında siyasətin münaqişələrin həlli üçün bir vasitə ola biləcəyini ortaya qoydu.

O, həmçinin Qərbi Avropada otuzillik müharibəyə son qoydu və Müqəddəs Roma İmperiyasının 355 müstəqil dövlətə parçalanmasına imkan verdi, orta əsrlər katolik universalizminin iddiaları ilə dəstəklənən Habsburqların, knyaz elitası başda olmaqla, imperiyanın protestant zümrəsi tərəfindən təmsil olunan gələcəyin gənc qüvvələri ilə apardığı ən kəskin mübarizə dövrünü müvəffəqiyyətlə başa çatdırdı. Məhz bu dövrdən etibarən milli dövlət (qərb terminologiyasında – "millətin dövləti") cəmiyyətin siyasi təşkilinin əsas forması kimi ümumbəşəri halda bərqərar oldu və

milli (yəni dövlətin) suverenlik prinsipi beynəlxalq münasibətlərin dominant prinsipinə çevrildi. Bu vaxta qədər o, beynəlxalq münasibətlər iştirakçılarının parçalanması və beynəlxalq qarşılıqlı əlaqələrin sistemsizliyi ilə xarakterizə olunurdu. Onun əsas təzahürü qısamüddətli silahlı münaqişələr və ya uzun müharibələr idi.

Vestfal sisteminin qurulmasından əvvəl dünya tarixi, yəni, milli dövlətlərin beynəlxalq sistemi müxtəlif imperiyaların hökmranlığı və qarşıdurma tarixidir. Beynəlxalq münasibətlərdə sülalə prinsipi hakim rol oynayırdı. Dünya tarixindəki bütün ən mühüm nailiyyətlər müxtəlif imperiyaların yüksəlişi və çiçəklənməsi ilə bağlı olmuşdur. Və əksinə, imperiyaların tənəzzülü, bir qayda olaraq, çətin dövrlərin başlamasına, bütöv dövlətlərin və qitələrin iqtisadi durğunluğuna, siyasi və hüquqi institutların tənəzzülünə və xalqların mənəvi düşgünlüyə səbəb olmuşdur. İmperator quruculuğunu həyata keçirən yaradıcının yerini bu halda dağıdıcı və xaos yayan iblis tutmuşdu.

K.Marksın təbirinə fərqli prizmadan yanaşsaq, deyə bilərik ki, dünya tarixinin lokomotivləri inqilablar deyil, imperiyalar olubdur. Və ümumdünya tarixini bütövlükdə götürsək, V.Maxnaçın qeyd etdiyi kimi, imperiyaların bütün digərlərindən, o cümlədən milli dövlətlərlə müqayisədə qat-qat dayanıqlı dövlət formalaşması olduğu ortaya çıxır. Söhbət, əlbəttə ki, ilk növbədə, V.Maxnaçın tam hüquqlu saydığı yalnız dörd imperiyadan - Roma İmperiyasından, Bizansdan, Alman millətinin Müqəddəs Roma İmperiyasından və Rusiya İmperiyasından gedirdi. Onların hər biri yüzilliklər, hətta minilliklər boyu mövcud olmuşdur.. Doğrudur, çox uzun müddət mövcud olan özlərini "imperiya" adlandıran - Britaniya, Osmanlı, Çin və digər imperiya (və ya kvazi-imperiyalar) birləşmələri də mövcud olmuşdur.

Beləliklə, Vestfal sülhü beynəlxalq münasibətlərin təkamülündə mühüm mərhələ oldu. Otuz illik müharibənin sonunda Vestfal sülhünün imzalanması yeni beynəlxalq siyasi sistemin yaradılmasının başlanğıcı oldu. Vestfal beynəlxalq münasibətlər sistemi bütün Avropa dövlətlərini, o cümlədən Rusiya və Osmanlı İmperiyasını özündə ehtiva edirdi. Lakin, buna baxmayaraq, sonuncular Vestfal sülhünün imzalanmasında iştirak etməmişdilər və özlərini onun şərtlərinə bağlı hesab etmirdilər.

Adətən Otuz illik müharibəni dörd əsas mərhələyə bölürlər: Çexiya və ya Bohemiya-Pfalts dövrü (1618-1623), Danimarka dövrü (1624-1629), İsveç dövrü (1630-1634) və Fransa-İsveç dövrü (1635-1648). Otuz illik müharibə həm də Avropa tarixində ilk total müharibə idi. Bu o deməkdir ki, müharibə əhalinin bütün təbəqələrini əhatə edərək, dinc əhalinin həyat tərzini tamamilə dəyişdi. Otuz illik müharibədən Fransa və İsveç qalib çıxdılar və sonradan XVII əsrin ikinci yarısı və

XVIII əsrin əvvəllərində Avropa diplomatiyasında aparıcı rol oynadılar. Almaniya isə əksinə, müharibədə son dərəcə zəiflədi. Vestfal sülhü həm bütövlükdə Almaniya imperiyasında, həm də ayrı-ayrı knyazlıqlarda əhəmiyyətli ərazi dəyişikliklərinə səbəb oldu. Niderland və İsveçrə nəhayət müstəqil dövlətlər kimi tanındı.

İmperiyalar dövrü ilə milli dövlətlər erası arasındakı sərhəd, Avropada qanlı Otuz illik müharibədən sonra 1648-ci ildə Avropa dövlətləri tərəfindən bağlanmış Vestfal sülhü oldu.

1648-ci ildə imzalanan Vestfal sülhü Avropada Otuz illik müharibəyə son qoydu. O, 24 oktyabr 1648-ci ildə - uzun (1645-ci ilin yazından) danışıqlardan sonra - Vestfaliyanın Myunster və Osnabryuk şəhərlərində bağlanmış iki sülh müqaviləsini birləşdirdi.

Otuz illik müharibə həqiqətən öz dövrünün dünya müharibəsi idi: o, bütün əsas Avropa dövlətlərini öz odlu burulğanına cəlb etmişdi: İsveç, Fransa, Almaniya, Niderland, Danimarka, Çexiya, İngiltərə, İspaniya, İtaliya və daha az dərəcədə, Polşa və Rusiya bu savaşlarda iştirak etmişdi. 1648-ci il Vestfal sülhü Otuz illik müharibənin aşağıdakı nəticələrini ümumiləşdirdi: o dövrün iki əsas qüvvəsi - papalıq və imperiya – məğlub edildi. Əslində, alman xalqının Müqəddəs Roma İmperiyası formal olaraq daha bir neçə əsr mövcud olmuşdur: Napoleon 1806-cı ildə imperiyanın tabutuna sonuncu mismarı vurdu; İsveçrə İttifaqı yaradıldı; İspaniya bir əsr yarım ərzində Avropadakı dominant mövqeyini itirərək, regional super dövlətə çevrilən Fransaya məğlub oldu. İsveç, Portuqaliya, Çexiya, Danimarka, İtaliya və Niderland kimi dövlətlər milli dövlətlərə çevrildilər.

XVII əsrdə Vestfal sülhünün bağlanmasından sonra - feodal əsaslarını müdafiə edən qüvvələrlə bu əsasları sarsıdan qüvvələr arasında mübarizə prosesinin inkişafında bir çox cəhətdən həlledici rol oynayan dövrün ilkin mərhələsi İntibah dövrünə aid olsa da, son mərhələ Maarifçilik dövrünü əhatə edir. Bu rolu yalnız ona görə əsas adlandırmaq olar ki, məhz XVII əsrdə gedən şiddətli sosial döyüşlərdə Avropa ölkələrinin gələcək inkişafının tempi və xarakteri əsasən müəyyənləşdi.

Otuz illik müharibə tarixi bir dövrə son qoydu. Almaniyanın və bir sıra qonşu ölkələrin ictimai həyatında Reformasiya tərəfindən qoyulan kilsənin yeri haqqında məsələni həll etdi. Dövrün ikinci ən mühüm problemi - orta əsrlər Müqəddəs Roma İmperiyasının yerində milli dövlətlərin yaradılması məsələsi öz həllini tapmadı. İmperiya faktiki olaraq dağıldı, lakin onun xarabalıqlarından yaranan dövlətlərin heç də hamısı milli xarakter ala bilmədi. Əksinə, almanların, çexlərin, macarların milli inkişafı üçün şərait xeyli pisləşdi. Knyazların artan müstəqilliyi Almaniyanın milli birləşməsinə mane oldu və onun şimal protestant və katolik cənuba parçalanmasını möhkəmləndirdi.

Vestfal sülhü Avstriya Habsburqlarının xarici siyasətində dönüş nöqtəsi oldu. Növbəti 250 il ərzində onun əsas məzmunu cənub-şərqə doğru genişlənməsi oldu. Otuz illik müharibənin qalan iştirakçıları əvvəlki xarici siyasət xəttini davam etdirdilər.

Mərkəzi Avropa xalqlarının yaddaşında Otuz illik müharibə əsrlər boyu insan təxəyyülünün təsəvvür edə bilməyəcəyi ən dəhşətli fəlakət olaraq qaldı. Almaniyanın müharibə zamanı insan itkiləri daha çox idi, təxminən 5-6 milyon insan, bu qaçılmaz olaraq ölkədə demoqrafik böhrana səbəb oldu.

1648-ci ildə əldə edilmiş Vestfal sülhü beynəlxalq münasibətlərin təkamülünün mühüm mərhələsini qeyd etdi. Otuz illik müharibənin sonunda Vestfal sülhünün imzalanması "millət-dövlət" ideyasına əsaslanan yeni beynəlxalq siyasi sistemin yaradılmasının başlanğıcı oldu.

XVII əsrin ortalarında baş verən dəyişikliklərin əhəmiyyəti ondan ibarət idi ki, əsas prinsipləri əhəmiyyətli dəyişikliklər və bəzi qeyd-şərtlərlə də olsa, bu günə qədər mövcud olmaqda və fəaliyyət göstərməkdə davam edən münasibətlər sistemi yaranmışdır. "Milli dövlət suverenliyi prinsipi"nin əsas prinsiplərdən biri kimi tanınması sonralar dünyanın Vestfal, yaxud "dövlət mərkəzli" modeli (sistem) kimi tanınan yeni münasibətlər sisteminin əsasını qoyuldu. Vestfal sülhündən başlayaraq, suverenlik rejimi müəyyən müddət ərzində beynəlxalq səviyyədə siyasi təşkilatın bütün digər formalarını əvəz etdi.

Milli suverenlik prinsipi hər bir dövlətin öz ərazisində tam səlahiyyətə malik olmasını nəzərdə tuturdu. Bu prinsip heç bir yuxarı orqanın mövcudluğunu nəzərdə tutmurdu. Suverenliyə malik milli dövlət ideyası dörd əsas xüsusiyyətə əsaslanırdı:

1) ərazinin olması;
2) müəyyən ərazidə yaşayan əhalinin olması;
3) əhalinin qanuni idarə edilməsi;
4) digər milli dövlətlər tərəfindən tanınması.

Bu xüsusiyyətlərdən ən azı biri olmadıqda, dövlət öz fəaliyyətini dayandırır və ya onun imkanları kəskin şəkildə məhdudlaşırdı. Beynəlxalq həyatın digər mühüm norması – "dövlətlərin birgə yaşaması" üzvi olaraq "suverenlik" prinsipindən irəli gəlirdi. O, həm də Avropa dünya düzəninin strukturuna tədricən, hətta yavaş-yavaş, demək olar ki, əsrlər boyu dövlətlərarası həyatın "qanına və ətinə" hoparaq daxil olurdu.

İdeya baxımından milli dövlətlərin formalaşması "suverenlik" anlayışını formalaşdıran C.Bodenin ("Altı dövlət kitabı"), N.Makiavellinin ("Hökmdar") əsərlərində, "dövlət marağı" kateqoriyası və beynəlxalq hüququn əsaslarını yaradan Q.Qrotsiyanın ("Müharibə və sülh hüququ haqqında") əsərində əsaslandırılmışdır.

T.Hobbs və B.Spinoza milli dövlətin ideoloji cəhətdən əsaslandırılmasına böyük töhfə vermişdilər.

Vestfal sistemi müharibələri, o cümlədən aqressiv hücumları qadağan etmirdi, hətta icazə verirdi. Bu müharibələrin başlanması və aparılması onun suveren dövlətin qanuni hüququna aid edilirdi; müharibəyə mane olmurdu, əslində, beynəlxalq hüquqda güclünün hökmranlığının möhkəmlənməsinə töhfə verirdi. O, beynəlxalq hüquqda J.Bodenin tərtib etdiyi normativlərə uyğun olaraq digər suveren dövlətlərin daxili işlərinə qarışmamaq prinsipini təsbit etdi: "Suverenlik dövlətin öz təbəələri və vətəndaşları üzərində mütləq və daimi hakimiyyətidir".

Məhz ona görə də, nə XVII, nə XVIII, nə də XIX əsrlərdə Avropa tiranlıqlarında insan və vətəndaş hüquqlarının açıq və kütləvi şəkildə pozulduğu zaman, heç bir dövlət onların daxili işlərinə qarışmaq hüququna malik olmadıqlarını hesab edirdilər. Və hətta XX əsrin birinci yarısında Qərb demokratiyaları faşist Almaniyasının və kommunist Sovet İttifaqının daxili işlərinə qarışmadılar. Dünya ictimaiyyəti Almaniyada baş verən yəhudi soyqırımını və ya Stalinist SSRİ-də kütləvi repressiyaları müşahidə edərək sadəcə susdular. Əslində, onların bu rejimlərə təsir etmək üçün heç bir vasitələri yox idi. Vəziyyət yalnız ötən əsrin son qərinəsində bir qədər dəyişdi. Belə ki, Qərb SSRİ-yə qarşı mübarizədə insan hüquqlarından alət kimi istifadə etməyə başladı. Amma məhz bundan sonra Vestfal beynəlxalq münasibətlər sisteminin tənəzzülü başladı.

Belə ki, "suverenlik" anlayışının tarixi müasir Avropanın tarixi ilə ayrılmaz şəkildə bağlıdır və onu təşkil edən dövlətlərin hökmdarları arasında siyasi reallığa adekvat münasibətin formalaşması mərhələlərini əks etdirir. Vestfal sülhü yalnız ruhani və dünyəvi hökmdarların səlahiyyətləri haqqında müzakirələrin onların həqiqi imkanlarına uyğunlaşdırılması prosesini tamamladı. Üstəlik, Vestfal müqaviləsini imzalayan 145 suveren dövlətin qurumunun hamısı Avropa xristian sivilizasiyasını təmsil edirdi. Və o dövrün aparıcı Avropa dövlətlərindən yalnız biri - İngiltərə ona imza atmadı. Mövcud olduğu ilk yüz əlli il ərzində suveren dövlətlər dünyası avromərkəz olaraq qaldı və nəhəng periferik ərazilərin avropalılar tərəfindən zəbt edilməsi və mənimsənilməsi, ən yaxşı halda, onların, yarım suveren ölkələrin kiçik sistemini "təmsil edən" xalqlar və tayfalarla yalnız "qarşılıqlı əlaqəsi" hesab olunurdu.

Suverenlik probleminin müasir tədqiqatçıları tez-tez qeyd edirlər ki, "suverenlik" anlayışı adətən dörd fərqli fenomenə istinad etmək üçün istifadə olunur:

birincisi, daxili suverenlik və ya ölkə daxilində hakimiyyətin təşkili;

ikincisi, sərhədlərin suverenliyi və ya hökumətin sərhədləri keçən hərəkətə nəzarət etmək imkanı;

üçüncüsü, beynəlxalq hüquqi suverenlik və ya dövlətlər tərəfindən bir-birinin qarşılıqlı tanınması;

dördüncü, xarici aktorların ölkənin daxili işlərindən kənarlaşdırılmasını nəzərdə tutan Vestfal suverenliyi. Onlar etiraf edirlər ki, dövlətin işlərinə qarışmamaq prinsipi və onun daxili strukturunun qaydalarını müstəqil şəkildə müəyyən etmək bacarığı suverenliyin əsas əlamətləri olaraq qalırdı.

Tərəflərin xarici siyasət məqsədləri maksimalist xarakterini itirərək daha da realistləşdi. Nəinki dini əsaslarla dünya hökmranlığı iddiaları, hətta bir dövlətin Avropada üstünlük təşkil etməsi planları da daim yaxın vaxtlara qədər müxtəlif (protestant və katolik) düşərgələrdə olan dövlətlərin sürətlə artan müqaviməti ilə qarşılaşdı. Nəticədə, Avropada tamamilə kortəbii olaraq, kiminsə məqsəd qoyma fəaliyyətinin sarsıntı zəminində deyil, hadisələrin təbii nizamı əsasında qüvvələr balansı formalaşmağa başladı ki, bu da, sonradan qitədə bir sıra beynəlxalq münasibətlər sistemləri üçün əsas oldu. Bu adddımlar, adətən, hər hansı bir ölkənin başqalarına hökmranlıq etmək cəhdlərinə qarşı çıxmaqdan irəli gəlirdi.

Dövlətlərarası birliklər yeni şəraitdə daha çevik və şəraitə uyğun oldular. Dövlətlərdən birinin güclənməsinin bütün "Avropa balansını" təhdid etdiyi hallarda, koalisiya tərəfdaşının dəyişməsi ümumiyyətlə o qədər də nadir hal deyildi.

Vestfal sülhü ilə beynəlxalq münasibətlər sistemi nəhayət dövlət mərkəzli sistem kimi formalaşdı. Bu dövrdən etibarən suveren dövlət beynəlxalq münasibətlərin əsas subyektinə çevrildi. Dövlətlərin hər biri tam daxili suverenliyə malik olub, öz idarəetmə formasını, daxili təşkilatlanma prinsiplərini, dini konfessiyalarla münasibətləri və s.-ni müstəqil surətdə müəyyən edir və özü üzərində başqa heç bir ali hakimiyyəti tanımırdı. Tədricən dövlətlərin suveren bərabərliyi prinsipi beynəlxalq münasibətlər sistemində ümumi halda qəbul olundu, dövlətlərin bir-biri ilə münasibətlərdə davranışlarını, onların hər birində üstünlük təşkil edən idarəetmə formalarından və müəyyən inancların üstünlük təşkil etməsindən asılı olmayaraq tənzimlənirdi. Bu prinsip tədricən müasir beynəlxalq hüququn əsas elementinə çevrilmişdir.

Lakin, Otuz illik müharibəyə son qoyan 1648-ci il Vestfal sülhü Avropanın siyasi xəritəsində köklü dəyişikliklərə səbəb olmadı. Artıq XVII əsrdə dünya, Avropa dövlətləri tərəfindən əsasən müstəmləkələrə və təsir dairələrinə bölünmüşdü.

Müharibələrin və inqilabların təsiri altında, XVIII əsrin ikinci yarısından bəzi dövlətlərin tənəzzülü və digər ölkələrin güclənməsi nəticəsində, Vestfal sistemi öz sabitliyini itirdi. O, inqilabi və Napoleon Fransasının müharibələri ilə tamamilə məhv edildi. Bu hadisələr, sərhədlərin yenidən qurulmasına, Avropa tarazlığının pozulmasına və Fransanın Avropada dominant mövqeyini təmin edilməsinə səbəb oldu.

Beynəlxalq münasibətlərin Vestfal sistemi, bir sıra tədqiqatçıların fikrincə, Napoleon müharibələrinin sonuna (1815) qədər davam etmişdir. Aydındır ki, bu müddət ərzində o, kifayət qədər ciddi dəyişikliklərə məruz qalmışdı. Napoleon idarəedici üsulu hegemonizm idi, yəni, ilk növbədə Fransanın üstünlüyü idi. Digər dövlətlər (Böyük Britaniya, Müqəddəs Roma İmperiyası, Rusiya) Parisin hegemonluğa doğru gedən fəaliyyətini dayandırmaq üçün ardıcıl olaraq yeni-yeni koalisiyalar yaratdılar. Bu nizamın sistem tənzimləyicisi, Fransa üçün - öz hegemonluğunu qurmaq naminə və anti-Fransa koalisiyaları üçün – tarazlığı tənzimləmək üçün, məhdud ərazilərdə aparılan daimi müharibələr idi.

Bu münaqişənin bütün iştirakçılarından tələb olunan səylər və əziyyətlər burjua inkişafı dövrünü açan Amerika və Fransa inqilabları üçün münbit zəmin olan "köhnə nizam"ın dərinliklərində yetişməkdə olan böhran proseslərini gücləndirdi.

Vestfal müqaviləsində təsbit olunmuş prinsiplər müasir beynəlxalq münasibətlərin əsasını təşkil etdi. Vestfal sülhü imzalandıqdan sonra aparıcı rolu sülalə və digər əlaqələrlə bağlı olan monarxiyalar deyil, suveren dövlətlər oynamağa başladı. İndi dövlət marağı həlledici rol oynayır, tarixi və konfessional prinsiplər keçmişdə qalmışdır. Dini tolerantlıq prinsipi meydana çıxdı: protestantlara və katoliklərə bərabər hüquqlar verildi. Otuz illik müharibəyə səbəb olan bütün ziddiyyətlər aradan qaldırıldı. Əzəli alman azadlığı prinsipi də meydana çıxdı və Habsburqların nüfuzu düşdü. Alman parçalanması təsdiqləndi. Bu, bir tərəfdən alman hökmdarlarına azadlıq təmin edirdi, onlar böyük monarxlardan asılı olmaqdan çıxdılar. Lakin digər tərəfdən, Vestfal sülhü alman torpaqlarının birləşdirilməsi problemini həll etmədi alman məsələsi (italyan kimi) Vyana münasibətlər sisteminə keçdi.

Həm də, Otuz illik müharibə nəticəsində o dövrün dövlətləri arasında müəyyən bir tarazlıq, elə qüvvələr balansı yarandı ki, onların heç birinin digərləri üzərində həlledici üstünlüyü olmadı. Əgər hər hansı bir dövlət sülhü və əmin-amanlığı pozurdusa, dərhal koalisiya yaradılırdı. Onun məqsədi sülhü bərpa etmək və təcavüzkara qarşı çıxmaq idi.

Anti-Fransa koalisiyasının qələbəsi, Avropada və onun müstəmləkə periferiyasında qüvvələr tarazlığının bərpası və beynəlxalq səviyyədə tanınmış yeni sərhədlərin yaradılması üçün ən əhəmiyyətli ilkin şərt oldu. 1814-1815-ci illərdə keçirilən Vyana konqresi müharibədən sonrakı düzənin əsas vəzifələrini müəyyən etdi. Onun qərarları yeni Vyana beynəlxalq münasibətlər sisteminin əsasını təşkil etdi.

Beləliklə, beynəlxalq münasibətlərin zəngin, çox şaxəli, lakin məzmunca çox mürəkkəb olan mədəniyyəti, eləcə də çoxtərəfli, lakin mahiyyətcə çox ziddiyyətli olan beynəlxalq hüquq normaları tədricən formalaşmağa başladı. Beynəlxalq

münasibətlərin inkişafındakı bütün bu nailiyyətlər və problemlər yeni dövrdən müasirliyə miras kimi qalmışdır.

Belə ki, milli dövlətlərin yaranması prosesi, Vestfal dünya nizamının və ya bu gün də qüvvədə olan Vestfal beynəlxalq münasibətlər sistemini təşkil edən milli dövlətlər dünyasının formalaşmasının başlanğıcı oldu. Vestfal sisteminin çiçəklənmə dövrü XX əsr idi və bu, eyni zamanda onun tənəzzülünün başlanğıcı oldu. Buna baxmayaraq, Vestfal sistemi dünya nizamında müəyyən oyun qaydalarını müəyyən etdi, onlar, müəyyən düzəlişlər və dəyişikliklərə məruz qalsa da, beynəlxalq münasibətlər sistemində hələ də işləyir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

Əsas ədəbiyyat

* История международных отношений: В трех томах: Учебник / Под ред. А. В. Торкунова, М. М. Наринского. —Т. I: От Вестфальского мира до окончания Первой мировой войны / А. В. Ревякин, Н. Ю. Васильева/. — М.: Аспект Пресс, 2012. — 400 с.

* История дипломатии : [сб.] / сост. А. Лактионов. - М: АСТ- АСТ МОСКВА, 2006. – 943с,

* История дипломатии. под ред. Потёмкина. В трех томах. Том I, Издательство: Москва: ОГИЗ 1941., 567

* История дипломатии. под ред. В. А.Зорина, В.С.Семенова, С.Д.Сказкина, В.М.Хвостова. Т.I Издательство: Москва: Политеческая литература. 1959.896с

* Протопопов А.С., Козьменко В.М., Шпаковская М.А., Петрович- Белкин О. К. История международных отношений и внешней политики России (1648-2017):Учебник для студентов вузов / Под ред. А.С.Протопопова. - 4-е изд., испр. и доп. - М.: Издательство «Аспект Пресс», 2018. 448 с.

* Фененко А. В.История международных отношений: 1648–1945: Учеб. пособие / А. В. Фененко. — М.: Издательство «Аспект Пресс», 2018. — 784 с.

*Фененко А. В. История международных отношений в довестфальскую эпоху: Учеб. Пособие для вузов / А. В. Фененко. — М.: Издательство «Аспект Пресс», 2022. — 752 с.

Əlavə ədəbiyyat

Azərbaycan dilində

*Abbasbəyli A.N., Yusifzadə S.Z. Beynəlxalq münasibətlər tarixi (ən qə¬dim dövrlərdən XIX yüzilliyin 70-ci illərinin sonuna qədər). Dərslik, Ba¬kı, 2009, 324 səh.

*Abbasbəyli A. Nəcəfov E. Beynəlxalq münasibətlər nəzəriyyəsi. Bakı, 2007.

*Babayev H. Dünya siyasəti və beynəlxalq münasibətlər.B.,2010.568 s.

*Baxışov M.Ə. İsgəndərova S.E. Avropa və Amerika ölkələrinin yeni tarixi. I cild. Bakı.,2015.

*Baxışov M.Ə. Beynəlxalq münasibətlər tarixi. (XVII əsrin II yarısından 1871-ci ilədək). B., 2005.

*Eyyubov A. Diplomatiyanın əsasları. Dərs vəsaiti. B.,-2010.

*Mahmudov Y.M., Şükürov K.K. Azərbaycan: beynəlxalq münasibətlər və diplomatiya tarixi 1639-1828, B., 2009, 512s.

* Mahmudlu Y. Azərbaycan diplomatiyası. B., 1996

*Manfred A.Z. Napaleon Bonapart. B., 1993

*Həsənov M. Qurbanova Ş. Avropa və Amerika ölkələrinin yeni tarixi . Bakı,"ADPU". 2010. 413 səh.

*Səlimov Ş. D. Avropa və Amerika ölkələrinin yeni tarixi : dərslik, II hissə : 1800-1918-ci illər. - Bakı : Zərdabi LTD MMC, 2012.

*Protopopov A.S, Kozmenko V.M., Yelmarnova N.S.. Beynəlxalq münasibətlər və Rusiyanın xarici siyasət tarixi (1648-2005) Ali məktəb üçün dərslik (tərcümə), Bakı 2009.

*Orucov M. 1789-cu il Böyük Fransa burjua inqilabının tarixi. B.,1974.

*Ulaxoviç V.Y. "Müasir diplomatiyada protokol və etiket" B.,2008

Türk dilində

*Gürsel H.F. Tarih Boyunca Türk-Rus ilişkileri, İstanbul, 1968

*Morgenthau Hans. Uluslararası politika: guc ve barış mücadelesi. Çevirəni: Ünsal Oskay ve Baskın Oran. Ankara, 1970

*Sönmezoğlu Faruk. Uluslararası politika ve Dış politika analizi, İstanbul. 1995

*Rifat Uçarol Siyasi tarih. 1789- 1994. İstanbul, 1995.Türk dilində.

*Uluslararası İlişkiler Tarihi (Diplomasi tarihi). Çeviren –Attila Tokatlı .cilt 1.Ankara, 2009., cilt 2.Ankara,2009.

Rus dilində

*Акимов Ю. Г. От колониальных конфликтов к битве империй: англо-французское соперничество в Северной Америке в XVII — начале XVIII в. СПб., 2005.

*Александр I, Наполеон и Балканы / Отв. ред. В. Н. Виноградов. М., 1997.

*Анисимов М. Ю. Российская дипломатия в Европе в середине XVIII века: От Аахенского мира до Семилетней войны. М.: Товарищество научных изданий КМК, 2012.

*Анисимов М. Ю. Семилетняя война и российская дипломатия в 1756–1763 гг. М.: Товарищество научных изданий КМК, 2014.

*Ачкасов В. А., Ланцов С. А. Мировая политика и международные отношения. М. , 2011.

*Басовская Н. И. Столетняя война. 1337–1453 гг. М., 1985.

*Баталов Э. Я. Мировое развитие и мировой порядок. М.: РОССПЭН, 2005.

*Белокреницкий В. Я. Восток в мирополитических процессах. М., 2010..

*Безотосный В. М. Наполеоновские войны. М.: Вече, 2010.

*Борисов Ю. В. Дипломатия Людовика XIV. М., 1991.

*Болховитинов Н. Н. Россия и война США за независимость (1775–1783 гг.). М., 1976.

*Борисов Ю. В. Шарль Морис Талейран. М., 1989.

*Богатуров А. Д. Великие державы на Тихом океане. М.: Конверт-МОНФ, 1997 (Введение).

*Брагина Л. М. Итальянский гуманизм эпохи Возрождения: идеалы и практика культуры. М.: Изд-во МГУ, 2002.

*Брикнер А. Г. Иллюстрированная история Екатерины II: В 2 т. СПб.: Издание А. С. Суворина, 1885. (Репринт 1989 г.)

*Барг М. А. Великая английская революция в портретах ее деятелей. М., 1991.

*Великая Французская революция и Россия / Под. ред. А. В. Адо и В. Г. Сироткина.М., 1989.

* Владимир, Игоревич Батюк История международных отношений. Учебник для академического бакалавриата / - М.: Юрайт, 2016. - 359 с.

*Волосюк О. В. Испания и Европа в годы Великой французской революции: Учеб. пособие. М., 1994.

*Восточный вопрос во внешней политике России (конец XVIII — нача- ло XX в.). М., 1970.

*Возгрин В. Е. Россия и европейские страны в годы Северной войны: История дипломатических отношений в 1697–1710 гг. Л., 1988.

*Война за независимость и образование США / Г. Н. Севостьянов, Л. Н. Еремин, Г. П. Куропятник и др. / Под ред. Г. Н. Севостьянова; Акад. наук СССР, Ин-т всеобщ. истории. М.: Наука, 1976.

*Военная сила и международные отношения. - М.: Международные отношения, 2016. - 240 с.

*Государство, общество, международные отношения на мусульманском Востоке. - М.: Крафт, 2014. - 608 с.

*Гуревич А. Я. История Средних веков / А. Я. Гуревич, Д. Э. Харитонович. 2-е изд. М.: МБА, 2008

*Гуревич А. Я. Категории средневековой культуры. М.: Искусство, 1972.

*Дельбрюк Г. История военного искусства в рамках политической истории: В 4 т. СПб.: Наука, 2001.

*Дегоев В. В. Внешняя политика России и международные системы. 1700–1918 гг.: Учеб. пособие. М., 2004.

*Дегоев В. В. Дипломатия Петра I на заключительном этапе русско-турецкой войны 1686–1700 годов. Ч. I: Томительный пролог к Карловицкому конгрессу // Россия XXI. 2016. № 1. С. 54–85; Ч. III: Русско-турецкие конференции // Россия XXI. 2016. № 3. С. 78–103.

*Дегтерев Д. А. Теоретико-игровой анализ международных отношений: Учебник. М.: Аспект Пресс, 2017.

*Дипломатический словарь: В 3 т. М., 1986.

*Дмитриев Б. США — политики, генералы, дипломаты: Четверть века с «позиции силы». М., 1971.

*Елманова, Н.С. История международных отношений и внешней политики России (1648-2005). Гриф МО РФ / Н.С. Елманова. - М.: Аспект-пресс, 2016. - 228 с.

*Евдокимова А. А. История раннего нового времени. Эпоха реформации. Ростов н/Д.: Феникс, 2004.

*Европейская дипломатия и международные процессы эпохи наполеоновских войн / Н. Ю. Васильева, М. М. Наринский, Е. О. Обичкина, А. В. Ревякин. М.: Аспект Пресс, 2012.

*Ерофеев Н. А. Империя создавалась так... Английский колониализм в XVIII в. М., 1964.

*Жилин П. А. Гибель наполеоновской армии в России. М., 1968.

*Заборовский Л. В. Россия, Речь Посполитая и Швеция в середине XVII в.: Из истории международных отношений в Восточной и Юго-Восточной Европе. М., 1981.

*Иванова И. И. История международных отношений от античности до конца Первой мировой войны. Владивосток, 2001. Ч. I.

*Ивонин Ю. И. У истоков европейской дипломатии Нового времени.Минск, 1984.

*Из истории международных связей и отношений / ред. В.А. Данилов. - М.: Тюмень: ТГУ, 2017. - 162 с.

*Из истории общественных движений и международных отношений: моногр. . - М.: Академия наук СССР, 2016. - 736 с.

*Информационное общество и международные отношения. Учебник / Р.В. Болгов и др. - М.: Издательство СПбГУ, 2014. - 384 с.

*История международных отношений. Учебник и практикум. - М.: Юрайт, 2016. - 318 с.

*История дипломатии: В 5 т. 2-е изд. Т. I. М.: Госполитиздат, 1959.

*История Северной войны 1700–1721 гг. / Отв. ред. И. И. Ростунов. М.: Наука, 1987

*История внешней политики России (конец XV в. — 1917 г.): В 5 т. Т. 1: Конец XV– XVII в. (От свержения ордынского ига до Северной войны). М.: Международные отношения, 1999.

*Ивонина Л. И., Прокопьев А. Ю. Дипломатия Тридцатилетней войны: Учеб. пособие. Смоленск, 1996.

*История внешней политики и дипломатии США. 1775–1867 / Отв. ред. Н. Н. Болховитинов. М., 1994.

*История внешней политики России XVIII в. М., 1998.

*История дипломатии. М., 1978. Т. I–V.

*История Европы. М., 1993. Т. 2–4.

*История Европы: С древнейших времен до наших дней: В 8 т. Т. 4: Европа Нового времени (XVII–XVIII века). М., 1994.

*История Латинской Америки: 70-е годы XIX века. 1918 год. М., 1993.

*Исдейл Ч. Дж. Наполеоновские войны. Ростов-н/Д, 1997.

*История внешней политики России: Конец XV–XVII век. М., 1999.

*История Франции / Под ред. А. З. Манфреда. Т. 1. М.: Наука, 1972.

*Карлейль Т. Французская революция. История / Пер. с англ. М.: Мысль, 1991.

*Кириллов В. Б. История стран Восточной Европы. М., 1991.

*Клепацкий З. М. Западноевропейские международные организации. М., 1973.

*Коленкур А. де. Мемуары: Поход Наполеона в Россию. М., 2002.

*Краснов Н. А. США и Франция: Дипломатические отношения, 1775–1801 гг. М., 2000.

*Кудрявцева Е. П. Россия и Турция на рубеже XVIII–XIX вв.: От войн к союзным договорам // Новая и новейшая история. 1996. № 6.

*Ле Гофф Ж. Цивилизация средневекового Запада / Пер. с фр.; под общ. ред. Ю. Л. Бессмертного; послесл. А. Я. Гуревича. М.: Прогресс-Академия, 1992.

*Манфред А. З. Наполеон Бонапарт. М., 1989.

*Манфред А. З. Великая французская революция. М.: Наука, 1983. Манфред А. З. Образование русско-французского союза. М., 1975.

*Марчук Н. Н., Ларин Е. А., Мамонтов С. П. История и культура Латинской Америки (от доколумбовых цивилизаций до 1918 года): Учеб. пособие. М., 2005.

*Махов С. П., Созаев Э. Б. Схватка двух львов. Англо-голландские войны XVII века. М.: Вече, 2011.

*Медяков А. С. История международных отношений в Новое время. М.: Просвещение, 2007.

*Мелихов Г. В. Россия и Цинская империя на Дальнем Востоке (40–80-е годы XVII в.). М., 1989.

*Мэхэн А. Т. Влияние морской силы на историю, 1660–1783 / Пер. с англ. М.: АСТ; СПб.: Terra fantastica, 2002.

*Молчанов Н. Н. Дипломатия Петра Великого. М.: Международные отношения, 1991.

*Международные отношения Нового времени / Ред. И. Д. Перфенов.Саратов, 1982.

*Никольсон Г. Дипломатическое искусство. М., 1962.

*Мережко, Александр История международно-правовых учений / Александр Мережко. - М.: Таксон, 2015. - 492 с.

*Могилевский Н. А. От Немана до Сены: Заграничный поход русской армии 1813–1814 гг. М.: Кучково поле, 2012.

*Моисеев, А. В. Военная сила в международных отношениях / А.В. Моисеев. - М.: КноРус, 2013. - 496 с.

*Морган Л. Г. Лига ходеносауни, или ирокезов. М.: Наука, 1983.

*Нарочницкая Л. И. Россия и отмена нейтрализации Черного моря. 1856–1871 гг. М., 1989.

*Некрасов Г. А. Роль России в европейской и международной политике, 1725–1739. М., 1976.

*Некрасов Г. А. Роль России в европейской международной политике 1725–1739 гг. М.: Наука, 1976.

*Нелипович С. Г. Союз двуглавых орлов: русско-австрийский военный альянс второй четверти XVIII в. М.: Квадрига, 2010.

*От царства к империи. Россия в системах международных отношений. Вторая половина XVI — начало XX в. М.; СПб.: Институт российской истории РАН; Центр гуманитарных инициатив, 2015.

*Очерки истории международных отношений: Учеб. пособие / Колл. авт., под общ. ред. О. А. Колобова. М.; Нижний Новгород, 2001.

*Петрова М. А. Екатерина II и Иосиф II: Формирование российско-австрийского союза, 1780–1790. М., 2011.

*Поршнев Б. Ф. Франция, Английская революция и европейская политика в середи- не XVII в. М., 1970.

*Поршнев Б. Ф. Тридцатилетняя война и вступление в нее Швеции и Московского государства. М., 1976.

*Пономаренко Л. В. История международных отношений: Учеб. пособие для академического бакалавриата / Л. В. Пономаренко, О. С. Чикризова. М.: Юрайт, 2017.

*Проблемы истории международных отношений в Новое время / Под ред. Ю. Е. Ивонина. Смоленск, 2002.

*Ревякин А. В. История международных отношений в Новое время: Учеб. пособие. М., 2004.

*Россия и Франция. XVIII–XX века. М., 1995.

*Россия и Черноморские проливы (XVIII–XX столетия) / Отв. ред. А. В. Игнатьев, Л. Н. Нежинский. М., 1999.

*Россия и Черноморские проливы (XVIII–XX столетия) / Отв. ред. Л. Н. Нежинский, А. В. Игнатьев. М.: Международные отношения, 1999.

*Рогинский В. В. Швеция и Россия: Союз 1812 г. М., 1978.

*Русская и украинская дипломатия в Евразии: 50-е годы XVII века. М., 2000.

*Сахаров А. А. Александр I. М., 1998.

*Семченков Я. С. Тридцатилетняя война 1618–1648 гг. М.: Рейтар, 2009.

*Сен-Симон Л. де. Мемуары. 1691–1701 / Пер. с франц. М.: Ладомир; Наука, 2007.

*Сироткин В. Г. Дуэль двух дипломатий. Россия и Франция в 1801–1812 гг. М., 1966.

*Соколов О. В. Аустерлиц. Наполеон, Россия и Европа 1799–1805 гг. М., 2006. Т. 1–2.

*Серова О. В. Горчаков, Кавур и объединение Италии. М.: Наука, 1997. Сидоров А. Ю., Клейменова Н. Е. История международных отношений. 1918–1939 гг.: Учебник. 2-е изд. М.: Центрполиграф, 2008.

*Станиславская А. М. Русско-английские отношения и проблемы Средиземноморья (1798–1807 гг.). М., 1962.

*Стегний П. В. Разделы Польши и дипломатия Екатерины II: 1772, 1793, 1795. М.: Ме- ждународные отношения, 2002.

*Талейран. Мемуары. Екатеринбург, 1997.

*Тарле Е. В. Северная война и шведское нашествие на Россию // Сочинения: В 12 т.М., 1959. Т. XI.

*Тарле Е. В. Северная война. М.: АСТ, Астрель, 2011.

*Тарле Е. В. Континентальная блокада // Сочинения: В 12 т. М., 1958. Т. III.

*Тарле Е. В. Наполеон. М.: Пресса, 1992.

*Тарле Е. В. Крымская война: В 2 т. 2-е изд., испр. и доп. М., 1950.

*Тарле Е. В. Очерки истории колониальной политики западноевропей- ских государств (конец XV — начало XIX в.). М.; Л., 1965.

*Тарле Е. В. Талейран. М., 1992.

*Третьяк А. И. Северное Причерноморье в политико-правовом пространстве Европы конца XVIII века. Одесса: Optimum, 2004.

*Троицкий Н. А. 1812. Великий год России. М., 1988.

*Трофименко Г. А. США: политика, война, идеология. М.: Мысль, 1976.

*Удальцова З. В. История Европы с древнейших времен до наших дней: Коллект. монография. Т. 3: От Средневековья к Новому времени / З. В. Удальцова [и др.]. М.: Наука, 1993.

*Удальцова З. В. История Европы с древнейших времен до наших дней: Коллект. монография. Т. 4: Европа Нового времени (XVII–XVIII века) / З. В. Удальцова [и др.]. М.: Наука, 1994.

*Удальцова З. В. История Европы с древнейших времен до наших дней: Коллект. монография. Т. 5: От Французской революции конца XVIII века до Первой мировой войны / З. В. Удальцова [и др.]. М.: Наука, 2000.

*Флоря Б. Н. Русско-польские отношения и балтийский вопрос в конце XVI — на- чале XVII в. М., 1973.

*Флоря Б. Н. Русско-польские отношения и политическое развитие Восточной Европы во второй половине XVI — начале XVII в. М., 1978.

*Хорошкевич А. Л. Русское государство в системе международных отношений конца XV — начала XVI в. М., 1980.

* Худолей К.К. История международных отношений. Учебник и практикум для академического бакалавриата / - М.: Юрайт, 2016. - 394 с.

*Чандлер Д. Военные кампании Наполеона. М.: Центрополиграф, 1999.

*Черевко К. Е. Россия на рубежах Японии, Китая и США (2-я половина XVII — на- чало XXI века). М., 2010.

*Черкасов П. П. Двуглавый орел и королевские лилии. М., 1995.

*Черкасов П. П. Елизавета Петровна и Людовик XV. Русско-французские отноше- ния 1741–1762. М., 2010.

*Черкасов П. П. Лафайет. Политическая биография. М.: Мысль, 1990.

*Шарль Морис. Талейран. М., 1989.

*Шатохина-Мордвинцева Г. А. Внешняя политика Нидерландов. 1713–1763: Станов- ление голландского нейтралитета. М., 1998.

*Шедивы Я. Меттерних против Наполеона / Пер. с чешек. М., 1991

*Шлезингер А. Циклы американской истории. М.: Прогресс, Прогресс-Академия, 1992.

*Яковлев Н. Н. Европа накануне Семилетней войны. М., 1997.

*Яровой В. В. Происхождение англо-американской войны 1812–1815 годов. Иркутск, 1987.

*Энциклопедия российско-американских отношений. XVIII–XX века. М., 2001.

İngilis dilində

*Backman C. R. The Worlds of Medieval Europe. Oxford, UK: Oxford University Press, 2003.

*Baldwin R. The European Monetary System / R. Baldwin, Ch.Wyplosz // The Economics of European Integration. L.; N.Y.; Madrid; Milan: McGraw- Hill, 2004. P. 313–326.

*Black J. European Warfare in a Global Context, 1660–1815. L., 2007.

*Doyle W. The Oxford History of the French Revolution. Oxford: Oxford University Press, 2002.

*Evans R. J. The Third Reich in Power. N.Y.: Penguin, 2005.

*Kagan F. W.The End of the Old Order: Napoleon and Europe, 1801–1805. Da Capo, 2006.

*The Oxford history of the British Empire: Vol. III The nineteenth century / Ed by Porter A. Oxford; Oxford University Press, 1999.

*Geoffrey E. Reformation Europe: 1517–1559. L.: Fontana, 1963.

*Hatton R. M. Louis XIV and His World. N.Y.: Putnam, 1972.

*Hazard P. European Thought in the 18th Century: From Montesquieu to Lessing. Yale University Press, 1954.

*Lefebvre G. The French Revolution: From its Origins to 1793. T. 1–2. N.Y.: Columbia University Press, 1962–1963.

*Soboul A. The French Revolution: 1787–1799. N.Y.: Random House, 1974.

*Roosen U. Y. The Age of Louis XIV: The Rise of Modern Diplomacy. Cambridge (Mass.): Schenkman Pub. Co, 1976.

*Lieven D. Russia Against Napoleon The True Story of the Campaigns of War and Peace. N.Y.: Viking, 2010.

*Ferguson N. Empire: The Rise and Demise of the British World Order and the Lessons for Global Power. N.Y.: Basic Books, 2003.

ÇİNGİZ MƏMMƏDOV

BEYNƏLXALQ MÜNASİBƏTLƏR TARİXİ

BEŞ CİLDDƏ

I cild

VESTFAL SİSTEMİ
1648 – 1815-ci illər

MÜHAZİRƏLƏR KURSU

Dizayner

Fərid Yaşar oğlu Hüseynli

Nəşriyyatın Baş direktoru:

Səməd Eyvazov

Texniki redaktor:

Mail Xəlilov

Kağız formatı:70x100 1 /16

Tiraj: 100 ədəd

Həcmi: 25.5 çap vərəqi

“OPTİMİST” MMC-də hazır diopozitivlərdən çap olunub